**BULUDXAN XƏLİLOV,**
*filologiya üzrə elmlər doktoru, professor*

# MÜASİR AZƏRBAYCAN DİLİNİN LEKSİKOLOGİYASI

- ***leksikologiya***
- ***semasiologiya***
- ***etimologiya***
- ***onomalogiya***
- ***frazeologiya***
- ***leksikoqrafiya***
- ***sözyaradıcılığı***

**İKİNCİ NƏŞR**

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «Azərbaycan dili və ədəbiyyatı» bölməsinin 17.04.2008-ci il tarixli 15 saylı iclasının qərarına əsasən dərslik kimi təsdiq olunmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri: əmr № 507, 29.04.2008-ci il*

**Bakı – 2015**

Elmi redaktoru: **A.Ə.Bayramov,**
*filologiya üzrə elmlər doktoru, professor*

Rəyçilər: **H.İ.Mirzəyev,**
*Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor*

**H.B.Balıyev,**
*Əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru, professor*

**İ.O.Məmmədli,**
*filologiya üzrə elmlər doktoru, professor*

Buludxan Xəlilov. **Müasir Azərbaycan dilinin leksikologiyası.** Bakı, «Zərdabi LTD» nəşriyyatı, 2015, 444 səh.

Dərslikdə müasir Azərbaycan dilinin leksikologiya, semasiologiya, etimologiya, onomalogiya, frazeologiya, leksikoqrafiya, sözyaradıcılığı şöbələri və onların öyrəndiyi məsələlər öz əksini tapır. Dərslikdən ali məktəblərin tələbələri, müəllimləri, magistrləri, elmi işçiləri, orta məktəb müəllimləri faydalana bilərlər.

Dərslik barəsində qeyd və təkliflərini çatdıracaq oxuculara müəllif qabaqcadan öz minnətdarlığını bildirir.

**İSBN 978-9952-825-62-6**

*© B.Xəlilov, 2008*
*© B.Xəlilov, 2015*

# Leksikologiya

# LEKSİKOLOGİYAYA GİRİŞ

**Leksika haqqında məlumat**. Dilin lüğət tərkibindəki sözlərin məcmusu leksika adlanır. Leksika sözü yunan mənşəli «lexikos» sözündən olub, sözlər mənasını bildirir. Dilimizin leksikasını öyrənən dilçilik bölməsi isə leksikologiya adlanır. *Leksika* «söz», *loqos* isə «elm» deməkdir. Deməli, leksikologiya şöbəsi dilimizin lüğət tərkibindəki sözləri öyrənən dilçilik şöbəsidir. Sözləri təkcə leksikologiya bölməsi deyil, dilçiliyin digər bölmələri – semasiologiya, leksikoqrafiya, onomastika, sözyaradıcılığı, etimologiya, morfologiya və sintaksis bölmələri də tədqiq edir. Leksikologiya bu bölmələrdən fərqli olaraq sözü aşağıdakı cəhətlərinə görə öyrənir:

1. Sözün dilin lüğət tərkibindəki *rolu, mövqeyi;*
2. Sözlərin *mənşə qruplarına görə növləri;*
3. Sözlərin *işlənmə dairəsinə görə növləri;*
4. Sözlərin *məna qruplarına görə növləri;*
5. Sözlərin dilin lüğət tərkibindəki *aktiv* və *passiv roluna görə qrupları* və s.

Sözə həmişə yüksək qiymət verilib, onun məzmunu və əhəmiyyəti barəsində geniş bəhs olunubdur. Xalq şeirinin birində yaxşı deyilir:

*Söz dedin aldı məni,*
*Kəməndə saldı məni,*

*Dilin şahmar ilan tək,*
*Nə dedim çaldı məni.*

Söz haqqında çoxlu kəlam deyilib və bunların hər biri xalq kəlamı kimi dildə sabitləşibdir:

- Söz bir olsa, zərbi kərən sındırar.
- Söz var sağaldar, söz var xəstə salar.
- Söz quşdur, buraxsan tuta bilməzsən.
- Sözü sən at, yiyəsi götürər.
- Doğru söz acı olar, nəticəsi şirin.
- Elin sözü daşı yeridər.
- Düz söz dəmir qapıları açar.
- Pis söz qəlp puldur, yiyəsinə qayıdar.
- Haqq söz axar, suları saxlar.
- Hərzə sözün mərəzi olar.
- Danışıq dananı qurda verər.
- Bu gün sən deyərsən, sabah sənə deyərlər.
- Doğru danışanın papağı yırtıq olar və s.

Sözü klassiklərimiz də yüksək qiymətləndirərək onun müxtəlif keyfiyyətlərini, məzmun və mahiyyətini açmağa çalışmışlar. Məsələn:

*Sözün də su kimi lətafəti var,*
*Hər sözü az demək daha xoş olar. (N.Gəncəvi)*

*Söz vardır kəsdirər başı,*
*Söz vardır kəsər savaşı.*
*Söz vardır ağulu aşı,*
*Bal ilən edər yağ bir söz. (Xətai)*

*Xəlqə ağzın sirrini hər dəm qılır izhar söz.*
*Bu nə sirdir kim olur hər ləhzə yoxdan var söz.*
*(M.Füzuli)* və s.

Söz haqqında deyilənləri, yazılmış şeirləri sadalamaqla qurtarmaz. Dünya durduqca söz barəsində nə qədər yazılsa da, nə qədər deyilsə də, bunların hamısı son olaraq qalmayacaqdır. Hər dəfə deyilənlər, yazılanlar sözün möcüzəsini, hikmətini, qeyri-adiliyini, bir sözlə, məzmun və mahiyyətini açmağa çalışacaqdır. Sözün yaratdığı ümidin, inamın, möcüzənin sirlərini açmaq çətin və əlçatmazdır. Ona görə də hər zamanın, hər dövrün öz sözü var. B.Vahabzadənin sözləri ilə desək:

*Söz həmişə ədalətin düşmənilə vuruşacaq!*
*Söz yerlərdə sürünməmiş, dodaqlarda çiçək açmış…*
*Söz nəbzidir, haqq səsidir zəmanənin.*
*Aynasıdır zəmanənin.*

Minillər boyu zamanın, dövrün sözü deyilib və bundan sonra da deyiləcəkdir. Söz zamanla həmahəng doğulur, yaşayır və tarixə çevrilir.

Leksikologiya şöbəsi dar və geniş mənada başa düşülür. Leksikologiyanın dar mənası dedikdə onun obyekti olan sözə aid yuxarıda sadalanan xüsusiyyətlər nəzərdə tutulur. Yəni burada söz yuxarıda qeyd olunan cəhətlərinə görə öyrənilir. Leksikologiyanın geniş mənası isə aşağıdakı dilçilik bölmələrini əhatə edir:

1. Semasiologiya
2. Etimologiya
3. Onomalogiya
4. Frazeologiya
5. Leksikoqrafiya (lüğətşünaslıq)
6. Derivatologiya (sözyaradıcılığı)

Göründüyü kimi, leksikologiya geniş mənada dilçiliyin qeyd olunan bölmələrini də öz ətrafında birləşdirir.

**Leksikologiyanın növləri**. Leksikologiyanın üç növü var:

a) təsviri leksikologiya

b) müqayisəli leksikologiya

c) tarixi leksikologiya.

*Təsviri leksikologiya* təsvir yolu ilə dilin lüğət tərkibindəki sözləri tədqiq edib, öyrənir. Məsələn: Müasir Azərbaycan ədəbi dilinin leksikologiyası təsviri leksikologiyadır.

*Müqayisəli leksikologiya* dilin lüğət tərkibindəki sözləri müqayisə yolu ilə öyrənir. Müqayisə iki şəkildə aparılır:

a) qohum olan dillərin lüğət tərkibi ilə müqayisə;

b) qohum olmayan dillərin lüğət tərkibi ilə müqayisə.

Məsələn: Azərbaycanda şəcərə ənənəsinə görə hər bir kəs yeddi arxa nəslini tanımalıdır. Nəsil şəcərəsi isə belə adlanır: *baba, ata, nəvə, nəticə, kötücə, südücə, yadıca;* yaxud, *nəvə, nəticə, kötücə, ötücə, nədirə, nədidə, küçəbəküçə;* yaxud, *nəvə, nəticə, kötücə, pötücə, ötücə, iticə*. Bu nəsil şəcərəsinin başqa xalqlarda mövcudluğunu və necə adlanmasını müqayisəli leksikologiyanın köməyi ilə (qohum və qohum olmayan dillərdə) öyrənmək mümkündür.

*Tarixi leksikologiya* dilimizdəki sözləri tarixilik, inkişaf və formalaşma, ayrı-ayrı tarixi dövrlərdəki məna xüsusiyyəti baxımından öyrənir. Məsələn: *darğa, dingə* (qadının baş geyimi), *köy* (kənd deməkdir), *tamğa//damğa* (möhür mənasında), *yoğurt* (qatıq, ağartı mənalarında) və s. sözlər tarixi leksikologiyanın köməyilə müəyyən olunur ki, onlar arxaikləşmiş sözlərdir.

Leksikologiyada öyrənilən sözlər yuxarıda qeyd etdiyimiz kimi dilin lüğət tərkibidir. Azərbaycan dilinin lüğət tərkibi leksik və frazeoloji tərkibdən ibarətdir.

Leksik mənası olan sözlərə *leksem,* frazeoloji vahidlərə isə *frazem* deyilir. Leksem və frazem *lüğəvi vahid* adlanır. Məhz Azərbaycan dilinin lüğət tərkibi yuxarıda qeyd olunan lüğəvi vahidlərdən ibarətdir.

**Söz.** Sözsüz dil qurudur və donuqdur. Ona görə də sözün rolu dildə böyükdür. Bu mənada sözsüz dili təsəvvür etmək mümkün deyildir. Sözün rolu və vəzifəsi isə ad bildirməkdir. Söz əşyanın, hərəkətin, əlamətin, keyfiyyətin, miqdarın, yerin və s.-nin adıdır. Məhz sözün ad bildirməsi onun *nominativ,* fikrin ifadə olunmasında xidməti isə *kommunikativ* funksiyasıdır. Deməli, söz ad bildirməklə yanaşı, nominativ və kommunikativ funksiyaya da malikdir. Sözə aşağıdakı tərifləri vermək olar:

**1.** *Söz hər bir dilin öz daxili qayda-qanunları əsasında yaranıb, müəyyən səs, yaxud səs kompleksinə və mənaya malik olan dil vahididir.* Bu tərifdə aşağıdakı üç xüsusiyyət özünü göstərir:

*a)* sözün hər bir dilin öz daxili qayda və qanunları əsasında yaranması;

*b)* sözün müəyyən səs, yaxud səs kompleksinə malik olması;

*c)* sözün müstəqil mənaya malik olması.

**2.** *Söz əvvəlcədən dildə hazır şəkildə mövcud olub, nitqdə sərbəst və bütöv şəkildə təkrarlanan, leksik və qrammatik*

*mənaya malik olan müstəqil dil vahididir.* Bu tərifdə də aşağıdakı üç cəhət özünü göstərir:

a) sözün dildə hazır şəkildə mövcud olması;

b) nitq prosesində sərbəst və bütöv şəkildə təkrarlanması;

c) leksik və qrammatik mənaya malik olması.

Dilin lüğət tərkibindəki sözlərin hər birinin yaranma tarixi ilə yanaşı, mənası vardır. Mənasız söz yoxdur. Ancaq söz bəzən təsadüfi olaraq nəyisə adlandırır. Məsələn: *kenquri* sözü belə yaranmışdır: Avstraliya sahilinə gələn avropalılar qəribə bir heyvanı görüb, sonra isə yerli camaatdan onun adını soruşurlar. Yerli camaat isə avropalılara «kenquri» sözünü deyir. Beləliklə, avropalıların yerli camaatdan adını soruşduğu həmin heyvan *kenquri* adlanır. Sonralar aydın olur ki, yerli camaat qəribə heyvanın adını soruşan avropalılara yerli dildə *kenquri* (yəni «başa düşmürəm») demişlər. Bununla da *kenquri* sözü qəribə bir heyvanın adı kimi qalmışdır. Başqa bir söz – *Kanada* sözü hinduların dilində işlənən söz olmaqla yer adına çevrilmişdir. Belə ki, avropalılar hinduların yaşadığı ərazinin adını onlardan soruşurlar. Hindular isə elə bilirlər ki, avropalılar onlardan ev soruşurlar. Odur ki, hindular yerli dildə «kanada» deyirlər. Yerli hinduların dilində isə «*kanada*» sözü «*koma*» deməkdir. Yaxud, *neylon* sözü sintetik lifə təsadüfi olaraq verilmiş addır. Belə ki, ingilis firmalarında istehsal olunan sintetik lifə ad vermək üçün müsabiqə elan olunmuşdur. Bu müsabiqəyə çoxlu söz (təqribən 300-dən çox) təqdim edilmişdir. Müsabiqədə *neylon* sözü yeni istehsal olunmuş sintetik lifə ad kimi qoyulmuşdur.

Deməli, hər bir xalqın dilinin lüğət tərkibi onun həyatından, məişətindən və s.-dən çox asılıdır.

**Sözün zahiri və daxili cəhəti.** Dildəki hər bir sözün həm mənası, həm də forması vardır. Sözlər bir-birindən mənasına və formasına görə fərqlənir. Məna və formanı bir-birindən fərqləndirmək və ayırmaq lazımdır. Sözün mənası onun daxili cəhəti, forması isə fonetik qabığı, zahiri cəhəti kimi başa düşülür. Bu mənada sözün forması ilə mənası arasındakı fərqlərə diqqət yetirək.

1. Sözün forması onun xarici aləmi – fonetik tərkibidir. Mənası isə daxili aləmidir. Sözün mənası hər hansı bir anlayışı ifadə etməsidir.

2. Sözün forması onun xarici cəhəti kimi səslə bağlı olub, fonetik qabıqla əlaqədardır. Mənası isə məfhumla (anlayışla) bağlıdır.

3. Sözün forması onun təbiəti ilə əlaqəlidir. Yəni fonetik tərkibi – səs kompleksi ilə bağlıdır. Bu mənada sözün fonetik tərkibi – səs kompleksi ilə mənası arasında fərq vardır. Əgər sözün fonetik tərkibi ilə mənası arasında fərq olmasaydı, onda müxtəlif sözlər və müxtəlif dillər mövcud olmazdı, yalnız dünyada bir dil olardı. Ona görə də məfhumlar (anlayışlar) dünyanın bütün xalqları üçün eyni olduğu halda, onların fonetik tərkibi – səs kompleksi bir-birindən fərqlidir. Məsələn: *1* rəqəmi dünyanın bütün xalqlarında eyni kəmiyyəti bildirir, ancaq azərbaycanca *bir*, rusca *odin*, ingiliscə *one* sözləri ilə, yaxud, *qulaq* məfhumu azərbaycanca *qulaq*, rusca *uxo*, ingiliscə *ear* sözləri ilə ifadə olunur.

4. Sözün zahiri cəhəti onun səslənməsidir. Daxili cəhəti isə mənasıdır, nominativ funksiyasıdır.

Bütün bunlarla yanaşı, sözdə iki cəhət – daxili və zahiri cəhət bir kompleks təşkil edir. Onlar bir-birini tamamlayır. Sözün zahiri cəhəti – fonetik qabığı, səs kompleksi olmasa,

onun daxili cəhətindən – mənasından danışmaq olmaz. Zahiri cəhət daxili cəhətdən, daxili cəhət isə zahiri cəhətdən asılı olmalıdır. Necə ki, söz mənadan məna sözdən asılıdır:

*Söz mənadan asılıdır, məna sözdən hər zaman,*
*Bir-birindən asılıdır, necə ki, cism ilə can.*
*(M.Füzuli)*

Söz zahiri və daxili cəhətin birliyi kimi dildə mövcud olur. Zahiri cəhətdə *fonetik cəhətdən formalaşma, bir vurğulu olma, ahəngə tabelilik* əsas götürülür. Daxili cəhətdə isə *semantik valentlik* (məs.: *simic-xəsis-bərk* və s.), *məna, müstəqillik, sabitlik, anlaşıqlıq* ən ümdə əlamət sayılır.

Beləliklə, dilimizdəki sözlərin zahiri və daxili cəhətini nəzərə alaraq onlar üçün xarakterik olan aşağıdakı əlamətləri sadalamaq olar: *fonetik cəhətdən formalaşma, bir vurğulu olma, ahəngə tabelilik, semantik valentlik, məna (leksik və qrammatik məna), müstəqillik, sabitlik, anlaşıqlıq, bütövlük* (forma və məna bütövlüyü). Qeyd olunan bu əlamətlər sözün əlamətləri kimi onu səciyyələndirir və şərtləndirir.

*Sözün leksik və qrammatik mənası.* Sözün leksik və qrammatik mənaları ilə bağlı aşağıdakıları söyləmək olar.

1. leksik (lüğəvi) məna sözün fərdi mənasıdır. Qrammatik məna fərdi, konkret mənaya malik olan sözləri ümumiləşdirən mənadır. Məsələn: *kitab, dəftər, qələm* sözlərinin hər birinin təklikdə ifadə etdiyi mənanı leksik məna kimi baş düşmək lazımdır. Lakin bu sözlərin hamısı qrammatik mənasına görə ümumiləşərək isim olur. Sözün leksik mənası konkret və fərdi olmaqla yanaşı, həm də ümumidir. Məsələn: *alma, armud* və s. sözlər həm konkret, fərdi mənaları bildirir, həm də

eynicinsli varlıqların (alma, armud…) adını bildirməklə ümumi olur.

2. leksik məna sözün ilkin, başlanğıc mənasıdır. Qrammatik məna isə sonradan yaranır. Bu məna leksik mənaya əlavə olunur, onu izləyir. Konkret desək, leksik məna söz yaranan kimi meydana çıxır. Leksik mənaya malik olan söz sonradan qrammatik mənaya yiyələnir.

3. Sözün leksik mənası hamı tərəfindən başa düşülür. Lakin qrammatik məna bir qrup adamın başa düşdüyü mənadır. Yəni leksik məna hamıya eyni dərəcədə xidmət edir. Belə ki, leksik məna sənətindən, peşəsindən, vəzifəsindən və mövqeyindən asılı olmayaraq hər bir şəxsin dərk etdiyi, anladığı məna olduğu halda, qrammatik məna mütəxəssislərin, dilçilərin, filoloqların başa düşdüyü mənadır.

4. Sözün leksik mənasında ad, əşya, əlamət, keyfiyyət, miqdar, yer, hərəkət və s. bildirmə xüsusiyyəti vardır. Bu xüsusiyyətə leksik mənanın nominativliyi də demək olar. Məsələn: *kitab, lövhə, şirin, qırmızı, beş, üç, aşağı, yuxarı, getmək, gəlmək* və s. Qrammatik mənaya belə bir xüsusiyyət aid deyildir. Buradan da belə bir nəticəyə gəlmək olur ki, leksik məna müstəqil mənadır, qrammatik məna isə ondan asılıdır. Çünki söz lüğəvi vahid olduqdan sonra qrammatik mənaya yiyələnir.

5. Leksik məna müstəqil mənalı sözlərə, qrammatik məna isə həm müstəqil sözlərə, həm də köməkçi sözlərə aiddir. Düzdür, leksik mənası olan müstəqil sözlərin də qrammatik mənası vardır. Amma qrammatik mənası olan köməkçi sözlərin leksik mənası yoxdur. Məsələn: *ata, ana, qardaş, əmi* və s. sözlər leksik və qrammatik mənaya, *üçün, ötrü, görə*, *və, ki* və s. köməkçi sözlər yalnız qrammatik mənaya malikdir.

Beləliklə, əsas nitq hissələrinin həm leksik, həm də qrammatik mənası vardır. Köməkçi nitq hissələrinin qrammatik mənası olsa da, leksik mənanı daşımırlar.

6. Leksik mənaya malik sözlər müstəqil işlənməklə suala cavab verir və cümlə üzvü olur. Ancaq qrammatik mənalı sözlər isə müstəqil işlənmir, sualı yoxdur, cümlə üzvü olmur.

7. Leksik məna sözün kökü, əsası ilə, qrammatik məna isə qrammatik vasitələrlə ifadə olunur. Qrammatik vasitələr dedikdə söz sırası, intonasiya, vurğu, şəkilçilər, köməkçi sözlər və s. başa düşülür.

8. Qrammatik məna ümumiləşdirmə, mücərrədləşdirmə xüsusiyyətinə görə də leksik mənadan fərqlənir. Belə ki, əşya bildirən sözlər *isim,* əlamət, keyfiyyət bildirənlər *sifət,* hərəkət bildirənlər *feil* qrammatik kateqoriyasında ümumiləşdirilir, eyni zamanda mücərrədləşdirilir. Burada ümumiləşdirmə və mücərrədləşdirmə anlayışlarının izahı vacibdir. Fərdi, müstəqil mənaya malik sözlər qruplara, siniflərə malik olurlar. Hərəkət, əşya, əlamət, miqdar və s. adlı qruplarda toplanırlar. Bu cür proses ümumiləşdirmə adlanır. Qruplardakı, siniflərdəki ümumiləşmiş sözlərin sayı çoxaldıqca onların qrammatik mənası mücərrədləşir. Konkret bir qrupda, sinifdə olan yüzlərlə, minlərlə sözlərin qrammatik mənasını mənimsəmək çətin olur. Bu cür vəziyyət qrammatik mənanı mücərrədləşdirir.

Leksik və qrammatik məna arasında yaxın əlaqələr də vardır. Həmin əlaqələri aşağıdakı kimi xarakterizə etmək mümkündür.

Birincisi, sözün leksik mənası dəyişəndə onun qrammatik mənası da dəyişir. Məsələn: *ağıl-sız, vur-uş, şirin-lik, beş-lik* və s.

Əgər söz eyni bir nitq hissəsinə aid qrammatik kateqoriyaların morfoloji göstəricilərini qəbul edirsə, onda onun leksik mənası dəyişmir. Məsələn: *dəmir, dəmir-in* (hal kateqoriyası), *dəmir-lər* (kəmiyyət kateqoriyası), *maşının dəmir-i* (mənsubiyyət kateqoriyası) və s.

İkincisi, sözün leksik mənası kök, əsas formasında ifadə olunduqda heç bir qrammatik vasitə olmadan qrammatik məna da yaranır. Məsələn: *yel, dil, əl* və s. sözlər kök formasında olmaqla həm leksik, həm də qrammatik mənanı daşıyır.

**Saf və hibrid sözlər**. Azərbaycan dilindəki sözlər *saf* və *hibrid* olmaqla iki yerə ayrılır: saf sözlər əsl Azərbaycan sözləridir. Məsələn: *ata, ana, gəl, get, oxu* və s. *Hibrid sözlər* isə iki yerə ayrılır:

1. Tərəflərindən birincisi öz sözümüz, ikincisi isə alınma olanlar. Məs.: *toyxana, yeməkxana, sözbaz* və s.

2. Hər iki tərəfi alınma sözdən (mənşəcə əcnəbi dillərə məxsus sözdən) ibarət *hibrid sözlər.* Məs.: *davakar, həmfikir* və s.

**Qeyd:** Azərbaycan dilinin lüğət tərkibi zəngindir. Burada sözlər dilin leksik-semantik sistemi, işlənmə dairəsi, mənşəyi və s. baxımdan fərqlənirlər. Bunların hamısından irəlidə bəhs olunacaqdır.

## AZƏRBAYCAN DİLİNİN LÜĞƏT TƏRKİBİ

**Dilin lüğət tərkibi haqqında məlumat.** Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibini dəqiq müəyyənləşdirmək üçün xalqın tarixini, keçdiyi inkişaf yollarını dürüst ayırd etmək lazımdır. Ona görə ki, lüğət tərkibi uzun bir tarixi inkişaf prosesi keçirir, siyasi, iqtisadi, sosial, mədəni və s. proseslərdən asılı olaraq dəyişir və təkmilləşir. Bu mənada XII, XIII, XIV, XV və s. əsrlərin lüğət tərkibi ilə müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibini eyniləşdirmək olmaz.

Azərbaycan dilinin lüğət tərkibi həyatla, məişətlə bağlı olaraq yaranmış və formalaşmışdır. Dil yaranandan onun lüğət tərkibi yaranmış, inkişaf etmiş və formalaşmışdır. Bu mənada lüğət tərkibi sabit qalmamış, dəyişmiş və yeniləşmişdir.

Xalqların, millətlərin həyat və məişətindən asılı olaraq onların dillərinin lüğət tərkibi yaranır və formalaşır. Məsələn: Eskimosların yaşadığı ərazilərdə ilin əksər fəsilləri qarla örtüldüyü üçün onlarda qarın 40-a qədər, yaxud ərəblərdə dəvənin 200-ə qədər adı var. Bu da eskimosların məişətində qarın, ərəblərin məişətində isə dəvənin böyük rol oynaması və onların növlərinin çox olması ilə bağlıdır.

Azərbaycanda üzümün onlarla növü var: *ağ şanı, qara şanı, sarı giləsi, ağadayı, xatını, göy, göybəndəm, keçiəmcəyi, gəlin barmağı, qızıl üzüm, xəzri, kişmişi, Salyani, Dərbəndi, Saray, sarıgiləsi, xırdagilə, kələ kişmiş* və s. Yaxud, qutabın bir neçə

növü var: *ət qutabı, iç qutabı, ot (göy) qutabı, kudu qutabı, balqabaq qutabı* və s.

Azərbaycanlıların ən qədim məşğuliyyət sahələrindən biri maldarlıq olmuşdur. Bu sahə əsasən mis və tunc dövrlərində daha da inkişaf etmişdir. Maldarlığın qoyunçuluq, dəvəçilik, atçılıq və s. sahələri həmişə öncül yer tutmuşdur. Məsələn: qoyun növləri: *Qala qoyunu, Qarabağ qoyunu, Şirvan qoyunu, herik (bürc) qoyunu, bozax qoyunu, mazıx qoyunu, balbas qoyunu, caro qoyunu* (onların yaş adları da bir-birindən fərqləndirilmişdir: əmlik, quzu, toğlu, şişək, erkək, qoç, qoyun və s.), at növləri: *Qarabağ atı, Qazaxın dilboz* və *haçadil* atları, *Quba, Şirvan atları* və s. Bütün bunlar Azərbaycan xalqının məişəti, məşğuliyyəti barəsində geniş məlumatlar verir. Eyni zamanda məişətin, məşğuliyyətin və digər sahələrin özündə olan zənginlik dilin lüğət tərkibinin inkişafında da mühüm rol oynayır. Yəni xalqın məişətinin, adət-ənənəsinin, mədəniyyətinin, həyat tərzinin və digər sahələrinin zənginliyi dilin lüğət tərkibinin zənginliyinə də sirayət edir.

Dildəki anlayışları ifadə edən sözlər, onların omonim, sinonim və antonimləri nə qədər çox olarsa, dilin lüğət tərkibi bir o qədər zəngin olar. Məsələn: Azərbaycan dilində müraciət bildirən sözlərin çoxluğu dilin zənginliyi ilə bağlıdır: *şeyx, ağa, əfəndi, bəy, bəradər, xanım, bəyim, cənab, əxi, mirzə, müəllim;* məhəlli səciyyəli müraciət bildirən sözlər: *əmi oğlu* (əmoğlu), *dayı oğlu* (dayoğlu), *bibi oğlu* (biboğlu), *xala oğlu* (xaloğlu) və s.

Bunlar onu göstərir ki, bütün xalqlarda olduğu kimi, bizdə də dilimizin lüğət tərkibi həyatımıza, məişətimizə, tariximizə, milli-mənəvi dəyərlərimizə və s. -yə görə formalaşır.

Azərbaycan dilinin lüğət tərkibinin tarixi çox qədimdir. Bunu Azərbaycan dili ilə şumer, xett, akkad, urartu dilləri arasında mövcud olan paralellər də təsdiq edir.

| *Şumer dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| ada (ata mənasında) | ata |
| ama (ana mənasında) | ana |
| tu (doğmaq mənasında) | doğ(maq) |
| me (mən mənasında) | mən |
| qaş (quş mənasında) | quş |
| deş (nöqtə mənasında) | deşik |
| uzuk (uzun, uca mənasında) | uzun |
| ud (günəş, gün mənasında) | od |
| udun (ocaq mənasında) | odun |
| az (az mənasında) | az |
| dinqir (tanrı mənasında) | tanrı və s. |

| *Xett dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| te | de |
| atta | ata |
| anna | ana |
| karu | qarı (qarımaq) və s. |

| *Akkad dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| tinur (ocaq) | təndir |
| kursu (stol mənasında) | kürsü |
| tu | tovlamaq |
| diku (dik, qalxmaq mənasında) | dik (dikəlmək) və s. |

| *Urartu dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| ate | ata |
| ebani (ölkə mənasında) | ev |
| ti (demək mənasında) | de (mək) |
| sue (göl mənasında) | su və s. |

Qədim dillərlə Azərbaycan dili arasındakı belə leksik paralellərin sayını artırmaq olar. Odur ki, bu faktlar Azərbaycan dilinin lüğət tərkibinin qədim tarixə malik olduğunu sübut edir.

Dilin lüğət tərkibi ilk dövrlərdə bəsit və sadə olur. Getdikcə həm kəmiyyətcə, həm də keyfiyyətcə zənginləşir. Bu hal bütün dillərə, o cümlədən Müasir Azərbaycan ədəbi dilinə də aiddir.

Lüğət tərkibi dil üçün ən zəruri tikinti materialıdır. Lüğət tərkibindəki sözlər qrammatik quruluşun ixtiyarına keçdikdən sonra onlardan söz birləşməsi və cümlələr yaranır.

Dil üçün tikinti materialı hesab olunan lüğət tərkibi daha çox dəyişən hissədir. Onu dilin fonetik sistemi və qrammatik quruluşu ilə müqayisə etsək görərik ki, lüğət tərkibi daha çox dəyişən hissədir. Fonetik quruluş qrammatik quruluşla müqayisədə nisbətən az dəyişir. Dilin quruluşunun dəyişmə ardıcıllığını belə göstərmək olar: leksik quruluş, qrammatik quruluş, fonetik quruluş. Bu dəyişmə ardıcıllığının dərəcəsini nəzərə alsaq, görürük ki, leksik quruluş daha çox, qrammatik quruluş az, fonetik quruluş isə daha az dəyişir.

Dilin lüğət tərkibinin dəyişməsi üç hal üzrə daha çox diqqəti cəlb edir:

1. Yeni sözlərin yaranması hesabına;
2. Köhnəlmiş sözlər hesabına;
3. Sözlərin mənasının dəyişməsi hesabına.

**Qeyd:** Dilin lüğət tərkibindəki yeni sözlərin miqdarı köhnəlmiş sözlərin miqdarından dəfələrlə çoxdur.

**Dilin lüğət tərkibinin əsas və əlavə hissəsi.** Dilin lüğət tərkibində olan sözlərdən hamı eyni şəkildə, eyni səviyyədə istifadə etmir. Bundan başqa, dilin lüğət tərkibindəki sözlərin hamısını heç kəs bilmir. Sözlərin bir qismini hamı, digər bir qismini isə bir qrup adamlar bilir. Yəni dilin lüğət tərkibindəki sözlərdən hamı eyni səviyyədə istifadə edə bilmir. Elə sözlər vardır ki, onlardan sistematik şəkildə istifadə olunur. Digər sözlər vardır ki, onlardan sistematik istifadə olunmur. Sistematik istifadə olunan sözlər dilin lüğət tərkibinin əsas hissəsinə, sistematik istifadə olunmayanlar isə əlavə hissəsinə daxil olur. Bu mənada dilin lüğət tərkibi *əsas* və *əlavə hissələrdən* ibarətdir. *Əsas hissə* zəruri əşyaların, predmetlərin, məfhumların adıdır. Bu hissə uzun müddət dəyişmir, sabit qalır. Dilin lüğət tərkibinin əsas hissəsi hamı tərəfindən başa düşülür. Məsələn: *ata, ana, su, torpaq, beş, mən, getmək, yuxarı* və s. Dilin lüğət tərkibinin əsas hissəsinə belə bir tərif vermək olar: *Hamıya məlum olan və hamı tərəfindən sistematik şəkildə istifadə olunan sözlərə dilin lüğət tərkibinin əsas hissəsi deyilir*.

*Dilin lüğət tərkibinin əlavə hissəsi* isə zəruri olmayan predmetlərin, əşya və məfhumların adıdır. Əlavə hissəyə *dialektizimləri, arxaizmləri, loru sözləri, vulqarizmləri, terminləri* və s.-ni daxil etmək olar. Dilin lüğət tərkibinin əlavə hissəsinə belə bir tərif vermək olar: *Hamıya məlum olmayan və hamı tərəfindən sistematik şəkildə istifadə*

*olunmayan sözlərə dilin lüğət tərkibinin əlavə hissəsi deyilir.* Məsələn: *professor, dekan, dosent, biologiya, filologiya, atributiv, fonetika* və s. Belə sözlər bir qrup adamların – mütəxəssislərin, ixtisas sahiblərinin başa düşdüyü və istifadə etdiyi sözlərdir.

Dilin lüğət tərkibinin əsas hissəsinin bir sıra *səciyyəvi xüsusiyyətləri* vardır:

1. Əsas lüğət fondu həyat üçün zəruri olan məfhumları ifadə edir.
2. Əsas lüğət fondu uzunömürlülüyü və sabitliyi ilə seçilir.
3. Əsas lüğət fondu yeni sözlərin yaranması üçün baza rolunu oynayır.
4. Əsas lüğət fondu böyük işlədilmə əmsalına malikdir.
5. Əsas lüğət fondu ümumxalq xarakterlidir.
6. Əsas lüğət fondu xarici təsirlərə qarşı müqavimətli olması ilə fərqlənir.

Əsas lüğət fondu ilə dilin lüğət tərkibi arasında *oxşar* və *fərqli* cəhətlər də vardır. *Oxşar* cəhətlər odur ki, onların hər ikisi dəyişir və zənginləşir. Hər ikisi dil üçün tikinti materialıdır. Dilin lüğət tərkibi ilə əsas lüğət fondu arasında aşağıdakı *fərqli cəhətlər* də vardır:

1. Əsas lüğət fondu tərkibcə ümumxalq səciyyəlidir. Onunla qohum dillərin əsas lüğət fondu arasında ümumilik hiss olunur. Lüğət tərkibi isə ümumi səciyyəlidir, müxtəlifdir.
2. Əsas lüğət fondu dilin lüğət tərkibinin mənalı hissəsi kimi daha sabit və möhkəmdir. Ona görə ki, o, lüğət tərkibinin əsasını təşkil edir. Dilin lüğət tərkibi isə dəyişikliyə daha çox meyil edir.
3. Əsas lüğət fondundan nitq prosesində daha tez-tez istifadə olunduğu halda, lüğət tərkibindən isə eyni dərəcədə

istifadə olunmur. Yəni əsas lüğət fondu ilə dilin lüğət tərkibi nitq prosesində istifadə olunmalarına görə də fərqlənir.

4. Dilin lüğət tərkibi dildəki sözlərin hamısını əhatə etdiyi halda, əsas lüğət fondu isə o dildə danışan adamların hamısına məlum olan sözləri əhatə edir. Məsələn: *yüzbaşı, bəy, xan, ağa, xış, arxalıq* və s. sözlər dilin lüğət tərkibinə daxil olsa da, əsas lüğət fonduna daxil deyildir. Belə sözlər dilimizdə sistematik şəkildə işlənmir, konkret tarixi dövrlərlə bağlı olaraq onlara müraciət olunur, istifadə edilir. Yaxud, «*çöl*» mənasında işlənən *yazı*, «*payız*» mənasında işlənən *güz*, «*səs*» mənasında işlənən *ün*, «*yalan*» mənasında işlənən *al* və s. sözlər dilin lüğət tərkibinə daxil olsa da, əsas lüğət fondunda işlənmir.
5. Dilin lüğət tərkibi tez-tez dəyişir. Əsas lüğət fondu isə uzunömürlüdür, əsrlər boyu yaşayır, yeni sözlərin yaranması üçün bazadır. Məhz ona görə də əsas lüğət fondunun dəyişməsi üçün uzun vaxt lazımdır.
6. Dilin lüğət tərkibi ilə əsas lüğət fondu həcm etibarilə də bir-birindən fərqlənir. Belə ki, həcm etibarilə lüğət tərkibi geniş, əsas lüğət fondu isə kiçikdir. Ona görə ki, əsas lüğət fondu lüğət tərkibinin bir hissəsini təşkil edir.
7. Dilin lüğət tərkibi üslubi cəhətdən rəngarəngdir. Əsas lüğət fondu isə neytral leksika səciyyəlidir. Yəni, əsas lüğət fondundan bütün üslublarda, janrlarda istifadə etmək olur.

**Azərbaycan dilinin leksik sistemi.** Müasir Azərbaycan ədəbi dilinin leksik sistemini iki yerə ayırmaq olar:

1. Appelyativ leksika;
2. Onomastik leksika.

*1. Appelyativ leksika.* Appelyativ sözü ümumi söz, ümumi ad mənasında işlədilir. Bu söz xüsusi adlarla qarşılaşdırılarkən istifadə olunur. Ona görə də appelyativ leksika dedikdə ümumi sözlərin, ümumi adların məcmuyu başa düşülür. Appelyativ sözlər əşya, hadisə, predmet və s. haqqında anlayışları ümumi şəkildə ifadə edir. Bu leksikada sonsuz sayda sözlər vardır. Həmin sözlər xaotik şəkildə deyil, sistemli şəkildə mövcuddur. Azərbaycan dilinin appelyativ leksik sistemini aşağıdakı kimi qruplaşdırmaq olar.

| | | |
|---|---|---|
| *İlkin sözlər* | *Hibrid sözlər* | *Loru sözlər* |
| *Törəmə sözlər* | *Alınma sözlər* | *Vulqar sözlər* |
| *Qədim sözlər* | *Ümumişlək sözlər* | *Arqo sözlər* |
| *Yeni sözlər* | *Poetik sözlər* | *Jarqon sözlər* |
| *Kommunikativ sözlər* | *Köhnəlmiş sözlər* | *Peşə-sənət sözləri* |
| *Ekspressiv sözlər* | *Neologizmlər* | *Ekzotik sözlər* |
| *Səs təqlidi sözlər* | *Terminlər* | *Varvarizmlər* |
| *Saf sözlər* | *Dialektizmlər* | |

**Qeyd:** Dildə xüsusi adın ümumi sözə çevrilməsi *appelyativləşmə* adlanır.

*2. Onomastik leksika.* Onomastik leksika xüsusi söz, xüsusi ad mənasında işlədilir. Azərbaycan dilinin onomastik leksikasına aşağıdakılar daxildir:

*1.Antroponimlər* — *5. Zoonimlər*
*2.Etnonimlər* — *6. Kosmonimlər*
*3.Toponimlər* — *7. Ktematonimlər.*
*4.Hidronimlər*

**Sözlərin leksik-semantik sistemi.** Müasir Azərbaycan ədəbi dilində sözlərin leksik, daha doğrusu, leksik-semantik sistemi də maraqlıdır. Leksik-semantik sistemə aşağıdakılar daxildir:

| | | |
|---|---|---|
| *1. Lüğəvi məna* | *6. Məcazi məna* | *11. Antonimlər* |
| *2. Qrammatik məna* | *7. Təkmənalılıq* | *12. Paronimlər* |
| *3. Tam məna* | *8. Çoxmənalılıq* | *13. Tabu sözlər* |
| *4. Natamam məna* | *9. Omonimlər* | *14. Effemizmlər* |
| *5. Həqiqi məna* | *10. Sinonimlər* | *15. Kakoeffemizmlər* |

**İşləkliyinə görə sözlərin qrupları**. Azərbaycan dilindəki sözlər işləkliyindən asılı olaraq *aktiv* və *passiv* söz qruplarına ayrılır. Aktiv sözlər öz növbəsində iki yerə ayrılır: *Geniş dairədə işlənən aktiv sözlər, məhdud dairədə işlənən aktiv sözlər.*

Geniş dairədə işlənən aktiv sözlərə ümumxalq sözləri daxildir. Ümumxalq sözlərinə *ümumişlək sözlər, danışıq sözləri, loru sözlər, kitab sözləri, poetik sözlər* və *rəsmi üslubda işlənən sözlər* aiddir. Məsələn: *çörək, yağ, düz, un, əl, kitab* və s.

Məhdud dairədə işlənən aktiv sözlərə *dialektizmlər, peşə-sənət sözləri, ictimai-siyasi leksika, idman və hərbi leksika, terminlər, jarqon və arqo* sözlər daxildir. Məsələn: *auditoriya, mövzu, seminar, kəsir* və s.

**Qeyd:** Peşə-sənət, terminoloji, ictimai-siyasi, idman və hərbi leksikaya daxil olan sözlərə xüsusi sözlər, yaxud xüsusi leksika da deyilir.

Dialektizmlər, peşə-sənət sözləri, ictimai-siyasi leksika, idman və hərbi leksika, terminlər, jarqon və arqo sözlər hamı tərəfindən işlədilməsə də, müəyyən qrup insanlar tərəfindən aktiv şəkildə istifadə edilir. Ona görə də məhdud qrup insanların aktiv şəkildə istifadə etdikləri belə sözlərə məhdud dairədə işlədilən aktiv sözlər deyilir.

S.Cəfərov Azərbaycan dilinin lüğət tərkibinə daxil olan sözləri aktiv və passiv olmaqla iki qismə ayırır, əsas lüğət fondunda olan bütün sözləri, ixtisasla əlaqədar olaraq, dilin ayrı-ayrı sahələrində istifadə edilən sözləri – terminləri aktiv qismə daxil edir. O, dialektizmləri, peşə-sənət sözlərini, ictimai-siyasi leksikanı, idman və hərbi leksikanı, jarqon və arqo sözləri məhdud dairədə işlədilən aktiv leksikaya daxil etməsə də, terminləri aktiv leksika qisminə daxil etmişdir. Bunun izahını isə belə vermişdir: «Lüğətin aktiv qisminə hal-hazırdı geniş şəkildə istifadə edilən və edilə biləcək sözlər daxildir. Deməli, lüğətin aktiv qisminə əsas lüğət fondunu təşkil edən bütün sözlər və ixtisasla əlaqədar olaraq, dilin ayrı-ayrı sahələrində istifadə edilən sözlər – terminlər daxil olur. Çünki ixtisasla əlaqədar olan belə sözlər, hamı tərəfindən işlədilməsə də, bu və ya digər ixtisas sahəsində çalışan adamlar bunlardan aktiv şəkildə istifadə edirlər»[1]. Deməli, S.Cəfərov hal-hazırda geniş şəkildə istifadə edilən və edilə biləcək sözləri, ixtisasla əlaqədar olaraq dilin ayrı-ayrı sahələrində istifadə olunan sözləri (yəni terminləri) aktiv leksikaya daxil etməklə aktiv leksikanın nə demək olduğunu düzgün şərh etmişdir. Bu mənada terminlərlə yanaşı,

---

[1] S.Cəfərov. Müasir Azərbaycan dili (leksika). «Maarif» nəşriyyatı, Bakı, 1970, s.66.

dialektizmlər, peşə-sənət sözləri, ictimai-siyasi leksika, idman və hərbi leksika, terminlər, jarqon və arqo sözlər insanların müəyyən qrupları tərəfindən aktiv şəkildə istifadə edilir. Bu cür sözlər insanların müəyyən qrupunun nitqinin, ünsiyyətinin əsas, aktiv hissəsini təşkil edir.

Aktiv və passiv söz qruplarının hər ikisi dilin lüğət tərkibini təşkil etsələr də, onların arasında aşağıdakı fərqlər mövcuddur:

1) Aktiv sözlər həmin dildə danışan insanların hamısı, bəzən də bir qrupu tərəfindən (Məsələn: peşə-sənət sözləri, dialektizmlər, terminlər və s.) tez-tez istifadə olunur. Passiv sözlər isə az-az istifadə olunan sözlərdir.

2) Aktiv sözlər həmişə və hal-hazırda da öz işlənmə gücünü qoruyub saxlayır, geniş şəkildə istifadə olunur. Passiv sözlərin işlənmə gücü zəif, istifadəsi isə azdır. Məsələn: köhnəlmiş sözlər klassiklərin yaradıcılığında, tarixi əsərlərdə işlənir, neologizmlər isə dilə yeni daxil olduğu üçün hamı tərəfindən başa düşülmür və işlədilmir.

3) Aktiv sözlər gündəlik həyatımızda, təbii ki, nitq prosesində çox işlədilir. Belə sözlər zəruri olduğunu öz işləkliyi ilə büruzə verir. Ancaq passiv sözlər nitq prosesində çox az işlədilir. Məsələn: köhnəlmiş sözlər tarixi hadisələrlə, tarixi əsərlərlə bağlı olaraq bir qrup adamların nitqində istifadə olunur. Eləcə də neologizmlər hamı tərəfindən deyil, bir qrup adamların öz nitqində istifadə etdiyi sözlərdir.

Passiv sözlərə *köhnəlmiş sözlər, neologizmlər* daxildir. Məsələn: *sayru*-xəstə, *əsən*-salamat, *əsrük*-sərxoş və s.

**Qeyd:** Passiv sözlərə passiv leksika da demək olar. Buraya köhnəlmiş sözlər və neolo-

gizmlərlə yanaşı, vulqar sözləri, ekzotik sözləri, varvarizmləri də daxil etmək lazımdır. İndiyə qədər bir qayda olaraq passiv sözlərə köhnəlmiş sözləri və neologizmləri daxil etmişlər.

**İşlədilmə dairəsinə görə sözlərin qrupları.** İşlədilmə dairəsinə görə sözlər üç qrupa bölünür: *ümumişlək sözlər*, *məhdud dairədə işlədilən sözlər, xüsusi sözlər.*

*Ümumişlək sözlər* hamı tərəfindən istifadə olunan sözlərdir.

*Məhdud dairədə işlədilən sözlərə* daxildir: *dialektizmlər*, *köhnəlmiş sözlər, neologizmlər, jarqon* və *arqo* sözlər.

*Xüsusi sözlərə* daxildir*: terminoloji sözlər, peşə-sənət sözləri, ictimai-siyasi sözlər, idman və hərbi sözləri.*

**Mənşəyinə görə sözlərin qrupları.** Mənşəyinə görə sözlər iki qrupa ayrılır: *Azərbaycan sözləri, alınma sözlər.*

*Azərbaycan sözləri* öz növbəsində dörd qrupa ayrılır: türk dilləri ilə ortaqlı olan sözlər, həm türk həm də monqol dilləri ilə ortaqlı olan sözlər, şumer dili ilə ortaqlı olan sözlər, xüsusi Azərbaycan sözləri.

*Alınma sözlər* öz növbəsində mənşəyinə görə *ərəb, fars, rus, avropa, Qafqaz* mənşəli sözlərə bölünür. Bundan başqa, alınma sözlər içərisində az işlənən iki qrup vardır*: ekzotizmlər, varvarizmlər.*

Göründüyü kimi, lüğət tərkibində olan sözlər xaotik, sistemsiz şəkildə deyil, məhz sistemli bir halda qruplara bölünərək dildə mövcuddur.

# MƏNŞƏ CƏHƏTDƏN MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN LÜĞƏT TƏRKİBİ

Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibindəki sözlərin bir qismi digər türk dilləri ilə ortaqlı olan sözlərdən, müəyyən bir qismi isə alınma sözlərdən ibarətdir. Buna əsasən, Azərbaycan dilinin lüğət tərkibini mənşəcə iki yerə ayırmaq olar:

*1. Azərbaycan sözləri*

*2. Alınma sözlər.*

**1. Azərbaycan sözləri.** Azərbaycan sözləri Azərbaycan dilinin özünəməxsus sözləridir. Ona görə də bu sözlərə xalis Azərbaycan sözləri də deyilir. Bu qrupa daxil olan sözlər qohum türk dilləri üçün də xalis söz hesab olunur. Xalis Azərbaycan sözlərini dörd yerə bölmək olar:

*I. Türk dilləri ilə ortaqlı olan sözlər.*

*II. Həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözlər.*

*III. Şumer dili ilə ortaqlı olan sözlər.*

*IV. Xüsusi Azərbaycan sözləri.*

I. ***Türk dilləri ilə ortaqlı olan sözlər.*** Bu qrupda olan sözlər lap qədimdən başlayaraq həm Azərbaycan dilində, həm də qohum türk dillərində işlənmişdir. Belə sözlər hal-hazırda da işlənir. Türk dilləri ilə ortaqlı olan sözləri müəyyənləşdirən zaman onların mənası və forması türk dilləri ilə müqayisə olunur. Bu müqayisə zamanı müqayisə olunan sözlər qohum türk dillərində də varsa, onda həmin sözlər türk dilləri ilə

ortaqlı sözlər adlanır. Belə sözlər Azərbaycan dili ilə yanaşı, qohum türk dillərinin də lüğət tərkibinin əsas fondunu təşkil edir. Həmin sözlər həm də qədim yazılı abidələrimizdə də işlənir. Xüsusilə, qohumluq bildirən sözlər, ad, əlamət, keyfiyyət bildirən sözlər, saylar, əvəzliklər, feillər, ev və çöl heyvanlarının adları bu qəbildən olan sözlərdir. Beləliklə, türk dilləri ilə ortaqlı olan sözləri belə qruplaşdırmaq olar:

1. *Ad bildirənlər:* ata, ana, qardaş, burun və s.

2. *Əlamət, keyfiyyət, rəng bildirən sözlər.* Məsələn: *yaxşı, yaşıl, uzun* və s.

3. *Miqdar bildirən sözlər.* Məsələn: *bir, beş, on* və s.

4. *Şəxs, işarə və sual əvəzlikləri.* Məsələn: *mən, sən, o, bu, kim?* və s.

5. *Hal-hərəkət bildirən sözlər.* Məsələn: *vurmaq, almaq* və s.

**Qeyd:** Türk dilləri ilə ortaq olan sözlərin özü də iki qrupa ayrıla bilir: *a)* əksər türk dillərində işlənən ortaqlı sözlər, *b)* bəzi türk dillərində işlənən ortaqlı sözlər.

*a) əksər türk dillərində işlənən ortaqlı sözlər.* Məsələn: *demək, yemək, ata, yumaq* və s.

Əksər türk dillərində işlənən ortaqlı sözlərin elələri vardır ki, heç bir fonetik dəyişikliyə uğramadan türk dillərinin əksəriyyətində işlənir. Böyük bir qismi isə fonetik dəyişikliyə uğramış şəkildə əksər türk dillərində qorunur.

Onu da qeyd edək ki, türk dilləri ilə ortaqlı olan sözlərin müəyyənləşməsində istinad yeri kimi yazılı abidələr mühüm rol oynayır. Bu mənada Orxon-Yenisey yazılı abidələri mənbə, istinad yeri kimi əvəzsizdir. Konkret olaraq Orxon-Yenisey yazılı abidələrində işlənmiş ortaqlı sözlərin hal-hazırda Azərbaycan dilində qorunanlarının bir qismini misal kimi göstərmək olar.

| *Orxon-Yenisey yazılı abidələrində:* | *Azərbaycan dilində:* |
|---|---|
| ab (ov mənasında) | ov |
| avçı (ovçu mənasında) | ovçu |
| avla (ovla mənasında) | ovla |
| aç | aç |
| adaş (yoldaş, adaş mənasında) | adaş |
| adır (ayır mənasında) | ayır |
| ağız | ağız |
| ak (ağ mənasında) | ağ |
| akın (axın, hücum, basqın mənasında) | axın |
| al (almaq mənasında) | almaq |
| alkış (alqış, tərif mənasında) | alqış |
| ana | ana |
| ara (aramaq, axtarmaq mənasında) | ara |
| arka (arxa mənasında) | arxa |
| at (heyvan mənasında) | at |
| at (atmaq mənasında) | atmaq |
| ata (ata, tərbiyəçi, vəzir) | ata |
| biç (biçmək, kəsmək mənasında) | biçmək |
| boş | boş |
| ev (ev mənasında) | ev |
| elçi (elçi, səfir mənasında) | elçi |
| ək | əkin |
| əkin | əkin |
| iç (iç, daxil mənasında) | iç |
| iç (içmək mənasında) | içmək |
| in (enmək mənasında) | enmək |
| kab (qapmaq, birləşdirmək mənasında) | qapmaq |
| kaç (qaçmaq mənasında) | qaçmaq |
| kapığ (qapı mənasında) | qapı |
| kaş (qaş mənasında) | qaş |
| kılıç (qılınc mənasında) | qılınc |
| kır (qırmaq mənasında) | qırmaq |
| kız (qız mənasında) | qız |
| kız (qızmaq mənasında) | qızmaq |

| | |
|---|---|
| keç (keçmək, addamaq mənasında) | keçmək |
| kel (gəlmək mənasında) | gəlmək |
| oğul | oğul |
| öl | ölmək |
| öt | ötmək |
| saç | saçmaq |
| sök | sökmək |
| tabar (mal, davar mənasında) | davar |
| to (doymaq, tox olmaq) | doymaq |
| ton | don |
| ton (donmaq mənasında) | donmaq |
| tuman | duman |
| tu (tutmaq mənasında) | tutmaq |
| tuy (duymaq, anlamaq, eşitmək mənasında) | duymaq |
| tüş (düşmək, enmək mənasında) | düşmək |
| uruş (vuruş, döyüş, savaş mənasında) | vuruş |
| uzun | uzun |
| yar (yarmaq mənasında) | yarmaq |
| yasa (yaşamaq, tənzim etmək mənasında) | yaşamaq |
| yas (yaş, adamın yaşı mənasında) | yaş |
| yas (yaş, göz yaşı mənasında) | yaş |
| yet (yetmək, çatmaq mənasında) | yetmək və s. |

Bu tipli nümunələrin sayını çoxaltmaq da olar. Ancaq qeyd olunan nümunələr də ortaqlı türk sözlərinin dərindən başa düşülməsi üçün kifayət edir.

*b) bəzi türk dillərində işlənən ortaqlı sözlər.*

Bəzi türk dillərində işlənən ortaqlı sözlərə əsasən oğuz qrupu türk dillərində işlənən aşağıdakı sözləri misal göstərmək olar.

Heyvan adlarını bildirən oğuz qrupu türk dillərində işlənən ortaqlı sözlər: at, davar və s.

Bədən üzvlərinin adlarını bildirən oğuz qrupu türk dillərində işlənən ortaqlı sözlər: ayaq, bağır, barmaq, baş, bəbək və s.

Zaman bildirən oğuz qrupu türk dillərində işlənən ortaqlı sözlər: axşam, yaz, qaranlıq və s.

Oğuz qrupu türk dillərində işlənən hərəkət feilləri: qalxmaq, çatmaq, yetişmək, sürüşmək və s.

Oğuz qrupu türk dillərində işlənən iş feilləri: basmaq, çalmaq, qıymaq, solmaq, yapmaq və s.

Oğuz qrupu türk dillərində işlənən nitq feilləri: söyləmək, yalvarmaq və s.

Oğuz qrupu türk dillərində işlənən hal-vəziyyət feilləri: doğmaq, qalmaq, qurtarmaq, uymaq, ürkmək və s.

II. ***Həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözlər.*** Bu qəbildən olan sözlər insanların həyat tərzi, məişəti və s. məsələlərlə bağlıdır. Monqol dilləri ilə ortaqlı olan sözlərin fonetik, semantik və morfoloji fərqləri də ola bilər. Məsələn: Azərbaycan dilindəki *sulamaq* sözü monqolca *suvax* kimi, Azərbaycan dilində *il* sözü monqolca *jil* kimi, Azərbaycan dilində *damğa* sözü monqolca *tamğa* kimi işlənir. Bu qəbildən olan *ayran, balta, yaraq, boz, maral, ordu* və s. sözləri də nümunə göstərmək olar.

Həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözləri məna qrupları üzrə aşağıdakı kimi qruplaşdırmaq olar.

*1) Qohumluq bildirən terminlər:*

| *Monqol dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| abu (ata mənasında) | ata |
| exe (ana mənasında) | ana |
| axa (böyük qardaş, böyük mənasında) | aqa//ağa (dialektlərdə) və s. |

*2) İnsanın bədən üzvlərinin adları:*

| *Monqol dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| zirüxen | ürək |
| bügere | böyrək |
| xabirga | qabırğa və s. |

*3) Ev heyvanlarının adları:*

| *Monqol dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| azirga | ayğır |
| vuxa | buğa |
| xonin | qoyun və s. |

*4) Bitki və ağac adları:*

| *Monqol ditində:* | *Azərbaycan dilində:* |
|---|---|
| arbay | arpa |
| buguday | buğda |
| böözirgene | böyürtkən və s. |

*5) Zaman bildirən sözlər:*

| *Monqol dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| asagan | axşam |
| erte | ertə və s. |

*6) Sifətlər:*

| *Monqol dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| asaq | axsaq |
| xuuray | quru |
| xuv xuuray | qupquru və s. |

*7) Feillər:*

| *Monqol dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| aldax (səhv etmək, itirmək mənasında) | aldatmaq |
| büleqlex | bölükləmək |
| bütex | bitirmək və s. |

III. ***Şumer dili ilə ortaqlı olan sözlər.*** Dünyanın ən məşhur alimlərindən N.S.Kramer, Y.Lloyd, Q.Çayld, L.Bulli, Z.Kosidovski, Q.Vinkler, E.Reklü, M.Belitski, F.Deliç və digərləri belə bir elmi nəticəyə gəliblər ki, müasir xalqların əcdadları şumerlərdir. Şumer dili isə prototürk dilidir.

Mənbələrdə qeyd olunur ki, «Tarix şumerdən başlayır». Həm də belə bir fikir vardır ki, bəşər övladı bir kökdən, bir ailədən törəyib və dünyaya yayılıbdır. Bəşəriyyətin ilk başlanğıc məkanı da şumerlərin yaşayış bölgəsi olubdur. Azərbaycan adlı məmləkət, yer isə bu yaşayış bölgəsinin bir hissəsi kimi tədqiqatlarda qeyd olunur. Həm də mənbələrdə türkün rolu, xidməti onu deməyə imkan verir ki, şumer-türk əlaqələrinin, yaxud genetik qohumluğunun tarixi qədimdir. Bu, şumerlərin qədim olması ilə yanaşı, türklərin də qədimliyinə dəlalət edir. Məsələn: türk barəsində Əbülqazi Bahadır xanın «Şəcəreyi-tərakimə» əsərində qeyd olunur ki, Nuh peyğəmbər Xam (Qam), Sam, Yafəs (Yafət) adlı oğullarına deyir ki, Adəm oğullarından sizin üçünüzdən başqa, heç kim qalmadı. İndi siz üçünüz bu üç yurdda (Hindistan, İran, quzey qütbü) yerləşin və nə vaxt çoxlu oğul-uşağınız olarsa, o yerləri özünüzə yurd yeri edin. «Səcəreyi-tərakimə» əsərindən o da bəlli olur ki, Yafəsin səkkiz oğlu olmuşdur: Türk, Xəzər, Saklab, Rus, Minq, Çin, Kəməsi, Tarix. Yafəs ölləndən sonra öz yerinə böyük oğlu Türkü qoyur, digər oğullarına isə deyir ki, Türkü özünüzə hökmdar bilin və itaətindən çıxmayın.

Deməli, hələ Nuh peyğəmbər dövründən başlayaraq Türkün hökmdar kimi qəbul edildiyini mənbə də təsdiq edir. Tədqiqatlar belə bir həqiqəti də qəbul edirlər ki, türk köklü azlar, iskitlər, saklar, massagetlər, kaspilər, xəzərlər və digərlərinin ulu babaları şumerlərdir. Ona görə də şumer dilinin lüğət tərkibindəki sözlərlə türk dillərinin lüğət tərkibi arasında xeyli uyğunluqlar vardır. Təbii ki, bu uyğunluq türk dillərindən biri olan Azərbaycan dilində də özünü göstərir. Yeri gəlmişkən onu da qeyd edək ki, tədqiqatçılar şumer sözlərini türk sözləri ilə müqayisə etmiş, ortaq leksik vahidlərin bir qismini müəyyənləşdir-

mişlər. Məsələn: O.Süleymenov 60, A.Məmmədov 110-dan artıq sözün şumer və türk dillərində ortaqlı olduğunu aşkar etmişdir. Həmin sözlər, təbii ki, Azərbaycan dili ilə də ortaqlı olan sözlərdir. Bu mənada şumer və Azərbaycan dillərində ortaqlı olan bir qisim sözləri aşağıdakı kimi qruplaşdırmaq olar.

| *Şumer dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| ada (ata mənasında) | ata |
| ama (ana mənasında) | ana |
| amar (bala, buzov mənasında) | bala (əmər mənasında) |
| ab (qap mənasında) | ev |
| a (əl mənasında) | əl |
| ar (parıldamaq, işıq saçmaq) | arı (təmiz mənasında) |
| ara (parçalamaq, bölmək mənasında) | ara (orta mənasında) |
| aştar (qıfıl mənasında) | açar |
| ağa (tac,ləyaqət, şöhrət mənasında) | ağa (şöhrətli, hörmətli mənasında) |
| ab (pəncərə mənasında) | ev |
| bilqa (əcdad mənasında) | bilgi |
| bar (səhəng, qab, torba mənasında) | bardaq (bar-daq) |
| bu (nəfəs, üfürmək mənasında) | buğ(bu-ğ), boğulmaq (bo-ğulmaq) |
| bi-l (yandırmaq, alışdırmaq mənasında) | biş (bişmək mənasında) |
| bal (aşırmaq, pozmaq, qarışdırmaq, yerini dəyişmək mənasında) | bul-a-ma (qarışdırmaq mənasında) |
| bad (bir az çoxalmaq mənasında) | bəy (varlı mənasında) |
| bal (qazmaq, balta mənasında) | bel, balta |
| ba (bağır, qara ciyər mənasında) | bağır (ba-ğır) |
| be (cənab, hakim, hökmdar mənasında) | bəy |
| ba-da-ra (sancaq, bayraq, dəyənək mənasında) | bayraq (ba-y-raq) |
| bur//bul (azad etmək, vermək, ödəmək mənasında) | buraxmaq (bur-axmaq) |
| ba (vermək, çatdırmaq mənasında) | vermək (ve-r-mək) |

| | |
|---|---|
| be (bu mənasında) | bu |
| deş (nöqtə mənasında) | deş |
| dingir (tanrı, göy mənasında) | tanrı |
| de (demək, danışmaq mənasında) | de |
| di (fikir, hökm, kəlam mənasında) | dil |
| du-ru (təmiz, qatışıqsız) | duru |
| dal-la (şəfəq, şüa) | dalğa |
| dur// durun (rahatlanmaq, yerləşmək mənasında) | dur |
| du (düzəltmək, tikmək mənasında) | düzəltmək (dü-zəlt-mək) |
| eren (sıravi əsgər, işçi mənasında) | ərən |
| eş (ev mənasında) | eşik (eş-ik) |
| ed (getmək, çıxmaq mənasında) | ötmək |
| e (danışmaq mənasında) | aymaq (dialektlərdə) |
| en (yüksək, hakim, kahin mənasında) | ən (ədat kimi) |
| giri (ayaq mənasında) | yeri |
| qu (səs mənasında) | qu, küy |
| hul (sevinc, şadlıq mənasında) | gülmək (gül-mək) |
| xul//hul (dağıtmaq mənasında) | quldur (qul-dur) |
| kar (oğurlamaq mənasında) | qarmalamaq (qar-mala-maq), qarış (qar-ış) |
| ki (torpaq mənasında) | kir (toz-torpaq, çirk mənasında) |
| lu (adam mənasında) | ulu (u-lu) |
| pu (bulaq mənasında) | bulaq (bu-laq) |
| pag (bağ, bağlamaq mənasında) | bağ (ba-ğ), bağlamaq (bağ-lamaq) |
| sa (sap, damar mənasında) | sap (sa-p) |
| sa (bildirmək, ağzından qaçırmaq) | söz |
| sal (nəhəng, enli mənasında) | sal daş |
| tag (taxmaq mənasında) | taxmaq (tax-maq) |
| tu (doğmaq mənasında) | doğmaq (do-ğmaq) |
| tag (dəymək, toxunmaq mənasında) | dəymək (dəy-mək) |
| ti (həyat mənasında) | dirilik (di-rilik) |
| ud (günəş, gün, od mənasında) | od |
| udun (ocaq mənasında) | odun və s. |

Şumer dilinin morfoloji quruluşu iltisaqi dillərin quruluşuna uyğun gəlir.

Məsələn: şumer dilində: gedib (gedib), qalan (qələm), qalsa (gəlsə), su endumu (su endimi) və s.

Əlbəttə, dil faktları şumer dili ilə Azərbaycan və ümumən türk dilləri arasında bağlılığın olduğunu təsdiq edir. Şumer dilinin prototürk dili kimi mövcudluğunu göstərir.

IV. ***Xüsusi Azərbaycan sözləri.*** Bu sözlər Azərbaycan dili müstəqil bir dil kimi formalaşandan sonra yaranıbdır. Xüsusi Azərbaycan sözləri ancaq Azərbaycan dilinə məxsusdur. Bu sözlər türk dilləri ilə ortaqlı olsa da, dilimizin söz yaratma qaydası ilə yaranmış və inkişaf etmişdir. Bu qəbildən olan sözlər məişət, yeyinti məhsulları, təbiət hadisələri, bitki, meyvə, heyvan, quş, hərəkət, əlamət və s. adları ilə bağlıdır. Xüsusi Azərbaycan sözləri daha çox quruluşca düzəltmədir. Bu cür sözlər Azərbaycan dilinin qayda-qanunlarına uyğun şəkildə əmələ gəlir. Ona görə də onlar (sözlərin kökü) türk və monqol dillərində ortaqlı ola bilir, eyni zamanda alınma sözlərdən də yaranır. Məsələn: *müəllimlik, kolxozçu* və s. Xüsusi Azərbaycan sözlərinin elələri də vardır ki, onlar yalnız Azərbaycan dili üçün xarakterikdir. Məsələn: *külək, yelpənək, vəzəri, boranı, azəri* və s.

Əsl Azərbaycan sözlərinin xüsusiyyətləri aşağıdakılardır:

I. Əsl Azərbaycan sözləri əsasən təkhecalı olur. Məsələn: *at, il, el, al* və s.

II. Bir qrup əsl Azərbaycan sözlərinin sonu *n* və *c* samitlərilə qurtarır. Məsələn: *sanc, dinc, tunc* və s.

III. Müəyyən qrup əsl Azərbaycan sözlərinin sonu -aq$^2$, -ar$^2$, -ıq$^4$, -ır$^4$ və s. şəkilçiləri ilə qurtarır. Məsələn: *daraq, yaraq, çanaq, ipək, ələk, qatar, çəpər, qatıq, yırtıq, çadır* və s.

**Qeyd:** Sonu *-ma$^2$* şəkilçiləri ilə qurtaran əsl Azərbaycan sözləri də var. Məsələn: *sürmə, vurma, bölmə, çəkmə* və s.

IV. Əsl Azərbaycan sözləri əsasən bir, iki, az bir qismi isə üçhecalı olur. Məsələn: *at, göz, yarış, yarpaq, avazl*an və s.

**Qeyd:** Çoxhecalılıq əsl Azərbaycan sözləri üçün yaddır.

V. Söz kökündə sait-samit sıralanması əsl Azərbaycan sözləri üçün xarakterikdir. Ona görə ki, Azərbaycan dili musiqili dildir. Məsələn: *sümük, qulaq, gəlin* və s.

**Qeyd:** Bu qayda bəzən *dimdik, yumruq, dırnaq* və s. tipli sözlərdə pozulur.

VI. Azərbaycan sözlərində vurğu son hecanın üzərinə düşür. Məsələn: *dodaq, yanaq, açıq* və s.

VII. Azərbaycan sözlərində ahəng qanunu qorunur.

VIII. Azərbaycan sözlərində cins kateqoriyası sözlərin leksik mənasında olur. Yəni, Azərbaycan sözlərində cins kateqoriyası yoxdur.

IX. Azərbaycan dilində söz kökü ilə ona qoşulan şəkilçi diffuziyaya uğramır. Yəni, söz və şəkilçinin sərhəddini asanlıqla ayırmaq olur.

X.Azərbaycan sözlərində predloq (ön şəkilçi) olmur. Bu, alınma sözlər üçün xarakterikdir.

XI. Əsl Azərbaycan sözlərində sözün əvvəlində iki samit yanaşı işlənmir. Məsələn: *plan, snayper, strategiya, prospekt, proqram* və s.

XII. Əsl Azərbaycan sözlərində sözün əvvəlində, ortasında və axırında iki müxtəlif, və ya eyni sait işlənə bilməz. Məsələn: *ailə, aid, səadət, pioner, real, şüur, müasir, ibtidai, mətbəə, təbii, bədii, facia* və s.

XIII. Əsl Azərbaycan sözləri *l, n, r, j, f, m, h, x, z* samitləri ilə az başlanır. Yəni bu samitlərlə başlanan sözlər Azərbaycan dilində azlıq təşkil edir.

XIV. Əsl Azərbaycan sözlərinin *e, o* və *ö* saitləri ilə başlanması da say miqdarı ilə azdır.

**Qeyd:** Yuxarıda qeyd olunan saitlər və samitlər tarixən Azərbaycan dili üçün xarakterik olmamışdır. Ona görə də həmin səslərlə başlanan sözlər Azərbaycan dilində azlıq təşkil edir.

**2. Alınma sözlər.** Dünyada ancaq öz xalis sözlərindən ibarət olan dil yoxdur. Bütün dillər bir-birinə söz vermiş və başqasından söz almışdır. Bu və ya digər dilin başqa dildən aldığı sözə *alınma söz* deyilir. Başqa dildən yalnız sözlər deyil, ifadə və şəkilçilər də alına bilir. Alınma sözlər bütün dillərdə eyni miqdarda deyildir. Onların miqdarı bəzilərində çox, bəzilərində isə az olur. Alınma sözlərin çoxluğu nə dilin müstəqilliyini inkar edir, nə də onun təsir qüvvəsini azaldır.

Sözlər bir dildən başqasına müxtəlif şərait və zamanlarda, əsasən, aşağıdakı yollarla keçir.

*1) Zəruri və məcburi yolla.* Bu yolla alınan sözlərə zəruri və məcburi alınma sözlər deyilir. *Zəruri və məcburi alınma sözlər* öz növbəsində iki yerə ayrılır: *zəruri alınmalar, məcburi alınmalar.*

Başqa dillərdən müəyyən tələbatla bağlı olaraq alınan sözlər *zəruri alınmalardır.* Xalq öz inkişafı, mədəni yüksəlişi ilə əlaqədar yeni yaranan məfhumları əsasən bu sözlərin köməyi ilə ifadə edir.

Zorakılıq nəticəsində alınan, yaxud keçən sözlər isə *məcburi alınmalardır.* Bu qrup sözlər istilalar dövründə dilimizə keçən leksik vahidlərdir. Məsələn: *ərəb, fars, monqol* və s. dillərdən dilimizə keçmiş sözlər buna misal ola bilər.

*2) Ədəbi və danışıq dili vasitəsilə.* Belə sözlər ədəbi və danışıq dili vasitəsi ilə alınan sözlərdir.

Ədəbi dilimizə istər yazılı, istərsə də şifahi yolla, əsasən, elmi, siyasi və s. terminlər, beynəlmiləl sözlər alınır. Bu, dilin hər bir dövründə baş verir.

*3) Vasitəli və vasitəsiz yolla alınma sözlər.* Bu yolla alınma sözlərə vasitəli və vasitəsiz alınma sözlər deyilir.

Hər bir dil başqa dilin sözlərini, ya birbaşa özü, ya da özgə bir dilin vasitəsilə alır. Başqa dilin sözləri bilavasitə mənbə dildən alınmışsa, bunlar *vasitəsiz alınma sözlər adlanır.*

Sözlər bilavasitə mənbə dildən yox, başqa bir dilin vasitəsilə alınmışsa, bunlar *vasitəli alınma sözlər hesab edilir.* Məsələn: dilimizdəki rus dilinə məxsus olan sözlər vasitəsiz alınmalar, rus dili vasitəsi ilə dilimizə keçən avropa sözləri isə vasitəli alınmalardır.

**Alınma sözlərin Azərbaycan dilinə daxil olma səbəbləri.** Azərbaycan dilinin leksik tərkibində həm qonşu, həm də qonşu olmayan xalqların sözləri vardır. Bütün bu

sözlər dilimizə təsadüfi olaraq deyil, əsasən, aşağıdakı səbəblər nəticəsində daxil olmuşdur:

1) Tarixən xalqımızın bir sıra istilalara məruz qalması nəticəsində;
2) Xalqımızın tarix boyu onu Şərqdən, Qərbdən, Cənub və Şimaldan əhatə edən xalqlarla qonşuluq münasibətlərində yaşaması;
3) Azərbaycanın coğrafi şəraiti hesabına;
4) Obyektiv inkişaf qanunları ilə əlaqədar olaraq;
5) Başqa xalqlarla siyasi, iqtisadi, elmi, mədəni əlaqələr nəticəsində və s.

**Alınma sözlərin təsnifi.** Alınma sözlər, əsasən, aşağıdakı cəhətlərinə görə təsnif olunur:

*1) Tarixinə görə*

*2) İşlənmə dairəsinə görə*

*3) Mənşəyinə görə.*

Alınma sözlər təsnif olunarkən mənbə dil əsas götürülməlidir. Azərbaycan dilindəki alınma sözləri *mənşəyinə görə* aşağıdakı qruplara bölmək olar:

*a) ərəb mənşəli sözlər*

*b) fars mənşəli sözlər*

*c) rus mənşəli sözlər*

*ç) avropa mənşəli sözlər*

*d) qafqaz mənşəli sözlər.*

***Ərəb mənşəli sözlər.*** Azərbaycan dili leksikasının müəyyən hissəsini ərəb dilindən daxil olmuş sözlər təşkil edir. Bunlar VII əsrdə ərəblərin Orta Asiyanı, Qafqazı işğal etdikləri dövrdən başlayaraq, Azərbaycan dilinə keçən sözlərdir. Məsələn: *adət, aləm, aqil, ağıl, bəyaz, beyt, bəşər, bəsit, vahid, varis, valeh, vərəq, vəkalət, vəhdət, varib, qalib, qələm,*

*qadir, qamət, qane, qüdrət, qarət, qafiyə, qəddar, qəzəb və s., eləcə də alınma adlar Əhməd, Qismət, Mustafa, Kamal, Əli, Məhəmməd, Hüseyn* və s.

Dilimizin lüğət tərkibindəki ərəb mənşəli sözləri fərqləndirmək üçün aşağıdakıları bilmək lazımdır:

1. Vaxtilə apostroflu olan sözlər ərəb mənşəlidir. Məsələn: *ə`la, mə`lum, e`lan, e`timad, şö`lə, şö`bə, sün`i, cür`ət, məs`ud* və s.

2. Sonu «mal» komponenti ilə qurtaran sözlər ərəb dilinə məxsusdur. Məsələn: *icmal, ehtimal, emal, ehmal, şimal* və s.

3. Sonu -*iyyat*, -*iyyət*, -*iyyə*, -*at*, -*ət*, -*anə*, -*ən*, -*i*, -*vi*, -*əcər* şəkilçiləri ilə qurtaran sözlər, əsasən, ərəb mənşəlidir. Məsələn: *əməliyyat, bədiiyyat, aidiyyət, nəzəriyyə, bələdiyyə, varidat, əhvalat, məlumat, ixtilat, vəkalət, aqibət, ismət, malikanə, arifanə, qəflətən, Şirvani, Gəncəvi, südəcər* və s.

4. *«mə»* önşəkilçili *mədaxil, məxaric* tipli sözlər ərəb mənşəlidir.

5. Sonu iki samitlə qurtaran sözlər, əsasən, ərəb mənşəlidir. Məsələn: *xətm, ism, nəşr, rəmz, rəsm, sərf, cəlb, zənd, ərz, əxz, əsr, cild* və s.

6. *i* və *ü* saitləri ilə başlayan sözlər, əsasən, ərəb mənşəlidir. Məsələn: *ibadət, ibarə, ianə, ibtidai, idarə, izah, iman, imam, imla, inşa, irad, isbat, icad, ülfət, ümman, ülfi, üzvi, ünvan, ünsür, üslub, üsul, üfüq* və s.

7. *a* və *i* səs birləşməli sözlər ərəb mənşəlidir. Məsələn: *aid, aidə, dair, daim, daimi, sait, şair, şaiq* və s.

8. *a* və *i* saitli ikihecalı sözlər ərəb mənşəlidir. Məsələn: *nazir, nadir, malik, vadi, qadir, arif, cani, hasil, hami, hakim, kafi, kafir* və s.

9. Tərkibində qısa a saiti işlənən sözlər ərəb mənşəlidir. Məsələn: *maaş, saat, maarif* və s.

10. Tərkibində qoşa ə saiti işlənən sözlər ərəb mənşəlidir. Məsələn: təəccüb, mənfəət, mətbəə və s.

11. Tərkibində *ə* və *a* saitləri yanaşı işlənən sözlər ərəb mənşəlidir. Məsələn: *səadət, fəal, təam* və s.

12. Tərkibində *ü* və *u* saitləri yanaşı işlənən sözlər ərəb mənşəlidir. Məsələn: *şüur, vücud, qürub, qürur* və s.

13. Tərkibində *ə, a, ü* saitləri iştirak edən sözlər ərəb mənşəlidir. Məsələn: *təkamül, tənasüb, təcavüz, təqaüd* və s.

14. Tərkibində *ə, i, a* saitləri iştirak edən sözlər ərəb mənşəlidir. Məsələn: *təbliğat, təşviqat, təchizat, nəqliyyat, təxribat* və s.

15. Tərkibində *ə, a, i* saitləri iştirak edən sözlər ərəb mənşəlidir. Məsələn: *vəsait, ərazi, əsatir* və s.

16. Tərkibində *ü, ə, ə* saitləri iştirak edən sözlər ərəb mənşəlidir. Məsələn: *müəyyən, mürəkkəb, münəvvər, müzəffər, müsəlləh* və s.

17. Tərkibində *ə, i, ə* saitləri iştirak edən sözlər ərəb mənşəlidir. Məsələn: *səliqə, vəzifə, qərinə, səhiyyə* və s.

***Fars mənşəli sözlər.*** Azərbaycan dilinin leksik tərkibində müəyyən miqdar fars sözləri də vardır. Azərbaycan dilinə fars sözlərinin daxil olması əsasən XIII-XIV əsrlərdən başlamışdır. Bu proses fars dilinin təsirinin Qafqazda qüvvətlənməsi ilə əlaqədar olmuşdur. Fars mənşəli sözlər dilimizin qayda-qanununa uyğunlaşmış və vətəndaşlıq hüququ qazanmışdır. Məsələn: *avar, ahəng, atəş, azar, agah, aludə, arzu, asayiş, böhtan, bənd, badə, bəndə, bəxş, didə, peyk, sayə, ustad, xəstə, xudbin, şikəst* və s. Dilimizdəki fars sözləri öz kəmiyyətinə

görə ərəb sözlərindən azdır. Bunların çoxu dilimizə, əsasən, bədii ədəbiyyat vasitəsilə daxil olmuşdur.

Fars mənşəli sözləri fərqləndirmək üçün aşağıdakıları bilmək lazımdır:

1. Sonu *ng* səs birləşməsi ilə qurtaran sözlər fars mənşəlidir. Məsələn: *ahəng, zəng, qəşəng, cəng, ləng* və s.

2. *j, g, p, ç* samitləri ilə başlayan bu sözlər fars mənşəlidir: *jalə; gənc, gil, gilə, gövhər, guşə; pər, pəri, pir, pərvaz; çarə, çarx, çarpayı, çağa, çadra* və s.

3. Tərkibində *a, ə* və *ə* (məsələn: *sazəndə, ahəstə, xanəndə, danəndə*), *i, a* və *a* (məsələn: *firavan, çirağban, xiyaban*), *i, ə* və a (məsələn: *zindəgan*), *ü, a* və *ə* (məsələn: *rüxsarə, dübarə*) saitləri olan üçhecalı sözlər ahəng qanununa tabe olmur, həm də fars mənşəlidir.

4. *-zadə; -stan, -ıstan, -istan, -ustan, -üstan; -dan* (şamdan); *-xana; -dar, -ədar* (əməkdar, mülkədar); *-pərəst; -şünas; -keş; -gər; -kar; -baz; -xor; -gir* (fəndgir, kəfgir); *-gah; -xah; -zar; -ran* (hökmran); *-vat* (xırdavat) şəkilçiləri fars mənşəlidir.

Azərbaycan sözləri ərəb və fars sözlərindən fərqlənir. Bu mənada aşağıdakıları bilmək lazımdır:

1. Uzun tələffüz olunan *a* (məsələn: *arif, alim* və s.), *ə* (məsələn: təəssüf, təəccüb və s.), *i* (məsələn: *təbiət, icad, irad* və s.), *u* (Füzuli, hökumət, sükunət və s.) saitli sözlər ərəb və fars mənşəlidir.

2. Sonu iki samitlə qurtaran sözlər, əsasən, ərəb və fars mənşəlidir: *hərf, qənd, zərb, cəhd, cəbr, nəsr, bəxt, mərd, qəlb, cəld* və s.

3. Qoşa saitli sözlər ərəb və fars mənşəlidir. Məsələn: *maarif, maaş, saat, əmtəə* və s.

4. Qoşa samitli sözlər, əsasən, ərəb və fars mənşəlidir. Məsələn: *qübbə, tibbi, cənnət, minnət, tərənnüm, təcəssüm, təəccüb* və s.

5. *i* saiti ilə başlanan sözlərdə onunla (i saiti ilə) yanaşı gələn *q, x, ş* samitli sözlər ərəb və fars sözləridir. Məsələn: *iqrar, ixtilaf, ixtiyar, işğal* və s.

6. *ba, bi, la, na* önşəkilçili sözlər ərəb və fars mənşəlidir. Məsələn: *baməzə, basəfa, bivəfa, bihal, laqeyd, laməkan, namərd, naxoş* və s.

7. *-dar, -kar, -baz, -pərvər, -keş, -saz, -xana, -xan, -kir, -şünas, -pərəst, -stan, -van, -ban, -xor* və s. son şəkilçili *mülkədar, əməkdar, tələbkar, kələkbaz, insanpərvər, qayğıkeş, saatsaz, kitabxana, qəzəlxan, möhtəkir, ədəbiyyatşünas, vəzifəpərəst, müftəxor* və s. sözlər ərəb və fars mənşəlidir**.**

Azərbaycan dili ilə fars dilinin qarşılıqlı əlaqəsinin tarixi çox qədimdir. Fars dilindən Azərbaycan dilinə söz daxil olduğu kimi, Azərbaycan dilindən də fars dilinə xeyli sözlər keçmişdir. Belə sözlər danışıq dili vasitəsi ilə fars dilinə keçmiş və fars dilinin lüğət tərkibində sabitləşmişdir. Müasir fars dilində Azərbaycan-türk sözləri hər iki xalq arasındakı siyasi, iqtisadi, mədəni ədəbi, dini əlaqələrin nəticəsində meydana çıxmışdır. Min illər boyu İran dövlətinə Azərbaycan türkləri başçılıq etmişdir. Bu da xalqlar arasında əlaqələrin – dil əlaqələrinin güclənməsinə şərait yaratmışdır. Və eyni zamanda Azərbaycan türklərinin nüfuzundan asılı olaraq fars dilinə Azərbaycan sözləri keçmişdir. Belə sözlər bədən üzvlərinin adını, ev heyvanları və həşərat adlarını, yeyinti məhsullarının, müxtəlif məişət vasitələrinin adını, əlamət və keyfiyyət adlarını, səmt, istiqamət adlarını, hal, vəziyyət adlarını, yaşayış yeri və məskən adlarını müxtəlif quş adlarını

və s.-ni əhatə etmişdir. Söz qruplarının bu cür sözləri əhatə etməsi də təsdiq edir ki, Azərbaycan dilindən fars dilinə və onun dialektlərinə keçmiş sözlərin tarixi qədimdir.

*Bədən üzvlərinin adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| qaş | ğaş |
| bud | bud |
| bəbək | bəbək |
| əng | əng |
| bağır | bəğur |
| səs | səs və s. |

*Ey heyvanları və həşərat adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| çəpiş | çəpeş |
| təkə (erkək keçi) | təkkə |
| keçi | xeççi |
| toğlu (6 aylıqdan 1 illiyə qədər qoyun) | toğli |
| körpə | körpe (lap kiçik qoyun balası) |
| arı | erru (nisbətən zəhərli iynəsi (neştəri) olan sarı rəngli kiçik arı) və s. |

*Yeyinti məhsullarının adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| dolma | dolme |
| qaymaq | ğeymağ |
| dələmə | dələme (pendir hazırlmaq üçün süd) |

| | |
|---|---|
| ağız (inək və ya qoyun doğandan sonra ilk üç gün ərzində sağılmış süd) | ağız//ağuz |
| yəxni (qovurma mənasında. Məs.: «Kitabi-Dədə Qorqud» dastanında:… qara qoyun *yəxnisindən* önünə gətirin; Q.Zakirin yaradıcılığında: Qədirin qədrini bil, tutulan quşdan ona göndər; üçün ver ikisi *yəxni*, biri dəxi kabab olsun). | yəxni (yağlı ətdən hazırlanan, bozbaşa oxşayan xörək adı, adi bozbaş, qaynanmış ət, ehtiyat saxlanmış ərzaq) və s. |

*Müxtəlif məişət vasitələrinin adlarını bildirən sözlər*

| *Azərbaycn dilində:* | *Fars dilində:* |
|---|---|
| dirək | tirək//dirək (çadırın ortasında duran və onu saxlayan ağac və dəmir dirək) |
| ocaq | ocaq |
| qayçı | ğeyçi |
| qundaq | ğondağ |
| qayış | ğeyiş |
| düymə | dogme |
| qaşıq | ğaşoğ |
| döşək | doşək//toşək//tuşək |
| sancaq | səncaq (bayraq, sancaq) və s. |

*Əlamət, keyfiyyət məzmunlu sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| yalqız | yalğoz (subay, ailəsiz, tək) |
| dinc | dinc (rahat, sakit, dinc) |

| | |
|---|---|
| kal | kal |
| al | al (qırmızı) |
| kök | kuk və s. |

*Səmt, istiqamət, mövqe anlayışı ifadə edən sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| yuxarı | yuxari |
| dib | teb və s. |

*Hal, vəziyyət mənasını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| ac | ac |
| sağ | sağ (sağlam, sağ-salamat mənasında) |
| dəli | dəlu və s. |

*Yaşayış yeri və məskən anlayışlı sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| yurd | yord və s. |

*Müxtəlif quş adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| quş | ğuş (qırğı, şahin, ov quşu) |
| qarğa | kərğa və s. |

*Hərəkət bildirən sözlərdən düzələnlər*

| *Azərbaycan dilində:* | *Fars dilində:* |
|---|---|
| aşırma | aşorme (palanın arxa hissəsində yerləşən enli qayış) |
| basma | basme (çap, çap etmə) |
| boğma | boğme (xalta, boyunluq, boyunbağı) |
| bağça | boğçe |
| buğlama | boğləme (yemək növü) |
| dişləmə (kiçik qənd) parçası ilə içilən çay, acı çay) | dişləme//teşleme |
| tikmə | tekme (zərli sapla ipək parça üzərinə naxış vurma) |
| qiymə (çox xırda döyülmüş ət, göyərti; çox xırda doğranmış ət və ondan hazırlanmış xörək) | ğeyme |
| qovurma | ğovorme//ğorme |
| qatma (kəndir və ya yundan eşilmiş qatma) | ğatme |
| salma (şirin çay) | salme |
| çığırtma (xörək adı) (ət və yumurta ilə bişirilən xörək) | çeğertme |
| çəkmə (ayaqqabının bir növü) | çəkme |
| yortma (löhrəm yeriş, yortma yeriş, yortma) | yortme |
| yağma (qarət, talan, soyğunçuluq) | yəğma |

| | |
|---|---|
| qablama (qulpsuz və qulplu qapağı olan kiçik qazança) | qableme (mis və ya aliminiumdan düzəldilmiş qab) |
| çapar | çapar//çəpər (çapar, qasid, xəbər aparıb-gətirən şəxs) |
| açar | açar (alət–açar) və s. |

***Rus mənşəli sözlər.*** Qədim tarixə malik olan Azərbaycan dilinin leksik tərkibinin zənginləşməsində rus dilinin müəyyən təsiri olmuşdur. Qədim dövrlərdən başlayaraq indiyə kimi rus dilindən dilimizə yüzlərlə söz keçmişdir. Həmin sözlərin dilimizə keçmə tarixini təxminən üç dövrə bölmək olar:

1) Qədim zamanlardan ta Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsinə qədərki dövr;

2) Azərbaycanın çar Rusiyası tərəfindən işğal edilməsi dövründən Sovet hakimiyyəti qurulana qədərki dövr;

3) Azərbaycanda Sovet hakimiyyəti yarandıqdan sonrakı dövr.

Rus dilindən Azərbaycan dilinə sözlər iki yolla keçmişdir:

a) ədəbi dil vasitəsilə;

b) danışıq dili vasitəsilə.

Hazırda da rus dilindən bu iki yol ilə söz alınır. Rus dilindən alınan sözləri məzmununa görə iki qrupa bölmək olar:

1) Məişətə aid olan sözlər. Məsələn: *stəkan, stol, stul, çaynik, adyal, bakal* və s.

2) Elm, texnika, sənaye, siyasət və s. sahələrə aid sözlər. Məsələn: *dekabrist, marksizm, leninizm, kolxoz, sovxoz* və s.

Dilimizə rus dilindən və rus dili vasitəsilə başqa dillərdən keçən sözlərdə bir sıra fonetik xüsusiyyətlər vardır. Həmin fonetik xüsusiyyətlər aşağıdakılardır.*

1) Sözün əvvəli yanaşı gələn iki samitlə başlayır: *kran, klub, traktor, plan* və s.

2) Birhecalı sözdə dörd samit olur: *şlanq, ştamp, şrift, şmidt* və s.

3) Sözün əvvəli *re* səs birləşməsi ilə başlayır: *realist, redaksiya, rektor, redaktor* və s.

4) Sözün əvvəli *para* ilə başlayır: *paralel, paraqraf, paraşüt* və s.

5) Sözün əvvəli *poli* ilə başlayır: *poliklinika, poliqrafiya, politexnikum* və s.

6) Sözün əvvəli *por* ilə başlayır: *portfel, portret, porsiya* və s.

7) Sözün əvvəli *radi* ilə başlayır: *radist, radiometr, radioqrama, radio, radioloq* və s.

8) Sözün əvvəli *rep* ilə başlayır: *replika, reportaj, repertuar* və s.

9) Sözün əvvəli *res* ilə başlayır: *restoran, respublika* və s.

10) Sözün əvvəli *ro* ilə başlayır: *rol, romb, roman, romans, rota* və s.

11) Sözün əvvəli *sem* ilə başlayır: *seminar, semestr, semasiologiya* və s.

---

* Rus dilindən və rus dili vasitəsilə başqa dillərdən dilimizə keçmiş sözlərin fonetik xüsusiyyətləri və misallar S.Cəfərovun «Müasir Azərbaycan dili» (Bakı, 1970, s. 58-61) kitabından götürülmüşdür.

12) Sözün əvvəli *ser* ilə başlayır: *seriya, servant, serviz* və s.

13) Sözün əvvəli *te* ilə başlayır: *tezis, telefon, teleqraf, teleskop, texnika, teoriya* və s.

14) Sözün əvvəli *fe* ilə başlayır: *ferma, fevral, feldşer, festival, feodal* və s.

15) Sözün əvvəli *fo* ilə başlayır: *folklor, fond, fonetika, fonem, forma* və s.

16) Sözün əvvəl *fil* ilə başlayır: *film, filial, filosof, filologiya, filarmoniya* və s.

17) Sözün əvvəli *ek* ilə başlayır: *ekran, ekipaj, ekskursiya, ekvator* və s.

18) Sözün əvvəli *el* ilə başlayır: *elastik, ellipsis, elektrik, elevator* və s.

19) Sözün əvvəli *ep* ilə başlayır: *epoxa, epizod, epidemiya, epitet, epiqraf* və s.

20) Sözün əvvəli *es* ilə başlayır: *eskiz, estafet, estrada, estetika* və s.

21) Sözün əvvəli *op* ilə başlayır: *opera, operasiya, opponent, oppozisiya, operator* və s.

22) Sözün əvvəli *me* ilə başlayır: *medal, mebel, metodika, metateza* və s.

23) Sözün əvvəli *ko* ilə başlayır: *kolxoz, komandir, komanda, komediya, komitet* və s.

24) Sözün əvvəli *ka* ilə başlayır: *kanal, kabinet, kamera, kalori* və s.

25) Sözün əvvəli *imp* ilə başlayır: *import, imperator, impuls, imperialist* və s.

26) Sözün əvvəli *mak* ilə başlayır: *maket, maksimum, Maksim, Makarenko, makaron* və s.

27) Sözün əvvəli *mik* ilə başlayır: *mikrob, mikrorayon, mikroskop* və s.

28) Sözün əvvəli *inst* ilə başlayır: *institut, instansiya, instinkt* və s.

29) Sözün əvvəli *dis* ilə başlayır: *disput, distansiya, disk, diskusiya, dissertasiya, dispetçer* və s.

30) Sözün əvvəli *de* ilə başlayır: *dekret, demokrat, demaqoq, depo, deputat, despot* və s. Azərbaycan dilində *deyinmək, deyingən, dedi-qodu, deşik* və s. sözlər vardır ki, onlar Azərbaycan dilinin özünəməxsus sözləridir.

31) Sözün əvvəli *ve* ilə başalyır: vedrə, *Venera, veksel* və s. Azərbaycan dilində *vergi, vermək* və s. sözləri vardır ki, onlar Azərbaycan dilinin özünəməxsus sözləridir.

32) Sözün əvvəli *aq* ilə başlayır: *aqronom, aqrar, aqrotexnika* və s.

33) Sözün əvvəli *avto* ilə başlayır: *avtobus, avtomobil, avtoqraf* və s.

34) Sözün son hecasında *o* saiti olur: *kino, motor, kolxoz* və s.

35) Sözün ikinci və ya son hecasında *e* saiti olur: *şinel, bufet, duet, dublet, duel* və s.

36) Sözün sonu *tr* ilə bitir: *teatr, metr, termometr, kilometr* və s.

37) Sözün tərkibində *i* və *a* saitləri yanaşı işlənir: *diametr, diaqram, dialoq* və s.

38) Sözün tərkibində *e* və *o* saitləri yanaşı işlənir: *geologiya, geoloq, geofizika* və s.

39) Sözün tərkibində *i* və *o* saitləri yanaşı işlənir: *bioloq, biokimya, biologiya* və s.

40) Sözün tərkibində *e* və *a* saitləri yanaşı işlənir: *teatr, reaktiv, reaksiya, real, realizm* və s.

41) Sözün sonu *iya* ilə bitir: *zoologiya, leksikologiya, mineralogiya* və s.

42) Sözün sonu *ist* ilə bitir: *maşinist, materialist, dualist, ilealist* və s.

43) Sözün sonu *izm* ilə bitir: *kapitalizm, humanizm, sosializm* və s.

44) Sözün sonu *iv* ilə bitir: *kollektiv, obyektiv, arxiv, subyektiv, passiv* və s.

Rus dili Azərbaycan dili üçün həm vasitəçi, həm də mənbə dil olmuşdur. Bununla yanaşı, rus dilinin özünə də başqa dillərdən, o cümlədən türk dillərindən sözlər daxil olmuşdur. Təbii ki, türk dilləri rus dili üçün vasitəçi və mənbə dil kimi çıxış etmişdir. Rus dilinə türk mənşəli sözlərin daxil olması bizim eranın I-VIII əsrlərində başlamışdır. Heç də təsadüfi deyildir ki, XII əsr abidəsi olan «İqor polku haqqında dastan»da türk sözlərinin geniş işləkliyi danılmaz həqiqət kimi çox mətləbdən xəbər verir. K.Mengesin «İqor polku haqqında dastan»da mövcud olan şərq ünsürləri, M.Fasmerin «Rus dilinin etimoloji lüğəti», O.Süleymenovun «Az-Ya», N.Baskakovun «Türk mənşəli rus soyadları» kitabı bir daha təsdiq edir ki, türk sözləri rus dilində dərin kök salmışdır. Onu da qeyd etmək lazımdır ki, rus dili ilə türk dili arasında mövcud olan əlaqəni bəzən bir tərəfin üstünlüyü istiqamətində götürərək rus dilinin vasitəçi və mənbə dil kimi rolunu şişirtmişlər. Halbuki türk dilləri də söz mübadiləsində rus dilinə mədəni təsirini göstərmiş, heç də türk sözlərinin rus dilinə nüfuzu az olmamışdır. Rus dilinə türk sözlərinin

keçməsində Azərbaycan dili vasitəçi bir rolda çıxış etməklə böyük rol oynamışdır. Xüsusilə, XIX əsrdə rus yazıçılarının Qafqazla, o cümlədən Azərbaycanla olan əlaqələrinin artması onların dilində (yaradıcılığında) Azərbaycan-türk sözlərinin yer tutmasına geniş imkan yaratmışdır. Azərbaycan dili vasitəsi ilə rus dilinə keçmiş türkizmlərin bəzilərinə diqqət yetirək:

*Milli yemək, içki növlərinin adı*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| plov | pilov |
| halva | xalva |
| şərbət | şerbet |
| qaymaq | kaymak |
| çaxır | çikir |
| şorba | şerba |
| araq | arak |
| balıq | balık |
| kabab | kebab |
| ayran | ayran |
| pendir | panir və s. |

*Sosial-iqtisadi, ictimai şəraitlə bağlı sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| dərviş | derbiş |
| aul | aul |
| savaş | sabaş |
| həkim | qakim |
| fəqir | fakir |
| əmanət | amanat |
| bəy | bek |

| | |
|---|---|
| nökər | nuker |
| xalvar | kalvar |
| kəbin | kabin və s. |

*Məişət əşyalarını və geyim adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| mütəkkə | mutaka |
| tuman (qadın geyimi) | tuman |
| çuxa | çuxa |
| araqçın | araqçin |
| kisə | kisa |
| həsir | qasil |
| tuluq | tuluk və s. |

*Heyvanat və bitkilərlə bağlı sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| eşşək | işak |
| qatır | katar |
| heyva | ayva |
| şaftalı | şeptalı |
| alça | alıça |
| qızıl gül | kızıl qul |
| çinar | çinar |
| badımcan | badridjan |
| qarpız | arbuz |
| tut | tut |
| qamış | kamış və s. |

*Təbiət hadisələrini və coğrafi anlayışları bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| boran | buran |
| tufan | tifan |
| çamır | çamur |
| duman | tuman |
| palçıq | balçuk |
| arx | arık |
| batdaq | batkak |
| orman | urman və s. |

*Geyim adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| arxalıq | arxaluq |
| yapınçı | epança |
| başlıq | başlık |
| çalma | çalma |
| şal | şal |
| şapka | şapka |
| papaq | papax |
| başmaq | başmak və s. |

*Hərbi sahəyə aid sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| karaul | karaul |
| ura (nida) | ura |
| kurqan (hərbi istehkam) | kurqan |
| xəncər | kinjal |
| yaraq (silah mənasında) | yaruk və s. |

*Heyvan adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| qarğa | karqa |
| çaqqal | şakal//çakal |
| porsuq | barsuq//borsuq |
| qaban | kaban |
| sazan (balıq növü) | sazan |
| sudaq (balıq növü) | sudak |
| şamay (balıq növü) | şamaya//şamalk və s. |

*Dini təsəvvürlə bağlı sözlər*

| *Azərbaycan dilində:* | *Rus dilində:* |
|---|---|
| molla | mulla |
| dərviş | derviş//derbış |
| mövla | maula |
| mürid | myurid |
| mürşid | murşid |
| şeyx | şeyx |
| imam | imam |
| namaz | namaz |
| Allah | Allax |
| div | div |
| cin | djin |
| şeytan | şaytan |
| ramazan | ramazan |
| əzrail | azrail |
| yezid (təriqət adı) | yazidi və s. |

*Familiya bildirən sözlər*

| *Azərbaycan-türk dilində:* | *Rus dilində:* |
|---|---|
| karaul (söz kimi işlənir) | Karaulov (familiya bildirir) |
| bazar (söz kimi işlənir) | Bazarov (familiya bildirir) |
| başmaq (söz kimi işlənir) | Başmakov (familiya bildirir) |
| boqatır (qədim türkcədə igid döyüşçü mənasında) | Boqatırev (familiya bildirir) |
| qaban (çöl heyvanı) | Kabanov (familiya bildirir) |
| almaz | Almazov (familiya bildirir) |
| kalpak | Kalpakov (familiya bildirir) |
| tuqan (tuqan//toğan türk dillərində quş növünü bildirir, Azərbaycan dilində bu sözdən əmələ gəlmiş familiya var) | Tuqanov (familiya bildirir) |
| kurqan | Kurqanov (familiya bildirir) |
| xan | Xanov (familiya bildirir) |
| baxça | Baxçeev (familiya bildirir) |
| qarpız | Arbuzov (familiya bildirir) və s. |

***Avropa mənşəli sözlər.*** Azərbaycan dilinin leksik tərkibində başqa bir sıra xalqların, o cümlədən avropa xalqlarının dillərinə aid olan sözlər də vardır ki, bu sözlər, əsasən, dilimizə rus dili vasitəsilə keçmişdir. Avropa mənşəli sözləri aşağıdakı kimi qruplaşdırmaq olar.[1]

*1) Latın sözləri.* Məsələn: *akademiya, akt, aspirant, assistent, auditoriya, qlobus, qonorar, diktatura, doktor, direktor, dissertasiya, institut, intonasiya* və s.

[1] Ərəb, fars, rus, qafqaz, avropa mənşəli sözlər barəsində S.Cəfərovun «Müasir Azərbaycan dili» (Bakı, 1970, s.43-61) kitabına istinad edilmişdir.

2) *Yunan sözləri.* Məsələn: *pedaqoq, avtomat, patriot, aqronom, azot, avtonom, atom, avtonomiya, qrammatika, demokratiya, dialektika, dialoq, dram, dramaturgiya, ideya, kafedra, metro, poema, poeziya* və s.

3) *İngilis sözləri.* Məsələn: *klub, kombayn, lift, mitinq, park, folklor, futbol, tunel, rels* və s.

*4) Fransız sözləri.* Məsələn: *avanqard, adres, albom, artist, balet, beton, bloknot, briqadir, büro, qastronom, depo, hektar, janr, loja, marşal, milyon, milyard, partizan* və s.

*5) Alman sözləri.* Məsələn*: abzas, marka, sex, ştat, bank, qalstuk, kurort, şlyapa* və s.

*6) İtalyan sözləri.* Məsələn*: ariya, balerina, benzin, duet, konsert, libretto, novella, pianino, solo, faşizm, opera, balkon* və s.

*7) Holland sözləri.* Məsələn*: matros, rupor, vımpel, kompas, reyd* və s.

Bundan başqa, dilimizin lüğət tərkibində ispan, polyak və s. dillərin də ünsürləri – sözləri vardır.

***Qafqaz mənşəli sözlər.*** Azərbaycan xalqı əsrlər boyu Qafqazda sakin olan xalqlarla qonşu olmuş və dostluq, qardaşlıq, mehribanlıq şəraitində yaşamışdır. Qafqazda yaşayan xalqlar arasındakı bu tarixi əlaqələr nəticəsində onların dilləri arasında da qarşılıqlı əlaqə yaranmışdır. Məsələn: Azərbaycan dilinə gürcü dilindən bir sıra sözlər keçmişdir. Məsələn: *çancur, berzen, çad, xarço, kinto, müşə, cəcə* və s. Tədqiqatlar göstərir ki, Azərbaycan dilindən gürcü dilinə daha çox söz daxil olmuşdur. Hətta Azərbaycan dili gürcü dilinə öz sözlərini verməklə bərabər ərəb və fars sözlərinin gürcü dilinə keçməsində də vasitəçilik rolunu oynamışdır. Bundan başqa,

Qafqaz mənşəli saxur, udin, avar dillərindən də dilimizə xeyli sözlər keçmişdir. Məsələn: *saxur, udin, avar* dillərindən dilimizə *xuqarı* (ağac qabığından səbət), *xingəl* (un xörəyi mənasında), *qoc* (şalban), *vidir* (dağda qoyun sürüsünün açdığı cığır), *qulp* (qab-qacaq dəstəsi), *axu* (dağda əkin yeri), *becid* (tez) və s. sözlər keçmişdir.

Qafqaz dillərinə Azərbaycan dilindən xeyli miqdarda türk-Azərbaycan mənşəli sözlər keçmişdir. Bu, Azərbaycan dilinin Qafqazdakı nüfuzu, oynadığı rol Qafqazda yaşayan xalqların ünsiyyət tələbatını ödəyən bir dil olmasını bir daha təsdiq edir. Qafqazda yaşayan xalqların dillərindən keçmiş türk-Azərbaycan sözlərinin sayı eyni deyil, müxtəlifdir. Azərbaycan-türk sözlərinin nüfuz etdiyi Qafqaz dillərindən biri də erməni dilidir. Türk-Azərbaycan sözlərinin erməni dilinə güclü nüfuz etməsini erməni tədiqatçılarının özləri də etiraf etmişlər. Məsələn: H.A.Acaryan 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayda «Türk və erməni dillərinin qarşılıqlı əlaqələri» adlı məruzəsində qeyd edirdi ki, «Adətən bir dil başqa dildən isimləri, sifətləri, nadir hallarda isə feilləri alır. Erməni dili isə bunlarla yanaşı, türk dillərindən həm də miqdar və sıra saylarını, zərfləri, bağlayıcıları və s. almışdır».[1] Erməni dilindəki alınma sözlər iki qrupa bölünür:

*a) erməni ədəbi dilində işlənən Azərbaycan sözləri,*

*b) erməni danışıq dilində və dialektlərində işlənən Azərbaycan sözləri.*

[1] M.Məmmədov. Dillərin qarşılıqlı əlaqəsi. Yerevan, 1986, s. 9.

*a) erməni ədəbi dilində işlənən Azərbaycan sözləri:*

*Qohumluq münasibətini bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
| --- | --- |
| bala | bala |
| bibi | bibi |
| dayı | dayı |
| oğul | oğul və s. |

*Bədən üzvlərinin adını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
| --- | --- |
| boğaz | boğaz |
| boy | boy |
| bud | bud |
| damar | damar və s. |

*Heyvan adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
| --- | --- |
| qoç | qoç |
| toğlu | toğlu |
| təkə | taka |
| buğa | buğa |
| tula | tula və s. |

*Geyim və bəzək şeylərinin adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
| --- | --- |
| arxalıq | arxaluq |
| başlıq | başlığ |
| qaragül (baş geyimi) | qaraqul |
| papaq | papax və s. |

*Ağac, kol, bitki, tərəvəz, meyvə, göyərti adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| tut | tut |
| xartut | xartut |
| qamış | ğamış |
| qantəpər | qantapa |
| yovşan | yavşan |
| tütün | tutun |
| əvəlik | aveluq |
| badımcan | badircan və s. |

*Təsərrüfat və istehsalatla əlaqədar olan sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| araba | araba |
| burğu | burğu |
| qamçı | qamçu |
| örkən | arqan |
| çəpər | çapar |
| kotan | qotan |
| barama | barama |
| ocaq | ocax və s. |

*Rütbə, vəzifə bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| ağa | ağa |
| bəy | beq |
| xan | xan |
| xanım | xanum |
| nökər | nokar və s. |

*Ev əşyalarının adını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| qazan | qazan |
| qapaq | qapaq |
| döşək | doşaq |
| yorğan | yorğan |
| balış | baliş və s. |

*Musiqi alətləri və oyun havalarının adını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| bayatı | bayatı |
| qaytağı | qaytağı |
| düdük | duduq |
| tərəkəmə | tarafjama və s. |

*Peşə, sənət şeylərinin adını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| biz | biz |
| boğça | puğçe |
| çoban | çoban və s. |

*Quş adlarını bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| anac | anac |
| bayquş | bayquş |
| qaz | ğaz |
| turac | turac |
| tutuquşu | tutıquşu və s. |

b) *erməni danışıq dilində və dialektlərində işlənən Azərbaycan sözləri:*

*Əşya bildirən sözlər*

| *Azərbaycan dilində:* | *Erməni dilində:* |
|---|---|
| aşçı (xörək bişirən) | aşçi |
| ağız | ağız |
| ağıl | ağal |
| arxac (qoyun, mal yatağı) | arxac |
| boşqab | boşxab |
| qayış | ğayış |
| qab | kab//xab |
| kürk | kurk |
| yaraq | yarağ və s. |

*Erməni dilində türk-Azərbaycan dilindən alınmış şəxs adları və familiyalar da az deyildir.* Məsələn:

| *Şəxs adları:* | *Familiyalar:* |
|---|---|
| Donmaz (Dönməz) | Ulubabayan |
| Yaşar | Dəmirçiyan |
| Elbayi (Elbəyi) ` | Ağayan |
| Ağasi (Ağası) | Atabekyan |
| Ağacan | Qaraqozyan |
| Aslan | Qoçinyan |
| Dursun | Verdiyan |
| Babasi (Babası) | Saruxanyan |
| Atabek (Atabəy) | Aydınyan |
| Ağabek (Ağabəy) | Babacanyan və s. |
| Alibek (Əlibəy) | |
| Balabek (Balabəy) | |

Göründüyü kimi, türk-Azərbaycan sözləri hesabına erməni dilinin lüğət tərkibinin zənginləşməsi prosesi getmişdir. Bu prosesdə, təbii ki, Azərbaycan dilinin ermənilər tərəfindən işlədilməsi və ünsiyyət vasitəsi kimi onların tələbatını ödəməsi heç də az rol oynamamışdır. Qeyd etmək lazımdır ki, ermənilər Azərbaycan dilindən minlərlə söz almışdır. Bu da Azərbaycan dilinin nüfuzlu olduğunu təsdiq edən faktdır.

***Adi və beynəlmiləl alınma sözlər.*** Azərbaycan dilinin leksik tərkibindəki alınma sözlər işlənmə dairəsinə, məna və mahiyyətinə görə iki yerə bölünür:

*a) adi alınma sözlər*

*b) beynəlmiləl alınma sözlər.*

*Adi alınma sözlər* ancaq keçdiyi və mənsub olduğu dillərdə bu və ya başqa anlayışı ifadə edən alınma sözlərə deyilir. Məsələn: *qanun, əsas, əlamət, zövq, kitab* və s.

*Beynəlmiləl alınma sözlər* müxtəlif sistemli bir sıra dünya dillərində işlənib elmə, texnikaya, siyasətə, mədəniyyətə və incəsənətə aid anlayışları ifadə edən sözlərdir. Məsələn: *kommunizm, kapitalizm, respublika, opera, balet, elektrik, kosmos, kosmonavt, rektor, doktor, professor, dosent, radio, aeroport* və s.

*ƏRƏB MƏNŞƏLİ SÖZLƏR:*

| | | |
|---|---|---|
| din | mövhumat | ilahiyyət |
| mələk | mikayıl | israfil |
| sirat | vücud | xaliq |
| vəhdət | qiyamət | əvvəl |

| | | |
|---|---|---|
| cəbrayıl | axirət | malik |
| möcüzə | ayə | şeytan |
| axır | rahim | adət |
| hədis | alim | əla |
| rəhim | qabil | qəbul |
| aləm | qəlb | ərizə |
| məlum | məlumat | müslim |
| iqbal | salam | səlim |
| arif | amal | əməl |
| aşiq | cahil | cəhalət |
| məchul | bərq | qərq |
| aciz | bəsit | səlis |
| şərq | qəsəm | qasim |
| səxavət | qisas | qəti |
| qatil | məktub | katib |
| kitab | məktəb | mədh |
| mədhiyyə | mədaxil | məxaric |
| xərc | xaric | ixrac |
| idxal | daxil | dəxil |
| zahir | zühur | məzahir |
| Əli | Məhəmməd | Musa |
| Mustafa | Xəlil | Süleyman |
| Səməd | vəzifə | Zərifə |
| Zeynəb | Səltənət | Gülsüm |
| Zibeydə | Ayişə | Afət və s. |
| islam | allah | |
| molla | aqibət | |

*FARS MƏNŞƏLİ SÖZLƏR:*

| | | |
|---|---|---|
| tava | abgərdən | lüleyin |
| zinət | aftafa | astana |
| xəkəndaz | cəftə | taxt |
| avadan | həyət | şəkər |
| çarpayı | qənd | abqora |
| şəkərbura | düşbərə | plov |
| gülab | sirkə | nəlbəki |
| kasa | fincan | külüng |
| nizə | şana | çovdar |
| noxud | xiyar | aram |
| kətan | mahud | büt |
| sakit | güzəşt | bazar |
| büsat | viran | dərgah |
| qəm | dəm | dildar |
| dəst | dilbər | əgər |
| kuzə | girdab | gövhər |
| gərdən | xanəndə | nazənin |
| nazəndə | nərd | zər |
| Natəvan | Peyman | pəst |
| nuş | səda | fürsət |
| səbzə | xəndan | Xuraman |
| xaniman | cəngavər | Cahangir |
| Xurşud | şivə | pərvərdigar və s. |
| şam | badə | |

*RUS MƏNŞƏLİ SÖZLƏR:*

| | | |
|---|---|---|
| şkaf | şifoner | bufet |
| stol | stul | stəkan |
| qrafin | çaynik | samovar |

| | | |
|---|---|---|
| fənər | adyal | bakal |
| vedrə | şunur | vaza |
| kostyum | palto | şlyapa |
| krant | trubka | orfoqrafiya |
| qrammatika | sintaksis | kosmos |
| kosmonavt | zavod | fabrik |
| doktor | dosent | aqronom |
| texnik | elektrik | geologiya |
| mineralogiya | fizika | mikrofon |
| telefon | televizor | kolxoz |
| traktor | kombayn | ekskavator |
| kran | asfalt | kanalizasiya |
| melodiya | fleyta | kapelmeyster |
| dirijor | teatr | kino |
| foye | loja | balerina |
| not | skripka | foto |
| fotoqraf | soldat | leytenant |
| polkovnik | general | rota |
| marşal | polk | diviziya |
| katyuşa | pulemyot | tank |
| qlobus | pero | ruçka və s. |
| lineyka | sumka | |

## *AVROPA MƏNŞƏLİ SÖZLƏR*

| *Latın sözləri:* | *Yunan sözləri:* | *İtalyan sözləri:* | *Holland sözləri:* |
|---|---|---|---|
| akademiya | omonim | ariya | matros |
| aspirant | sinonim | opera | rupor |
| senat | antonim | libretto | kompas |
| qlobus | astronomiya | tenor | reyd və s. |
| qradus | qrammatika | fortepiano | |
| respublika | ideya | balerina | |
| auditoriya | dram | arka | |
| qonorar | dramaturgiya | basta | |
| dekan | kafedra | dukat | |
| diktor | metro | karnaval | |
| rektor | filosof | valyuta | |
| direktor | filoloq | banda | |
| senzura | leksika | balkon | |
| notarius | leksikologiya | kvartet | |
| klinika | semasiologiya | konsert | |
| poliklinika | poema | novella və s. | |
| arxivarius və s. | telefon | | |
| | dialektika | | |
| | atom və s. | | |

| *Fransız sözləri:* | *İngilis sözləri:* | *Alman sözləri:* |
|---|---|---|
| abajur | blok | lift |
| avanqard | vağzal | mundir |
| adres | rels | yefreytor |
| albom | tramvay | orden |
| artist | klub | rota |

| | | |
|---|---|---|
| balans | boykot | feldmarşal |
| banderol | mitinq | ştap |
| bloknot | lider | baletmeyster |
| balet | büdcə | fleyta |
| beton | tort | vafli |
| büro | futbol | flaq |
| brilyant | bifşteks | kitel |
| vineqret | basketbol | futlyar və s. |
| depo | voleybol | |
| desant | boks | |
| loja | dispetçer və s. | |
| janr | | |
| hektar | | |
| roman və s. | | |

*QAFQAZ MƏNŞƏLİ SÖZLƏR*

| *Saxur, udin, avar sözləri:* | *Gürcü sözləri:* | *Erməni sözləri:* |
|---|---|---|
| xuqarı – ağac qabığından səbət | xarço | andır – yiyəsiz |
| xingəl – un xörəyi mənasında | kinto | dığa – uşaq və s. |
| qoc – şalban | qavat (mülkədar) | |
| vidir – dağda qoyunun açdığı cığır | cəcə | |
| qulp – qab-qacaq dəstəsi | cincar – gicitkən və s. | |
| axu – dağda əkin yeri | | |
| becid – tez və s. | | |

*MONQOL DİLİ İLƏ ORTAQLI OLAN SÖZLƏR*

| *Azərbaycanca:* | *Monqolca:* | *Azərbaycanca:* | *Monqolca:* |
|---|---|---|---|
| sor | sur | soraq | suraq |
| saqqal | sakal | qara | xar |
| göy | qöge | altun | altan |
| dəmir | tömör | qarın | nariyi |
| dinlə | tinqşa | ayran | ayran |
| balta | bolti | bulaq | bulağ |
| car | jar | yara | yari |
| il | jil | dil | til |
| ertə | erte | elçi | elçi |
| bel | bel | zindan | zindan |
| boz | bor | ər | er, kişi |
| çiçək | tsetsek | dal | dal, kürək |
| olmaq və s. | oldux və s. | damğa və s. | tamqa və s. |

*QIPÇAQ VƏ OĞUZ QRUPU DİLLƏRİ İLƏ*
*ORTAQLI OLAN AZƏRBAYCAN SÖZLƏRİ:*

| | | |
|---|---|---|
| çalağan | torağay | duş (yuxu) |
| burulğan | yarğan | erişmək (çatmaq, yetişmək) |
| kəsəyən | mişovul | dalğın |
| qırqovul | qıpçaq | qaraca |
| anmaq | ulu | qocaman |
| bağırsaq | aş | qaya |
| gicitkən | sarımsaq | yasdıq |
| canavar | süpürgə | satdıq |
| qılmaq | can-baş | tapdıq |
| tup (bayraq növü) | yapalaq | sandıq və s. |
| ün (səs) | çin (doğru) | |

## *ÜMUMTÜRK DİLLƏRİ İLƏ ORTAQ OLAN AZƏRBAYCAN SÖZLƏRİ*

| *Şəxs əvəzlikləri:* | *Saylar:* | *Feillər:* |
|---|---|---|
| mən | bir | atmaq |
| sən | iki | gəlmək |
| o | üç | getmək |
| biz | dörd | durmaq |
| siz | beş | qaçmaq |
| onlar və s. | altı və s. | oturmaq və s. |

# İŞLƏNMƏ DAİRƏSİNƏ GÖRƏ FƏRQLƏNƏN SÖZ QRUPLARI

Müasir Azərbaycan ədəbi dilindəki sözlər yalnız mənşəyinə, aktiv və passivliyinə görə yox, həm də işlənmə dairəsinə görə bir-birindən fərqlənirlər. Onu da qeyd edək ki, Azərbaycan dilində danışanların hamısı eyni biliyə, dünyagörüşə malik deyildir. Ona görə də insanların *lüğət ehtiyatı* da bir-birindən fərqlənir. Həm bunu, həm də *sözlərin istifadə dairəsini* nəzərə alaraq dilimizin leksikasının işlədilmə dairəsini üç qrupa ayırmaq olar:

I. Ümumişlək sözlər.
II. Məhdud dairədə işlədilən sözlər.
III. Xüsusi sözlər.

**Qeyd***: Məhdud dairədə işlənən sözlərə* daxil olan söz qrupuna dialekt sözlər, ictimai-siyasi sözlər, idman və hərbi sözlər, arqo və jarqon sözlər, texniki sözlər, peşə-sənət sözləri, köhnəlmiş sözlər, neologizmlər, loru sözlər, vulqar sözlər və s. daxildir.

**Ümumişlək sözlər.** Bu sözlər hər bir azərbaycanlıya məlum olan sözlərdir. Ümumişlək sözlər dilin lüğət tərkibinin özülüdür. Dili bunlarsız təsəvvür etmək olmaz. Əks təqdirdə dil quru görünər. Bu sözlər gündəlik tələblərə cavab verir. Məişət üçün zəruri anlayışı əhatə edir. Bütün üslublarda

işlənir. Hamı üçün aydın və anlaşıqlıdır. Ümumişlək sözlərlə müqayisədə köhnəlmiş sözlər, dialektizmlər, neologizmlər, arqo, jarqon sözlər və digər söz qrupları müəyyənləşə bilir. Ümumişlək sözlər digər söz qrupları ilə müqayisədə daha çox işlətdiyimiz sözlərdir. Yəni ümumişlək sözləri tez-tez işlədirik və onun mənası hamımıza aydın olur. Ancaq az-az işlətdiyimiz sözlərin mənası isə hamıya aydın olmur. Məsələn:

| *Ümumişlək sözlər:* | *Ümumişlək olmayan sözlər:* |
|---|---|
| adam | alpinist |
| uzaq | antraktika |
| ölkə | materik |
| ürək | atmosfer |
| günəş | geoloq |
| göz | kompas |
| işıq | relyef |
| soyuq | horizontol |
| dəniz və s. | dirillometr və s. |

Sol sütundakı sözlərin mənası hamıya aydın olduğu halda, sağ sütundakı sözlərin mənası hamıya aydın deyildir. Ona görə də sol sütundakı sözlər ümumişlək, sağ sütundakı sözlər isə ümumişlək olmayan sözlərdir.

Ümumişlək sözləri aşağıdakı qruplar üzrə təsnif etmək mümkündür:

I. *Ad bildirənlər.* Məsələn: *daş, torpaq, su, çay* və s.

II. *Əlamət və keyfiyyət bildirənlər.* Məsələn: *ağ, qara, çirkin* və s.

III. *Miqdar bildirənlər.* Məsələn: *beş, üç, on* və s.

IV. *Əvəzliklər, yaxud bu və ya digər nitq hissəsinin yerində işlənənlər.* Məsələn: *mən, sən, bütün* və s.

V. *Hal-hərəkət bildirənlər.* Məsələn: *oxumaq, yatmaq* və s.

VI. *Məkan və zaman bildirənlər.* Məsələn: *axşam, irəli* və s.

Ümumişlək sözlər müxtəlif nitq hissələrinə aid ola bilir.

Məsələn:

| *İsimlər:* | *Sifətlər:* | *Saylar:* | *Əvəzliklər:* | *Feillər:* |
|---|---|---|---|---|
| yağış | çılpaq | bir | o | çəkmək |
| bahar | boz | beş | bu | almaq |
| bulud | qara | on | mən | ölçmək |
| duman | quru | qırx | sən | durmaq |
| çay | yaş | əlli | biz | getmək |
| bulaq | ağ | yüz | onlar | boğmaq |
| bağ və s. | yaşıl və s. | üç yüz və s. | hər və s. | udmaq və s. |

| *Zərflər:* | *Qoşmalar:* | *Bağlayıcılar:* | *Ədatlar:* |
|---|---|---|---|
| aşağı | üçün | və | axı |
| yuxarı | ötrü | ki | kaş |
| alt | görə | ilə (la, lə) | bəs |
| üst | kimi | çünki | lap |
| axşam | sarı | madam ki | qoy |
| gecə | doğru və s. | əgər | məgər |
| gündüz və s. | | hərgah və s. | ha |
| | | | ki və s. |

| *Modal sözlər:* | *Nidalar:* |
|---|---|
| doğrusu | ay |
| həqiqətən | vay |
| sözsüz | oho |
| nəhayət | ah |
| xülasə | ox |

| | |
|---|---|
| zənnimcə | uf |
| bizcə | hey |
| fikrimcə və s. | xux və s. |

Bütün bu deyilənləri nəzərə alaraq ümumişlək sözlərə belə bir tərif vermək olar: *Hamı tərəfindən başa düşülən, bütün üslublarda işlədilən, nitqdə daha çox istifadə olunan, ad, əlamət, keyfiyyət, miqdar, zaman, məkan, hərəkət* və s. *bildirən sözlərə ümumişlək sözlər deyilir*.

## KÖHNƏLMİŞ SÖZLƏR

Dilimizin lüğət tərkibindəki sözlərdən bir qismi fəal şəkildə işləklikdən geridə qalır. Fəal işləkliyi olmayan belə sözlər *köhnəlmiş sözlər* adlanır. Məsələn: *əhfad* (nəsil), *bivə* (dul), *leyk* (ancaq), *xud* (özü), *göftar* (söhbət), *sərməst* (kefli, sərxoş), *siyah* (qara), *huşyar* (ayıq, sayıq), *bəhr* (dəniz), *bülənd* (yüksək, uca), *dərdmənd* (dərdli, dərd sahibi), *mah* (dolğun ay, bədr), *ab* (su), *bad* (külək, yel), *xab* (yuxu), x*ak* (torpaq) və s. sözlər artıq müasir Azərbaycan ədəbi dilində işlənmir. Ona görə ki, bu sözlər müasir ədəbi dilimiz üçün köhnəlmişdir.

Köhnəlmiş *sözlər müəyyənləşərkən əsas meyar dilin müasir vəziyyətidir.* Dilin müasir vəziyyəti hər hansı sözün köhnəlməsini üzə çıxarır. Köhnəlmiş sözlər müəyyənləşərkən tarixilik prinsipindən istifadə olunur. Məsələn: XIX əsrdə işlənmiş *yüzbaşı, girov, yasovul* və s. sözlər hazırkı dövrdə köhnəlibdir. Bunu yalnız tarixilik prinsipi əsasında müəyyən etmək olur. Azərbaycan dilində elə köhnəlmiş sözlər də vardır

ki, onlar yalnız Müasir Azərbaycan ədəbi dili üçün köhnəlmişdir. Bu sözlər vaxtilə ədəbi dilimizdə işlənsə də, indi yalnız dialekt və şivələrimizdə işlənir. Məsələn: *ün* (səs), *yazı* (çöl), *suç* (günah), *varmaq* (getmək), *iraq* (uzaq), *əski* (qədim), *andırmaq* (yada salmaq), *bayımaq* (varlanmaq – Bu söz Qazax şivəsində *bay olmaq* ifadəsi ilə işlənir və «xoşbəxt olmaq» mənasını bildirir: Səni görüm balaların *bay olsun*), *sayru* (xəstə), *qarımaq* (qocalmaq), *dov* (üstün, üstün gəlmək), *duş* (yuxu, röya), *yağı* (düşmən), *yayaq* (piyada), *yenmək* (üstün gəlmək, məğlub olmaq), *yava* (pis adam), *sarp* (çətin, sərt) və s. Yaxud, ədəbi dilimizdə köhnəlmiş, ancaq dialekt və şivələrimizdə işlənən ay və günün vaxtlarının adları: Məsələn: *ay adları*: quyruq doğan ay (avqustun ikinci yarısı), qora bişirən ay (avqust), maral böyürən ay (oktyabrın 10-dan axırına kimi), elbaşı yaylaqdan qayıdan ay (sentyabr), oylaq qıran ay (martın 10-dan sonra), comuş qıran ay (martın 23-dən sonra), döl ayı (aprel), naxırqıran (payızın son ayı), böyük çilə (qışın birinci 40 günü), kiçik çilə (qışın ikinci ayının son 20 günü), bozay.

*Günün vaxtlarının adları:* gün çeşdə qalxan vaxt (səhər saat 10-11 radələri), ilkindi (axşam üstü), səzərəndə (yenicə işıqlananda), şər çalanda (şər qarışanda).

Bəzi köhnəlmiş sözlər isə ümumdil üçün köhnəlmiş sözlərdir. Bu cür sözlər vaxtilə ədəbi dilimizdə işlənsə də, indi nə ədəbi dilimizdə, nə də dialekt və şivələrimizdə işlənir. Məsələn: *ut* (abır-həya), *sağ* (salamat), *uz* (uzaq), *qut* (səadət), *ırlmaq* (nəğmə oxumaq), *yavuz* (pis adam, acıqlı), *irmək* (çatmaq, yetmək, qovuşmaq), *yanğu* (əks-səda), *yoğurd* (qatıq), *sür* (sümük, ilik), *us* (ağıl, huş), *eş* (dost, yoldaş, şərik), *əxi* (qardaş) və s.

Köhnəlmiş sözlərə belə bir tərif vermək olar: *Vaxtilə ədəbi dilimizdə işlənmiş, müasir ədəbi dilimizdə işlənməyən sözlərə köhnəlmiş sözlər deyilir.*

Dildə sözlərin köhnəlməsi səbəblərini aşağıdakı kimi qeyd etmək olar:

1) Əşyanı, hadisəni, anlayışı ifadə edən hər hansı bir söz öz işləkliyini itirir, nəticədə əşya, hadisə, anlayış başqa bir sözlə ifadə olunur. Əşyanı, hadisəni, anlayışı bildirən əvvəlki söz işləkliyini itirdiyi üçün dilin lüğət tərkibinin passiv hissəsinə keçir.

2) Həyatda, cəmiyyətdə vaxtilə mövcud olmuş hər hansı əşya, hadisə, anlayış bir müddətdən sonra öz əhəmiyyətini, mövcudluğunu, həyatiliyini itirir. Nəticədə həmin əşyanı, hadisəni, anlayışı ifadə edən söz də dildən çıxır.

3) Eyni əşya, hadisə, anlayış bir neçə sözlə adlandırılır. Həmin sözlərdən biri öz əhəmiyyətini artıraraq aktivləşir, digəri isə passivləşir və nəticədə köhnəlir: *tamu*-cəhənnəm, *uçmaq*-cənnət, *miz*-stol, *soba*-peç və s.

4) Xalqın düşüncə tərzinin və ictimai-siyasi həyatının inkişafı ilə əlaqədar olaraq hər hansı sözün ifadə etdiyi əşya, hadisə, anlayış köhnəlir. Bu proses dildə bir qanunauyğunluq kimi özünü göstərir. Köhnəlmiş əşya, hadisə və anlayışları ifadə edən sözlər də, təbii olaraq, istifadədən düşür və dilin lüğət tərkibində dəyişmə prosesi gedir.

Köhnəlmiş sözlər bir-birindən köhnəlmənin dərəcəsinə görə fərqlənir və buna görə də iki qrupa ayrılır: 1) Müasir Azərbaycan ədəbi dili üçün köhnəlmiş sözlər, 2) Ümumdil üçün köhnəlmiş sözlər. Yuxarıda hər iki qrupa daxil olan köhnəlmiş sözlərdən bəhs olunmuşdur.

Köhnəlmiş sözlər müasir dilimizdə öz izini müxtəlif şəkildə qoruyub saxlayır. Bunları əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

a) müasir dilimizdə işlənməyən və asemantikləşmiş şəkildə mövcud olanlar: *ba – bağ, bağlamaq, bardaş* və s. sözlərdə (bağlamaq mənasında), *qa – qarmaq, qapı, qapmaq* və s. sözlərdə (tutmaq mənasında), *il – ilgək, ilmə, ilxı* və s. sözlərdə (yığışmaq mənasında) öz izini saxlamışdır.

b) müasir dilimizdə müstəqil söz kimi işlənməyən, atalar sözlərinin, zərbi-məsəllərin, ifadələrin tərkibində qalmış sözlər: Dini *dinara* satan dindən də olar, dinardan da; Həmişə *şaban,* bir dəfə *ramazan;* Gün doğan salamatdır, gün batan *məlamətdir*; Aydan *arı*, sudan duru; *Qarayazı* və s. Bu misallarda *dinar* sözü pul mənasında, *şaban, ramazan* sözləri ay mənasında, *məlamət* sözü xəstəlik mənasında, *yazı* sözü çöl mənasında işlənmişdir. Beləliklə, *dinar, şaban, ramazan*, *məlamət, arı, yazı* sözləri müasir dilimizdə müstəqil söz kimi qeyd olunan mənalarda işlənmir.

c) müasir ədəbi dilimizdə işlənməyən, vaxtilə ədəbi dilimizdə işlənmiş sözlər: *yanşax* – el aşığı, *ozan* – aşıq, *irişmək* – catmaq, *əsrük* – sərxoş, *yey* – yaxşı və s.

ç) müasir ədəbi dilimizdə işlənməyən, vaxtilə ədəbi dilimizdə işlənmiş ərəb-fars sözləri: *sərf-nəhv* (qrammatika), *şövtiyyat* (fonetika), *rəfiq* (yoldaş) və s.

*Azərbaycan dilindəki köhnəlmiş sözlər iki yerə bölünür:*

I. *Tarixizmlər*

II. *Arxaizmlər.*

I. ***Tarixizmlər.*** Tarixizmlər ifadə etdiyi əşya, hadisə və məfhumla birlikdə köhnəlmiş sözlərdir. Məsələn: *qazı,*

*yasovul, cüt, çuxa, qurşaq, qolçomaq, rəncbər, divanbəyi, əba, başmaq, arxalıq, çarıq, pristav, naib, qubernator* və s. İctimai-siyasi, mədəni-məişət həyatına aid olan köhnəlmiş əşya və hadisələrin adları tarixizm adlanır. Tarixizmlər müxtəlif sahələrə aid ola bilir. Sahələr üzrə tarixizmləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. *Vəzifə adı bildirənlər. Məsələn: qubernator, naib, qaradovoy, çavuş, darğa, qazı, jandarm, uryadnik, yüzbaşı, paşa, koxa, darğa, pristav, naçalnik, qorodonaçalnik, tacir* və s.

2. *Silah adı bildirənlər.* Məsələn*: qalxan, şeşpər, aynalı, berdanka, nizə, ox, yay, toppuz* və s.

3. *Ölçü, çəki adı bildirənlər.* Məsələn*: tağar (25 pud), çanax (8 kq), uruf (200 qr), girvənkə (400 qr), arşın, sajin, ağac (ölçü vahidi), misqal (4 qr), xalvar (25 pud), isdil (300 qr), pud (16 kq), tutam (bir qarış), batman (8 kq), çərək (2 kq)* və s.

4. *Geyim adı bildirənlər.* Məsələn: *çadra, çarşab, çuxa, qurşaq, əba, kaftan, arxalıq, çarıx, belbağı* və s.

5. *Alət adı bildirənlər.* Məsələn: *xış, cüt, cəhrə, şana, sacayaq, kürə, vəl, ding, sini, məcməyi* və s.

6. *Dini anlayış bildirənlər.* Məsələn: *dərviş, mürşid, şetan, cin, mərsiyyə, cadugər, cadu* və s.

7. *Müəssisə adı bildirənlər.* Məsələn: *qazamat, mollaxana, darülfünun, seminariya* və s.

8. *Silk adı bildirənlər: mülkədar, xan, bəy, nökər, muzdur* və s.

9. *Vergi adlarını bildirənlər: biyar, töycü, bac* və s.

10. *Ticarət adlarını bildirənlər: baqqal, sövdəgər, sələmçi, bəzzaz* və s.

11. *Təşkilat adlarını bildirənlər: narkom, raykom, icraiyyə komitəsi, rabfak, torqsin* və s.

12. *Yarış adlarını bildirənlər: staxanovçu, papaninçilər, çelyuskinçilər* və s.

13. *Yer adını bildirənlər: Quba meydanı (Bakıda indiki Füzuli bağı), Qoşaqala qapısı (Bakıda), Beş mərtəbə (Bakıda)*və s.

**Qeyd:** Bəzi tarixizmlər dövrün, zamanın tələbindən asılı olaraq, dilin lüğət tərkibinin aktiv fonduna daxil olmuşdur. Məsələn: *mədrəsə, mollaxana, gimnaziya, bəy* və s.

II. ***Arxaizmlər.*** Arxaizm sözünün mənası «qədim» deməkdir və yunan mənşəli (archaios) sözdür. Arxaizmin növləri bunlardır:

1.Lüğəvi arxaizmlər;

2.Fonetik arxaizmlər.

*1. Lüğəvi arxaizmlər* sözün ifadə etdiyi anlayışla bağlı olan əşya və hadisənin qalması, lakin ya sözün özünün, ya da onun mənasının köhnəlməsidir. Məsələn: *sərf* - morfologiya, *nəhv* - sintaksis, *qazamat* - dustaqxana, *darülfünun* - universitet, *bulmaq* - tapmaq, *yazı*-çöl**,** *dışarı* - kənar, xaric, *ozan*-*varsaq*-*yanşaq*-aşıq və s. Lüğəvi arxaizmlər iki yerə ayrılır:

a) leksik arxaizmlər;

b) semantik arxaizmlər.

*a) leksik arxaizmlər.* Leksik arxaizmlər əşya və hadisələri ifadə etməkdən ayrılıb, tamamilə arxaik plana keçən sözlərdir. Məsələn: *ayıtmaq* - demək, *ay* -söyləmək, *əsrük* - sərxoş, *yey* - yaxşı, *irişmək* - çatmaq, *uyumaq* - yatmaq, *iraq* - uzaq, *yağı* -

düşmən, *arı* - təmiz, *yazı* - çöl, *so* - söz, *varmaq* - getmək, *altun* - qızıl, *ağac* - ölçü vahidi, *suç* - günah, *assı* –fayda, xeyir, *qarağu*-kor, *qu*-səs, *bayımaq*-varlanmaq, sevinmək, uğur qazanmaq və s. Misallara diqqət yetirək:

Son peşmanlıq *assı* qılmaz (Oğuznamə) – Son peşmanlıq faydasız qalmaz. İş qolayın issi bilir, anınçun *assı* bulur (Oğuznamə) – İşin yaxşısını sahibi bilir, ona görə fayda görür. *Qarağu* legləgin yuvasın haq yapar (Oğuznamə)- Kor leyləyin yuvasını haq düzəldər. *Qarağudan* şaşı yegdir (Oğuznamə)- Kordansa çaş olmaq yaxşıdır. Qadir tanrı verməyincək ər *bayımaz* (Oğuznamə)- Qadir Tanrı verməsə kişi varlanmaz. Oğuz yumundan *bayımışdır* (Oğuznamə)- Oğuz duadan varlanmışdır və s.

*b) semantik arxaizmlər.* Semantik arxaizmlər öz əvvəlki formasını saxlayıb, ancaq mənasını köhnəldən arxaizmlərdir. Məsələn: *kişi* sözü vaxtilə *adam, insan* mənasında işlənmiş, indi isə kişi cinsini bildirir. Yaxud, *ər* sözü *qəhrəman* mənasında işlənmiş, *yapmaq* qurmaq, tikmək mənasında, *qoçu* sözü *igid* mənasında işlənmiş, *donluq* sözü *bəxşiş* mənasını, *aş* sözü *yemək* mənasını bildirmişdir.

*2. Fonetik arxaizmlər.* Fonetik arxaizmlərdə sözün fonetik qabığında müəyyən səslər arxaikləşir. Lakin sözün adlandırdığı məfhum, hadisə, anlayış qalır. Məsələn: xəlq - xalq, *gamış* - camış, *adaq*-ayaq, *dək*-tək, *il*-el, *in*-hin, yuva, *is*-his, *yitmək*-itmək, *yutmaq*-udmaq, *küçük*-kiçik, *ur*-vur, *tarax* – daraq, *həna* – xına, *yüz* – üz, *yigirmi* – iyirmi, *hankı* – hansı, *böylə* – belə və s.

**Qeyd:** S.Cəfərov arxaizmləri, əsasən, leksik və semantik olmaqla iki yerə ayırmışdır. Onun fikrincə,

> «Əşya və ya hadisənin adını başqa söz əvəz edirsə, passiv fonda keçmiş əvvəlki söz leksik arxaizm adlanır. Məsələn: *necə* əvəzinə işlənmiş olan *nə günə*, hansı əvəzinə işlənmiş olan *qanğı* və ya *hanki*, *saç* əvəzinə işlənmiş olan *tuy* sözləri leksik arxaizmlərdir.
> Söz öz köhnə mənasını itirərək yeni məna ifadə etdikdə, onun köhnə mənası semantik arxaizm adlanır: *qoçu*– köhnə mənada igid, *donluq*– köhnə mənada bəxşiş, *aş*– köhnə mənada yemək və s.»[1]

S.Cəfərov leksik və semantik arxaizmlərlə yanaşı, dilimizdə leksik-fonetik arxaizmlərə də təsadüf edildiyini qeyd edir. O yazır: «Dilimizdə leksik-fonetik arxaizmlərə də təsadüf edilir. Bunlara misal olaraq, *xəlq* – xalq, *gamış* – camış, *tarağ* – daraq, *ğənimət* – qənimət, *həna* – xına və s. sözləri göstərmək olar».[2]

H.Həsənov arxaizmləri üç qrupa ayırmışdır: leksik arxaizmlər, semantik arxaizmlər, leksik-fonetik arxaizmlər.[3]

O, leksik arxaizmlərin iki şəkildə əmələ gəldiyini qeyd edir:

1) Əşyanı, hadisəni adlandırmaqdan uzaqlaşaraq tamam arxaik plana keçən leksik arxaizmlər: *aymaq* – demək, *əsrük* – sərxoş, *yey* – yaxşı, *irişmək* – çatmaq, *uyumaq* – yatmaq və s.

---

1 S.Cəfərov. Müasir Azərbaycan dili (leksika). «Maarif» nəşriyyatı, Bakı, 1970, s. 69.

2 Yenə orada.

3 H.Həsənov. Müasir Azərbayjan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1988, s.156.

2) Əşyanın, hadisənin adı başqa bir sözlə əvəz olunur və köhnə söz passiv fonda keçir: *nə günə* – necə, *qanğı* – hansı, *muy* – saç və s.

H.Həsənovun fikrincə, semantik arxaizmlər müasir ədəbi dilimizdə olan, lakin köhnə mənalı sözlərdir. Məsələn: *xalat*, *donluq* sözləri bəxşiş, *qoçu* sözü igid, quldur mənalarında köhnəlmişdir.[1]

Leksik-fonetik arxaizmlər isə mənaca dəyişməyən, fonetik tərkibcə fərqli sözlərdir:[2] *ol* - o, *kim* – ki, *tutsaq* – dustaq, *birlə* – ilə, *torağ* – daraq və s.

***Tarixizmlərlə arxaizmlərin fərqi.*** Həm tarixizmlər, həm də arxaizmlər köhnəlmiş sözlər olsalar da, onları bir-birindən fərqləndirmək lazımdır. Tarixizmlərlə arxaizmlər arasındakı fərqlər, əsasən, aşağıdakılardır:

1) Tarixizmlər həyat tərzinin, ictimai-iqtisadi quruluşun dəyişməsi ilə əlaqəli olaraq yaranır. Deməli, tarixizmlərin əmələ gəlməsi həyat tərzinin, ictimai-iqtisadi quruluşun dəyişməsi ilə bağlı olur. Arxaizmlərin yaranması isə dilin özündə baş verən bir qanunauyğunluqdur. Dildəki bəzi sözlər tələbata və zərurətə çevrilmir, nəticədə köhnəlir, arxaikləşir.

2) Tarixizmlər köhnəlmiş əşyaların, məfhumların, hadisələrin adı olduğu halda, arxaizmlər isə hal-hazırda mövcud olan əşyaların, məfhumların, hadisələrin köhnəlmiş adıdır.

3) Tarixizmlər köhnəlmiş əşyaların, məfhumların, hadisələrin adı olduğundan onlar hal-hazırkı dövrümüzdə işlənmir. Köhnəlmiş əşyalar, məfhumlar, hadisələr mövcud

---

[1] H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1988, s.157.

olmadığı üçün onları müasir dilimizdə sözlərlə adlandırmaq olmur. Arxaizmlərin adlandırdığı əşyalar, məfhumlar, hadisələr hal-hazırda da var olduğundan onları dilimizdəki digər özlərlə ifadə etmək mümkündür.

4) Həyatımızdan, məişətimizdən çıxmış əşyaların, məfhumların, hadisələrin adını çəkməyə ehtiyac olduqda tarixizmlərdən istifadə olunur. Başqa sözlə, tarixizmin sinonimi olmur. Ancaq arxaizmlərin sinonimi vardır.

5) Tarixizmlər əşyaların, məfhumların, hadisələrin adı olduğu halda, arxaizmlər isə həm əşyaların, məfhumların, hadisələrin – yəni əsas nitq hissələrinin, həm də köməkçi nitq hissələrinin adıdır.

***Tarixizmlərin və arxaizmlərin dildə üslubi imkanları.*** Tarixizmlərin və arxaizmlərin dildə üslubi imkanları da vardır. Bunlar, əsasən, aşağıdakılardır:

1.Tarixizmlər və arxaizmlər konkret bir tarixi dövrün real xüsusiyyətlərini əks etdirir. Məsələn: *kəndxuda, rəncbər, şura hökuməti, xan, bəy, nökər, qolçomaq, komsomol, faşizm* və s.

2.Tarixizmlər və arxaizmlər nitq prosesində istehza, kinayə, zarafat, gülüş və s. çalarlar yaratmaq üçün istifadə olunur. Məsələn:

Sən *ağa,* mən *ağa,*
İnəkləri kim sağa.
*(Atalar sözü)*
Qıratın qoynunda qıvrılıb yatan,
*Xanların, bəylərin* gözünə batan.

[2] Yenə orada.

Gedək qalxan tutub qılınclar çaxaq,
Gedək yağılardan intiqam alaq.
*(S.Vurğun)*

*Faşizm* qısqırtaraq sümsük itləri,
Dolayır, talayır məmləkətləri,
Bu gün barışsa da, yəqin qapacaq,
Quduz Mussolini, quduz Hitleri.
*(M.Müşfiq)*

3. Tarixizmlər və arxaizmlər nitqdə təntənə çalarlığı yaratmaq üçün istifadə olunur. Məsələn: *yağılardan öc* (qisas) *almaq*.

4. Tarixizmlər və arxaizmlər dövrün dil xüsusiyyətlərini qabarıq vermək, nəzərə çatdırmaq üçün istifadə olunur. Məsələn: Füzulinin, Vaqifin, M.F.Axundovun, M.Ə.Sabirin, S.Ə.Şirvaninin və digərlərinin əsərlərində dövrün dil xüsusiyyətlərini aşkar görmək mümkündür. Onların əsərlərində işlənmiş sözlərin bir qismi köhnəlmiş olduğundan müasir ədəbi dilimizdə işlənmir.

5. Dilin lüğət tərkibi dəyişir, yeniləşir, zənginləşir. Bu proses tədricən baş verir. Bu mənada dilin lüğət tərkibinin nə dərəcədə dəyişməsini müəyyən etməkdə köhnəlmiş sözlərin – tarixizmlərin və arxaizmlərin rolu heç də az deyildir.

6. Köhnəlmiş sözlər – tarixizmlər və arxaizmlər obrazların xarakterini, ictimai mənşəyini və s. məsələləri oxucuya çatdırmaq məqsədilə də istifadə olunur. Məsələn: Yazıçı hakim sinfin nümayəndələrini oxucuya çatdırmaq üçün *xan, bəy, kəndxuda, yüzbaşı, yasavul* və s. sözlərdən istifadə etməyə bilməz.

## NEOLOGİZMLƏR

Neologizm sözü qədim yunan sözü olub (yunanca *neos* – yeni, *loqos* – anlayış deməkdir) mənası «yeni» deməkdir. *Dildə yeni olmaq o deməkdir ki, bu qəbildən olan sözlər* digər işlək sözlərdən fərqlənir. Neologizmlər ictimai həyatın, elmin, texnikanın, mədəniyyətin, siyasətin və iqtisadiyyatın inkişafı ilə bağlı olaraq yaranır, 5-10 il ərzində dilin lüğət tərkibində yeni söz olaraq qalır. Hamı tərəfindən başa düşüldükdən sonra, öz yeniliyini itirir. Məsələn: *kosmos, lazer şüaları, yarımkeçiricilər, linqafon kabineti, evristik müsahibə, kosmonavt, saksafon, neytron bombası* və s. kimi dil nümunələri vaxtilə neologizm olsa da, hazırda əksəriyyət tərəfindən (xüsusilə, mütəxəssislər tərəfindən) başa düşülür, işləklik dərəcəsi genişdir.

Sözə tarixi kateqoriya kimi yanaşanlar haqlıdırlar. Ona görə ki, söz də yaranır, yaşayır, getdikcə dildə sabitləşir, bəzən köhnəlir, bəzən isə dildən tamamilə çıxır. Bu mənada müəyyən dövrdə neologizm hesab olunan söz başqa bir dövrdə öz yeniliyini itirir. Belə ki, əşya, hadisə, anlayış yeni olanda onu adlandıran söz də yeni olur. Əşya, hadisə, anlayış öz yeniliyini itirdikdə onu adlandıran söz də yeniliyini itirir. Məsələn: sovet dövründə dilimizin lüğət tərkibinə *traktor, kombayn, kolxoz, sovxoz, komsomol, pioner, kommuna, staxanovçu, raykom, kommunist, sovet, zərbəçi* və s. sözlər daxil olmuşdur. Artıq bu sözlər neologizm kimi qəbul olunmur. Onlar neologizm mahiyyətini itirmiş, köhnəlmişdir və tarixizmlər cərgəsinə daxil olmuşdur.

Hazırda həyatımıza, məişətimizə daxil olan yenilik neologizmlərin yaranması səbəbinə çevrilir: *barter, ofis,*

*göydələn, internet, bilgisayar, supermarket, monitor, biznesmen, imic* və s.

Neologizm anlayışı nisbi bir anlayışdır. Bu anlayışın yenilik əlaməti də müvəqqətidir. Get-gedə neologizm hesab olunan belə sözlər də dildə sabitləşəcək, hamı tərəfindən başa düşüləcək və beləliklə, öz yeniliyini itirəcəkdir. Yaxud da dildə köhnəlmiş sözlər cərgəsinə keçməklə tarixizmlər sırasında olacaqdır. Ancaq dildə elə sözlər də var ki, uzun müddət öz yeniliyini qoruyub saxlayır. Yeni əşyanı, hadisəni, məfhumu ifadə edən yeni söz kimi başa düşülür, dərk olunur. Məsələn: 1950-ci illərdən sonra yaranmış və indi də öz yeniliyini mühafizə edən sözlərə aşağıdakı nümunələri göstərmək olar:[1] *telefilm, teleekran, telekino, kosmos, kosmodrom, kosmonavt, kosmetika, apodey, peridey, telemetrik, volokon, orlon, perlon, velon, dakron, lilion, forlan, ftron, nitron, kapron, lavsan, neylon, relon, lakon, dederon, silon, stilon, qrilon, terilen, terqol, kamelan, meron, letilan, akon, lunaxod, ballastik (raket), okeanavt, subartezan, reqraf, akvarelist, akvamarin, akvatoriya, aparteid, asfaliya, elektron, gibernetika, hidrofitlər, hidrofon, biznesmen, krossmen, cazmen, rotoprint, rotel, motel, filmoteka, imperial, kondisioner, seysmik, biokimya, astrofizika* və s.

Bu sözlər hələ də yeni əşya, hadisə və məfhumu ifadə edən sözlər kimi dərk olunur, dilin lüğət tərkibinin işlək sahəsinə düşə bilmir.

[1] H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1988, s.161.

Neologizmlər əmələ gəlmə yolarına və mənbələrinə görə dilin daxili imkanları hesabına, başqa dillərdən söz almaq yolu ilə, yaxud fərdi üslubi şəkildə yarana bilir. Məhz bunları nəzərə alaraq neologizmləri belə qruplaşdırmaq olar:

1. Dilin daxili imkanı hesabına yaranan neologizmlər. Məsələn: *azadlıq, yeddiillik, qardaşlaşmaq, solçuluq, bərabərlik, nəfəslik, əyləc, yelqovar, çimərlik, tozsoran, sirdaş* və s.

2. Başqa dillərdən söz almaqla yarananlar. Məsələn: *biznes, menecer, marşal, kapitalizm, sosializm, direktor, neylon, kristalon, lafsan, jiquli, kafel* və s.

3. Ümumi şəkildə yaranan neologizmlər. Bu cür neologizmlər müəyyən tələbatla bağlı olaraq ümumxalq dilində meydana çıxır, yaranır. Məsələn: *respublika, orbit, ekstremist, balet* və s.

4. Fərdi üslubi neologizmlər şairin, yazıçının, alimin yaradıcılığında yaranmış neologizmlərdir. C.Cabbarlı *Aydın, Almaz, Solmaz, Oqtay, Dönməz* və s. adlarını, R.Rza *bizimləşən, çimərlik, əməldaş* sözlərini, B.Vahabzadə *işıqfor* sözünü yaratmışdır.

Misallara diqqət yetirək:

Toplayıb başına
Öz *əməldaşlarını*. (R.Rza)

Kölgəliklər çox olsun
Dəniz *çimərliyində*. (R.Rza)

Mən şeirimi oxuyum,
Siz köhnə sitatları,
«Sevgili» *vaxtdaşlarım*. (R.Rza)

Hamı istərdi ki, toyları çoxları tərəfindən *mübarəklənsin*. (S.Qədirzadə)

**Qeyd:** Şairin, alimin, yazıçının yaradıcılığında – əsərlərində məqsədlə bağlı olaraq yaradılmış fərdi sözlər okkazional sözlər adlanır. Okkazional sözlər müxtəlif terminlərlə adlandırılır: fərdi neologizmlər, xüsusi neologizmlər, üslubi neologizmlər və s. Okkazional sözlərin özünəməxsus bir sıra xüsusiyyətləri vardır:

a) okkazional sözlərin kim tərəfindən yarandığı məlum olur.

b) okkazional sözlərin yarandığı tarix məlum olur.

c) okkazional sözlərin işlənmə sahəsi məhduddur və ona görə də işləndiyi mətnə, onun məzmununa xidmət edir.

ç) okkazional sözlər öz yeniliyini uzun müddət saxlaya bilir.

d) okkazional sözlər Azərbaycan dilinin qayda-qanunları, sözyaratma modelləri ilə əmələ gəlir.

e) okkazional sözlər ayrı-ayrı şair və yazıçıların fərdi yaradıcılığı ilə bağlı olduğundan hamı tərəfindən işlədilmir.

ə) okkazional sözlərin mənasını mətn daxilində başa düşmək, anlamaq olur.

f) okkazional sözlərin çoxu ümumişlək sözlər sırasına daxil olmur, şairlərin, yazıçıların, alimlərin yaratdıqları əsərlərdə yaşayır.

Okkazional sözlərin leksik, morfoloji, sintaktik yolla yaranması qeyd olunsa da,[1] morfoloji yolu daha məqbul və geniş yayılmış yol kimi qəbul etmək olar:

---

[1] H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1988, s. 166. Bəzi dilçilik əsərlərində okkazional sözlər üsubi neologizmlər kimi göstərilir və onun morfoloji, sintaktik, semantik növləri qeyd edilir. Bu mənada bax: T.Əfəndiyeva. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. «Elm», Bakı, 2001, s.49-76.

a) *-cı*[4] şəkilçisi ilə əmələ gələnlər: məktəbçilər (M.Ə.Sabir), şeirçi, ənənəçi (R.Rza), pozucu (Anar) və s.

b) *-lıq*[4] şəkilçisi ilə əmələ gələnlər: *elbaşlıq* (C.Cabbarlı), *ölümsüzlüklü* (R.Rza) və s.

c) *-daş* çəkilçisi ilə əmələ gələnlər: *əsrdaş, cəbhədaş, vaxtdaş, döyüşdaş, könüldaş* (R.Rza) və s.

ç) *-siz*[4] şəkilçisi ilə əmələ gələnlər: *ölümsüz, qəfəssiz, atomsuzlu* (R.Rza) və s.

d) *-laş*[2] şəkilçisi ilə əmələ gələnlər: *pasportlaşma,* d*üşmənləşdim* (R.Rza), *kişiləşər*, *arvadlaşar* (C.Cabbarlı) və s.

e) *-xana* şəkilçisi ilə əmələ gələnlər: *qafiəxana* (R.Rza), *çaxırxana, oyunbazxana, tarxana, qarmonxana* (C.Cabbarlı) və s.

Deməli, okkazional sözlər də yeni anlayışlarla, bir sözlə, yeniliklə bağlıdır. Dilçilik ədəbiyyatlarında yeniliklə bağlı, yeni anlayışla bağlı sözlərdən biri də potensial sözlərdir. Potensial sözlər neologizmlərlə okkazional sözlər arasında orta mövqe tutur, onların heç birinə daxil ola bilmir. Bu sözlərin özünəməxsus bir sıra xüsusiyyətləri vardır:

a) potensial sözlərin nə zaman və kim tərəfindən yaradılmasını müəyyən etmək olmur.

b) potensial sözlər geniş dairədə deyil, məhdud sahədə fəaliyyət göstərir.

c) potensial sözlər dilin öz qayda-qanunu, sözyaratma modeli əsasında törəyir, əmələ gəlir: *yenilik – yenilikçi, parket – parketçi, balet – baletçi, universitet – universitetçi* və s.

ç) potensial sözlər mətndə hər hansı anlayışı adlandırmaq zərurəti ilə bağlı olsa da, onun hamı tərəfindən işlədilməsi məqbul sayılmır: *tar – tarçı, saz – sazçı, daş – daşçı* və s.

Deyilənləri nəzərə alaraq neologizmlərə belə bir tərif vermək olar: *Dildə mənalı vahid kimi əmələ gəlmiş, yeni əşya, hadisə və məfhumları adlandıran, öz yeniliyini və təzəliyini hiss etdirən və hələ dilin aktiv lüğət fonduna aid olmamış sözlərə neologizmlər deyilir.*

**Qeyd:** Dilin lüğət tərkibinə daxil olmuş yeni sözlər həmişə neologizm olaraq qalmır. Get-gedə dəyişir, hamı tərəfindən anlaşma dərəcəsindən asılı olaraq öz yeniliyini itirir və neologizmlikdən çıxır. Bu mənada zaman keçdikcə neologizmlərin bir çoxu öz yeniliyini itirsə də, bəzi dilçilik ədəbiyyatlarında hələ də neologizm kimi verilir. Əlbəttə, bu, həmin dilçilik əsərlərinin belə sözlərin neologizm olduğu dövrdə yazılması ilə bağlıdır. Burada zamanın, dövrün dəyişməsi neologizm kimi qəbul olunmuş sözləri onlara verilən (neologizmlərə) tələblərlə ayaqlaşdıra bilmir. Məsələn: iki sözün şəkilçilər vasitəsilə birləşərək mürəkkəbləşməsi yolu ilə düzəlmiş *beşmərtəbəl*i, *şəhəryanı*, *su kəməri*, *qaz kəməri*, *neftayıran* və s. sözlər neologizm hesab olunsa da,[1] hal-hazırda onları neologizm adlandırmaq doğru olmaz. Yaxud, vaxtilə başqa dildən tərcümə yolu ilə gəlmiş yeni sözləri – *zərbəçi* (udarnik), *qabaqcıl* (peredovoy), *uzaqgörən* (dalnovidniy), *özünütənqid* (samokritika) və s.[2] neologizm kimi qəbul etmək doğru deyil. Rus dilindən tərcümə yolu ilə gəlmiş belə sözlər hal-hazırda tarixizmlərə çevrilmişdir.

---

[1] S.Cəfərov. Müasir Azərbaycan dili (leksika). «Maarif» nəşriyyatı, Bakı, 1970, s.71.
[2] Yenə orada. s.72.

Bəzi dilçilik əsərlərində neologizmlərin əmələgəlmə yolları belə göstərilmişdir:[1] morfoloji yolla əmələgəlmə, sintaktik yolla əmələgəlmə, abreviaturalar, leksik-semantik yolla əmələgəlmə.

Yeni sözlərin bu yollarla əmələgəlməsinə etiraz etmədən onu qeyd etmək lazımdır ki, bu yollara aid verilmiş dil nümunələrinin, demək olar ki, əksəriyyəti yeni sözlər cərgəsindən çoxdan çıxmışdır. Məsələn: yeni sözlərin əmələgəlmə yollarına və onlara aid dil nümunələrinə diqqət yetirək:

Yeni sözlərin morfoloji yolla əmələgəlməsi: *dilçi, tənqidçi, taxılçı, inşaatçı, pambıqçı, leninçi, marksçı, solçu; dərslik, başlıq, məhsuldarlıq, şərqşünaslıq, aylıq, beşillik, yerlik, çıxışlıq; pambıqçılıq, dilçilik; qırıcı, soyuducu, qaldırıcı, dinləyici; uduş, ödəniş; vurma, toplama; atım, bölüm, dözüm, udum; müqayisəli* (*qrammatika*), *qapalı* (*sait*); *vasitəsiz* (*tamamlıq*), *qaydasız, tabesiz; vətəndaş, əməkdaş*; *qabaqcıl, ardıcıl* və s.

Göründüyü kimi, morfoloji yolla əmələgəlmiş bu sözlər öz yeniliyini itirmişdir. Bəziləri isə (*leninçi, marksçı, solçu…*) tarixizmlərə keçmişdir.

Yeni sözlərin sintaktik yolla əmələgəlməsi: *neftayırma, neftçıxarma, taxılbiçən, yerölçən, tozsoran, otbiçən* (maşın), *manqabaşçısı, sözdüzəldici, ikihecalı, əməkdar müəllim, elmi işçi, idman ustası, şərəf nişanı* və s.

Bu sözlər də öz yeniliyini itirib, bəziləri isə tarixizmlərə (manqabaşçısı, şərəf nişanı…) çevrilibdir.

*Abreviaturalar:* Azərkitab, Azərnəşr, MK (Mərkəzi Komitə), BMT (Birləşmiş Millətlər Təşkilatı), ÜİLKGİ

---

[1] Müasir Azərbaycan dili. I cild, «Elm» nəşriyyatı, Bakı, 1978, s. 210-215.

(Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı), raykom, partkom, raysovet və s.

Abreviaturalardan göründüyü kimi, onların bir qismi öz yeniliyini itirmiş, digər bir qismi isə tarixizmlərə (MK, ÜİLKGİ, raykom və s.) keçmişdir.

*Yeni sözlərin leksik-semantik yolla əmələgəlməsi: katib.* Bu söz barəsində izah belə olmuşdur ki, *katib* sözü bir zaman yalnız *mirzə* mənasında işlənmişdir. Müasir dövrümüzdə isə bu söz *mirzə* mənası ilə yanaşı yeni mənada – *raykom katibi*, ilk *təşkilat katibi, Mərkəzi Komitənin* katibi işlənir. Halbuki, hal-hazırda *raykom katibi,* ilk *təşkilat katibi, Mərkəzi Komitənin katibi* neologizm deyil, tarixizmdir.

Beləliklə, qeyd olunan yollarla əmələgəlmiş neologizmlərə aid verilmiş dil nümunələri hal-hazırda yeni sözlər kimi özünü doğrultmur.

*Neologizmlər aşağıdakı növlərə ayrılır:*

*1. Leksik – semantik neologizmlər.* Bu cür neologizmlər həm formaca, həm də məzmunca yeni olan neologizmdir. Məsələn: *linqafon kabineti, lakator, lunaxod, neytron bombası, robot, diktatura* və s.

*2. Leksik neologizmlər* ancaq formaca yeni olan neologizmlərdir. Məsələn*: şura hökuməti, darülfünun, aşkarlıq* (demokratiya) və s.

*3. Semantik neologizmlər* mənaca yeni olan neologizmlərdir. Məsələn: *müqəddəs* sözü keçmişdə toxunulmaz mənasında işlənmiş, hazırda isə hər şeydən əziz mənasını bildirir. Yaxud, *yoldaş* sözü vaxtilə birlikdə səfərə gedən adamlar mənasını bildirirdisə, indi *həyat yoldaşı* mənasını bildirir və s.

**Qeyd:** Dilçilik ədəbiyyatlarında neologizmlərin məna növləri müxtəlif cür qruplaşdırılmışdır. Məsələn: H.Həsənov neologizmləri mənalarına görə iki qrupa ayırmışdır: leksik neologizmlər, semantik neologizmlər.[1]
Onun fikrincə, leksik neologizmlər dildə mövcud olan sözlər əsasında yaranır və ya başqa dillərdən alınır: *spartakiada, aparteid***.**
Semantik neologizmlər isə dildə mövcud olan sözlərin yeni mənada işlədilməsi nəticəsində əmələ gəlir**:**
*liberal* – tələbkar olmayan**,** *siqnal* – xəbərdarlıq**.**
A.Qurbanov neologizmləri mənasına görə üç qrupa ayırmışdır: leksik-semantik neologizmlər, leksik neologizmlər, semantik neologizmlər.[2] Onun fikrincə, leksik-semantik neologizmlər dildə həm məna, həm də formaca yeni olan sözlərdir: *kommunizm*, *diktatura*, *proletar* və s.

Leksik neologizmlər ancaq formaca yeni olan sözlərdir. Onlar dildə mövcud olan sözlər əsasında yaranır və ya başqa dillərdən alınır: *şura, sovet, spartakiada, universitet* və s.

Semantik neologizmlər yalnız mənası yeni olan sözlərdir. Onlar dildə mövcud olan sözlərin yeni mənada işlədilməsi nəticəsində əmələ gəlir: *müqəddəs, yoldaş* və s. Bəzi dilçilik ədəbiyyatlarında neologizmlərin leksik kateqoriya kimi əsas cəhətlərini nəzərə almaqla iki qrupa ayırmışlar: leksik – nominativ neologizmlər, semantik neologizmlər.[3]

Leksik-nominativ neologizmlər yeni məfhumların adı kimi, semantik neologizmlər isə dilimizdə mövcud olan sözlərin tarixi hadisələrlə əlaqədar tamamilə yeni mənada işlədilməsi kimi xarakterizə olunmuşdur. Hər iki qrupun

---

[1] H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1988, s.166-167.
[2] A.Qurbanov.Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 1978, s.206-207.
[3] Yenə orada.

səciyyəvi xüsusiyyəti nəzərə alınaraq leksik-nominativ neologizmləri sadəcə olaraq neologizmlər, ikinci qrupa daxil olan sözləri isə semantik neologizmlər də adlandırmışlar.[1]

*Dilçilik ədəbiyyatlarında işlənmə dairəsi və funksiyasına görə neologizmlər iki növə ayrılmışdır:* ümumişlək neologizmlər, üslubi neologizmlər (üslubi neologizmlər fərdi-üslubi neologizmlər kimi də adlanır).[2] Hər iki neologizm arasındakı fərqlər də göstərilmişdir:

a) ümumişlək neologizmlərin yaranması yeni yaranmış əşyaya ad vermək zərurətindən irəli gəlir, üslubi neologizmlər isə bədii-təsvir vasitəsi kimi çıxış edir.

b) funksiyalarına görə ümumişlək neologizmlər nominativ funksiya daşıyır, üslubi neologizmlər isə üslubi funksiya daşıyır.

c) ümumişlək neologizmlər getdikcə dilin lüğət tərkibində sabitləşə bildiyi halda, üslubi neologizmlər isə bədii üslubda işlənməklə məhdudlaşır.

ç) ümumişlək neologizmlər dilin lüğət tərkibində sabitləşdikdən sonra, yəni hamı tərəfindən başa düşüldükdən sonra öz yeniliyini itirir, köhnəlir. Üslubi neologizmlər isə bunun əksinədir. Onlar yazıçının, şairin yaratdığı neologizmlər olmaqla yazıçının, şairin fərdi üslubunu səciyyələndirir, ona görə də heç zaman öz əhəmiyyətini itirmir.

---

[1] A.Qurbanov.Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 1978, s. 208
[2] Yenə orada. s. 208-209.

## DİALEKTİZMLƏR

Məhdud dairədə, ərazidə işlədilən dialekt və şivə sözlərinə dialektizmlər deyilir.

Dilçilik ədəbiyyatında dialektizmlər qeyri-ədəbi dil ünsürləri hesab olunur. Məsələn: *lələ, ciji, mama, məmə, təlis, mampax, çamır, pazı, oxartana, kora, ditdili* və s.

Dialekt sözlərinin ədəbi dildə qarşılığı olur. Məsələn:

| *Dialekt sözləri:* | *Ədəbi dildəki qarşılığı:* |
|---|---|
| girəvə | fürsət |
| lapdan | birdən |
| bəgəm | məgər |
| teyxa | bütün, büsbütün |
| tay | daha |
| yalaq | yaltaq |
| kora | mismar |
| qəmbər | çay daşı və s. |

*Dialektizmlərin növləri aşağıdakılardır:*

*1. Fonetik dialektizmlər*

*2. Qrammatik dialektizmlər*

*3. Lüğəvi dialektizmlər.*

1. ***Fonetik dialektizmlər*** hər hansı bir dialektin fonetik xüsusiyyətlərini əks etdirir. Məsələn: *sana* - sənə, *ərəbə* - araba, *Bəki* - Bakı, *qərdəş* - qardaş, *taxsır* - təqsir, *əyib* - eyib, *degil*-deyil, *əgri*-əyri, *tülki*-tülkü, *dəyil* - deyil, *bajı* - bacı, *haçar* - açar, *heyif*-hayıf, *deynən*-de, *ma*-mənə, *heylə* - elə,

*İrza* - Rza, *sora* - sonra, *qələ*-qala, *nədü* - nədir, *küflət*- külfət, *tobalatma* – tövbələtmə, *qorğa* – qovurğa, *sora* – sonra və s.

2. ***Qrammatik dialektizmlər*** morfoloji və sintaktik xüsusiyyətləri özündə əks etdirir. Məsələn: anlamaq - *annamaq*, odlar - *oddar*, səndən – *sənnən*, görcək – *görcəyin*, aç şalı-*aşşalı* və s.

3. ***Lüğəvi dialektizmlər*** müxtəlif şivələrə aid dialekt xüsusiyyətlərini əks etdirir. Lüğəvi dialektizmlər əsasən aşağıdakı növlərə malikdir:

a) leksik dialektizmlər

b) leksik-semantik dialektizmlər

c) semantik dialektizmlər.

*a) Leksik dialektizmlərin* ədəbi dildə qarşılığı olur. Məsələn: *zərdə* - *yer kökü, becid-tez, kora* - *mismar, cələfir* - *arıq, qaydında – hayında, ciyərli – ürəkli, lapdan* - *birdən, bəgəm* - *məgər, tay* - *daha, yalaq* - *yaltaq, qənbər* - *daş, qəhmər* - *kömək, eyzən* - *həmişə* və s.

Leksik dialektizmlər bir sıra üslubi məqamlarla bağlı olaraq bədii əsərlərdə işlənir:

1) Bədii əsərdəki obrazın dialekt mənsubiyyətini qabarıq nəzərə çatdırmaq üçün leksik dialektizmlərdən istifadə olunur. Məsələn: «Keçi can hayında, qəssab piy axtarır» məsəli bədii əsərdəki obrazın dilində belə səslənir: Keçi can *qaydındadır*, qəssab piy axtarır». Burada *hayında* sözü leksik dialektizm olan *qaydandadır* sözü ilə əvəz olunmuşdur. Yaxud, «Mən səni ürəkli bilirdim» əvəzinə «Mən səni *ciyərli* bilirdim» işlənir. Burada *ürəkli* sözü *ciyərli* leksik dialektizmi ilə əvəz olunmuşdur. Bundan başqa, obrazların dilində fürsət əvəzinə girəvə, sus, danışma əvəzinə *kiri* sözlərinin işlənməsi də bu qəbildən olan misallardır.

2) Bədii əsərdəki obrazın savadsızlığını, avamlığını nəzərə çatdırmaq üçün onun nitqində leksik dialektizmlərə üstünlük verilir. Məsələn: «Bəyim, başına dönüm, – dedi, – yatmayım *nə qayırım».* (Y.V.Çəmənzəminli); “Bəyim – dedi, adam bir az *toxdaq olar”.* (Y.V. Çəmənzəminli) və s. Burada müəllif obrazın dilində «nə edim» əvəzinə «nə qayırım», «təmkinli olar», «səbrli olar» əvəzinə «*toxdaq olar*» ifadələrini işlətmişdir.

*b) leksik-semantik dialektizmlər* hər hansı bir dialekt və şivənin danışıq və həyat tərzini əks etdirir. Məhz buna görə də bəzən leksik-semantik dialektizmlərə etnoqrafik dialektizmlər də deyilir. Məsələn: *qəmə* – bıçaq, *dinəvər* – 1 kq, *mahı* – dəryaz, *gilə* – 4 kq, *kəviz* – 32 kq, *şülək* – külək, *hiş* – xış, *lələ*– böyük, *oxartana* - çox, *həncəri* - necə, *gecdən* – səhər, *nöşün* – niyə və s.

*c) semantik dialektizmlərə* az da olsa, dialekt və şivələrdə rast gəlmək olur. Semantik dialektizm odur ki, ədəbi dildə olan hər hansı bir söz bu və ya digər dialektlərdə başqa-başqa mənalarda işlənir: *asma* sözü Çənbərək və Karvansaray rayonlarında «bir-birinə bağlanmış iki qarğıdalı» mənasında, *büzmə* sözü Karvansaray rayonunda «bağsız çarıq» mənasında, *çılğın* sözü Çənbərək rayonunda «yarı hissə» mənasında və s. Deməli, ədəbi dildə olan söz dialekt və şivələrdə başqa mənalarda işlənməklə semantik dialektizmləri, yaradır.

Dialektizimlər bədii əsərdə obrazların səciyyəvi keyfiyyətlərini və onların hansı dialekt və şivənin nümayəndəsi olmasını müəyyənləşdirməkdə mühüm rol onayır. Eyni zamanda dildəki sinonim sözlər cərgəsini zənginləşdirir. Bu cərgədəki sözlərin hansının ədəbi dildə işləndiyini dialekt

sözlərlə müqayisədə müəyyən etmək olur. Məsələn: aşağıdakı sinonim sözlər cərgəsinə diqqət yetirək:

*qıcaboy, xıra, xırça, dumba, bistili, guda, qudul, dubur, mimik, şipqan, xəpər, yerpusalağı, törə, tölvər, xomsa.* Bu sinonim sözlər cərgəsində *qısaboy* ədəbi dilimizdə, yerdə qalanlar isə dialektlərdə işlənir. Yaxud, *sırxılı, cübbə, zıvın, qalınca, əntər* dialektlərdə, *pambıxlı* ədəbi dildə; *düşpalan, palankeş, qorapalan, çilossən, süzək* dialektlərdə, *aşsüzən* ədəbi dildə; *yelpənək, gülbəsər* dialektlərdə, *xiyar* ədəbi dildə; *misqi, çilis, qıtmır, göy, nırqız, malcannı, xımı, güəzə, zəlla, qətrəm, zıqqı, qıyımsız* dialektlərdə, *xəsis* ədəbi dildə işlənir.

Dialekt və şivə sözləri bədii ədəbiyyata yazıçılar vasitəsilə yol tapır, bununla da ədəbi dil ilə dialekt və şivələr arasında əlaqə yaranır. Dialekt və şivə sözlərindən daha çox nəsr əsərlərində istifadə olunur. Ona görə ki, nəsr əsərlərində obrazların nitqində dialekt və şivə sözlərinə çox ehtiyac vardır. Poeziyada isə ədəbi dildə qarşılığı olan dialekt və şivə sözlərinin işlənməsinə ehtiyac yoxdur. Səbəbi isə onunla bağlıdır ki, poeziyada, əsasən, şairin poetik «məni» iştirak edir. Bir növ poeziyada şairin özü danışır. Bu da lüzum yaratmır ki, ədəbi dildə qarşılığı olan dialekt və şivə sözləri poeziyada işlənsin. Əgər lüzumsuz olaraq poeziyada dialekt və şivə sözləri işlənirsə, bu, həmin poeziyanın çətin başa düşülməsinə gətirib çıxarır. Məsələn: poeziyada işlənmiş aşağıdakı dialekt və şivə sözləri poeziya üçün münasib olmayan, şairin nitqinin, poetik «məni»nin başa düşülməsini çətinləşdirən sözlərdir: *həvirləşmək, qovzamaq, şalğam (həsrət), omaşımaq (zümrüd ağaclar sakitcə omaşır), əsinmək, səllim (ayaqlarım səllim gəzib dolanır), tünük*

*hörülmüş, fasıx-fasıx lağa qoymaq, tulazdamaq, tıncıxdırmaq* və s.

Yuxarıda qeyd olunduğu kimi, dialekt və şivə sözləri daha çox nəsr əsərlərində obrazların nitqini fərdiləşdirmək, üslub rəngarəngliyi və xarakterləri yaratmaq, yerli koloriti, xalqın məişətini, həyat tərzini vermək üçün üslubi vasitələrdən birinə çevrilir. Bu mənada M.Müşfiqin, S.Vurğunun, S.Rüstəmin, R.Rzanın, C.Cabbarlının, M.Hüseynin, S.Rəhimovun, M.İbrahimovun, İ.Əfəndiyevin, İ.Şıxlının, İ.Hüseynovun, M.Süleymanlının və digərlərinin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Bu sənətkarlar dialekt və şivələrimizdən ədəbi dilimizə xeyli sözlər gətirmişlər, onlar indi də ədəbi dilimizdə işlənir: *ilğım, pələ, pələçi, yaylaqçı, boygörməsi, üzgörməsi, ilanyalı (tayalar), ağırlıq (köçdən əvvəl yaylağa göndərilən yük), aranlıq, bişirim, bişirimlik, muştuluq, tamarzı, alabaydaq, kirmişcə, küsənmək, irişmək, güvənmək, sayrışan, qarsalanmaq, hayqırmaq, boyatımaq, çəhlim, umacaq, gumuldanmaq, kürlük etmək* və s.

Bəzən dialekt və şivə sözlərindən lüzum olmadan da istifadə olunur, ədəbi dilə gətirilir. Bir sıra hallarda nəinki obrazların nitqində, hətta yazıçının öz təsvir dilində işlədilir. Məsələn: *latayir (söz), sirimsəmiş (daş), iraz dil, qolu girri, filinti (tənbəl mənasında), gırdın (budlu), eyzən, dayna, hüştürümlə axan, qap eləmək, qanıxmış və* s. Bu cür sözlər düzgün olmayaraq ədəbi dilə gətirilmişdir ki, bu da ifrata varmaq və zərərli bir meyil kimi qiymətləndirilməlidir.

C.Cabbarlı vaxtilə bu məsələyə çox düzgün münasibət bildirərək yazırdı: «Bəzi yoldaşlar aydın dil yaratmaq əvəzinə digər bir ifrata varırlar. Onlar ədəbi dilimizə hər cür

məhəlliçilik ünsürləri daxil etmək istəyirlər. Aydındır ki, bu da ərəbçilik və arxaizm kimi zərərli bir meyildir».[1]

Dialekt və şivə sözləri elə məqamlarda işlənməlidir ki, həmin dialekt və şivə sözləri mətndə yerinə düşsün, oxucu tərəfindən anlaşılsın, yazıçının təsvir dilində ədəbi dil norması pozulmasın və s. Əgər yazıçının təsvir dilində işlənən dialekt və şivə sözləri oxucu tərəfindən anlaşılmırsa, mətndə yerinə düşmürsə, ədəbi dil norması pozulursa, onda onlar ədəbi dilimizə gətirilməməlidir.

Burada akademik M.Cəfərin fikri olduqca yerinə düşür. O yazır: «Yeri gələndə dilçilər, ədəbiyyatşünaslar ədib və şairlərə məsləhət görəndə ki, məhəlli sözlər işlətməyin, bəzi yazıçılara bu tələb lüzumsuz və qəribə görünür, halbuki tələb yerindədir və ona əməl etmək zəruridir. Bu tələb başqa sözlə o deməkdir ki, müasir bədii söz üstalarımız, söz sənətimizin tarixi boyu klassiklərimiz, el aşıqlarımız, mahnı, bayatı ustası ana-bacılarımız bədii dildə dil ümumiliyini göz bəbəyi kimi necə qorumuşlarsa, siz də elə qoruyun, dilçilərə, ədəbiyyatşünaslara inanmırsınızsa, xalq «dilçilərinə» inanın, xalq «dilçiliyi» ənənələrinə sadiq qalın».[2]

Dialektizmlər, dialekt leksikası yazıçıların istifadə etdiyi, işlədilməsini məqsədəuyğun saydığı, ümumiyyətlə, bədii əsərin dilini duzlu, məzəli edən sözlərdir. Yazıçı qəhrəmanlarını düzgün xarakterizə etmək üçün, onun xarakterini, təbiətini olduğu kimi çatdırmaq üçün dialektizmlərdən, dialekt leksikasından yeri gəldikcə istifadə etməlidir. Bu mənada

---

[1] M.Məmmədov. Filoloji düşüncələr. Bakı, 2005, s.84.

[2] Yenə orada. s.85.

yazıçılar daha çox aşağıdakı məqamlarda dialektizmlərdən, dialekt leksikasından istifadə edirlər:

1) Yazıçının vermək istədiyi mənanı ədəbi dildəki söz ifadə edə bilmir, bu zaman dialektizmdən, dialekt leksikasından istifadə olunur. Məsələn: yazıçı təhkiyəsində işlənmiş *ilanyalı* (tayalar) əvəzinə uzunsov, *öləzimək* (lampa işığının zəif yanması) əvəzinə sönmək sözlərinin işlədilməsi özünü doğrultmur. Ona görə ki, *ilanyalı* sözü ilə ifadə olunmuş məna, bədii müqayisə uzunsov sözündə yoxdur, *öləzimək* isə «sönmək» mənasında deyil, işığın zəif yanması deməkdir. Yaxud, aşağıdakı misalları müqayisə edək:

| *Ədəbi dilimizdə:* | *Dialektlərdə:* |
|---|---|
| xırda | cəycüy |
| böyük | hel |
| həyət | hoylu |
| bol | lejan |
| zarafatcıl | nay |
| dalbadal çıxmaq | poralammax |
| acıq, hirs | tır və s. |

Bu misallarda sol sütundakı ədəbi dil sözləri sağ sütundakı dialektizmlərin mənasını dəqiq, tam şəkildə ifadə edə bilmir.

2) Dialekt və şivələrdəki frazeoloji birləşmələr vasitəsilə personajların nitqi fərdiləşir, obrazlı olur: *çəkiyə gəlmək* (nüfuzlu, hörmətli, ağır, ağayana mənalarında), *cin atına minmək, babasını dalına şələləmək, çiçəyi çırtlamaq, üzünə üz geyinmək, qahmar durmaq, qabağında at səyirtmək* (Vaqif Nəsibin yaradıcılığında) və s.

3) Dialekt və şivələrdəki and və qarğış bildirən ifadələrdən personajların nitqinin fərdiləşdirilməsində və tipikləşdirilmə-

sində istifadə olunur: *başın haqqı* (Y.Səmədoğlunun yaradıcılığında), *qoç kəllən haqqı, dədəm canı, qağamın canı, dədəmin goru haqqı, nənəm canı, nənəm cəddi, meyidini görüm, mürdəşir yusun üzünü, səni görüm qapılar açmayasan, günün göy əsgiyə dönsün* və s.[1]

3) Personajların nitqində dialekt və şivə sözləri işlənməklə onların hansı dialekt və şivəyə mənsub olduğunu üzə çıxarır: *həri* (Bakı dialektində), *gedəjəm* (Gəncədə), *gederəm* (Qazaxda), *gəlitdi* (Şəkidə) və s.

**Qeyd:** Dialektizm ilə dialekt leksikasını bir-birindən fərqləndirmək lazımdır. Dialektizm dialektlərin dialekt xüsusiyyətini özündə birləşdirən termindir. Dialekt leksikası anlayışı daha genişdir. Burada dialekt və şivənin yerli həyatı, məişəti, təsərrüfatı, məşğuliyyət sahələri ilə əlaqədar işlənən sözlər nəzərdə tutulur.

## TERMİNLƏR

Dilin leksik tərkibindəki sözlər ümumi şəkildə iki cür qruplaşdırılır: adi sözlər, terminlər.

Adi sözlərin hamısı adi söz kimi işlənir. Məsələn: *at, su, üç, mən, sən, o, görmək, gəlmək* və s. Lakin bəzi adi sözlər həm adi söz kimi, həm də termin şəklində işlənir. Məsələn: *sifət* (adi söz və dilçilikdə termin), *quruluş* (adi söz, fəlsəfi termin), *turşu* (adi söz, kimyəvi termin), *əyri* (adi söz, riyazi termin), *çevrə* (adi söz, həndəsi termin) və s. Bu baxımdan daha konkret şəkildə dilimizdəki sözləri üç yerə ayırmaq olar:

[1] Dialekt və şivə sözlərinin personajların nitqinin fərdiləşməsində işlənməsi barədə bax: M.Məmmədov. Filoloji düşüncələr. Bakı, 2005,s. 86-92

*1. Ancaq adi söz olanlar.* Məsələn: *yerimək, küsmək, danışmaq* və s.

*2. Həm adi söz kimi, həm də termin kimi olanlar.* Məsələn: *feil, dil, səs, say* və s.

*3. Yalnız termin olanlar.* Məsələn: qrafika, fonetika və s.

Dilçilikdə termin nədir? sualına belə cavab vermək olar: *Termin elm, texnika, siyasət və mədəniyyətə aid xüsusiləşmiş mənalı söz və ifadələrdir.* Bu cür xüsusiləşmiş mənalı söz və ifadələr müxtəlif elm sahələrinə aiddir. Terminlərin aid olduqları elm sahələrini nəzərə almaqla, onları belə qruplaşdırmaq olar:

*Dilçiliyə dair terminlər: diftonq, monoftonq, sintaksis, mübtəda, tamamlıq, budaq cümlə, orfoepiya, isim, leksikologiya, morfologiya* və s.

*Ədəbiyyatşünaslığa dair terminlər: dram, janr, lirika, poema, xarakter, konflikt, dastan, hekayə, rübai, qəzəl, faciə, əfsanə, qoşma* və s.

*Pedaqogika və psixologiyaya aid terminlər: metodika, metod, üsul, metodist, didaktika* və s.

*Metallurgiya sahəsinə aid terminlər: polad, dəmir, mis, qızıl, gümüş, filiz, marten peçi, metal* və s.

*Silah adını bildirən terminlər: silah, qılınc, top, tüfəng, avtomat* və s.

*Musiqi sahəsinə aid terminlər: simfoniya, opera, solo, piano, kamança, tar, rübab, segah, ariya, nağara, innabı* və s.

*Riyaziyyatla bağlı terminlər: faiz, inteqral, diferensial, toplama, çıxma, üçbucaq, kvadrat, kub, düz bucaq* və s.

*Hüquq sahəsinə aid terminlər: hakim, məhkum, hüquq, cinayət, məcəllə* və s.

*Kimya sahəsinə aid terminlər: reaksiya, oksigen, hidrogen, turşu, duz* və s.

Bir sözlə, terminlər elmə, texnikaya, iqtisadiyyata və s. sahələrə aid sözlər kimi işlənir.

Hər bir elm sahəsinin özünəməxsus terminologiyası vardır. Burada hər bir elm sahəsinə aid terminləri vermək imkan xaricindədir. Odur ki, bəzi elm sahələrinə aid terminləri verməklə kifayətlənməli olduq.

Azərbaycan dilindəki terminlər quruluşlarına görə iki cür olur:

I. *Bir sözdən ibarət terminlər.* Məsələn: *cümlə, zərf, isim, təyin, qrammatika* və s.

II. *Bir neçə sözdən ibarət terminlər.* Məsələn: *ahəng qanunu, budaq cümlə, dilin lüğət tərkibi, vasitəli nitq, ismin halları, mənsubiyyət kateqoriyası* və s.

Dilimizdəki terminlər işlənmə dairəsinə görə iki yerə bölünür.

1. *Ümumişlək terminlər.* Məsələn: *su, çay, dəniz, okean, ay, ulduz, günəş* və s.

2. *Xüsusi dar sahə terminləri.* Məsələn: *semantika, fonetika, fonomorfologiya, fonologiya, sinonim, omonim, antonim* və s.

Terminlər dilin lüğət tərkibində emosionallığa və obrazlılığa malik olmayan sözlərdir. Bu sözlər əsasən elmi üslub üçün xarakterikdir və asan yadda qalmaq üçün təkmənalı olmalıdır.

*Termin necə yaranır?* Bu suala belə cavab vermək olar. Termin üç prinsipi nəzərə almaqla yaranır, yəni termin yaradıcılığında üç cəhət diqqətdən qaçmamalıdır:

I. Təkmənalılıq

II. Azkomponentlilik

III. Sinonimsizlik.

Termin ona görə təkmənalı olmalıdır ki, o, elmi anlayışları əks etdirir. Terminin azkomponentliyi ona görə lazımdır ki, onu yadda saxlamaq, mənimsəmək mümkün olsun. Termin ona görə sinonimsiz olmalıdır ki, bir anlayışı bir neçə terminin, yəni termin dubletlərin bildirməsi işi müəyyən dərəcədə çətinləşdirir. Düzdür, bəzən bir anlayışı müxtəlif terminlərlə adlandırma halları olur. Məsələn: *lüğətçilik* – leksikoqrafiya, *lüğətşünas* – leksikoloq, *mənşəşünaslıq* - etimologiya və s. Hər halda bu terminlərdən birinin istifadəsi daha məqsədəuyğundur.

Terminlərin bir sıra səciyyəvi xüsusiyyətləri vardır. Həmin səciyyəvi xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dəqiqlik
2. Konkretlik
3. Qısalıq
4. Təkmənalılıq
5. Adlandırma
6. Sistemlilik
7. Anlaşıqlıq
8. Üslubi neytrallıq
9. Azkomponentlilik
10. Təkvariantlılıq
11. Sinonimsizlik
12. Ekspressivsizlik
13. İşlədilmə məhdudiyyəti

14. Normativ və definitiv funksiyalılıq. Burada definitiv funksiya[1] dedikdə terminin əhəmiyyətli əlamətlərinin öz əksini tapması başa düşülür. Yəni, terminlər ilkin vaxtlar başa düşülmədiyi üçün onun məzmununu açan izah olur ki, bu da definitiv funksiya adlanır. Məsələn: *meşəlik zona* – müxtəlif tipli meşələrlə örtülmüş ərazidir. *Buzlaq zon*a –daimi buzlaqlarla örtülmüş, ali bitki örtüyünə malik olmayan ərazi və s.

15.Şüurlu müəyyənləşdirmə

16.Razılaşma

17.Tənzimedilmə və nizamasalınma və s.

**Qeyd:** Dildə nomenklatur sözlər də vardır. Nomenklatura latın sözüdür və mənası «ad» deməkdir. Bu sözlər əşyanı, obyekti adlandıran sözlərdir. Məsələn: maşın adları: *Moskviç-412, QAZ-24,* ətir adları: *Riqa, Kreml* və s.

Bəzi dilçilik ədəbiyyatında nomenklatur sözlər teminlərə daxil edilmişdir. Məsələn: H.Həsənovun fikrincə, «Terminlərə nomenklatur sözlər də daxildir».[2] O, nomenklatur sözləri terminlərə aid etsə də, fərqli cəhətlərini də göstərmişdir: «Nomenklatura terminlərə aid olsa da, ondan fərqlənir. Terminlər bilavasitə elmi anlayışla əlaqədar olub, müəyyən məfhum ifadə edir. Nomenklatura isə konkret əşyalarla bağlıdır, onların şərti işarəsidir».[3]

Terminlərlə nomenklatur sözlər arasında aşağıdakı fərqlər var:

1) Terminlər də, nomenklatur sözlər də dilin lüğət tərkibinin ayrı-ayrı laylarıdır.

2) Termin terminologiyanın, nomen nomenklaturanın vahididir.

---

[1] Bax: M.İsmayılova. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı, 1997,s.28-29, 143.

[2] H.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1988, s.182.

[3] Yenə orada.

3) Nomenklatur sözlər adlandırdıqları üçün onların sayı terminlərdən çoxdur. Məsələn: müxtəlif dərman, bitki, maşın və s. adları nomenklatur söz olmaqla sayca üstünlük təşkil edir.

Bəzən terminin nomenklatur sözə, nomenklatur sözün isə terminə daxil edilməsi onunla bağlıdır ki, bunlar arasında sərhəd donuq deyil, onların bir-birinə keçməsi halı mümkündür.

Yeri gəlmişkən onu da qeyd edək ki, nomenklatur sözü əvəzinə bəzən nomen sözü də işlənir.

Terminlər sistemində dəyişiklik bir neçə səbəblə bağlı ola bilir:

1. Terminin ifadə etdiyi anlayışın xarakteri, yaxud həcmi dəyişə bilir. Bu zaman termin sistemində dəyişiklik yaranır.

2. Terminin aid olduğu elm inkişaf edərsə, termin sistemində dəyişiklik yarana bilir. Bu göstərilən səbəblərlə bağlı olaraq termin köhnəlir və yenisi ilə əvəz olunur:

| *Köhnəlmiş termin:* | *Yeni termin:* |
|---|---|
| söftiyyat | fonetika |
| sərf | morfologiya |
| nəhv | sintaksis |
| sərf-nəhv | qrammatika |
| izafət | yiyəlik hal və s. |

Dilimizdəki terminlər sistemi terminologiya adlanır. Terminologiya bir elm kimi dilin terminlər sistemindən bəhs edir.

Termin mənşəcə iki cür olur:

*1. Milli terminlər.* Məsələn: *çaylaq, yarış, örüş, çimərlik* və s.

*2. Alınma terminlər.* Məsələn: *isim, zərf, məhkəmə, feil, semasiologiya, filologiya, poeziya, dekan, morfologiya* və s.

Alınma terminlər, əsasən, üç qrupa bölünür: a) ərəb və fars mənşəli alınma terminlər, b) rus mənşəli alınma terminlər, c) avropa mənşəli alınma terminlər.

*a) ərəb və fars mənşəli alınma terminlər.* Tarixdən məlumdur ki, Azərbaycana ərəblərin, farsların və monqolların kütləvi axını, basqını olmuşdur. Ərəb, fars və monqol basqını, işğalı Azərbaycandakı mədəniyyəti, sivilizasiyanı məhv edə bilməmiş, xalqımızın müqavimətini, birliyini pozmaq gücündə olmamışdır. Buna baxmayaraq, ərəb və fars dillərindən Azərbaycan dilinin lüğət tərkibinə çoxlu sayda sözlər keçmişdir. Onu da qeyd edək ki, Azərbaycan dilinin lüğət tərkibindəki ərəb və fars sözləri birbaşa, başqa bir dilin vasitəsi olmadan daxil olmuşdur. Əlbəttə, ərəb və fars sözləri dilimizin qayda-qanunlarına uyğunlaşmış və unifikasiya olunmuşdur.

XX əsrin əvvəllərində dilimizdəki ərəb və fars mənşəli terminlərə münasibət müxtəlif olmuşdur. Hətta ərəb və fars mənşəli terminlərin dildən çıxarılmasını da məqbul sayanlar olmuşdur. Məsələn: F.Ağazadə «Türkcəni zənginləşdirmək yolları» adlı məqaləsində ərəb və fars kəlmələrinin əleyhinə olaraq yazırdı: «Əvvəla, türkləşə bilməyən kəlmələrin əski türkcəsi varsa, həmin əski kəlmələri bulub canlandırmalı; ikincisi, hərgah türkləşə bilməyən kəlmələri əski türkcəsi yoxdursa, başqa türk şivələrindən qarşılıqlarını almalı».[1] Bəziləri isə ərəb və fars mənşəli terminlərin hamısını yox, ancaq qəliz olanları, çətin başa düşülənləri dilimizdən

[1] M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973, s.43.

çıxarmağı məqsədəuyğun saymışlar. Məsələn: bu mövqedə olan B.Çobanzadə «Türkcə sərf və nəhf istilahları» adlı məqaləsində qeyd edirdi ki, avropa istilahlarını almalı, türkcə istilah yaratmalı və əski ərəb istilahlarını mümkün olduğu qədər sadələşdirərək hələlik istifadə etməliyik».[1]

Ərəb və fars mənşəli terminlərin dilimizə keçməsində iqtisadi, mədəni əlaqələrin rolunu və islam dininin təsirini danmaq olmaz. Məsələn: islam dininin nüfuzu sayəsində dilimizə xeyli terminlər keçmişdir*: hədis (ərəb), namaz (fars), pişnamaz (fars), fitva (ərəb), fitrə (ərəb), dəstəmaz (fars), pak (fars), allah (ərəb), aşura (ərəb), vəqf (ərəb), qiblə (ərəb), qiyamət (ərəb), ziyarət (ərəb), imam (ərəb), mömin (ərəb), mürid (ərəb), pir (fars), təriqət (ərəb), haram (ərəb), şəriət (ərəb), şiə (ərəb), sünni (ərəb)* və s.

Bundan başqa, ərəb və fars dilindən dilimizə hərbi, tibb, siyasət, musiqi, kimya, zoologiya, idarə, ədəbiyyatşünaslıq və s. sahələrə aid terminlər də daxil olmuşdur.

*Hərbi terminlər: əsgər (ərəb), zabit (ərəb), müdafiə (ərəb), sərkərdə (fars), cəbhə (ərəb) və s.*

*Tibb terminləri: dərman (fars), zökəm (ərəb), zöhrəvi (ərəb), müalicə (ərəb), müayinə (ərəb) və s.*

*Siyasət terminləri: müşavirə (ərəb), saziş (fars), siyasət (ərəb), hüriyyət (ərəb) və s.*

*Musiqi terminləri: dəstgah (fars), dəf (fars), dügah (fars), mizrab (ərəb), muğam (ərəb), segah (fars), təsnif (ərəb)* və s.

---

[1] S. A. Sadıqova. Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı. «Elm», Bakı, 1997, s.35.

*Kimya terminləri: zülal (ərəb), xassə (ərəb), dəm (fars), naşatır (ərəb)* və s.

*Zoologiya terminləri: zürafə (ərəb), mərcan (ərəb), fil (fars), çaqqal (fars),sincab (fars) və s.*

*İdarə terminləri: ərizə (ərəb), katib (ərəb), sərəncam (fars), şikayət (ərəb), sənəd (ərəb), əmlak (ərəb), mükafat (ərəb), rəis (ərəb)* və s.

*Ədəbiyyatşünaslıq terminləri: dastan (fars), divan (fars), ədib (ərəb), əruz (ərəb), lətifə (ərəb), məcaz (ərəb), müxəmməs (ərəb), hekayə (ərəb), cinas (ərəb), beyt (ərəb), bənd (fars), vəzn (ərəb), qafiyə (ərəb), qəzəl (ərəb), rübai (ərəb), təkrir (ərəb), təşbih (ərəb), həcv (ərəb), şeir (ərəb)* və s.

*b) rus mənşəli alınma terminlər.* Azərbaycan dili terminologiyasının formalaşmasında rus dilinin rolu danılmazdır. Rus dili Azərbaycanın ictimai, siyasi, mədəni, iqtisadi həyatına XX əsrin 20-ci illərindən sonra nüfuz etməyə başlamışdır. Kiril əlifbasına keçdikdən sonra rus mənşəli terminlərin dilimizə axını daha da güclənmişdir. Nəticədə rus dili termin yaradıcılığında da Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində əsas mənbələrdən biri olmuşdur.

1920-1930-cu illər rus mənşəli alınma terminlərin dilimizə daxil olmasında mövcud olmuş tarixi dövrlərdən biridir. Bu dövrdə ictimai-siyasi quruluşla, müxtəlif partiya və təşkilatların yaranması ilə, elmin, texnikanın, istehsalatın müxtəlif sahələri ilə əlaqədar olaraq dilimizə rus mənşəli terminlər daxil olmuşdur: *bolşevik, sovet, çinovnik, menşevik, zabastovka* və s.

1920-1930-cu illərdə dilimizə daxil olmuş terminlərin bir qismi sabitləşərək vətəndaşlıq hüququ qazanmışdır: *kolxoz, sovxoz, zavod, duma* və s. Bəziləri isə kalka yolu ilə Azərbaycan dili sözləri ilə əvəz olunmuşdur: *atçot* – hesabat, *krujok* – dərnək, *beloqvardiya* – ağqvardiya, *paroxod* – buğ gəmisi, *parovoz* – buğ arabası və s.

Rus mənşəli terminlərin dilimizə keçməsində 1930-1945-ci illər yeni bir dövr kimi diqqəti cəlb edir. Bu dövrdə Azərbaycan dilinin lüğət tərkibi silah, geyim, hərbi vəzifə, rütbə, qoşun adları bildirən rus mənşəli hərbi terminlərlə zənginləşmişdir: *rota, vzvod, minomyot, katyuşa* və s.

1930-1945-ci illərdə rus mənşəli texniki terminlər, yeni ictimai məzmun qazanmış dil vahidləri Azərbaycan dilinin terminologiya sistemini zənginləşdirmişdir: *sistern, çuqun, plastik, posyolka, zayom, simena, okruq* və s.

1945-1991-ci illərdə dilimizdəki ərəb və fars mənşəli bir sıra terminlər rus mənşəli terminlərlə əvəz olunmağa başlamışdır. Eyni zamanda texnikaya (sputnik, turbo nasos, şlema və s.), kosmosa (kosmonavt, kosmodrom, raket, kosmik və s.) aid terminlər daxil edilmişdir.

Rus mənşəli terminləri sahələr üzrə aşağıdakı kimi qruplaşdırmaq olar:

*Texnika terminləri: rubilnik, vinkler, vıklüçatel, zolotnik, jelonka* və s.

*Hərbi terminlər: vzvod, polk, pilotka və s.*

*Dənizçilik terminləri: burtik, teploxod, tuer və s.*

*Tarix terminləri: votçina, duma, zemstvo, pristav, çar, plastun* və s.

*Mətbəə terminləri: podvorka, nabor, balaşka, verstatka* və s.

*Zoologiya terminləri: qorbuşa, zubr, korsak, prusak, treska* və s.

*Tibb terminləri: salol, santonin, sinqa və s.*

*Etnoqrafiya terminləri: vertep, kulebyaka, murmolka, duxovka* və s.

*Botanika terminləri: zubrovka, krajovnik, rjanka* və s.

*İdman terminləri: konki, brus, bulava* və s.

*Ədəbiyyatşünas terminləri: povest, oçerk, çastuşka, zavyazka, razvyazka* və s.

*Kulinariya terminləri: xolodets, peçenye, pirojki, pirojna, piroq* və s.

*c) avropa mənşəli alınma terminlər.* Dilimizin lüğət tərkibinin zənginləşməsində rus dili vasitəsi ilə avropa mənşəli sözlər də mühüm yer tutur. Müasir dövrdə – müstəqillik dövründə Avropa xalqları ilə yaxınlaşma – mədəni, iqtisadi, siyasi, elmi və digər əlaqələr dilimizin lüğət tərkibində olduğu kimi, terminologiyamızda da öz izini qoymuşdur. Beynəlxalq əlaqələrin genişlənməsi, ictimai-siyasi həyatımızdakı dəyişikliklər xeyli sayda Avropa mənşəli terminlərin dilimizə daxil olmasını gücləndirmişdir. Son illərdə ictimai həyatımıza, məişətimizə daxil olan əşyaların, anlayışların dil daşıyıcıları kimi Avropa mənşəli terminlər üstün mövqe tutur. Elm, texnika, siyasət, iqtisadiyyat, idman və digər sahələrdə Avropa mənşəli terminlərin sayı get-gedə artır.

Dilimizin lüğət tərkibindəki Avropa mənşəli terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

*Hərbiyə aid: adyutant, eskadrilya, kapitan, poliqon, leytenant, general* və s.

*Musiqiyə aid: akkord, virtouz, qamma, kamerton, leqato* və s.

*Ədəbiyyatşünaslığa aid: antiteza, epiloq, melodram, metafora, novella, remarka* və s.

*Dilçiliyə aid: arqo, varvarizm, vokalizm, konsonantizm, dissimilyasiya, assimilyasiya, infiks, prefiks, suffiks, kalka* və s.

*Fəlsəfəyə aid: atribut, qnoseologiya, dinamizm, monizm* və s.

*İdmana aid: duplem, kross, pinq-ponq, pinq* və s.

*Riyaziyyata aid: ellips, interval, modul, natural* və s.

*Siyasətə aid: izolyasionizm, reaksiya, suveren, reforma* və s.

Əlbəttə, burada bir qisim avropa mənşəli terminlərdən bəhs olundu. İndi Avropa məkanı ilə müxtəlif sahələrə aid əlaqələrimiz genişləndikcə terminlərin də dilimizə gəlişi artır. Bu da yeni əşyaların, hadisələrin, anlayışların adlandırılması ilə bağlı olaraq zəruri bir tələbat kimi baş verir. Məsələn: *sayt, faul, disk, elektrofaks, teletayp* və s. Düzdür, bu terminlər informasiya və kommunikasiya texnologiyalarının gündəlik həyatımıza, məişətimizə daxil olması ilə bağlı olaraq dilimizə keçmiş və artıq ümumişlək səciyyə daşıyır.

Müstəqillik illərində dilimizə daxil olmuş və eləcə də dilimizdə yaranmış terminləri aşağıdakı kimi qruplaşdırmaq olar:

*a) informatika ilə bağlı terminlər: sayt, fayl, disk, elektro-faks* və s.

*b) siyasi-iqtisadi terminlər: piket, funksioner, xaotik, brifinq, media, respondent, valyuta, yevra, spiker,totalitar, investisiya, unitar, legitim* və s.

*c) dilimizdə olan terminlərlə paralel işlənənlər: kserokopiya – üzçıxarma, auksion – hərrac, dublikat – ikinci nüsxə, embarqo – qadağa, konsensus – yekdillik* və s.

*ç) ictimai-siyasi həyatdakı dəyişikliklərlə bağlı olan terminlər: bazar iqtisadiyyatı, kommersiya bankı, birja, əsrin müqaviləsi, audit, səhmdar, səhmdar cəmiyyət, auditorlar palatası, bələdiyyə, kommersiya, makler, tender, büdcə* və s.

*Terminlərin ümumişlək sözlərdən fərqi.* Dilin lüğət tərkibindəki terminlərin ümumişlək sözlərdən bir sıra fərqli cəhətləri var. Bunlar, əsasən, aşaığdakılardır:

1. Ümumişlək sözlər üçün ümumişləklik, termin üçün dəqiqlik, konkretlik səciyyəvidir.
2. Ümumişlək sözlər həqiqi, məcazi, frazeoloji mənalarda, termin isə ancaq həqiqi, nominativ mənada işlənir.
3.Ümumişlək sözlər dilin ümumi qaydaları ilə, termin isə şüurlu nəzarət, nizamlama prosesi ilə yaranır.
4. Ümumişlək sözlər fəal işlənir, termin isə məhdud sahə ilə bağlı olur.
5. Ümumişlək sözlərə modallıq, ekspressivlik xasdır, terminlərdə bu xüsusiyyət yoxdur.
6. Ümumişlək sözlər çoxmənalılığa, terminlər təkmənalılığa meyl edir.
7. Ümumişlək sözlərin ədəbi dildə sinonimi var, terminlər isə əsasən sinonimlikdən uzaqdır.

Azərbaycan dilinin lüğət tərkibindəki terminlər terminoloji leksikanı yaradır. Azərbaycan dilinin terminoloji leksikası XI-XIII əsrdən yaranmağa başlayıbdır. Sonrakı inkişaf prosesini nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, XI-XVIII əsrlərdə dilimizdəki terminlərin əksəriyyəti (90%-i) ərəb-fars mənşəli olmuşdur. XIX əsrdən başlayaraq Azərbaycan milli terminologiyasının özülü qoyulmuşdur. Daha sonra terminologiyanın inkişafında 1920-1930, 1930-1950, 1950-1980-ci illər və

1980-ci ildən bugünkü günümüzə qədər olan dövr xüsusi mərhələ kimi qalmaqdadır.

Terminşünaslar tərəfindən terminologiyanın inkişaf tarixi müxtəlif şəkildə dövrləşdirilmişdir. M.Ş.Qasımov dilimizin terminoloji inkişaf tarixini üç dövrə ayırmışdır:

1.XII-XIII əsrlərdən XIX əsrin 30-cu illərinə qədərki dövr.

2.XIX əsrin 30-cu illərindən Azərbaycanda Sovet hakimiyyəti qurulana qədərki dövr.

3.Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonrakı dövr.[1]

S.A.Sadıqova Azərbaycan dilinin fizika-riyaziyyat terminologiyasının inkişaf tarixini aşağıdakı dövrlərə bölür:

1.VII-XIII əsrlərdən XIX əsrin 30-cu illərinə qədərki dövr.

2.XIX əsrin 30-cu illərindən Azərbaycanda Sovet hakimiyyəti qurulana qədərki dövr.

3. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonrakı dövr.[2]

Hər iki bölgüdə tam olmayan cəhət odur ki, XX əsrin 90-cı illərindən sonrakı dövr burada öz əksini tapmamışdır. Ancaq İ.Z.Qasımov hərbi terminoloji leksikanın inkişaf tarixini dövrləşdirərkən XX əsrin 90-cı illərindən bu günə qədərki dövrü nəzərə almışdır. O, hərbi terminoloji leksikanın inkişaf tarixini aşağıdakı kimi dövrləşdirmişdir.

1. Ta qədim dövrlərdən islama qədərki dörv.
2. VII-XIX əsrlər.

[1] M.Ş.Qasımov. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973,s.43.

[2] S.A.Sadıqova. Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı. «Elm», Bakı, 1997, s.35.

3. XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədərki dövr.

4. XX əsrin əvvəllərindən 90-cı illərin əvvəllərinə qədərki dövr.

5. XX əsrin 90-cı illərindən bu günə qədərki dövr.[1]

Sonralar S.A.Sadıqova XX əsrin 90-cı illərindən sonrakı dövrü nəzərə alaraq Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişaf tarixini aşağıdakı şəkildə dövrləşdirmişdir:

1. VI-VIII əsrlərdən XV əsrə qədərki dövr.
2. XVI-XVIII əsrlərdə terminologiyanın təşəkkülü dövrü.
3. XIX əsrin 30-90-cı illərində terminologiyanın inkişafı dövrü.
4. XX əsrin I rübündə terminologiyanın inkişafı dövrü.
5. XX əsrin 20-90-cı illərində terminologiyanın inkişafı dövrü.
6. XX əsrin 90-cı illərində (müstəqillik illərində) terminologiyanın inkişafı.[2]

Terminoloji dəyişmələri, yeniləşmələri, zamanın yerində saymadığını nəzərə alsaq, XX əsrin 90-cı illərindən sonrakı (müstəqillik dövründən sonra) vaxtı dövrləşməyə daxil etmək daha ağlabatandır.

Azərbaycan terminologiyasının inkişafında Terminologiya Komitəsinin böyük rolu olmuşdur. Azərbaycanda Terminologiya Komitəsi ilk dəfə 1922-ci ildə Azərbaycan Mərkəzi Komitəsinin yanında təşkil olunmuşdur. Terminologiya

[1] İ. Z. Qasımov. Azərbaycan dilində hərbi-terminoloji leksikasının təşəkkülü və inkişafı. Bakı, 2001,s.18-20.
[2] S. A. Sadıqova. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. «Elm», Bakı, 2005,s.33.

Komitəsinin əsas məqsədi müxtəlif sahələr üzrə terminoloji lüğətləri hazırlamaq, yeni terminlər düzəltmək terminoloji leksikaya nəzarət etmək və s. olmuşdur.

Bu gün terminologiyanın inkişafını düzgün istiqamətləndirmək olduqca zəruridir. Ona görə də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətinin qərarı ilə 2001-ci ildə Terminologiya Komissiyası yaradıldı. Terminologiya Komissiyasının xətti ilə müxtəlif elm sahələrinə aid terminoloji lüğətlər çap olundu. Məsələn: «Kino, televiziya, radio terminlərinin izahlı lüğəti» (Bakı, 2002, tərtibçi: Q.M.Məhərrəmli), «Rusca-azərbaycanca dəmiryol nəqliyyatı terminləri lüğəti» (Bakı, 2004, tərtibçi: K.M.Şərifov), «Rusca-azərbaycanca texniki terminlərin izahlı lüğəti» (Bakı, 2004, tərtibçi: G.Qocayeva), «İngiliscə-rusca-türkcə-Azərbaycanca hüquq terminləri lüğəti» (Bakı, 2004, tərtibçi: A.İbrahimov), «İzahlı iqtisad terminlər lüğəti» (Bakı, 2005, tərtibçilər: Ə.M.Abbasov, M.M.Bağırov, D.A.Bağırov, S.H.Pürhani) və s.

*Terminlərin əmələgəlmə üsulları.* Azərbaycan dilindəki terminlər aşağıdakı üsullarla əmələ gəlir: *semantik üsul, morfoloji üsul, kalka üsulu, sintaktik üsul, abbreviatura üsulu.*

*Semantik üsul.* Bu üsulla əmələ gələn terminlər dilin lüğət tərkibində olan ümumişlək, məişət, dialekt, peşə-sənət və s. sözlərin hesabına düzəlir. Yəni ümumişlək, məişət, dialekt, peşə-sənət və s. sözlər yeni məzmun kəsb edərək terminləşir. Məsələn: *boğaz*-ümumişlək söz, *boğaz*-anatomiyada termin, *çay, göl* – ümumişlək söz, *çay, göl* – coğrafiyada termin, *isim, sifət* – ümumişlək söz, *isim, sifət* – dilçilikdə termin, daraq – ümumişlək söz, daraq – hərbi anlayışı bildirən termin (patronları yan-yana qoymaq üçün qab, qutu), ağız – ümumişlək söz, ağız – hərbi anlayışı bildirən termin (odlu

silahların lüləsinin ön tərəfindəki deşik, güllə çıxan tərəf), *ayaq* – ümumişlək söz, *ayaq* – hərbi anlayışı bildirən termin (tüfəng, tapança kimi silahların çaxmağı, tətiyi) və s.

Semantik üsulla əmələ gələn terminlərin aşağıdakı növlərini qeyd etmək olar: *a) mənanın dəqiqləşdirilməsi, b) mənanın daralması, c) mənanın genişlənməsi, ç) mənanın köçürülməsi.*[1]

*a) mənanın dəqiqləşdirilməsi ilə yaranan terminlər.* Dildə olan sözün mənasını dəqiqləşdirməklə o zaman termin kimi istifadə olunur ki, mənanın mahiyyəti dəyişməsin. Məsələn: *ünvan* – bir şəxsin yaşadığı və ya bir idarənin yerləşdiyi yer.

*Ünvan* (informatika termini) – registrin, verilənlərin yaddaşdakı yerini müəyyən edən simvol və ya simvollar qrupu. Ünvan ümumişlək söz kimi yaşama, yerləşmə yeri, termin kimi simvol və simvollar qrupu təsəvvürünü yaradır.

Yaxud, *surət* – bir şeyin əslindən eynilə köçürülmüş nüsxəsi, üz.

*Surət* (informatika termini) – başqa yerdə mövcud olan verilənlərin yaddaşda saxlanılan variantı.

*Bölmə* (riyazi termin) – *bölmə* (hərbi termin), *əməliyyat* (tibbi termin) - *əməliyyat* (hərbi termin), *yuva* (texniki termin) - yuva (hərbi termin) və s. misalllar da bu qəbildəndir.

*b) mənanın daralması ilə yaranan terminlər.* Mənanın daralması o demək deyildir ki, terminləşən söz öz əvvəlki mənalarını itirir. Heç də belə deyil, sözün bütün mənaları öz sahəsində işlənir. Sadəcə olaraq sözün mənalarından birinin

[1] Bax: M.İsmayılova. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. Bakı, 1997, s.95-106.

dəqiqləşməsi əsasında söz terminləşir. Məsələn: *tor – çarpaz toxunmuş ip, məftil* və s.-dən ibarət müxtəlif ləvazimat.

*Tor* (informatika termini) – yaddaş xanasının və ya registrin ikilik formatı.

*Tor* (elektrotexnika termini) – elektron lampalarında katodla anod arasında yerləşdirilən əlavə elektrod.

*c) mənanın genişlənməsi ilə yaranan terminlər.* Bu cür yaranan terminlərin mənası terminləşmiş sözün ilkin mənasından tam fərqlənir və seçilir. Məsələn: *nənni* – 1. Körpə uşaqları yatırtmaq üçün asılan kiçik yatacaq. 2. Uzanıb ya oturub dincəlmək üçün ağaclara, dirəklərə bənd olmuş asılı tor.

*Nənni* (inşaat termini) – ustaların işləməsi və istifadə edilən tikinti materiallarının müəyyən hündürlükdə yığılması üçün qurulan asma duracaq.

Bu termində ortaq məna müəyyən hündürlükdən asılmaq mənasıdır. Uşaq və istirahət nənnisi üçün onun yellənə bilməsi vacibdirsə, inşaatdakı nənninin tərpənməməsi, dayanıqlı olması əsas amildir.

*ç) mənanın köçürülməsi ilə yaranan terminlər.* Burada zahiri oxşarlığa görə mənanın köçürülməsi, yerinə yetirdiyi funksiyaya görə mənanın köçürülməsi və s. tələblər terminləşmədə əsas götürülür. Məsələn: *yaddaş* – ümumişlək söz, *yaddaş* (informatika termini), *yükləmə* – ümumişlək söz, *yükləmə* (informatika termini) və s.

*Morfoloji üsul.* Morfoloji üsulla terminlərin əmələ gəlməsi söz köklərinə sözdüzəldici şəkilçilərin qoşulması ilə yaranır. Bu yolla terminlər həm öz şəkilçilərimiz, həm də alınma şəkilçilərlə əmələ gəlir.

*Öz şəkilçilərimizlə düzələn terminlər:* - *çı*$^4$ (avtomatçı, raketçi, dənizçi, topçu, üzümçü və s.), - *lıq*$^4$ (xarratlıq,

dülgərlik və s.), - *laq*[2] (buzlaq, duzlaq və s.), -*ma*[2] (bölmə, atışma, düzülmə, izləmə və s.), - *iş*[4] (yürüş, döyüş, qaçış, vuruş, yeriş və s.), - *iq*[4] (bölük, barışıq, danışıq və s.) və s.

Alınma şəkilçilərlə düzələn terminlər: - *keş* (azarkeş – idmanda, malakeş – inşaatda və s.), - *xor* (rüşfətxor - hüquqda), - *şünas* (ədəbiyyatşünas), - *dar* (maldar, məhsuldar, səhmdar, dindar və s.), - *gah* (nişangah, qərargah), - *i,-vi* (nizami, sıravi), *anti* (antiraket) və s.

*Kalka üsulu.* Başqa dilə məxsus sözləri, söz birləşmələrini doğma dilə dəqiq tərcümə etmək üçün həmin sözlərin, söz birləşmələrinin modelləri əsas götürülür. Məsələn: sotrudnik – əməkdaş, *udarnik* – zərbəçi, *samokritika* – özünütənqid, *vozduxoduvka* – havaüfürən, *vozduxomer* – havaölçən, *ustnıy prikaz* – şifahi əmr, *strelkovıy polk* – atıcı alay, *pexotnıy polk* – piyada alayı, *redkiy oqon* – arabir atəş, *rota obslujivaniya* – xidmət bölüyü, *boevaya texnika* – döyüş texnikası və s.

Misallardan göründüyü kimi, kalka üsulu ilə əmələ gələn terminlər, əsasən, rus dilindən alınsa da, onu ifadə edən sözlər dilimizin daxili imkanları ilə həyata keçirilir.

*Sintaktik üsul.* Bu üsulla terminlər iki sadə sözün, bir sadə, bir düzəltmə sözün birləşməsindən əmələ gəlir: *üçbucaq, dördbucaq, cüttərkibli, təktərkibli, böyük komandir, xüsusi təyinat, alay təbliğatçısı, aviasiya alayı, bölmə rəisi, korpus qərargahı, döyüş qərarı, qarnizon qospitalı, alay anbarı, qırıcı təyyarə* və s.

*Abbreviatura üsulu.* Abbreviatura sözü latın mənşəli sözdür: ab Azərbaycan dilindəki – *dan*[2] çıxışlıq hal şəkilçisi məzmunundadır, *brevio // breviot* «qısaldıram» mənasındadır, *ur* bu üsulun adını yaradan şəkilçidir. Deməli, abbreviatura üsulu ilə yaranan terminlər sözlərin, söz birləşmələrinin

qısaldılması nəticəsində əmələ gəlir: *akad.* (akademik), *prof.* (professor), *Azərkitab* (Azərbaycan kitabı), *AzərTAc* (Azərbaycan Teleqraf Agentliyi), *MM* (Milli Məclis), *DMK* (Dövlət Müdafiə Komitəsi), *HSK* (Hərbi Sənaye Kompleksi), *AK* (Avtomat Kalaşnikov) və s.

Yeri gəlmişkən onu da qeyd edək ki, abbreviaturların mənasında nominativlik daha güclüdür. Ona görə də abbreviaturlar terminlərdən daha çox, nomenklatur sözlərlə yaxınlıq yaradır.

**Peşə-sənət sözləri.** Peşə-sənətlə məşğul olan insanların nitqində və məhdud dairədə işlənən sözlərə peşə-sənət sözləri deyilir. Bu söz qrupu məhdud dairədə işlənən sözlərdir. Buna baxmayaraq peşə-sənət sözlərinin ümumişlək səciyyəli xüsusiyyətləri də vardır. Onun bu xüsusiyyətini nəzərə alsaq, peşə-sənət sözlərini belə qruplaşdırmaq olar:

*1. Çörəkçiliklə bağlı olanlar.* Məsələn: *lavaş, kürə, kürək, təndir, şiş, fəsəli, yuxa, fətir, acıtmaq, xamralı, bişi, yoğurmaq, maya, təhnə, un, kökə, yapmaq, kündələmək* və s.

*2. Meyvəçiliklə bağlı olanlar.* Məsələn: *şaftalı, ərik, gilas, albalı* və s.

*3. Üzümçülüklə bağlı olanlar.* Məsələn: *ağ şanı, qara şanı, sarı gilə, keçiəmcəyi, şabranı, dərbəndi, ağadayı, gəlinbarmağı, kişmişi* və s.

*4. Tərəvəzçiliklə bağlı olanlar.* Məsələn: *vəzəri, reyhan, kök, tərxun* və s.

*5. Quşçuluqla bağlı olanlar.* Məsələn: *cücə, beçə, fərə, toyuq, ördək, quzğun, çalağan, qızılquş, sarıköynək, arıboğan, ağacdələn, sərçə, saxsağan, şanapipik, qarğa, qaranquş, arıquşu, bıldırçın* və s.

*6. Atçılıqla bağlı olanlar.* Məsələn: *yabı, dayça, daylaq, qulan, madyan, ayğır, alaşa, kəhər at, kürən at, qaşqa yabı, yorğa* (yerişinə görə adlanır), *çortyeriş* (yerişinə görə belə adlanır), *tülkü yeriş* (yerişinə görə belə adlanır), *qurd yeriş* (yerişinə görə belə adlanır) və s.

*7. Balıqçılıqla bağlı olanlar.* Məsələn: *sazan, nərə, kilkə, naqqa* və s.

*8. Tikişçiliklə bağlı olanlar.* Məsələn: *qayçı, iynə, sap, üskük, astar, düymə* və s.

*9. Ayaqqabıçılıqla bağlı olanlar:* Məsələn: *qəlib, dəri, kəlbətin, padoş, daban* və s.

*10. Baramaçılıqla bağlı olanlar:* Məsələn: *tərəcə, miz, künə, pürük, barama, yarpaq, gər, toxmacar, şaxlamaq, qurd şaxı* və s.

*11. Aşbazlıqla bağlı olanlar:* Məsələn: *çömçə, kəfkir, abgərdən, tutacaq, süzgəc, qazan, tava, teşt, oxlov, çapacaq* və s.

*12. Tikinti ilə bağlı olanlar:* Məsələn: *sement, kubik, daş, üzlük, qum, beton, suvaq, palçıq, taxta, yonmaq, ağac, mişar, rəndə, çəkic, mismar* və s.

*13. Hərb və idmanla bağlı olanlar:* Məsələn: *farağat, azad, düzlən, sağa bax düzəl, hərəkətə başla, pəncələr üstə qalx, əlləri belə qoy, qaçmağa başla, yerində say, addımla marş* və s.

Son illərdə Azərbaycan dilinin hərbi terminologiyası inkişaf edir, yeni terminlər hesabına zənginləşir və təkmilləşir. Hərb sənəti və onunla bağlı olan terminlərin tarixi kökləri ortaq türk hərb elmi ilə bağlı olmaqla yanaşı, həm də müstəqillik qazandıqdan sonra bu istiqamətdə görülmüş işlərin əhəmiyyəti ilə əlaqədardır.

Sovet dövründə bu sahədə terminoloji leksikanın yaranması süni maneələrlə qarşılaşmışdır. Hərbi terminologiya praktik olaraq rus sözləri ilə qurulmuşdur. Ona görə də ortaq türk hərb leksikasından və öz sözlərimizdən istifadə olunmamışdır. Respublikamız müstəqillik qazandıqdan sonra hərbi terminologiya sahəsində ciddi irəliləyişlər baş vermiş, bu sahəyə aid milli dil vahidlərinin termin kimi formalaşması halları genişlənmişdir.

Dillərin qarşılıqlı əlaqəsi məsələsinə əksər vaxt birtərəfli yanaşılmış, dillərdən hər hansı birinin rolu daha da şişirdilmişdir. Bu mənada da hərbi termin məsələsində də rus sözlərinin dilimizə keçməsinə daha çox önəm verilmişdir. Ancaq nəzərə alınmamışdır ki, bu qarşılıqlı əlaqədə vaxtilə türk sözlərinin, o cümlədən hərbi terminlərin rus dilinə keçməsi az olmamışdır. Artıq bu sahədəki son araşdırmalarda məsələnin düzgün həlli istiqaməti tapıla bilmişdir.[1]

Yeri gəlmişkən türk dillərinin nəinki rus, hətta slavyan dillərinə güclü təsiri olmuşdur. H.A.Baskakov «İqor polku» dastanında çoxlu sayda türk mənşəli sözlərin işləndiyini öz araşdırmalarında təsdiq etmiş, türk dillərinin slavyan xalqlarında qoyduğu izləri faktlarla sübuta yetirmişdir. O yazır: «Rusların türkdilli xalqlarla sıx ünsiyyəti, qonşu köçəri xalqların hücumlarının dəf olunması, qonşu türkdilli xalqların orduları ilə birgə hərbi yürüşlər bu xalqların bir-birinin dillərini praktik şəkildə öyrənmələri ilə yanaşı, rus və onunla

[1] Bax: Y.Məmmədli. Azərbaycan dilinin hərbi leksikası. Bakı, 1997; İ.Qasımov.Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları. Bakı, 2000.

qonşu olan türk dillərinin leksik baxımdan qarşılıqlı şəkildə bir-birinə təsir etməsinə də şərait yaradırdı».[1]

Tarixin ayrı-ayrı dönəmlərində rus dilinə daxil olmuş türkizmlər sırasında hərbi terminlər də olmuşdur: biçaq, sayqat (hərbi qənimət), *koşey*, *koşiy* (koş türk dillərində ordu, düşərgə, karvan mənalarındadır), *çolqa*, *teleqa* və s.

Türk dillərinin ərəb və rus dilləri ilə qarşılıqlı əlaqəsi zamanı, xeyli türkizmlər, o cümlədən hərbi terminlər bu dillərə də daxil olmuşdur:

Ərəb dilində daxil olmuş hərbi terminlər: *əlay* (alay), *buluk* (bölük), *takim* (taqım), *tətək* (tətik), *tüfək* (tüfəng), *dəbbus* (toppuz), *təpənçə* (tapança), *tup* (top), *yarək* (yaraq), *unbaşi* (onbaşı), *urdu* (ordu) və s.

Fars dilinə daxil olmuş hərbi terminlər: *alay*, *bölük*, *tüfəng*, *toppuz*, *qoruyucu* (öndə gedən, yol göstərən, bələdçi), *elçi*, *yaraq*, *yasaq*, *saxlov* (daimi qoşun və kuzarma mənalarında), *yüzbaşı*, *minbaşı* və s.

Azərbaycan dilində hərbi terminoloji leksikanın sırasında rus dili və bu dil vasitəsilə yaranmış alınmalar da vardır: *pulemyot*, *avtomat*, *raket* və müstəqillik dövrünə qədər işlədilmiş *serjant*, *yefreytor*, *praporşik*, *otdeleniya*, *adyutant* və s.

Dillərin lüğət tərkibinin zənginləşməsində beynəlmiləl sözlərin böyük rolu var. Bu mənada beynəlmiləl sözlər sırasında hərbi terminlər də işlənir*: general, mayor, qospital, diviziya, aparat, qranat, distansiya, agent* və s. Bu sözlər beynəlmiləl səciyyə daşıyan latın mənşəli sözlərdir.

Azərbaycan dilinin hərbi terminoloji leksikası XX əsrin 90-cı illərindən sonra milli zəmində inkişaf etmiş və

[1] N. A. Baskakov. Vvedenie v izuçenie tyurkskix yazıkov. M., 1969, s.18.

zənginləşmişdir. Əlbəttə, cəmiyyətimizdə müstəqil ordu quruculuğu ilə bağlı işlərin dinamikası hərbi terminoloji leksikanın inkişafına imkan yaratmışdır. İndi dilimizdə terminoloji leksikanın formalaşması həm bu sahədə hərbi leksika ilə bağlı qarşıya çıxan çətinlikləri aradan götürür, həm də bu sahəyə aid terminlər sisteminin, bütövlükdə dilin lüğət tərkibinin zənginlşməsinə gətirib çıxarır. Hazırda dilimizdəki hərbi terminoloji leksikanın zəngin semantik qrupları vardır:

a) hərbi idarə və təşkilat adları: *Ali Baş Komandanlıq, Azərbaycan Respublikası Silahlı Qüvvələri, Ali Hərbi Dənizçilik Akademiyası, Hərbi Dəniz Donanması* və s.

b) qoşun növləri və hərbi hissə adları: *alay artilleriya qrupu, alay tibb məntəqəsi, dağ atıcı alayı, zenit raketləri diviziyası, kəşfiyyat taqımı, pulemyot – artilleriya tabırı* və s.

c) hərbi texnika, silah və sursat adları: *bombaatan, tankvuran, minaaxtaran, minatəmizləyən, təyyarəvuran, qırıcı aviasiya, raket texnikası* və s.

ç) hərbi rəhbərlik və vəzifə adları: *tabor komandiri, bölük komandiri, manqa komandiri, alayın artilleriya rəisi, gəmi komandiri, kazarma növbətçisi* və s.

d) hərbi əməliyyat və fəaliyyət adları: *qaravula getmə, hücuma keçmə, atışma, bombalama, qumbara atma, and içmə, orduya çağırılma, tərxis olunma* və s.

e) hərbi geyim və döyüşçü ləvazimatlarının adları: *kitel, jilet, pilotka, buşlat, şinel, çanta, qayış, döşlük, binokl, əleyhqaz, kompas, maska, paraşüt, durbin, bronejilet* və s.

ə) hərbi rütbə adları: *kapitan, mayor, general, admiral, polkovnik, çavuş, gizir, onbaşı, yüzbaşı* və s.

f) hərbi komandalar və əmrlər: *Atəş!, Azad!, İrəli!, Sola!, Hücum!, Farağat!, Qalx!, Dayan!, Sağa dön!, Alay yürüşə hazırlansın!*[1] və s.

*14. Təlim, tərbiyə, təhsillə bağlı olanlar:* Məsələn: *tərbiyə, qiymət, davamiyyət, dərslik, imtahan, zaçot, kollekvium, jurnal* və s.

*15. Xörək və yeməklə bağlı olanlar: xaşıl, xəngəl, bozartma, dolma, çığırtma* və s.

*16. Toxuculuqla bağlı olanlar: xana, həvə, əriş, arğac, ilmə, kələf, yumaq, hörmə, mil, mahud* və s.

*17. Geyim və bəzəklə bağlı olanlar: çuxa, arxalıq, papaq, çalma, pambıqlı, kəmər, corab* və s.

*18. Arıçılıqla bağlı olanlar: mum, şam, beçə, şərbət, ana arı, fəhlə arı, vərəmumu, yeşik qapağı, süzmə bal* və s.

*19. Qoyunçuluqla bağlı olanlar: yaşına görə qoyun növləri: quzu (altı aya qədər erkək və ya dişi), toğlu (bir illik), erkək (bir-iki yaş), qoç (törədici), ana qoyun, şişək (ilk dəfə doğan qoyun), qaradiş (iki illik), öyəc (iki yaşdan sonra), dızman (dörd-beş yaşından sonra)* və s.

*Zahiri formasına görə qoyun növləri: kürə, kərə, qulaqlı, qaraqulaq, sarıqulaq, sarı kərə, kəkilli, ağ, qara, boz, alabula, təpəl, alapaça* və s.

*Cinsinə görə qoyun növləri: bozax, dönmə, qırım, mazıx* və s.

---

[1] Hərbi terminlər və onların yaranma yolları barəsində bax: İ. Qasımov. Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları. Bakı, 2000.

*Yaşına görə keçi növləri: oğlaq (altı aya qədər), çəpiş (bir yaşa qədər dişi), küyər (bir yaşa qədər erkək), axda (axtalanmış keçi), dişi keçi, təkə (törədici), dıvır* və s.

*Zahiri əlamətinə görə keçi növləri: əyribuynuz keçi, qoşabuynuz keçi, mürcümlü keçi, qızıl keçi, alabula keçi, qara keçi, ağ keçi, sarıqulaq keçi, qaraqulaq keçi, göy keçi, alapaça keçi, səkil keçi.*

*20. Maldarlıqla bağlı olanlar. Yaşına görə qaramal növləri: buzov (altı aya qədər), dana (bir yaşa qədər), qısırəmən (bir yaş yarım), cöngə (yaş yarımdan sonra), düyə (bir yaşdan sonra), öküz (üç yaşından sonra), kələ (törədici)* və s.

*Zahiri əlamətinə görə qaramal növləri: qarmaqbuynuz inək, qızıl dana, alabula düyə, boz öküz, ağ inək, qara düyə, təpəl buzov, qaşqa cöngə, çatmabuynuz inək, səkil öküz, qonur dana* və s.

*21. Ev əşyaları ilə bağlı olanlar: tava, qazan, şadara, xəlvir, dolça, maşa, nehrə, aşsüzən, təhnə, xalça, gəvə, keçə, kilim* və s.

*22. Tütünçülüklə bağlı olanlar: tütün iynəsi, tütün kəndiri, tay, tay ağacı, kələf* və s.

*23. Xalçaçılıqla bağlı olanlar: kilim, hana, kətan, yun, çuval, ipək* və s.

*24. Dəriçiliklə bağlı olanlar: gön, xəz, dabbaq, qaşov, keçə, ülgü* və s.

*25. Nalbəndliklə bağlı olanlar: nalbənd, mahmız, nal-mıx* və s.

*26. Çilingərliklə bağlı olanlar: açarçılıq, cəftə, gilan, kilid, dəzgah* və s.

**Qeyd:** Peşə-sənət sahələri rəngarəng olduğundan onlara aid sözlər də çoxdur. Məsələn: peşə-sənət sözlərinə metalişləmə, dəmirçiliklə, silahsazlıqla, misgərliklə, zərgərliklə, dulusçuluqla, daşişləmə ilə, ağacişləmə ilə, boyaçılıqla və digərləri ilə bağlı olanlar da daxildir.

Peşə-sənət sözləri xalqın həyat tərzi, peşəsi, məşğuliyyəti, məişəti ilə sıx şəkildə bağlıdır. Ona görə də xalqın həyat tərzini, məişətini, məşğul olduğu peşəni və s.-ni öyrənmək baxımından peşə-sənət sözlərinin böyük rolu vardır.

Xalqın həyat tərzinin, məişətinin inkişafı nəticəsində mədəni həyatı ilə yanaşı, məşğul olduğu peşə-sənət sahələri də genişlənir. Bu zaman dilin lüğət tərkibi yeni-yeni peşə-sənət sözləri hesabına zənginləşir. Bəzi peşə-sənət sözləri dilin lüğət tərkibinin fəal hissəsinə daxil olaraq hamı tərəfindən işlədilir: *qayçı, iynə, qazan, ağac, çəkic, mismar, daş, qum, kəlbətin* və s.

Peşə-sənət sözlərinin bir qismi isə xalqın həyatının, məişətinin, mədəni səviyyəsinin inkişafı ilə bağlı olaraq dilin lüğət tərkibində köhnəlir. Bu zaman, təbii ki, elmi-texniki tərəqqinin rolu sayəsində peşə-sənət sözləri dəyişir. Xalqın məişətinə, həyatına müasir elmi-texniki tərəqqinin tələblərinə uyğun peşə-sənət sahələri daxil olur. Müasir elmi-texniki tərəqqi ilə uyuşmayan peşə-sənət və ona aid olan sözlər öz ifadə imkanlarını itirir və beləliklə, köhnəlir, tarixizmlər cərgəsinə daxil olur. Məsələn: hal-hazırda texnikanın inkişafı ilə bağlı olaraq vaxtilə kənd təsərrüfatı alətləri sırasında olmuş kotan, xış, boyunduruq və onlara aid hissələr işlənmir:

*Kotan hissələri: baş ağacı, xərəzən ağacı, xərəzən zənciri, yəhər, xamıt, ox, məj, məjağacı, sürüntək.*

*Xışın hissələri: xamsa, ulama, dəsdək, başağacı, tutalğac, güc ağacı.*

*Boyunduruğun hissələri: ana samı, yan samı, çüylər, güc ağacı, moduxlar.*

Bir sıra peşə-sənət sözləri və yaxud leksikası məhdud dairədə işlənir. Məsələn: dildə *vokalizm* (sait səslər), *sinharmonizm* (ahəngdarlıq), *fonem*, *vəzn*, *morfologiya*, *sintaksis* və s. Peşə-sənət sözləri ilə terminlər arasında yaxınlıq var: a) hər ikisi konkret mənaya malik olur, b) hər ikisinə daxil olan sözlərin bir qrupu geniş dairədə işlənmir və hamı tərəfindən başa düşülmür. Məsələn: tibbi sahədə: *amputasiya* (bədənin xəstə üzvünün kəsilməsi), *vaksin* (yoluxucu xəstələrə qarşı müalicə peyvəndləri üçün qoruyucu maddə), *pnevmoniya* (sətəlcəm) və s.) hər ikisinə daxil olan sözlərin bir qismi hamı tərəfindən başa düşülmədiyindən onlarda arqo və jarqon elementlərinə təsadüf olunur. Lakin peşə-sənət sözləri ilə terminləri eyniləşdirmək olmaz. Peşə-sənət sözləri terminlərdən fərqlənir. Ən başlıca fərq ondan ibarətdir ki, terminlərdən fərqli olaraq peşə-sənət sözləri ümumişlək səciyyəlidir. Məsələn: *çörəkçiliklə* (lavaş, fətir, yuxa və s.), *meyvəçiliklə* (gilas, albalı, qoz və s.), *üzümçülüklə* (kişmişi, sarıgilə, şanı və s.), *tərəvəzçiliklə* (vəzəri, reyhan, tərxun və s.) və digər peşə-sənət sahələri ilə bağlı olan sözlərin bir qismi işlənmə dairəsini genişləndirərək ümumişlək səciyyə qazanmışdır. Bundan başqa, peşə-sənət sözləri daha çox şifahi nitqdə, terminlər isə, əsasən, elmi üslubda işlədilir. Ona görə də terminlər rəsmi, peşə-sənət sözləri natamam rəsmi səciyyəlidir. Eyni zamanda peşə-sənət sözləri kustar

təsərrüfatla, kiçik və böyük istehsalat sahələri ilə, terminlər isə elm və texnikanın müxtəlif sahələri ilə bağlı olur.

**Qeyd:** Peşə-sənət sözləri məhdud dairədə işlənməsi baxımından dialektizmlərə də bənzəyir. Lakin onlar arasındakı fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar: a) dialekt sözlərinin işlənmə dairəsi konkret bir ərazi ilə məhdudlaşır, ancaq peşə-sənət sözlərinin işlənmə dairəsi ərazi ilə yox, ictimai baxımdan hüdudlanır. Yəni, ictimai baxış o deməkdir ki, peşəsi, sənəti ilə bağlı olaraq cəmiyyətin müəyyən bir üzvü öz nitqində peşə-sənət sözlərindən istifadə edirlər. b) dialektizmlərdən fərqli olaraq peşə-sənət sözləri ədəbi dilin lüğət tərkibinə daxil olur.

**Ekzotik sözlər.** Dilin lüğət tərkibində müəyyən qrup sözlər vardır ki, onlara ekzotik sözlər deyilir. Ekzotik sözlər mənşəcə başqa dilə mənsub olub, xalqın məişətini, adət-ənənəsini, milli xüsusiyyətlərini göstərən leksik vahidlərdir. Müasir Azərbaycan ədəbi dilindəki ekzotik sözləri aşağıdakı qruplara ayırmaq olar:

1. Pul vahidlərinin adını bildirən sözlər. Məsələn: *dollar* (ABŞ, Kanada, Avstraliya), *marka* (Almaniya, Finlandiya), *frank* (Fransa), *lirə* (Türkiyə), *lira* (İtaliya), *funt sterlinq*, *şillinq* (Avstriya), *ley* (Rumıniya), *lev* (Bolqarıstan), *lek* (Albaniya), *forint* (Macarıstan), *kron* (Çexoslovakiya, Danimarka), *dinar* (İran, Yuqoslaviya), *rupi* (Yunansıtan), *rupiya* (Pakistan), *əfqani* (Əfqansıtan), *rial* (İraq), *yuan* (Çin), *donq* (Vyetnam), *ien* (Yaponiya), *lari* (Gürcüstan) və s.

2. Musiqi alətlərinin adını bildirən sözlər. Məsələn: *balalayka* (rus simli musiqi aləti), *bandura* (Ukrayna simli musiqi aləti), *gitara* (ispan simli musiqi aləti), *qonq*

(İndoneziya zərb musiqi aləti), *handura* (abxaz, açar simli musiqi aləti) və s.

3. Rəqs adları bildirən sözlər. Məsələn: *tərəkəmə*, *vağzalı*, *ləzginka, çardaş, qopaq* (Ukrayna xalq rəqsi), *nenuet* (Fransız bal rəqsi), *çardaş* (macar xalq rəqsi), *xorumi* (gürcü xalq rəqsi), *tanqo* (qədim ispan xalq rəqsi) və s.

4. Xörək adları bildirən sözlər. Məsələn: *xaş, satsivi, tabaka, borş, xarço, qulyaş, xəngəl, plov, dovğa, dönər* və s.

5. İçki adları bildirən sözlər. Məsələn: *balzam, viski, likyor, cəcə (araq)* və s.

6. Vəzifə adları bildirən sözlər. Məsələn: *mer, ser, lord* və s.

7. Yerli bitki və heyvan adları bildirən sözlər. Məsələn: *turac, cüyür* və s.

8. Bəzi şəxs adları bildirən sözlər. Məsələn: *Hans, Con, Mamed, İvan, Marusya* və s.

9. Meyvə adları ilə bağlı olan ekzotik sözlər. Məsələn: *banan, ananas, kivi* və s.

10. Geyim adları ilə bağlı olan ekzotik sözlər. Məsələn: *dublyonka, frak, kimano, mini, mokrujork, çuxa, papaq, kaftan* və s.

11. Müraciət bildirən sözlər. Məsələn: *ser, mister, qospodin, cənab* və s.

12. Qab-qacaq adları bildirən sözlər. Məsələn: *sənək, güyüm, həvəng-dəstə* və s.

13. Yaşayış yeri, tikili adı bildirən sözlər. Məsələn: *kottec, qala, minarə* və s.

14. Oyun adlarını bildirən sözlər. Məsələn: *kriket, qolf, dirədöymə, səkməağac, çilikağac, aşıq-aşıq oyunu* və s.

Ekzotik sözlərin dildə əhəmiyyəti ondan ibarətdir ki, onlar dilin təsvir imkanlarını genişləndirir, dili zənginləşdirir və aid

olduğu, işləndiyi dili daha ifadəli, çevik edir. Bu və ya digər ölkəyə aid ekzotik sözlər bir və ya bir neçə dildə işlənir, sonra tərcümə vasitəsilə başqa dillərə keçir.

**Varvarizmlər.** Varvarizmlər ekzotik sözlərə oxşasa da, ondan fərqlənirlər. Belə ki, varvarizmlərin hər birinin Azərbaycan dilində qarşılığı olur. Məsələn: *uçitel, syezd, şkol, madmuazel, soqlasit, çestnı, podvadit, prazdnik, povedeniya* və s**.** Dildəki varvarizmlər həm şifahi danışıq dilində, həm də yazılı ədəbi dildə işlənə bilir.

Şifahi dildə işlənən varvarizmlər. Məsələn: *obşi, davay, poka, dokazat, həştad* və s.

Yazılı ədəbi dildə işlənən varvarizmlər. Məsələn: *daloy, molodes, uçitel, soqlasit, şkol* və s.

Yeri gəlmişkən, onu da qeyd edək ki, varvarizmlər elmi publisistik əsərlərdə işlənir. Elmsi-publisistik əsərlərdə işlənən varvarizmlərə aşağıdakıları misal göstərmək olar:

a) *Mətbuat adları.* Məsələn: *qəzetlər* - «Literaturnaya qazeta», «Uçitelskaya qazeta» və s., jurnallar - «Oqonek», «Nauka i jizni», «Russkiy yazık v şkole», «Voprosı yazıkoznaniya», «Drujba narodov» və s.

b) *Nəşriyyat adları.* Məsələn: *«Nauka», «Vısşaya şkola», «Mısl», «Molodaya qvardiya», «Prosveşeniya»* və s.

c) *İdarə və təşkilat adları.* Məsələn: *«Soyuz peçat», «Sovtrans»* və s.

ç) *Futbol klubu adları.* Məsələn: *«Şaxtyor», «Metallist», «Çernomorest»* və s.

**Arqo sözlər.** Bu cür sözlər daha məhdud dairədə işlənən sözlərdir. Arqo sözü fransız sözüdür. Bu söz əvvəllər fransızların dilində oğrular, dilənçilər mənasında, sonra isə «oğru, dilənçi danışığı» kimi işlənib. Arqo gizli anlaşma

vasitəsidir. Bu sözdən cəmiyyətin daha çox təbəqələri (aşağı təbəqələri) istifadə edirlər. Eyni zamanda aşağı səviyyəli cəmiyyətin digər təbəqələri arasında işlənir. Məsələn: tələbələrin arasında *quyruq* kəsr mənasındadır, alverçilərin dilində *kalan* varlı mənasındadır. Eyni zamanda musiqiçilərin və digərlərinin dillərində də arqo sözlər vardır.

**Jarqon sözlər.** Bu söz də fransız sözüdür. Fransız dilində quş civiltisi, qarğa dili mənasında işlənir. Jarqon sözlər məhdud sosial dairədə işlənən sözlərdir. Jarqon sözlər arqo sözlərə çox yaxın olsa da, fərqlənirlər. Belə ki, jarqon sözlərdən daha çox ali, yüksək zümrənin nümayəndələri istifadə edirlər. Onlar öz aralarında bu sözlərə əcnəbi danışıq dili kimi müraciət edirlər. Məsələn: vaxtilə rus zadəganları fransız dilindən bu cür istifadə etmişlər. Yarqon sözlər barəsində geniş təsəvvür yaratmaq üçün «Ölülər», «O olmasın, bu olsun», «Anamın kitabı» və s. əsərlərdəki ziyalıların dilini nümunə göstərmək olar.

Məsələn: «Ölülər» əsərində Şeyx Nəsrullah deyir: Dər Xəzaini qüdrət, çöhri şəriftər əz elm və nəfistər əz daniş nist.

*Elm bəvəd zindəgiyə canü dil,*
*Elm dəhəd tazəgiyi abü gül.*
*Elm nəsili çəməni can bəvəd,*
*Rayiheyi rövzeyi rizvan bəvəd.*
*Hər ki, bə sərçeşmeyi daniş rəsid*
*Abi həyati əbədira çəşid.*

*(Yəni, qüdrət xəzinələrində elmdən daha əziz və daha qiymətli bir cəvahir yoxdur. Qəlbin və ruhun yaşayışı elmə bağlıdır. Elm suya və palçığa təmizlik verər. Elm can çəməninin nəsimidir. Elm behişt bağının ətridir. Elm sərçeşməsinə çatan adam həmişəlik abi-həyatı dadır.)*

M.F.Axundovun yaradıcılığında: *Ya milixa, ya silixa, ya bilixa, qaldırın Pariji yerindən; Xoruz banlasın və onun səsi ilə ələfi-iksir nümüv etsin və xoruzun xidməti bəqeyri istaifeyi-dərviş sair əsnafi-xəlqə caiz deyil, necə ki, kitab-əcaibül-qəraibdə sərahətən* qeyd olunubdur.

Başqa bir misal: *Məlfir səlfirə nəlfir delfirmişəmsə, olfuru elfir.*

**Vulqar sözlər**. *Kobud, qeyri-ədəbi sözlərdir.* Məsələn*: veyillənmək (gəzmək), goplamaq (danışmaq), kaftar - qoca, donquldamaq* - danışmaq. Məsələn:

*Bir gözümə yaxşı bax,*
*Baş aparma qurumsaq. (S.Vurğun)*

*Əclaf, satqın!* Dərhal quyruq bulamağa başlamısan. (İ.Hüseynov); Mirzə Səməndər. Mən nə bilim hansı *cəhənnəmdədir.*

Salamov. *Küt oğlu küt,* yenə başladı qrafinkə həzrətləri. Yox bir abgərdən həzrətləri (C.Cabbarlı).

Vulqar sözləri iki yerə ayrımaq olar:

I. Kobud xarakterli vulqar sözlər. Məsələn: *tıxmaq (yemək), heyvərə (çox danışan), zəvzək, boşboğaz, gəbərmək, rədd ol, maymaq, zırrama, ifritə, acgöz, yekəbaş, uzunqulaq, bağırmaq, cəhənnəmə vasil olmaq, dəli, yalan danışmaq, qələt etmə, itil, hırıldamaq, qırıldamaq, sülənmək, küpə girən, alamançı* və s.

II. Söyüş xarakterli vulqar sözlər. Məsələn: *nadürüst, qurumsaq, nanəcib, bədbəxt oğlu bədbəxt, itin balası, köpəkoğlu, qoduq balası, axmaq oğlu axmaq, it oğlu* və s.

**Loru sözlər**. Nisbətən elvari, saya xarakterli söz qruplarıdır. Məsələn: *lələş, cibişdan, ləlimək, qanmaq, dartmaq, yollamaq, endirmək* və s. Loru sözlər dialekt sözlərə bənzəyir.

Lakin dialekt sözlər konkret bir dialektə aid olsa da, loru sözləri isə hamı istifadə edir və mənasını başa düşür. Məsələn*: dadaş, qağa, daxma, lələ* və s.

Loru sözlərin ədəbi dildə sinonimləri olur. Məsələn:

| *Loru sözlər:* | *Ədəbi dildəki sinonimləri:* |
|---|---|
| ləlimək | yalvarmaq |
| qanmaq | başa düşmək, anlamaq |
| (özünü) dartmaq | (özünü) yuxarıdan aparmaq |
| daxma | ev və s. |

**Poetik sözlər**. Yüksək obrazlılığa, emosionallığa malik sözlərdir. Bu qəbildən olan söz qrupları daha çox bədii əsərlərdə, şeir nümunələrində istifadə olunur. Məsələn: *əfsus, əcəb, seyranə çıxmaq, süzmək, telli saz, günəş saçaqları, mavi, meh, can üzmək, təravətli, səadət, gülüm, əzizim* və s. Dilimizdəki səs təqlidi sözlər də poetik sözlər kimi çıxış edə bilir. Başqa sözlə, səs təqlidi sözlərə poetik sözlər də demək olar. Məsələn: *tıp-tıp, dup-dup, vıy-vıy vıyıldamaq, tir-tir əsmək* və s.

**İlkin və törəmə sözlər.** Bir kökdən ibarət olan sözlərə ilkin sözlər deyilir. İlkin sözlərə dilçilik ədəbiyyatında bəzən əsl sözlər də deyilir. İlkin sözlər sözün başlanğıc formasında olur. Ona görə də onların leksik və qrammatik mənası olur. Başlanğıc formaya gəldikdə isə isimlərdə başlanğıc forma onların adlıq halda işlənən formalarına uyğun gəlir. Feillərdə başlanğıc forma isə məsdər şəkilçisinə qədər olan hissədir. Məsələn: *ayaq, məhəbbət, dərd, ocaq, uşaq, ağlamaq* və s.

Törəmə sözlər dildə mövcud olan ilkin sözlərdən yaranır. Məhz onlar ilkin sözlərdən əmələ gəldikləri üçün törəmə sözlər adlanır. Məsələn: *əl* sözündən *əlbir, əlbəyaxa, əlüstü,*

*əlçatmaz, əlverişli*; *dil* sözündən *dilçi, dilçilik, dilşünas, dilortası* və s. sözləri əmələ gəlir. Müasir Azərbaycan ədəbi dilində törəmə sözlər iki yerə ayrılır:

I. Düzəltmə törəmə sözlər. Məsələn: *başlıq, gözlük, üçüncü, istilik* və s.

II.Mürəkkəb törəmə sözlər. Məsələn: *acgöz, istiot, üçbucaq, beşguşə, Ağdaş, ayaqqabı* və s.

**Qeyd:** Dilimizin lüğət tərkibində ilkin sözlərlə müqayisədə törəmə sözlərin sayı üstünlük təşkil edir.

**Qohum sözlər.** Dilimizdəki müəyyən sözlər bir kökdən yaranır. Dildə bir kökdən yaranan belə sözlərə qohum sözlər deyilir. Məsələn: *baş, başçı, başlıq, başlamaq, başlıca, başlanğıc* və s. Nitq hissələri içərisində qohum sözlər daha çox isim və feillər arasında müşahidə olunur. Misallara diqqət yetirək: *dil-dilçi-dilləş; yaşıllıq-yaşıllaş; hasar-hasarla; yem-yemlə* və s.

**Ümumi və xüsusi sözlər.** Dilin leksik tərkibində sözlər ümumi və xüsusi olmaqla da iki yerə ayrılır. Ümumi sözlər eynicinsli varlıqların adını bildirir: adam, insan, heyvan və s. Xüsusi sözlər isə eynicinsli varlıqların birini digərindən fərqləndirmək üçün yaranan sözlərdir. Məsələn: *şəhər* ümumi sözdür, *Bakı* isə şəhərlərdən birinin adıdır, yaxud *çay* ümumi sözdür, *Araz* çayı isə çay adlarından birinin adıdır. Dilimizin lüğət tərkibində həm ümumi, həm də xüsusi adı bildirən sözlər vardır. Belə sözlər həm ümumi, həm də xüsusi sözlər kimi işlənir. Məsələn: *Vaqif – vaqif, Arif – arif, Gözəl-gözəl, Yaxşı-yaxşı, Arzu – arzu* və s.

# Semasiologiya

# SEMASİOLOGİYA

Dilin lüğət tərkibində olan sözlərin hər biri müəyyən leksik mənanı daşıyır. Deməli, mənası olan hər bir söz dilin semantik sistemini yaradır. Bu mənada dilin semantik sistemindən bəhs edən dilçilik şöbəsi semasiologiya adlanır. Semasiologiya sözü yunan mənşəli olub, *semasio* «ifadə etmək, göstərmək», *loqos* isə «nəzəriyyə» deməkdir. Konkret desək, semasiologiya sözün mənası haqqında elmdir. Semasiologiya dilin leksik-semantik sistemini, sözün daxili cəhətini, mənaca genişlənməsini və daralmasını, sözlərin məna qruplarını, sözün mənası ilə forması arasında mövcud olan əlaqəni, məfhum və məna münasibətini öyrənir.

**Söz və məfhum.** Hər bir söz müəyyən leksik-semantik mənanı bildirməklə bir dil vahidini digərindən fərqləndirir. Onu da qeyd edək ki, hər hansı bir məfhumun maddi bənzərliyi, struktur bənzərliyi və forması olur. Nəticədə bunlar insan təfəkküründə məfhum barəsində konkret təsəvvür yaradır. Sonra isə məfhum söz vasitəsilə adlanır. Həm sözün, həm də məfhumun dilçilik elmi üçün zəruri əlaməti vardır. Dil ilə təfəkkür qırılmaz əlaqədə olduğu kimi, sözlə məfhum arasında da əlaqə vardır. Ancaq söz dilə, məfhum isə təfəkkürə aid anlayışdır. Söz fikrin maddi cildidir, eyni zamanda məfhumun yaranması və mövcudluğunu şərtləndirən amildir. Bununla belə məfhum obyektiv aləmdə

sözdən əvvəl mövcud olur. Sonra isə söz cildinə düşür. Məfhuma belə bir tərif vermək olar: *Obyektiv aləmdə mövcud olan cism və hadisələrin insan şüurunda inikasına məfhum deyilir*. Obyektiv gerçəkliyin insan beynində inikası o zaman məfhuma çevrilir ki, o, sözlə ifadə olunur. Nə qədər ki, bir şeyin inikasının dildə səs cildi yoxdur, onu məfhum hesab etmək olmaz.

Məfhumların hansı sözlə ifadə olunması çox vaxt təsadüfi, yaxud ixtiyari olur. Bəzən isə məfhumun sözlə ifadəsində onların müəyyən əlamət və keyfiyyətləri nəzərə alınır. Məsələn: eyni bir quş anlayışı Azərbaycan dilində *göyərçin*, fars və ərəb dillərində isə *kəbutər* adlandırılır. Lakin hər iki dildə eyni bir adı ifadə edən sözlər, göy rəngi bildirən sifətlərlə əlaqədardır.

Söz və məfhum vəhdəti heç də onların eyniliyi demək deyil. Onlar arasında aşağıdakı fərqlər vardır:

1. Məfhumlar ümumbəşəri səciyyə daşıdıqları halda, sözlər milli səciyyəli olur. Məsələn: *ev* məfhumu bütün dünya xalqları üçün eyni olduğu halda, *ev* sözü müxtəlif dillər üçün müxtəlifdir. Məsələn: Azərbaycan dilində *ev*, rusca *dom*, fars dilində *xanə*, hind dilində *qhar* və s.

2. Məfhumlar eyni olduğu halda, sözlər müxtəlif olur. Yəni dilin semantik sistemində bəzən hər hansı bir məfhumu müxtəlif sözlə adlandırmaq olur. Məsələn: *dünya-cahan-aləm-kainat.*

3. Məfhumlar eyni olduğu halda, onlar müxtəlif dillərdə müxtəlif cür səslənir. Maraqlıdır ki, bəzən eyni bir söz iki məfhumu ifadə edə bilir. Məsələn: *bel* sözü *bədənin müəyyən hissəsi* və *qazma aləti* mənasında işlənir. Bu da dilin omonimliyi ilə bağlıdır.

4. Məfhum hökm bildirir, söz isə məfhum bildirməkdən başqa, müəyyən konkret məqamlarda hökm bildirməyə də qadirdir. Məsələn: *oldu, yaxşı, gələrəm, bitdi* və s. Bu, başqa dillərdə də belədir. Məsələn: rus dilində *proşu, ladno* sözləri buna misal ola bilər.

5. Məfhumun həqiqi və məcazi mənası yoxdur, sözün isə həqiqi və məcazi mənası vardır.

6. Məfhumun çoxmənalılığı yoxdur, sözlər isə çoxmənalılığa malikdir.

**Söz və məna.** Söz dedikdə o, (söz) leksik vahid kimi nəzərdə tutulur. Dil elə bir sistemdir ki, oradakı sözlər bir-birilə əlaqədardır. Əgər belə olmasa, dilin sistemi pozular. Ona görə də sözlər leksik vahid kimi müəyyən qruplarda birləşir. Leksik vahid, leksik sistem deyəndə əşya, hadisə və prosesləri adlandıran dil vahidləri nəzərdə tutulur. Leksik sistem olduğu üçün biz dilimizdəki sözləri tapa bilirik, lazım olanını isə istifadə edirik. Bir sözlə, sözlər üçün aşağıdakı əlamətləri göstərmək olar.

1. *Sözlər fonetik cəhətdən formalaşmalıdır;*
2. *Sözün mənası olmalıdır;*
3. *Sözlər müstəqil olmalıdır;*
4. *Sözlərin leksik-qrammatik bütövlüyü olmalıdır;*
5. *Sözlərin vurğusu olmalıdır;*
6. *Sözlər ahəngə tabe olmalıdır;*
7. *Sözlər anlaşıqlı olmalıdır* və s.

Yuxarıda qeyd olunan bu cəhətlər sözü leksik vahid kimi səciyyələndirən xüsusiyyətlərdir.

## SÖZÜN LEKSİK VƏ QRAMMATİK MƏNASI

Leksik məna dedikdə sözün təklikdə ifadə etdiyi konkret məna başa düşülür. Məsələn: *kitab, alma, qardaş* və s. Bir sözlə, lüğəvi məna, yaxud leksik məna sözün ilk, başlıca mənasıdır. Dildəki tam mənalı sözlər lüğəvi (leksik) mənaya malik olur. Sözün leksik mənası konkret, fərdi, həm də ümumidir. Müqayisə edək: *qarpız, alma, kitab* və s.

Sözün lüğəvi mənasının aşağıdakı komponentləri vardır:

**1.** Lüğəvi mənanın bir xüsusiyyəti onun nominativliyidir. Yəni müəyyən bir məfhumun adını bildirməsidir.

**2.** Sözün lüğəvi mənası başqa sözlərin leksik mənası ilə müqayisədə şərtlənir.

**3.** Danışan hər bir şəxs sözlə əşyaya, konkret varlıqlara münasibət bildirir.

Sözün qrammatik mənası dedikdə lüğət tərkibindəki sözlərin qrammatik quruluşun ixtiyarına keçdikdən sonra kəsb etdiyi məna başa düşülür. Məsələn: *evlər* sözünün lüğəvi mənası yaşamaq üçün tikilmiş yeri bildirdiyi halda, qrammatik mənası isə isimdir, konkretdir, ümumidir, adlıq haldadır, cəmdədir. Qrammatik məna bir sıra vasitələrlə ifadə olunur:

*1. Hal şəkilçiləri vasitəsilə;*

*2. Mənsubiyyət şəkilçiləri vasitəsilə;*

*3. Şəxs şəkilçiləri vasitəsilə;*

*4. Kəmiyyət şəkilçiləri vasitəsilə;*

*5. Zaman şəkilçiləri vasitəsilə* və s.

Bundan başqa, qrammatik mənanın ifadə vasitələrindən biri də vurğu və sözlərin sırasıdır. Misallara diqqət yetirək:

*Mən instituta getdim. Mən instituta evdən getdim. İnstituta evdən mən getdim* və s.

Qrammatik məna natamam mənalı sözlər vasitəsilə də ifadə olunur. Natamam mənalı sözlər dedikdə buraya qoşma, bağlayıcı, ədat, modal sözlər və nidalar aiddir. Müqayisə edək: *Mən sənin üçün kitab aldım.* Sözün lüğəvi mənası ilə qrammatik mənası arasında müəyyən dərəcədə əlaqə mövcuddur. Belə ki, bəzən sözün leksik mənası dəyişən kimi, onun qrammatik mənası da dəyişir. Məsələn: *ək-əkin, səp-səpin, az-azğın* və s. Bu hal daha çox düzəltmə sözlərə aiddir. Yeri gəlmişkən qeyd edək ki, bəzən qrammatik məna dəyişdikdə sözün leksik mənası dəyişmir. Məsələn: *dəmir-dəmirin-dəmirə-dəmiri; gəl-gəldi-gəlir-gələcək* və s. Buradan belə nəticəyə gəlmək olur ki, sözdəyişdirici şəkilçilər sözün yalnız qrammatik mənasını dəyişir. Məsələn: ***isimlərdə** -hal, kəmiyyət, mənsubiyyət, şəxs şəkilçiləri;* ***feillərdə** -zaman, təsdiq, inkarlıq* və s. şəkilçilər.

*Sözün lüğəvi və qrammatik mənasını fərqləndirən xüsusiyyətlər.* Sözün lüğəvi və qrammatik mənasını fərqləndirən xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Lüğəvi məna hər bir sözün fərdi xüsusiyyətidir. Qrammatik məna isə ümumiləşmiş xüsusiyyətdir. Yəni qrammatik məna fərdi xüsusiyyəti ümumiləşdirir. Belə ki, qrammatik mənanın sayəsində ad bildirən sözlər isim, hərəkət bildirən sözlər feil, miqdar bildirən sözlər say olur.

2. Lüğəvi məna əşya və hadisələrin özü ilə birbaşa əlaqədardır. Qrammatik məna isə belə deyildir.

3. Qrammatik məna sözün leksik mənasını ümumiləşdirir (müxtəlif kateqoriyalar üzrə: hal, mənsubiyyət, kəmiyyət və s.)

4. Qrammatik və leksik mənalar bir-birindən mücərrədləşmənin dərəcəsinə görə də fərqlənirlər. Belə ki, qrammatik mənada mücərrədləşmə daha yüksək səviyyədədir.

5. Leksik məna tək-tək sözlərə, qrammatik məna isə bütöv bir nitq hissəsinə aiddir.

6. Leksik məna müstəqil sözlərə, qrammatik məna isə həm müstəqil, həm də köməkçi sözlərə aiddir.

7. Leksik məna sözün əsası, kökü ilə əlaqədardır, qrammatik məna isə daha çox qrammatik vasitələrlə bağlıdır.

**Sözün mənasının daralması və genişlənməsi.** Cəmiyyət özü dəyişdiyi kimi, həyat tərzi, məişət də dəyişir. Bu cür dəyişmə prosesi sözlərdə və onların mənasında da gedir. Deməli, dildəki sözlər mənasına görə inkişaf edib dəyişir. Mənanın dəyişməsi üç cür olur:

1. Mənanın genişlənməsi;
2. Mənanın daralması;
3. Mənanın məcazi işlənməsi.

*Sözün mənasının genişlənməsi* dedikdə sözdə baş verən semantik hadisə başa düşülür. Məsələn: *vətən* sözü vaxtilə insanın doğulduğu kənd, şəhər mənasında işlənirdisə, indi daha geniş məna kəsb etmişdir. Yaxud *yoldaş* sözü vaxtilə yol yoldaşı mənasında işlənirdisə, indi daha geniş mənada işlənir. Bu söz müasir dilimizdə həyat yoldaşı və rəsmi müraciət forması kimi işlənir. *Adlı-sanlı* sözü əvvəllər zadəganlara, varlılara, imtiyazlı təbəqəyə mənsub olan adamlara aid idi: adlı-sanlı nəsil. İndi isə həm də tanınmış, məşhur, şöhrətli adamlara aiddir: adlı-sanlı (alim, şair, həkim və s.). *Cəbhə* sözü vaxtilə döyüş meydanı mənasında işlənirdi. İndi isə məcazlaşma nəticəsində təsərrüfat cəbhəsi, ideoloji cəbhə,

mədəniyyət cəbhəsi, xalq cəbhəsi, sülh cəbhəsi və s. mənalarda da işlənir.

Sözlərin mənasının genişlənməsi halı dilimizdə iki şəkildə özünü göstərir: a) heç bir fonetik dəyişikliyə uğramadan sözlərin mənasının genişlənməsi, b) köhnəlmiş sözlərin öz əvvəlki mənalarından uzaqlaşaraq, yeni məna kəsb etməklə öz semantikasını genişləndirməsi.

*a) heç bir fonetik dəyişikliyə uğramadan sözlərin mənasının genişlənməsi.* Müasir Azərbaycan ədəbi dilində bəzi sözlər heç bir fonetik dəyişikliyə uğramadan əvvəlki mənaları ilə yanaşı, yeni mənada – ictimai-siyasi mənada da işlənir. Məs.: *danışıq* sözü bir və ya bir neçə nəfərin şifahi şəkildə öz fikirlərini bir-birinə çatdırmasını bildirir. Hazırda *danışıq* sözü ilkin mənası ilə yanaşı, iki tərəf, iki nümayəndə heyəti, iki ölkə arasında hər hansı bir şey barəsində gedən fikir mübadiləsi mənasını da bildirir.

*Elçi* sözü oğlan evi tərəfindən qızı istəmək üçün qız evinə göndərilən şəxsi bildirir. Hal-hazırda bu söz dilimizdə heç bir fonetik dəyişikliyə uğramadan, əlavə ictimai-siyasi məna da qazanmışdır: yəni diplomatik nümayəndə mənasında işlənməyə başlamışdır.

*Yığıncaq* sözü insanların müəyyən məqsədlər üçün bir yerə toplanmasını bildirir. Hal-hazırda dilimizdə heç bir fonetik dəyişikliyə uğramadan əlavə məna da qazanmışdır: yəni iclas sözünün sinonimi kimi də işlənir.

Heç bir fonetik dəyişikliyə uğramadan mənasını genişləndirən bəzi sözlər metaforik səciyyə daşıyır. Məs.: *axşam* sözü günün axırından gecənin başlanmasına qədər olan vaxtı bildirir. Bu söz müasir dilimizdə həm də mənasını genişləndirərək ictimai-siyasi hadisələrlə bağlı təşkil olunmuş axşam

mənasında işlənir, metaforik səciyyə daşıyır. Dilimizdəki *bayram, gün, aylıq, görüş, ağır, yüngül* və s. sözlər də bu qəbildəndir.

*Bayram:*

milli bayram mənasında (əvvəlki mənası),
xalq şənliyi mənasında (məhsul bayramı, qadınlar bayramı və s.)

*Gün:*

24 saat ərzində vaxtı və planetin adını bildirir (əvvəlki mənası)
(müəllim günü, polis günü, ahıllar günü və s.)

*Aylıq:*

əmək haqqı (əvvəlki mənası)
bir aylıq vaxtdan ibarət hökumət tədbiri (quruculuq, abadlıq aylığı, sağlamlığın keşiyində aylığı və s.)

*Görüş:*

iki və daha artıq şəxsin qabaqcadan nəzərdə tutduqları tədbir (əvvəlki mənası)
hər hansı bir ictimai tədbir (şairlə görüş, yazıçı ilə görüş və s.)

*Ağır:*

əşyanın ağırlığını bildirir (əvvəlki mənası)
ağır sənaye

*Yüngül:*

əşyanın yüngüllüyünü bildirir (əvvəlki mənası)
yüngül sənaye

*b) köhnəlmiş sözlərin öz əvvəlki mənalarından uzaqlaşaraq yeni məna kəsb etməklə öz semantikasını genişləndirməsi.*

Dilimizdə köhnəlmiş sözlərin bir qrupu öz əvvəlki mənalarından uzaqlaşaraq yeni məna kəsb etməklə öz semantikasını genişləndirir. Məs.: *qulluqçu* sözünün əvvəlki mənası varlı adamların evində işləyən şəxsi bildirmişdir. İndi bu söz cəmiyyətdə çalışan, müəyyən bir idarədə işləyən şəxsi bildirir. *Yığnaq* sözünün əvvəlki mənası bir yerə yığılmaq, toplanmaq, cəm olmaq mənasında olmuşdur. İndi bu söz ictimai-siyasi yığıncaqlar mənasında ədəbi dilimizdə işlənir. *Başmaq* sözünün əvvəlki mənası kişi və qadın ayaqqabısı mənasında olmuşdur. Hazırda texniki termindir. Maşınlarda olan dayaq, qoruyucu və yaxud altlıq mənalarında işlənir.

*Sözün mənasının daralması* da semantik hadisədir. Məsələn: dildəki *don* sözü vaxtilə *donluq, maaş* mənasında idisə, indi geyimin bir növüdür. Yaxud *qonmaq* sözü vaxtilə *sakin olmaq, məskunlaşmaq* mənasında olub, indi isə *qonmaq* mənasındadır.

*Ər* sözü yazılı abidələrimizdə *igid* sözünün sinonimi kimi işlənmişdir. Müasir Azərbaycan ədəbi dilində *ər* sözü öz mənasını daraldaraq kişi mənasını bildirir: yəni arvadın qanuni və məhrəm yoldaşı.

*Aş* sözü yazılı abidələrimizdə aş, xörək, bişmiş mənalarında işlənmişdir. Müasir Azərbaycan ədəbi dilində bu söz öz mənasını daraldaraq xörəyin bir növü olan plovu bildirir.

**Sözün mənasının məcazi işlənməsi**. Sözün mənasının məcazi işlənməsinə gəldikdə qeyd edək ki, dildə iki cür məcaz vardır:

1) Leksik məcaz;
2) Frazeoloji məcaz.

**Qeyd:** Frazeoloji məcazlar frazeologiya bölməsində öyrənilir.

Leksik məcazların növləri isə aşağıdakılardır:

1. Metafora;
2. Metonimiya;
3. Sinekdoxa.

**Qeyd**: Sözün məcazi mənada işlənməsi müxtəlif səbəblərlə bağlı olur:

a) əşyaların müxtəlif cəhətdən oxşarlığına görə: əşyaların forma (məs.: baş (adamda) – baş (soğanda), ayaq (adam və heyvanın ayağı) – *ayaq* (şkafın ayağı), *rəng* (məs.: gümüş (qaşıq) – *gümüş* (saç), *dad* (*acı bibər)- acı (söz), şirin (bal)* – şirin söhbət, hərəkət oxşarlığı (məs.: almaq (paltar) - (*can, baş, ad, nişan, söz, həzz) almaq)* oxşarlığı və s.

b) əşyaların müxtəlif cəhətdən yaxınlığına görə: məkan (məs.: dan (yeri) - dan (ulduzu), dağ (havası) - dağ (adamı), zaman (məs.: gecə – (gün batandan sonrakı vaxt) - gecə (şənlik gecəsi keçirmək), proses (məs.: dolanmaq (fırlanmaq) - *dolanmaq (yaşamaq), nəticə (məs.: süzmə (süzmə prosesi) – süzmə (süzülmüş qatıq)* yaxınlığı və s.

c) ümumi isimlərin xüsusiyə, xüsusi isimlərin ümumiyə keçməsinə görə: ümumi isimlərin xüsusiyə keçməsi (məs.: almaz (qiymətli daş)- Almaz (qadın adı), tərlan (quş adı) – Tərlan (adam adı), xüsusi isimlərin ümumiyə keçməsi (məs.: Badamlı (yer adı) - badamlı (mədən suyu), Borjom (şəhər adı) – *borjom* (mədən suyu) və s.

***1. Metafora*** əşya və hadisələrin oxşarlığı əsasında yaranan leksik məcaz növüdür. Metaforada bir əşyaya məxsus xüsusiyyət başqa birisinin üzərinə köçürülür. Yəni əşyanın oxşar cəhətləri başqalarına aid edilir. Məsələn: *gül ağlar, bülbül ağlar. Bakının dərdi* var. *Bakı xəstədir. Könül* intizarda, göz yol üstədir; Çapay keçir hücuma, *Yel kimi cuma-cuma*; Yenə *ciyərim yanır*; *Qara fikirləri* başından çıxar. Tez ol *bağrım çatladı*; *Gözünün odunu* almaq; *Gözü çıxdı kəlləsinə* və s. Göründüyü kimi, metafora bədii ədəbiyyatda xüsusi rola malikdir. Yeri gəlmişkən qeyd edək ki, metaforanın əşya, jest, rəng, rəqəm və hərf növləri ilə əlaqəsi var. Məsələn: *barmaq yelləmək, yaylıq vermək, əlinin içini iyləmək, qara geymək, səkkiz yazmaq, 99 vurmaq, əlif olmaq, nun olmaq* və s.

Misallara diqqət yetirək:

Kənddə bütün qız-gəlinin *gözünün odunu alıb. Gözü çıxdı kəlləsinə,* dəftəri alıb təzədən qoydu qabağına. (İ.Hüseynov); Bizdən uzaq ellərdə. *Gül ağlar, bülbül ağlar*. (S.Rüstəm); *Bakının dərdi* var, *Bakı xəstədir, Könül intizarda,* göz yol üstədir. (S.Vurğun);

Çapay keçir hücuma, *Yel kimi cuma-cuma* (S.Rüstəm); Yenə *ciyərim yanır;*

*Qara fikirləri* başından çıxart. (S.Rəhman) və s.

*Yaşamaq yanmaqdır yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa,* ***yaşamır demək,***
*Onun da həyatı yanmağındadır. (B.Vahabzadə)*

*Baxıb gülümsədin bilmirəm nədən,*
*Bu necə gülüşdü, necə baxışdı?*

***Ulduzlar utanıb gözəlliyindən***
*Sənin qədəminə yerə axışdı.*

***Baharda göylərin gözü dolanda***
*Zirvələr başını duman alanda.*
*Yayın qızmar vaxtı çölə çıxanda*
*Tək qalıb baxanda xatırla məni.*

*Mən Arazda şaxələnən çinardım.*
*Ömrü boyu tufan əydim, su yardım.*
***Xətainin qılıncını suvardım.***
***Məmməd Araz karandaşı göyərdi.*** *(M. Araz)*

*Səssizcə gələcək axşam beləcə,*
*Otaqda* ***qaranlıq qarıyacaqdır.***
*İşıqda qovduğum* ***qaragöz gecə***
*Saçını evimdə darayacaqdır.*

***Öpsün alnımızı axşamın yeli***
*Bu geniş düzlərin əvəzi varmı? (H.Arif)*

*Yatağında* ***nəfəsini dərir dəniz***
*Təmtəraqlı qağayılar mürgüdəmi? (H.Arif)*

***Açılır yaxası*** *dan söküləndə*
*Qızarır yanağı* ***üfüq güləndə***
*Bizim dədə-baba ceyran çölündə*
*Hər güldən, çiçəkdən göycək Durnalı (H.Arif)*

*Tövşüyə-tövşüyə* *qatar dayandı*
*Tapışdıq, görüşdük,*
*görüşməyəydik.*
*Sinəmiz başında nə idi yandı?*
*Niyə başımızı aşağı əydik.?*

*Sən* ***eşqin salamını*** *qorxuyamı dəyişdin?*
*(B.Vahabzadə)*

Metafora bir sıra əlamətlərin oxşarlığına əsaslanır. Məs.: forma oxşarlığına: *qanad* (quşda) – *qanad* (təyyarədə), *qol* (insanda) – *qol* (çayda) və s., rəng oxşarlığına: *qara* (rəng) – *qara* (daş), *gümüş* (saat)- *gümüş* (saç) və s., vəzifə oxşarlığına: *quyruq* (heyvanda) – *quyruq* (təyyarədə) və s., hərəkət oxşarlığına: *açmaq* (kitabı) – *açmaq* (məsələni) – *açmaq* (gözünü), *döymək* (qapını) – *döymək* (əti) – *döymək* (dəmiri) – *döymək* (adamı) və s., dad oxşarlığına: *turş* (alma) – *turş* (üz), *soyuq* (hava) – s*oyuq* (adam) və s., daxili əlamət və keyfiyyət oxşarlığı: *yumşaq* (döşək) – *yumşaq* (hava), *boş* (qab), *boş* (söz) və s., müxtəlif heyvan və quş adları əsasında olan oxşarlıq: *eşşək* (heyvan) - *eşşək* (qanacaqsız adam), qoyun (heyvan) – *qoyun* (axmaq adam), *ilan* (zəhərli canlı) – *ilan* (zəhərli, məkrli adam), *ayı* (heyvan) – *ayı* (kobud adam) və s. Yeri gəlmişkən onu da qeyd edək ki, heyvan və quş adlarının bəzilərini oxşatma, müraciət məqsədilə istifadə etdikdə metafora yaranır. Məs.:*ceyranım, göyərçinim, quzum, məstanım* və s.

**Qeyd 1:** Metaforada gizli müqayisə var. Ona görə də bəzi metaforaları müqayisəyə çevirmək olur. Məs.: mərd, cəsarətli, qorxmaz, güclü adamı şir, aslan adlandırdıqda metafora yaranır. Ancaq şir kimi // aslan kimi güclüdür dedikdə müqayisə əmələ gəlir.

Müqayisə ilə metafora bir-birinə bənzəsə də, onları fərqləndirmək lazımdır: a) müqayisədə iki obyekt bir-biri ilə müqayisə edilir. Metaforada onlar sintez olunaraq bir sözlə ifadə olunur; b) müqayisə həqiqi, metafora məcazi mənada işlənir; c) müqayisə köməkçi sözlərlə də əmələ gəldiyi halda, metaforada bu xüsusiyyət yoxdur; ç) metafora leksik məcazların bir növü kimi sözlərin semantik inkişafına xidmət edir, bu hal müqayisəyə aid deyildir.

Metaforadan danışıq dilində, bədii üslubda, şifahi xalq ədəbiyyatı nümunələrində geniş istifadə olunur. Onlara aşağıdakı məqam və şəraitdə müraciət olunur.

a) heyvan, quş, həşərata məxsus xüsusiyyətlər hər hansı bir şəxsdə özünü göstərdikdə həmin heyvan, quş, həşəratın adı şəxsin üzərinə köçürülür. Məs.: qorxaq adam – dovşan, dinc (sakit) adam – quru və s.

Heyvan adlarından pələng, aslan, ilan, qurbağa, tısbağa, canavar, tülkü, qoyun, quzu, maral, ceyran, öküz, it, köpək, eşşək; quş adlarından tərlan, bülbül, sona, göyərçin, tovuz, bayquş, qarğa, hacıleylək; həşərat adlarından hörümçək, taxtabiti, əqrəb daha çox metafora kimi işlənə bilir.

b) bitki, meyvə və ağac adları (gül, çiçək, alma, püstə, badam, sərv, yasəmən, palıd və s.) isimlərlə işlənərək onların əlamət və keyfiyyətini bildirməklə yanaşı, danışıq prosesində oxşama, müraciət kimi də işlənir: gülüm, çiçəyim və s.

c) insanların müsbət və mənfi cəhətlərini göstərmək üçün dini-əsatiri anlayışları bildirən iblis, ifritə, əjdaha, şeytan, cadugər, mələk və s. sözlər məcazlaşır və metafora kimi çıxış edir.

ç) bəzən insanlara məxsus xüsusiyyətlərin cansız əşyaların üzərinə, bəzən isə cansız əşyalara məxsus xüsusiyyətlərin insanların üzərinə köçürülməsi yolu ilə metafora əmələ gəlir. Məs.: insanlara məxsus xüsusiyyətlərin cansız əşyaların üzərinə köçü-

rülməsi: *şkafın ayağı, köynəyin qolu, ayaqqabının burnu* və s.; cansız əşyalara məxsus xüsusiyyətlərin insanın üzərinə köçürülməsi: boş söhbət, odlana-odlana qalmaq, ayaq üstə qurumaq və s.

**Qeyd 2:** Dilçilikdə ismi metafora (məs.: mədəniyyətin beşiyi, elmin yolu, azadlığın günəşi və s.), feili metafora (məs.: təbiət yatır, ay doğur, zaman tələsir, dəniz dincəlir və s.), metaforalar – sifətlər (məs.: acı dil, acı söz, gözəl hava, zəhərli dil, geniş qəlb və s.) ifadələri də işlənir.[1]

***2. Metonimiya.*** Metonimiya iki və daha artıq əşyanın yaxınlığı, əlaqəsi əsasında yaranan məcazlara deyilir. Əgər metaforada oxşarlıq əsas götürülürsə, metonimiya üçün isə əlaqə, yaxınlıq əsas götürülür. Məsələn: *Mən Füzulini oxudum* (Füzulinin əsərləri mənasında). *Farsın Xəyyamı var, Firdovsisi var* (Fars xalqının mənasında). *Füzulini əzbər bilir* (Füzuli yaradıcılığı mənasında). *Çaydan qaynadı* (çaynikdəki su mənasında). *Məktəb qəbul etdi* (Məktəb rəhbərliyi mənasında). *Əncir yarpağından müalicə məqsədilə istifadə edirlər* (Əncir ağacının yarpağı mənasında).

Misallara diqqət yetirək:

*Dərbəndimin, Bakımın, Təbrizimin səngəri*
*Dizin-dizin sürünən amansız qəhrəmanam. (X.Rza)*
yəni Dərbənd, Bakı, Təbriz şəhərimin səngəri mənasında

*Məktəbli Larisanın çantası qan içində*
*Hökm eləyir* ***Moskva:*** - *Yaşa bu lal biçimdə. (X.Rza)*

---

[1] Müasir Azərbaycan dili. I cild, «Elm» nəşriyyatı, Bakı, 1978, s.166-168.

yəni *Moskva şəhəri* mənasında

*«Moskovski novosti», «İzvestiya» xəyanət,*

*Yerli «Kommunist» qəzeti yarı mərd, yarı namərd. (X.Rza)*

yəni *Moskovski novosti İsvestiya qəzeti* mənasında

*«Şur» da, «Kürd-ovşarı» da dünyanın ən böyük konsert salonlarında səsləndi (Elçin).*

yəni *Şur, Kürd-ovşarı muğamı* mənasında

*Mən uşaqlıq, yeniyetməlik çağlarında* ***Koroğlunu*** *ən azı on dəfə əvvəldən axıracan oxumuşdum. (Elçin).*

yəni *Koroğlu dastanını* mənasında

Mən Koroğlu tamaşasında onu yenidən ***Qıratda*** gördüm. (Elçin).

yəni *Qıratın belində* mənasında.

Dilimizdəki metonimiya bir sıra yollarla yaranır:

a) məkan yaxınlığı əsasında: *universitet* (ali məktəb) – *universitet* (ali məktəb yerləşən bina), *məktəb* (orta məktəb) – *məktəb* (orta məktəb yerləşən bina) və s.

b) zaman yaxınlığı əsasında: *gecə* (gün batandan sonrakı vaxt) – *gecə* (şənlik gecəsi keçirmək), *gün* (24 saat) – *gün* (günəş) – *gün* (keçirmək) və s.

c) proses yaxınlığı əsasında: *dolanmaq* (fırlanmaq) – *dolanmaq* (şəhəri, kəndi, qəsəbəni), *dolanmaq* (yaşamaq), *süründürmək* (bir şeyi sürünməyə məcbur etmək) – *sürün-dürmək* (get-gələ salmaq) və s.

ç) nəticə yaxınlığı əsasında: *dondurma* (dondurma prosesi)– *dondurma* (donmuş şirniyyat novü, marojna), *dolma* (dolma prosesi) – *dolma* (xörək növü) və s.

d) şəxs adı ilə həmin şəxsə aid olan predmetin yaxınlığı əsasında: *Füzuli heykəlinin qabağında* əvəzinə *Füzulinin*

*qabağında, Sabirin əsərini oxuyuram* əvəzinə *Sabiri oxuyuram* və s.

Tanınmış şəxs adlarına məxsus səciyyəvi xüsusiyyətlər başqa bir şəxsdə də varsa, onda həmin şəxsi xarakterizə etmək üçün tanınmış şəxsin adını işlətmək yolu ilə metafora əmələ gəlir. Məsələn: dünya ədəbiyyatında tanınmış bir sıra qəhrəmanların adları – *Don Kixot, Don Juan, Lavelas, Alfons* və s., Azərbaycan ədəbiyyatında məhəbbətin rəmzi *Əsli və Kərəm, Leyli və Məcnun*, xəsisliyin və avamlığın təcəssümü *Hacı Qara, Məşədi İbad*, qəhrəmanlığın, cəsarətin timsalı *Koroğlu, Qaçaq Nəbi* və s. buna misal ola bilər.[1]

e) əşyanın, predmetin içindəki hər hansı bir şeylə həmin əşya və predmet arasındakı yaxınlıq əsasında: iki stəkan içdim (yəni iki stəkan çay), *çaynik qaynayır* (yəni çaynikdəki su), *qazan isinir* (yəni qazanın içindəki xörək) və s.

ə) bədən üzvünün adı ilə həmin üzvün geyimi arasındakı yaxınlıq əsasında: *başını çıxardı* (yəni başındakı papağı), *başını daradı* (yəni başındakı saçı), *ayağını çıxartdı* (yəni ayağındakı corabı, ayaqqabını), *əynini dəyişdi* (yəni əynindəki paltarı) və s.

Metonimiya yığcam və qısa məcaz növüdür. Bu məcaz növü əşya, predmet, hadisə barəsində dolayısı yolla, üstüörtülü məlumat verir.

***3. Sinekdoxa.*** Bir sözün başqa bir sözlə birlikdə ifadə etdiyi mənanı təklikdə bir söz ifadə edir. Buna sinekdoxa deyilir. Məsələn: *zəkalı adamlar* əvəzinə zəkalılar, müdrik

[1] Müasir Azərbaycan dili, I cild, «Elm» nəşriyyatı, Bakı, 1978, s.172.

adamlar əvəzinə *müdriklər* və s. Azərbaycan dilindəki sinekdoxa aşağıdakı hallar üzrə diqqəti cəlb edir.

1. Tam əvəzinə tamın bir hissəsi işlənir. Məsələn: *qulağı kar* əvəzinə – *kar, üzü çopur* əvəzinə – *çopur, qıçı çolaq* əvəzinə – *çolaq, dili lal* əvəzinə – *lal* və s.

2. Ümumi anlayışı bildirən söz konkret əşya adı yerində işlənir. Məsələn: ağac sözü – *alma ağacı* əvəzində, *meyvə* sözü *alma meyvəsi* əvəzində, *gül* sözü – *nərgiz gülü* əvəzində işlənə bilir.

3. Söz cəm əvəzinə təkdə işlənir. Məsələn: *Firəngdə məsəl var* (firənglərdə, firəng xalqında əvəzinə).

4. Şəxsi bildirmək üçün bədən üzvləri və ya paltar adı işlənir. Məsələn: *yaşılbaş* (başına bağladığı baş örtüyünə görə), *sarıköynək* (geydiyi paltara görə) və s.

Misallara diqqət edək:

*Küknarlar əvvəlki sükutundadır,*
*İynəyarpaqlıya yazın nə dadı?*
*Enliyarpaqlını fəsil aldadır,*
*Göylərə dirənib çinar fəryadı.*

*Qadın cavab olaraq qəhqəhə çəkir.*
*Dünyada nə qədər gülməli işlər var.*

*Daha bu yağışa otlar göyərməz*
*Daha bu yağışa lalələr sönməz.*

*Bu günün dastanını açıb oxuyanda siz,*
*Qəhrəmanlarla birlikdə namərdlər görəcəksiz.*

*Çiskinlər, yağışlar yaman uzandı.*
*Nə mən yara bildim,  nə sən dumanı*
*Dəyişə bilmədik bir həqiqətə*
*Neçə ehtimalı, neçə gümanı.*

**Sözün tam və natamam mənası**. Sözün tam mənası müstəqil mənalı sözlərə aiddir. Bu qəbildən olan sözlərin müstəqil mənası ilə yanaşı sualı da olur, eyni zamanda cümlə üzvü kimi çıxış edir. Məsələn: *susmaq, könül, qış* və s. Tam mənalı sözlərlə cümlə qurulur. Bu cür sözlər həm konkret, həm də mücərrəd olurlar.

Təklikdə məna bildirməyən ancaq cümlə daxilində müəyyən məna ifadə edən sözlərə  natamam mənalı sözlər deyilir. Natamam mənalı sözlərə köməkçi nitq hissələri və xüsusi nitq hissələri aiddir. Məsələn: *ancaq, lakin, ki, necə, və, lap, ən, də* və s.

**Sözlərin təkmənalılığı və çoxmənalılığı**. Sözlərin ancaq bir mənanı bildirməsi təkmənalılıq adlanır. Buna dilçilikdə monosemiya da deyilir. Monosemiya yunan mənşəli söz olub, *mono* - tək, *sema* - işarə deməkdir. Məsələn: *mən, sən, iyirmi, qara* və s. Sözün əsas mənasından əlavə bir sıra mənaları bildirməsinə çoxmənalılıq deyilir. Dilçilikdə çoxmənalılığa polisemiya adı verilmişdir. *Poli* – çox, *sema* - işarə deməkdir. Məsələn: göz sözü – *stolun gözü, iki göz ev, gözələ göz dəyər* və s. şəklində işlənir. Yaxud *baş* sözü – *baş həkim, baş mühəndis, baş soğan, stolun başı* və s. Eləcə də *qol, üz, ayaq, dil, boğaz, əl, qaş, çənə, qulaq* və s. sözləri çoxmənalıdır.

Çoxmənalılıq dildə müəyyən səbəblərlə bağlı olaraq yaranır. Sözlər əvvəl təkmənalı olur, müəyyən tarixi dövrdən sonra çoxmənalılığa doğru inkişaf edir. Burada məcazlaşma

üstünlük təşkil edir. Daha doğrusu, çoxmənalılığın yaranmasında məcazlaşma mühüm rol oynayır.

Əşya və hadisə haqqında təsəvvür dərinləşdikcə əşya və hadisələr insan təfəkküründə bir neçə əlamətinə, keyfiyyətinə görə möhkəmlənir. Əşya və hadisələrin bu əlamət və keyfiyyətlərinin başqa bir söz forması ilə ifadə olunmasına zərurət yaranır. Lakin əşya və hadisələrin əlamət və keyfiyyətləri yeni bir söz formasını tapa bilmir. Bu zaman söz təkmənalılıqdan uzaqlaşaraq çoxmənalılığa yaxınlaşır. Onu da nəzərə almaq lazımdır ki, hər bir məfhum başqa məfhumlarla müəyyən münasibətdə, əlaqədə olur. Bu zaman məfhumlar arasında yaxınlıq, oxşarlıq, əlaqə imkan verir ki, eyni bir söz başqa əşyaların, hadisələrin adı kimi işlənə bilsin. Yəni bir əşyanın, predmetin, hadisənin adı başqasının üzərinə keçir və onu da adlandırır. Məhz bu prosesin nəticəsində sözdə həqiqi məna ilə yanaşı, məcazi məna da yaranır. Sözün həqiqi və məcazi mənaları birlikdə çoxmənalılığı əmələ gətirir.

Deməli, çoxmənalılığın yaranması üçün əsas şərtlərdən biri odur ki, məfhumlar geniş olsun.

Çoxmənalılığın yaranması üçün məntiqi amilə də üstünlük vermək lazımdır. Belə ki, hər hansı bir söz yeni bir məfhumu ifadə etdiyi zaman əvvəlki mənasını saxlayır. Burada məntiqi amil sözlə yeni yaranmış məfhumu əlaqələndirir. Təkcə yeni məfhumun olması şərt deyil, həm də onu ifadə edən söz də lazımdır. Bu mənada dildəki sözlə yeni yaranmış məfhum arasındakı əlaqəni məntiqi amil şərtləndirir.

Çoxmənalılığın yaranmasında dil amilini də unutmaq olmaz. Dil amili sözün nitqdə işlənməsi ilə bağlıdır. Söz nitqdə işləndiyi şəraitdən asılı olaraq yeni məfhumları ifadə etmək imkanı qazanır. Çoxmənalılığın yaranmasında sözün

əsas nominativ mənasının (ilkin mənasının) mövcudluğu dayaq nöqtəsi rolunu oynayır. Ona görə ki, yeni mənalar əsas (ilkin) mənaya görə qruplaşır. Yeni mənalarla əsas məna arasında qarşılıqlı əlaqə qanunauyğun bir şəkildə olur. Bir az da konkret desək, törəmə və məcazi mənalar bir əsas mənadan yaranır və bu əsas məna ətrafında birləşərək bir məna qrupu yaradır. Törəmə və məcazi mənalar əsas mənaya tabe olur. Bu mənada H.Həsənov yazır: «Çoxmənalı sözlərin hər bir mənası başqa mənalarla əlaqədardır. Onların hər biri hər hansı əsas ümumi əlamətləri ifadə edərək invariant məna yaradır. Çoxmənalı sözün əsas mənası ilə əlavə mənaları arasında tabelilik, əlavə mənaların özləri arasında isə tabesizlilik əlaqəsi hiss olunur. Məsələn: «qol» sözünün bir əsas, bir neçə törəmə mənaları vardır: qol (*bədənin bir üzvü kimi*), qol(*dastanın qolu*), qol (*qol atmaq*), qol (*qol qoymaq*), qol (*çayın qolu*) və s.».[1]

Çoxmənalı sözlərin əsas mənası onun həqiqi mənasını, ilkin mənasını təşkil edir. Digər mənaları isə sonradan törəmiş mənalar olur. Bundan başqa, çoxmənalı sözlərin əsas mənası həqiqi, törəmə mənaları isə məcazi məna adlanır. Törəmə mənalara ilkin mənadan əmələ gəlmiş məna çalarları da deyilir.

Çoxmənalılıq dilin təbii inkişaf qanunauyğunluğudur. Bu proses tədricən yaranır və dilin lüğət tərkibini zənginləşdirir.

İnsanlarda müşahidə, təhlil aparmaq qabiliyyəti, əşya və hadisələrin oxşar, fərqli xüsusiyyətlərini ayırmaq bacarığı

[1] H.Ə.Həsənov. Müasir Azərbaycan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1988, s.36.

nəticədə dilin inkişafına, çoxmənalılığın yaranmasına şərait yaradır.

Çoxmənalılığın tarixi qədimdir. Azərbaycan dilində çoxmənalılıq dilimizin qədim və ən qədim dövrlərindən başlayaraq mövcud olmuşdur. Bu barədə S.Cəfərov yazır: «Sözlərin çoxmənalılığı, görünür ki, türk dillərində də hələ qədim dövrlərdə böyük rol oynamışdır. Bu gün dilimizdə işlədilən türkün sözü ifadəsi bunu isbat edir».[1] O, türkün sözü ifadəsinə belə bir izah verir: «Türkün sözü ifadəsi dilimizdə bir sözün başqa mənada, xüsusilə mənfi mənada başa düşülməməsi üçün işlədilir ».[2]

Sözlərin çoxmənalılığı sözyaradıcılığı prosesi ilə əlaqədir. Onlar əmələ gəldiyi həqiqi mənadan uzaqlaşaraq, müstəqim məfhum ifadə edən yeni bir mənaya keçə bilir (məsələn: *köçmək, düzmək feillərindən törəmiş köç, düz isim* və sifətləri tamamilə müstəqim məna ifadə edir), mürəkkəb sözlərin əmələ gəlməsində mühüm rol oynayır (məsələn: *istiqanlı, incəsənət* və s.), dilimizdəki idiomların, ibarələrin, hikmətli sözlərin, atalar sözü və zərbi-məsəllərin, tapmacaların əmələ gəlməsində mənbə rolunu oynayır (məsələn: qurban olmaq, saf vicdan, burnunun ucunda danışmaq, əli boşa çıxmaq, gözün aydın, axşamın xeyrindən səhərin şəri yaxşıdır, ayağının altında yumurta qalıb və s.), düzəltmə sözlər əmələ gəlir (məsələn: *göz sözündən gözlü, gözsüz, gözlük, gözətçi, gözlə və s., baş sözündən başlı, başsız, başçı, başçılıq, başla* və s.).

---

[1] S.Cəfərov. Müasir Azərbaycan dili. «Maarif» nəşriyyatı, Bakı, 1970, s.18.
[2] Yenə orada.

**Qeyd:** Çoxmənalılığına görə nitq hissələri içərisində isim və feil fərqlənir. İsim və feildən sonra çoxmənalı nitq hissəsi sifətdir, sifətdən sonra digər nitq hissələridir.

Azərbaycan dilində çoxmənalılığı çox olan əsas nitq hissələrinə isim, sifət və feil daxildir. Məsələn: isimlər – *qabıq, qabırğa, burun, göz, qol* və s.; sifətlər – *quru, göy, kök, ağ, arıq, uzun* və s.; feillər – *vurmaq, almaq* və s. Çoxmənalılığı az olan əsas nitq hissələri say, əvəzlik və zərfdir.

Misallara diqqət yetirək:




**Qeyd:** İsimlərin, sifətlərin və feillərin çoxmənalılığını müqayisə etsək görərik ki, feillərdəki çoxmənalılıq isimlərə və sifətlərə nisbətən daha üstünlük təşkil edir. Məsələn: *vurmaq* feilinin 20-dən çox mənası vardır.

Vurmaq →
- toxunmaq, ayağını suya vurmaq
- güllə ilə vurub öldürmək
- ilan vurmaq
- iynə vurmaq
- göz vurmaq
- çalmaq, çaxmaq, mıx vurmaq, paya vurmaq
- nişan alıb vurmaq, hədəfi vurmaq
- qapını vurmaq
- yükləmək, yük vurmaq
- gün vurmaq (məcazi mənada)
- içmək (məcazi mənada)
- öldürmək və s.

## *SÖZLƏRİN MƏNA QRUPLARI*

### OMONİM SÖZLƏR

Müasir Azərbaycan dilinin lüğət tərkibindəki sözlər məna ifadə etməsinə görə üç qrupa bölünür. Omonim sözlər, sinonim sözlər, antonim sözlər. *Omonimlər bir-birilə əlaqəsi olmayan və məna əlaqəsini çoxdan itirmiş məfhumları ifadə edən, eyni səs tərkibinə malik sözlərə deyilir*. Deməli, eyni səslənməyə malik olan, müxtəlif mənalı sözlərə omonim sözlər deyilir. Omonim yunan sözüdür. *Homos* – oxşar, *onoma* – ad deməkdir. Məsələn: *yaz, gül, at, gəlin* (isim-feil

omonimliyi), *göy, düz* (isim - sifət omonimliyi), *qalın, sağ* (feil- sifət omonimliyi), *sarı, doğru* (sifət - qoşma omonimliyi), *düz* (sifət-zərf-feil omonimliyi), *dayanacaq* (isim-feil omonimliyi), *gələcək* (isim-feil omonimliyi) və s.

**Qeyd:** Omonimlərə belə bir tərif də vermək olar: *Dildə eyni cür yazılan və tələffüz edilən, lakin iki və daha artıq müstəqil mənada işlənən sözlər omonim adlanır.*

Omonimlər eyni səs quruluşuna malik olması və ifadəsi ilə çoxmənalı sözlərə oxşayır. İstər çoxmənalı sözlərdə, istərsə omonimlərdə eyni səs tərkibinə malik bir söz müxtəlif mənanı ifadə edir. Məsələn: *göz* sözü çoxmənalı, *gül* sözü omonimdir.

Çoxmənalı sözlərlə omonimləri fərqləndirmək üçün bir sıra əlamətdar cəhətlər vardır. Bu mənada çoxmənalı sözlərlə omonimləri aşağıdakı əlamətlər əsasında bir-birindən ayırmaq olar:

1. Omonimləri çoxmənalı sözlərdən fərqləndirmək üçün sözlərin məna əlaqələri nəzərə alınır. Eyni səs kompleksinə malik sözlərin ifadə etdiyi mənalar arasında müəyyən əlaqə olduqda həmin söz çoxmənalı, məna əlaqəsi itdikdə isə omonim hesab olunur.

2. Omonimləri çoxmənalı sözlərdən fərqləndirərkən onların söz yaradılıcığında iştirakına fikir vermək lazımdır. Omonim sözlər başqa sözlərin yaranmasında baza rolunu oynayır. Çoxmənalı sözlər isə başqa sözlərin yaranmasında baza rolunu oynamır. *Göz* – adamın gözü, bulağın *gözü*, stolun *gözü* və s. Buradakı *göz* sözü ilkin məna olan adamın gözü əsasında yaranır. Yerdə qalan birləşmələrdə isə, *göz* sözünün

ifadə etdiyi mənalardan yeni sözlər düzəlmir. Omonimlərdən isə yeni söz düzəltmək mümkündür. Məsələn: *gül* omonim sözündən *güllük, gülçü* sözləri yaratmaq olur. Qeyd olunan bu ikinci cəhət bir qrup omonimləri fərqləndirmək üçün meyar rolunu oynayır.

3. Omonim sözlərin sinonimlərini seçib qruplaşdırmaq lazımdır. Bu zaman qarşılaşan sözlər başqa-başqa mənaları ifadə edirsə, omonim olur. Bu xüsusiyyət çoxmənalı sözlərdə yoxdur. Məsələn: *yel* omonim sözünün sinonimlərindən biri *külək*, o biri isə *xəstəlikdir. Külək* və *xəstəlik* sözləri başqa-başqa mənalar ifadə edirlər.

4. Omonimləri fərqləndirmək üçün onların antonimlərini də seçmək lazım gəlir. Bu zaman çoxmənalı sözlərdən fərqli olaraq omonim sözlərə antonim sözlər seçmək olur. Məsələn: *sağ* omonim sözünün antonimlərindən biri *sol*, digəri isə *ölüdür*. Bu sözlər arasında heç bir əlaqə yoxdur.

5. Omonimlərin ifadə etdikləri məfhumlar bir-birindən çox fərqli olur. Məsələn: *biz* omonim sözünün ifadə etdiyi şəxs anlayışı və alət adı bir-birindən fərqlidir.

6. Omonimlik müstəqil mənadır, çoxmənalılıq isə bir sözün məna variantıdır.

*Omonimlərin əmələ gəlmə yolları.* Müasir Azərbaycan ədəbi dilində omonimlər *dilin daxili imkanları hesabına* və *başqa dillərdən alınma sözlər hesabına* yaranır.

*Dilin daxili imkanları hesabına* omonimlər aşağıdakı yollarla əmələ gəlir:

1. Dildə çoxmənalı sözlərin ifadə etdikləri ayrı-ayrı mənalardan birinin inkişaf edib, əsas məna ilə əlaqənin itməsi nəticəsində yaranır. Məsələn: *bel* sözü insanın beli və alət adı kürək mənasında anlaşılır. Halbuki *bel* sözü çoxmənalı söz

kimi, *insanın beli, atın beli* və s. mənalarda işlənir. *Kök, dolu* və s. omonim sözləri də bu cür yaranıb.

2. Omonim sözlər əsas məna ilə yanaşı, sözün tamamilə yeni mənada işlənməsi əsasında yaranır. Məsələn: dildəki bir qrup ümumi isimlər xüsusi ismə keçərək omonim əmələ gətirmişdir. Məsələn:

| *Ümumi isimlər:* | *Xüsusi isimlər:* |
|---|---|
| azad | Azad |
| almaz | Almaz |
| mərhəmət | Mərhəmət |
| yaxşı | Yaxşı |
| gözəl | Gözəl |
| sarı | Sarı |
| qara | Qara |
| maral | Maral |
| ceyran | Ceyran və s. |

3. Dildəki müəyyən sifətlər xüsusi isim əmələ gətirməklə omonim sözlər yaratmışdır. Məsələn: *azad-Azad, yaxşı-Yaxşı, gözəl-Gözəl* və s.

**Qeyd:** İkinci və üçüncü yolla omonim sözlərin yaranmasına konversiya (köçürmə) yolu ilə omonimləşmə deyilir.

4. Bir qisim omonimlər morfoloji yolla, yeni söz düzəltməklə yaranır. Məsələn: *ağlar* (gözü yaşlı, əksinqilabçılar), *aynalı* (tüfəng mənasında, pəncərənin şüşəli olması məna-

sında), *qurum* (tütündən əmələ gələn maddə, təşkilat mənasında), *boylu* (qamətli mənasında, hamilə mənasında), *əsər* (yazılmış kitab mənasında, əsən külək mənasında). Misallara diqqət edək:

*Aşıq başına **bağlar**,*
*Zülfün başına **bağlar***
*Bülbül öldü, gül soldu,*
*Qaldı başına **bağlar**.*

*Ağ alma, şirin **alma**,*
*Yeməyə şirin **alma**,*
*Qoy yarın çirkin olsun,*
*Bədəsil gözəl **alma**.*

*Dəyirmana dən **gəlir**,*
*Durun görün kim **gəlir***
*Toxunmamış cuvalda,*
*Üyünməmiş un **gəlir**.*

*Qoltuğunda **bağlama***
*Mən gedirəm, ağlama*
*Gedərəm yenə gəlləm*
*Yadlara bel **bağlama**.*

**Qeyd:** Müasir Azərbaycan ədəbi dilində *alın, gəlin, qala, sarı* və s. tipli sözlər vardır ki, bunlar da tarixən morfoloji yolla omonimlər yaratmışdır.

5. Sözün kökündə müəyyən səslərin düşməsi nəticəsində omonimlər əmələ gəlir. Məsələn: *alaq* sözünün sonrakı q samiti düşmüş, *ala* sözü əmələ gəlmişdir. Yaxud *dondurmaq, bozartmaq, qovurmaq* və s. sözlərin sonundakı **q** samitinin düşməsilə omonim sözlər yaranmışdır.

*Başqa dillərdən alınma sözlər hesabına* yaranan omonimləri Azərbaycan dilində iki yerə ayırmaq olar:

a) öz sözlərimiz və alınma sözlər hesabına yaranan omonimlər;

b) ancaq alınma sözlər hesabına yaranan omonimlər.

a) öz sözlərimiz və alınma sözlər vasitəsilə yaranan omonimlərin mənalarından biri öz dilimizə, digəri isə alınma dilə məxsus olur. Məsələn: *axır* omonim sözü Azərbaycanca mal-qaranın yeməndiyi yer və ərəbcə *son, qurtaracaq* mənalarını bildirir. Yaxud *bağ* sözü Azərbaycanca yun və başqa şeylərdən toxunmuş ip və farsca meyvə ağacı mənasındadır. Yaxud *qaz* sözü Azərbaycanca quşların bir növü, rusca fiziki-kimyəvi maddə mənasındadır. *Dil* farsca ürək, qəlb, könül, azərbaycanca anatomik termin, *dam* azərbaycanca anbar, farsca tor, hiylə, *dad* farsca aman, ah, fəğan, azərbaycanca hər hansı bir maddənin dildə hiss olunan xüsusiyyəti mənasındadır.

b) ancaq alınma sözlər vasitəsilə əmələ gələn omonimlərin yalnız alınma dilə məxsusluğu özünü göstərir. Yəni omonim sözü yaradan mənaların hər ikisi, eləcə də omonim sözün özü alınma olur. Misallara diqqət yetirək: *blok* sözü fransızca ittifaq, ingiliscə isə böyük binanın bir hissəsi mənasındadır. Yaxud *ştat* sözü almanca dövlət mənasında, digər dillərdə isə tədris yükü mənasındadır. Yaxud *bal sözü* rusca şənlik gecəsi, bir sıra dillərdə isə *bal* sözü qiymət mənasındadır. Yaxud *divan* farsca məhkəmə və şeirlərin külliyyatı mənasındadır.

*Omonimlərin tipləri.* Müasir Azərbaycan ədəbi dilində omonimlərin üç tipi vardır:

1. *Fonetik omonimlər.* Bunlara *omofonlar* da deyilir.
2. *Morfoloji omonimlər.* Bunlara *omoformlar,* yaxud *omoqraflar* da deyilir.
3. *Leksik omonimlər.* Bunlara *xüsusi, əsl omonimlər* də deyilir.

*1. Fonetik omonimlər.* Yəni omofonlar səslənmələrinə görə eyni olub, lakin başqa formada yazılan və başqa mənaları bildirən sözlərə deyilir. Məsələn: *taz – qab-qacaq* mənasında, *tas – dini anlayış* mənasında, *sənəd – sənət, qanat – qanad, kürd – kürt, suda – su da, budaq – bu dağ* və s.

Misallara diqqət edək:

*El köç eylər **bu dağa,***
*Quşlar qonmaz **budağa***
*Elə ki, mən dözürəm*
*Heç kəs dözməz **bu dağa***

*Düşdüm uğursuz dillərə*
*Nəs aylara, **nəsillərə***
*Nəsillərdən, **nəsillərə***
*Keçən bir şöhrətin vardır.*
(S.Vurğun)

*İncəsən **incidənsən,***
*Sədəfdən **incidənsən**.*
*Kəsərəm, dilim, səni,*
*Bilsəm yar **incidənsən**.*

*Dolan gəl yurda, **Gülgəz***
*Qalıbsan torda, **Gülgəz***
*Mən burda qan ağlayım*
*Sən də qal orda **gül gəz.***

*Gül açıb **düşər gələr***
*Külək gül üşüdər.*
*Şeirimin şux pərisi,*
*Zirvədən **düşər gələr.***

*Yaraşır **yara sarı,***
*Loğman ol, **yara sarı**.*
*Ömrümdən qopan günlər,*
*Üz tutur **yara sarı.***

*Bakı bir **yarım ada***
*Mən – Xəzər, **yarım ada**.*
*Tale nə xoş gülümsər*
*Mənə də **yarıma da***

*Əziziyəm **mərdana,***
*Sözüm dedim **mərdana**.*
*Qorxağa oğul deməz,*
*Qoçaq ata, **mərd ana**.*

*Qapıb öz atını Ağatlı getdi,*
*Atları şimşəkdən* ***qanadlı*** *getdi.*
*Uşaq yaddaşını* ***qanaddı*** *getdi,*
*Daha nağıllara inanmaram mən.*

*2. Morfoloji omonimlər.* Yəni omoformlar və omoqraflar yazılışı eyni olan və forması eyni olan müxtəlif vurğulu sözlərdir. Məsələn: *álma-almá, süźmə-süzmə́, gə́lin-gəlín, álın-alín, qóvun-qovún* və s**.** Dilçilikdə belə bir fikir var ki, omoqraflar daha çox vurğuya görə, omoformalar isə müəyyən qrammatik formaları qəbul etməsinə görə fərqləndirilir.

Misallara diqqət yetirək:

*Qış bürümüş hər yanı,*
*Pambıq kimi* ***qarıyla****.*
*Oturmuş bir komada,*
*Bir gəlin bir* ***qarıyla.*** *(R.Rza)*

*Bəzən üzərində «ağlar» buludlar;*
*Qalxar torpağının altından* ***otlar***
*Toplaşıb qoynuna sürülər* ***otlar***
***Otlar****, axşamadək doyar, a dağlar. (S.Rüstəm)*

*And içirik sənə, ana-qadına*
*Ömrümüzü* ***elə*** *qurban veririk.*
***Elə*** *vurun yer titrəsin zərbənizdən yarpaq kimi.*
*(R.Rza)*

*Dağlar mənə gəl-gəl desə ürəkdən,*
*Gəlib* ***elə*** *bu yerlərdə qalardım.*

*Təbiətlə sevincimi, dərdimi*
*Bölüb **elə** bu yerlərdə qalardım.*
*(Z.Yaqub)*

*Mən **elə** yanmışam oduna, gülüm,*
*Fələk də çatammaz dadıma, gülüm.*
*Güldüyüm heç gəlmir yadıma, gülüm,*
*Gözümdən yağışlar tökülür mənim.*
*(Ə.Hacızadə)*

*3. Leksik omonimlər.* Yəni, xüsusi omonimlər, əsl omonimlər, ancaq semantika – məna əsasında yaranan omonimlərdir. Məsələn: *yaz, sarı, gözəl, sağ, ay, gül, tut, tor, yay* və s.

Omonimlərin hansı nitq hissəsinə mənsub olması da maraq doğurur. Bu məna qrupuna daxil olan sözlər (yəni omonimlər) aşağıdakı nitq hissələrinə aid olur.

*İsmə aid omonim sözlər:*

*avar* – qayığı hərəkətə gətirmək üçün işlədilən kürək şəkilli alət; Dağıstanda və Azərbaycanın Zaqatala rayonunda yaşayan İber-Qafqaz qrupuna məxsus xalq.

*ağı* – zəhər; qəm nəğmələri.

*ağıl* – mal-qoyunu saxlamaq üçün üstü açıq yer; ərəb dilindəki əql sözündən olan düşünmək.

*aşıq* – oynaq sümüyü; saz çalan və oxuyan adam.

*bağ* – meyvəlik; ip.

*bazar* – alver yeri; həftənin 7-ci günü.

*bal* – qiymət dərəcəsi; arıların düzəltdiyi şirin maddə.

*qol* – çiyindən barmağa qədər olan hissə; imza.

*əqrəb* – saatın üstündə hərəkət edən dəmir parçası; həşərat.

*zər* – qızıl, qızılı rəng; nərddə üstü 1-dən 6-ya kimi deşiyi olan sümük dənələri və s. Azərbaycan dilində ismə aid omonim sözlər üstünlük təşkil edir.

*gün* – günəş (planet); həyat, yaşayış, güzəran.

*dağ* – yerin dəniz səthindən yüksək çıxıntı hissəsi; damğa, dağlanma, yanma.

*Sifətə aid omonim sözlər:*

*sağ* – sol tərəfin əksi; canlı.

*şit* – duzsuz; yüngül, mənasız, şit zarafat və s.

İsimlərlə müqayisədə sifətlərə aid olan omonimlər azlıq təşkil edir.

Deməli, omonim sözlər eyni nitq hissəsinə aid ola bilir. Bundan başqa, müxtəlif nitq hissələrinin omonimliyi dildə daha çox özünü göstərir.

*İsim-sifət omonimliyi:*

*ağ* – rəng (sifət); parça növü (isim).

*ağlar* – ağlamaq vəziyyəti (sifət); əksinqilabçılar (isim).

*aydın* – açıq, aşkar, işıqlı (sifət); kişi adı (isim).

*dolu* – buzlaşmış yağış (isim); dolu (sifət).

*donluq* – maaş, əmək haqqı (isim); donluq parça (sifət).

*əziz* – istəkli, qiymətli (sifət); kişi adı (isim).

*yuxa* – sacda bişirilən nazik çörək (isim); nazik (sifət).

*göy* – rəng (sifət); səma (isim) və s.

*İsim-feil omonimliyi:*

*alaq* – alaq (feil); yabanı otlar (isim).

*alma* – meyvə növü (isim); alma (feil).

*at* – heyvan (isim); atmaq feilinin kökü (feil).

*axır* – qurtaracaq, son (isim); axmaq feili indiki zamanda (feil).

*aş* – plov (isim); aşmaq məsdərinin kökü (feil).

*qala* – xüsusi tikilmiş istehkam (isim); qal feili və -a şəkilçisi (feil).

*dolma* – xörək növü (isim); məşuqə, aşiq (isim); yarmaq məsdərinin kökü (feil) və s.

*İsim-ədat omonimliyi:*

*azı* – azı dişi (isim); azı üç saata gələr (ədat).

*barı* – daş və kərpiclə hörülmüş divar (isim); gəl bizə barı (ədat).

*var* – dövlət(isim); bir şeyin olduğunu təsdiq etmək (ədat).

*İsim-nida omonimliyi:*

*ay* – göy cismi, planet, ilin 12-dən bir hissəsi (isim); ay (nida).

*ox* – arabanın təkərlərini birləşdirən uzun, yumru ağac və ya dəmir, kamana qoyulub atılan ucu şiş alət (isim); insanın çıxardığı səs (nida).

*İsim- zərf omonimliyi:*

*xor* – dəstə ilə oxunan mahnı (isim); pis gözlə baxmaq (zərf).

*iraq* – ölkə adı (isim); uzaq mənasında (zərf).

*Gözəl* – şəxs adı (isim); gözəl danışmaq (zərf) və s.

*İsim-qoşma omonimliyi:*

*qabaq*-bostan məhsulu (isim); səndən qabaq (qoşma).

*Feilə aid omonim sözlər:*

*can vermək* – ölmək (Canan-canan deyib, o da verdi can – Q.Zakirin yaradıcılığında); yaratmaq, meydana gətirmək (Gördüm ki, Adəmə can verdi Allah – Q.Zakirin yaradıcılığında).

*çapmaq* – ata, eşşəyə və s.-ə minib sürmək, onu dördnala qovmaq;

qarət etmək, soymaq.

*çalmaq* – vurmaq (ilanın çalması);

hər hansı bir musiqi alətində çalmaq.

*Feil-ədat omonimliyi:*

*bəs* – bəs olmaq (feil); bəs necə (ədat).

*Feil-sifət omonimliyi:*

*oyaq* – biz oyaq (feil); yatmağın əksi (sifət).

*acı* – acımaq (feil); acı bibər (sifət) və s.

Ümumiyyətlə, isimlərin və feillərin omonimliyi dildə daha çoxdur. Bunun belə olmasının ən mühüm səbəbi odur ki, hər iki nitq hissəsi qədimdir. Omonimlik də qədim dil hadisəsidir. Ona görə də dilimizin qədim dövrünə aid olan omonimləşmə halını qədim nitq hissələri – feillər və isimlər daha çox qoruyub saxlayır.

*Bədii dildə omonimlərin üslubi xüsusiyyətləri.* Bədii dildə omonimlərin üslubi rolu böyükdür. Omonimlərin bədii dildəki üslubi rolunu aşağıdakı kimi qruplaşdırmaq olar[1]:

---

[1] Bədii dildə omonimlərin üslubi xüsusiyyətləri barəsində bax: Q.A.Talıbov. Semantik söz qrupları və onların üslubi cəhətdən qarşılıqlı əlaqəsinə dair. – Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1970, N2, s.85-86.

1.Omonimlər bədii dildə – şeirdə nitqin obrazlılığını təmin edir. Məsələn:

*Saqi stəkanın* ***yara*** *gəzdirdi,*
*Yel əsər, tellərin* ***yara*** *gəzdirdi,*
***Yar*** *həsrəti canda yara gəzdirdi,*
***Yar*** *gəlsə* ***yaralar*** *sağalı tez-tez. (Aşıq Ələsgər)*

2. Omonimlər bədii dildə – şeirdə bədii təsvirin ifadəsində böyük rol oynayaraq oxucuda, dinləyicidə emosional ruh yaradır.

Məsələn:

*Sinələrdə qövr edən*
*dərin bir* ***yaradır,***
*Bu, elə bir ömürdür ki,*
*ürəklərdə ölümsüz*
*bir iztirab* ***yaradır!***

*Hələ isti* ***yara***
*fil ürəyi gərəkdir,*
*Dözə bu ağrılara! (R.Rza)*

3. Omonimlər bədii dildə – şeirdə estetik təsir vasitəsi kimi çıxış edir. Məsələn:

*Dost səni bağına bağban eyləsə,*
*Almasın dər, gülün iylə, narın* ***üz.***
*Qoy söykənsin narın* ***üzə*** *narın* ***üz,***
*İnsaf elə, gəl könlümün narın* ***üz.***
*(Aşıq Ələsgər)*

4. Omonimlər bədii dildə – şeirdə cinas yarada bilir. Məsələn:

*Açıldı* ***yazım****,*
*Söhbətim, sazım.*
*Sən hünər göstər,*
*Mən şeir* ***yazım****!*
*(S.Vurğun)*

**Qeyd:** Dildə enantiosemiya hadisəsi mövcuddur. Enantiosemiya eyni səs kompleksinə malik olan sözün bir-birinə əks olan mənaları bildirməsidir. Məs.: *keçinmək* sözü yaşamaq və ölmək; *əkmək* sözü belləmək və rədd etmək; *alçaq* sözü rəzil və balaca boy; *yox* sözü var və deyil, yaman sözü pis və yaxşı mənalarında işlənir.

Enantiosemiya hadisəsi dilin lüğət tərkibində gedən bir prosesdir. Bu prosesin tarixi dilin qədim dövrləri ilə bağlıdır.

Enantiosemiya hadisəsi ilə yaranan sözlər eyni səs kompleksinə malik olub, müxtəlif mənaları bildirməsinə görə omonimlərə yaxınlaşır. Lakin omonimlərdən fərqli olaraq burada bir-birinə əks olan mənalar bildirilir. Bir-birinə əks olan mənaları bildirməsinə görə enantiosemiya hadisəsi ilə yaranan sözlər antonimlərlə də yaxınlaşır. Ancaq antonimlər müxtəlif səs kompleksinə, fonetik tərkibə malik əks mənalı sözlər olduğu halda, onlar isə (enantiosemiya) eyni fonetik tərkibli, əks mənalı sözlərdir.

## SİNONİM SÖZLƏR

Müasir Azərbaycan ədəbi dilində hər hansı bir məfhumu bir sözlə deyil, bir neçə müxtəlif sözlə ifadə etmək olur. Məsələn: *fikir-xəyal, qasırğa – firtına, can- ciyər, sitəm – dərd-qəm, demək – söyləmək –ərz etmək – danışmaq, qəmli – kədərli* və s. Misallara diqqət edək:

*İllərin həsrəti qəlbimizdədir*
*Hələ də* ***ayrılıq****, hələ də* ***hicran***
*Min il də* ***intizar*** *çəkməli olsaq*
*Sarsıtmaz* ***ayrılıq*** *bizi heç bir an. (P.Dilənçi)*

***Fikirlər, duyğular*** *aləmindəyəm.*
*Ürəkdir sinəmdə yalnız dillənən… (A.Laçınlı)*

*Yanar dağlar qanımdakı saf* ***atəşdən****, saf* ***oddandır,***
*Özüm dəmir qəfəsdəyəm, addımlarım poladdandır.*
*(X.Rza)*

*Adam var yanında olsan bir qədər*
*Tamam unudular* ***dərdin, məlalın***
*Adam var bir kəlmə danışsa əgər*
*Dəymişin durmuşkən, tökülər kalın. (B.Vahabzadə)*

**Qeyd:** Sinonim sözü yunanca sinonimus sözündən götürülmüşdür, «eyniadlı», «biradlı» mənasını verir.[1]

---

1 А. А. Брагина. Синонимы в литературном языке. «Наука», Москва,1986, с.3.

Azərbaycan dilindəki sinonimlər iki tipə ayrılır.

1. Lüğəvi sinonimlər;
2. Qrammatik sinonimlər.

*1. Lüğəvi sinonimlər.* Dilimizdəki lüğəvi sinonimlərin iki növü vardır:

a) leksik sinonimlər;

b) frazeoloji sinonimlər.

Frazeoloji sinonimlər frazeologiya bəhsində öyrənilir.

*Leksik sinonimlər və onların xüsusiyyətləri.* Dildə formaca müxtəlif, mənaca bir-birinə çox yaxın olan sözlərə leksik sinonimlər, yaxud sinonim sözlər deyilir. Məsələn: *sevinc–şadlıq, mağar–toy, keçmiş–ötmüş, zaman–vaxt, yer–yurd, mərd–igid, insaf–mürvət, qəm–kədər, gözəl–qəşəng, arzu–istək, qısa–gödək* və s. Müasir Azərbaycan ədəbi dilindəki sinonimlər üçün başlıca əlamətdar cəhətlər mövcuddur. Həmin əlamətdar cəhətlərə görə sinonimlər özləri də bir-birindən fərqlənir. Əlamətdar cəhətlər isə aşağıdakılardır:

1. Ortaqlı, yaxud ümumiləşmiş məna əsasında birləşmək sinonimlərin əsas əlamətidir. Məsələn: *de – söylə – danış* sinonimləri ortaqlı sinonim məna əsasında yaranıbdır.

2. Sinonimləri təşkil edən sözlər məna çalarlığı və üslubi rəngarəngliyinə görə bir-birindən fərqlənir. Məsələn: *yüksək* və *hündür* sözləri sinonim sözlərdir. Buna baxmayaraq, *yüksək təpə, hündür təpə, yüksək rütbə* deyə bildiyimiz halda, *hündür rütbə* deyə bilmirik. Bu cür müqayisəni *böyük*-*iri*-*yekə* sinonimlərinə də şamil etmək olar. Məsələn: *böyük hadisə, böyük qarpız, iri qarpız, yekə qarpız* deyə bilirik. Ancaq *iri hadisə, yekə hadisə* demək olmur. Yaxud, aşağıdakı sol

sütunda verilmiş sinonim sözləri sağ sütundakı sözlərin hamısı ilə işlətmək olmur:

| | |
|---|---|
| *qalın, sıx* | *meşə, kitab* |
| *zərif, incə* | *parça, xasiyyət* |
| *nəm, yaş* | *hava, paltar* |
| *mehriban, səmimi* | *dost, söhbət* |

Sinonim sözlər məna çalarlığına və üslubi rəngarənliyinə görə bir-birindən fərqləndiyi üçün onları *mütləq* və *nisbi* növlərə də ayrımaq olar. Mütləq sinonimlər elə sinonimlərdir ki, onlar bir-birini mütləq şəkildə əvəz edə bilir. Məsələn: *rəfiq-dost, səmt-tərəf, sinn-yaş, qardaş-bəradər, vəfat etmək – ölmək, ulaq-eşşək, güc-qüvvət, həyat-ömür, dərd-qəm-sitəm, hörmət-ehtiram, ağlamaq-sızlamaq* və s.

Nisbi sinonimlər isə bir-birini tam şəkildə əvəz edə bilmir. Məsələn: *yüksək-hündür* sözləri sinonim olsa da, bir-birini nisbi şəkildə əvəz edir.

| *Demək olar:* | *Demək olmaz:* |
|---|---|
| Yüksək təpə | hündür rütbə |
| Hündür təpə | |

Yaxud, *qalın-sıx, zərif-incə, nəm-yaş* sözləri sinonim sözlər olmaqla bir-birini nisbi şəkildə əvəz edir.

| *Demək olar:* | *Demək olmaz:* |
|---|---|
| Qalın meşə, qalın kitab, sıx meşə | sıx kitab |
| Zərif parça, incə parça, incə xasiyyət | zərif xasiyyət |
| Nəm hava, nəm paltar, yaş paltar | yaş hava və s. |

Leksik sinonimləri bu xüsusiyyətlərinə görə təsnif etdikdə onların iki növü müəyyənləşir:

1. İdeoqrafik (semantik) sinonimlər;
2. Üslubi sinonimlər.

*1. İdeoqrafik* (semantik) *sinonimlər* dildə fikrin bütün incəliyinin dəqiq ifadə olunmasına xidmət edən sinonimlərdir. Məsələn: *binəva-yazıq, dost-aşna, kol-kos, söz-söhbət, böyük-nəhəng-iri-yekə, naxoş-nasaz-kefsiz-xəstə, ahıl-yaşlı-qoca* və s.

*2. Üslubi sinonimlər* isə üslubi rəngarəngliyə görə fərqlənən sinonimlərdir. Bu qəbildən olan sinonimlər daha çox üslubla bağlı işlənir. Məsələn: *yalvarmaq-ləlimək, döymək-budamaq, qılmaq-etmək, varmaq-getmək, əfv etmək-bağışlamaq* və s.

Üslubi sinonimlərə loru sözlər, arxaizmlər, dialektizmlər və s. aid ola bilir. Məsələn: *loru sözlər: akuşka, dadaş, yavıq* və s.

Otağın işıq gələn yeri iki xırda *akuşkadır*. (C.Məmmədquluzadə); Bir bax gör *dadaşım* neçə ildi ölübdü. (C.Məmmədquluzadə); Odur ki, *yavığa* yeriyib, başladı yumşaqlıqnan oğlunu sakit eləməyə. (C.Məmmədquluzadə) və s.

Arxaik sözlər*: sinn, övrət* və s.

Amma sonra baxdı gördü ki, *sinninin* o vaxtı deyil ki, piyada iki aylıq yolu gedib qayıtsın. (C.Məmmədquluzadə); Nə tövr xalqın *övrətinin* kəbinini özgəyə kəsmək olar? (C.Məmmədquluzadə) və s.

Dialektizmlər: *cicim*.

Yoxsa dil övrətin kəbinini *cicim* də kəsər. (C.Məmmədquluzadə)

Əlbəttə, *akuşka, dadaş, yavıq, sinn, övrət, cicim* sözlərinin hər birinin ədəbi dilimizdə sinonim qarşılığı vardır. Ancaq bu sözlər üslubla bağlı olaraq bədii əsərdə işlənmiş və üslubi sinonim rolunda çıxış etmişdir.

İfadə olunan fikrə, daha doğrusu, fikirdəki obyektə münasibət müxtəlif şəkildə təzahür edir. Obyektə olan «mənfi» və ya «müsbət» münasibətlə bağlı olaraq lüğəvi sinonimlər iki cür olur. Bunlardan birincisi, obyektə mənfi münasibəti ifadə etmək üçün istifadə olunan sinonimlərdir. Məsələn: *baş* əvəzinə *kəllə, təpə, qafa; getmək* əvəzinə *itilmək, rədd olmaq*; *yaşamaq* əvəzinə *gün keçirmək*, *başını fırlamaq*; *danışmaq* əvəzinə *dəm vurmaq*; *gülmək* əvəzinə *irişmək, diş ağartmq, hırıldamaq* və s. Dildəki bu qrup sinonimlər kakofemizimlər adlanır.

İkincisi, obyektə «müsbət» münasibət, yəni hörmət, ehtiram üçün işlənən sinonimlərdir. Məsələn: *dəli* əvəzinə *psixi xəstə*; *qorxmaq* əvəzinə *diksinmək*; *gülmək* əvəzinə *dodağı qaçmaq*, *gülümsəmək*; *cavan* əvəzinə *yeniyetm*ə; *fəryadlar* əvəzinə *əzablar*, *amanlar* və s. belə sözlər isə evfemizm adlanır. Evfemizm yunan mənşəli söz olub, *ev* «yaxşı, nəzakət», *phemi* «danışıram, deyirəm» mənasındadır. Evfemizmlər cəmiyyətin inkişafının yüksək mərhələsində yaranmışdır. Ona görə ki, cəmiyyət inkişaf etdikcə insan təfəkkürü və düşüncəsi də inkişaf etmişdir. Bu da nəzakətli sözlərin istifadəsi üçün mühüm şərt olmuşdur.

*Leksik dubletlər.* Dilin lüğət tərkibində mənaca bir-birinin tam eynini təşkil edən sözlər vardır. Bunların arasında nə məna, nə də üslubi cəhətdən fərq yoxdur. Belə sözlər leksik dubletlər adlanır. Leksik dubletlər sinonimlərdən fərqli olaraq biri digərinin yerində işlənə bilir. Bunların nə məna, nə də üslubi çatışmazlığı olmur. Məsələn: *qovun-yemiş, bəhli-gilənar, aş-plov, aktiv-fəal, ispanaq-şomu, bibər-istiot, tutma-şoraba*, *şpion – casus, adyutant – yavər, bölmə komandiri – onbaşı, alay komandiri – miravlay* və s.

Leksik dubletlər aşağıdakı məqamlarda yaranır:

1. Başqa dildən lazım olmadan söz götürəndə. Məsələn: *səksən-həştad*.

2. İki müxtəlif dildən eyni mənalı söz alanda. Məsələn: *abstrakt* (latın) – *mücərrəd* (ərəb), *termin* (latın) – *istilah* (ərəb) və s. Leksik dubletlərin əhəmiyyəti odur ki, nitqdə eyni sözlər təkrar olunmur. Lakin bunlardan istifadə o qədər də faydalı deyil. Bunlar nitqi ağırlaşdırır. Onu da qeyd edək ki, leksik dubletlər dildə o qədər də çox deyil və getdikcə öz qüvvəsini itirir.

*Sinonimik cərgə.* Bu və ya başqa sinonimi təşkil edən müxtəlif sözlərin məcmusuna sinonimik cərgə deyilir. Hər sinonimik cərgədə bir neçə sinonim söz olur. Bu sözlərdən biri əsas söz hesab olunur. Sinonimik cərgədəki əsas söz dilçilikdə dominant söz adlanır. Dominant sözü latın sözü olub, mənası «hökmran, hakim, üstün» deməkdir. Məsələn: *qorxmaq* sözü *diksinmək*, *uyuşub açılmaq*, *dik atılmaq*, *zəhri yarılmaq*, *tir-tir əsmək* sinonimik cərgəsində dominant sözdür. Eləcə də *kin-qəzəb-nifrət, iztirab-işgəncə, xurafat-cəhalət-savadsızlıq* və s. kimi sinonimik cərgələrdə dominant söz vardır.

Bəzən sinonimik cərgədə olan sözlər bədii əsərin dilində elə işlənir ki, onların içərisində arxaikləşmiş sinonim sözün arxaikliyini hiss etmək olmur. Məs.:

Siz ey odlar ölkəsinin adsız ölən **ərənləri**,
…Lakin ellər baş endirir **qəhrəmanlar** güzarına,
Adsız ölən **igidlərin** o pərişan məzarına!

*(S.Vurğun)*

Sinonimik cərgədəki ərənlər sözü arxaikləşmiş olsa da, bu bədii nümunədə onunla sinonimlik təşkil edən qəhrəmanlar və

igidlər sözləri həmin sözün tam başa düşülməsinə imkan yaratmışdır.

Sinonimik cərgədəki sözlərin, ifadələrin bədii mətndə işlənməsi, əşyanı, hadisəni, əlamət və keyfiyyəti oxucuya daha yaxşı çatdırır. Məs.*: mənəmlik, təkəbbürlük, heç kəsi bəyənməmək, hamıya alçaq nəzərlərlə baxmaq,* bax budur sənin ən böyük günahların. (Ə.Vəliyev)

Əgər sinonimik cərgədəki sözlərdən, ifadələrdən hər hansı biri götürülərsə, yaxud, başqa biri ilə əvəz olunarsa, mənaya heç bir xələl gəlməz.

*Leksik sinonimlərin əmələ gəlməsi.* Ədəbi dildəki sinonim sözlər və leksik sinonimlər iki mənbə əsasında əmələ gəlir:

I. Azərbaycan dilinin daxili imkanları ilə;

II. Başqa dildən söz almaqla.

*I. Azərbaycan dilinin daxili imkanları ilə.* Dilimizin daxili imkanları hesabına leksik sinonimlər aşağıdakı qaydalar üzrə yaranır:

a) dildəki sözün başqa məna, və ya, məna çalarlığı kəsb etməsi ilə. Məsələn: *Başlıq – sərlövhə***.** Burada *başlıq* sözünün başa *bağlanan əşya* mənası əsasında *məqalənin başlığı, kitabın başlığı* yaranmışdır.

b) dildə yeni söz düzəltməklə. Məsələn: *ahıl-yaşlı, varlı-dövlətli, naxoş-nasaz, xəstə-kefsiz, kiçik – balaca, aylıq-donluq, aşxana-yeməkxana, gen-enli, qoca-yaşlı* və s.

c) dialektlərdən söz almaqla. Məsələn: *uca-hündür-qəlbi, yaxın-yavuq, ləqəb-ayama, xəsis-simic, xiyar-yelpənək* və s**.**

*II. Başqa dillərdən söz almaqla sinonimin yaranması.* Ədəbi dilimizdə başqa dillərdən söz almaqla əmələ gəlmiş sinonim sözlər aşağıdakı qaydalar üzrə yaranır.

a) *alınma və Azərbaycan sözlərinin vasitəsilə yaranan sinonimlər.* Cədvəldə verilmiş misallara diqqət yetirək.

| *Azərbaycan* | *Ərəb* | *Fars* |
|---|---|---|
| ağ | bəyaz | |
| qabaq | əvvəl | |
| qanacaq | mərifət | |
| yığıncaq | məclis | |
| od | | atəş |
| budaq | | şaxə |
| çiçək | | gül |
| təmiz | | saf |
| ürək | qəlb | könül |
| gözlük | eynək | çeşmək |

*b) ancaq alınma sözlər vasitəsilə əmələ gələn sinonimlər.* Bu sinonimlər iki yerə ayrılır:

*1. Müxtəlif dillərdən alınma sözlərin sinonimliyi.* Məsələn: *büsat* (farsca) – *dəbdəbə* (ərəbcə), cavan (farsca) – *cahıl* (ərəbcə), *nicat* (farsca) – *xilas* (ərəbcə), *günah* (farsca) – *xilas* (ərəbcə), *təqsir* (ərəbcə), *naz* (farsca) – *işvə* (ərəbcə), *ruh* (farsca) – *can* (ərəbcə), *qəm* (ərəbcə) – *dərd* (farsca), *səcdə* (ərəbcə) – *sitayiş* (farsca), *səbəbkar* (ərəbcə) – *günahkar* (farsca) və s.

*2. Eyni dildən alınma sözlərin sinonimliyi.* Məsələn: *hal-əhval (ərəbcə), insaf – mürvət (ərəbcə), adam – insan – şəxs (ərəbcə), övlad – zürriyyət (ərəbcə), meyit-cənazə-cəsəd (ərəbcə), əhali-camaat-xalq (ərəbcə), təşviş-təlaş (ərəbcə),*

*əhvalat-macəra (ərəbcə), sovqat-hədiyyə (ərəbcə), müntəzir-hazır (ərəbcə), məram-niyyət (ərəbcə), dost-aşna (farsca), azar-xəstəlik (farsca) və s.*

*Leksik sinonimlərin üslubi rolu.* Sinonimlərdən nitqdə aşağıdakı üslubi məqsədlər üçün istifadə olunur:

1. Eyni sözün təkrarına yol verməmək və üslubi səlislik yaratmaq üçün.

Məs.:

*El bilir ki, sən mənimsəm*
***Yurdum, yuvam, məskənimsən***
*Anam, doğma* ***vətənimsən****!*
*Ayrılarmı könül candan!*
*Azərbaycan! Azərbaycan! (S.Vurğun)*

- Xala, nə olub belə ***qəmginsən,*** səni indiyə kimi belə ***qüssəli*** görməmişdim? (M.Hüseyn)

2. Fikri daha təsirli etmək üçün.

3. Fikrin ən incə məna çalarlıqlarını ifadə etmək üçün. Məs.:

***Bivəfanın, müxənnəsin, nakəsin***
***Doğru*** *sözün,* ***düz*** *ilqarın görmədim!*
***Namərdin*** *dünyada çox çəkdim bəhsin,*
***Namusun, qeyrətin, arın*** *görmədim! (Aşıq Ələsgər)*

Burada *bivəfa, müxənnəs, nakəs, namərd; doğru, düz; namus, qeyrət, ar* sözləri fikrin ən incə məna çalarlarını ifadə edə bilmişdir.

4. Nitqdə satira, yumor, komik ifadələr yaratmaq üçün.

5. Mövcud varlığı və hadisələri daha aydın və gözəl təsvir etmək üçün və s.

6. Nitqdə obrazlılıq yaratmaq üçün leksik sinonimlərin qarşılığı olan sintaktik sinonimlərdən də istifadə olunur: Azərbaycan – *Odlar yurdu,* qurultay – *ali məclis,* məktəb – *elm ocağı,* ədəbiyyat–*söz xəzinəsi,* kombayn–*tarla gəmisi* və s.

Sinonimlər nitqdə üç formada işlənir:

a) tək-adi şəkildə;

b) qoşa şəkildə;

c) sadalamaq şəklində.

a) tək-adi şəkildə. Tək-adi dedikdə o başa düşülür ki, sinonimik cərgədəki sözlərdən biri təklikdə işlənir. Məsələn: *cahan-kainat-dünya* sinonimik cərgədəki sözlərdən yalnız biri işlənirsə, bu, *tək-adi* işlənən sinonim olur.

b) qoşa şəkildə. Qoşa şəkildə işlənən sinonimlər qoşa sinonim sözlərin iştirakı ilə yaranır. Məsələn: *nazu-qəmzə, çən-duman, gül-çiçək, hal-əhval, dost-aşna* və s. Misallara diqqət yetirək:

*Yenə də ömrümüzü* ***gül-çiçəklər*** *bəzədi.*
*Dünya köhnə dünyadır, sevgiləri təzədi.*

*Bu sevdanın sabahı* ***çən-dumandır***
*Yapışmışam ətəyindən, amandır*
*İstəyirsən ətəyini kəsginən.*

c) sadalamaq şəklində. Sadalamaq yolu ilə işlənən sinonimlərdə sinonimik cərgədəki sözlərin bir neçəsi sadalamaq yolu ilə işlənir. Məsələn: *dərdlər, qəmlər, ələmlər; kollar, koslar; fikirlər, duyğular; ayrılıq, hicran* və s.

Sinonimlərin hansı nitq hissəsinə mənsub olması da maraqlıdır. Sinonimlar, əsasən, eyni nitq hissəsinə aid olur. Məsələn: *külək-meh, yer-yurd* (isim), *mərd-igid, qəmli-kədərli, qısa-gödək* (sifət)**,** *istəmək-arzulamaq* (feil), *oturmaq-əyləşmək* (feil), *qalamaq-alışdırmaq-yandırmaq* (feil) və s.

**Qeyd:** Dildəki sinonimlər quruluşca sadə, düzəltmə, mürəkkəb ola bilirlər. Məsələn: *unutmaq* (sadə) – *yaddan çıxarmaq* (mürəkkəb), *həyalı* (düzəltmə) – *abırlı* (düzəltmə), *uca – hündür* (sadə). Digər misallara diqqət yetirək:

| *Sadə sinonimlər:* | *Düzəltmə sinonimlər:* | *Mürəkkəb sinonimlər:* |
|---|---|---|
| el-oba | yolçu-dilənçi | qəlbə dəymək-könül sındırmaq |
| ürək-könül-qəlb | dərdli-qəmli | bərk tutmaq-möhkəm yapışmaq və s. |
| savad-bilik | ədəbli-qanacaqlı | |
| dərd-qəm | çovğunlu-qasırğalı-fırtınalı və s. | |
| fikir-xəyal | | |
| danışmaq-demək və s. | | |

## ANTONİM SÖZLƏR

*Formaca müxtəlif, mənaca bir-birinin əksini təşkil edən sözlərə antonim sözlər deyilir. Yunanca anti* «əks», *onoma* isə «ad» deməkdir. Məsələn: *gec-tez, baharlı-qışlı, yanar-sönər, alt-üst, baha-ucuz, yer-göy, ağ-qara* və s. Misallara diqqət yetirək:

*Fikirlər yığılır beynimdə qat-qat,*
***Cavablar** qorxulu, **suallar** yasaq. (B.Vahabzadə)*

*Yüz **təpə** boyu var bir uca **dağda***
***Yaxından** yaxındır bəzən **uzaq da***
***Nifrət** də, **sevgi** də, **qara** da, **ağ** da*
***İşıq** da, **zülmət** də göz içindədir. (B.Vahabzadə)*

*Daş da qiymətlidir əldən gedəndə*
***Mələk** də səndədir, **şeytan** da səndə*
***Yaxşı** da, **yaman** da, **dost** da, **düşmən** də*
*Sənin öz içində öz içindədir. (B.Vahabzadə)*

*Antonimlərin məna növləri.* Ədəbi dilimizdəki antonimlər aşağıdakı məna növlərinə ayrılır:

1. Əlamət, keyfiyyət, xüsusiyyət anlayışlarını bildirən antonimlər. Məsələn: *ağ-qara, sərt-mülayim, soyuq-isti, pis-yaxşı, acı-şirin, tənbəl-çalışqan, zalım-ədalətli* və s.

2. Vaxt anlayışını bildirən antonimlər. Məsələn: *səhər-axşam, gecə-gündüz, yay-qış, tez-gec, dünən-sabah* və s.

3. Məkan anlayışı bildirən antonimlər. Məsələn*: irəli-geri, ora-bura, aşağı-yuxarı, ön-arxa, içəri-bayır, xarici-daxili* və s.

4. Ölçü və miqdar anlayışını bildirən antonimlər. Məsələn: *böyük-kiçik, iri-xırda, qısa-uzun, az-çox, yüngül-ağır, alçaq-hündür, bütöv-yarımçıq* və s.

5. Təbiət hadisələri ilə bağlı anlayışları bildirən antonimlər. Məsələn: *işıq-qaranlıq, donmaq-ərimək, üşümək-qızınmaq, quraqlıq-yağmurluq* və s.

6. Hal-hərəkət və vəziyyət anlayışını bildirən antonimlər. Məsələn: *açmaq-bağlamaq, gülmək-ağlamaq, tikmək-sökmək, ağarmaq-qaralmaq, yaşamaq-ölmək,gəlmək-getmək, oturmaq-durmaq* və s.

7. Qeyri-müəyyən kəmiyyət bildirən antonimlər. Məsələn: *az-çox, bir az – lap çox, az – minlərcə, az-az – çox-çox* və s.

8. İstiqamət, tərəf ifadə edən antonimlər. Məsələn.: *sağ-sol, o tərəf – bu tərəf, ora-bura* və s.

9. Təsdiq və inkarlıq bildirən antonimlər. Məs.: *bəli-xeyr, hə-yox* və s.

10. Qeyri-müəyyən şəxs və ya əşya bildirən antonimlər. Məsələn: *bu – o, biri-hamı* və s.

*Tam və nisbi antonimlər.* Ziddiyyətin dərəcəsinə görə antonimlər tam və nisbi olmaqla iki yerə ayrılır. *Mənaca bir-birinin tam və mütləq ziddini təşkil edən antonim sözlərə tam antonimlər deyilir.* Məsələn: *ağ-qara, dağ-dərə, yay-qış, alt-üst, var-yox, yaş-quru, gözəl-çirkin, az-çox, yer-göy* və s. Misallara diqqət yetirək:

*Fırlandıqca bu dünya* ***yox*** *da dönüb* ***var*** *olur,*
*Quruyan çeşmələrdən sular yenə çar olur.*
*Bu dünyanın* ***xeyri*** *də,* ***şəri*** *də, təkrar olur,*
*Niyə təkrar olmasın, axı dünya fırlanır. (B.Vahabzadə)*

*Gəl bölək dünyanı ikilikdə biz,*
***Dərə*** *mənə düşsün,* ***dağı*** *sən götür.*
*Qalsın yer üzündə qoşa izimiz.*
***Qara*** *mənə düşsün,* ***ağı*** *sən götür. (B. Vahabzadə)*

Tam antonimlər insan cəmiyyəti yarandığı gündən meydana gəlmişdir. Cəmiyyətin üzvləri əhatəsində olduqları mühiti dərk etdikcə yaxşını pisdən, acını şirindən, istini soyuqdan, dostu düşməndən, işığı qaranlıqdan fərqləndirməyə başlamışlar. Bu cür məfhumların dildə fərqləndirilməsi daha çox tam antonimlər vasitəsilə ifadə olunmuşdur. Tam antonimlərin dildə mövcudluğu qədim olduğundan onlar şifahi xalq ədəbiyyatı nümunələrində də gen-bol işlənmişdir. Atalar sözlərində: ilanın *ağına* da lənət, *qarasına* da; ağrı *acı*, can *şirindir*; *ağanın* malı gedər, *muzdurun* canı; nağıllarda: biri *var* idi, biri yox *idi*; *ağ* qoç, *qara* qoç; *işıqlı* dünya, *qaranlıq* dünya; *adil* hökmdar, *zalım* şah; *dövlətli* tacir, *yoxsul* kəndli; *mərd* və *namərd*; *bəy*, *nökər*; *xanım*; *qarabaş*; tapmacalarda:

> ***Üstü*** *zəmi biçərlər,*
> ***Altı*** *bulaq içərlər.*
> *Nə ağacı, tağı var,*
> *Qırmızısı, ağı var.*
> *Özü torpaq* ***altında****,*
> *Yer* ***üstə*** *yarpağı var.*

Dastanlarda: İynəyə *tikən* demədim, mən Dədə Qorqud. Tikənə *sökən* demədim, mən Dədə Qorqud.

Bayatılarda:

> *Əzizim sərin ayaz*
> *Göy bulud sərin ayaz.*
> ***Dosta*** *gələn qadanı*
> ***Düşmənin*** *sərinə yaz.*

*Əziziyəm mərdana,*
*Sözüm deyim mərdana,*
***Qorxağa** oğul deməz,*
*Qoçaq ata, **mərd** ana.*

Yeri gəlmişkən onu da qeyd edək ki, tam antonimlər bədii ədəbiyyatda təzad – kontrast yaratmaqda bir vasitə kimi istifadə olunur.

Şifahi xalq ədəbiyyatı nümunələrinin dili həm də ona görə cəlbedicidir ki, onlarda antonim sözlərdən geniş istifadə olunmuşdur.

*Mənaca bir-birinin şərti və nisbi ziddini təşkil edən antonim sözlərə nisbi antonimlər deyilir.* Məsələn: *ağ-qırmızı, ağ-boz, ağ-yaşıl, qış-payız* və s.

*Antonimlərin əmələ gəlmə yolları.* Ədəbi dilimizdəki antonimlər iki mənbə əsasında əmələ gəlmişdir.

I. Dilin daxili imkanları hesabına;

II. Başqa dillərdən söz almaqla.

*I. Dilimizin daxili imkanları ilə yaranmış antonimlər* aşağıdakı yollarla əmələ gəlir:

a) antonimlərin bir qismi təbii halda əkslikləri bildirmək üçün yaranmışdır. Məsələn: *yer-göy, var-yox, yazı-pozu, dağ-aran, quru-yaş, yuxarı-aşağı, isti-soyuq, uzaq-yaxın, uzun-gödək, az-çox, düz-əyri, böyük-kiçik* və s.

b) müəyyən anlayışlara uyğun yeni söz yaradılması əsasında əmələ gəlir. Bu da öz növbəsində iki yerə bölünür:

1) Bir əsli sözlə düzəltmə sözlərdən əmələ gələn antonimlər. Məsələn: *piyada-atlı, boş-dolu* (düzəltmə), *kasıb-varlı, dar-enli* (düzəltmə), *təmiz-çirkli* və s.

2) Ancaq düzəltmə sözlərdən əmələ gələn antonimlər. Məsələn: *əkin-biçin, keçmiş-gələcək, yazı-pozu, gəliş-gediş* və s.

*II. Başqa dillərdən söz almaqla yaranmış antonimlər.*

Dilimizdəki bu qəbildən olan antonimlər aşağıdakı yollarla əmələ gəlmişdir:

*a) öz sözümüzlə alınma sözlərdən əmələ gələn antonimlər.* Məsələn: *sağlam* (azərbaycanca) – *naxoş* (farsca), aydın (azərbaycanca) – zülmət (ərəbcə), *sonra* (azərbaycanca)– *əvvəl* (ərəbcə),ağa (azərbaycanca) – *nökər* (ərəbcə), *yavaş* (azərbaycanca) – *cəld* (ərəbcə), *qoca* (azərbaycanca) – *ahıl* (ərəbcə) və s.

*b) yalnız başqa dillərdən alınma sözlərdən ibarət antonimlər.* Məsələn: *sual* (ərəbcə) – *cavab* (ərəbcə), *avam* (ərəbcə) – *mədəni* (ərəbcə), *etiraz* (ərəbcə) – *etiraf* (ərəbcə), *piyada* (farsca) – süvari (farsca), bolşevik (rusca) – menşevik (rusca), *obyekt* (latın) – *subyekt* (latın) *kədər* (ərəbcə) – *nəşə* (ərəbcə), *aqil* (ərəbcə) – *cahil* (ərbcə), *səfa* (ərəbcə) – *cəfa* (ərəbcə), *qalib* (ərəbcə) – *məğlub* (ərəbcə), *əvvəl* (ərəbcə) – *axır* (ərəbcə), *halal* (əbəbcə) – *haram* (ərəbcə), *inam* (ərəbcə) – *şübhə* (ərəbcə), *müvəqqəti* (ərəbcə) – *əbədi* (ərəbcə), *dost* (farsca) – *düşmən* (farsca), *xoşbəxt* (farsca) – *bədbəxt* (farsca) və s.

*Antonimlərin üslubi xüsusiyyətləri.* Antonimlərin dildə müəyyən üslubi rolu da var. Bu qrup sözlər fikrin daha dəqiq və emosional ifadəsinə xidmət edir. Ona görə də zərb məsəllərdə, hikmətli ifadələrdə antonimlərin rolu böyükdür.

Məsələn: *Əyri* otur, *düz* danış. *Yol* ***böyüyün***, su ***kiçiyin***. ***Dadlı*** söz can arzusu, ***dadsız*** *söz baş ağrısı*. *Yaxşılıq* et, *yamanlıqdan* qaç. Yüz sənəti *pis bilməkdən*, bir sənəti *kamil bilmək* yaxşıdır. Dost yüz olsa *azdır,* dərman bir olsa *çoxdur*. *Yaxşılığa* yaxşılıq hər kişinin işidir*, yamanlığa* yaxşılıq ər kişinin işidir və s.

Antonimlərin bir qismi mürəkkəb sözlərin əmələ gəlməsində də mühüm rol oynayır. Məsələn, *az-çox, gec-tez, gecə-gündüz, var-yox, al-ver, giriş-çıxış, düzlük-əyrilik* və s.

Antonimlər dilimizdə həm də təzad yaradır.Məsələn, *dost-düşmən, əvvəl-axır, durmaq-oturmaq, ağ-qara, irəli-geri, yaxşılıq-pislik, soyuq-isti, yay-qış* və s.

**Qeyd1:** Dilimizdəki antonimlər quruluşca sadə, düzəltmə, mürəkkəb olurlar. Müqayisə edək: *pis-yaxşı, az-çox, gecə-gündüz, düzlük-əyrilik, giriş-çıxış, pis bilmək– kamil bilmək* və s.

**Qeyd 2:** Antonimi təşkil edən sözlər eyni bir nitq hissəsinə aid olur. Məsələn: *gözəl-çirkin, uzun-qısa, susmaq-danışmaq, örtmək-açmaq, uzun-qısa, çalışqan-tənbəl, düzgün-əyri, soyuq-isti, yoxuş-eniş, gecə-gündüz, yatmaq-durmaq, oturmaq-qalxmaq* və s.

**Qeyd 3:** Dilimizdə elə sözlər vardır ki, onların həm sinonimi, həm antonimi, həm də omonimi olur. Məsələn: *yaş* sözü *sulu* və *təvəllüd* mənasında omonimdir. Ancaq bu sözün *nəm, boyat, höyüş* kimi sinonimi, eyni zamanda *yaş* sözünün *quru* antonimi var. Yaxud, *it* sözü *itmək* və *it* (heyvan) mənasında omonimdir. *İt* sözünün *köpək*

sinonimi var. Eyni zamanda bu sözlə *pişik* sözü antonimdir.

Omonimlərdə sinonimlik, sinonimlərdə çoxmənalılıq, antonimlərdə sinonimlik sözlərin birinin digərinə münasibətində rəngarənglik kimi özünü göstərir. Məs.: *dava* sözü *dərman* və *müharibə* mənalarında omonimdir. *Dava* və *müharibə* sözlərinin isə hər birinin sinonimləri vardır: *dərman – əcza – çarə, müharibə – vuruşma, döyüşmə.*

Sinonimlərin çoxmənalılığına diqqət yetirək. Məs.: *qulluq, vəzifə* sözləri sinonim olmaqla hər birinin çoxmənalılığı vardır. *Qulluq* sözünün çoxmənalılığı: *vəzifə, xidmət, peşə; vəzifə* sözünün çoxmənalılığı: *qulluq, peşə, xidmət.*

Antonimlərdə sinonimlik məsələlərinə diqqət yetirək. Məs.: *gecə* və *gündüz* sözləri antonim olmaqla hər birinin sinonimləri var. *Gecə* sözünün sinonimləri: *zülmət, qaranlıq, dumanlıq; gündüz* sözünün sinonimləri: *işıq, nur, aydınlıq.*

Antonimlərin bədii dildə yaratdığı üslubi çalarlar, xüsusiyyətlər olduqca çoxdur. Onların bəzilərini aşağıdakı kimi qruplaşdırmaq olar:[1]

1. Antonimlər ziddiyyət bildirdiyindən əlamət və keyfiyyətin müsbət və mənfiliyi haqqında onların vasitəsilə aydın təsəvvür yaradılır. Məs.:

---

[1] Antonimlərin üslubi xüsusiyyətləri barəsində bax: Q.A.Talıbov. Azərbaycan dilində antonimlərin leksik və üslubi xüsusiyyətlərinə dair bəzi qeydlər. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Ədəbiyyat, dil və incəsənət seriyası, 1970, №1, s.104-109; Yenə onun. Antonimlərin bədii-üslubi xüsusiyyətlərinə dair. Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. 1974, № 4, s.59-63.

*Şairə lütf olursa, ya azar,*
***Pisi pis**, **yaxşını** da **yaxşı** yarar! (M.Ə.Sabir)*

2. Antonimlərin üslubi xüsusiyyətlərindən biri də onların insanda ruh yüksəkliyi, optimist əhval-ruhiyyə, emosional hiss, bədii-estetik zövq yaratmasıdır. Məs.:

*Qaşı **tağ-tağ** gərək, qabağı nazik,*
*Ağzı, burnu, dili, dodağı **nazik**,*
*Baldırı **yoğun**, ayağı **nazik**,*
*Var əndamı olur **dolu** gözəlin. (M.P.Vaqif)*

*Mənə **gizli** bir nişanə göndərdin,*
***Aşkara** başıma qaxmağın nədir?!;*
***Altdan** gülgəz, **üstdən** yaşıl türabı,*
*Bu rəng ilə özün bəzət, sevgilim! (M.P.Vaqif)*

3. Obrazlı təsvir etmək və bununla da fikrin təsirli ifadəsinə nail olmaq üçün antonimlər böyük rol oynayır. Məs.:

*Kim **gecəni gündüzlə**,*
*Günəşi Ayla görmüş,*
*Kim **hicranı vüsalla**,*
***Qışı** da **yayla** görmüş?! (B.Vahabzadə)*

4. Antonimlər vasitəsilə bədii dildə antiteza hadisəsi yaranır (yunanca antithesis –qarşı-qarşıya olan deməkdir). Təsvir olunan obyektin xarakterinin açılmasında antiteza hadisəsi mühüm rol oynayır. Onun mərkəzində, təbii ki, təzad dayanır. Bunun sayəsində bədii dilə xüsusi üslubi effekt verilir. Məs.:

***Əkən** bizik, **biçən** də biz,*
***Var-yoxundan** keçən də biz!*
*Torpaq, torpaq, ana torpaq,*
*Sən ögeysən bizə ancaq*
*Həm **qüdrətli**, həm **zəifsən**! (R.Rza)*

Həm antonim, həm də antiteza əks mənalı sözlər vasitəsilə yaranır. Bu ümumi cəhət onların hər ikisinə aiddir.

**Qeyd:** Antiteza ilə antonim sözlər arasında fərqlər də vardır:

a) antonim leksik vahid olduğu halda, antiteza bədii ifadə vasitələridir. Yəni antonimlər bədii əməliyyatda işlənməsə, antiteza yarada bilmir.

b) antonim ümumidir, antiteza isə fərdidir, onlar cümlədə, mətndə, bədii əsərlərdə işlənməklə aydın, təsirli mənzərə yaradır, xarakterlərin, obrazların mənəvi aləmini aça bilirlər.

c) antitezanı yaradan antonim sözlərin cümlədə işlənməsi vacibdir. Eyni zamanda burada fikrin təzad yaratması (antonimlər vasitəsilə) əsas rol oynayır. Məs.: **Tamarzıdan** *kəs,* **dadanmışa** *ver.* (Atalar sözü); **Danış** *bir-bir,* **dinləyim**. (S.Rüstəm); **Dəymişini** *qoyub,* **kalını** *dərir.* (Atalar sözü); **Dərd** *içində yaşadı; Yazdı* **sevinc** *nəğməsi.* (B.Vahabzadə); **Öləcəyəm**, *bir də* **dirilməyəcəyəm**. (C.Cabbarlı) və s.

Antonimlərdə isə ancaq leksik məna əsasında qurulur. Məs.: *Bakının* ***gecəsi*** *də* ***gündüzü*** *kimi işıqlıdır.* (Ə.Vəliyev); *Mən anadan dünyaya bədbəxt* ***gəlmişəm****, bədbəxt də* ***gedəcəyəm****.* (Ə.Haqverdiyev); *Elə* ***gümrahlaşırsan****, elə saflaşırsan ki, deyəsən heç ömür boyu nə* ***yorulursan*** *burada, nə də qocalırsan.* (M.S.Ordubadi) və s.

Misallardan da göründüyü kimi, bütün antitezalar antonimlərdən əmələ gəlir. Ancaq bütün antonimlər cümlədə, mətndə antiteza yarada bilmir.

5. Antonimlər bədii dildə qarşılaşdırma yolu ilə təsvir olunan obyektin qabarıqlığını artırır, dinamik inkişafda verilməsinə şərait yaradır. Məs.:

*O sevmək, sevilmək, yaşamaq deyə,*
*Gah* ***yerdə sürünür****, gah* ***uçur göyə****;*
*Sizi unutmadı bu torpaq, bu yer.*
*Siz* ***gəncləşirsiniz****, tarix* ***qocalır****! (S.Vurğun)*

6. Antonimlər dramaturgiyada – personajların dilində də geniş istifadə olunur. Yazıçı bədii personajların dilində antonimləri işlətməklə hadisələr, xarakterlər haqqında aydın təsəvvür yaradır. Məs.:

(Şeyda): Ah!.. şu təməlsiz həyatın heçliyini düşündükcə, adətən, kəskin dırnaqlı bir qartal ciyərlərimi qoparıyor; *gülmək* istiyorum, *gülmüyorum*. *Ağlamaq* istiyorum da, *ağlamıyorum*. (H.Cavid)

7. Bədii əsərdə ifadələrin təsir gücünü artırmaq üçün kontekstual antonimlərdən də istifadə olunur. Kontekstual antonimlər elə antonimlərdir ki, onlar kontekstdən kənarda antonimlik kəsb etmirlər. Məs.:

*Xalq batıbdır **noğla, şəkərə, qəndə***
*Bizim evdə **axta zoğal** da yoxdur! (M.P.Vaqif)*

Burada *noğul*, *şəkər*, *qənd* sinonim sözləri *axta zoğal* söz birləşməsinə əks mənada işlənmişdir, təzad yaranmışdır. Halbuki, mətndən kənarda bu sözlər bir-biri ilə antonim kimi işlənə bilmir. Müqayisə et: *noğul*, *şəkər*, *qənd* (lap şirin) – *axta zoğal* (tum-turş). Yaxud:

*Meşədə **məğrur palıd,***
***Əyilən söyüd** də var.*
*Həyatda **qorxaq insan,***
***Təmkinli igid** də var. (H.Arif)*

Bu şeir parçasında *məğrur palıd* və *əyilən söyüd, qorxaq insan* və *təmkinli igid* söz birləşmələri təzad yaratmış, antonim kimi işlənmişlər. Ancaq şeir parçasından kənarda bu söz birləşmələri antonim ola bilmir. Müqayisə et: *məğrur palıd – əyilən söyüd, qorxaq insan – təmkinli igid.*

8) Antonimlərin üslubi xüsusiyyətlərindən biri də onların bədii dildə oksümoron yaratmasıdır. Oksümoron yunan sözüdür,«ağıllı-dəli» deməkdir. Onlar antonimlərin növlərindən biri kimi, məntiqi cəhətdən bir-birinə zidd olan, söz, söz birləşmələri və ifadələrdən əmələ gəlir. Məntiqi cəhətdən bir-birinə zidd olan söz, söz birləşmələri və ifadələr yanaşı işlənərək obrazlı bir ifadə kimi başa düşülür: *şirin acılar*, *dilənçi milyoner*, *ağalar – qullar dünyası* (S.Vurğun), *diri ölülər* (R.Rza), *ağlar güləyən* (B.Vahabzadə), *gündüzlər və gecələr*, *dirilər və ölülər* (K.Simonov), *hərb və sülh* (L.Tolstoy), *alqı və satqı*, *alış və veriş*, *gəliş* və *gediş* və s.

## TABU SÖZLƏR

Bu qəbildən olan sözlər əslində etnoqrafik anlayışları bildirir. Tabu sözü *ta* «qeyd etmək, ayırmaq», *pu* «tamamilə» sözlərindən ibarətdir. Bu söz polinez dillərindən birinə məxsusdur. Tabu sözlər deyilməsi etik normalara uyğun gəlməyən sözlərdir. Belə sözlər müəyyən qadağalar sistemini bildirir. Konkret desək, tabu sözlər ictimai yerlərdə işlədilməsi münasib sayılmayan sözlərdir. Bu sözlərdən daha çox uşaqları qorxutmaq üçün istifadə edilir. Məsələn: *cin*, *şeytan, iblis, xortdan* və s. Deməli, tabular uşaqların yanında işlənməsi yasaq olunmuş sözlərdir.

Bəzən şəxsin konkret adını gizli saxlamaq, başqasının yanında həmin adı çəkməmək məqsədilə tabu sözlərdən istifadə olunur. Məsələn:

Molla, əvvəlcə məndən *uşaqların anasına* salam yaz. *Uşaqların atası* işə gedib. *Uşaq* kəndə gedib və s. Bu cümlə-

lərdə *uşaqların anası, uşaqların atası*, *uşaq* sözləri konkret şəxsləri bildirdiyi halda, həmin şəxslərin adı işlənməmişdir. Bu sözlər isə tabu sözlər kimi çıxış etmişdir. Onların tabular kimi çıxış etməsi hörmət, nəzakətlə bağlıdır. Şərq aləmində kişi öz həyat yoldaşının, qadın öz ərinin, valideynlər öz övladlarının adını çəkməyi qəbahət hesab etmişlər.

Bəzən uşaqlara rəsmi adlardan başqa, qeyri-rəsmi ad da verilir və işlədilir. Uşağa verilmiş qeyri-rəsmi adlar tabu söz hesab olunmur. Məsələn: Mənsurə-*Xatirə*, Əruz-*Nəzahət*, Şamama-*Məxbulə*, Zərifə-*Züleyxa*, Hidayət-*Aydın* və s.

Tabu sözlərdən istifadə olunması bir sıra səbəblərlə bağlı olmuşdur:

1) Mədəni adamlar müəyyən əşyaların, hadisələrin adlarını ictimai yerlərdə çəkməyi eyib, qəbahət saymışlar. Onlar işlənməsi eyib, qəbahət hesab olunan belə sözləri ictimai yerlərdə hörmət, nəzakət əlaməti kimi işlətməmişlər. Məsələn: insanın bədən üzvlərinin bəzilərinin adını bildirən sözləri işlətmək eyib və qəbahət hesab olunur. Əgər belə sözlərin işlənməsi mütləq zəruri və vacib hesab olunursa, onda evfemizmlərə müraciət etmək lazım gəlir. Adının çəkilməsi eyib, qəbahət hesab olunan sözlər evfemizmlər vasitəsilə əvəz olunur və evfemizmlər onları ifadə edir.

2) Bir qisim tabu sözlərin əmələ gəlməsi mövhumatla, avamlıqla, qorxu ilə bağlı olmuşdur. Qorxulu varlıqların – heyvanların adını çəkməmək insan təsəvvüründə dərin kök salmışdır. Ona görə də insanlar qorxulu varlıqların – heyvanların adını çəkməkdə ehtiyat etmişlər. «Məsələn: ən ucqar rus əyalətlərində bir sıra vəhşi heyvanların adını çəkməzlər. Buna görə də ayı əvəzinə *mişka, kosolapıy* və s. sözlər işlədilir.

Türkmən dilində *şir*, *pələng* kimi heyvanların adı çəkilmir, bunlar sadəcə olaraq *ov* sözü ilə ifadə olunur. *Şir*, *pələng* yıxıldı əvəzinə *ov yıxıldı* deyirlər.

Eyni hadisəni Azərbaycan dilində də görmək olur.

İbtidai insanlar belə təsəvvür etmişlər ki, əgər həmin əşyaların (heyvanların) adı çəkilirsə, onlar zahirə çıxar və insana zərər gətirə bilər».[1]

Bəzi xəstəliklərin (vərəm, xərçəng) adını çəkmək qorxulu hesab olunmuşdur. İnsanlarda belə bir təsəvvür yaranmışdır ki, vərəm, xərçəng xəstəliklərinin adı çəkilərsə, onda həmin xəstəlik üzə çıxa bilər. Əgər insanlar həmin xəstəliklərin adını çəkirlərsə, onda insanlar öz qulaqlarından tutub dartır və belə ifadələr işlədirlər: *kişkişlər olsun, allah uzaq eləsin, allah göstərməsin* və s.

3) Tabu sözlərin bir qismi mental xüsusiyyət, milli-mənəvi dəyərlə bağlı olaraq meydana çıxır. Məsələn: özünün və ya başqasının qadınının, kişisinin adını çəkməmək üçün (müsəlman aləmində ad çəkmək qəbahət hesab olunmuşdur) *həyat yoldaşım, ömür-gün yoldaşım, uşaqların atası, uşaqların anası* və s. ifadələr işlədilir.

4) Tabu sözlər qrupunun bir qismi də dini-mifoloji anlayışların adıdır: *cin, şeytan, xortdan, qulyabanı, inkir-minkir, Əzrayıl* və s. Belə sözləri uşaqların yanında işlətmək qadağa olunur. Ona görə ki, uşaqlar bu sözləri eşitdikdə çox qorxurlar.

---

[1] Müasir Azərbaycan dili. I cild, «Elm» nəşriyyatı, Bakı, 1978, s.225.

## PARONİM SÖZLƏR

*Dildə səslənmə cəhətdən bir-birinə yaxın, lakin müxtəlif məna ifadə edən və nitq prosesində səhv olaraq biri digərinin yerində işlənən sözlərə paronim sözlər deyilir. Paronim sözü* yunan sözü olub, *paro* «yanında, ətrafında», *onoma* – «ad» deməkdir. Məsələn: *haman - hamam, daxili - dəxli, nəfs - nəfis, iblis – ilbiz, hərif-hərf, əmir-əmr, əsəb-əbəs, nəsir-nəsr, həyat-həyət, müsahib-mühasib, təkrar-təkrir, tədqiqat-təhqiqat, hərəkət-hərəkat, məlumat-məmulat, məcra-macəra* və s. Paronimlərin iki növü var:

1. Leksik paronimlər;
2. Poetik paronimlər.

*1. Leksik paronimlər* mətndən asılı olmayaraq paronimə aid cəhətləri özündə əks etdirir. Məsələn: *hərf-hərif, zad-zat, nəfs-nəfis, iblis-ilbiz, tərz-tərs, mətn-mətin, yiyə-yeyə, his-hiss, iraq-irad* və s.

*2. Poetik paronimlər* əsasən poeziya dili üçün xarakterik paronimlərdir. Buna dilçilikdə mətni paronimlər də deyilir. Yuxarıda qeyd etdiyimiz paronimlərin hər biri mətndə işlənməklə mətn daxilində mətni paronimlər adlanır. Ümumiyyətlə, paronimlər omofonlara və omoqraflara bənzəyir. Lakin bu bənzərliklə yanaşı, paronimlərin səciyyəvi xüsusiyyətləri vardır. Paronimlərin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

*I. Paronimlərin semantik xüsusiyyəti var.* Yəni paronimləri təşkil edən sözlərdən hər biri mənasına görə bir-birindən fərqlənir. Məsələn*: əsr-əsir, cəhrə-çöhrə, həsir-həsr, liman-limon, hakim-həkim* və s.

*II. Paronimlərin bir qismi alınma paronimlərdir.* Məsələn: *abonent-abonoment, eskalator-ekskavator* və s.

*III. Paronimlər üçün daha spesifik xüsusiyyət, fonetik xüsusiyyətdir.* Bu fonetik xüsusiyyət aşağıdakı kimi özünü göstərir:

a) *sözün əvvəlində fonetik fərqlər paronimlər yaradır.* Məsələn: *Şəki-səki, ahəng-əhəng, giriş-kiriş* və s.

b) *sözün ortasında olan fonetik fərqlər.* Məsələn: *həsr-həsir, əski-əksi, ezam-edam, müsahibə-müsabiqə, fasilə-fəsilə, tədqiqat-təhqiqat, hərəkət-hərəkat, əzm-əzim, surət-sürət* və s.

c) *sözün sonunda olan fonetik fərqlər.* Məsələn: *ehtiras-etiraz, təcrid-tədric, saç-sac, bina-binə, müstəqil-müstəqim, təəssüf-təəssüb* və s.

*IV. Paronimlərin spesifik xüsusiyyətlərindən biri də morfoloji xüsusiyyətləridir.* Bu morfoloji xüsusiyyət nitq hissələri ilə bağlıdır. Daha konkret desək, paronimlər hadisəsində isim və sifətlər daha fəal iştirak edir. Məsələn: *isimlər* – həyat-həyət, əsr-əsir, hakim-həkim, atlas-atlaz və s.; isim-sifət paronimliyi. Məsələn: *hərf-hərif, əsgi-əski, mətn-mətin, gəc-kəc* və s.; *sifət-sifət paronimliyi***.** Məsələn: *sabiq-sadiq*.

**Qeyd:** Dildə paronimlik hadisəsi ağırlıq yaradan hadisədir. Bu hadisə həm də dildə dolaşıqlıq yaradır.

# Etimologiya

# ETİMOLOGİYA

Etimologiya sözlərin mənşəyini öyrənən dilçilik bölməsidir. Dilçiliyin bu bölməsində sözlərin mənşəyi ilə yanaşı, onların ilkin forması və tarixi də tədqiq olunur.

Etimologiya sözü yunan mənşəli *etymon* «həqiqət» və *loqos* «söz, təlim» sözlərinin birləşməsindən əmələ gəlmişdir. Bu termin iki mənada başa düşülür: a) sözlərin mənşəyi mənasında, b) sözlərin mənşəyini öyrənən, tədqiq edən elm mənasında.

Etimologiya sözün tarixinə, keçmişinə nüfuz edir və ona lazım olan material tapana kimi sözü izləyir. Etimoloji təhlil zamanı diaxron və sinxron istiqamətdə olan təhlillərə geniş yer verilir.

Etimologiya yalnız sözlərin etimoloji izahı ilə kifayətlənmir, həm də morfemlərin, ifadələrin və s.-nin aydınlaşdırılmasına xidmət edir. Məqsədə nail olmaq üçün dilçiliyin bütün imkan və vasitələrindən istifadə edir. Ferdinand de Sössürün sözləri ilə desək, «Hansısa ayrıca bir sözü tədqiqat predmeti kimi götürərək, özünə aid məlumatı etimologiya gah fonetikadan, gah morfologiyadan, gah da semantikadan və s. əldə edir. Məqsədinə çatmaq üçün dilçiliyin sərəncamına verdiyi bütün vasitələrdən istifadə edir, lakin bu zaman

etimologiya diqqətini apardığı əməliyyatların səciyyəsini aydınlaşdırmaqdan çəkmir»[1].

Etimoloji araşdırmalar olduqca çətin və mürəkkəbdir. Ona görə də etimoloqun qarşısında duran əsas vəzifələr sırasında sözün «tərcümeyi-halını bərpa etmək, müxtəlif dövrlərdə fonetik və məna cəhətdən uğradığı dəyişiklikləri üzə çıxarmaqdır. Sözün etimoloji izahında etimoloq onun (sözün) mənasına, formasına, fonetik və məna dəyişikliklərinə xüsusi olaraq diqqət yönəltməlidir. Belə olduqda etimoloji izah inandırıcı, əsaslı ola bilir.

Etimologiyada dilin lüğət tərkibindəki bütün sözlər araşdırılmır, tədqiq olunmur. Yalnız etimologiyası məlum olmayan sözlər öyrənilir. Yəni mənası məlum olan sözlərlə leksikologiya məşğul olur. Mənası məlum olmayan sözləri isə etimologiya araşdırır.

Dilin inkişafı ilə bağlı olaraq sözün ilkin mənası onun sonrakı mənası ilə uyğun gəlməyə bilir. Bu zaman sözün ilkin mənası unudulur. Çoxmənalılığın yaranması ilkin mənanın aydınlaşmasına maneçilik törədir.

Sözün etimologiyasını öyrənən etimoloq aşağıdakıları mütləq bilməlidir:

a) *Sözü qohum dillərin sözü ilə tutuşdurmağı, müqayisə etməyi bacarmalıdır;*

b) *Sözlərin müqayisəsi mənsub olduğu dilin fonetik qanunlarına uyğun aparılmalıdır;*

c) *Sözün etimologiyasını düzgün izah etmək üçün həmin sözün mənsub olduğu dilin tarixini dərindən bilmək lazımdır;*

---

[1] Ferdinand de Sössür. Ümumi dilçilik kursu. Bakı,2003, s.337.

ç) *Hansı xalqın dilinin etimologiyası öyrənilirsə, həmin xalqın adət-ənənəsinə, məişətinə, tarixinə hərtərəfli bələd olmaq vacibdir.*

Türk dillərində sözlərin etimologiyası haqqında müəyyən tədqiqatlar aparılmışdır. Məsələn: 3 cilddə «Türk dillərinin etimoloji lüğəti», 4 cilddə «Qazax dilinin etimoloji lüğəti» və s.

Azərbaycan dilçiliyində Ə.M.Dəmirçizadənin «50 söz», B.Əhmədovun «Azərbaycan dilinin etimologiya sözlüyü» və ayrı-ayrı tədqiqatlarda sözlərin etimoloji izahları bu qəbildən olan işlərdir.

Sözlərin etimoloji izahının elmi əsaslar üzərində aparılması elmi etimologiyanın əsas tələbidir. Elmi etimologiyadan başqa, xalq etimologiyası da vardır. Xalq etimologiyası xalqın hafizəsinə, yaddaşına, biliyinə əsaslanmaqla aparılan etimologiyadır. Burada bəzən ehtimallar, təhriflər də az olmur. Xalq etimologiyasında forması, mənası bizə yaxşı tanış olmayan sözlər təhrif olunur, bu da nəticə etibarilə tamamilə təsadüfi olan bir izahata gətirib çıxarır. Xalq etimologiyası çox vaxt məntiqsizliyə, cəfəngiyyata meydan açır. Etimologiyanın bu növü təsadüfi oxşarlıq, səs uyğunluğu, anlaşılmayan hər hansı bir sözün təhrif yolu ilə mənalandırılması nəticəsində yaranır. Bu, daha çox savadı az olan adamların danışığında baş verir. Məsələn: *pasport* əvəzinə *başburt, başbilet*, *qrafinya* əvəzinə *qrafingə* işlədilməsi buna misal ola bilər.

Azərbaycan dilindəki bəzi sözlərin elmi etimologiyasına diqqət yetirək:

*Ata.* Bu söz *at//ad* (ad mənasında) isminə *–a* (adlardan feil düzəldən) şəkilçinin qoşulması ilə yaranmışdır və «ad verən», «ad vermək» mənasını ifadə etmişdir.

*Ana.* Bu söz anmaq (yada salmaq), anlaq, anlamaq sözlərində qorunmuşdur. – *a* isə şəkilçidir. Ana «an verən», «anlaq verən» deməkdir.

*Sağdış.* Toy adət-ənənələrimizlə bağlı olan bu sözün etimologiyası barəsində iki fikir mövcuddur:

1) *Sağ* və («tərəf», «yön» mənasında olan tuş sözünün fonetik dəyişikliyə uğramış dış hissəsi) *düş* hissələrinin birləşməsindən yaranmışdır.

2) *Sağ* və («xaric, bayır» mənasında olan dış// dışarı hissələri) *dış* hissələrinin birləşməsindən yaranmışdır.

*Soldış.* Bu sözün etimologiyası da sağdış sözünün etimologiyası ilə uyğundur:

1) *Sol* və («tərəf», «yan» mənasında olan) *dış* hissələrinin birləşməsi.

2) *Sol* və («xaric, bayır» mənasında olan) *dış* hissələrinin birləşməsi**.**

*Damğa.* Bu söz dağ (dağ basmaq) və *–ma* şəkilçisinin birikməsindən formalaşmışdır. Səslərin yerdəyişməsi nəticəsində *dağma* sözü *damğa* şəklinə düşmüşdür.

*Altmış*. Bu söz *altı* və vaxtilə «on» mənasında olan *mış* sözlərinin birləşməsindən əmələ gəlmişdir: altı on deməkdir.

*Yetmiş*. *Yeddi* və vaxtilə «*on*» mənasında olmuş *miş* sözlərindən yaranmışdır: yeddi on deməkdir.

*Səksən*. Bu söz *səkkiz* və *on* sözlərinin birləşməsindən formalaşmışdır: səkkiz on deməkdir.

*Doxsan*. *Doqquz* və *on* sözlərindən yaranmışdır: doqquz on deməkdir.

# Onomalogiya

## AZƏRBAYCAN ONOMASTİKASI

*Dilin lüğət tərkibində olan xüsusi sözlərin məcmusuna onomastika deyilir*. Onomastikadan bəhs edən dilçilik şöbəsi isə *onomalogiya* adlanır. *Onoma* «ad», *logos* isə «təlim, elm» deməkdir. Deməli, yunan mənşəli bu söz ad haqqında elm anlayışını ifadə edir.

Onomalogiya dilçiliyin gənc sahəsidir. Bu sahədə öyrənilən onomastik vahidlər aşağıdakı baxımdan əlverişlidir:

1. Onomastik vahidlərin öyrənilməsi dialektologiya, dil tarixi üçün maraqlı material verir.

2.Bu vahidlərin öyrənilməsi tarix, etnoqrafiya, coğrafiya elmləri üçün də gərəklidir.

Onomaloji tədqiqatlarda aşağıdakı istiqamətlərə diqqət yetirilməlidir:

1. Xüsusi sözləri araşdırmaq;
2. Xüsusi sözlərin mənşəyini müəyyənləşdirmək;
3. Xüsusi sözlərin quruluşunu, yaranma yollarını, mənasını, üslubi çalarlarını öyrənmək və s.

Onomalogiyanın coğrafiya, tarix, dilçilik və digər elmlərlə sıx əlaqəsi vardır.

Onomalogiyanın coğrafiya ilə əlaqəsinə gəldikdə qeyd etmək lazımdır ki, bu sahə ilə təkcə dilçilər deyil, həm də coğrafiyaçılar da məşğul olur. Məsələn: dilin onomastik siste-

minə daxil olan toponimləri dilçilərlə yanaşı, coğrafiyaçılar da tədqiq edirlər. Təsadüfi deyildir ki, toponimika ilə ilk dəfə məşğul olanlar sırasında tarixçi-coğrafiyaşünasların, səyyahların adı xüsusi olaraq səslənir: Anaksimandr, Heredot, Strabon, Xristofor Kolumb, Ameriqo Vespuçi, Magellan və s. Onomalogiyanın tarix elmi ilə də əlaqəsi vardır. Belə ki, hələ qədim qəbilələr, tayfalar öz yaşadıqları ərazilərə ad verməyə başlamışlar. Eyni zamanda çalışmışlar ki, verdikləri ad məzmunlu, dolğun, mənalı olsun. Elə buna görədir ki, hər bir tarixi dövrdə yaranmış adlar həmin tarixi dövrün özünəməxsus xüsusiyyətlərini əks etdirmişdir. Bununla yanaşı, qəbilələrin, tayfaların yaşadıqları ərazilərin təbiəti, etnoqrafiyası, siyasi, iqtisadi, mədəni həyatı verilən onomastik vahidlərdə öz əksini tapa bilmişdir. Tarixçilər qəbilələrin, tayfaların, xalqların, millətlərin, dövlətlərin siyasi, iqtisadi, mədəni etnoqrafik tarixlərini öyrəndikləri kimi,onların ad sisteminə də xüsusi diqqət yetirmişlər.

**Müasir Azərbaycan ədəbi dilinin onomastik sistemi.** Ədəbi dilimizin lüğət tərkibindəki sözlərin böyük bir hissəsi ümumi sözlərdir. Müəyyən qisim sözlər isə lüğət tərkibinin xüsusi sözləri kimi dilimizdə mövcuddur. Məhz bu cür xüsusi sözlər onomalogiyada öyrənilir və dilin *onomastik sistemi* kimi başa düşülür. Dilin onomastik sistemindəki sözlər quruluşuna görə üç yerə ayrılır:

1. *Əsli,* yaxud *sadə* xüsusi sözlər;
2. *Düzəltmə* xüsusi sözlər;
3. *Mürəkkəb* yolla düzələn xüsusi sözlər.

*1. Əsli,* yaxud *sadə xüsusi sözlər* bir kökdən ibarət olur. Məsələn: *Şəki, Bakı, Əli* və s.

*2. Düzəltmə xüsusi sözlər* söz kökünə şəkilçinin artırılması ilə yaranır. Məsələn: *Saatlı, Azadə, Qorxmaz* və s.

*3. Mürəkkəb yolla düzələn xüsusi sözlər* iki və daha artıq söz kökünün birləşməsindən yaranır. Məsələn: *Hacıqabul, Qazıməmməd, Sarıköynək, Nənəqız* və s. Mürəkkəb yolla yaranan xüsusi sözlərin böyük bir qismi I,II,III növ təyini söz birləşməsi əsasında yaranmışdır.

Onomastik vahidlər komponentlərin miqdarına görə də fərqlənir. Məsələn:

a) *birkomponentli – Şəki, Bakı, Azər* və s.;

b) *ikikomponentli – Ağdam, Məmmədhəsən, Səmədağa* və s.;

c) *üçkomponentli – Məmmədquluzadə, Əliquliyev* və s.

**Qeyd:** Adi sözlərdən, ümumi sözlərdən fərqli olaraq xüsusi sözlər (yəni, onomastik vahidlər) müxtəlif səbəblərdən tez-tez dəyişə bilər. Müqayisə edək: Nuxa – Şəki, Puşkin – Biləsuvar, Yelizavetopol – Kirovabad – Gəncə, Jdanov – Beyləqan, Qutqaşen – Qəbələ, Stepanakert – Xankəndi, Orconikidze – Suraxanı, Şamxor – Şəmkir, Lenin – Sabunçu, 26-lar – Səbayel, Kirov – Binəqədi və s.

**Onomastik leksikanın təsnifi.** Müasir Azərbaycan ədəbi dilindəki onomastik leksika aşağıdakı kimi təsnif olunur:

1. Antroponimlər
2. Etnonimlər
3. Toponimlər

4. Hidronimlər
5. Zoonimlər
6. Kosmonimlər
7. Ktematonimlər.

**Antroponimlər.** Antroponim sözü yunan mənşəli söz olub, şəxs, insan adı deməkdir. Antroponimləri öyrənən dilçilik bölməsi antroponimika adlanır. Burada şəxs adları ilə yanaşı, familiya, təxəllüs və ləqəblər də tədqiq olunur.

*Şəxs adları.* Şəxs adları mənasına görə aşağıdakı şəkildə qruplaşdırılır:

1. Ənənəvi adlar. Buraya dədə, baba, nənə adları daxildir. Məsələn: *Hacıkərim, Abdulla* və s.

2. Görkəmli və məşhur tarixi şəxsiyyətlərin adları. Məsələn: *Nizami, Füzuli, Nəbi, Koroğlu* və s.

3. Yer adları ilə əlaqədar olan şəxs adları. Məsələn: *Dağıstan, Yəmən, Misir, Altay, Tovuz* və s.

4. Su obyektlərinin adı ilə bağlı olan şəxs adları. Məsələn: *Araz, Dərya* və s.

5. Qiymətli daş-qaş adları ilə bağlı olan şəxs adları. Məsələn: *Almaz, Brilyant, Firuzə, Gövhər* və s.

6. Bitki adları ilə bağlı olan şəxs adları. Məsələn: *Lalə, Çiçək, Nərgiz, Yasəmən* və s.

7. Göy cisimlərinin adı ilə bağlı olan şəxs adları. Məsələn: *Günəş, Ulduz* və s.

8. Quş və heyvan adları ilə bağlı olan şəxs adları. Məsələn: *Durna, Kəklik, Maral, Ceyran, Aslan, Tovuz, Tərlan, Turac, Qumru, Laçın, Sona* və s.

9. Dini-mifoloji anlayışla bağlı olan şəxs adları. Məsələn: *Xəlil İsmayıl, Cəbrayıl, Əli, Yaqub, Allahverdi, Tanrıverdi, Ocaqverdi, Haqverdi* və s.

10. Qohumluq münasibəti bildirən sözlərlə bağlı olan şəxs adları. Məsələn: *Atababa, Ataxan, Baba, Qardaşxan, Babaxan, Bibixanım, Gülbacı, Ağabacı, Anaxanım, Nənəxanım* və s.

11. Güclülük, qüvvətlilik, mübarizlik, dönməzlik, yenilməzlik və s. keyfiyyətlərlə bağlı olan şəxs adları. Məsələn: *Aslan, Şiraslan, Qorxmaz, İgid, Dönməz, Çapar, Yenilməz* və s.

12. Arzu, istəklə bağlı olan şəxs adları. Məsələn: *Arzu, Dilək, Yetər, Bəsdi, Qıztamam, Qızyetər, Qızbəs* və s.

13. Vaxtilə titul bildirmiş sözlərlə bağlı olan şəxs adları. Məsələn: *Ağalar, Bəylər, Xanlar, Paşa, Ağa, Xan, Vəzir* və s.

14. Elə, obaya, yurda bağlılıqla əlaqəli olan şəxs adları. Məsələn: *Elyar, Elbəy, Elman, Elnur, Elsevər, Elxan, Elçin, Elcan, Elşən, Elşad* və s.

15. Apelyativ sözlərlə bağlı olan şəxs adları. Məsələn: *arzu – Arzu, aydın – Aydın, səadət – Səadət, ümid – Ümid, məhəbbət – Məhəbbət, kamil – Kamil, etibar – Etibar, şölə – Şölə* və s.

**Qeyd:** Ərəb və fars dillərinə aid *Arif, Kamil, Qədir, Rəhman, Rəhim, Kərəm, Pənah* və s. sözlər şəxs adları kimi işlənir. Eyni zamanda bu cür sözlər həm də ümumi sözlərdir. Belə sözlər Azərbaycan mənşəli sözlər sırasında da mövcuddur. Məsələn: *Dəmir, Polad, Daşdəmir* və s.

Şəxs adları quruluşuna görə sadə, düzəltmə və mürəkkəb olur.

*Sadə şəxs adları bir kökdən ibarət olur.* Məsələn: *Akif, Əli* və s.

Dilimizdəki sadə şəxs adları say baxımından daha üstünlük təşkil edir. Sadə şəxs adları əsasən isim və sifətlərlə ifadə olunur: *Çiçək, Yasəmən, Nabat, Şəkər, Şirin, Sarı, Qara* və s.

Azərbaycan dilinin lüğət tərkibinə başqa dillərdən daxil olmuş şəxs adları quruluşca sadə şəxs adları kimi qəbul olunur*: Emil, Tamara, Ellada, Artur, Ofelya, Telman, Feliks* və s.

*Düzəltmə şəxs adları* aşağıdakı şəkilçilər vasitəsilə əmələ gəlir:

-iyyə – Şəms(iyyə), Şükr(iyyə) və s.

-ış$^4$ – Baxış, Göyüş, Dönüş, Gülüş və s.

-lar$^2$ – Şahlar, Bəylər, Xanlar, Ağalar və s.

-ar$^2$ –Yaşar, Sevər, Yanar, Anar, Sonar, Gülər, Yetər və s.

-ə – Arifə, Ramizə, Azadə, Zahidə və s.

-dıq, - dik, -k –Tapdıq, Sevindik, İstək və s.

-maz – Solmaz, Qorxmaz, Dönməz və s.

-baz – Şahbaz.

- süm – Gülsüm.

- mış$^4$ – Qalmış, Bilmiş, Toxtamış, Tərmiş, Sərmiş və s.

- üstan – Gülüstan.

- çı$^4$ – Elçi, Dəmirçi, Yolçu, Qorçu, Ovçu və s.

- il$^4$ – Sevil və s.

- ı$^4$ – Şirvani, Ağası, Ağasi, Dostu, Səbri və s.

- gər, - gir – Zərgər, Cahangir və s.

- qın, - kin, - qun, - kün; - ğın, -gin, - ğun, - gün – Vurğun, Gülgün, Daşqın, Coşqun, Ötkün, Küsgün və s.

- ım$^4$ – Bəyim, Xanım, Gülüm və s.

- lı$^4$ – Uğurlu, Binəli, Zərbəli, Vəfalı, Səfalı, Davalı, Telli, Güllü, Atalı, Nazlı, Ballı, Xallı, Saçlı və s.

- lıq$^4$ – Şənlik, Düzlük, Şadlıq və s.

- ca$^2$ – Ağca, Balaca, Qaraca, Bircə, Sarıca və s.

- daş – Yoldaş, Sirdaş, Vətəndaş, Qardaş və s.

- çin, - çın – Elçin, Gülçin, Yalçın və s.

- aş$^2$, - ş – Günəş, Balaş, Nənəş, Anaş, Atəş, Qaraş və s.
- can$^2$ – Anacan, Atacan, Babacan, Əlican və s.
- il, - inc, - da – Sevil, Sevinc, Sevda.
- gi, - li – Sevgili.
- man – Elman, Dilman, Əhliman, Şadman və s.
- mar – Elmar, Yelmar, Şahmar və s.
- dar – Vəfadar, Eldar, Dildar, Kamandar, Ələmdar və s.

Mürəkkəb şəxs adları ən azı iki komponentdən ibarət olur. Onların yaranmasında üç əsas üsul özünü göstərir:

1. Müstəqil mənalı iki ümumi söz birləşərək mürəkkəb şəxs adları əmələ gətirir: xan+oğlan→Xanoğlan, ata+kişi→ Atakişi, daş+dəmir → Daşdəmir, kiçik+bəy →Kiçikbəy, gül+çöhrə →Gülçöhrə, ay+sel →Aysel və s.

2. Bir ümumi sözlə sadə bir antroponim birləşərək mürəkkəb şəxs adı əmələ gətirir: ağa + Baba→Ağababa, Məmməd+xan→Məmmədxan, qız+Yetər→Qızyetər, Xanım+ ana→Xanımana və s.

3. İki sadə antroponim birləşərək mürəkkəb şəxs adı əmələ gətirir: Məmməd+Həsən→Məmmədhəsən, Həsən+ Ağa →Həsənağa, Əli + Musa→Əlimusa, Əli + Abbas→ Əlabbas, Məmməd + Əli →Məmmədəli və s.

İslam dininin qəbulundan sonra ad sistemimizdə dəyişiklik yaranmış, xüsusilə, mürəkkəb şəxs adları dini müqəddəslərin adlarının birləşməsi ilə də əmələ gəlmişdir. Mürəkkəb şəxs adlanının tərkibində *Məmməd, Əli, Hüseyn, Həsən, Musa, İsa, Əbdül* və s. kimi dini adlar, o cümlədən dini məzmunlu hacı, seyid, mir, haqq, allah, tanrı sözləri də aparıcı tərəf kimi çıxış etmişdir: *Məmmədağa, Qulaməli, Əliağa, Hüseynqulu, Həsən-*

*ağa, Musaqulu, İsaqulu, Əlisa, Əbdülkərim, Əbdülrəhman, Hacımurad, Seyidağa, Mirələm, Haqverdi, Allahverdi, Tanrıverdi* və s.

Mürəkkəb şəxs adlarının tərkibində sinfi məzmunlu ağa, bəy, xan, şah, xanım, bəyim, əmir (məs.: Ağaxan, Bəybala, Xanağa, Şahmərdan, Gülxanım, Güllübəyim, Əmirxan və s.), qohumluq bildirən ana, bacı, nənə, ata, dədə, baba, qardaş, bibi (məs.: Anaxanım, Ağabacı, Ataxan, Dədəbəy, Babaxan, Qardaşxan, Bibixanım və s.), cins bildirən qız, oğlan, kişi (məs.: Qızbəs, Xanoğlan, Ağakişi və s.), sıra bildirən böyük, kiçik, bala, balaca (məs.: Böyükkişi, Kiçikxanım, Balabacı, Balacaxanım və s.), abstrakt məzmunlu sənəm, pəri, mələk, hürü və s. sözlər (məs.: Gülsənəm, Gülpəri, Mələkxanım, Hürüxanım və s.) aparıcı komponent kimi mühüm rol oynayır.[1]

Antroponimlərin dildə istifadə olunmasının aşağıdakı formaları vardır:

1. Antroponimlərin dörd üzvlü (familiya, ad, ata adı və qohumluq bildirən söz) formasından istifadə etmək qaydası. Məsələn: *Əliyev Məmməd Qulu oğlu.*

2. Antroponimlərin üç üzvlü (ad, ata adı və qohumluq bildirən söz) formalarından istifadə etmək qaydası. Məsələn: *Yusif Səmədoğlu, Vaqif Səmədoğlu*. Bu qaydadan daha çox şair və yazıçılar istifadə edirlər.

3. Antroponimlərin iki üzvlü formalarından istifadə etmək qaydaları. Məsələn: *Xəlil Rza, Rəsul Rza, Süleyman Rüstəm* və s.

[1] Düzəltmə və mürəkkəb şəxs adları barəsində bax: N.Xudiyev. Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı. Bakı, 2005. s. 93-104.

4. Antroponimlərin bir üzvlü formasından istifadə etmək qaydası. Məsələn: *Anar, Elçin* və s.

Antroponimlər *kişi* və *qadın* adı olmaqla iki yerə ayrılır:

1. Kişi adları – Ənvər, Rəsul, Şahin və s.

Azərbaycan dilində cins kateqoriyası olmadığından kişi adları qadın adlarından öz semantikasına görə fərqlənir. Burada belə bir qanunauyğunluq vardır ki, güclü heyvan və quş adları kişilərə, zərif heyvan və quş adları isə qadınlara verilir. Yeri gəlmişkən onu da qeyd edək ki, dilimizdəki şəxs adları apelyativ mənalı sözlər olmuşdur. Həmin apelyativ sözlər şəxs adı olandan sonra onomastik leksikaya daxil olmaqla xüsusi ada çevrilmişdir. Məsələn: güclü heyvan və quş adlarından yaranmış kişi adları: *Aslan, Şiraslan, Bəbir, Şahin* və s.; zərif heyvan və quş adlarından yaranmış qadın adları: *Kəklik, Durna, Turac, Tovuz, Göyərçin, Ceyran, Maral* və s.

Azərbaycan dilində oğlan, kişi, baba, ata, qardaş, əmi, dədə və s. sözlər kişi adlarının tərkibində işlənir, cins anlayışını yaradır: *Güloğlan, Balakişi, Xanbaba, Atabəy, Qardaşxan, Bəyəmi, Dədəbəy* və s.

2. Qadın adları – Xumar, Bəsti, Lətifə və s.

> **Qeyd:** Şəxs adları içərisində elələri vardır ki, onlar həm kişilərə, həm də qadınlara verilir: Tərlan, Ulduz, Şücaət, Arzu, İzzət, Şirin, Şövkət, Şəfaət, Xavər, Məhəbbət, Afət və s.

Dildə şəxs adlarının müştərək işlənməsinin səbəbləri vardır. Belə ki, valideynlər müştərək adlardan istifadə edərkən onların düzəldiyi apelyativlərin məna incəliyinə əhəmiyyət

vermirlər. Ona görə də hər hansı bir rayonda oğlan adı kimi istifadə olunan ad başqa bir rayonda qız adı kimi işlənir.

Müştərək adların meydana gəlməsinin səbəblərindən biri kimi türk dillərində cins kateqoriyasının olmaması da əsas götürülür. Belə hesab olunur ki, türk dillərində cins kateqoriyasının olmaması müştərək adların həm qadınlara, həm də kişilərə verilməsinə geniş imkan yaratmışdır.

Qədim türklərlə tarixi şəxsiyyətlərin müştərək adlarına da təsadüf olunur. Məsələn: Sara xatun (Ağqoyunlu hökmdarı Uzun Həsənin anası) – Saru xan (XII əsr Konya səlcuqlarının bəylərindən biridir), Yağmaxan (Oğuz xan zamanında Gəşmir xanı olan bir zatın adıdır) – Yağmanaz (Çin xaqanının qızıdır. Əski İran şahlarından Bəhram Gurun qadını), Turxan (II Sultan Murad xan zamanında yaşayan bəylərdəndir) – Turxatun (Teymur Gürganinin ilk xatunu) və s. Lakin qeyd olunan faktlardan göründüyü kimi, bu qəbildən olan müştərək adlarda adın qadın və kişiyə aid olduğunu bildirən titul və ya sözlərdən istifadə edilmişdir. Müqayisə et: Saru xatun-Saru xan, Yağmaxan-Yağmanaz, Turxan-Turxatun və s.

Qadın adları həm semantikası baxımından, həm də miqdarca kişi adlarından bir neçə dəfə çoxdur. Bunun səbəbi onunla bağlıdır ki, qadın adları incəlik, zəriflik, nəciblik, gözəllik və s. keyfiyyətlərlə kişi adlarından fərqlənir. Məs.: *Ceyran, Maral, Göyərçin, Qızılgül, Çiçək, Reyhan, Bənövşə, Nərgiz* və s.

Qadın adları kişi adlarından öz semantikasına (məs.: Aytən, Aynur, Qəmər, Mehparə və s.) və qohumluq məzmunu bildirən nənə, ana, bacı, xanım, qız və s. sözlərin iştirakına görə fərqlənir: *Nənəxanım, Nənəqız, Anaxanım, Xanımana, Xanbacı, Ağabacı, Qızxanım* və s.

Azərbaycan adlarının tərkibcə sırası belədir: əvvəlcə şəxsin adı, sonra atasının adı, nəhayət, familiyası.

*Adların yaranması.* İnsanlar nitqə yiyələndikdən sonra ad yaratmağa başlamışlar. Bu mənada adlar bizə babalarımızdan qalmışdır. Lap qədim dövrlərdə hər bir şəxsin konkret, fərdi adı olmuşdur. Yəni bir adı yalnız bir nəfər daşımışdır. Bibliyada 2800 şəxs adı işlədilmişdir. Bu kitabda adlar təkrar olunmamışdır. Bir adın bir neçə şəxsə verilməsi sonrakı dövrə aiddir. İlk dövrlərdə adlar nə ümumi, nə də xüsusi olmuşdur. Məsələn: azərbaycanlılarda çəmən, çiçək, bənövşə və s. tipli sözlər həm ümumi, həm də xüsusidir.

İslam dininin yayılması və ərəblərin istilasından sonra türk adlarına ciddi təsir göstərilmişdir. Bu təsir nəticəsində Azərbaycan dilində ərəb və qədim yəhudi mənşəli adlar işlənməyə başlanmışdır. Məsələn*: İsmayıl, İbrahim, Musa, İsgəndər, Fatma, Züleyxa, Ayişə, Məhəmməd* və s. Hətta müsəlmanlığın *sünni* və *şiə təriqətinə bölünməsi***,** *sünni və şiə* adları da əmələ gətirmişdir. Məsələn: *sünni* adları – Ömər, Osman, *şiə* adları – Əli, Məhəmməd və s. Azərbaycan dilində həm milli adlar, həm də ərəb, yəhudi, avropa mənşəli adlar vardır. Ancaq elə xalqlar var ki, onların milli adı yoxdur. Məsələn: fransızlarda demək olar ki, fransız adına təsadüf olunmur. Onlardakı adların hamısı katolik adıdır.

*Advermə.* Advermədə adın qısa və asan olması, gözəl səslənməsi, zərifliyi və mənalı olması nəzərə alınmalıdır. İnsanlara ad verərkən müxtəlif meyarlar, ölçülər, prinsiplər nəzərə alınmışdır. Türk xalqlarında VII əsrdən XX əsrin 30-cu illərinə qədər islam dini ilə əlaqədar ərəb adlarının verilməsi əsas yer tutmuşdur. XX əsrin 40-cı illərində valideynlər uşaqlarına avropasayağı ad qoymağa başlamışlar. Bu, bəzən

moda şəklini almış və qondarma bir xarakter daşımışdır. Məsələn: *Elvina, Elvira, Elita, Elfrida, Esmira, Canna, Esmiralda, Canita* və s.

1950-ci illərdən başlayaraq mağazalara, restoranlara, kafelərə şəxs adlarının verilməsi meyli artmışdır. Daha çox «Sevil», «Sevinc», «Nərgiz», «Lalə» və s. adlarından istifadə olunmuşdur. Halbuki, bu adların verilməsi düzgün deyil. Bu proses indi də davam etdirilir.

Azərbaycanda ad qoymanın tarixi çox qədimdir. Belə ki, «Kitabi – Dədə Qorqud» dastanları bir daha təsdiq edir ki, bizdə tarixən ad qoymaq ənənəsi olmuşdur. İnsanlara qəhrəmanlığına, şücaətinə, cəmiyyətdəki mövqeyinə görə ad verilmişdir. «Kitabi – Dədə Qorqud» dastanlarına əsasən demək olar ki, qədim türklərdə ad yaşa görə verilmişdir. Ona görə də hər adamın üç adı olmuşdur: uşaqlıq, cavanlıq, qocalıq dövründə verilmiş adlar.

L.N.Qumilyev «Qədim türklər» kitabında yazır ki, qədim türklər avropalılardan fərqli olaraq ömür boyu bir ad daşımamışlar. Türklərin cəmiyyətdəki mövqeyi, nüfuzu ilə onların adı arasında bir əlaqə mövcud olmuşdur. Belə ki, türklər uşaq ikən ləqəb, gənclik dövründə rütbə, çin, böyüdükdən sonra isə titul daşımışlar. Müqayisə üçün qeyd edək ki, çinlilərdə və koreyalılarda yaşa görə verilmiş adların dəyişməsi indi də yaşayır. Məsələn: çinlilərdə adın əsas növü aşağıdakılardır:

1. *Syao* uşağa doğulanda verilən addır, mənası əzizləmədir.

2. *Min* əsas ad sayılır. Bu əsas adı uşağa ya valideyn, ya da müəllim verir.

3. *Zzi* həddi – buluq adıdır.

4. *Xao* ləqəbdir. Ləqəbi ya uşağın özü seçir, ya da ona dostları verir.

5. *Şi* fəxri addır.

Çinlilərlə müqayisədə koreyalılarda adın əsas növü aşağıdakılardır:

1. *Amen* uşağa körpə ikən verilən addır.

2. *Kvanmen* həddi-buluğa çatanda verilən addır. Yəni *Amen* adı *Kvanmenlə* əvəz olunur.

3. *Çjo* adı evlənəndən sonra ada əlavə olunur.

4. *Xo* sözü dövlət xidmətində və ədəbi fəaliyyətdə olanların adına əlavə olunur.

Ad vermə zamanı bəzən bayramlarda doğulmuş uşaqlara həmin bayram ilə bağlı ad qoyulmuşdur. Məsələn: *Novruz, Qurban, Oruc* və s. Bəzən isə övlada olan ümid, istək, arzu ilə bağlı adlar verilmişdir*: Ümid, Tapdıq, Həsrət, Arzu, Dursun* və s. Bundan başqa, dilimizdə Bəsti, Yetər, Qızbəs, Qızyetər, Tamam, Kifayət və s. tipli adlar da yaranmışdır ki, bu da müəyyən ənənələrlə bağlı adlardır.

Dini inamlar və adət-ənənələrlə bağlı olaraq «qoruyucu adlar»dan da istifadə olunur. «Qoruyucu adlar»a çox vaxt «yalançı adlar», «aldadıcı adlar» da deyilir. Bu qəbildən olan adlar ikiadlılıq yaradır.

«Qoruyucu adlar» zərurət, ehtiyacla bağlı olaraq yaranır. Belə ki, ailədə uşağı şər qüvvələrdən qorumaq üçün ona əsl addan başqa, qeyri-səsli ikinci bir ad da verilir. Burada məqsəd ondan ibarət olur ki, guya şər qüvvələr uşağa yaxınlaşanda çaşsın və ona xətər yetirə bilməsin. Məsələn: M.Ə.Sabirin oğlu Məmmədsəlimin adı belə adlardandır. Məmmədsəlim Tahirzadənin özünün dediyinə görə, onların ailələrində oğlan uşaqları öldüyü üçün şər qüvvələri aldatmaq məqsədilə yenicə

doğulmuş uşağa Məmməd və Səlim adları verilmişdir. Dost-tanış, qohum-qardaş, yaxınlar, valideynlər doğulmuş oğlan uşağını ya Məmməd, ya da Səlim kimi çağırmışlar. Sonralar bu iki ad birləşmiş və Məmmədsəlim halında rəsmiləşmişdir.

«Qoruyucu adlar»dan digər türk xalqlarında da istifadə olunur. Yeni doğulmuş uşaqları şər qüvvələrdən qorumaq üçün qazaxlarda Tursın, Toxtasın, Toxtamış, İtalmaz, İtbay, Küçükbay, türkmənlərdə Tursun, Turdı, Yetər, özbəklərdə Tursın, Toxta, kumıklarda Kasın, Ölməz və s. adlardan istifadə olunmuş, indi də istifadə olunmaqdadır.

Şəxs adları mənşəyinə görə alınma və milli adlara bölünür. Alınma adlar: *Əhməd, Əli, Ömər, Hüseyn, Həsən, Məhəmməd, Qabil, Əkbər, Akif, Adil* və s. Milli adlar: *Qara, Sarı, İlkin, Sevil, Sevinc, Qorxmaz, Dönməz, Toğrul, Tuğra, Tural* və s.

Şəxs adları ümumi mənasına görə də iki yerə bölünür:

1. *Appelyativ mənası olanlar.* Məsələn: *Ataş, Adil, Vaqif, Qədir, Ziya, Kamil, Pəri, Sima* və s.

2.*Appelyativ mənası olmayanlar.* Məsələn: *Qəzənfər, Qulam, Əsəd, Muxtar, Fəridə, Cavid* və s.

***Familiya.*** Familiya latın sözüdür. Hər hansı şəxsin müəyyən ailəyə, nəslə mənsub olduğunu göstərən xüsusi rəsmi addır. Şəxsin ata-babasından qalma ailə adı familiya adlanır. Familiya deyəndə bir ailə və ya nəsil yada düşür. Familiya XI əsrlə bağlı formalaşan bir haldır. İlk familiya Şimali İtaliyada əmələ gəlmişdir. Qədim Romada familiya sözü ailə təsərrüfatı, hüquqi mənada işlədilmişdir. Bu söz romalılarda qullara aid olmuşdur. *Familus* sözü «ev qulu», *familiya* isə bir adama məxsus qulların toplusu deməkdir. Bu söz ingilislərdə XI, almanlarda XIII, danimarkalılarda XV-XVI əsrlərdə geniş

yayılmışdır. Türkiyədə familiya Mustafa Kamal Atatürkün dekretinə əsasən 1926-1934-cü illərdə işlədilmişdir.

XIX əsrə qədər azərbaycanlılarda ad, ləqəb, təxəllüs olmuşdur. Yəni familiyadan istifadə olunmamışdır. Məsələn: Nizami *Gəncəvi*, Məhəmməd *Füzuli*, İmadəddin *Nəsimi*, Molla Pənah *Vaqif*, Nəsrəddin *Tusi* və s. İlk Azərbaycan familiyaları XIX əsrdə yaranmışdır.

XIX əsrə qədər, Azərbaycanda familiyadan istifadə olunana qədər hər hansı ailəyə, nəslə, tayfaya mənsubluğu bildirən və familiya rolunda çıxış edən sözlərdən istifadə olunmuşdur. Bu mənada «evi» sözü hər hansı bir şəxsin mənsub olduğu ailəni, tayfanı bildirmişdir. Məs.: Mehdiyevin Alısı, Hacıyevin Vəlisi, Əlləzevin Aydını, Quşqıranların İsası (Quşqıran oğlu İsa), Xarratların Mahmudu (Xarrat oğlu Mahmud) və s.[1] Hal-hazırda danışıq dilində belə bir model özünü qoruyub saxlayır.

Orta əsrlərə qədər və ondan sonrakı dövrlərdə «oğlu» sözü familiya yerində işlənmişdir. Bu, «Kitabi Dədə Qorqud» dastanlarında öz izini qoruyub saxlamışdır: Dirsə xan oğlu Buğac, Ulaş oğlu Salur Qazan, Bayburanın oğlu Bamsı Beyrək, Duxa Qoca oğlu Dəli Domrul və s.[2]

«Kitabi-Dədə Qorqud» dastanlarında şəxslərin adı ata adı ilə təqdim olunur. Məsələn: Baybecan bəy qızı Banu Çiçək, Xan qızı boyu uzun Burla xatun, Qazan oğlu Uruz bəy, Dirsə xan oğlu Buğac, Qanlı Qoca oğlu Qanturalı, Uşun Qoca oğlu Səkrək, Ulaş oğlu Qazan bəy, Qəflət Qoca oğlu Şirşəmsəddin və s.

---

[1] M.H.Çobanov. Osnovı Azerbaydjanskoy antroponimiki. Bakı, 1995, s.49.
[2] Yenə orada.

**Qeyd:** Ruslarda da familiya gec yaranmışdır. Hələ İvan Qroznının dövründə Rusiyada familiya yox idi. Müxtəlif xalqlarda familiya göstəricisi müxtəlifdir. Məsələn: Almanlarda *man* (Telman, Protman), İngilislərdə *son-zon* (Dikson), Şotlandiyada *mak* (Mak Nebe), Ruslarda *ov* (İvanov), Gürcülərdə *ur, dze, şvili, ia, ian, va, el* (Makaradze, Cikia, Dadiyani …) və s.

Azərbaycan dilində qadın və kişi familiyaları aşağıdakı göstəricilərin köməyi ilə yaranır. Kişi familiyaları: *-lı*[4] –Rəhimli, Mürşüdlü, *-ov(-yev)* – Əliyev, Hacıyev, *-zadə* – Həsənzadə, *oğlu* – Əlioğlu, Səmədoğlu, *-ski* – Şıxlınski. Qadın familiyaları: *-ova(yeva)* – Əliyeva, *-skaya* – Şıxlınskaya, *-ski* – Şaxtaxtinski, *qızı* – Əliqızı və s.

Familiyalar kişi, qadın adlarına və şəxs adı kimi işlənməyən sözlərə müvafiq şəkilçilərin artırılması ilə yaranır.

Azərbaycan dilindəki familiyalar kişi adlarına müvafiq şəkilçilərin və sözlərin qoşulması yolu ilə formalaşır: *Muradlı, Əhmədoğlu, Quluzadə, Gəncəvi, Şirvani, Səlyani* (ərəb dilinə məxsus -i, - vi şəkilçiləri ilə düzəlmiş bu familiyalar XIX əsrə qədər işlənmişdir) və s.

Az da olsa, qadın adlarından da familyalar əmələ gəlir və işlənir: *Qızbəsov, Mürvətov, Nabatov, Yetərov, Xatınov (Bakıda); Qaragözov, Mürvətov (Şəkidə); Gülüşov, Hədiyyəyev, Alagözov, Nurcahanov, Gözəlov, Mədinəyev (Sabirabadda)* və s.

Şəxs adı kimi işlənməyən sözlərə şəkilçinin qoşulması ilə əmələ gəlmiş familiyalar, demək olar ki, Azərbaycanın əksər rayonlarında işlənir: *Axrıyev, Cidalayev, Ağşov, Niftiyev,*

*Verdiyev, Daşdıyev, Diyarov, Mazanov, Qaraşov, Qanqalov (Bakıda), Harınov (Göyçayda)* və s.

Azərbaycan dilində familiya düzəldən morfemlərin milliləşməsi dilimizin təbiəti üçün də olduqca uyarlıdır. Belə ki, - zadə şəkilçisi fars dilindən dilimizə keçmişdir. Bu şəkilçi dilimizdəki ahəng qanununu pozur. Eyni zamanda -*ski, -skaya,* -*ov,* -*yev* şəkilçiləri isə dilimizə rus dilindən keçmişdir. Bunların içərisində *-ski,* -*skaya* şəkilçilərində iki samitin yanaşı gəlməsi dilimizin fonetik quruluşu üçün xas deyildir.

Azərbaycan dilində familiya əmələ gətirən morfem kimi «soylu», -*$lı^4$, oğlu, qızı* morfemlərindən istifadə olunması daha məqbuldur.

Azərbaycan dilində milli soyadlarımızın təkmilləşməsində və istifadəsində aşağıdakı usullar daha məqsədəuyğundur.

1. -*$lı^4$* şəkilçili familiyalar: *Eldar Nəsibli, Vaqif Yusifli, Fərman Eyvazlı, Firuzə Məmmədli* və s.

2. Soyadı düzəldən morfoloji göstərici olmadan: *Həmid Abbas, Musa Yaqub, Zahid Xəlil, Zeynal Xəlil, Tofiq Bayram, Fikrət Sadıq, Fikrət Qoca* və s.

3. Ata adı soyadı yerində işlənir və ata adında oğul, qız sözü işlənir: *Abbas Abdulla (yəni Abdulla oğlu), Afaq Məsud (yəni Məsud qızı), Vahid Əziz, Zahid Əziz, Hikmət Ziya* və s.

4. Ata adı soyadı yerində işlənir və oğlu sözü ilə birləşir: *Baba Vəziroğlu, Rafiq Yusifoğlu, Çingiz Əlioğlu* və s.

5. Ata adı soyadı yerində işlənir və -*lı* şəkilçisi ilə birgə: *Əliyar Yusifli, Mövlud Süleymanlı* və s.

6. Məkan adı olan sözlər soyadı yerində işlənir və -*lı* şəkilçisi ilə birgə: *Eyvaz Borçalı, Əkrəm Əylisli, Əliağa Kürçaylı, İbrahim Göyçaylı, İsmayıl Şıxlı, Seyfəddin Dağlı* və s.

7. Soyadı yerində işlənən sözə soylu sözü qoşulur: *Əhmədsoylu, Ənvərsoylu, Məmmədsoylu* və s. Bu üsul tətbiqinə ahtiyacı olan daha yeni üsuldur.

> **Qeyd:** Hər bir şəxsin bir soyadı olmalıdır. Buna baxmayaraq, XX əsrin 30-40-cı illərindən sonra rus ad sisteminin təsiri nəticəsində qoşa soy adlarından istifadə olunmağa başlamışdır. Belə ki, ərə gedən qadın həm öz qızlıq soyadını saxlaya bilər, həm də həyat yoldaşının soyadını qəbul edə bilər. Bu zaman qoşasoyadı yaranır. Bəzən qoşa soyadı irsi olaraq övladlara da keçir. Ancaq Azərbaycan antroponimikasında qoşa soyadları azlıq təşkil edir. Onu da qeyd edək ki, qoşa soyadları, əsasən, defislə yazılır.

***Təxəllüs.*** Təxəllüslər adlardan sonra işlənir. Püxtələşmiş şəxsin, rəssamın, şairin, yazıçının, alimin özü seçir. Məsələn: *Məhəmməd Füzuli (uzunçu), Molla Pənah Vaqif (xəbəri olan, bilən adam), Xurşudbanu Natəvan (gücsüz, zəif), Abbasquluağa Bakıxanov Qüdsi (müqəddəs), Abbas Səhhət (sağlamlıq), Abdulla Şaiq (şövqlü, həvəsli), Mikayıl Müşfiq (məhəbbətli, mehriban), Maksim Qorki (acı), Səməd Vurğun (vurğun)* və s. Təxəllüslər işlənmə dairəsinə görə iki cür olur:

1. Müvəqqəti təxəllüslər;
2. Daimi təxəllüslər.

Görkəmli yazıçıların bəziləri əsərlərində bir neçə təxəllüsdən istifadə etmişlər. Məsələn: Anri Beylinin (əsas təxəllüsü Stendaldan başqa) 200-ə, Volterin 160-a yaxın təxəllüsü olub. Azərbaycan yazıçılarında da belə hallar olmuşdur. Seçilmə baxımından təxəllüslər müxtəlif olur:

Şəxslərin doğulduğu yerlə bağlı təxəllüslər. Məsələn: Məmməd Səid *Ordubadi*, Seyid Əzim *Şirvani*, İsmayıl *Şıxlı* və s.

Zövqə görə seçilən təxəllüslər. Məsələn: *Səbuhi* (sabaha məxsus deməkdir), *Sabir* (səbirli), *Füzuli* (uzunçu) və s.

**Qeyd:** Təxəllüslərdən əlavə bəzən gizli imzalardan da istifadə olunur. Bu daha çox klassiklərimiz tərəfindən XX əsrin əvvəllərində istifadə olunmuşdur. Məsələn: Sabir «Hop-hop», «Güləyən», «Ağlar-güləyən», «İlan», «Tappıltı», «Boynuburuq», «Qardaşoğlu», «Qoca Əmi», «Qoca İranlı», «İran qurdu», «Yetim qızcıq», «Tükəzban Cici», «Molla cibişdanqulu», «Bir alim», «Qarınqulu», «Dindar», Məsləhətçi», «Obaşdançı», «Yarı könül», «Qoca bəy», «Cingöz bəy», «Palanduz», «Gözüyuxulu» və bu kimi digər 30-a yaxın gizli imzalardan istifadə etmişdir. C.Məmmədquluzadə «Cırcırama», «Zəli», «Dəli», «Cəfəng», «Sırtıx» və s. gizli imzalarla öz felyetonlarını yazmışdır.

Əli Nəzmi öz şeirlərini «Bikəs», «Əlidəyənəkli», «Həcəmətverdi», «Əli Məhəmmədzadə Sərdabi», «Məşədi Sijimqulu», «Kefsiz», «Sərsəri», «Qanacaqsız», «Şəmşir», «Şəmşirək», «Peşiman qoca», «Gəncə cavanları», «Şallax», «Qoca», «Zığ-zığ», «Papirosçəkən hekayəçi» və s. gizli imzalarla «Şərqi-rus»da, «Molla Nəsrəddin»də, «Zənbur»da və digər jurnallarda çap etdirmişdir.

Gizli imzalardan cəmiyyətdə açıq imza ilə çıxış etmək qorxulu olduğu dövrlərdə istifadə olunmuşdur.

M.S.Ordubadi «Hərdəmxəyal», «Səid», «M.Səid», «Səid Hacağazadə», «Felyetonçu», «Tat», «Lüt», «Masa», «Təəssübkeş» və digər gizli imzalardan istifadə etmişdir.

Təxəllüs də ləqəblər kimi köməkçi adlar qrupuna daxil olsa da, onların arasında aşağıdakı fərqlər mövcuddur:

a) təxəllüslər rəsmi adlardır, onlar şəxsin əsl adı ilə yanaşı eyni hüquqda rəsmiləşdirilir və işlədilir. Ləqəblər isə rəsmi adlar deyil, onlar şəxsin əsl adı ilə eyni hüquqlu olmur.

b) təxəllüsü şəxsin özü seçir. Ləqəblər isə şəxsə adamlar tərəfindən verilir.

c) təxəllüslər müstəqil mənalı adi sözlərdən götürülür və onların məcazi məna ifadə etməsi ilə işlənir. Ləqəblər isə insanlara zahiri görkəminə, xarakterinə, peşəsinə, məşğuliyyətinə və s.-yə görə verilir.

ç) təxəllüslər tanınmış adamlara, görkəmli şəxsiyyətlərə, ləqəblər isə tanınmasından, görkəmli adam olmasından asılı olmayaraq hər bir şəxsə verilə bilər.

d) təxəllüslərin bir qismi şəxs adlarına çevrilir: Füzuli, Şaiq, Vurğun, Sabir, Müşfiq və s, ləqəblər isə şəxs adlarına çevrilə bilmir.

e) təxəllüslər sayca az, ləqəblər isə çoxdur.

ə) təxəllüslər rəsmi, ləqəblər isə qeyri-rəsmi xarakter daşıyır.

f) təxəllüslərdən fərqli olaraq ləqəblər daha zəngin semantikaya malik olur.

g) təxəllüslərin bir çoxu rəsmi olaraq nəsildən-nəslə keçir, ləqəblər isə həmin ləqəbi daşıyan adamın özü ilə bağlı olur.

ğ) təxəllüslər başqa dilə tərcümə olunmur, ləqəblərin isə bir çoxu başqa dilə tərcümə olunur.

h) təxəllüslər müsbət məna kəsb etdiyi halda, ləqəblər müsbət və mənfi mənalara malik olur.

***Ləqəblər.*** Təxəllüslərdən fərqli olaraq ləqəblər insanlara peşəsinə, tutduğu mövqeyinə, vəzifəsinə, zahiri görkəminə, xarakterinə və s. cəhətlərə görə başqaları tərəfindən verilir. Bir sözlə, ləqəblər qeyri-rəsmi olur və məhəllə xarakteri daşıyır. Ona görə də ləqəblərin fərdi, ailəvi, nəsli və məhəlli növləri var. Ləqəblərin bu cəhətini nəzərə alaraq onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bir kənddə və nəsildə eyni adlı adamları fərqləndirmək üçün istifadə olunan ləqəblər. Məsələn: *Uzun Məryəm, Qara Məryəm, Balaca Məryəm, Xallı Məryəm, Daş Məmməd, Şəkər Məmməd, Tülkü Məmməd, Xaşıl Məmməd, Bic Məmməd, Boçka Məmməd* və s.
2. Xarici görkəmindəki qüsurlara görə verilən ləqəblər. Məsələn: *Çopur Məhərrəm, Qotur Məhərrəm, Tayqılça Kazım, Balaca Ziyəddin, Yekə Xıdır, Çopur Alı* və s.
3. Xasiyyətə, xarakterə görə verilən ləqəblər. Məsələn: *Qoçu Əsgər, Tənbəl Əhməd, Lotu Fərzəli, Yalançı Səbzəli, Kefli İsgəndər, Fərə Cəfər, Çürük Mehdi, Yetim Dadaş, Düzələr Əli, Qorxaq Murad və* s.
4. Peşəsinə görə verilən ləqəblər. Məsələn: *Dəllək Süleyman, Usta Vəli, Poçtalyon İsmayıl, Naxırçı Novruz, Dərzi Kamal, Dəmirçi Mehralı, Dülgər Nurəddin, Misgər Nəsib* və s.
5. Milliyyətinə görə verilən ləqəblər. Məsələn: *Kürd Musa, Kürd Mahmud, Gürcü Vəli* və s.
6. Doğulduğu yerə görə verilən ləqəblər. Məsələn: *Gümrülü Abbas, İlanlı Əkbər* və s.
7. Ailədəki münasibətə görə verilən ləqəblər. Məsələn: *İlk oğlan, Son beşik, Ortancıl oğlan, Böyük gəlin (böyük*

*qardaşın həyat yoldaşı), Kiçik gəlin (kiçik qardaşın həyat yoldaşı)* və s.

Yuxarıda qeyd etdiyimiz kimi, ləqəblər bəzən bütöv bir nəslə aid olar. Məsələn: *Gödəklər, Dulusçular, Dəmirçilər, Çuğullar, Şeytanlar, Qışqıranlar, Zurnaçılar, Palazlar, Ustalar, Saraclılar* və s.

**Qeyd:** Ləqəb sözü ərəb sözüdür, bir adamın əsl adından başqa ona verilən ikinci ad, ayama mənasındadır. Dialeklərimizdə ləqəb sözünün qarşılığı kimi ayama sözü işlənir. Ayama sözü el arasında ləqəb sözünün qarşılığı kimi istifadə olunur.

Ləqəblər insanın həyatının müxtəlif dövrlərində ona verilir. Bəzən elə olur ki, insan ona verilən ləqəbi müvəqqəti, bəzən isə daimi daşıyır. Məsələn: uşaqlıqdan verilmiş bəzi ləqəblər sonralar öz işləkliyindən qalır. Ancaq daimi ləqəblər insanları ömürlərinin sonuna qədər izləyir.

Bəzən ləqəblər dəyişkən xarakterli olur. Eyni bir şəxs dəyişkən ləqəbləri daşıyır: *İsgəndər Zülqərneyin, İsgəndər Rumi, İsgəndər Kəbir, Makedoniyalı İsgəndər, Buynuzlu İsgəndər.*

Bəzən isə qadınlara «kişi», kişilərə isə «qadın» sözü ləqəb kimi verilir: *Arvad Hüseyn, Arvad Əlləz, Kişi Pəri, Kişi Gövhər* və s.[1]

Azərbaycanın müxtəlif bölgələrində şəxslərə baməzə ləqəblər verilir. Ən xarakterik, baməzə ləqəblər Naxçıvan və Şəki ərazisində yayılmış olan ləqəblərdir. Bu ərazilərdəki ləqəblər daha çox dialektal səciyyə daşıyır. Məs.: Naxçıvanda: *Mıtı Əsəd, Dılış Vəli, Cigov Mamed, Çərçonboğaz Zəhra,*

[1] M.H.Çobanov. Osnovı Azerbaydjanskoy antroponimiki. Baku, 1995, s.98.

*Namo Rəcəb, Faqqili Əliş, Əpişi Valeh, Pırto Kazım, Dıqış Nüftalı* və s.

Ləqəbin tarixi çox qədimdir. Xalq tutarlı ləqəbləri sevir və onu daha çox istifadə edir. Bu mənada N.V.Qoqol «Ölü canlar» əsərində xalq ləqəbi barədə yazır: «Rus camaatı yaman tutarlı sözlər deyir! Əgər o, bir adama bir ləqəb versə, bu ləqəb onun cinsinə, nəslinə keçər, bu ləqəbi özü ilə qulluğa da aparar, istefaya çıxanda da, Peterburqa gedəndə də, hətta lap dünyanın o başına da! Sonra bu adam nə qədər kələk qursa da, öz ləqəbini nə qədər hörmətə mindirsə də, alçaq təbiətli dəftərxana adamlarına pul ilə öz nəslinin lap qədim knyaz nəslindən olduğunu yazdırsa da, heç bir şey çıxmaz: bu ləqəb hər yerdə qarğa kimi səsi yetdikcə qarıldar və aydınca göstərər ki, bu adam hansı yuvanın quşudur. Tutarlı deyilən bir söz – yazılı söz kimidir, onu balta ilə də kəsib atmaq olmaz!»

Ləqəblər şəxs adlarından fərqlənir. Onlar arasındakı fərqləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Şəxs adları rəsmi adlar olsa da, ləqəblər isə rəsmi adlar deyildir.

2. Şəxs adı insana verilən əsas addır. Ləqəblər isə insanlara verilən köməkçi adlardır.

3. Şəxs adı hər bir şəxsə verilir. Ləqəb isə hər bir adama verilmir.

4. Şəxs adları insanlara şərti olaraq verilir. Ləqəblər isə insanlara xarici görkəminə, xasiyyətinə, peşəsinə, doğulduğu yerə və s.-ə uyğun olaraq verilir.

5. Şəxs adları insanlara doğulduğu vaxtdan verildiyi halda, ləqəblər isə sonrakı dövrlərdə verilir.

6. Şəxs adlarının işlənmə dairəsi genişdir. Ona görə ki, hər bir şəxs ona verilmiş ad vasitəsilə cəmiyyətdə tanınır. Ləqəblər isə məhdud dairədə işlədilir.

7. Şəxs adları ilə ləqəblər kəmiyyət, miqdar baxımından da fərqlənir. Müqayisə üçün qeyd edək ki, şəxs adlarının sayı ləqəblərdən çoxdur.

8. Şəxs adlarında cins anlayışı nəzərə alınır. Ona görə də şəxs adları kişi və qadın adları olmaqla iki yerə bölünür. Ləqəblərdə isə cins anlayışına görə bölgü olmur. Ləqəb verilərkən şəxsin kişi və qadın olması nəzərə alınmır.

Şəxs adları ilə ləqəblər arasında az da olsa, oxşar cəhətlər də vardır: a) həm şəxs adlarını, həm də ləqəbləri insanlara kənar şəxslər verir, b) bəzi şəxs adları və eləcə də ləqəblər bənzətmə motivi əsasında yaranır, c) onların hər ikisi apelyativ mənalı sözlərdən əmələ gəlir.[1]

***Titullar və fəxri adlar.*** Titul sözü latın mənşəlidir, mənası «rütbə», «fəxri ad» deməkdir. Titullar şəxsin cəmiyyətdəki mövqeyi, nüfuzu barəsində məlumat verir. Titullar və fəxri adlardan bütün xalqlar istifadə edirlər. Hər bir xalqın özünəməxsus titul səciyyəli sözləri vardır. Məsələn: Polşada «pan», Almaniyada «baron», ingilislərdə «qraf», gürcülərdə «tavad», Rusiyada «dvoryan», «knyaz» sözləri və s. Azərbaycan xalqında da titul səciyyəli sözlər olub. Məsələn: *xan, bəy, paşa, sərdar, əmir, şah, sultan, yüzbaşı, onbaşı, kəndxuda* və s. Titullar içərisində keçmişdə vəzifə bildirən titullar xüsusilə seçilir. Vəzifə bildirən titullar dövlət aparatının müxtəlif peşələrində ancaq vəzifə daşıyan şəxslərə

[1] Ləqəblər barəsində bax: A.Paşayev. Azərbaycan dilində ləqəblər. Bakı, 1987; Ə.Mikayılova. Azərbaycan dilində ləqəblər (nam. diss. avtoreferatı). Bakı, 2001.

verilmiş və demək olar ki, irsi funksiya daşımışdır: *xaqan, xan, atabəy, bəy, tarxan, ağa, paşa, sultan, əmir, şah, padşah, axund, molla* və s. Vəzifə bildirən bu titullar vaxtilə Azərbaycanda geniş işlənsə də, indi işləklikdən düşmüşdür. Buna da çox təbii bir hal kimi baxmaq lazımdır. Ona görə ki, titullar dəyişir, yeniləri ilə əvəz olunur.

Titulların dilimizdə işlənmə tarixi Azərbaycan dilinin ən qədim və qədim dövrlərinə gedib çıxır.

Türk xalqlarında fəxri ad funksiyasında olan titullar geniş işlənmişdir. Yəni türk xalqlarında əsl adlar şəxsin qoçaqlığı, qəhrəmanlığı, igidliyi və s. ilə bağlı olduğundan onlar (əsl adlar) həm də fəxri ad funksiyasını da daşımışdır: *Oğuz xaqan, Qara xan, Bilgə xaqan, Bayandır xan, Qaraca çoban, Dəmirçi oğlu, Dəli Həsən* və s.

«Siyasətnamə» əsərinin müəllifi Əbu Əli Həsən «Xacə Nizamülmülk» titul və fəxri adı ilə tanınmışdır. Yaxud Əbu Cəfər Nəsirəddin Məhəmməd ibn Həsən Əbu Bəkr XIII əsrin ən güclü alimi kimi Xacə Nəsrəddin Tusi adı ilə məşhurlaşmışdır. Burada Xacə titul, Nəsrəddin dini fəxri ad, Tusi isə anadan olduğu yer kimi işlənmişdir.

Yeri gəlmişkən onu da qeyd edək ki, *xoca // xacə // qoca* titulu Orta Asiyada, Yaxın və Orta Şərqdə geniş yayılmışdır. Bu söz Azərbaycan folklorunda da geniş yayılmış titullardan biri kimi işlənir. Eyni zamanda Azərbaycan folklorunda xoca titulu «tacir, bəzirgan» mənalarını da daşımışdır. Bu titul əsl addan sonra və əvvəl gələ bilir. Xoca Nəsrəddin, Xoca Həsən, Sarı Xoca və s.

Xoca sözü «qoca, ər, həyat yoldaşı; cənab, yiyə, ağa; məktəbdə dərs deyən müəllim» mənalarında işlədilmişdir.

Hələ X əsrdə Sasanilər dövlətində meydana çıxmış bu titul sonralar daha geniş şəkildə yayılmağa başlamışdır. Bu qəbildən olan titullar XX əsrin 20-ci illərinə qədər arxaikləşmiş, işləklikdən düşmüşdür. Ancaq onlar əvvəllər daha çox işlənmişdir. Məsələn: Zeynalabdin Marağayinin «İbrahim bəyin səyahətnaməsi» əsərində «Mənsəb ləqəbləri» adı ilə 200-ə qədər titul, fəxri adlar verilmişdir.

İslama qədərki dövrdə türk xalqları türk dillərinə məxsus titullardan istifadə etmişdir. Ərəb xilafəti dövründə və nisbətən sonrakı dövrlərdə ərəb və fars dillərinə aid, daha sonrakı dövrlərdə isə avropa və rus dillərinə aid titullar Azərbaycanda geniş yayılmışdır. Bu mənada titulların mənşəyini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Türk dillərinə məxsus titullar: *xan, xanım, bəy, bəyim, ağa, xatun* və s.

2. Ərəb və fars dillərinə məxsus olan titullar: *şah, şahənşah, vəzir, vəkil, seyid, xəlifə, hacı, əmir* və s.

3. Avropa və rus dillərinə məxsus olan titullar: *imperator, kral, knyaz, baron, hersoq, knyagina* və s.

Titulları daşıdığı onomastik funksiyaya görə iki qrupa ayırmaq olar:

a) ümumi titullar, b) xüsusi titullar.

a) ümumi titullar şəxs adlarsız işlənən titullardır: *xan, xanım, bəy, əmir, seyid, paşa, vəzir* və s.

b) xüsusi titullar şəxs adları ilə işlənən titullardır: *Qazan xan, Əmir Teymur, İbrahim xan, Qasım bəy, Nadir şah, Şah İsmayıl* və s.

Titulların Azərbaycan dilində qədim tarixə malik olmasını atalar sözləri də təsdiq edir. Belə ki, dilimizdəki atalar

sözlərində titullar geniş işlənmişdir. Bu mənada atalar sözlərindəki titulları aşağıdaı kimi qruplaşdırmaq olar:

a) bəzi atalar sözlərində işlənmiş mürəkkəb şəxs adlarının komponentlərindən biri titullardan ibarət olur: «Hamı gedər quş gətirər, Xanalı II Şahqulu bayquş gətirər».; «Xana yaradı, bəyə yaradı, keçəl Xunbay sənə yaramadı?!» (Buradakı Xunbay sözü titullu uydurma addır və «xun» fars dilində qan deməkdir. Bu ada Azərbaycan dilində təsadüf olunmur).

b) bəzi atalar sözlərində əsl ad və titullardan ibarət olan tarixi şəxsiyyət adları işlənir: «Hər oxuyan Molla Pənah olmaz».

c) bəzi atalar sözlərində titullar şəxs adları ilə işlənir: «Qoyun olmayan yerdə keçiyə Kərəməddin ağa deyərlər», «Toydan sonra nağara, xoş gəldin Bayram ağa», «Adı Şeyx Qiyamal, özü qırışmal», «Kərbəlay Kazım, sənə demək nə lazım?», «Gözəl ağa çox gözəl idi, vurdu çiçək çıxartdı» və s.

ç) bəzi atalar sözlərində titullar şəxs adları olmadan işlənir: «Bəy verən atın dişinə baxmazlar», «Ağa ol, fərmanda ol!», «Qazı adama baxar, hökm yazar», «Abdal at mindi, özünü bəy sandı» (burada «abdal» sözü ərəb sözüdür, dərviş mənasını bildirir), «Ac bəydən tox it yaxşıdır» və s.[1]

Azərbaycan dilində bir sıra titullar hazırda öz əhəmiyyətini itirmişdir. Ona görə ki, həmin titulların işləndiyi cəmiyyət

1. Titullar barəsində bax: S.Hüseynova.Titulların funksiyaları.- Azərbaycan onomastikası problemləri, IV elmi-nəzəri konfransın materialları. Bakı, 1992,s.32-33; S.Hüseynova. Azərbaycan dilində titulların leksik xüsusiyyətləri.- Yenə orada. s.54-55; R.Əhmədova. Eyni titulun müxtəlif funksiyaları haqqında. - Yenə orada. s.83-84; S.Hüseynova. Atalar sözlərində titulların üslubi xüsusiyyətləri. – Yenə orada. s.88-89.

dəyişmişdir, ictimai quruluş yeniləşmişdir, Məsələn: *Paşa, Sultan, Vəzir, Sərdar* və s. titulları bu qəbildəndir.

Vaxtilə titul olan sözlər hal-hazırda Azərbaycan dilində aşağıdakı şəkildə işlənir:

a) şəxs adı kimi işlənir: *Paşa, Sultan, Seyid, Mirzə, Vəzir, Sərdar, Hacı, Vəkil* və s.

b) şəxs adının tərkibində işlənir: *Şahzadə, Şahvələd, Xanəli* və s.

c) şəxs adı iki titul bildirən sözün birləşməsindən ibarət olur: *Mirzəbəy, Seyidağa, Hacıxan, Mirağa, Əmircan* və s.

Titullar iki yolla verilmişdir:

*1) Dinlə əlaqədar;*

*2) Dövlət tərəfindən.*

1) *Dinlə əlaqədar verilən titullar.* Dini titulları verərkən dinə münasibət, din sahəsindəki vəzifə və s. nəzərə alınır: *molla, qazı, axund, məşədi* və s.

Hələ X əsrdə vəzifə adları ilə əlaqədar işlədilən ləqəblər fəxri titullar sayılmışdır. Məsələn: müsəlman icmasında Məhəmmədin dövründə ona Rəsullah (allah elçisi) deyə müraciət etmişlər. Sonra müsəlman icmasında Xalif Rəsululla (allah elçisinin müavini), XIII əsrdə Mollabaşı, XVII əsrdə Mirzəbaşı, XVIII-XIX əsrlərdə münəccimbaşı titulları da olmuşdur.

Əli Nəslinin davamçıları İranda imam titulu almışdır. Mədrəsələrdə şəriətdən dərs deyənlərə molla, baş ruhaniyə deyilmişdir. Şəriət hakimi qazı, Məhəmmədin xəlifələri Seyid adlanmışdır. Həmişə Məkkəyə gedənə hacı, Məşədə (Xorasana) gedənə məşədi, Kərbəlaya gedənə isə Kərbəlayi deyilmişdir.

Ləqəblərin məna və məzmunu dolğun olur, həm də ona görə yadda qalır. Mənası dolğun, məzmunlu olmayan sözün ləqəb kimi işlənməsi mümkün deyildir. Hər bir ləqəbin mənası vardır. Ləqəbin mənası ləqəb verilən şəxsin xarakterini, davranışını tam dəqiqliyi ilə təqdim edir. Məsələn: «farmazon» ləqəbi *frank mason // firəng mason // fra mason* cəmiyyəti ilə bağlıdır. Onların fəaliyyəti vaxtilə Fransada geniş yayılmışdır. Məqsədləri xalqın dünyagörüşünü, dərk etmə səviyyəsini yüksəltmək, eyni zamanda xalqın arasında elmi, maarifi təbliğ etməkdən ibarət olmuşdur. Azərbaycan dilində farmazon sözünün «ədalı, ədabaz» mənalarında işlənməsi bir daha bunu təsdiq edir. Son dövrlərdə dinlə əlaqədar titullar daha geniş yer tutur. Məsələn: *hacı, məşədi, seyid, axund, molla, mürşid, mürid, qazı, imam* və s.

2) *Dövlət tərəfindən verilən titullar.* Dövlət tərəfindən verilən titullar sırasında fəxri adlar da xüsusilə seçilir. Fəxri adlar şəxsin əməyinə, işinə, fəaliyyətinə görə verilir. Məsələn: *Xalq şairi, Əməkdar artist, Əməkdar müəllim, Xalq rəssamı, Əməkdar elm xadimi, Azərbaycanın Milli Qəhrəmanı* və s.

**Etnonimlər.** Etnonim yunan mənşəli sözdür. *Etnos* - xalq, *onoma* - ad deməkdir və xalq adı mənasında işlənir. Etnonimlər geniş mənada tayfa, xalq, millət adlarıdır. Məsələn: *Əfşar, Padar, Təklə, Çaxırlı, Bayat, Ağqoyunlu, Qaraqoyunlu, Qaşqay, Aynalı, Quşçu, Kəngərli, Şiraq* və s. Azərbaycan ərazisində dağ, yamac, təpə, dərə, düzən, çay və s. adlarının bir qismi müxtəlif tayfa adları ilə bağlıdır.

**Toponimlər.** Toponim sözü yunan sözüdür. *Topos* - yer, məkan, *onoma* - ad deməkdir. Toponimlər torpaqla bağlı

obyektlərin adını bildirən sözlərdir. Dilimizdəki toponimlər dil tərkibinə görə (mənşəyinə görə) aşağıdakı qruplara ayrılır:

*1. Azərbaycan-türk dillərinə mənsub olan toponimlər;*

*2. Ərəb və fars dillərinə mənsub olan toponimlər;*

*3. Rus dilinə mənsub olan toponimlər;*

*4. Qafqaz dillərinə mənsub olan toponimlər;*

*5. Monqol dilinə mənsub olan toponimlər.*

Toponimlər qədimliyinə və hansı tarixi dövrlərə aid olmasına görə də aşağıdakı qruplara bölünür:

1. Ən qədim toponimlər. Məsələn: *Aran, Alban, Manna, Midiya, Atropatena* və s.

2. Qədim toponimlər. Məsələn: *Azərbaycan, Bakı, Şəki* və s.

3. Yeni toponimlər. Məsələn: *Cəlilabad, Füzuli* və s.

4. Ən yeni toponimlər: *Yeni Günəşli, Əhmədli* və s.

Yeri gəlmişkən onu da qeyd edək ki, toponimlərin qədimliyinə və hansı tarixi dövrlərə aid olmasına görə onları iki qrupa ayırmışlar: paleotoponimlər (qədim toponimlər) və neotoponimlər (yeni toponimlər). Əslində bu təsnifat özünü doğrultmur. Ona görə ki, heç bir meyar olmadan ən qədim yazılı mənbələrdə, qaynaqlarda adı qeyd olunan toponimləri paleotoponim (qədim toponim), sonrakı dövrlərə aid yazılı mənbələrdə qeyd olunanları isə neotoponim (yeni toponim) adlandırmaq şərtidir. Toponimlər xalqın tarixi ilə sıx şəkildə bağlıdır. Ona görə də xalqın tarixini nəzərə alaraq toponimləri də tarixilik baxımından qruplara ayırmaq lazımdır. Bu mənada ən qədim, qədim, yeni, ən yeni toponimlər bölgüsü daha ağlabatandır.

1. *Ən qədim toponimlər.* Ən qədim toponimlər dedikdə eramızdan əvvəl mövcud olmuş toponimlər nəzərdə tutulur. Belə toponimlər ciddi fonetik, fonomorfoloji dəyişikliyə

uğradığı üçün onların ilkin formasını və mənasını bərpa etmək olduqca çətindir. Buraya *Naxçıvan, Təbriz, Alban // Albaniya, Qəbələ, Bərdə, Muğan, Aran, Midiya, Atropatena* və s. toponimləri misal göstərmək olar. Bu toponimlər ən qədim toponimlər olduğundan onların barəsində söylənilən fikirlər də müxtəlifdir.

2. *Qədim toponimlər.* Qədim toponimlər dedikdə bizim eranın I-XVII əsrlərində yaranmış toponimlər nəzərdə tutulur. Bu toponimləri şərti olaraq aşağıdakı dövrlərə bölmək olar: a) bizim eranın I-VI əsrlərində yaranmış toponimlər, b) VII-X əsrlərdə meydana gəlmiş toponimlər, c) XI-XVII əsrlərdə yaranmış toponimlər.

Qədim toponimlərə misal göstərmək olar: *Azərbaycan, Bakı, Şəki, Ağcaqala, Qarabağ, Gəncə, Bayandurlu, Dondarlı, Qaragünə, Kəpənəkçi, Bəydili, Ucar, Şamaxı, Salyan* və s.

3. *Yeni toponimlər.* Yeni toponimlər XVIII-XX əsrlərdə əmələ gəlmiş toponimlərdir. Onların böyük əksəriyyətinin yaranma tarixi, mənası məlumdur. Yeni toponimlərə misal göstərmək olar: *Yengicə, Yengibar, Yeniyol, Yenikənd, Yenigün, Cəlilabad, Füzuli, Aşağı Qumlu, Aşağı Uzunoba, Aşağı Noxudlu, Yuxarı Qışlaq, Aşağı Qışlaq* və s.

4. *Ən yeni toponimlər.* Ən yeni toponimlər son dövrlərdə əmələ gəlmiş toponimlərdir. Son dövrlərdə yeni yaşayış məntəqələrinin tikilməsi ən yeni toponimlərin yaranmasına gətirib çıxarır.

Toponimlər quruluşca sadə, düzəltmə və mürəkkəb olur.

*Sadə toponimlər: Alpaut (Bərdə, Qazax, Quba, Göyçay, Ucar, Laçın), Padar (Ağsu, Ağdaş, Oğuz, Dəvəçi, Xaçmaz), Xələc (Abşeron, İsmayıllı, Ucar, Salyan), Bucaq (Oğuz), Qacar (Füzuli)* və s.

*Düzəltmə toponimlər: Dondarlı (Qubadlı), Qaramanlı (Qubadlı, Yevlax), Yaqublu (Oğuz, Gədəbəy), Almalı (Qax, Daşkəsən), Almalıq (Kəlbəcər), Samanlıq (Gədəbəy), Ərəblər (Dəvəçi), Seyidlər (Xanlar, Xaçmaz), Şıxlar (Ağdam), Qışlaq (Şəki)* və s.

*Mürəkkəb toponimlər: Çaykənd (Şəki, Şuşa, Xanlar), Qalakənd (Gədəbəy), Qonaqkənd (Quba, Şamaxı); Xanlıqoba (Xaçmaz), Seyidqışlaq (Qəbələ); Atbulaq (Salyan), Qarabulaq (Qax, Oğuz, Gədəbəy), Göyçay, Dağ Cəyir (Şamxor), Dağ Kəsəmən (Qazax), Böyük tala (Tovuz)* və s.

Toponimlər əks etdirdikləri obyektin görünüşü və xüsusiyyətinə görə iki yerə bölünür:

1) Oronimlər;
2) Oykonimlər.

*1) Oronimlər* dedikdə dağ, dərə, təpə, aşırım, biçənək, çayır və s. yerlərin adları başa düşülür. Məsələn: *Bozdağ, Dəlidağ, Şahdağ* və s.

Oronimləri öyrənən toponimikanın bölməsi oronimika adlanır. Oronimika sözü yunan mənşəli oros və onoma (ad mənasında) sözlərindən əmələ gəlmişdir.

*2) Oykonimlər* isə yaşayış məntəqəsinin (yəni kəndlərin, qəsəbələrin, şəhərlərin, rayonların və s.) adını bildirir. Məsələn: *Bərdə, Qazax, Salyan, Gəncə* və s.

Oykonimləri öyrənən toponimikanın bölməsi oykonimika adlanır. Oykonimika sözü yunan mənşəli oikos «yurd, məskən, yaşayış yeri» və onoma «ad» sözlərindən əmələ gəlmişdir.

Yeri gəlmişkən onu da qeyd edək ki, toponimikanın oronimika və oykonimika bölmələri ilə yanaşı, digər bölmələri də vardır: urbanonimika, aqronimika, dromonimika, qodonimika, etnotoponimika, zootoponimika, fitotoponimika, antrotoponimika.

Urbanonimika latın mənşəli urbunuz «şəhər» sözündən götürülmüşdür. Burada şəhərdəki bütün coğrafi obyektlərin – küçələrin, dalanların, məhəllələrin adları öyrənilir.

Aqronimika yunan mənşəli agora «meydan» sözündən götürülmüşdür. Toponimikanın bu bölməsində şəhər, qəsəbə və kəndlərdəki meydanların, meydançaların adları öyrənilir.

Dromonimika yunan mənşəli dromas «qaçış, qaçma, hərəkət» sözündəndir. Burada quru, su, hava və yeraltı nəqliyyat xətlərinin, yolların adları öyrənilir.

Qodonimika yunan sözü olan hodos «yol, istiqamət, küçə» sözündən götürülmüşdür. Qodonimikada şəhər nəqliyyat xətlərinin, prospektlərin, küçələrin, dalanların, keçidlərin, bulvarların, sahilboyu park və bağların adları öyrənilir.

Etnotoponimika yunanca etnos «xalq, tayfa, qəbilə, tirə, nəsil» sözündəndir. Burada etnonimlərdən əmələ gəlmiş toponimlər öyrənilir: *gürcü – Gürcüstan, türk-Türkiyə, qazax – Qazaxıstan, qırğız – Qırğızıstan, Şirvanlı, Bayandurlu, Qaramanlı* və s.

Zootoponimika yunanca zoo «heyvan» sözündəndir. Zootoponimikada heyvan və quş adlarından əmələ gəlmiş toponimlər öyrənilir: *İlanboğan, Atbulaq, Dəvəçi, Laçın, Lökbatan, Ceyrançöl, Ördəkli* və s.

Fitotoponimika yunan mənşəli fitos «bitki, ağac» sözündəndir. Fitotoponimikada bitki, ağac, meşə adlarından əmələ gələn toponimlər öyrənilir: *Çinarlı, Qozlu, Tikanlı, Armudlu, Almalı, Qızılağac, Meşəli, Moruxlu, Fındıqlı, Narlıq* və s.

Antrotoponimika yunan mənşəli antropos «adam, insan» sözündəndir. Burada şəxs adlarından, familiyalardan, ləqəblərdən əmələ gələn toponimlər öyrənilir: *Xanlıqova, Xatınlı, Qasımbəyli, Abbasxanlı, Allahqulular, Allahyarlı, Əmirxanlı* və s.

**Qeyd:** Toponimlər kiçik və böyük coğrafi obyektlərin adını bildirmək baxımından iki yerə ayrılır: mikrotoponimlər, maktrotoponimlər.

Mikrotoponimlər kiçik coğrafi obyektlərin adını bildirir. Makrotoponimlər böyük coğrafi obyektlərin adını bildirir: *Orta Asiya, Antraktida, Yaxın Şərq* və s.

### *Toponimlərin mənşəyinə görə növləri*

1. *Azərbaycan-türk dillərinə mənsub olan toponimlər.* Azərbaycan-türk dillərinə mənsub olan toponimlər həm kəmiyyətinə, həm keyfiyyətinə, həm də yayılma arealına görə digər dillərə mənsub olan toponimlərdən fərqlənir. Ona görə ki, Azərbaycanın toponomik mənzərəsi, demək olar ki, Azərbaycan-türk dillərinə mənsub olan toponimlərlə bağlıdır. Azərbaycan türkləri nəinki Azərbaycanın, həm də Qafqazın yerli (aborigen) və dominant xalqı olmaqla öz yaşadıqları əraziləri Azərbaycan-türk mənşəli toponimlərlə adlandırmışlar. Bu barədə V.Əliyev yazır: «Azərbaycanın toponimik fondunun azı 70%-ni türk-Azərbaycan mənşəli coğrafi adlar təşkil edir. Qafqaz və İran ərazisində Azərbaycan toponimiyası qədər geniş areala malik ikinci bir toponimik təbəqə yoxdur. Dərbənd – Şamur boyundan ta Alazan vadisinə, Şərqi Gürcüstandan və Ağrı dağından İranın müxtəlif əyalətlərinə qədər ucsuz-bucaqsız bir ərazidə türk-Azərbaycan mənşəli toponimlər geniş yayılmışdır. Bunların böyük əksəriyyəti etnotoponimlərdən və etnoqrafik toponimlərdən ibarət paleotoponimik təbəqədir».[1]

Azərbaycan türk dillərinə mənsub olan toponimlərimiz, əsasən, Şimali Azərbaycan, Cənubi Azərbaycan, Qərbi

---

[1] V.Əliyev. Azərbaycanın toponimiyası. Bakı, 1999, s.104.

Azərbaycan və Dərbənd ərazisində mövcud olan toponimlərdir. Onu da qeyd edək ki, Azərbaycan-türk mənşəli toponimlərin arealı yalnız bu ərazilərlə məhdudlaşmır. Məsələn: Əfqanıstan ərazisində də tarixi kökləri çox qədimlərə gedən Azərbaycan-türk mənşəli toponimlər vardır. Bunların hamısı Hun imperiyasının dövlətçilik ənənələrinin türk dövlətçiliyi ilə davam etdirilməsi ilə sıx bağlıdır. Daha konkret desək, Əfqanıstan ərazisi də türklərin tarix boyu yayıldıqları, yaşadıqları, məskən olduqları və dövlət qurduqları ölkələrdən biridir. Təsadüfi deyildir ki, Əfqanıstandakı türk mənşəli toponimlər Azərbaycan ərazisindəki adlarla səsləşir: *Kərki, Salyan, Gəncək, Şəki, Səki, Şatır // Şaturi, Xatın, Kut, Oğuz, Qıpçaq, Bəyandur, Əfşar, Xələc, Cigil//Çuğul, Şağan, Gökçə, Aqbulaq, Aqsu, Aqbaş, Aqtəpə, Tərəbağ, Qərə kol, Keş oba, Keş dərə* və s.[1]

Ümumiyyətlə, Azərbaycan-türk mənşəli toponimlərin arealları Şərqlə yanaşı, Qərbi Avropa ölkələrinə də gedib çıxır.

Orta əsrlər və ondan əvvəlki dövrlərdə Azərbaycanın ərazisi daha geniş olmuşdur. Məsələn: «Səfəvilər dövrü Azərbaycan bütün Göyçə mahalını və Borçalı ərazisini əhatə etdiyindən bu dövr Azərbaycanın ərazisi daha çox, təxminən 250-360 min kv. km. olmuşdur».[2]

Azərbaycan torpaqlarının zaman-zaman bölünməsi, parçalanması ərazilərimizin sərhəddinin azalmasına gətirib çıxarmışdır. Hələ XVIII əsrdə Azərbaycan torpaqlarının bir hissəsinin Rusiyanın tərkibində qalması (indiki Azərbaycan

[1] R. Eyvazova. Əfqanistanda türk mənşəli toponimlər. «Elm», Bakı, 1995.
[2] V.Əliyev. Adı göstərilən əsər. s.106

ərazisi), digər hissəsinin Ermənistan adlanması, başqa bir hissəsinin – Təbriz, Ərdəbil, Zəncan, Qəzvin, Həmədan, Kürdüstan adlı əyalətlərin şərq hissəsi Cənubi Azərbaycan adlansa da, İranın tərkibinə çevrildi. Buna baxmayaraq, bu ərazilərdə qədimə getdikcə rəsmi sənədlərdə işlənmiş toponimlər Azərbaycan-türk mənşəlidir. Məsələn: İranda və Ermənistanda Azərbaycan-türk mənşəli toponimləri fars və erməni şovinistləri nə qədər dəyişdirməyə çalışsalar da, hələ də onları (Azərbaycan-türk mənşəli toponimləri) tarixin yaddaşından silə bilməmişlər.

Azərbaycanlılar ən qədim dövrdən XX əsrin 90-cı illərinə qədər öz dədə-baba yurd yerlərində – indiki Ermənistan adlanan ərazidə yaşamışlar. Onlar dəfələrlə erməni təcavüzünə məruz qalaraq öz dədə-baba yurd yerlərindən deportasiya olunmuşlar: 1905-1906, 1918-1920, 1948-1953, 1988-1991-ci illər.

Ermənilər indi Ermənistan adlanan ərazilərdəki toponimləri erməniləşdirməyə çalışsalar da, həqiqət ondan ibarətdir ki, bu ərazilərdəki yer-yurd adları Azərabycan-türk mənşəlidir. İndi Ermənistan adlanan ərazidəki 8 rayonun (Amasiya, Qızılqoç, Artik, Talin, Aqin, Düzkənd, Hamamlı, Quqark) toponimlərini tədqiq edən A.Bayramov belə bir nəticəyə gələrək yazır: «1935-ci ilədək olan rus statistik və hərbi sənədləri, inzibati – ərazi kitabları və ayrı-ayrı informatorların məlumatına əsasən keçmiş Aleksandropol qəzasını əhatə edən yuxarıda göstərdiyimiz rayonların (Amasiya, Qızılqoç, Artik, Talin, Aqin, Düzkənd, Hamamlı, Quqark rayonları nəzərdə tutulur – B.X.) makro və mikrotoponimlərinin 95 faizdən çoxu türkmənşəli (Azərbay-

can-türk mənşəli – B.X.) olmuşdur».[1] Məsələn: *Ağbaba, Ağbulaq, Ağin//Akin, Ağcaqala, Ağkilsə, Amasiya, Arpa, Armudlu, Arçut//Ərçud, Bayandur, Balıqlı, Bacıoğlu, Başköy//Başkənd, Bozqala, Böyük Təpəgöy, Qazançı, Qarabulaq, Qaraçanta, Qızılqoç, Qursalı, Elləroyuq, İranlı, Gözəldərə, Göllü, Güllücə, Güllübulaq, Oxçu oğlu//Oxçoğlu, Oksüz // Öysüz* və s. toponimləri və bu qəbildən olan yüzlərlə toponimlər araşdırma əsasında sübut edir ki, yuxarıda qeyd olunan ərazilər Azərbaycan türklərinin ata-baba yurd yerləri olmuşdur.[2]

İndiki Ermənistan adlanan ərazilərdəki toponimlərin bir qisminin Azərbaycan-türk mənşəli etnonimlər əsasında formalaşması onu göstərir ki, bu ərazilərdə ta qədim dövrlərdən Azərbaycan-türk tayfaları və tayfa birlikləri məskən salmışdır. Bu məsələni də araşdırmalar zəngin dil faktları əsasında təsdiq edir:[3] Abana, Ayrum, Afşar, Bayandur, Bayat, Çul, Uluxanlı, Sultanbəy və s. Son illərdə Azərbaycan-türk mənşəli toponimlərə aid xeyli sanballı tədqiqat işləri aparılmışdır.[4] Aparılmış bu tədqiqatların hamısı onu təsdiq edir ki, Azərabyccan-türk mənşəli toponimlər təkcə Azər-

---

[1]. A.Bayramov. Qədim oğuz ellərinin-Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları.Bakı, 2003, s.134.

[2] A.Bayramov. Adı göstərilən əsər.

[3] K. Səmədova. Qərbi Azərbaycanın türk mənşəli areal etnotoponimləri. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2004.

[4] Q.Məşədiyev. Zaqafqaziyanın Azərbaycan toponimləri. «Elm», Bakı, 1990; Ə.Ələkbərli. Qədim türk-oğuz yurdu – Ermənistan. Bakı, 1994; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995; B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998; H.Mirzəyev. Dərələyəz mahalının toponimləri və şivə sözləri. Bakı, 2003; V.Əliyev. Zəngəzurda qalan izimiz. Bakı, 2004; İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002 və s.

baycan ərazisi ilə məhdudlaşmır, onun arealı daha geniş ərazilərə gedib çıxır.[1]

2. *Ərəb və fars dillərinə mənsub olan toponimlər*. Ərəblər 642-ci ildə Sasanilərə qalib gəldikdən sonra Zaqafqaziyaya doğru hərəkət etdilər. Azərbaycanda ərəb xilafətinə qarşı kəskin mübarizə başlasa da, ancaq onların hücumunun qarşısı alına bilmədi. Ərəblər Azərbaycanı da işğal etdilər və və Azərbaycana xeyli ərəb köçürüldü. Tarixçilərin fikrincə, VII-IX əsrlərdə Azərbaycanın Muğan, Şirvan, Aran bölgələrinə köçürülmüş ərəblər mövcud olan yaşayış məntəqələrində yaşamaqla yanaşı, yeni-yeni kəndlər və qəsəbələr də salmışlar.

Ərəb mənşəli toponimləri iki qrupa ayırmaq olar: a) ərəblərin inşa etdikləri və ərəb mənşəli sözlə adlandırdıqları toponimlər, b) ərəb mənşəli alınma sözlərdən düzəlmiş toponimlər. Yeri gəlmişkən onu da qeyd edək ki, hər iki ərəb mənşəli toponimlər Azərbaycan dilində toponim yaratma qaydaları əsasında əmələ gəlmişdir. Məsələn:

a) ərəblərin inşa etdikləri və ərəb mənşəli sözlə adlandırdıqları toponimlər: *Amsar (Quba), Arbatan (Şərur, Salyan), Qərəh (Dəvəçi), Ərəfsə (Culfa), Ərəş, Əxşam (Ağdaş), Mədrəsə (Şamaxı), Navahi (Ağsu, Salyan), Hövsan (Abşeron)* və s.

b) ərəb mənşəli alınma sözlərdən düzəlmiş toponimlər. Bu qəbildən olan toponimlər Ərəbistandan köçüb gəlmiş ərəblərin azərbaycanlılar tərəfindən «Ərəb», «Ərəblər», «Ərəbuşağı», «Ərəbocağı» və s. sözlərlə adlandırılmasıdır: *Ərəb* (Ağdaş, Masallı, Laçın və s.), *Ərəbbəsrə* (Yevlax), *Ərəbqubalı*

[1] N.Əsgərov. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. Bakı, 2005.

(Kürdəmir), *Ərəbqardaşbəyli* (Neftçala), *Ərəbocağı* (Ağdam), *Ərəbşahverdi* (Şamaxı) və s.

Fars mənşəli toponimlər Azərbaycan ərazisinə İran dilli tayfa və qəbilələrin gəlişindən sonra yaranmışdır. Bundan başqa, orta əsrlərdən başlayaraq Abşeron-Dəvəçi-Quba-Dərbənd zonasında tat dilinin işlənməsi fars dilinə məxsus toponimlərin yaranması üçün mühüm amillərdən biri olmuşdur. Eyni zamanda Lənkəran ovalığında türk tayfaları ilə yanaşı, talışların yaşaması da bu ərazidəki toponimlərin fars mənşəli olması üçün heç də az rol oynamamışdır.

Misallara diqqət yetirək:

Tərkibində - (a) kan // - (a) qan topoformantları işlənən toponimlər. Bu topoformant tarixən «yer, məkan, el, ölkə» mənalarında işlənmişdir: *Mərdəkan, Lənkan (Masallı), Canqan (Neftçala)* və s.

Tərkibində - stan («ölkə, məkan» mənasında) işlənən toponimlər: *Xındırıstan (Ağdam), Talıstan (İsmayıllı)* və s.

Tərkibində -van (məkan mənasını bildirir) işlənən toponimlər: *Gürcüvan (İsmayıllı), Mincivan (Zəngilan), Ketovan (Ağdaş), Beciravan (Bərdə, İmişli)* və s.

Tərkibində xana//xan («yaşayış, yer, yurd» mənalarında) sözü olan toponimlər: *Bəzirxana (Kəlbəcər), Ərəbxana (Kürdəmir), Balaxanı, Kürdəxanı, Novxanı, Suraxanı (Bakı)* və s.

Talış dilində: *Pensər «yuxarı kənd», Bəndəsər «dağ üstü», Birədi «tikanlı kənd», Huniqol «sulu çöl, çaylı çöl» (Astara), Həfthoni «yeddibulaq» (Lənkəran)* və s.

3. *Rus dilinə mənsub olan toponimlər*. Rusların Rusiyanın Saratov, Voronej, Tavriçeski, Ornenburq, Tambov və digər ərazilərindən Azərbaycana köçürülməsi nəticəsində rusların

yaşadığı məntəqələr yaranmışdır. Köçüb gəlmiş ruslar həmin məntəqələrin adlarına bəzən «povaya» sözünü və mənsubiyyət bildirən – ka şəkilçisini əlavə etmişlər. Bəzən isə yeni məntəqələri tikən şəxsin özünün və ya övladının adı verilmişdir: *Aleksandrovka (Sabirabad), Alekseyevka (Quba, Xaçmaz), Andreyevka (Cəlilabad), Vladimirovka (Quba, Sabirabad), İvanovka (İsmayıllı), Novoivanovka (Gədəbəy), Slavyanka (Gədəbəy)* və s.

4. *Qafqaz dillərinə mənsub olan toponimlər.* Qafqaz dillərinə mənsub olan toponimlərin hüdudu əsasən Azərbaycanın şimal zonası ilə bağlıdır. Məsələn; ləzgi, xınalıq, buduq, qrız dillərinə məxsus toponimlər, demək olar ki, Quba-Qusar-Xaçmaz zonalarında yayılmışdır. Ona görə ki, ləzgilər, xınalıqlılar, buduqlar və qrızlar bu ərazilərdə yaşayırlar. Misallara diqqət yetirək:

Buduq dilinə məxsus mikrotoponimlər: *Ağarza vis «Ağarza bulağı», Ado nana «Ado mağarası», Xordara «İt dərəsi»* və s.

Ləzgi dilinə məxsus toponimlər: *Qəçrəş, Qımıl, Zuxur (Quba), Quxur, Quxuroba, Xuray (Xaçmaz)* və s.

Udin dilinə məxsus mikrotoponimlər: *Kaçaqun yaq* «Dərə yolu», *Boxo aqun* «Uzun tala» (Oğuz) və s. Udin dilinə məxsus mikrotoponimlərə Qəbələ və Oğuz rayonları ərazisində rast gəlinir.

5. *Monqol dilinə mənsub olan toponimlər.* Monqolların Azərbaycana yürüşündən sonra (təqribən 1256-cı ildən) Azərbaycanda monqol köçəriləri məskən salmağa başlamışlar. Tarixçilər belə hesab edirlər ki, monqolların tərkibində türk qəbilələri və tayfaları da olmuşdur. Hətta tarixşünaslar Azərbaycanda monqolların dəftərxana işlərini türkcə (azərbaycanca), farsca aparmalarını da qeyd edirlər. Bundan başqa,

monqol və türk dilləri arasında yaxınlıq, qohumluq münasibəti də vardır. Ona görə də monqol mənşəli hesab olunan toponimlərin nə dərəcədə monqol, yaxud türk mənşəli olduğunu qəti şəkildə müəyyənləşdirmək çox çətindir. Buna baxmayaraq, yenə də monqol mənşəli hesab olunan toponimlərə aşağıdakıları misal göstərmək olar:

Monqol dilinə məxsus nohur sözünun qoşulması ilə yaranan toponimlər: *Nohurdağ (Şəki), Qızılnohur (Şamaxı), Sarınohur (Dəvəçi), Nohurlar kəndi (Dəvəçi)* və s.

**Hidronimlər.** Hidronim sözü yunanca *hidro* – su, *onoma*– ad sözlərindən ibarətdir. Mənası su adı deməkdir. Deməli, hidronimlər dedikdə su obyektlərinin adı başa düşülür. Məsələn: *Xəzər, Kür, Araz* və s. Hidronimləri bir sıra qruplara bölmək olar:

1. *Dəniz adını bildirənlər.* Məsələn: *Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi* və s.

2. *Göl adını bildirənlər.* Məsələn: *Göygöl, Quş göl (Ağcabədidə), At gölü (İmişlidə), Tufan gölü (Qəbələdə), Şor göl (Ağcabədidə), Maralgöl, Arpagöl, Qanlıgöl* və s.

3. *Çay adını bildirənlər.* Məsələn: *Qar çayı (Zaqatalada), Kor çay (Gəncədə), Keş çayı (Sumqayıtda), Cil çayı (Lənkəranda), Araz, Kür* və s.

4. *Nohur adını bildirənlər.* Məsələn: *Qaranohur (Girdiman çayının hövzəsində, Dəvəçi rayonunda), Ağnohur (Sumqayıt, Dəvəçi, Abşeron yarımadası), Qızıl nohur (Şamaxıda)* və s

5. *Arx adını bildirənlər***.** Məsələn: *Seyidlər arxı.*

6. *Bulaq adını bildirənlər.* Məsələn: *Qarabulaq, Göybulaq, Dərvişin bulağı, Cinli bulaq, Soyuq bulaq, Ağbulaq, Yol bulağı (Yardımlıda), Daş bulaq (Yardımlıda), Bal bulaq*

*(Şəkidə), Qoz bulağı (Şəkidə), Ayı çay (Qubada), Qızıl çay (Dəvəçidə), Qala çay (Oğuzda), Dərə çay (Şamaxıda)* və s.

**Qeyd:** Su obyektlərinin adını bildirən hidronimlərə həm də bənd adları və kanal adları da daxildir.

Azərbaycan hidronimləri, onların quruluşu, leksik-semantik xüsusiyyətləri barədə tədqiqat işləri aparılmış[1] və maraqlı nəticələr əldə edilmişdir. Hidronimləri leksik-semantik cəhətdən aşağıdakı kimi qruplaşdırmaq olar:

*a) etnonim mənşəli hidronimlər;*
*b) oykonim mənşəli hidronimlər;*
*c) antroponim mənşəli hidronimlər;*
*ç) zoonim mənşəli hidronimlər;*
*d) fitonim mənşəli hidronimlər.*

a) *Etnonim mənşəli hidronimlər.* Hidronimlərin bir qismi qəbilə, tayfa adları ilə bağlı olaraq yaranmış və formalaşmışdır: *Bolqar çay (Biləsuvar rayonu ərazisindən axaraq Bolqarçay su anbarına tokülür), Qıpçaq çayı (Zaqatala rayonu ərazisində), Mişar çayı (Cəlilabad rayonu ərazisində) Muğanlı çayı (Zaqatala rayonunda), Alpan çayı (Xaçmaz rayonunda), Qaramanlı bulağı (Bolnisi rayonunun Kəpənəkçi kəndində),Baydarlı bulağı (Marneuli rayonu ərazisində)* və s.

b) *Oykonim mənşəli hidronimlər.* Hidronimlərin müəyyən bir qismi yaşayış məntəqələrinin adını əks etdirir: *Naxçıvan çayı (Naxçıvan və Şahbuz ərazisindən axır), Ordubad çayı (Ordubad rayonunda), Astara çayı (Astara rayonunda),*

---

[1] V.İsrafilov. Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı. Bakı, 1999; N.Əsgərov. Azərbaycan hidronimləri. Bakı, 2002.

*Lənkəran çayı (Lerik və Lənkəran ərazisində), Tovuz çayı (Tovuz ərazisində), Gəncə çayı (Daşkəsən, Xanlar, Gəncə ərazisində), Qaradaşın bulağı (Bolnisi rayonunda Qaradaş kəndi), Qəmərli çayı (Dmanisi rayonunda Qəmərli kəndi), Qarabulağın gölü (Dmanisi rayonunda Qarabulaq kəndi)* və s.

c) *Antroponim mənşəli hidronimlər.* Hidronimlərin bir hissəsi şəxs adları əsasında yaranmışdır. Belə ki, şəxsin adı yaşayış məntəqəsini əks etdirməklə yanaşı, həm də su obyektlərinin adına da verilmişdir: *Qaramurad çayı (Gədəbəy rayonu), Seyfəli dərəsi çayı (Şamxorda, Daşkəsəndə), Qasımlı çayı (Balakəndə), Qarasüleyman çayı (Şəkidə), İsa bulağı (Şuşada), Hüseyn oğlunun bulağı (Qardabani rayonu), Dünyamalının bulağı (Marneuli rayonu)* və s.

ç) *Zoonim mənşəli hidronimlər.* Respublikamızın ərazisində və eləcə də azərbaycanlıların yaşadıqları ərazilərdə zoonimlər əsasında formalaşmış hidronimlər heç də az deyildir: *Ördək gölü (Ağcabədidə), Çalağan çayı (Şəkidə), Qurbağalı çay (Kəlbəcərdə), Qaban gölü (Masallıda), Keçi bulağı (Daşkəsəndə)* və s.

d) *Fitonim mənşəli hidronimlər***.** Buraya ağac, bitki adları əsasında yaranmış hidronimlər daxildir: *Zoğalı çay (Culfada), İncil çayı (Masallıda, Cəlilabadda), Heyvalı çay (Qəbələdə), Armudlu gölü (Dmanisidə), Arpa çayı (Naxçıvanda), Söyüdlü bulağı (Şəkidə), Yovşanlı bulağı (Oğuzda)* və s.

**Zoonimlər.** Zoonim sözü yunan sözüdür. *Zoon* - heyvan, *onoma* - ad deməkdir. Zoonimlər heyvan adını öyrənir. Geniş götürsək, burada heyvan adları ilə yanaşı, quş adları da öyrənilir. Zoonimlər ümumi və xüsusi olmaqla iki yerə ayrılır. Ümumi zoonimlər eynicinsli zoonimlərin ümumi adını bildirir.

Məsələn: *sərçə, çalağan, qarğa, inək, at, öküz* və s. Xüsusi zoonimlər isə eynicinsli zoonimlərin birini digərindən fərqləndirmək üçün onlara verilmiş xüsusi ad əsasında yaranır. Məsələn: *Qəmər* (at adı), *Məstan* (pişik), *Alabaş*, *Gümüş*, *Dəmir, Topuş* (it adı).

**Kosmonimlər.** *Kosmonim* yunan sözü olub, *səma cismlərinin* adını bildirir. Deməli, burada səma cismlərinin adı öyrənilir. Səma cismləri milli mənsubiyyətinə görə aşağıdakı qruplara ayrılır:

1. *Azərbaycan dilinə məxsus kosmonimlər.* Məsələn: *Qartal, Tülkü, Canavar, Qarğa* və s.
2. *Ərəb dilinə mənsub kosmonimlər.* Məsələn: *Dübb, Mərkab, Mərak (ulduz adları)* və s.
3. *Latın dilinə mənsub kosmonimlər.* Məsələn: *Eridop, Delfin, Oktant* və s.

*Kosmonimlər ümumi və xüsusi olmaqla iki yerə ayrılır.* Ümumi kosmonimlər səma cisimlərinin ümumi adını bildirir. Məs.: *göy, səyyarə, şimşək, ulduz, fəza, bürclər, göy cisimləri, asiman, hilal, kəhkaşan, üfüq, yeddi peycər* və s.

Xüsusi kosmonimlər səma cisimlərinin xüsusi adlarını bildirir: *Günəş, Zöhrə, Mərrix, Məşriq, Məğrib, Pərvin* (yaxud *Sürəyya* – səmada boyunbağıya oxşar ulduz toplusu*), Bürcis, Xərçəng, Səyyaf, Fərd, Həməl bürcü, Öküz bürcü* və s.

**Ktematonimlər.** *Ktematonim* yunan sözüdür, mənası *əmlak* adı deməkdir. Ktematonimlər geniş mənada maddi-mədəniyyət abidələrinin, elm və texnika adlarının, elmi-mədəni əsərlərin adlarının, inzibati idarə adlarının, təşkilat, məqalə, park və s. adlarının öyrənilməsi ilə məşğul olur. Məsələn: *Tələbə Elmi Cəmiyyəti, Azərbaycan Respublikası*

*Təhsil Nazirliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, «Köpəyə ehsan», «Bəlkə də qaytardılar»* (felyeton) və s.

**Qeyd:** Ktematonimlər sırasında radio, televiziya və mətbuat adları da öyrənilir.

**Onomastik vahidlərin yaranması**. Dildəki xüsusi sözlər ümumi isimlərdən əmələ gəlir. Lakin hər bir söz və söz birləşməsi xüsusi ola bilmir. Məsələn: beş, üç, on, mən, sən, bir, qulaq asmaq, dil açmaq, söz salmaq və s. Ümumi sözlərin bir qismi xüsusi sözlərə keçə bilir. Məsələn: *şöhrət →Şöhrət, vaqif→Vaqif, səadət → Səadət, arif→Arif, məhəbbət→ Məhəbbət* və s. ümumi isimləri xüsusiləşmişdir.

Azərbaycan dilindəki onomastik vahidlər dörd üsulla əmələ gəlir:

1. Leksik üsul;
2. Semantik üsul;
3. Morfoloji üsul;
4. Sintaktik üsul.

*1. Leksik üsul.* Bu üsulda heç bir qrammatik vasitə olmadan müxtəlif ümumi sözlər onomastik vahidlərə çevrilir. Beləliklə, xüsusi sözlər, yəni onomastik leksika yaranır. Məsələn: *iradə – İradə, fərəh – Fərəh, bəbir – Bəbir* (kənd adı). Bu proses daha çox antroponim, toponim, hidronim və kosmonimlərdə mövcud olur.

*2. Semantik üsul.* Semantik üsulda xüsusi sözlər ümumi sözlərdən konversiya yolu ilə yaranır. Məsələn: *sarı – Sarı (şəxs adı), qara – Qara, əntiqə – Əntiqə, gözəl – Gözəl, solmaz – Solmaz, qorxmaz – Qorxmaz, dönməz – Dönməz, sevil – Sevil* və s.

*3. Morfoloji üsul.* Morfoloji üsulla onomastik vahidləri aşağıdakı yolla yaranır:

*Söz köklərinə şəkilçilərin qoşulması ilə.* Bu, əsasən, aşağıdakı şəkilçilər vasitəsilə baş verir. Məsələn:

-*ə* – Rəşid – Rəşidə, Cəmil - Cəmilə, Arif - Arifə və s.

-*ca*$^2$ – ağ - Ağca, əyri - Əyricə, qotur - Qoturca (yer adı) və s.

-*lar*$^2$ – qara - Qaralar, hacı - Hacılar, qov - Qovlar, bəy - Bəylər, şah - Şahlar və s.

-*çı*$^4$ – dəmir - Dəmirçi, quş - Quşçu, dəvə - Dəvəçi (yer adları) və s.

-*lı*$^4$ – söyud- Söyüdlü, incə - İncəli, Xələf - Xələfli, Əhməd - Əhmədli və s.

-*lıq*$^4$ – qamış - Qamışlıq, söyüd - Söyüdlük (yer adları) və s.

*4. Sintaktik üsul***.** Bu üsulla sintaktik vahidlər aşağıdakı yollarla yaranır.

a) *Söz kök + söz kökü modelində olanlar.* Məsələn: Ağ+köynək, Qoşa+kənd, Qızıl+kənd, Altı+ağac, Məmməd + Hüseyn, Səməd+ağa, Səfər+əli, Xan+Əhməd və s.

b) *Söz kökü +söz kökü+söz kökü modelində olanlar.* Məsələn: *Pir-Qulu+oba, İman+Qulu+kənd* və s.

**Qeyd:** Bu tip toponimik vahidlərin yaranmasında el, oba, tala, daş, kənd, təpə, bulaq, qızı, oğlu, ağ, qara, göl, çay və s. sözlər daha fəal iştirak edirlər.

**Onomastik vahidlərin dildə üslubi rolu.** Onomastik vahidlərin dildə üslubi rolu da vardır. Ona görə də bəzən bədii əsərlərdə insanların xarakterini açmaq üçün müəyyən zoonimlərdən istifadə olunur. Məsələn: div, əjdaha, Zümrüd

quşu və s. Təsadüfi deyildir ki, XX əsrin əvvəllərində yaşayıb yaradan sənətkarların dilində onomastik vahidlərin üslubi rolu daha geniş olmuşdur. Məsələn: C.Məmmədquluzadənin yaradıcılığında İtqapan kəndi, «Kişmiş oyunu» əsərində *Ulağlı, Zurnalı* adları və s. Bəzən sənətkarlar alleqorik obrazlar vasitəsilə bədii əsərlər yazır və bu zaman onomastik vahidlərdən istifadə edirlər.

Bədii əsərlərdə *qoyun, quzu, aslan, çaqqal* və s. alleqorik obrazlar onomastik vahidlərin üslubi rolu kimi nəzərə alınmalıdır. Dilmizdə qəlibləşmiş onomastik vahidlər də vardır ki, onlar da üslubla bağlı yaranmışdır. Məsələn: Qarabağın Pambıq bəyləri, Şamaxı Lotusu və s.

Onomastik vahidlərdən antroponimlər aşağıdakı üslubi xüsusiyyətlərə malikdir:

1) Antroponimlər poeziyada daha çox obrazlı müqayisə yaradır: «Əsli-Kərəm kimi mən oda yandım»; «Ələsgər Məcnun tək yardan yaralı»; «Züleyxa təmkində gözəllər hanı» və s.

2) Antroponimlər vasitəsilə poeziyada klassik irsə münasibət bildirilir və onun görkəmli nümayəndələri xüsusi ehtiramla xatırlanır. Məs.:

*Nizaminin, Füzulinin söhbətlərinə qulaq asdım.*
*Puşkinin söz rübabını öz sinəmin üstə basdım.*
*(S.Vurğun)*

3) Antroponimlər vasitəsilə müəyyən məlumat, informasiya vermək mümkün olur. Məs.:

*Firdovsi otuz il «Şahnamə» yazdı,*
*Bir də «İlliada»nı yaratdı Homer.*
*(S.Vurğun)*

Oronimlərdən də poeziyada müəyyən üslubi məqamlarda istifadə olunur:

1) Oronimlər bir-birinin yanında sadalama yolu ilə işlənərək şeirin təsir gücünü daha da artırır:

*__Kəpəz, Murov, Qonur__ – neçə dağlar var.*
*Üstünə nur yağsın, ay dəli Qoşqar;*
*Yayın ortasında yağdırırsan qar*
*Səf çəkib üstündə sərdarın, dağlar.*
*(Aşıq Ələsgər)*

2) Oronimlər xitab kimi işlənir, bu da bədii effekti daha da gücləndirir:

*__Heydər baba__, ildırımlar çaxanda,*
*Sellər, sular şaqqıldayıb axanda…*
*(M.Şəhriyar)*

3) Oronimlər vasitəsilə poeziyada vətənpərvərlik, qəhrəmanlıq motivləri gücləndirilir:

*Qoy qalxsın ayağa __Qafqaz__ dağları,*
*Başında saxlasın al bayraqları!*
*(S.Vurğun)*

**Qeyd:** Onomastik vahidlərin deyilişi və yazılışı da bir-birindən fərqlənə bilir. Bəzi onomastik vahidlər yazılış və deyilişcə fərqlənirlər. Məsələn: *Mansur*-*Mansır, Hüseyn*-*Söyün, Aslan*-*Astan, İsmayıl*-*İsmeyil, Həsən*-*Hasan, Yunis*-*Yunus* və s. Dilimizdə iki və daha artıq komponentli toponimlər iki formada: ayrı və bitişik yazılırlar. Ayrı yazılanlar *aşağı, yuxarı, böyük, kiçik, baş* və *bala* sözlərinin iştirakı ilə yaranır. Bəzən *ağ, qara, kənd, qızıl* və s. tipli sözlər toponimik vahidlərin II komponenti kimi ayrı və bitişik yazıla bilir.

# Frazeologiya

# FRAZEOLOGİYA

Frazeologiya yunan sözüdür. *Pharis* «ifadə», *loqos* isə «elm» deməkdir. Deməli, frazeologiya termini «ifadə» və «elm» sözünün birləşməsindən yaranmışdır. Dildə olan bütün sabit söz birləşmələrinin, bölünməz ifadə və ibarələrin məcmusuna frazeologiya deyilir. Bir sözlə, frazeologiya dildə olan *frazeoloji birləşmələrin məcmusudur.* Frazeologiya iki mənada işlənir: həm dildə olan frazeoloji birləşmələrin məcmusu mənasında, həm də *frazeoloji birləşmələrdən bəhs edən elm* mənasında. Frazeologiyada olan hər bir ifadə, ibarə frazeoloji vahid adı ilə öyrənilir. Ona görə də dildə hər hansı mənanı ifadə edən hər bir sabit birləşməyə, bölünməz ifadə və ibarələrə *frazeoloji vahid* deyilir. Məsələn: *göz yummaq, ağzının sözünü bilmək, o dünyalıq olmaq, nağıl açmaq, mənəm-mənəm demək, dilini farağat saxlamaq, üz ağartmaq, əl-ayağa düşmək, dünyaya səs salmaq* və s.

Frazeoloji vahidləri təşkil edən sözlər onun tərəfləri, komponentləri adlanır. Məsələn: *göz oxşamaq* frazeoloji vahidində *göz* sözü I, *oxşamaq* sözü isə II komponentdir. Müqayisə edək: *ağıla gəlmək, müştəri çıxmaq, gözlərinə qaranlıq gəlmək, hamısını bir-birinə qatmaq, əl-qol açmaq, dillərdə dastan olmaq, ürəyinə salmaq* və s.

Frazeoloji vahidlərin komponentləri iki, üç və daha artıq sözdən ibarət olur. Bu baxımdan frazeoloji vahidləri aşağıdakı qruplara ayırmaq olar:

1. İki komponentli frazeoloji vahidlər: *baş vurmaq, ah çəkmək, içini yemək, ələ salmaq* və s.

2. Üç komponentli frazeoloji vahidlər: *ürəyi yerinə düşmək, dili topuq vurmaq, suda qərq olmaq, dodağı yer süpürmək, çiy süd əmmək, ağzının suyu axmaq* və s.

3. Üçdən artıq komponentli frazeoloji vahidlər: *daşı daş üstə qoymaq, gözüm səndən su içmir, suyu süzülə-süzülə qayıtmaq, quyruğu qapı arasında qalmaq, xoruzunu qoltuğuna verib yola salmaq* və s.

**Qeyd:** Dilimizdəki frazeoloji vahidlər həm *ümumi,* həm də *xüsusi* olur.

*Ümumi frazeoloji vahidlər* ümumxalq tərəfindən işlədilir. Məsələn: *meydan qızışdırmaq, sözdən söz çıxarmaq, üz vermək, əl atmaq, duz-çörək kəsmək, valeh olmaq, özünü dilə-dişə salmaq* və s.

*Xüsusi frazeoloji vahidlərə* bəzən fərdi frazeoloji vahidlər də deyilir. Xüsusi frazeoloji vahidlər bədii əsərlərdə şair və yazıçılar tərəfindən yaradılır. Məsələn: Ona da göstərin daş zindanları. (S.Vurğun) Burada *daş zindanları göstərmək* fərdi, xüsusi frazeoloji vahiddir.

**Frazeoloji vahidlərin xüsusiyyətləri.** Frazeoloji vahidlər aşağıdakı xüsusiyyətlərə malikdir.

1) Frazeoloji vahidlər bir ümumi mənanı bildirir. Məsələn: *çək-çevirə salmaq, acığından partlamaq, qanı beyninə vurmaq, ağlar günə qalmaq, yoluna düşmək* və s.

2) Frazeoloji vahidlərin əsas xüsusiyyətlərindən biri də onların obrazlı, emosional olmasıdır. Başqa sözlə, frazeoloji vahidlər dəyərli və təsirlidir. Məsələn: *qabıqdan çıxmaq, qanı*

*qaynamaq, gözdən salmaq, arası dəymək, özünü çəkmək, içini yemək, quruyub mat qalmaq, sözü daşdan keçmək, başına daş yağmaq, başına dönmək, qurbanı olmaq* və s.

3) Frazeoloji vahidlər möhkəm milli xüsusiyyətə malik olur. Buna görə də onları başqa dilə tərcümə edərkən izahlı tərcümədən, yaxud kalka yolu ilə tərcümədən istifadə olunur. Frazeoloji vahidlər tərcümə edilərkən başqa dildə onun qarşılığı, ekvivalenti yoxdursa, onda onun sinonimi, yaxud üslubi baxımdan yaxın olanları seçilir.

4) Frazeoloji vahidlərin mənasında sözlərin bir-birinə qaynayıb-qarışması və qovuşması özünü aydın göstərir. Məsələn: *söz güləşdirmək, başını bişirmək, gözdağı olmaq* və s.

5) Bir sıra frazeoloji vahidlərdə eyni söz təkrar olunur. Təkrar olunan sözlər, xüsusən, insanın bədən üzvlərinin adını bildirən sözlərdir. Məsələn: *ürəyi getmək, ürəyi sıxılmaq, baş sındırmaq, baş vurmaq, baş çatlatmaq, başına iş gətirmək, başına iş açmaq* və s.

6) Frazeoloji vahidlərin tərəfləri məcazi mənada işlədilir.

7) Frazeoloji vahidlər dildə hazır şəkildə mövcuddur.

**Frazeoloji vahidlərin sözlə oxşar xüsusiyyətləri.** Frazeoloji vahidlərlə sözlər arasında aşağıdakı oxşar cəhətlər vardır:

a) frazeoloji vahidlərin və sözlərin hər ikisinin leksik mənası vardır.

b) hər ikisinin quruluşu olur.

c) hər ikisinin sintaktik vəzifəsi vardır.

ç) həm frazeoloji vahidlər, həm də sözlər başqa sözlərlə sintaktik əlaqəyə girir.

d) frazeoloji vahidlər də, sözlər də bir məfhum ifadə edir.

e) hər ikisi bu və ya digər nitq hissəsinə aiddir.

ə) hər ikisinin omonimi, sinonimi və antonimi olur.

f) hər ikisi dil vahididir və cümlə üçün tikinti materialıdır və s.

**Frazeoloji vahidlərin sözdən fərqi.** Frazeoloji vahidlər sözdən aşağıdakı xüsusiyyətlərinə görə fərqlənir:

1) Frazeoloji vahidlər sözlər əsasında formalaşır. Məsələn: *quruyub qalmaq, ağzının sözünü bilməmək* və s. Söz isə kök və şəkilçi əsasında formalaşır. Yəni sözlər morfemlər əsasında (kök və şəkilçi morfem), frazeoloji vahidlər isə sözlər əsasında yaranır.

2) Sözlərdən yeni söz düzəltmək olur. Məsələn: *dağ-dağlı-dağlılıq, ot-otlu-otluluq-otsuzluq* və s. Frazeoloji vahidlər isə cümlə yaratmağa xidmət edir.

3) Sözlər həm məna, həm də morfoloji müstəqilliyə malikdir. Frazeoloji birləşmələrin komponenlərini isə ayrı-ayrı söz hesab etmək olmaz. Çünki onlarda məna müstəqilliyi yoxdur. Məsələn: *yuxusu qaçmaq, fikrini dağıtmaq* və s.

4) Sözlər həm həqiqi, həm də məcazi, frazeoloji vahidlər isə ancaq məcazi mənada işlənir. Məsələn: *beynini doldurmaq, divan tutmaq* və s.

5) Sözlər adlandırır, frazeoloji vahidlər isə obrazlı şəkildə adlandırır. Məsələn: *həyatını puç eləmək, qurban olmaq, lövbər salmaq, bir dəri bir sümük olmaq, başını yemək, gözləri qızmaq* və s.

6) Sözlər sözyaradıcılığı modelləri əsasında, frazeoloji vahidlər isə qrammatik modellər əsasında əmələ gəlir.

Frazeoloji vahidlər mürəkkəb sözlərdən də fərqlənir. Bu fərqlər, əsasən, aşağıdakılardır:

1) Mürəkkəb sözlər leksik vahid hesab olunduğu halda, frazeoloji vahidlər isə sintaktik vahid kimi götürülür.

2) Mürəkkəb sözlər məfhumu müstəqil şəkildə, frazeologizmlər isə dolayı yolla ifadə edir. Misallara diqqət yetirək: mürəkkəb sözlər – *suiti, istiot, günəbaxan, dəvəquşu, tozsoran* və s. frazeologizmlər – *dərd çəkmək, baş çəkmək, naz çəkmək, göz qoymaq, dil tökmək, üzə vurmaq* və s.

3) Mürəkkəb sözlərin mənası, hər hansı bir məfhumu bildirməsi mətndən kənarda da aydın olur. Ancaq frazeologizmlərin mənasını mətndən kənarda başa düşmək olmur.

Feili frazeoloji vahidlərin quruluşu barəsində fikirlər müxtəlifdir.[1] Türkoloq N.A.Baskakov feili frazeoloji vahidləri həm «tərkibi feillər», həm də «mürəkkəb feillər» adlandırır. Türkoloqlardan A.N.Kononov feili frazeoloji vahidləri mürəkkəb feillərə daxil edir. S.Cəfərov, Z.Budaqova və digərləri feili frazeoloji vahidləri mürəkkəb feilin bir növü hesab edirlər. A.Ələkbərov feili frazeoloji vahidləri mürəkkəb feil hesab etməyin əleyhinə olmuşdur.

Feili frazeoloji vahidləri mürəkkəb feil hesab etməyənlərin fikrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bitmiş bir fikri ifadə edən, intonasiyaya, modallığa, predikativlik əlamətinə malik olan «Mənim səndən gözüm su içmir», «Mənim ona yazığım gəlir» tipli konstruksiyaları mürəkkəb feil hesab etmək olmaz. Ona görə ki, mürəkkəb feillərdə intonasiya, modallıq, predikativlik əlamətləri yoxdur.

[1] Bax: H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. «Maarif» nəşriyyatı, Bakı, 1978, s. 56-62.

2. Feili frazeoloji vahidlər morfoloji kateqoriya kimi feilə daxil edilirsə, onda *ağ gün, qara gün* isim, *həftə səkkiz mən doqquz* zaman zərfi olmalıdır.
3. Dilimizdəki bütün feillər həm təsdiqdə, həm də inkarda olur: *yazmaq-yazmamaq*. Bu xüsusiyyət frazeoloji vahidlərin hamısına aid deyildir. Məsələn: yalnız təsdiqdə olan frazeoloji vahidlər: *abrına qısılmaq, Araza susuz aparıb susuz gətirmək,* yalnız inkarda olan frazeoloji vahidlər: *bir sözünü iki eləməmək, şəstini sındırmamaq* və s.
4. Mürəkkəb sözlərin komponentləri arasına söz artırmaq olmur. Feili frazeoloji vahidlərin komponentləri arasına söz artırmaq mümkündür. Məsələn: *qəlbi sınmaq – Dostunun qəlbi dostundan həmişəlik sınmışdı; ayağı kəsilmək – Onların ayağı bu evdən kəsildi* və s.
5. Mürəkkəb sözlərin dildə variantı yoxdur. Feili frazeoloji vahidlərin isə bir qisminin variantları vardır: *abrını vermək – abrını ətəyinə bükmək – abrını tökmək* və s.
6. Mürəkkəb sözlər bir baş vurğuya malik olur: *Məmmədəli, kəklikotu* və s. Feili frazeoloji vahidlərin komponentlərinin hər biri öz vurğusunu qoruyub saxlayır: *dildən düşmək, dil tökmək* və s.

**Qeyd:** Dilimizdəki frazeoloji vahidlərin qarşılığı olan sözlər də var. Müqayisə edək: *başını yemək – öldürmək, baş tovlamaq – aldatmaq* və s.

Misallardan göründüyü kimi, frazeoloji vahidlərin qarşılığı bir sözdən ibarət ola bilir. Məhz bunu nəzərə alaraq leksik və frazeoloji sinonimlərin mövcudluğu ortalığa çıxır.

Leksik və frazeoloji sinonimlər arasında aşağıdakı fərqli cəhətlər vardır:

1. Leksik sinonimlər bir sözlə, frazeoloji sinonimlər bir neçə sözlə ifadə olunur: *ağlamaq-gözünü sıxmaq, qarışdırmaq-aləmi bir-birinə vurmaq, yorulmaq-əldən düşmək, gülmək-dodağı qaçmaq* və s.

2. Frazeoloji sinonimlər leksik sinonimlərdən fərqli olaraq obrazlıdır.

3. Frazeoloji sinonimlərdə leksik sinonimlərdən fərqli olaraq sinonimik cərgə olur və bu cərgədə frazeoloji sinonimlərdən biri dominant rolda çıxış edir: *ürəyi getmək-ürəyi sıxılmaq-ürəyi xarab olmaq, baş sındırmaq-baş qırmaq-baş çatlatmaq-baş partlatmaq* və s.

**Frazeoloji vahidlərin tipləri.** Müasir Azərbaycan dilinin frazelogiyasını iki böyük qrupa bölmək olar:

1. Frazeoloji sabit söz birləşmələr
2. Frazeoloji sabit ifadə və ibarələr.

Frazeoloji sabit söz birləşmələri frazeoloji sabit ifadə və ibarələrdən aşağıdakı fərqli xüsusiyyətlərə malikdir.

1. Frazeoloji sabit söz birləşmələri frazeoloji sabit ifadə və ibarələrə nisbətən dildə daha çox işlənir.

2. Frazeoloji sabit birləşmələr cümlənin bu və ya digər üzvü vəzifəsində işlənir.

3. Frazeoloji söz birləşmələri çox vaxt tək sözün sinonimi, ekvivalenti kimi işlənir. Məsələn: *yola düşmək – getmək, acığı tutmaq – hirslənmək, özünü itirmək – çaşmaq* və s.

4. Frazeoloji söz birləşmələri frazeoloji ifadə və ibarələrin tərkibində işlənə bilir. Məsələn: *el gözündən düşən boy atmaz; elin gücü bir olsa, düşmən dara çəkilər, yalançının üzü qara olar* və s.

Frazeoloji söz birləşmələri həm də sabit söz birləşmələri adlanır. Sabit ibarələr ilə sərbəst birləşmələrin həm oxşar, həm də fərqli cəhətləri vardır. Oxşar cəhətlər bunlardır:

1. Hər ikisi iki və daha artıq sözün birləşməsindən əmələ gəlir.

2. Hər ikisi cümlədə müəyyən cümlə üzvü vəzifəsində işlənir. Müqayisə edək: *kitab sərgisi, sait səs, nitq hissəsi* və s.– *sərbəst birləşmə; hirsini tökmək, əlac etmək, puça çıxmaq* və s.– *sabit birləşmə.*

3. Hər ikisinin modelləri eyni olur.

4. Hər ikisinin formal cəhətdən fərqi olmur. Belə ki, onların hər ikisinin tərəfləri qrammatik əlaqələr əsasında birləşir.

Frazeoloji söz birləşmələri ilə sərbəst birləşmələr arasında aşağıdakı fərqli xüsusiyyətlər də vardır:

1) Sabit söz birləşmələri dildə hazır şəkildədir. Sərbəst birləşmələr isə dilin qayda-qanunlarına əsasən yenidən yaranır. Məsələn: *yaşıl yarpaq, yaşıl paltar, yaşıl köynək* və s.

2) Sabit söz birləşmələrində sözlər mənaca müstəqil olmur.

3) Sabit söz birləşmələri frazeologiyanın, sərbəst söz birləşmələri isə sintaksisin tədqiqat obyektidir.

4) Sabit söz birləşmələrini hissələrə ayırmaq mümkün deyil, sərbəst söz birləşmələri isə bunun əksinədir.

5) Tarixən bütün sabit söz birləşmələri sərbəst söz birləşmələrindən yaranmışdır.

6) Sabit birləşmələrin tərəfləri məcazi mənada işlədilir. Sərbəst birləşmələrin tərəfləri isə öz müstəqilliyini qoruyub saxlayır.

7) Sabit birləşmələrin tərəfləri məcazi mənada olduğu üçün tərkib hissələri (komponentlər) arasında dinamiklik, mütəhərriklik olmur. Tərəflər arasındakı əlaqə donuq olur, ona görə də komponentlər bir məfhumu ifadə edən leksik vahid kimi özünü göstərir. Məsələn: *qulaq asmaq, əldən düşmək, qayğı çəkmək* və s. Sərbəst birləşmələrin tərəfləri mütəhərrikliyini, dinamikliyini qoruyub saxlayır. Onların tərəfləri arasındakı əlaqə dinamik, mütəhərrik olur.

8) Sabit birləşmələrin strukturu sabitdir, dəyişməzdir. Buna baxmayaraq, onu da qeyd etmək lazımdır ki, sabit birləşmələrdə müəyyən dərəcədə komponentləri başqaları ilə dəyişmək olur. Məsələn: *qulaq asmaq – qulaq burmaq, ah çəkmək – dərd çəkmək, söz vermək – and içmək* və s. Belə misalların mövcud olduğuna baxmayaraq, sərbəst birləşmələrin komponentlərini sərbəst şəkildə asanlıqla dəyişmək olur. Məsələn: *sərin bulaq* birləşməsində *bulaq* sözünü saxlamaqla *həmin bulaq*, *dağdakı bulaq* birləşmələrini yaratmaq olur.

9) Sabit birləşmələrin tərkibini və sırasını pozmaq olmaz. Onların tərkibi və sırası sabitdir. Ancaq sərbəst birləşmələrin tərkibini və sırasını pozmaq olur. Onların tərkibi arasına söz

daxil etmək mümkündür. Məsələn: *məktəb direktoru – məktəbin bacarıqlı direktoru, müəllimin tələbəsi – müəllimin istedadlı tələbəsi* və s.

10) Sabit birləşmələr bir sözün qarşılığı, ekvivalenti olur. Onları qarşılığı, ekvivalenti olan bir sözlə əvəz etmək mümkündür: *qulaq asmaq – dinləmək, əl qaldırmaq – vurmaq, yoldan çıxmaq – azmaq* və s.

Sərbəst birləşmələr bir sözün qarşılığı, ekvivalenti ola bilmir. Onları bir sözlə əvəz etmək olmur.

11) Sabit birləşmələrlə sərbəst birləşmələr başqa dilə hərfi tərcümə ediləndə də fərqlənirlər. Belə ki, sabit birləşmələr başqa dilə hərfi tərcümə olunmur. Əgər onları hərfi tərcümə etsək, onda gülməli bir məna və ifadə yaranır. Məsələn: aşağıdakı sabit birləşmələri rus dilinə tərcümə edəndə mənasız, gülməli ifadə yaranır: *baş açmaq – qolovu otkrıvat, gözdən əski asmaq – na qlaz tryapku povesit* və s. Sərbəst birləşmələr başqa dillərə hərfi tərcümə olunur və gülməli məna, ifadə yaranmır. Məsələn: aşağıdakı sərbəst birləşmələrin rus dilinə tərcüməsinə diqqət yetirək: *sinif otağı– klassnaya komnata, məktəb şagirdi – uçenik şkolı* və s.

Frazeoloji söz birləşmələri onları əmələ gətirən sözlərin məna və qrammatik cəhətdən qovuşma dərəcəsinə görə üç tipə bölünür.

1. *Frazeoloji qovuşma;*
2. *Frazeoloji birlik;*
3. *Frazeoloji birləşmə.*

***1. Frazeoloji qovuşma.*** Frazeoloji qovuşma dedikdə, ayrı-ayrı sözlərin müstəqil mənalarından asılı olmayaraq, bütövlükdə birləşmənin ümumi bir mənası olan sabit birləşmə

başa düşülür. Bu o deməkdir ki, bütün sözlərin öz müstəqil mənalarından ayrılması nəticəsində əmələ gələn, bölünməz söz birləşmələrinə frazeoloji qovuşma deyilir. Məsələn: *gözü su içməmək, topa tutmaq, bel bağlamaq, ağ eləmək, dağa dönmək* və s. Frazeoloji qovuşmanın əsas əlaməti onların məna bütövlüyüdür, monolit birliyidir. Bu tip frazeoloji vahidlərə dilçilikdə bəzən idiom da deyilir. *İdiom* yunan mənşəli söz olub, *özünəməxsus xüsusiyyətə malik ifadə* deməkdir.

***2. Frazeoloji birlik.*** Frazeoloji birliyi əmələ gətirən sözlərdən birinin mənasının zəif hiss olunması əsasdır. Frazeoloji birliklər məna cəhətdən bölünməz olurlar. Bu birləşmələrin komponentlərindən birində həqiqi mənanın izləri müşahidə olunur. Eyni zamanda bu qəbildən olan frazeoloji vahidin ümumi mənası həqiqi mənalı sözün mənası ilə bağlı olur. Məsələn: *söz almaq, dağ çəkmək, söz güləşdirmək, göz dağı olmaq, beyninə batmaq, başını üzmək, cin atına minmək, haqq qazanmaq, oyuna düşmək, hüququnu tapdalamaq, mürgü vurmaq, meydan oxumaq, başını bişirmək* və s.

***3. Frazeoloji birləşmə (uyuşma).*** Bu qəbildən olan frazeoloji sabit birləşmələrdə birləşmələrin tərkibindəki sözlərdən biri öz mənasında işlənir, qalan hissəsi isə asılı vəziyyətdə olmaqla yaranır. Belə birləşmələrdə sözün biri o birinə, yəni müstəqil mənada olana təhkim olunur. Müstəqil mənada olan söz birləşmədə əsas, öz mənasında olmayan söz isə birləşmədə asılı söz olur. Məsələn: *tədbir tökmək, yada düşmək, qayğı çəkmək, fikir çəkmək, həvəsdən düşmək* və s. nümunələrdə birinci sözlər öz mənasında işlənə bilir və əsas tərəfdir.

**Qeyd:** Sabit söz birləşmələrinin qovuşma dərəcəsinə görə üç qrupa ayrılması (qovuşma, birlik, birləşmə) özünü doğrultmur. Müqayisə edək: frazeoloji qovuşmalar – *bel bağlamaq, can almaq, göz yummaq, düz gəlmək, əl açmaq, əl atmaq* və s, frazeoloji birləşmələr – *hava almaq, baş götürmək, göz çıxartmaq, dil basmaq* və s.

Sabit söz birləşmələrinin tərəflərinin məna və qrammatik cəhətdən qovuşma dərəcəsinə görə üç qrupa ayrılması V.V.Vinoqradov tərəfindən rus dili materialları əsasında aparılmışdır. V.V.Vinoqradovun bu bölgüsü uzun müddət məqbul bir bölgü kimi qəbul olunmuşdur. Lakin belə bir təsnifat özünü doğrultmur. Ona görə ki, sabit söz birləşmələrinin komponentlərinin istər qovuşması, istər birləşməsi, istərsə də uyuşması onların sabitliyini göstərir. Sabit söz birləşmələrinin məna bütövlüyünü, nitqdə hazır şəkildə mövcud olmasını, tərkib hissələrinin möhkəm bağlanmasını təsdiq edir. Yəni sabit söz birləşmələrinin forması da, məzmunu da göstərir ki, onları qovuşma, birləşmə, uyuşma məna qruplarına ayırmaq əsassızdır.

**Frazeoloji sabit ifadə və ibarələrin frazeoloji söz birləşmələrindən fərqi.** Frazeoloji ifadə və ibarələr frazeoloji söz birləşmələrindən aşağıdakı xüsusiyyətlərinə görə fərqlənir.

1) Frazeoloji ifadə və ibarələr frazeoloji vahidlərə nisbətən dildə az işlənir.

2) Frazeoloji ifadə və ibarələri təşkil edən sözlər arasında sintaktik əlaqə özünü aydın şəkildə göstərir.

3) Frazeoloji ifadə və ibarələr sintaktik vəzifələrinə görə əsasən cümlə olur.

4) Frazeoloji ifadə və ibarələrin bu və ya digər sözlə sinonimi, ekvivalenti (qarşılığı) ola bilmir.

**Frazeoloji sabit ifadə və ibarələr**. Öz lüğəvi tərkibinə və qrammatik qovuşmasına görə möhkəm, həm də aydın, obrazlı

olan ifadələrə frazeoloji sabit ifadə və ibarələr deyilir. Frazeoloji sabit ifadələrə *atalar sözləri, məsəllər, yazıçıların yaratdıqları məsəlvari ifadələr, aforizmlər, rəvayətli ifadələr, ştamp və klişa adlanan ifadələr, ədəbi sitatlar* və s. daxildir.

***Atalar sözləri*** atalarımız və ulu babalarımız tərəfindən yaradılmış və dəyişməz halda qalan ifadələrdir. Atalar sözləri ilə bağlı xüsusiyyətləri belə ümumiləşdirmək olar:

1. Atalar sözləri, eləcə də məsəllər əsasən dəyişməz halda, yəni dildəki frazeoloji vahidlər kimi hazır şəkildə işləndiklərindən az qala frazeoloji vahidlərə bənzəyirlər. Lakin frazeoloji vahidlərdən fərqlənərək, onlar cümlə quruluşlu olurlar. Cümlə quruluşlu atalar sözləri və məsəllər bitmiş bir fikri ifadə edir.

2. Atalar sözləri və məsəllər keçmiş nəsillərin çoxcəhətli fəaliyyətdə əldə etdikləri nəticələri yeni nəslə vermək üçün işlədilir. Bəzən atalar sözləri və məsəlləri frazeologiyanın tərkib hissəsinə daxil etməyin heç bir mənası yoxdur. Çünki atalar sözləri və məsəllərdə obrazlılıq daha güclüdür.

3. Azərbaycan dili atalar sözü və məsəllərinin az bir qismi məna və quruluşca dəyişdirilərək nitq və ya dil vahidi səciyyəsində olmuşdur. Ona görə də dilimizin frazeoloji sisteminin zənginləşməsində bunların rolu böyükdür. Atalar sözlərinə diqqət yetirək: «El bir olsa, zərbi-kərən sındırar», «Yüz ölç, bir biç», «Dil yanılar, doğru deyər», «Alçaq dağa qar yağmaz», «Arifə bir işarə bəsdir», «Atan ilə atamı deyincə, özün ilə özümü de», «Axtaran tapar», «Aşıq gördüyün çağırar», «Ət yeyən quş dimdiyindən bilinər»və s. Ümumiyyətlə, atalar sözləri elmə, vətənə, sənətə, əməyə, biliyə, ağıla, arzu və istəyə, uşaq və valideynlərə, dostluq və birliyə və s.-yə aid olur.

Dilimizdəki atalar sözləri frazeologiyanın zənginləşdirilməsində mənbə rolunu oynayır. Bu mənada frazeoloji vahidlərin bir qismi atalar sözlərindən aşağıdakı qaydalar əsasında formalaşmışdır.

1) Atalar sözlərinin bir hissəsinin atılması yolu ilə frazeoloji vahidlər formalaşmışdır. Məsələn: «Üz vermə, astar da istər» əsasında «üz verməк», «Namərdin çörəyi dizinin üstündə olar» əsasında «çörəyi dizinin üstündə olmaq», «Tülkü tülkülüyünü sübut edincə dərisini boğazından çıxararlar» əsasında «dərisini boğazından çıxarmaq», «Söz sözü gətirər, arşın bezi» əsasında «söz sözü gətirər», «Anlayana da can qurban, anlamayana da, dad yarımçıq əlindən» əsasında «dad yarımçıq əlindən» və s.

2) Ümumi şəxsli sadə cümlə quruluşunda olan nəsihət, məsləhət məzmunlu atalar sözlərinin bir qismi dəyişikliyə uğrayaraq frazeoloji vahidə çevrilmişdir. Məsələn: «İsti aşa soyuq su qatmazlar» əsasında «İsti aşına soyuq su qatma», «Ox atıb yayını gizlətməzlər» əsasında «Oxunu atıb yayını gizlətmək» və s.

**Qeyd:** Atalar sözlərinin bir qismi frazeoloji vahidləri zənginləşdirdiyi kimi, bəzi frazeoloji vahidlər də atalar sözlərini zənginləşdirir. Məsələn: «əmələ gəlmək» frazeoloji vahidi əsasında «Elm pul ilə yox, çalışmaqla əmələ gələr» atalar sözü formalaşmışdır.

Başqa misallara diqqət yetirək:

| *Frazeoloji vahid:* | *Atalar sözü:* |
|---|---|
| başa gəlmək | Sakitliklə olan iş qışqırıqla başa gəlməz |
| can vermək | Hiylə ilə iş görən möhnətlə can verər |

| | |
|---|---|
| başına gəlmək | Gülmə qonşuna, gələr başına |
| canı çıxmaq | Qaşıyıram qanım çıxır, qaşımıram canım çıxır |
| əl tutmaq | Əl tutanın əlindən tutarlar və s. |

***Zərb məsəllər.*** Atalar sözlərindən fərqli olaraq *zərb məsəllər* konkret hədəfə doğru yönəlmiş olur. Eyni zamanda zərb məsəllər quruluş etibarilə tabesiz mürəkkəb cümlə şəklində təşəkkül tapır. Müqayisəyə diqqət yetirək:

*«Bağda ərik var idi, salamməleyk var idi,*
*Bağdan ərik qurtardı, salamməleyk qurtardı».*
*«Adam var ki, adamların naxşıdır,*
*Adam var ki, dindirməsən yaxşıdır».*

*«Keçmə namərd körpüsündən,*
*Qoy, aparsın sel səni».*

*«Yatma tülkü kölgəsində,*
*Qoy yesin aslan səni».*

***Rəvayətli ifadələr.*** Frazeoloji sabit ifadə və ibarələrə *rəvayətli ifadələr* də daxildir. Rəvayətli ifadələr konkret olaraq müəyyən rəvayətlər əsasında formalaşır. Məsələn: *Göyün yeddinci qatına çıxmaq; Ovcunun içini iyləmək; Əlinin papağını Vəlinin başına qoymaq, Vəlinin papağını Əlinin başına qoymaq* və s.

Rəvayətli ifadələri şair və yazıçılar da yaradır. Məsələn:

*Qızılı udsa da, qara torpaqlar*
*Yenə də qiyməti özündə saxlar.*

Yaxud:

*Dünyada qalacaq yalnız yaradan,*
*Soyuq məzara da zinətdir insan.*

Frazeoloji vahidlərin yaranmasında rəvayətli ifadələr mənbə rolunu oynaya bilir. Rəvayətli ifadələr əsasında formalaşmış *başı əhlət daşına dəymək, başına kül tökmək, bişmiş toyuğun gülməyi gəlir, barmaq qoymaq, qamış qoymaq, dəvəsi ölmüş ərəb* kimi frazeoloji vahidləri bu qəbildən saymaq olar.[1] Məsələn: «Alnı əhlət daşına dəyməyib» rəvayəti barəsində olan şərh belədir: Dini rəvayətə görə, ölü basdırıldıqdan sonra yerindən qalxıb getmək istəyir, lakin başı əhlət daşına dəyir və öldüyünü başa düşür. İndi bu rəvayət məcazi məna kəsb edərək çətinlik görməmiş, hər şeyə qeyri-ciddi baxan adamlara aid edilərək işlədilir.

Rəvayətli ifadə və frazeoloji vahid kimi işlənən dil faktlarına diqqət yetirək.

| *Rəvayətli ifadələr:* | *Frazeoloji vahidlər:* |
|---|---|
| Alnı əhlət daşına dəyməyib | Sənin *başın əhlət daşına dəyəndən* sonra işlər düzəlib |
| Başına kül tökmək | *Kül başına*, ay Rəhman |
| Bişmiş toyuğun gülməyi gəlir | Elə danışırsan ki, *bişmiş toyuğun gülməyi* gəlir |
| Qamış qoymaq | Sən də hər işə bir *qamış qoyursan* |
| Dəvəsi ölmüş ərəb | Mən *dəvəsi ölmüş ərəbəm* |
| Barmaq qoymaq | Bu işə guya mən də *barmaq qoymuşam* və s. |

[1] H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. «Maarif» nəşriyyatı, Bakı, 1978, s.47.

***Hikmətli sözlər.*** Daha çox yazılı ədəbiyyatda yazıçıların, şairlərin istifadə etdiyi sözlərdir. Bu tipli sözlər hər hansı hadisəyə qarşı müsbət münasibəti ifadə edir. Məsələn: *Bəlkə də qaytardılar, ölüm ya olum, kamil palançı* və s. Şair və yazıçılar müxtəlif millətlərə mənsub olduğu kimi, onların yaratdığı hikmətli ifadələr də müxtəlif xalqların ədəbiyyatına aid olur. Bu mənada hikmətli ifadələri mənsub olduğu xalqların ədəbiyyatları üzrə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Azərbaycan ədəbiyyatına aid olanlar: Meymunu yada salmaq. (M.F.Axundov) Gündə bir xurma ilə dolanmaq. (C.Məmmədquluzadə) O olmasın bu olsun. (Ü.Hacıbəyov) Ağladıqca kişi qeyrətsiz olur. (Sabir) Bəlkə də qaytardılar. (C.Məmmədquluzadə) Sizi deyib gəlmişəm, ey müsəlman qardaşlar. (C.Məmmədquluzadə) Saqqallı uşaq. (C.Məmmədquluzadə) Muğan Muğan olsa, biri üç eylər, Muğan tufan olsa üçü heç eylər. (S.Vurğun) və s.
2. Rus ədəbiyyatına aid olanlar: Olmasaydı cahanda sarsaqlar, ac qalardı yəqin ki, yaltaqlar. Bu gün tezdir, sabah gec. Çatmaq və ötmək. Böyük təşəbbüs və s.
3. Dünya ədəbiyyatına aid olanlar: İnsanlar, sayıq olun. (Fuçik) Dizi üstdə yaşamaqdansa, ayaq üstdə ölmək yaxşıdır. (İbaruri) Barıtı quru saxlamaq. (Kromvel) Gəldim, gördüm, qələbə çaldım. (Sezar) Ya göründüyün kimi ol, ya olduğun kimi görün. (C.Rumi) Tərbiyə verənin özünə tərbiyə vermək lazımdır və s.

**Qeyd**: Frazeologiyanın iki böyük qrupa (sabit söz birləşmələrinə, sabit ifadə və ibarələrə) ayrılmasına dilçilikdə etiraz edənlər də vardır. Etiraz edənlər belə hesab edirlər ki, ümumi məna anlamını götürəndə atalar sözü, məsəllər, ibarələr, hikmətli sözlər frazeologiyaya aid edilə

bilər, ancaq onlar sözün ekvivalenti kimi işlənə bilmir. Bu cəhətdən də sabit söz birləşmələrindən fərqlənir. Onların tərkib hissələri həm də müstəqil mənalı, qrammatik və sintaktik xüsusiyyətlərə malik bir formadadır.

**Frazeoloji vahidlərin məna növləri.** Frazeoloji vahidlər mənasına görə dörd qrupa bölünür:

1. Omonim frazeoloji vahidlər
2. Sinonim frazeoloji vahidlər
3. Antonim frazeoloji vahidlər
4. Çoxmənalı frazeoloji vahidlər.

***1. Omonim frazeoloji vahidlər***. Omonim frazeoloji vahidlər dedikdə eyni sabit birləşmənin (frazeoloji vahidin) fərqli mənaları bildirməsi nəzərdə tutulur. Omonim frazeolologi vahidlər say baxımından olduqca məhduddur. Belə ki, sözlərin omonimliyi frazeoloji vahidlərin omonimliyindən kəmiyyətcə fərqlənir. Bunun ən başlıca səbəblərindən biri ondan ibarətdir ki, frazeoloji vahidlərin əmələ gəlməsi üçün onların komponentləri məcazlaşmalıdır. Məsələn: *söz vermək-danışmasına icazə vermək, razılaşmaq mənasında; əl qaldırmaq-səs vermək, döymək mənasında; üz ağartmaq, dillərdə dastan olmaq, sözünün ağası olmaq, əl atmaq* və s. Məsələn: *söz vermək* omonim frazeoloji vahidi *danışmasına icazə vermək*, *razılaşmaq* mənasında işlənir, yaxud *əl qaldırmaq* omonim frazeoloji vahidi – *səs vermək*, *döymək* omonim mənasını bildirir.

Azərbaycan dilində omonim frazeoloji vahidlərin əmələ gəlməsində aşağıdakı hallar özünü göstərir:

a) frazeoloji vahid əvvəlki mənasından əlavə olaraq yeni bir məna da kəsb edir. Məsələn: *üz vermək – bir hadisənin baş verməsi, üz vermək – bir şəxsi yaxşı qarşılamaq; can vermək – ölmək, can vermək – diriltmək, sağaltmaq, yaşatmaq; başa vurmaq – ömrü başa vurmaq, sona çatdırmaq, başa vurmaq – edilən yaxşılığı xatırlamaq, üzə vurmaq; ayağa qaldırmaq – hərəkətə gətirmək, ayağa qaldırmaq – sağaltmaq, yetişdirmək, tərbiyələndirmək, bəsləyib-böyütmək; baş vermək – əmələ gəlmək, ortaya çıxmaq, baş vermək – başlamaq, baş vermək – cücərmək, bitmək* və s.

b) Çoxvariantlı frazeoloji vahidlərin variantlarından birinin omonimləşməsi. Məsələn: *əl açmaq, əl qaldırmaq – döymək mənasında, əl açmaq – yardım istəmək; ələ keçirmək, ələ salmaq, ələ salmaq – lağa qoymaq, dolamaq* və s. Bu misallarda *əl açmaq* variantı *yardım istəmək*, *əl qaldırmaq* variantı *döymək*, *ələ salmaq* variantı isə *lağa qoymaq*, *dolamaq* mənalarını əldə etmişdir.

***2. Sinonim frazeoloji vahidlər.*** Sinonim frazeoloji vahidlər leksik vahidlərin sinonimliyi ilə yaxınlıq yaradır. Onların biri digərini əvəz edə bilir. Məsələn: *istiqamət almaq – istiqamət götürmək, başa çatdırmaq – başa vurmaq, özünə gətirmək – huşa gətirmək, yaxşı düşməz – yaxşı çıxmaz, gözü doymamaq – gözü ac olmaq, ağıl vermək - ağıl öyrətmək, azarı tutmaq – azarı qalxmaq, zəhləsi getmək – zəhləsi qaçmaq, dövran sürmək – həyat sürmək, ələ keçirmək – ələ almaq, atəş açmaq – atəşə tutmaq, qılığına girmək – qılıq etmək, xətrini qırmaq – xətrini sındırmaq, zəhləsi getmək – zəhləsi qaçmaq, əli yatmaq– əli öyrənmək* və s.

Sinonim frazeoloji vahidləri aşağıdakı qruplara ayırmaq olar:

a) tərkibindəki sözlərin sinonim sözlərlə əvəzlənməsindən ibarət olan frazeoloji vahidlər: *baş-başa gəlmək – kəllə-kəlləyə gəlmək, ürəyini açmaq – qəlbini açmaq* və s.

b) tərkibindəki sözlərin sinonim olmayan sözlərlə əvəzlənməsindən ibarət olan frazeoloji vahidlər: *qoyunu qurda tapşırmaq – quzunu qurda tapşırmaq, boşqab dibi yalamaq – qazan dibi yalamaq, ağzı qatıq kəsmək – ağzı pendir kəsmək* və s.

c) tərkibindəki qoşa sözlərdən ikincisinin əvəzlənməsindən ibarət olan frazeoloji vahidlər: *dilə-dişə düşmək – dilə-ağıza düşmək, baş-beynini aparmaq – baş-qulağını aparmaq* və s.

ç) tərkibindəki sözlər həm leksik, həm də qrammatik cəhətdən fərqlənən frazeoloji vahidlər: *abırdan salmaq– abrını ətəyinə bükmək, əli boşa çıxmaq – əli boşda qalmaq* və s.

d) tərkibindəki sözlər qrammatik cəhətdən dəyişən frazeoloji vahidlər: *mum kimi yumşalmaq – mumdan yumşaq olmaq, göz-qulaq olmaq – gözdə-qulaqda olmaq, başını pambıqla kəsmək – pambıqla baş kəsmək* və s.

***3. Antonim frazeoloji vahidlər.*** Antonim frazeoloji vahidlər bir-birinin əksini bildirir. Məsələn: *bərkə-boşa düşmək-bərkdən-boşdan çıxmaq, ad almaq-ad batırmaq, üzü ağ olmaq – üzü qara olmaq, başı-açılmaq – başı qarışıq olmaq, özünə gəlmək – özündən getmək, ara düzəltmək – ara pozmaq, ağlı başına gəlmək – ağlı başından çıxmaq, bərk ayaqda – boş ayaqda, ağ gün – qara gün, kələfin ucunu itirmək – kələfin ucunu tapmaq* və s.

Frazeoloji vahidlər də sözlər kimi antonim ola bilirlər. Antonim frazeoloji vahidləri aşağıdakı qruplara ayırmaq olar:

a) tərəflərindən birincisi antonim, ikincisi eyni sözdən ibarət olan frazeoloji vahidlər: *xoşbəxt olmaq – bədbəxt olmaq, şirin dil – acı dil, acığı gəlmək – xoşu gəlmək* və s.

b) tərəflərindən birincisi eyni sözdən, ikincisi antonimdən ibarət olan frazeoloji vahidlər: *dili acı – dili şirin, gözü ac – gözü tox, üzü ağ olmaq – üzü qara olmaq, məsləhət almaq – məsləhət vermək, söz almaq – söz vermək* və s.

c) tərəflərin hər ikisi antonim olan frazeoloji vahidlər: *başını bağlamaq – ayağını açmaq, xoşu gəlmək – zəhləsi getmək, kefini açmaq – qanını qaraltmaq, dayaq durmaq - dalından qaçmaq* və s.

***4. Çoxmənalı frazeoloji vahidlər.*** Çoxmənalı frazeoloji vahidlər sözlərin çoxmənalılığı ilə əlaqəli şəkildə başa düşülür. Burada da eyni frazeoloji vahid bir sıra mənaları bildirir. Yəni çoxmənalı frazeoloji vahidlər bir sıra mənaların toplanmasından yaranır.

Çoxmənalı frazeoloji vahidlər omonim frazeoloji vahidlərə bənzəsə də, ondan fərqlənir. Bu fərq ondan ibarətdir ki, çoxmənalı frazeoloji vahidlərin sonrakı mənaları onun ilk mənası ilə bağlıdır. Məsələn: *can almaq* frazeoloji vahidinin çoxmənaları bunlardır: *dini mənada öldürmək, həqiqi mənada öldürmək, cəzalandırmaq, bir işi görüb başa çatdırmaq, gözəlliyi ilə diqqəti cəlb etmək, valeh etmək mənalarında. Bənd olmaq* frazeoloji vahidinin çoxmənalılığı: *bir işdən yapışmaq*, *ilişmək, bağlanmaq. Qulaq asmaq* frazeoloji vahidinin çoxmənalılığı: *dinləmək*, *yoxlamaq*, *xəbər bilmək*, *sözə baxmaq*, *fikir vermək*, *Azad olmaq* frazeoloji vahidinin çoxmənalılığı: *azadlıq əldə etmək*, *boşalmaq*, *arzu etmədiyi bir işdən can qurtarmaq, xilas olmaq, doğmaq, işi qurtarmaq*.

Frazeoloji vahidlərin əmələ gəlməsində mənbə rolunu xalq danışıq dili, bədii ədəbiyyat və folklor təşkil edir. Bu mənada frazeoloji vahidlər aşağıdakı şərtlərlə yaranır:

1. *Həyat tərzi və yaşayış tərzi ilə əlaqədar olaraq yaranır.* Məsələn: *xörək asmaq, xəmir qatmaq* və s.
2. *Sənətlə, peşəylə bağlı yarananlar.* Məsələn: *papağı papaqçıya ver, birini də üstəlik* və s.
3. *Dinlə, mövhumatla bağlı olaraq yarananlar.* Məsələn: *cənnətlik olmaq, Allah rəhmətinə getmək, Allahın qəzəbinə tuş gəlmək* və s.
4. *Rəvayətlər əsasında yarananlar.* Məsələn: *dəlidən doğru xəbər, saqqalı ələ vermək, saqqızını oğurlamaq* və s.
5. *Adət-ənənə ilə bağlı yarananlar.* Məsələn: *duz-çörək kəsmək* və s.

Frazeoloji vahidlər tərəflərinin hansı nitq hissəsi ilə ifadə olunmasına görə iki yerə ayrılır:

1. *İsmi frazeologizmlər*
2. *Feili frazeologizmlər.*

**1. İsmi frazeologizm** dedikdə tərəfləri əsasən adlarla ifadə olunan frazeologizmlər başa düşülür. Məsələn: *dəvəsi ölmüş ərəb, quyruqlu ilan (I növ ismi birləşmə); qan çanağı, elm dəryası (II növ ismi birləşmə); Allahın bəlası, arabanın təkəri, arabanın dal çarxı, ürəyin başı, dəryada balıq sevdası, ölüm ayağı (isim-isim şəklində olanlar), ayağı yüngül, dağdan ağır, ürəyi dağlı, ayağı ağır (isim-sifət); çağrılmamış bayatı (feili sifət-isim)* və s.

Bu tipli frazeologizmlər qeyri-feili frazeologizmlər də adlandırılır. Onları hansı nitq hissələrinin birləşməsindən əmələ gəlməsinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

a) sifət + isim əsasında formalaşan frazeologizmlər: *doğru yol, təmiz ürək, şirin dil, yaman gün, açıq ürək, şirin söz, yağlı dil* və s.

b) isim + isim əsasında formalaşan frazeologizmlər: *can dəftəri, cib xərcliyi, zal əhli, bığ yağı, ağız ləzzəti, it dəftəri, çıxış yolu, əli qoynunda, gözü yolda* və s.

c) isim + sifət əsasında formalaşan frazeologizmlər: *ağzı göyçək, ağzı möhkəm, ağzı boş, alnı açıq, bəxti qara, ürəyi yumşaq, üzü qara, ürəyi təmiz, günü qara, əli uzun, könlü tox, qarnı qurdlu, gözü kölgəli* və s.

ç) say + isim əsasında formalaşan frazeologizimlər: *bir ağızdan, bir baş, bir nəfəsə, dördnala (çapmaq)* və s.

d) say + isim + say + isim əsasında formalaşan frazeologizmlər: *bir könüldən (ürəkdən) min könülə (ürəyə).*

e) isim + say + əvəzlik + say əsasında formalaşan frazeologizmlər: *həftə səkkiz mən doqquz.*

**Qeyd:** Azərbaycan dilində təxmini kəmiyyət bildirən frazeologizmlər də vardır. Məsələn: «çox» mənasını bildirən frazeologizmlər: *yerdən göyə qədər, yerlə göy qədər, göz işlədikcə, başdan-başa, başdan-ayağa və s.;* «az» mənasını bildirən frazeologizmlər: *bir qədər, bir az, iki cüt bir tək* və s.

**2. Feili frazeologizmlərin** əsas tərəfləri feillə ifadə olunur. Məsələn: *qulaq asmaq, fikir vermək, dərd çəkmək, mat qalmaq, pəl vurmaq, əldən salmaq, abırdan salmaq, anasını ağlatmaq, atasını yandırmaq, nəzər salmaq, ağzını sürümək* və s.

Feili frazeologizmləri hansı nitq hissəsinin birləşməsindən əmələ gəlməsinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

a) isim + feil əsasında formalaşan frazeologizmlər: *baş aparmaq, gün görmək, oyun çıxarmaq, dövran sürmək* və s.

b) təsirlik halda olan isim + feil əsasında formalaşan frazeologizmlər: *aranı vurmaq, aranı qarışdırmaq, aranı pozmaq, aranı sazlamaq* və s.

c) mənsubiyyət və yönlük hal şəkilçili isim + feil əsasında formalaşan frazeologizmlər: *abrına qısılmaq, boynuna almaq, boynuna götürmək, ürəyinə gətirmək, dilinə gətirmək* və s.

ç) mənsubiyyət və təsirlik hal şəkilçili isim + feil əsasında formalaşan frazeologizmlər: *ağzını dağıtmaq, ağzını sürümək, ağlını itirmək, başını itirmək, burnunu sallamaq, dodağını sallamaq, barmağını dişləmək, milçəyini qorumaq, başını qorumaq* və s.

d) mənsubiyyət və çıxışlıq hal şəkilçili isim + feil əsasında formalaşan frazeologizmlər: *ayağından çəkmək, başından basmaq, dalından qaçmaq, burnundan tökmək, yadından çıxartmaq, başından atmaq, boynundan atmaq, xəyalından keçirmək* və s.

e) ismin bir neçə halında işlənən öz sözü + feil əsasında formalaşan frazeologizmlər: *özünə çıxmaq, özünü tutmaq, özündən küsmək, özündən getmək, özündən çıxmaq* və s.

**Qeyd:** Mənsubiyyət və çıxışlıq hal şəkilçili isim + feil əsasında formalaşan frazeologizmlərin belə bir quruluşda olanı da vardır: *ağzından od tökmək, sözündən baş açmamaq, dabanından tüstü çıxmaq, yaxasından əl çəkmək, dilindən kağız almaq, ürəyindən xəbər vermək* və s.

Dilimizdəki sabit birləşmələr sərbəst birləşmələrdən yaranmışdır. Onu da qeyd edək ki, sərbəst söz birləşmələrinin

sabit söz birləşmələrinə keçməsinin səbəbi olmuşdur. Sərbəst birləşmələrin sabit birləşmələrə keçməsi səbəbi aşağıdakılardır:

I. Sərbəst birləşmələrin ümumiləşmiş, obrazlı mənada işlənməsi;

II. Sərbəst birləşmələrdə sözlərin frazeoloji cəhətdən məhdudlaşmış şəkildə işlənməsi;

III. Sərbəst birləşmələrin həmin tarixi dövr üçün fəal olan bir məfhumu ifadə etməsi.

Dilimizdə keçid vəziyyətində olan bir sıra birləşmələr sübut edir ki, sabit birləşmələr sərbəst birləşmələrdən törəmişdir. Məsələn: *ayağının altını qazmaq, ağzına su almaq, göz gəzdirmək, üz göstərmək, qulaq çəkmək, əl açmaq* və s. Dilimizdə bir qisim sözlər məcazi (rəmzi) mənada işlənərək frazeologizmlər yaradır. Məsələn: *neft-qara qızıl, pambıq-ağ qızıl, dəvə-səhra gəmisi, göy-beşinci dəniz* və s.

Sərbəst birləşmələr əsasında frazeolgizmlərin yaranması üçün onlar məcazi məna kəsb etməlidir. Bu qayda ilə yaranan frazeologizmləri aşağıdakı qruplara ayırmaq olar:

1) Xalq ədəbiyyatı əsasında əmələ gələn frazeologizmlər: *Kərəm kimi alışmaq* («Əsli və Kərəm» dastanı), *Qəribi burada ağlamaq tutub* («Aşıq Qərib»), *Koroğlu kimi nərə çəkmək* («Koroğlu» dastanı), *Leyli-Məcnun olmaq*, *Məcnun kimi dağa-daşa düşmək* («Leyli və Məcnun») və s.

2) Tarixi şəxsiyyətlərin adı ilə yaranan frazeologizmlər: *Nadiri taxtda görmək, İsgəndər kimi sədd açmaq* və s.

3) Coğrafi adlarla bağlı yaranan frazeologizmlər: *Çin səddi çəkmək, Kəbədə yağ içmək* və s.

4) Dini əfsanə və rəvayətlər əsasında yaranmış frazeologizmlər*: Nuhu beşikdə görmək, Nuh tufanı qopmaq,*

*Nuhun gəmisi, Nuh əyyamdan qalmaq, Həzrət İsa kimi qeyb olmaq* və s.

5) Peşə-sənətlə bağlı əmələ gəlmiş frazeologizmlər: *Mizrabı sarı simə vurmaq, züy tutmaq, zurna çalmaq, qaytağı oynamaq, pərdəni yırtmaq, iynə üstə oturmaq, quşu qonmaq, quşu gözündən vurmaq, aşını bişirmək, aşının suyunu vermək, qəpiyə güllə atmaq* və s.

Azərbaycan dilində alınma yolla əmələ gəlmiş frazeologizmlər də vardır. Belə frazeologizmlərə alınma frazeologizmlər deyilir. Alınma frazeologizmlər kalka üsulu ilə əmələ gəlmişdir: *qlaflı adam* (çelovek v futlyare), *axına qarşı çıxmaq* (idti protiv teçeniya), *ümumi dil tapmaq* (nayti obşiy yazık), *Amerika kəşf etmək* (otkrıvat Ameriku) və s. Bu misallar həm həqiqi, həm də məcazi mənada işlənir.

**Kommunikativ frazeologizmlər, yaxud cümlə tipli frazeologizmlər**. Dilimizdə elə frazeologizmlər vardır ki, onlar kommunikativ funksiya daşıyır, cümlə tiplidir. Belə frazeologizmlərə kommunikativ frazeologizmlər, yaxud cümlə tipli frazeologizmlər də deyilir. Yeri gəlmişkən qeyd edək ki, bu qəbildən olan frazeologizmləri predikativ frazeologizmlər də adlandırırlar.

Kommunikativ frazeologizmlər, yaxud cümlə tipli frazeologizmlər həm məzmununa, həm də formasına görə cümləyə bərabərdir və bitmiş bir fikri, tam bir məlumatı bildirir. Məsələn: *Haranın daşını başıma salım; Yağışdan çıxıb yağmura düşdüm; Adı var, özü yoxdur; Elə bil qurbağa gölünə daş atdım; Qaz vurub qazan doldurmaq lazımdır; Kasa dibi yalayandır; Quyruğu qapı arasında qalıb; Canına vəlvələ düşdü; Canını oda yaxdı; Tüstün təpəndən çıxsın* və s.

**Frazeoloji vahidlərin yaranma mənbələri.** Frazeoloji vahidlərin yaranma tarixi çox qədimdir. Onlar xalqımızın həyat tərzi, məişəti, yaşayışı, məşğul olduğu peşə-sənətlər, inam və inanclar, adət-ənənələr və s. ilə bağlı olaraq yaranmışdır: *kündə tutmaq, xörək asmaq* (həyat və yaşayış tərzi ilə bağlıdır), *papağı yana qoymaq* (peş-sənətlə bağlıdır), *dəlidən doğru xəbər, saqqalı ələ vermək* (rəvayətlə bağlıdır), *o dünyalıq olmaq, cəhənnəmə vasil olmaq* (dinlə bağlıdır), *duz-çörək kəsmək, əliaçıq olmaq* (adət-ənənə ilə bağlıdır) və s.

Frazeoloji vahidlər, əsasən, iki mənbə əsasında yaranır: I. Dilimizin daxili imkanları hesabına, II. Alınmalar hesabına.

I. *Dilimizin daxili imkanları hesabına yaranan frazeoloji vahidlər.* Dilimizin daxili imkanları hesabına frazeoloji vahidlər aşağıdakı yollarla əmələ gəlmişdir:

1) Ayrı-ayrı sözlərin məcazi mənada, rəmzi mənada işlənməsi əsasında frazeoloji vahid əmələ gəlir: *pambıq – ağ qızıl, neft – qara qızıl, dəvə – səhra gəmisi* və s.

2) Dildəki sərbəst birləşmələrin bir qismi tədricən müəyyən dövrdən sonra obrazlılıq, məcazlıq kəsb edir, beləliklə, frazeoloji vahidlərə keçir. Bunu dilimizdəki *ağzına su almaq*, *ayağının altını qazmaq* və s. nümunələr də təsdiq edir. Belə ki, bu tipli misallar sərbəst birləşmələrin sabit birləşmələrə keçməsini təsdiq edir. Onlar həqiqi mənada işlənməklə yanaşı, həm də məcaziləşmişdir: *ağzına su almaq* «dinməmək», ayağının altını qazmaq «ziyan vermək», «pislik etmək» məcazi mənalarını kəsb etmişdir.

Sərbəst birləşmələr sabit birləşmələrə keçdikdə onların komponentləri məcazlaşaraq bir məfhum ifadə edir.

Yeri gəlmişkən onu da qeyd edək ki, xalq ədəbiyyatı əsasında əmələ gələn, tarixi şəxsiyyətlərin adı ilə bağlı olan,

coğrafi adlarla əlaqədar yaranan, dini əfsanə və rəvayətlərlə bağlı olan, peşə-sənətlə əlaqədar əmələ gələn, bədən üzvləri ilə əlaqədar meydana çıxan frazeoloji vahidlər sərbəst birləşmələrin sabit birləşmlərə keçməsinə aid canlı nümunədir.

3) Frazeologizmlərdən əmələ gəlmiş frazeoloji vahidlər. Frazeoloji vahidlərin bir qismi yeni mənalar kəsb edir, ilkin mənadan uzaqlaşır, ilkin məna ilə olan əlaqəsini itirir. Bu zaman eyni quruluşlu və tərkibli frazeoloji vahid iki müstəqil mənanı bildirir: *can vermək – can vermək (ölmək) – can vermək (yaşatmaq), ürəyi yanmaq – ürəyi yanmaq (susamaq) – ürəyi yanmaq (yazığı gəlmək)* və s.

4) Atalar sözü və məsəllər əsasında əmələ gəlmiş frazeoloji vahidlər. Atalar sözü və məsəllər əsasında əmələ gəlmiş frazeologizmləri aşağıdakı qruplara ayırmaq olar:

a) atalar sözü və məsəllərin bir qismi heç bir dəyişiklik edilmədən frazeoloji vahid kimi işlənir: *dili ilanı yuvasından çıxarar*; *əti sənin, sümüyü mənim; köhnə hamam, köhnə ta*s və s.

b) atalar sözü və məsəllərin bir qisminin ixtisarı ilə frazeoloji vahidlər əmələ gəlmişdir: *sənə bir aş bişirim ki, dadı damağından getməsin – aş bişirmək; üz vermə, astar da istər – üz vermək; ağ gün ağardar, qara gün qaraldar – ağ gün, qara gün; tülkü tülkülüyünü sübut edincə dərisini boğazından çıxarmaq – dərisini boğazından çıxarmaq; anlayana da can qurban, anlamayana da, dad yarımçıq əlindən – dad yarımçıq əlindən* və s.

II. *Alınmalar hesabına yaranan frazeoloji vahidlər.* Alınmalar hesabına yaranan frazeoloji vahidlər dilimizdə kalka yolu ilə əmələ gəlmişdir. Azərbaycan dilinin frazeoloji vahidləri içərisində rus dili materialları əsasında formalaşan frazeoloji vahidlər mühüm yer tutur. Əlbəttə, rus dili frazeoloji

vahidlərinin kalka yolu ilə dilimizə keçməsi ehtiyac, tələbatla bağlı yaranmışdır. Bu barədə H.Bayramov yazır: «Azərbaycan dili frazeoloji sistemini bu cəhətdən (başqa dillərin təsiri cəhətdən – B.X.) rus dili faktları ilə müqayisəli şəkildə nəzərdən keçirərkən görürük ki, dilimizdə bir neçə belə sabit birləşmə rus dilinin təsiri ilə yaranmışdır. Ehtimal etmək olar ki, bunların yaranması təxminən XIX əsrin ikinci yarısından sonra başlamışdır… Xüsusilə, qabaqcıl fikirli rus yazıçılarının əsərlərinin, məqalələrinin Azərbaycan dilinə tərcüməsi zamanı dilimizdə qarşılığı olmayan bir sıra rus və Avropa dillərinə məxsus sözlərlə, terminlərlə yanaşı, rus dilindəki bəzi frazeoloji vahidlərin də Azərbaycan dilində kalkasının yaranmasına ehtiyac duyulurdu».[1]

Rus dili materialları əsasında Azərbaycan dilində kalka yolu ilə yaranan frazeologizmlərə aid misalları nəzərdən keçirək.[2]

| *Rus dilində:* | *Azərbaycan dilində:* |
|---|---|
| Ni rıba ni myaso | nə ətdir nə balıq |
| bit (v odnu) toçku | bir nöqtəyə döymək (vurmaq) |
| voyti v istoriyu | tarixə düşmək |
| idti protiv teçeniya | axına qarşı çıxmaq (getmək) |
| v kavıçkax | dırnaq içərisində, dırnaq arasında |
| do posledney kapli krovi | son damla qanına qədər |
| naxodit obşiy yazık | ümumi dil tapmaq |
| otkrıvat Ameriku | Amerika açmaq |
| otkrıt novuyu straniçu | yeni səhifə açmaq |
| v svoyu oçered | öz növbəsində |

[1] H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. «Maarif» nəşriyyatı, Bakı, 1978, s. 68-69.

| | |
|---|---|
| za odno spasibo | bir sağola |
| stavit toçku | nöqtə qoymaq |
| çelovek v futlyare | qılaflı adam və s. |

Azərbaycan dilinin özünəməxsus frazeoloji vahidlərini başqa dillərə tərcümə etmək olmur. Onları başqa dillərə hərfi tərcümə etdikdə anlaşılmaz söz yığını yaranır. Xüsusilə, Azərbaycan dilindəki frazeoloji vahidləri qohum olmayan dillərə, Məsələn: rus dilinə tərcümə etdikdə anlaşılmazlıq yaranır. Bunun səbəbi həm də onunla bağlıdır ki, rus və Azərbaycan dilləri müxtəlif sistemli dillərdir. Azərbaycan dili türk dillərinə, rus dili Hind-Avropa dillərinə aiddir. Yəni müxtəlif dil ailələrinə mənsub olan frazeoloji vahidləri bir-birinə hərfi tərcümə etmək olmur. Ancaq eyni dil ailəsinə mənsub olan frazeoloji vahidləri bir dildən digərinə hərfi tərcümə özünü doğruldur. Bu mənada Azərbaycan dilindəki frazeoloji vahidlərin böyük bir qismi tarixən türk dilləri üçün ortaqlı olmuşdur. Belə ortaq frazeoloji vahidlər indi də türk dillərində qalmaqdadır. Yalnız fərq ondan ibarətdir ki, ortaq frazeoloji vahidlər türk dillərində bir-birindən fonetik tərkibinə görə fərqlənir. Belə frazeoloji vahidlərə aşağıdakı misalları nümunə göstərmək olar: *öc almaq, dil tökmək, baş qaldırmaq, ağzını aramaq, əl atmaq, əl çəkmək, əldən çıxmaq, gözə gəlmək, yolu düşmək, ağzından süd iyi gəlmək, ağlını itirmək, ad qazanmaq, ayağı düşmək, ayağı yer tutmaq, aradan çıxmaq, baş əymək, boyun əymək, boyun olmaq, boynunu burmaq, burnundan gətirmək, qan ağlamaq* və s.[1]

---

[2] Misallar barəsində bax: H.Bayramov. Adı göstərilən əsər. s. 69-70.
[1] Misallar H.Bayramovun adı göstərilən əsərindən götürülmüşdür (səh.65).

**Frazeoloji vahidlərin bədii təsvir vasitələri kimi işlənməsi**. Obrazlı dilin yaranmasında frazeoloji vahidlərin rolu az deyildir. Personajların fərdi xüsusiyyətlərini açmaqda, hadisələrin dinamik inkişafını çatdırmaqda, dinləyiciyə emosional təsir göstərməkdə, bədii lövhələri yaratmaqda və digər məqsədlə frazeoloji vahidlərdən məqsədli şəkildə istifadə olunur. Frazeoloji vahidlərə bədii təsvir vasitəsi kimi aşağıdakı məqamlarda müraciət olunur:

1) Poetik müqayisə yaratmaq üçün frazeoloji vahidlərdən istifadə olunur, iki obyekt qarşılaşdırılır və poetik şəkildə müqayisə olunur. Təbii ki, şair və yazıçılar frazeoloji vahidlər vasitəsilə poetik müqayisəyə daha üstünlük verirlər. Misallara diqqət yetirək:[2]

*Bizi atom bombası qorxutmaz zərrə qədər,*
*Atalar yaxşı deyib: «İt hürər, karvan keçər».*
*(S.Rüstəm);*

*Ancaq onu bil ki, Mədəd, «Xoruz çırpınsa bir çəngə tükdür, dəvə çırpınsa xoruza yükdür». (Ə.Vəliyev); Kələyi baş tutmadı, daş qayaya rast gəldi. (H.Mehdi)* və s.

2) Frazeoloji vahidlər vasitəsilə poetik müqayisə təzadlı bir şəkildə yaranır. Tərəflər bir-biri ilə qarşılaşdırılır və bu da təzad yaradır. Misallara diqqət yetirək:

*Mənim qəlbim deyil qara*
*Şahim, balıq başdan qoxur,*
*Qamış kökdən. (A.Şaiq);*

---

[2] Misallar K.Y.Əliyevin məqaləsindən götürülmüşdür. Bax: K.Y.Əliyev. Frazeologiya bədii təsvir vasitəsi kimi. – Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1966, №1, s. 52-59.

- *Bəy nədir, rəhimdil oldu nədir? İlanın ağına da lənət, qarasına da.* (Ə.Vəliyev); - *Bəli, sənin ayağını biləni mənim başım bilmir, bu nə sözdür?* (S.Qədirzadə) və s.

3) Frazeoloji vahidlər vasitəsilə alleqorik müqayisə yaranır. Alleqorik müqayisə bədii əsərdə poetik müqayisəyə xidmət edir. Misallara diqqət yetirək:

*Eh…cib-cib öyrədir, bir görün necə,*
*Bildirki sərçəyə bu ilki sərçə… (S.Rüstəm);*

- *Doğrusu, ağa, iki qoçun başı bir qazanda qaynamaz.* (Ə.Haqverdiyev); - *Xeyira, işə düşdük, it əl çəkdi, motal əl çəkməz.* (M.İbrahimov) və s.

4) Frazeoloji vahidlərlə ənənəvi müqayisə əsasında mətn daxilində təsvir olunan obyekt qarşılaşdırılır və poetik müqayisə yaradılır. Bu zaman *kimi* qoşmasından, *elə, elə bil, sanki* bağlayıcılarından istifadə olunur. Misallara diqqət yetirək:

*Abbas yumurtası tərs gəlmiş toyuq kimi bir yerdə otura bilmirdi.* (Ə.Haqverdiyev); - *Ağzında «Ayrım qızı» deyirsən, neçə keçinəcəyik, itlə pişik kimi.* (A. Şaiq); - *Yox doktor, sən arxayın ol, bir şey ki, mən bildim, elə bil bir daş bir quyuya düşdü.* (S.Rəhimov) və s.

5) Frazeoloji vahidlər vasitəsilə bənzətmə əsasında poetik müqayisə yaranır. Misallara diqqət yetirək: *Bu Rəhim nə girib meydana quyruq bulayır.* (N.B.Vəzirov); - *Qızım, təpik atma gəl öz baxtına?* (B.Vahabzadə) və s.

6) Frazeoloji vahidlər vasitəsilə epitet əsasında poetik müqayisə yaranır. Misallara diqqət yetirək:

*Ay şeytana papış tikən Manaf, sən də məni xam ələ salıb dindirmə, danışmayacağam!* (M.İbrahimov); *«Eh Şiraslan, Şiraslan, yüz ölçüb bir biçməyən Şiraslan* (S.Rəhimov) və s.

7) Frazeoloji vahidlər vasitəsilə mübaliğə əsasında poetik müqayisə yaranır  Misallara diqqət yetirək:

- *O arvad oxumuşdur… Yerin altını da  bilir, üstünü də…* (C.Cabbarlı); - *Heç bir şey! Onun Araz aşığından, Kür topuğundandır, evdə tapılmır.* (A.Şaiq); *«Əşi o, Nadiri taxtda görüb, Şah Abbası bələkdə» deyə Güloğlana əllidən artıq yaş verirdilər.* (S.Qədirzadə) və s.

8) Frazeoloji vahidlər vasitəsilə kinayə əsasında poetik müqayisə yaranır. Misallara diqqət yetirək:

- *Allah bu canıma dəyməsə görərik! Ölməz Xədicə, görər nəvə-nəticə!* (Ə.Vəliyev); *Bura bax, a Qurban, deyirlər axı sən elm dəryasısan… bu «kommunist» nə deyən sözdür?* (Ə.Vəliyev) və s.

# Leksikoqrafiya

# LEKSİKOQRAFİYA

Dilçiliyin bu şöbəsi lüğətləri öyrənir. Leksikoqrafiya yunan mənşəli sözdür. Mənası isə «lüğət yazıram» deməkdir. Lüğətlərin növləri, quruluşu, tərtibi prinsipləri, nəzəri əsasları və digər xüsusiyyətləri məhz leksikoqrafiyada öyrənilir.

*Lüğət nədir?* sualına belə cavab vermək olar. Müxtəlif dil vahidləri müəyyən qaydada düzülür və izah olunur. Bu da *lüğət* adlanır. Lüğətçiliyin tarixi çox qədimdir. Lüğətlərin tərtibi ilə hələ eradan əvvəlki dövrlərdə də məşğul olmuşlar. İlk lüğət nümunəsi qədim Yunanıstanda meydana çıxmışdır. Türk xalqlarının lüğətçilik tarixində isə bir sıra lüğətlərin böyük rolu olmuşdur. Məsələn: XI əsrin məşhur türkoloqu M.Kaşğarinin yazdığı «Divani-lüğət-it türk» əsəri, XIII əsrdə yazılmış İbn Mühənnanın «Kitabi-məcmueyi-tərcümani türki, farsi və monqoli» əsəridir.

XIII əsrin sonlarında Fəxrəddin Hinduşah Naxçıvani tərəfindən yazılmış «Əs-sihah əl-əcəmiyyə» lüğəti xüsusi əhəmiyyət kəsb edir. Bu lüğətin yazılmasında əsas məqsəd ondan ibarət olmuşdur ki, türklərə fars dilində daha düzgün yazmaq qaydaları öyrədilsin. Fəxrəddin Hinduşah Naxçıvani bu lüğəti 1279-cu ildə yazmışdır. Qeyd olunduğu kimi, məqsəd türklərə fars dilində düzgün yazmaq qaydalarını öyrətməkdən ibarət olduğuna görə müəllif fars sözlərinin türkcə tərcüməsini də vermişdir. Onu da qeyd etmək lazımdır ki, bəzən fars sözlərinin türkcə qarşılığını verən zaman müəllif

bilərəkdən türkcə sinonim sözlərdən istifadə etmişdir. Məqsəd ondan ibarət olmuşdur ki, fars sözlərinin mənasını onların türkcə qarşılığını müxtəlif sinonim sözlərlə verməklə türklərə fars dilini düzgün şəkildə öyrətmək mümkün olsun. Ona görə də lüğətdə türk sözlərinin sayı fars sözlərinin sayından üstünlük təşkil edir. Həmin türk sözlərindən bir qismi heç bir fonetik dəyişikliyə uğramadan müasir dilimizdə işlənir: aş, ayran, ağac, alma, buynuz, qamış, quş, qış və s. Bir qismi isə cüzi fonetik dəyişikliyə uğrayaraq müasir dilimizdə işlənir: *arslan*-aslan, *av*-ov, *buğday*- buğda, *bulut* – bulud, *qanat* – qanad, *oq* – ox və s. Bundan başqa, lüğətdə verilmiş sözlərin xeyli bir hissəsi müasir dilimizdə arxaikləşmişdir: *aş* – sıyıq xörək, *bozlamac* – sac üstündə bişirilən şirin çörək, *buğra* – erkək dəvə, *qarınca* – qarışqa, *aqça* – gümüş sikkə, *ağıl* – tövlə, *yazı* – məktub və s.

XIV əsrdə 1328-ci ildə Məhəmməd Naxçıvaninin yazdığı «Sihah əl-fors» lüğətində fars dilində az işlənən 2300 sözün izahı verilmişdir. O cümlədən bu lüğətdə Azərbaycan dilindən fars dilinə keçmiş bir qisim sözlərə də yer ayrılmışdır.

XV əsrdə özbək şairi Əlişir Nəvai «Mühakimətül lüğəteyn» adlı fars-türk lüğətini tərtib etmişdir. 1864-cü ildə L.M. Lazerev «Turetsko-tatarsko-russkiy slovar» lüğətini tərtib etmişdir. Bu lüğətdə 10000 söz əhatə olunub. 1869-1871-ci illərdə Lazar Budaqov «Sravnitelnıy slovar turetsko - tatarskix nareçiy» lüğətini çap etdirmişdir. Bu lüğətdə 12000 söz əhatə olunmuşdur. 1893-1911-ci illərdə V.V. Radlov «Opıt slovarya tyurkskix nareçiy» lüğətini çap etdirmişdir.

**Lüğətlərin quruluşu və tərtibi prinsipləri.** Lüğətlər quruluşuna görə bir-birindən fərqlənir. Belə ki, bəzi lüğətlərdə sözlər izah olunur. Bəzilərində onların düzgün yazılışı və tələffüzü göstərilir və s. Lüğətlərin tərtibində də fərqlər var. Onların tərtibində iki üsuldan geniş istifadə olunur. Bunlardan biri «yuva», digəri isə «əlifba» üsuludur.

*Yuva üsulu* ilə tərtib olunmuş lüğətdə eyni kökdən olan sözlər bir *baş söz* ətrafında izah olunur. Buna yuva üsulu deyilir. Bunun müsbət cəhəti odur ki, sözlərin qohumluğu asanlıqla müəyyənləşdirilir. Mənfi cəhəti isə odur ki, bu lüğətlərdən istifadə edərkən lüğətlər üzərində saatlarla iş aparmaq lazım gəlir.

*Yuva üsulu* ilə tərtib olunmuş lüğətlərə Z.Budaqovun «Türk-tatar dillərinin müqayisəli lüğəti»ni, V.İ.Dalın «Rus dilinin izahlı lüğəti»ni və s. lüğətləri misal göstərmək olar. Sözlərin lüğətdə yuva üsulu ilə verilməsinin ilk təşəbbüsçüsü V.İ.Dal olmuşdur. V.İ.Dal bir kökdən əmələ gəlmiş eyni köklü müxtəlif mənalı sözlərin hamısını bir «yuva»da, bir lüğət məqaləsində, bir söz adı altında izah etmişdir.

*Əlifba üsulu* dedikdə sözlərin əlifba sırası ilə düzülüb, izah olunması başa düşülür. Lüğətlərdə səslənmə və mənaca yaxın olan sözləri vermək bir qədər çətindir. Ona görə də bu qəbildən olan sözlərin məna fərqlərini açmaq, izah etmək məqsədi ilə lüğətlər əlifba üsulu ilə tərtib olunur. Demək olar ki, lüğətlərin tərtibində daha çox əlifba üsuluna üstünlük verilir. Əlifba üsulunda sözlərin əlifba sırası ilə düzülüşünə və daxili əlifba sırasına xüsusi olaraq diqqət yetirilir. Lüğətdəki *baş söz* o sözdür ki, həmin söz lüğətdə aydınlaşdırılır. Lüğətlərdə aydınlaşdırılan hər bir söz *baş söz* adlanır. Baş

sözlərin seçilməsi, diqqəti cəlb etməsi üçün onlar qara və böyük hərflə göstərilir. Lüğətlərdə baş sözə aid verilən izahata *lüğət məqaləsi* deyilir. Lüğət məqaləsi yığcam və aydın olur. Burada uzunçuluğa yol verilmir.

**Lüğətlərin əsas tipləri.** Lüğətlər məzmun və xarakterinə görə iki böyük hissəyə bölünür:

1. Ensiklopedik lüğətlər;
2. Linqvistik lüğətlər.

***1.Ensiklopedik lüğətlər.*** Ensiklopediya yunan sözüdür. Mənası «biliklər dairəsi» deməkdir. Ensiklopedik lüğətlərdə əşya, hadisə, anlayış və s. hərtərəfli aydınlaşdırılır. Ensiklopediya termini elmdə qədim dövrlərdən başlayaraq işlədilmişdir. Ancaq ensiklopediya termini müxtəlif dövrlərdə ayrı-ayrı mənaları bildirmişdir. Hal-hazırda ensiklopedik lüğətlərdə elm sahələrinə dair, eləcə də ölkə və xalqlar haqqında məlumat verilir. Burada həm də ölkələrin sahəsi, əhalisi, mədəniyyəti, sənayesi, kənd təsərrüfatı və s. sahələri haqqında bilgilər olur.

Elm inkişaf etdikcə, həyat dəyişdikcə ensiklopedik lüğətlərə ehtiyac daha da artır. Bu mənada hal-hazırda ensiklopedik lüğətlərə ehtiyac daha böyükdür. Ensiklopedik lüğətlər müxtəlif məlumatları əhatə etdiyindən iki növə bölünür: *Universal ensiklopediyalar, sahə ensiklopediyaları.*

*Universal ensiklopediyalar.* Bu növ ensiklopediyalarda elmin bütün sahələrinə aid geniş, universal məlumat verilir. Universal ensiklopediyalar həcminə, əhatə etdiyi əraziyə və s.-yə görə aşağıdakı növlərə bölünür:

a) *universal böyük ensiklopediyalar*. Məsələn: «Böyük Sovet Ensiklopediyası». Bu ensiklopediyanın 1926-1927-ci illərdə 65 cildi çap olunmuşdur.

b) *universal kiçik ensiklopediyalar*. Məsələn: «Kiçik Sovet Ensiklopediyası». Bu ensiklopediyanın 1958-1960-cı illərdə 10 cildi nəşr olunmuşdur.

c) *universal regional ensiklopediyalar*. Məsələn: «Sibir Sovet Ensiklopediyası». Bu ensiklopediyanın 1929-1932-ci illərdə üç cildi çap olunmuşdur.

ç) *universal milli ensiklopediyalar*. Məsələn: «Özbək-Sovet Ensiklopediyası» (1971), «Qazax Sovet Ensiklopediyası» (1972), «Türkmən Sovet Ensiklopediyası» (1974) və s.

*Sahə ensiklopediyaları* bu və ya digər sahələrə həsr olunmuş ensiklopediyadır. Bu ensiklopediyada bu və ya digər sahələrə aid məlumatlar olur. Məsələn: «Fəlsəfə ensiklopediyası», «Tibb ensiklopediyası», «Tarix ensiklopediyası», «Ədəbiyyat ensiklopediyası» və s.

**Qeyd:** Azərbaycan Sovet Ensiklopediyasının ilk I cildi 1976-cı ildə çapdan çıxmışdır. 1983-cü ildə VII cildi çap olunub. Bu ensiklopediyanın on cildi və bir xüsusi Azərbaycan SSR cildi çap olunmuşdur. Ensiklopediyada təqribən 50-55-min məqalə-termin əhatə olunmuşdur.

***2. Linqvistik lüğətlər.*** Linqvistik lüğətlərin əsas obyekti sözlərdir. Bu lüğətlər bir, iki və çoxdilli olur. Məsələn: "Azərbaycan dilinin orfoqrafiya lüğəti" birdilli lüğətdir. "Rusca-azərbaycanca lüğət" ikidilli lüğətdir. Linqvistik lüğətlərin aşağıdakı növləri vardır:

*Tərcümə lüğətləri, İzahlı lüğətlər; Omonim lüğətləri; Sinonim lüğətləri; Frazeoloji lüğətlər; Dialektoloji lüğətlər; Terminoloji lüğətlər; Etimoloji lüğətlər; Tarixi lüğətlər; Əcnəbi sözlər lüğəti; Orfoqrafiya lüğətləri; Orfoepiya lüğətləri; Onomastik lüğətlər* və s.

**Azərbaycan dilinin izahlı lüğəti.** İzahlı lüğətlərdə sözün bütün mənaları aydınlaşdırılır. Azərbaycan dilinin izahlı lüğətlərinin əsas məqsədi dilin lüğət tərkibində olan sözlərin bütün məna incəliklərini izah etmək, aydınlaşdırmaqdır. Bu lüğətlərdə sözlərin hansı nitq hissəsi olması, mənşəyi və sair məsələlər də göstərilir. İzahlı lüğətlər öz məqsəd, vəzifə və xarakterlərindən asılı olaraq müxtəlif ola bilir:

1. *Bütün dilin izahlı lüğəti.* Bu lüğətdə həm ədəbi dildəki, həm də danışıq dilindəki bütün sözlər əhatə olunur.

2. *Ədəbi dilin izahlı lüğəti.* Bu lüğətdə ancaq ədəbi dildə olan sözlərin izahı əhatə olunur.

3. *Ayrı-ayrı şair və yazıçıların dilinin izahlı lüğəti.* Bu cür lüğətlərdə hər hansı bir şairin, yazıçının əsərlərindəki bütün sözlər, ifadələr öz əksini tapır. Məsələn: Puşkinin dilinin izahlı lüğəti.

4. *Ayrıca bir əsərin dilinin izahlı lüğəti.* Bu lüğətdə isə konkret olaraq hər hansı bir əsərdə işlənmiş sözlər əhatə olunur.

Azərbaycan dilinin izahlı lüğətinin tərtibinə 1945-1946-cı illərdə başlanmışdır. İzahlı lüğətin dörd cilddən ibarət olması nəzərdə tutulmuşdur. İzahlı lüğətin materiallarının nəşrinə 1949-cu ildən başlanmışdır. Müzakirə üçün lüğətin *A* hərfindən ibarət müəyyən hissələri Dil İnstitutunun əsərlərinin II buraxılışında və 1950-ci ildə III buraxılışında çap olunmuşdur. İzahlı lüğətin I cildi 1966-cı ildə Əliheydər Orucovun tərtibi

və redaktorluğu ilə nəşr olunmuşdur. Bu cilddə *A,B,V,Q* hərflərinə aid sözlər əhatə olunmuşdur. Lüğətin II cildi (*D*-Y hərfi də daxil olmaqla) 1980-ci ildə, III cildi (*K* hərfindən *R* hərfinə qədərki hissə) 1983-cü ildə, IV cild (*S* və *Ş* hərfi əhatə etməklə) 1987-ci ildə çap olunmuşdur. İzahlı lüğətdə Nəsimi dövründən başlayaraq ədəbi dilimizdə işlənən sözlər izah olunmuşdur.

Son dövrdə Azərbaycan dilinin izahlı lüğəti üç cilddə nəzərdə tutulmuş və çap olunmuşdur. Hər üç cildə professor Ağamusa Axundov redaktorluq etmişdir. I cild 1997-ci ildə çap olunmuş və burada 15500-dən artıq söz və 3500-dən artıq ifadə vardır. II cild 14000 sözü və 3000-ə yaxın ifadəni əhatə edir. Bu cild 1999-cu ildə çapdan çıxmışdır. III cilddə 15700-ə qədər söz və 3100-ə yaxın ifadə verilmişdir. Bu cild isə 2000-ci ildə nəşr edilmişdir.

Əlbəttə, ilk izahlı lüğətin hazırlanmasından xeyli vaxt keçməsi ilə bağlı olaraq dilimizin lüğət tərkibində dəyişikliklər baş vermişdir. Bu mənada yeni izahlı lüğətin tərtibini və çapını müsbət hal kimi qiymətləndirmək lazımdır.

Üç cildlik izahlı lüğəti İ.Məmmədov (A, B, V hərfləri), S.Əhmədova (Q hərfi), B.Abdullayev (K, G, L, M, N, O, Ö, P, R), N.Rəhimzadə (D, E, Ə, J, Z, İ, Y), M.İsmayılova (S, T, U, Ü, F, X, H, Ç, C, Ş) tərtib etmişdir.

2005-ci ildə A.Axundovun müəllifliyi ilə bircildlik «Azərbaycan dilinin izahlı lüğəti» çapdan çıxmışdır. 452 səhifəlik bu lüğət öz vəzifəsinə və tərtibi prinsiplərinə görə yenidir:

a) çap olunmuş dördcildlik lüğətdə olmayan 1500-ə yaxın söz bu lüğətə əlavə edilmişdir.

b) lüğət orta və ali məktəb müəllimləri, tələbələri və şagirdləri üçün vəsait kimi nəzərdə tutulmuşdur. Ona görə də orta və ali məktəblərdə tədris olunan yazıçıların, şairlərin əsərlərinin dilində işlədilən köhnəlmiş sözlərə, neologizmlərə, dialektizmlərə, alınmalara xüsusi yer verilmişdir.

c) lüğətdə orta və ali məktəblərdə tədris olunan bütün fənlərə aid terminlərə də diqqət yetirilmişdir.

ç) lüğətdə verilmiş dialektizmlərin mənsub olduqları dialekt və şivələr göstərilmişdir.

d) terminlərin mənsub olduğu sahələr göstərilmişdir.

e) lüğətdə verilmiş alınma sözlərin, terminlərin mənşəyi haqqında məlumat da öz əksini tapmışdır.

«Hər bir izahlı lüğətin vəzifəsi yalnız hər bir ayrıca sözün mənalarını şərh etmək deyil, habelə dilin leksik sistemində onun tutduğu mövqeyini, leksik qrammatik əlaqələrini açıb göstərməkdir. Leksik-qrammatik cəhət isə təriflər (izahlar) sistemində sözlərin bu və ya digər qrupları bir tipli (məna və ya qrammatik) izah üsullarının tətbiqində öz əksini tapır»[1].

İzahlı lüğətlərdə əsas məsələ əşya və hadisə məfhumlarını deyil, sözün leksik-qrammatik mənalarını izah etməkdir. Belə lüğətlərdə bir sözün mənası izah olunmaqla yanaşı, sabit söz birləşmələri də nəzərdən keçirilir. Bu izahatda söz ilə əşya, hadisə, söz ilə məfhum arasındakı əlaqənin açılıb göstərilməsi nəzərdə tutulur.

Deməli, hər bir izahlı lüğətin vəzifəsi yalnız ayrıca bir sözün mənalarını şərh etmək deyil, habelə dilin leksik sistemində onun tutduğu mövqeyi, leksik-qrammatik əlaqələrini

---

[1] Ə.Ə.Orucov. Azərbaycan dili filoloji izahlı lüğətinin nəzəri əsasları. Bakı,1965, s.38.

açıb göstərməkdir. İzahlı lüğətlərdə terminlərin izahı, mənaca bir-birinə yaxın olan sözlərin semantik cəhətdən işlədilməsi, sözlərinin mənalarının sinonimləri vasitəsilə izah olunması və s. əsas məsələdir.

İzahlı lüğətlərin tərtibində təsviri, sinonimik təsvir, leksik, qrammatik və s. üsullardan istifadə olunur.

«Azərbaycan dilinin izahlı lüğəti»ndən başqa, digər izahlı lüğətlər də çap olunmuşdur. Bunlar, əsasən, aşağıdakılardır:

1960-cı ildə «Azərbaycanın izahlı coğrafi adlar lüğəti» nəşr olunmuşdur. Bu lüğət 267 səhifədən ibarətdir.

1966-cı ildə «İzahlı coğrafiya lüğəti» «Maarif» nəşriyyatında çap olunmuşdir. Bu lügətin tərtibçiləri Osman Osmanov və Bəhruz Abdullayevdur. Lüğət 171 səhifədən ibarətdir. Tərtibçilər lüğəti şəkilli olaraq hazırlamışdır.

1969-cu ildə «İzahlı dilçilik lüğəti» «Maarif» nəşriyyatında çap olunmuşdur. Lüğətin tərtibçisi Əli Fərəcovdur. Lüğət 143 səhifədən ibarətdir.

1979-cu ildə Osman Osmanov və Bəhruz Abdullayevin «İzahlı coğrafiya lüğəti» yenidən işlənərək və təkmilləşdirilərək «Məktəblinin izahlı coğrafiya lüğəti» kimi «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğət 132 səhifədən ibarətdir.

1982-ci ildə Nəbi Nəbiyev və Budaq Budaqov tərəfindən «Coğrafi adlar izahlı lüğəti» «Azərnəşr» nəşriyyatında hazırlanmışdır. Lüğət 282 səhifədən ibarətdir.

1983-cü ildə «Ədəbiyyat dərsliklərində təsadüf olunan çətin sözlərin izahlı lüğəti» «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi Quşdan Bağırovdur. Lüğət 104 səhifədən ibarətdir.

1985-ci ildə «Rusca-azərbaycanca izahlı hərbi terminlər lüğəti» «Azərnəşr» nəşriyyatında nəşr edilmişdir. Tərtibçi M.Seyidovdur. Lüğət 335 səhifədən ibarətdir.

1997-ci ildə «İzahlı ekologiya lüğəti» «Elm» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin redaktoru biologiya elmləri doktoru, professor Q.Ş.Məmmədov, tərtibçiləri M.Y.Xəlilov və F.Ş.Əliyevdir. Lüğət 260 səhifədən ibarətdir. Lüğətdə 1000-dən artıq ekologiyaya aid sözün (terminin) mənası izah edilmişdir. Bu lüğət Azərbaycan dilində ilk geniş lüğət kimi ekoloqlar, bioloqlar, coğrafiyaşünaslar, meşəçilər, torpaqşünaslar, geobotaniklər, həm də təbii sərvətlərdən istifadə problemləri və onların mühafizəsi məsələləri ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Hazırda Respublikamızın ali və orta məktəblərində ekologiya və təbiətin mühafizəsi fənlərinin tədris edilməsi ilə əlaqədar olaraq lüğət müəllim və tələbələr üçün də qiymətli vəsait sayıla bilər.

1998-ci ildə «Azərbaycan-türk şəxs adlarının izahlı lüğəti» «Nərgiz» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi Aydın Abıyevdir. Lüğət 188 səhifədən ibarətdir.

1998-ci ildə «Qərbi Azərbaycanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti» «Oğuz eli» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçilər B.Ə.Budaqov, Q.Ə.Qeybullayevdir. Lüğət əsas etibarı ilə 1588-ci ildən 1988-ci ilə qədər Rəvan əyalətinin (1590), İrəvan əyalətinin (1728), İrəvan xanlığının və İrəvan quberniyasının, əlavə Gəncə quberniyasının, Borçalı qəzasının 1918-ci ildən sonra Ermənistana qatılmış hissələrinin adlarını əhatə edir.

1999-cu ildə «Azərbaycan dilinin qısa etimoloji lüğəti» «Mütərcim» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi B.A.Əhmədovdur. Lüğət 373 səhifədən ibarətdir.

2001-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən «Azərbaycan dilinin izahlı lüğəti» hazırlanıb çap olunmuşdur. Tərtibçilər Həmzə Əliyev, Arif Kazımovdur. Lüğət 156 səhifədən ibarətdir.

2001-ci ildə «Qısa etimoloji lüğət» «Təfəkkür» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi Bəşir Əhmədovdur. Lüğət 206 səhifəni əhatə edir.

2001-ci ildə «Menecmentin (idarəetmənin) izahlı lüğəti» «Nağıl evi» nəşriyyatında nəşr olunmuşdur. Redaktor iqtisad elmləri doktoru, professor M.X.Meybullayev, tərtibçi Tofiq Əvəz oğlu Quliyevdir.

İqtisadi təfəkkürün formalaşması, idarəetmənin nəzəri metodoloji əsaslarının öyrənilməsində və praktiki menecer fəaliyyətinin səmərəli təşkili baxımından ayrı-ayrı müvafiq anlayışların öyrənilməsinin müstəsna əhəmiyyəti vardır. Makro iqtisadiyyatın, firma və şirkətlərin səmərəli idarə edilməsi az xərclə böyük nəticələrin əldə edilməsinin başlıca şərtidir.

İzahlı lüğətdə menecment nəzəriyyəsi və praktikasının yalnız bir aspekti deyil, onun iqtisadi, sosial, kibernetik, təşkilati-texniki cəhətləri sistemli, kompleks halda nəzərə alınmışdır. İzahlı lüğət əsasən tədris-metodiki səciyyə daşısa da, burada bir sıra nəzəri-metedoloji məsələlər də nəzərdən keçirilmişdir.

2001-ci ildə «Qərbi Avropa mənşəli alınma sözlərin izahlı lüğəti» «Nurlan» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin redaktorları F.M.Rəhimova, L.A.Nəcəfovadır. Tərtibçi isə R.C.Cəfərovdur. Lüğət Qərbi Avropa dillərini öyrənən bakalavr, magistr, aspirant və dissertantlar üçün nəzərdə tutulmuşdur.

Lüğətdə Qərbi Avropa dillərindən 6500-ə yaxın alınma söz və termin toplanmış, onların etimoloji araşdırılması ilə yanaşı, semantik baxımdan da izahı verilmişdir. Bu izahlı lüğət Azərbaycan dilçiliyinin lüğətçilik sahəsində dəyərli əsərlərdən biri olub, gənc tədqiqatçıların, həmçinin hər hansı bir xarici dili öyrənən ziyalı şəxsin müraciət etdiyi məxəzdir. İngilis, fransız, alman, italyan, holland, çex, ispan və başqa Avropa dillərindən alınma sözləri özündə əks etdirən, geniş oxucu kütləsinə təqdim edilən bu dəyərli əsər Azərbaycan dilçiliyinə, lüğətçilik sahəsinə çox yaxşı bir töhfədir.

Təqdim edilən lüğətin əsas məqsədi Azərbaycan dilində işlənən Qərbi Avropa dillərinə – ingilis, fransız, alman, italyan, ispan və başqa dillərə məxsus alınma terminlərin, predmet, əşya və məfhumların dilimizdə ifadə tərzinin izahının verilməsidir. Dilimizdə işlənən Şərq mənşəli ərəb və fars dillərinə məxsus sözlərlə yanaşı, Qərb mənşəli dillərə məxsus sözlərin də işlənməsi zəruri ehtiyacdan doğur və bu sözlər dilimizin fonetik və qrammatik qanunlarına tabe olaraq işlənir, tabe olmayanlar isə dildə çox qala bilmir və müəyyən müddətdən sonra dildən çıxır. Həmin sözlərin əvəzinə dilin daxili imkanları hesabına yeni sözlər yaranır.

Elm və texnikanın sürətlə inkişafı ilə əlaqədar yeni tədqiqat sahələrinin meydana gəlməsi, mühüm ixtiraların, kəşflərin aşkar olunması, təbiət və dəqiq elmlərin qarşılıqlı əlaqəsi və s. mühüm elmi problemlərin meydana gəlməsi müasir Azərbaycan ədəbi dilində bir sıra Qərbi Avropa mənşəli sözlərin dilimizə gətirilməsinə səbəb olmuşdur. İnkişaf etmiş hər hansı bir ədəbi dildə başqa dillərdən söz almaq problemi qanunauyğun proses olub, dilin lüğət tərkibində yeni terminlərin yaranmasına kömək edən vasitə olmuşdur.

Dünyada elə bir dil yoxdur ki, o, başqa dillərdən söz almasın, bu prosesdən kənarda hesab olunsun, qeyri-ana dilli terminlərinə ehtiyacı olmasın. Bu baxımdan da Azərbaycan dili bir tərəfdən öz daxili imkanları hesabına inkişaf etmiş, digər tərəfdən isə elm və texnikanın müxtəlif sahələrinə aid rus və Avropa dillərinə məxsus terminlər hesabına zənginləşmişdir. Radio, televiziya və dövri mətbuatın gündəlik həyata daxil olması, Qərbi Avropa ədəbiyyatının dilimizə geniş tərcümə edilməsi dilimizdə alınma sözlərin çoxalmasına səbəb olmuşdur. Bir sıra maddi varlıqlarla yanaşı, onları ifadə edən çoxlu, müxtəlif adlar və məfhumları müasir Azərbaycan dilində ifadə etmək üçün, əsasən, ərəb, fars, rus, ingilis, fransız, alman, italyan, holland, polyak və s. alınma sözlərdən elmin müxtəlif sahələrində istifadə edilmişdir.

Son vaxtlar respublikamız müstəqillik əldə etdikdən sonra ölkədə dərin sosial-iqtisadi və ictimai-siyasi dəyişikliklər baş verir. Milli şüurun formalaşması, insanların siyasi cəhətdən fəallaşması, ictimai-siyasi hərəkatın genişlənməsi və bir çox digər amillər cəmiyyətin tərəqqisində yeni vəzifələr irəli sürür. İctimai hərəkatın yeniləşməsi nəticə etibarilə respublikanın müstəqilliyi və suverenliyi ilə xarakterizə olunur.

Məlumdur ki, dünyada mövcud olan ədəbi dillərin bir-birinə təsiri böyükdür və ictimai-siyasi iqtisadi amillərdən asılı olaraq, o xalqın dili hegemon rol oynayır ki, o, dünya dilləri arasında seçilir, öyrənilir, beynəlxalq dil kimi xalqlar arasında ünsiyyət vasitəsinə çevrilir. Dillərin bir-birindən söz alıb-verməsi onların qarşılıqlı zənginləşməsində, ədəbi milli dillər kimi formalaşmasında və onların gələcək inkişafında mühüm rol oynayır.

Dillərin qarşılıqlı prosesində onların lüğət fondu və lüğət tərkibi özünəməxsus xüsusiyyətə malik olur və alınma sözlər hesabına zənginləşir. Azərbaycan dilinin lüğət tərkibində Şərq və Qərb dillərinə məxsus bir çox əcnəbi söz və terminlər işlənir ki, onların arasında Qərbi Avropa (ingilis, fransız, alman, italyan, holland və s.) dillərinə aid məfhumlar xüsusi əhəmiyyət kəsb edir. Onlar dilimizdə bir çox sahələri əhatə etməklə yanaşı, qeyd etdiyimiz kimi, dilimizin lüğət tərkibinin təkmilləşdirilməsində və zənginləşdirilməsində mühüm rol oynayır. Qərbi Avropa dillərinə məxsus sözlər dilimizdə sadə, mürəkkəb və söz birləşmələri şəklində işlənir. Hal-hazırda Azərbaycan dilinin lüğət tərkibində Qərbi Avropa dillərinə məxsus yüzlərlə söz və terminlər işlənməkdədir. Dilimizdə işlənən bütün bu əcnəbi terminləri sistemləşdirmək, təkmilləşdirmək, dilimizin fonetik və qrammatik qanunlarına uyğunlaşdıraraq işlətmək vaxtı gəlib çatmışdır. Belə ki, gündəlik mətbuatda, elmi-texniki ədəbiyyatda, dərsliklərdə, radio və televiziya verilişlərində hər gün külli miqdarda Qərbi Avropa dillərinə məxsus söz və terminlər işlənir. Qərbi Avropa mənşəli söz və terminlərin dilimizdə düzgün ifadə edilməsi, qrafik, üslub və məna cəhətdən sərrast, yerində işlədilməsi vacibdir. Respublikamızda son dövrlərdə təhsil sistemində həyata keçirilən reforma və yeniliklər, müxtəlif sahələr üzrə mütəxəssis hazırlanması, tərcümə işlərinin genişlənməsi, radio və televiziya verilişlərinə, aktyor və aktyor dilinə olan tələbin və s. məsələlərin artması dilimizə daxil olan Qərbi Avropa mənşəli söz və terminləri daha mükəmməl və hərtərəfli öyrənmək, onları yerində və düzgün ifadə etmək bacarığına malik olmağı tələb edir.

2005-ci ildə «Dizayn terminlərinin izahlı lüğəti» «Adiloğlu» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçilər R.M.Həsənov, N.C.Abdullayeva, T.Ş.Bəkirova, redaktorlar Y.Ə.Hacıyeva, Q.V.Levçenkodur. Lüğət Azərbaycan Respublikasının Təhsil Nazirinin 27 sentyabr 2005-ci il tarixli 667 saylı əmri ilə dərs vəsaiti kimi tövsiyə edilmişdir.

252 səhifəlik izahlı lüğətdə 300-ə yaxın terminlərin mənası və məzmunu nəzəri və praktiki açıqlanaraq müasir dizaynın fəaliyyətindən xəbər verir. Bu izahlı lüğət incəsənət aləmindəki ixtisasçılar üçün nəzərdə tutulmuşdur.

**Azərbaycan dilinin dialektoloji lüğətləri.** Bu cür lüğətlərdə şivə, dialekt və ləhcələrdə işlənən sözlərin izahı verilir. Dialektoloji lüğətlər məqsəd və vəzifələrinə görə iki cür olur:

1) Ancaq bir şivə, dialekt, yaxud ləhcənin dialektoloji lüğəti;

2) Dilin bütün dialektlərinin dialektoloji lüğəti.

Hər bir dilin dialekt və şivələrinin öyrənilməsinin böyük elmi əhəmiyyəti vardır. Belə ki, dialekt və şivə sözləri dilin tarixini, xalqın tarixini öyrənməkdə, tədqiq etməkdə mühüm rol oynayır. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan dilinin dialekt və şivələri öz leksik tərkibinə görə çox zəngindir.

***Azərbaycan xalq şivələri lüğəti.*** Bu lüğət 1930-1931-ci illərdə çap olunmuşdur. Xalq şivələri lüğətini tərtib etmək ideyası 1924-cü ildə meydana çıxmışdır. Bu ideyanı ilk dəfə «Azərbaycanı öyrənən cəmiyyət» irəli sürmüşdür. 1926-cı ildə Bakı şəhərində çağırılmış I Türkoloji Qurultay bu fikri bəyənmişdir. 1929-cu ildə Lüğət Komissiyası yaradılmışdır. Bu komissiya 1930-cu ildə *A* hərfinə, 1931-ci ildə *B* hərfinə

aid hazırlanmış materialları nəşr etmişdir. Azərbaycan xalq şivələri lüğətinin qüsurları da vardır. Məsələn: lüğət şivə lüğəti adlansa da, buraya ümumişlək sözlər də daxil edilmişdir. Bəzən isə misallar bədii ədəbiyyatdan göstərilmişdir.

Azərbaycan dilinin dialekt və şivələrinin lüğətini tərtib etmək ideyası 1924-cü ildə irəli sürülsə də, hələ 1921-ci ildə müəllif Qafur Rəşadın «Təfsirli xalq lüğəti» çap olunmuşdur. 1930-cu illərdə qarabağlı həkim Saleh Axundov Quzanlının «Azərtürkcə yeni dolu sözlük» lüğəti əlyazma şəklində hazırlanmışdır. Bu lüğətdə Qarabağ şivəsinə mənsub 18000 söz toplanmış və əlifba sırası ilə düzülmüşdür.

«Azərbaycan xalq şivələri lüğəti»ndə müəyyən anlayışla bağlı şivə sözlərinin toplanmasına böyük səy göstərilmişdir. Onların hər birinin izahına da xüsusi fikir verilmişdir.

Lüğətdə bu və ya başqa sözün hansı frazeoloji vahid və tərkib içərisində işləndiyi də şərh olunmuşdur. Məsələn: *bayatı* sözü təklikdə izah edildikdən sonra bunun *çəkmək* (bayatı çəkmək), *demək* (bayatı demək) və Şərq musiqisində xüsusi muğam adlarını bildirmək üçün *qacar* (bayatı-qacar), *kürd* (bayatı-kürd), *şiraz* (bayatı-şiraz), *çoban* (bayatı-çoban), *sallama* (bayatı-sallama) sözləri ilə işlənməsi aydınlaşdırılmışdır. Bütün bunlar lüğətin yaxşı xüsusiyyətlərindəndir.

Lakin lüğətin bir sıra qüsurları da vardır:

1. Lüğətə daxil ediləcək sözlərin sərhədi düzgün müəyyən olunmamışdır. Elə buna görə də lüğət şivələr lüğəti adlandığı halda, buraya ümumişlək sözlər də daxil edilmişdir.

2. Lüğətdə misal – cümlə verilərkən çox hallarda bədii ədəbiyyatdan nümunələrə istinad edilibdir. Halbuki şivələrin xüsusiyyətini açmaq üçün xalq danışığına aid cümlələr

verilməli və burada xalq tələffüzü əsas götürülməli idi. Bu nöqsan lüğətin ikinci hissəsində qismən düzəldilmişdir.

3. Lüğətdə baş sözün işləndiyi şivənin adı ixtisarla verilir. Bu isə oxucunu tez-tez ixtisarlar cədvəlinə baxmağa məcbur edir.

4. Sadə sözlər əlifba sırası ilə verilsə də, törəmə və mürəkkəb sözlər isə əsas sözün yuvasında getmişdir.

Müəyyən qüsurlara baxmayaraq, «Azərbaycan türk xalq şivələri lüğəti» XX əsrin I yarısında Azərbaycan dilinə dair yazılmış ilk nəzəri lüğətdir. Bu lüğət başa çatdırılmamış, yəni yarımçıq olsa da, Azərbaycan şivələrinin leksik tərkibinə dair çox qiymətli əsərdir.

***Azərbaycan dilinin dialektoloji lüğəti.*** Bu lüğət 1964-cü ildə nəşr olunmuşdur. Hələ 1958-ci ildə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsi bir cildlik Azərbaycan dilinin dialektoloji lüğətini hazırlamışdır. Bu iş 1964-cü ildə Rəsul Rüstəmov və Məmmədağa Şirəliyevin redaktorluğu ilə nəşr olunmuşdur. Lüğətdə 6300 sözün mənası aydınlaşdırılmışdır. Bu lüğətdə hər bir sözün qarşısında mötərizə içərisində həmin sözün hansı dialekt və şivədə işləndiyi göstərilmişdir. Eyni zamanda hansı nitq hissəsinə aid olması da ixtisarla qeyd olunmuşdur. Sonra sözün mənası izah olunmuş, bu izahların rusca tərcüməsi verilmişdir. Lüğətdəki müəyyən qüsurlar bundan ibarətdir: lüğət dialekt və şivələrimizdəki bütün sözləri əhatə edə bilməmişdir. Yaxud, baş sözlərin hansı dialekt və şivələrdə işlənməsi də qeydə alınmamışdır.

Lüğətdə hər baş sözün qarşısında onun hansı dialekt və şivədə işləndiyi mötərizə içərisində göstərilmişdir. Bununla bərabər, hansı nitq hissəsinə aid olduğu ixtisar şəklində qeyd olunmuşdur. Sözləri daha dəqiq şərh etmək üçün onların yerli şivədəki tələffüzünə aid misallar (cümlələr) göstərilmişdir. Məsələn:

*Alatoran:* (Qazax), is.z. – dan yeri sökülən vaxt – spozaranku, çut svet, rano utrom. – Yerimnən alatoran duruf, yola düşdüm.

*Bıçqı:* (Biləsuvar), is. – mişar-pila. – Bıçqının dişdəri köhnəldi.

Dilimizin dialekt və şivələrinə aid ilk dəfə olaraq bütöv şəkildə nəşr olunmuş bu lüğətin ən yaxşı xüsusiyyətləri təxminən aşağıdakılardır:

1. Lüğətin sözlüyü əsasən düzgün seçilmişdir. Orada ancaq dialekt və şivə sözləri əhatə olunmuşdur.

2. Lüğətdə sözlərin mənalarının düzgün izahına xüsusi diqqət yetirilmiş və demək olar ki, hər bir sözün mənası aydın şəkildə şərh edilmişdir.

3. Lüğətdəki misal–cümlələr dialekt və şivələrdə olduğu kimi verilmişdir.

4. Lüğətdən istifadəni asanlaşdırmaq üçün orada izah olunan hər sözün hansı şivə və ya dialektə aid olduğu aydın şəkildə əks etdirilmişdir.

Bütün bu kimi müsbət cəhətləri ilə yanaşı, lüğətdə bəzi çatışmazlıqlar da vardır. Məsələn: lüğətdə dilimizin dialekt və şivələrindəki bütün sözlər əhatə edilməmişdir. Oradakı baş sözlərdən bir çoxunun hansı dialekt və ya şivələrdə işləndiyi dəqiq müəyyənləşdirilməmişdir. Məsələn: *arakəsmə* sözü ancaq Şahbuz şivələrinə, *beşdaş* sözü Bakı və Şamaxı

dialektlərinə, *vayıs* sözü Nuxa dialektinə və s. aid edilmişdir. Halbuki bu sözlərdən bir sıra başqa dialekt və şivələrdə də (Gürcüstanın Marneuli, Dmanisi, Başkeçid və s.) eyni mənada istifadə olunur.

Bütün qüsurlarına baxmayaraq, dilimizin hərtərəfli öyrənilməsində «Azərbaycan dilinin dialektoloji lüğəti»nin böyük elmi əhəmiyyəti vardır.

Sonrakı illərdə Azərbaycan dialekt və şivələrinin öyrənilməsi sahəsində böyük nailiyyətlər qazanılmışdır. Ayrı-ayrı dialektlərə, şivələrə və dialekt qruplarına aid bir sıra qiymətli monoqrafiyalar yazılmış, dissertasiyalar müdafiə olunmuş, Azərbaycan dilinin dialektoloji atlası hazırlanmış, dialektlərdən külli miqdarda söz toplanmışdır.

1999-cu ildə Azərabycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu tərəfindən «Azərbaycan dialektoloji lüğəti»nin I cildi Ankarada «Kılışaslan» nəşriyyatında nəşr olunmuşdur. Bu lüğətin redaktorları akad.M.Ş.Şirəliyev, prof. M.İ.İslamov, rəyçiləri M.M.Musayev, A.H.Vəliyev, B.T.Abdullayev kiril əlifbasından latın əlifbasına çevirən isə İbrahim Kanoğludur.

Birinci cilddə *«A» – «L»* hərfləri ilə başlayan dialekt sözləri verilmişdir. Burada müasir ədəbi dilimizdə işlənməyən və ədəbi dildə işlənsə də, dialekt və şivələrdə tamamilə başqa məna və ya mənalar ifadə edən sözlər öz əksini tapmışdır.

Bu lüğətdəki sözlər həm Azərbaycan dialektologiyası şöbəsi tərəfindən müxtəlif illərdə təşkil olunmuş dialektoloji ekspedisiyalar zamanı, həm də ayrı-ayrı şəxslər tərəfindən toplanmış materiallardan, çapdan çıxmış lüğət, monoqrafiya, kitabça və məqalələrdən, müdafiə olunmuş dissertasiyalardan, dialektologiya şöbəsinin hazırladığı monoqrafiyalardan,

institutun arxivində saxlanılan əlyazmalardan götürülmüşdür. Bundan başqa, 1966-1968-ci illərdə lüğət üçün xüsusi ekspedisiyalar təşkil olunmuşdur. Belə ki, 1966-cı ildə şöbənin baş elmi işçiləri B.M.Tağıyev və Q.M.Həsənov Basarkeçər, Hamamlı, Çəmbərək rayonlarından, 1968-ci ildə K.T.Ramazanov Azərbaycanın Ucar, Z.Ə.Xasıyev Kürdəmir, R.Ə.Kərimov isə Oğuz rayonundan material toplamışlar.

Lüğətdəki sözlər Azərbaycan Respublikasından başqa, Gürcüstan və Dağıstan ərazisindəki Azərbaycan şivələrini də qismən əhatə edir.

Müasir ədəbi dilimizdə işlənməyən çoxlu miqdarda dialekt sözlərinin əldə edilməsi bu sözlərin ayrıca lüğətini hazırlamaq zərurətini qarşıya qoymuş, Azərbaycan dilinin dialektoloji lüğətinin tərtibi üçün şərait yaratmışdır. Odur ki, hələ 1964-cü ildə Azərbaycan dilinin bir cilddən ibarət dialektoloji lüğəti nəşr olunmuşdur. Lakin 1964-cü ildən sonra da dialektlərin öyrənilməsi işi davam etdirilmiş və çoxlu miqdarda yeni dialekt sözləri toplanmışdır. Bu da öz növbəsində ikicildlik dialektoloji lüğətin tərtibinə imkan vermişdir.

Bu lüğətə 1964-cü ildə çapdan çıxmış lüğətin sözləri daxil edilsə də, həmin sözlər bir daha nəzərdən keçirilmiş, onların mənası dəqiqləşdirilmiş və tərtibi prinsipləri təkmilləşdirilmişdir. Digər tərəfdən, həmin lüğətə dialekt və şivələrdə işlənən ifadələr, frazeoloji birləşmələr də daxil edilmişdir.

Lüğətdəki sözlərin qarşısında mötərizə içərisində onların işləndiyi rayonun və ya rayonların adları yazılmışdır. Lakin bu, heç də mövcud sözün ancaq göstərilən rayonlara aid olması və başqa rayonlarda işlənməməsi demək deyildir. Bu, onu göstərir ki, mövcud söz mötərizədə yazılan rayonlarda qeydə

alınmışdır. Bu, əlbəttə, həmin sözün digər rayonlarda işləndiyini inkar etmir.

İkicildlik dialektoloji lüğəti M.Ş.Şirəliyev (A hərfi), M.İ.İsmayılov (Ö, R, F), K.T.Ramazanov (Q, Y, P, C), B.M.Tağıyev (B, V, E, Ə, T, Ş), Ə.Q.Ağayev (Z, İ, O, U, Ü), S.M.Behbudov (K, Ç), H.X.Məmmədov (H), Q.M.Həsənov (D, M), Ə.İ.Əliyev (L, N), Z.Ə.Xasıyev (G,X), T.M.Əhmədov (S) tərtib etmişlər.

Təxminən 20000-ə yaxın sözü əhatə edən «Azərbaycan dialektoloji lüğəti» 1975-ci ildə tərtib olunub qurtarmışdır. Əsər neçə dəfə institutun çap planına salınıb nəşriyyata göndərilsə də, müxtəlif çətinliklərlə əlaqədar olaraq onu nəşr etdirmək mümkün olmamışdır. Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Ağamusa Axundov 1991-ci ildə Türkiyə Respublikasında Türk Dil Qurumunun rəhbərliyi ilə danışıqlar aparmış və əsərin Türkiyədə çap olunması haqqında razılıq əldə edilmişdir.

Şəxsən professor A.Axundov əsəri Türkiyəyə aparıb Türk Dil Qurumuna təqdim etmişdir. Elə həmin il Türk Dil qurumunun 20 noyabr 1991-ci il tarixli iclasında «Azərbaycan dialektoloji lüğəti»nin latın əsaslı Azərbaycan əlifbası ilə Azərbaycan dilində nəşr edilməsi qərarı alınmışdır. Nəhayət, 1994-cü ilin sonlarında əsərin çapına başlanmışdır.

*Lüğətin quruluşu və tərtib üsulu aşağıdakı kimidir:*

1. Lüğətdə baş sözlər əlifba sırası ilə verilib.

2. Dialektoloji lüğət aşağıdakı sözləri əhatə edir:

a) dialekt və şivələrdə işlənən, ədəbi dildə təsadüf olunmayan sözləri; məsələn:

*Barmaxça* – nişan üzüyü, qaşsız üzük.

*Çalı* – iri səbət.

*Daracax* – keçid, dağ keçidi və s.

b) fonetik tərkibcə ədəbi dildəki ilə eyni, mənaca ya tam fərqli, ya da əlavə mənası olan sözləri; məsələn:

*Qurum* – xəsis.

*Basmax* – hürmək.

**Nəvə** – toya adam çağıran.

*Çalmax* – süpürmək və s.

3) Lüğətdə baş sözdən sonra onun işləndiyi rayonun adı mötərizə içərisində verilir; məsələn:

*Zing* (Sabirabad) - …

*Yelinqat* (Quba) - …

*Köçəl* (Cəbrayıl) - …

Əgər baş söz bir neçə rayonda işlənirsə, rayonların adları əlifba sırası ilə verilir; məsələn:

*Loda* (Ağdam, Ağdaş, Füzuli, Göyçay, Sabirabad, Salyan, Şuşa) - …

*Yelkə* (Cəbrayıl, Cəlilabad, İmişli, Kürdəmir, Salyan) - …

4) Lüğətdə çoxmənalı sözlər aşağıdakı qayda üzrə verilir:

a) çoxmənalı sözün mənaları bir-birindən ərəb rəqəmləri ilə ayrılır və onların arasında nöqtəli vergül qoyulur;

b) əgər çoxmənalı sözün bütün mənaları bir neçə rayonda eynidirsə, həmin rayonların adları baş sözdən sonra mötərizədə verilir; məsələn:

*Nəmi* (Füzuli, Gədəbəy, Qazax, Qubadlı, Şamaxı, Şuşa) – 1) dəyədə ağartı yığılan xüsusi yer; 2) dəyədə qab-qacağın qabağına tutulan pərdə; 3) motal və ya ağartı torbasının altına qoyulan yastı daş - …

c) əgər çoxmənalı sözün hər hansı bir mənası bir çox rayonda özünü göstərirsə, baş sözdən sonra həmin rayonların

adları əlifba sırası ilə sadalanır, hər bir mənanın izahından sonra isə həmin mənanın işləndiyi konkret rayon və ya rayonların adı mötərizədə qeyd olunur; məsələn:

*Barmaxlıx* (Ağdam, Gəncə) – 1) qələmə, ting (Gəncə); 2) yeni salınmış tənəklik, üzümlük (Ağdam).

*Qacax* (Naxçıvan, Zəngilan) – 1) qarğıdalı qıçası (Naxçıvan); 2) qurumuş pambıq qozasının qırıntıları (Zəngilan).

5) Omonimlər ayrılıqda baş sözlər kimi verilir və onlardan sonra Rum rəqəmləri qoyulur; məsələn:

*Ziyrix*[1] I… - iyrənc, çirkin - …;

*Ziyrix*[1] II… - zirək - …;

*Las* I … - boş sarınmış keyfiyyətsiz barama - …

*Las* II … - tənbəl … və s.

*Las* III… - təzə biçilmiş ot torbası…

6. Sözün fonetik variantları baş söz kimi verilir. Əlifba sırası ilə birinci sözün qarşısında onun mənası izah olunur, sonra gələn sözlər isə birinciyə baxdırılır; məsələn:

*Bitirici* – kuryer, idarədə xidmətçi.

*Pitirçi* – bax bitirici.

*Ovşala* – şərbət.

*O: şala* (Quba, Salyan, Şamaxı) – bax ovşala.

*Qavsara* – ağac qabığından və ya çubuğundan toxunmuş səbət.

*Qovsara* – bax qavsara.

7. Sabit söz birləşmələri, frazeoloji ifadələr, eləcə də köməkçi feillərlə düzələn birləşmələr aşağıdakı şəkildə verilir:

a) əgər tərkibindəki dialekt sözünün müstəqil mənası varsa, həmin söz baş söz kimi götürülür, izah edilir. Bundan sonra

romb işarəsi qoyulur, birləşmə və ya tərkib yazılır, izah edilir; məsələn:

*Dadamal* – öyrəşmiş, dadanmış, alışmış, Dadamal olmax – öyrəşmək, dadanmaq, alışmaq.

*Hoy* – kömək, Hoy eləməx[1] – kömək etmək.

*Çaqqal* – kiçik qotman. Çaqqala vurmax – qotmanlamaq, qotman halında yığmaq və s.

b) əgər tərkibindəki dialekt sözünün müstəqil mənası yoxdursa, yenə də o, baş söz kimi götürülür, ondan sonra iki nöqtə qoyulur, tərkib yazılır və izah edilir; məsələn:

*Talıt*: talet eləmax – rişxənd etmək, ələ salmaq - …

*Hülöy*: hüloy döyməx – dad çəkmək, haray salmaq - …

c) mənaların heç biri ilə uyğun gəlməyən ifadələr, həmçinin məcazlaşmış söz birləşmələri axırda abzasdan və kvadrat işarəsindən sonra verilir; məsələn:

Qağala – kiçik saxsı qab.

Qağala qalmax – qaqqıldamaq.

8. Baş söz məcazi mənada işlənirsə, izahdan əvvəl məc. *sözü yazılır*; məsələn:

Quzulamax - …məc. narahat olmaq.

9. Baş sözün mənasının izahında bəzən dialekt sözündən istifadə olunur. Belə halda izahdan sonra mötərizə içərisində bax sözü yazılır. Baş söz çoxmənalı olduqda isə mötərizədə sözün hansı mənasına baxmaq lazım olduğu göstərilir; məsələn:

Quramalığ – qurama (bax qurama II) üçün işlədilən parça.

10. Cümlələrdə işlənən sözlərin tələffüz forması çox dəyişmiş olduqda həmin sözlərin qarşısında bucaq içərisində onun ədəbi dildəki yazılış forması göstərilir; məsələn:

De:x <deyirik>, sizə: ləndə <sizə gələndə>.

11. Lüğətdə hər bir baş sözə aid, imkan dairəsində, misal – cümlə verilir.

a) əgər baş söz bir rayonda qeydə alınmışsa, misal – cümlədən sonra rayonun adı yazılmır;

b) əgər baş söz bir neçə rayonda qeydə alınmışsa, misal – cümlədən sonra müvafiq rayonun adı mötərizə içərisində yazılır;

c) baş söz çoxmənalıdırsa, imkan dairəsində, onun hər bir mənasına aid misallar verilir.

Dialektoloji lüğət Azərbaycan dili tarixinin, tarixi leksika və etnoqrafiyasının öyrənilməsində, onun lüğət tərkibinin zənginləşməsində, eləcə də türk ləhcələrinin tarixi və etimoloji lüğətlərinin yaradılmasında böyük əhəmiyyət kəsb edir.

**Azərbaycan dilindəki əcnəbi sözlər lüğəti.** Bu lüğətdə mənşəcə başqa dilə məxsus olan sözlər, əsasən, vaxtilə klassik ədəbiyyatda işlənmiş və hazırda mənası tamamilə aydın olmayan sözlərin mənası izah olunur. İlk əcnəbi sözlər lüğəti 1947-ci ildə nəşr olunmuşdur. Ancaq *A* hərfindən ibarət əcnəbi sözlər lüğəti Dilçilik İnstitutunun əsərlərinin I cildində 1947-ci ildə çapdan çıxmışdır. Burada təxminən 466 söz əhatə olunmuşdur. Bu lüğətə mənşəcə aşağıdakı sözlər daxil olunmuşdur: ərəb mənşəli sözlər, fars və avropa mənşəli sözlər. Bu sözlərin qarşısında mənşəcə hansı dilə məxsus olması da ixtisarla göstərilmişdir.

1960-cı ildə «Azərbaycan ədəbi dilində işlənən ərəb və fars sözlərinin qısa lüğəti» nəşr olunmuşdur. Bu lüğət daha çox ali və orta məktəblərdə tədris işinə kömək məqsədilə tərtib olunmuşdur. Bu lüğəti S.Cəfərov, İ. Hacıyev, H. Mirzəzadə, C. Bağırov tərtib etmişdir. Lüğətdə təxminən 6000

söz əhatə olunmuşdur. XIII əsrdən başlayaraq dilimizə daxil olmuş ərəb və fars mənşəli sözlər lüğətdə öz əksini tapmışdır. Lüğətdəki hər bir sözün qarşısında mötərizə içərisində sözün mənşəyi göstərilmiş, sonra isə sözlərin mənaları izah olunmuşdır.

1966-cı ildə «Ərəb və fars sözləri lüğəti» çapdan çıxmışdır. Burada 16 mindən artıq ərəb və fars sözlərinin izahı verilmişdir.

Ərəblərin və farsların hakimiyyəti altında olan bütün xalqlar üçün ərəb, fars dillərində oxuyub-danışmaq, yazmaq məcburi idi. Üç yüz ildən artıq ərəblərin, min ildən çox farsların hakimiyyəti altında yaşayan azərbaycanlılar ərəblərin, farsların əlifbasını, dillərini öyrənmiş və bu dillərdə dünya şöhrətli, dahiyanə əsərlər yaratmışlar. Nizami Gəncəvinin fars dilində ölməz «Xəmsə»si, Məhəmməd Füzulinin ərəbcə divanı dünya ədəbiyyatı xəzinəsinin incilərindən sayılır. Füzuli orta əsr ədəbi janrlarının müxtəlif növlərində qələmini sınamış, üç dildə (ərəb, fars, azərbaycan) mükəmməl sənət nümunələri yaratmışdır.

Ərəb mənşəli söz və ifadələrin dilimizdə işlənmə tarixi, əsas etibarilə bir tərəfdən Azərbaycanın VII-IX yüzilliklərdə ərəb istilaçıları tərəfindən işğal edilməsi, digər tərəfdən isə İslam dininin Azərbaycanda yayılması ilə əlaqədardır. Ərəb istilasından sonra ərəblərin işğal etdiyi başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da ərəb əlifbası tətbiq edilməyə başlamışdır.

Azərbaycan ədəbi dilinin lüğət tərkibində ərəb və fars dillərindən alınmış sözlər mühüm yer tutur. Bu sözlərin müəyyən bir qismi dilimizdə tamamilə vətəndaşlıq hüququ qazanmış, hətta dilin əsas lüğət fonduna daxil olmuş, digər bir

qismi isə klassik ədəbiyyatımızın dilində işlənmiş, müasir ədəbi dilimizdə də işlənməkdədir.

Azərbaycan klassik şairləri və yazıçıları öz əsərlərində işlətdikləri tarixi dövrlərin məhsulu kimi çoxlu ərəb, fars sözləri və tərkiblərinin müəyyən hissəsi müasir ədəbi dilimizdə işlədilmir. Bunlar klassik əsərlərin oxunmasını, orta və ali məktəblərdə tədrisi xeyli çətinləşdirir. Xüsusilə, Nəsimi, Füzuli və başqa böyük sənətkarlarımızın əsərlərində ərəb və fars sözlərinin bol-bol işlədilməsi müasir oxucuları ciddi çətinliklər qarşısında qoyur.

Geniş ziyalı kütləsinin ehtiyacını qismən təmin etmək məqsədilə klassiklərimizin dilində, eləcə də müasir ədəbi dilimizdə rast gəlinən ərəb və fars sözlərinə dair onlarla lüğət hazırlanmışdır.

İlk dəfə lüğətlərdən biri 1945-ci ildə «Müxtəsər farsca-rusca-azərbaycanca lüğət» adı ilə nəşr olunan lüğətdir. Bu lüğətin tərtibçisi Y.Mirbabayevdir. Lüğət 340 səhifədən ibarətdir.

1960-cı ildə «Azərbaycan ədəbi dilində işlənən ərəb və fars sözlərinin qısa lüğəti» nəşr olunmuşdur. Tərtibçilər S.A.Cəfərov, İ.Ə.Hacıyev, H.İ.Mirzəzadə, redaktoru C.F.Bağırovdur. Lüğət 6000 söz və 212 səhifədən ibarətdir.

1966-cı ildə Azərbaycan Elmlər Akademiyası tərəfindən «Ərəb və fars sözləri lüğəti» hazırlanıb nəşr edilmişdir. Lüğət 1036 səhifədən ibarətdir. Redaktor Yusif Ziya Şirvani, tərtibçilər B.T.Abdullayev, Ə.Ə.Orucov, Y.Z.Şirvani olmuşdur.

Lüğətin ilk variantının sözlüyü, o zaman qəbul edilmiş təlimata görə, əsasən, M.F.Axundovdan sonrakı dövr şair və yazıçılarının əsərləri əsasında qurulmuşdur. Buna görə də

azərbaycan klassik ədəbiyyatının daha əvvəlki dövrlərdə yaşamış Nəsimi, Kişvəri, Xətai, Füzuli kimi nümayəndələrinin əsərlərində təsadüf edilən və müasir oxucu üçün anlaşılmayan bir çox ərəb və fars sözləri lüğətə daxil edilməmişdir. Lüğətin bu nəşrinin sözlüyü M.F.Axundovdan əvvəlki dövr hesabına təkmilləşdirilmiş, lüğətin özü yeni prinsiplər əsasında qurulmuşdur.

Lüğətin sözlüyünün əvvəlkinə nisbətən nə qədər zənginləşdiyini təsəvvür etmək üçün bunu qeyd etmək kifayətdir ki, 1947-ci ildə çap edilmiş «A» hərfində 220 söz olduğu halda, bu lüğətin həmin hərfində 330 söz vardır. Bundan əlavə, bir çox sözlərin ilk variantda olmayan bəzi mənaları da bu lüğətdə verilmişdir.

Bütün bu işlər nəticəsində lüğətdə gedən baş sözlərin sayı 15500-ə, ifadələrin sayı isə 700-ə çatdırılmışdır.

Əvvəlkindən fərqli olaraq bu lüğətdə sözlərin ərəb əlifbası ilə yazılışı (transkripsiyası) verilmişdir.

Lüğətin əsas məqsədi Azərbaycan ədəbiyyatı klassiklərinin əsərləri ilə yaxından tanış olmaq, onu daha dərindən öyrənmək istəyən oxuculara, xüsusən yeni nəslə kömək etməkdən ibarətdir. Buna uyğun olaraq, lüğətə yalnız anlaşılması çətin olan, bu gün ədəbi dilimizdə işlədilməyən və ancaq klassiklərin əsərlərində təsadüf edilən ərəb və fars sözləri daxil edilmişdir.

1966-cı ildə «Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti» «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğət 219 səhifədən ibarətdir.

1967-ci ildə Azərbaycan Elmlər Akademiyası tərəfindən «Ərəb və fars sözləri lüğəti» yenidən işlənərək və təkmilləşdirilərək nəşr olunmuşdur. Lüğət Azərbaycan klassik

ədəbiyyatını oxumaq üçün tərtib edilmişdir. Tərtibçilər B.T.Abdullayev, Ə.Ə.Orucov, Y.Z.Şirvani, redaktor Yusif Ziya Şirvani olmuşdur.

1971-ci ildə «Azərbaycanca-ərəbcə məktəb danışıq kitabçası» «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi Ələsgər Məmmədovdur. Lüğət 183 səhifədən ibarətdir.

1972-ci ildə Bəhruz Abdullayev tərəfindən hazırlanan «Azərbaycanca-farsca danışıq kitabçası «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğət 203 səhifədən ibarətdir.

1972-ci ildə «Ərəbcə-azərbaycanca lüğət»in (dörd cilddə) «Elm» nəşriyyatında I cildi nəşr olunmuşdur. Lüğətin redaktoru H.H.Zərinəzadədir. Bu lüğətin tərtibçiləri H.H.Zərinəzadə, Ə.M.Nəvai, A.İ.Zahidi, A.Y.Məmmədi olmuşdur. Lüğət 44000 söz və ifadədən ibarətdir.

1978-ci ildə «Farsca-azərbaycanca müxtəsər idiomatik ifadələr lüğəti» nəşr olunmuşdur. Bu lüğətin tərtibçiləri Ə.M.Şəfai, F.İ.Zülfüqarova, redaktoru, professor R.Sultanovdur. Lüğət 96 səhifədən ibarətdir. 1981-ci ildə «Azərbaycan klassik ədəbiyatında işlədilən ərəb və fars sözləri lüğəti» «Maarif» nəşriyyatı tərəfindən buraxılmışdır. Tərtib edənlər Ağadadaş Mahmud oğlu Babayev və Cəfər Balaəmi oğlu İsmayılzadədir. Lüğət 280 səhifədən ibarətdir.

Lüğətin «Maarif» nəşriyyatı tərəfindən 1966-cı ildə çap olunmuş birinci nəşrindən sonra klassik şair və yazıçılarımızın bir sıra əsərləri müxtəlif nəşriyyatlar tərəfindən buraxılmışdır. Bu əsərlərdə işlədilmiş bir çox ərəb, fars sözləri və tərkiblər lüğətin keçən nəşrində öz əksini tapmamışdır. Bundan əlavə, keçən dövr ərzində orta məktəbin ədəbiyyat proqramında da bəzi dəyişikliklər edilmiş, klassik yazıçılarımızın son

zamanlara qədər orta məktəbdə tədris edilməyən bir sıra əsərləri proqrama daxil edilmişdir. Buna görə də tərtibçilər kitabın ikinci nəşri ilə əlaqədar bu cəhəti nəzərə almış, həmçinin birinci nəşrdə buraxılmış nöqsanları düzəltməklə onun üzərində yenidən işləmiş və təkmilləşdirmişlər.

Bu lüğətdə 10000-dən artıq sözün və söz birləşməsinin mənası verilmişdir. Burada orta məktəbin ədəbiyyatdan yeni proqram üzrə sinifdə öyrənilən və sinifdənxaric oxu üçün məsləhət görülən klassik əsərlərdə işlədilən ərəb, fars sözləri və tərkiblərinin demək olar ki, hamısı əhatə olunmuşdur. Mənası aydın olan *müddət, müəllim, öhdə, peyman, saf, fəlakət, xahiş, cavab, cins, şölə* kimi sözlər lüğətə daxil edilməmişdir.

1983-cü ildə «Farsca-azərbaycanca danışıq kitabçası» «Yazıçı» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçilər: Hatəmi Nəyyer Zaman, Şirəliyev Şulandır. Lüğət 240 səhifədən ibarətdir.

1985-ci ildə «Ərəb və fars sözləri lüğəti» çap olunmuşdur. Lüğətin redaktoru B.T.Abdullayevdir. Lüğət 1040 səhifədən ibarətdir. Bu lüğətin ilk variantı hələ ikinci dünya müharibəsindən əvvəl keçmiş Lüğətlər İnstitutunun elmi əməkdaşı Mirzə Əsgərli tərəfindən hazırlanmış, sonrakı dövrdə onun üzərində Akademiyanın Dilçilik İnstitutunun əməkdaşlarından Bəhruz Abdullayev, Həsən Zərinəzadə də işləmiş və lüğəti təkmilləşdirmişlər. 1966-cı ildə Akademiyanın nəşriyyatında çapdan çıxmış həmin variantda o zaman qəbul edilmiş təlimata əsasən Mirzə Fətəli Axundovdan sonrakı dövrdə yaşayıb-yaratmış ədiblərin əsərlərindən seçilmiş ərəb və fars mənşəli alınma sözlər daxil edilmişdir. Sonralar tarixin daha erkən çağlarında yazılmış mətnlərdə işlədilən alınmaların da lüğətə

salınmasına ehtiyac yaranmış, H.Zərinəzadə və B.Abdullayev onun üzərində yenidən təkmilləşdirmə işi aparmışlar. Lüğət ikinci dəfə «Yazıçı» nəşriyyatında çapdan çıxmışdır.

Uzun illər Azərbaycan alim və tədqiqatçılarına müvəffəqiyyətlə xidmət etmiş bu lüğətin daha da zənginləşdirilməsi aktual olaraq qalmış, onun üzərində işlər davam etdirilmişdir.

1991-ci ildə «Ərəb mənşəli qohum sözlər lüğəti» «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi Fərhad Ələkbərovdur. Lüğət 44 səhifədən ibarətdir. Beləliklə, Azərbaycan lüğətçiliyində ərəb mənşəli qohum sözlər lüğəti ilk dəfə olaraq tərtib olunmuşdur. Lüğətdə həmin sözlərin müəyyən bir qismi əhatə edilmişdir.

1993-cü ildə «Bunu ərəbcə necə deməli?» (Azərbaycanca-ərəbcə danışıq kitabçası) «Tural» elmi-texniki mərkəzində nəşr olunmuşdur. Tərtib edənlər: Qarayev Malik İbrahim oğlu, Əhmədov Seyfəddin Fərrux oğlu, Seyid Amil Həsən oğlu və Əhmədov Məhərrəm Camal oğludur. Lüğət 152 səhifədən ibarətdir.

Lüğətin girişində vacib sayılan «Hamı üçün» qeydi göstərilmişdir. Bu danışıq kitabçası ərəb ölkələrinə səfər edən azərbaycanlı turistlər, həmin ölkələrə işləməyə gedən müxtəlif ixtisas sahibləri, ərəb dili şöbələri və kurslarının tələbə və dinləyiciləri, bir sözlə, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Buna görə də oraya çox rəngarəng mövzularda sözlər, ifadələr və zəruri qısa mükalimələr daxil edilmişdir. Kitabçadakı mövzuların çoxluğu və dolğunluğu dialoq iştirakçıları arasında kifayət qədər anlaşma üçün imkan yaradır. Bu kitabça ondan istifadə edən hər kəsə ərəb ölkələrində müəyyən sərbəstlik verir. Belə ki, o, sadə söhbətlər zamanı

tərcüməçisiz də keçinə bilər və küçə, mağaza, bazar, muzey və s. yerlərdə müəyyən çərçivədə sərbəst anlaşıla bilər.

Kitabçaya 2000-dən artıq söz, ifadə və cümlə daxil edilmişdir. Onların ümumi ərəb danışıq dilinə yaxın olmasına çalışılmışdır. Bunda məqsəd bütün ərəb ölkələrində həmin kitabçadan istifadə oluna bilməsidir.

1993-cü ildə «Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi» adlı lüğət «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğət 1981-ci ildə nəşr olunmuş «Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti»nin yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşridir. Tərtib edən Ağadadaş Mahmud oğlu Babayevdir. Lüğətin bu nəşri 291 səhifədən ibarətdir.

1995-ci ildə «Ərəb əlifbası. Farsi-türki mənzum lüğəti» «Təbib» nəşriyyatında nəşr edilmişdir. Lüğətin tərtibçisi Əhmədağa Əhmədovdur. Lüğət 119 səhifədən ibarətdir.

1996-cı ildə «Töhfeyi Hüsam» (farsca-türkcə mənzum lüğət) İslam Araşdırmaları mərkəzi olan «İrşad» tərəfindən «Elm» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçilər Ələsgərova Təyyibə, Sadıqova Cəmilə, Hüsaməddin Xoyidir. Lüğətin xarakterik cəhətləri, elmi-tənqidi mətni, transkripsiyası, türkcə sözlüyün əlifba sırası ilə düzümü onun başlıca xüsusiyyətləridir. Lüğət 239 səhifədən ibarətdir.

Dilimizin inkişafında xüsusi mərhələ təşkil edən XIII əsr Azərbaycan dilçiliyi tarixinə leksikoqrafik əsərlərin yaranması dövrü kimi daxildir. Bu dövrdə yaranan, lakin əsrlərlə itmiş hesab edilən və uzun axtarışlardan sonra əlyazma nüsxələri çətinliklə də olsa, əldə edilən «Töhfeyi Hüsam» dilimizin, mədəniyyətimizin tarixi, ümumiyyətlə, türkologiya tarixi üçün yeni bir töhfədir. «Töhfeyi Hüsam» Azərbaycan leksiko-

qrafiyası tarixində yazılmış ilk mənzum lüğətdir. Onun müəllifi Hüsam Xoyi isə bu sahədə qələmini sınamış ilk azərbaycanlı alimdir. «Əs-Sihah əl-əcəmiyyə» XIII əsrdə dilimizin ilk nəsr nümunəsidirsə, «Töhfeyi Hüsam» şeir dilimiz haqqında geniş təsəvvür yaradan ilk nəzm əsəridir.

2005-ci ildə «Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti» «Şərq-Qərb» nəşriyyatında nəşr olunmuşdur. İki clddə olan lüğətin I cildi 2005-ci ildə nəşr edilmişdir. Lüğət 1985-ci ildə «Ərəb və fars sözləri lüğəti» nəşri əsasında təkrar çapa hazırlanmışdır. Tərtib edənlər: Bəhruz Abdullayev, Mirzə Əsgərli, Həsən Zərinəzadədir. Elmi redaktor Məmməd Adilovdur. Lüğət 416 səhifədən ibarətdir.

Bu lüğət 1985-ci ildə «Yazıçı» nəşriyyatında nəşr olunmuş «Ərəb və fars sözləri lüğəti» əsasında təkmilləşdirilərək yenidən latın qrafikası ilə nəşr edilmişdir. Lüğətin ilk variantı Mirzə Əsgərli tərəfindən hazırlanmış və 1966-cı ildə nəşr olunmuşdu. Lüğətin iki nəşrindən sonra işıq üzü görmüş klassik Azərbaycan ədəbiyyatı nümunələrinin materialları bu işin səmərəli şəkildə həyata keçirilməsinə və hazırkı nəşrə daxil edilən lüğət vahidlərinin sayının 20000-ə çatdırılmasına imkan vermişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi Bəhruz Abdullayev lüğət üzərində yenidən işləmişdir.

Lüğət klassik Azərbaycan ədəbiyyatı nümunələrinin orijinal yazıda oxunuşunu, nəşr edilmiş klassik mətnlərdə tez-tez rast gəlinən ərəb və fars mənşəli alınma söz və ifadələrin mənasının başa düşülməsini asanlaşdırmaq və ümumiyyətlə, Azərbaycan dilində işlənən ərəb və fars sözlərinin alınmalarının ümumi mənzərəsini sistemli şəkildə əks etdirmək, belə

faktları dilçilik elminə daha əhatəli təqdim etmək məqsədi ilə hazırlanmışdır.

**Azərbaycan dilinin omonimlər lüğəti.** Azərbaycan dilinin omonimlər lüğətində omonimlərin əmələ gəlməsi, inkişafı və məna xüsusiyyətləri əks olunmuşdur. 1981-ci ildə «Maarif» nəşriyyatı H. Həsənovun tərtib etdiyi «Müasir Azərbaycan ədəbi dilinin omonimlər lüğəti»ni çap etdirmişdir. Bu lüğətdə 800-ə yaxın sözün mindən çox omonimlik cərgəsi müəyyənləşdirilmişdir.

**Qeyd:** H.Həsənovun tərtib etdiyi «Azərbaycan dilinin antonimlər lüğəti» (1986-cı ildə) və «Azərbaycan dilinin sinonimlər lüğəti» də çapdan çıxmışdır.

Omonimlər lüğətində bir dildə işlənən – formaca eyni, mənaca müxtəlif olan sözlər izah olunur. Lüğətdə omonim sözlərin hər biri ayrıca baş söz kimi əlifba sırası ilə verilir. Əvvəl omonim söz, sonra mötərizə içərisində onun qrammatik xüsusiyyəti, mənbəyi, daha sonra mənası izah olunur. Lüğətdə leksik və leksik-qrammatik omonimlər şərh edilir. Bəzən omonimlərin üslubi xüsusiyyətləri də qeyd olunur. Omonim olan sözlərin mənasını daha yaxşı izah etmək üçün bədii əsərlərdən misallar gətirilir.

Lüğətdə omonimlər omonim yuvada şaquli və üfüqi vəziyyətdə izah olunur. Leksik omonimlər şaquli, leksik-qrammatik omonimlər isə üfüqi verilir.

Omonimlər dilin leksik-semantik sistemində xüsusi mövqeyə malik vahidlərdir. Bunların öyrənilməsi olduqca vacib problemlərdəndir.

Omonimlər lüğətində omonimlərin quruluşu belədir:

Al I. is. (köhnə) – hiylə, məkr, yalan;

Al II. is. Xürafata inananların təsəvvüründə canlanan, gözünə görünən xəyal, surət;

Al III. sif. – qırmızı;

Al IV. f. – əlinə götürmək, qaldırmaq, ələ keçirmək.

Dilimizdə formaca eyni, mənaca müxtəlif olan sözlərin – omonimlərin mənasını bilmək dilin incəliklərini bilmək deməkdir. Bu baxımdan omonimlər lüğətinin hazırlanmasının elmi və praktiki əhəmiyyəti böyükdür.

Azərbaycan dilinin omonimlərinin nəzəri məsələləri ilə 60-cı illərdə daha çox məşğul olunmasına baxmayaraq, 80-ci illərə qədər omonimlər lüğəti yaranmamışdır.

1981-ci ildə nəşr olunmuş «Müasir Azərbaycan ədəbi dilinin omonimlər lüğəti» bu sahədə atılmış ilk addımdır. Bu lüğətin tərtibçisi Həsrət Həsənovdur. Lüğət «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğətdə omonimlərin leksik, leksik-qrammatik və qrammatik növləri izah olunmuşdur. Omonim cərgələr əlifba sırası ilə düzülmüş və roma rəqəmləri ilə göstərilmişdir.

Leksik omonimlər:

Yel I. is. – bir tərəfə axın edən hava cərəyanı.

Yel II.is. (tib.) – revmatizm (xəstəlik)

Leksik-qrammatik omonimlər:

Əlli I. say. – 49 sayından sonra gələn rəqəm.

Əlli II. zərf. – cəld, bacarıqlı.

Qrammatik omonimlər:

Yelli I. sif. – küləkli.

Yelli II. sif. – yel xəstəliyinə tutulmuş.

Yelli III. zərf. – çox tez, cəld.

Yelli IV. sif. – hirsli, acıqlı.

Omonim sözlər lüğətdə aşağıdakı qaydada sıralanır: əvvəl izah olunan omonim söz, ondan sonra onun hansı nitq hissəsinə aid olması, mənşəyi, işlənmə sahəsi, mənası izah olunur. Mənanın şərhi müxtəlif məxəzlərdən gətirilmiş misallarla əsaslandırılır.

Azərbaycan dilçiliyində ilk təşəbbüsün nəticəsi kimi bu lüğətin xüsusi əhəmiyyəti vardır. Lakin dilimizin omonimlər lüğətinin daha geniş və dəqiq şəkildə işlənməsinə hələ də ehtiyac vardır.

**Azərbaycan dilinin sinonimlər lüğəti.** Sinonimlər lüğətində formaca müxtəlif, mənaca bir-birinə yaxın olan sözlər izah olunur. Müxtəlif köklü, mənaca bir-birinə yaxın olan sözlər bir-biri ilə sinonim ola bilər. Sinonimlər lüğətində müxtəlif köklü və semantik cəhətdən yaxın mənalı sözlərdən ibarət olan sinonimlər şərh olunur. Bu lüğətlərin məqalələrində əsas söz kimi, bütün sinonim cərgələr iştirak edir. Sinonim cərgələr isə leksik mənalı sözlərdir. Bütün sinonim cərgələr bir-biri ilə sinonimlik təşkil etməlidir.

*Sinonimlər lüğəti aşağıdakı prinsiplər əsasında tərtib olunur:*

1. Sinonimlər lüğətində sinonim leksemlər (semantik cəhətdən oxşar sözlər) yox, sinonim senemlər (semantik cəhətdən oxşar mənalar) verilməlidir.
2. Sinonim sözlər arasındakı əlaqə və fərqi lüğət özündə əks etdirməlidir.
3. Lüğətdə sinonim cərgə üçün ümumi olan əşyavi-məntiqi məzmun izah olunmalıdır.
4. Sinonimlər arasında olan leksik əlaqə fərqləri misallarla şərh olunmalıdır.

5. Leksik sinonimlərin hansı nitq hissələrinə aid olmaları göstərilməlidir.

6. Lüğətdə sinonim olan sərbəst və sabit söz birləşmələrinin hamısı deyil, bir sözün ekvivalenti kimi işlənənlər sinonim cərgədə verilə bilər.

7. Lüğət məqaləsində daha çox işlənən və üslubi cəhətdən bitərəf olan sinonim söz sinonim cərgədən seçilib əsas söz kimi verilməlidir.

Sinonim cərgəyə aid olan sözlər yarım yağlı şriftlə yığılır. Sinonimlər lüğətində sinonim cərgələr əlifba sırası ilə verilir.

Azərbaycan leksikoqrafiyasında sinonimlər lüğəti çox gec – 1990-cı ildə «Azərbaycan dilinin sinonimlər lüğəti» adı ilə «Yazıçı» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçiləri İsmayıl Məmmədov və Həsrət Həsənovdur. Lüğət 468 səhifədən ibarətdir.

**Azərbaycan dilinin antonimlər lüğəti.** Antonimlər lüğətində bir-birinin əksi olan sözlər verilir. Antonimlər lüğətinin də tədqiqinə çox gec başlanılmışdır. 1985-ci ildə «Azərbaycan dilinin antonimlər lüğəti» «Azərnəşr» nəşriyyatında nəşr olunmuşdur. Lüğət 316 səhifədən ibarətdir.

**Azərbaycan dilinə aid orfoepiya lüğəti.** Orfoepiya sözlüyündə sözlərin ədəbi dil normalarına uyğun düzgün tələffüzü göstərilir. Bu növ lüğət praktik xarakterlidir. Belə lüğətlərdə sözün hansı hecasının vurğulu olduğu da göstərilir.

Orfoepiya lüğətinə 1982-ci ildə nəşr olunmuş «Azərbaycan dilinin orfoepiya sözlüyü»nü misal göstərmək olar. Sözlük Azərbaycan dilinin orfoqrafiya lüğəti və orfoepiya normaları əsasında tərtib olunmuşdur. Sözlüyə deyilişi ilə yazılışı

arasında fərq olan sözlər daxil edilmişdir. Burada gedən sözlərin fonetik xüsusiyyətləri ilə yanaşı, zəruri olan normativ göstəricilər də verilmişdir.

Sözlükdə sözlər iki sütunda düzülmüşdür. Birinci sütunda sözlərin orfoqrafiyası, ikinci sütunda həmin sözlərin orfoepiyası qeyd olunmuşdur:[1]

| *Orfoqrafiyada:* | *Orfoepiyada:* |
|---|---|
| ayüzlü | ayüzdü |
| akademik | akademik |
| akvarium | akvariyum |
| akrobat | akrabat |
| akrobatlıq | akrobatdığ |
| akrobatik | akrabatix[1] |
| aksiom | aksiyom və s. |

1983-cü ildə çap olunmuş «Azərbaycan dilinin orfoepiya sözlüyü» orfoqrafiya lüğəti əsasında tərtib edilmişdir. Lüğətin tərtibçiləri Ə.Məmmədov və A.Miriyevdir. Lüğət «Elm» nəşriyyatında nəşr olunmuşdur. Sözlük 144 səhifədən ibarətdir.

Lüğətə dilimizdə çətin tələffüz edilən, vurğusu fərqli olan sözlər daxil olunmuşdur. Oxucuya kömək üçün sözlükdə «Azərbaycan dili orfoepiyasının prinsipləri» də göstərilmişdir. Sözlüyün məqsədi şifahi ədəbi nitqdə yol verilən qüsurları izah etməkdən ibarətdir. Buna görə də bu sözlük nitq mədəniyyətinin inkişafında xüsusi əhəmiyyət kəsb edir. Sözlük hazırlanarkən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Bu haqda sözlükdə deyilir: «Respublikada ilk dəfə

[1] Azərbaycan dilinin orfoepiya sözlüyü. «Elm» nəşriyyatı, Bakı, 1982, s.29.

tərtib edilən bu sözlük diktorlar, aktyorlar, müğənnilər, elmi işçilər, müəllim və şagirdlər, eləcə də ümumi oxucular üçün nəzərdə tutulmuşdur».

Orfoepiya sözlüyündə başqa dillərdən tərcümə olunan sözlərin də düzgün tələffüz şəkli verilə bilər. Buna misal olaraq 1972-ci ildə nəşr olunan «Azərbaycanca-farsca danışıq kitabçasını» göstərmək olar. Sözlük «Maarif» nəşriyyatında nəşr olunmuşdur, 203 səhifədən ibarətdir.

1985-ci ildə daha bir sözlük – «Azərabycanca-ingiliscə, ingiliscə-azərbaycanca danışıq kitabı» nəşr olunmuşdur. Sözlük «Maarif» nəşriyyatında hazırlanmışdır. Tərtibçi Abdulla Qarayevdir. Sözlük 252 səhifədən ibarətdir.

Hazırda belə lüğətlərin hazırlanmasına böyük ehtiyac duyulur.

**Azərbaycan dilinə aid orfoqrafiya lüğəti.** Orfoqrafiya sözlüyü dildəki leksik vahidlərin düzgün yazılışını əks etdirir. Burada məqsəd savadlı yazmağı daha da inkişaf etdirməkdən ibarətdir.

Orfoqrafiya sözlüyü imkan daxilində dilin bütün sözlərini, əks təqdirdə isə (sözlüyün həcmi ilə əlaqədar olaraq), əsasən, yazılışı çətin sözləri əhatə edir.

XX əsrdə Azərbaycan yazısından ərəb əlifbası çıxarıldıqdan sonra xalqın mədəni tərəqqisi ilə əlaqədar olaraq orfoqrafiya məsələsi günün mühüm məsələlərindən biri kimi qarşıya çıxdı. Həmin dövrdə orfoqrafiya qaydalarının nizama salınmasında orfoqrafiya sözlük və lüğətinin tərtib olunması da mühüm tələblərdən biri hesab edilir.

Azərbaycan dilinin ilk orfoqrafiya qaydaları 1925-ci ildə nəşr olunmuşdur. Daha sonra isə bunun əsasında 1929-cu ildə

«İmla lüğəti» adı ilə orfoqrafiya sözlüyü «Azərnəşr» tərəfindən buraxılmışdır. Hər ikisinin müəllifi V.Xuluflu olmuşdur. Bu lüğət (sözlük), ümumiyyətlə, orfoqrafiya sözlüyünün qarşısına qoyulan tələblərə müvafiq hazırlanmışdır. Lüğətin həcmi çox kiçikdir. Burada dilimizin sözlərinin olduqca az hissəsi verilmişdir. Lüğətin həcmcə çox qısa olmasına baxmayaraq, bu, yazılı nitq mədəniyyətinin inkişafında xüsusi rol oynamışdır. Həmin lüğət orfoqrafiya lüğəti tərtibi tarixində ilk təşəbbüs olduğu üçün də çox qiymətlidir.

Məlum olduğu kimi, hələ 1939-cu il yazımızın orfoqrafik qaydaları lazımi şəkildə sabitləşməmişdir. Orfoqrafiyamızda bəzi dolaşıqlıqlar hökm sürmüşdür. Bunların islahı ilə əlaqədar olaraq sonralar orfoqrafiya lüğətinin də yenidən hazırlanması zəruriliyi qarşıya çıxmışdır.

Azərbaycan XKS tərəfindən təsdiq olunmuş orfoqrafik qaydalara əsasən yenidən hazırlanan həmin lüğət «Orfoqrafiya lüğəti» adı ilə 1940-cı ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun elmi əməkdaşları Ə.Babazadə, D.Quliyev, Y.Əliyev, C.Əfəndiyev tərəfindən «Azərnəşr» nəşriyyatında nəşr olunmuşdur.

Lüğətin əvvəlində Azərbaycan dilinin orfoqrafiya qaydaları haqqında məlumat verilmişdir. Lüğətin ikinci nəşrinin həcmi kiçikdir. Dilimizdəki söz və terminlərin çox az hissəsi buraya daxil edilmişdir. Lüğət 21000-dən artıq sözdən və 332 səhifədən ibarətdir.

Orfoqrafiya məsələlərinə dair ictimaiyyətin tələbini lazımi şəkildə ödəmək məqsədi ilə Azərbaycan dilinin üçüncü orfoqrafiya lüğəti 1960-cı ildə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən

«Azərbaycan dilinin orfoqrafiya lüğəti» adı ilə nəşr edilmişdir. Lüğət Azərbaycan Nazirlər Sovetinin 1958-ci il 24 iyul tarixli, 497 nömrəli qərarı ilə təsdiq edilmiş və 1959-cu il 6 aprel tarixli, 268 nömrəli qərarı ilə 8-ci paraqraf dəqiqləşdirilmiş «Azərbaycan dilinin orfoqrafiya qaydaları» əsasında tərtib olunmuşdur.

Bu lüğətin tərtibində 1940-cı ildə nəşr edilmiş «Orfoqrafiya lüğəti» əsas tutulmuşdur. Lüğətin üçüncü nəşrində təxminən 40000-dən artıq söz vardır. Lüğət 620 səhifədən ibarətdir. Lüğət N.Rəhimzadə və B.Abdullayev tərəfindən təkmilləşdirilmiş yeni nəşrdir.

Kitabda xüsusi coğrafi adlar və şəxs adları da əlavə şəklində verilmişdir. Həmin lüğət 1940-cı ildəkinə nisbətən xeyli təkmilləşdirilmişdir.

1965-ci ildə «İbtidai siniflərdə orfoqrafik çalışmaların sistemi» «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçi Y.Kərimov olmaqla lüğət 102 səhifədən ibarətdir.

1966-cı ildə «Məktəblinin orfoqrafiya lüğəti» «Maarif» nəşriyyatında nəşr olunmuş, tərtibçilər Ə.Abbasov və Ə.Əfəndizadədir. Lüğət 151 səhifədən ibarətdir.

1972-ci ildə «Məktəblinin orfoqrafiya lüğəti» yenidən işlənərək və təkmilləşdirilərək «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin hər iki nəşrinin həcmi eynidir, hər iki nəşr 151 səhifədən ibarətdir.

1975-ci ildə «Azərbaycan dilinin orfoqrafiya lüğəti» «Elm» nəşriyyatında nəşr olunmuşdur. Oxuculara təqdim olunan bu lüğət özündən əvvəlki «Orfoqrafiya lüğəti»nin Nəsimi adına Dilçilik İnstitutunun baş elmi işçiləri, filoloji elmlər namizədləri B.T.Abdullayev və N.R.Rəhimzadə tərəfindən dəqiqləşdirilmiş və daha da təkmilləşdirilmiş yeni nəşridir.

Lüğətin bu nəşrində sözlərin sayı daha da artırılaraq 58000-ə çatdırılmışdır.

Əvvəlki lüğətlərdən fərli olaraq, bu lüğətdə bəzi dəyişikliklər edilmişdir. Məsələn: həmin lüğətlərdə bəzən sözlərin iki cür yazılışına yol verildiyi halda (məsələn: qulan//qulun; gizlənqaç//gizlənpaç; motosiklçi//motosikletçi və s.), bu lüğətdə həmin variantlardan biri – ən çox işlənən forması saxlanılmışdır.

Əvvəlki lüğətlərdə olub, indi çox az işlənən, yaxud da heç işlənməyən bir sıra sözlər, xüsusən termin mahiyyətli sözlər bu lüğətə daxil edilməmişdir. Lüğətə əsasən müasir Azərbaycan ədəbi dilinin leksikası daxil edilmişdir. Lakin o, mahiyyət etibarilə orfoqrafiya haqqında bir məlumat vəsaiti olduğundan, keçmiş dövrlərə aid bədii ədəbiyyatda təsadüf edilən və yazılış cəhətdən normaya salınması tələb olunan bir çox sözlər də klassik ədəbiyyatda işlənən sözlər, elmi və elmi-texniki terminlər, loru və məhəlli sözlər və s. lüğətə daxil edilmişdir.

Lüğət, o cümlədən orfoqrafiya lüğəti öz dövrünün leksikasını əks etdirir. Məlum olduğu kimi, elmin, texnikanın və ümümiyyətlə, mədəniyyətin inkişafı ilə əlaqədar olaraq, dilimizin lüğət tərkibi xeyli zənginləşmişdir. Buna görə də, təbiidir ki, lüğətin bu nəşrində *kosmonavt, kosmoloji, kosmodrom, kibernetika, kibernetik, orbital* və ümumiyyətlə, kosmosun öyrənilməsi ilə əlaqədar olan bir çox yeni sözlər öz əksini tapmışdır.

«Azərbaycan dilinin orfoqrafiya lüğəti»nin təkmilləşdirilməsi üçün ən əsas bazanı, əlbəttə, ilk növbədə dövri mətbuat, elmi-texniki ədəbiyyat və ümumiyyətlə, uzun illərdən bəri lüğətçilik sahəsindəki iş prosesində toplanılmış

materiallar təşkil edir. Lüğətin sözlüyü tərtibçilərin iştirakı ilə redaktor tərəfindən əsaslı surətdə gözdən keçirilmiş, əvvəlki orfoqrafiya lüğətlərinə təsadüfən, yaxud diqqətsizlik üzündən düşmüş və mexaniki surətdə birindən o birisinə keçmiş bir sıra sözlər (məsələn: qıyışmaq, qışlatmaq, quraqsımaq və s.) lüğətdən çıxarılmış, əvəzində isə bir çox yeni, yaxud yaddan çıxmış köhnə, lakin lazımlı sözlər daxil edilmişdir (məsələn: kampaniya, qısadalğalı, yerətrafı, yelçəkən, bədbatin, nifrətəngiz, bədəhval və s.).

1981-ci ildə «I-III siniflər üçün orfoqrafiya lüğəti» «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçi Yəhya Kərimovdur. Lüğət 79 səhifədən ibarətdir.

2004-cü ildə «Azərbacan dilinin orfoqrafiya lüğəti» Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hazırlanmış və «Lider nəşriyyat»da nəşr olunmuşdur. Lüğətin redaktoru filologiya elmləri doktoru, professor Ağamusa Axundovdur. Lüğət 728 səhifədən ibarətdir.

«Azərbaycan dilinin orfoqrafiya lüğəti» Azərbaycan Respublikası Prezidentinin 26 may 2004-cü il tarixli 71 nömrəli fərmanına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 2004-cü il tarixli qərarı ilə təsdiqlənmiş «Azərbaycan dilinin orfoqrafiya qaydaları» əsasında latın qrafikalı əlifba ilə hazırlanmış ilk nəşrlərdəndir. Lüğətə əvvəlki nəşrdə olmayan 18000-ə yaxın söz də daxil edilmişdir.

Orfoqrafiya qaydalarının yenidən işlənib hazırlanması sonuncu orfoqrafiya qaydalarının təsdiqindən keçən 45 il ərzində dilimizin lüğət tərkibində, tələffüz və yazı proqramlarında gedən təbii inkişafla bərabər, latın qrafikalı Azərbaycan əlifbasının qəbul edilməsi ilə bağlı olmuşdur.

1990-cı illərin ortalarından başlayaraq orfoqrafiya qaydaları Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda hazırlanmış və o zamanlar fəaliyyətdə olan Azərbaycan Dövlət Dilinin Tətbiqi üzrə Hökumət Komissiyasının iclaslarında dəfələrlə hərtərəfli müzakirə edilmişdir. Nəhayət, 1999-cu ildə həmin komissiya onun ölkə miqyasında geniş müzakirəyə çıxarılması barədə qərar qəbul etmiş və az sonra həmin layihə respublikanın «Azərbaycan», «Respublika», «Xalq qəzeti», «Ədəbiyyat» və «Azərbaycan müəllimi» kimi populyar qəzetlərində çap olunaraq, ümumxalq müzakirəsinə çıxarılmışdır. İki aya yaxın davam edən müzakirələrdə mətbuatda ayrı-ayrı məqalələrlə çıxış edənlərlə yanaşı, Komissiyaya çeşidli məktublar da göndərilmiş, Azərbaycan Təhsil Nazirliyinin Tədris-Metodika Mərkəzində Bakı məktəblərinin 100-ə yaxın qabaqcıl və yüksək ixtisaslı müəllimlərinin iştirakı ilə layihənin geniş müzakirəsi keçirilmişdir.

Lüğət öz həcminə, tutumuna, sözlərin sayına görə də fərqlənir. Belə ki, 1975-ci ildə kiril əlifbası ilə çap edilmiş «Azərbaycan dilinin orfoqrafiya lüğəti» cəmi 58000 sözü əhatə edirdisə, latın qrafikası ilə nəşr olunan yeni orfoqrafiya lüğətində 80000-ə yaxın sözün düzgün yazılışı göstərilmişdir.

Bütün başqa lüğətlər kimi, orfoqrafiya lüğətləri də öz dövrünün dil mənzərəsini əks etdirir. Odur ki, lüğətin tərtibi zamanı dilimizin bütün üslublarının lüğət tərkibləri nəzərdən keçirilmiş, işlənmə tezliyindən asılı olmayaraq bütün sözlər, bu cərgədən bütün terminlər lüğətə daxil edilmişdir. Bundan başqa, Azərbaycan dilinin sözyaratma modellərinə uyğun olan bütün sözlər lüğətə salınmışdır. Bu baxımdan lüğətin əhatə etdiyi leksik arsenal öz əhatə dairəsinə görə mövcud izahlı

tərcümə və s. lüğətlərimizin hamısından böyükdür və bu lüğətə daxil edilmiş sözlərin bir çoxu oxucular üçün anlaşılmaz və ya mübahisəli görünə bilər. Ona görə də alınma sözlərin, xüsusən rus dilindən alınan sözlərin bəziləri (polka, reyka və s. bu qəbildən olan sözlər) aydınlıq xatirinə əlavə izahatla verilir və beləliklə, hansı məqamda işləndiyi göstərilir. Məsələn: lüğətə «polka» «rəf» yox, «rəqs növü», «reyka» «ensiz taxta» mənasında yox, texnikada «əyri cızıqlar çəkmək üçün nazik lövhə» mənalı söz kimi daxil edilmişdir.

Məlumdur ki, böyük və əsaslı müzakirələrdən sonra Azərbaycan dilinin latın qrafikalı əlifbasına apostrof işarəsi salınmamışdır və buna görə də, Azərbaycan dilinin yeni orfoqrafiya qaydalarında da apostrofla bağlı bölmə yoxdur. Təbiidir ki, lüğətin tərtibi zamanı bu, nəzərə alınmış və kiril əlifbasında apostrofla yazılan sözlər apostrofsuz verilmişdir.

Orfoqrafiya lüğətini Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Lüğət şöbəsinin əməkdaşları filologiya elmləri doktorları İsmayıl Məmmədov (A, B, Q) və Aydın Ələkbərov (C, Ç, F, H, Ş, T, U, Ü), filologiya elmləri namizədləri Bəhruz Abdullayev (D, E, Ə, İ, U, V, Z) və Nəriman Seyidəliyev (G, K, L, M, Y) və elmi işçi Nigar Xəlifəzadə (X, N, O, Ö, P, R, S) tərtib etmişlər.

*Lüğətin quruluşu aşağıdakı kimidir:*

1. Lüğətdə sözlər əlifba sırası ilə verilmişdir.

2. Lüğətə müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibinə daxil olan sözlər salınmışdır ki, onları başlıca olaraq aşağıdakı kimi qruplara ayırmaq olar:

a) dilimizin lüğət tərkibinin ayrılmaz hissəsini təşkil edən xüsusi terminlər;

b) vaxtilə dilimizin lüğət tərkibinə girmiş, indi isə yalnız keçmiş həyatın müxtəlif cəhətlərini əks etdirmək üçün lazım olan, müxtəlif ədəbiyyatda işlədilən köhnəlmiş sözlər (məsələn: *yüzbaşı, biyar, qoçu, baqqal* və s.);

c) dünya xalqlarının və başqa xalq və tayfaların adları;

ç) tarixi və əsatiri şəxsiyyət adlarından yalnız məcazi və simvolik mənalarda işlənilənləri, məsələn: *Əflatun, Loğman, Hatəm* və s., habelə adam adlarından və ya familiyalarından düzəldilmiş əşya və s. adları; məsələn: *qalife, frenc, mauzer, dizel* və s.;

d) məhəlli sözlərdən şifahi xalq yaradıcılığında ən çox yayılmış, buradan da ümumxalq dilinə keçmiş, habelə termin kimi qəbul edilmiş və ədəbi dildə qarşılığı olmayan sözlər: *bitki, heyvan, balıq* və s. adları;

e) defislə yazılan mürəkkəb sözlər – isimlər, məsələn: *arvad-uşaq, dağ-daş, gecə-gündüz* və s. zərflər, məsələn: *gülə-gülə, tez-tez, yavaş-yavaş* və s;

ə) mətbuat və ədəbiyyatda geniş yayılmış, həmçinin canlı dildə işlədilən mürəkkəb ixtisar sözlər, məsələn: *raykom, komsomol, kolxoz, sovxoz* və s.;

f) isim və sifətlərin ən çox işlənən kiçiltmə və oxşama formaları, məsələn: *atacan, nənəcən, quşçuq, quşcuğaz, uşaqcığaz* və s;

g) müxtəlif şəkildə düzəldilmiş səs təqlidi sözlər, məsələn: *qurultu, şaqqıltı, myov-myov, cik-cik* və s.

3. Lüğətə coğrafi adlar, adam adları, müasir ədəbi dildə işlənməyən qəliz ərəb və fars sözləri, yalnız bir məhəllə və məhdud peşəkarlar dairəsində işlənən sözlər (arqotizmlər) daxil edilmir.

4. Mənası geniş oxucu kütləsi üçün aydın olmayan bəzi söz və terminlərin qarşısında aşağıdakı kimi qısa izah və ya üslubi işarələr (izahlar kursivlə, terminlər isə mötərizədə) verilir; məsələn: *anadil, quş; ağzımvay, key; dizmarı, üzüm; edikt (tar.); esperanto (dilç.); ələvi, bitki; karbürator (tex.); qır-qıra, oyuncaq; qoşulan (riyaz.); yegan (mus.)* və s.

5. Tək işlənməyən sözlər tərkib daxilində olmaqla, bunların ikinci hissəsi kursivlə verilir; məsələn: *cərgəli əkin; onikibarmaq bağırsaq; sinov bitki, şollar suyu, varid olmaq, vaz keçmək* və s.

6. Tələffüzcə yaxın olan, lakin yazılış və mənaca fərqlənən sözlərə aşağıdakı kimi izah verilir; məsələn: *taskabab, xörək; taskababı, qab; yeyə, alət; yiyə, sahib* və s.

7. Mənası yalnız vurğu ilə dəyişilən sözlərin yazılışı bir variantda verilir; məsələn: *akademik, elektrik* və s.

8. Omonimlər ayrı-ayrı sözlər kimi deyil, bir söz kimi verilir.

9. İsimlər adlıq halda verilir; *əl, pambıqçı, dostluq, ər-arvad, dağ-daş, əlüzyuyan, taxıl biçən, təhər-töhür* və s.

10. İsimlərin kiçiltmə və oxşama şəkilləri lüğətdə ayrıca söz kimi verilir (evcik, qızcığaz, kişiciyəz, adamcığaz ) və s.

11. Xalq, tayfa və sülalə adları, eləcə də cəm halda işlədilən elmi terminlər aşağıdakı kimi verilir: *ağqoyunlu (-lar), ayağıpərdəli (-lər), azərbaycanlı (-lar), kəsrani (-lər), qırğız (-lar), rus (-lar)* və s.

12. Bütün feili isimlər lüğətdə verilir; (*qazma, daşma, döymə* və s.)

13. İşarə adları olan sözlər aşağıdakı kimi verilir: *faiz, %; iks, x; iqrek, y* və s.

14. Əsli (qara, ağ, böyük və s.), düzəltmə (kəskin, iqtisadi, naməlum və s.) və mürəkkəb (uzaqvuran, uzunsaçlı, çoxmərtəbəli və s.) sifətlər lüğətə daxil edilib.

15. Sifətin - *raq,* - *rək;* - *ımtıl,* - *umtul,* - *ümtül;* - *sov; -mtraq…* şəkilçilərinin qoşulması ilə düzələn azaltma (yaxşıraq, gödərək, ağımtıl, göyümtül, uzunsov, göyümsov, sarımtraq…) və *m, p, r* ünsürlərinin köməyi ilə düzələn şiddətləndirmə dərəcəsi (yamyaşıl, qıpqırmızı, tərtəmiz…) lüğətdə verilir.

16. Feili sifətlərdən yalnız substantivləşmiş (isimləşmiş) sözlər lüğətdə verilir (çalan, oxuyan və s.).

Orfoqrafiya lüğəti Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının 10 mart 2004-cü il tarixli qərarı ilə təsdiq olunmuşdur.

**Qeyd:** 2013-cü ildə «Azərbaycan dilinin orfoqrafiya lüğəti» yenidən «Şərq-Qərb» Nəşriyyat Evində nəşr olunmuşdur. Bu nəşrdə sözlərin sayı 110 mini keçmişdir.

Azərbaycan dilinə aid orfoepiya-orfoqrafiya (kompleks) lüğətlər də çap olunmuşdur.

1983-cü ildə «Orfoqrafiya-orfoepiya-qrammatika lüğəti» «Maarif» nəşriyyatında Ə.Əfəndizadə tərəfindən tərtib edilərək nəşr edilmişdir. Lüğət 88 səhifədən ibarətdir.

«Orfoqrafiya-orfoepiya-qrammatika lüğəti» yenidən işlənərək və təkmilləşdirilərək 1989-cu ildə «Orfoqrafiya-orfoepiya lüğəti» adı ilə «Azərnəşr» nəşriyyatında nəşr olunmuşdur. Lüğətin tərtibçisi də Ə.Əfəndizadədir. Lüğətin bu nəşri 151 səhifəni əhatə edir. 1996-cı ildə lüğət yenidən 3-cü dəfə nəşr olunmuşdur. Lüğətin tərtibçisi Ə.R.Əfəndizadə,

redaktoru isə A.Hüseynovadır. Lüğət «Azərnəşr» nəşriyyatında nəşr olunmuşdur. Bu lüğət vasitəsilə sözlərin düzgün yazılışı, orfoepik tələffüzü, qrammatik xarakteri, həm də bir sıra hallarda mənası, omonimliyi, sinonimliyi haqqında kompleks məlumat almaq olar. Lüğət üçün sözlərin seçilməsində, əsasən, onların çoxişləkliyi əsas tutulmuş, yazılışı və tələffüzündə müəyyən çətinliklərin qarşıya çıxması ehtimalı xüsusi olaraq nəzərə alınmışdır. Lüğət söz haqqında kompleks məlumatları əhatə edən xüsusi sorğu vəsaitidir. Onun vasitəsilə lazımi sözün həm orfoqrafik yazılışı, həm səslənməsi və vurğusuna görə düzgün tələffüzü, həm də qrammatik xarakteri haqqında konkret məlumat ala bilmək olar. Hətta bəzi sözlərin mənasını, nitqdə işlənmə yerini, sinonim və omonim qarşılıqlarını öyrənməkdə də lüğət yardımçı ola bilər. Bu sorğu vəsaiti təkcə lüğətdən ibarət deyildir. Onun ikinci hissəsində Azərbaycan dilinin orfoqrafiya və orfoepiya qaydaları haqqında da yığcam məlumat verilmişdir. Lüğətdə düzgün yazılışı bu və ya digər hərfinə görə çətin görünən, yazılışı ilə tələffüzü müəyyən cəhətlərdən fərqlənən, leksik, yaxud qrammatik mənası «şübhə» doğuran sözlər əhatə edilmişdir. Buna görə də universal lüğətdən fərqli olaraq, bu lüğətdə *su, dəniz, üzüm, körpə, qırmızı, uca, yağış* və s. kimi ümumişlək sözlər öz əksini tapmışdır. Eyni prinsipi əsas tutaraq, lüğətə xüsusi isimlər sırasında bütün görkəmli yazıçı və şairlərin, bəstəkar və alimlərin adlarını, həmçinin coğrafi adları daxil etmək lazım görülməmişdir. Onun sözlüyündə yalnız elə xüsusi isimlər əhatə olunmuşdur ki, onların yazılışı, tələffüzü oxucu üçün az-çox çətin görünə bilsin.

Lüğətdən istifadə edərkən sözlərin düzgün tələffüzünü müəyyənləşdirmək üçün aşağıdakıları bilmək lazımdır.

1. Düzgün tələffüzü orfoqrafik yazılışından sadə və çox aydın şəkildə fərqlənən sözlərdə müvafiq hərf qalın şriftlə verilmiş və onun hansı səsi ifadə etməsi sözün yanındaca transkripsiya ilə göstərilmişdir; məsələn: *bulud [t], usta [d]; qanun [a]; motor [a]* və s. Bu, o deməkdir ki, həmin sözlər *[bulut], [usda], [qa: nun], [mator]* şəklində tələffüz olunur.

Qeyd etmək lazımdır ki, sözlərin tələffüz şəklini göstərməkdə bu üsuldan istifadə olunması lüğətdə həm yığcamlığı təmin etməyə, həm də sözün yazılışı ilə tələffüzü arasındakı fərqi daha tez və aydın görə bilməyə kömək göstərir.

2. Deyilişi yazılışından nisbətən çox fərqlənən sözlərin düzgün tələffüz şəkli bütövlüklə transkripsiya ilə göstərilmişdir; məsələn: *zəif – [zəyif]; neftçi – [nefçi]; dovşan – [do: şan]* və s.

Deyilişi yazılışından ya heç, ya da nəzərə çarpacaq dərəcədə fərqlənməyən sözlərin əbədi tələffüz şəklini göstərmək üçün heç bir xüsusi işarədən istifadə olunmamışdır. Bu o deməkdir ki, həmin sözlərin düzgün yazılışı onların düzgün tələffüzü üçün də təminat verir; məsələn: *dəsmal, dəyirman, stansiya, şkaf* və s.

Canlı dilimizdəki bəzi səs və səs variantlarını ifadə etmək üçün əlifbamızda xüsusi hərf işarələrinin olmadığını nəzərə alaraq, sözlərin tələffüz şəklini göstərmək üçün bir neçə şərti işarədən istifadə olunmuşdur:

a) yazıda k (ke) hərfi ilə ifadə olunub, *[y]* səsinin kar qarşılığını bildirən səs, Azərbaycan dilinə aid ədəbiyyatda və orta məktəb dərsliklərində olduğu kimi, *[x]* şəklində işarə edilmişdir; məsələn: *devirmək – [devirməx], gözəllik – [gözəllix]* və s. Nəzərə alınmalıdır ki, həmin səsin məxrəci

*[y]* səsinin məxrəcindən qətiyyən fərqlənmir, sadəcə olaraq, digər kar samitlər kimi, bir qədər nəfəslik tələffüz edilməsi ilə seçilir. Azərbaycan dilinin şərq qrupu dialetlərində söz sonundakı samitlərin cingiltiləşməsi hadisəsi qüvvətli olduğu üçün həmin dialektlərə (Bakı, Quba, Salyan və s.) mənsub olanlar müəyyən məqamlarda *k (ke)* samitini *[x]* kimi deyil, *[y]* şəklində tələffüz edirlər; məsələn: *[devirməy], [gözəlliy]* və s. Buna görə müasir ədəbi dilimizdə *[x]* səsini, təxminən *[y]* kimi də tələffüz etmək səhv hesab edilmir.

b) son samiti *[x]* kimi tələffüz edilib, q ilə yazılan sözlərin tələffüz şəkli lüğətdə, əsasən *[x]* göstərilmişdir; məsələn: *qaşıq – [qaşıx], yaylaq – [yaylax], oxumaq – [oxumax]* və s. Nəzərə alınmalıdır ki, belə sözlərin *[ğ]* ilə tələffüzü də ədəbi dil baxımından düzgün sayılır: *[qaşığ], [yaylağ], [oxumağ]* və s.

c) sözün tərkibindəki müvafiq saitin (əsasən, vurğusuz hecalarda işlənən saitin) bir qədər uzun tələffüz edildiyini bildirmək üçün hərfin yanında iki nöqtə işarəsi qoyulmuşdur; məsələn: *ani [a:ni], tərif [tə:rif], nizə [ni:zə]* və s.

ç) müəyyən sözlərdə *k,* bəzən də *q* hərfinin kolxoz sözündəki *[k]* kimi səsləndiyini bildirmək üçün yalnız ehtiyac olduğu hallarda *[k]* şərti işarəsindən istifadə olunmuşdur; məsələn: *[aqrotexnik], [diksiya], [ekspert], [dikqət], [ağsakqal], [üfük]* və s. Qalın saitli hecalarda isə bu şərti işarədən istifadəyə bir o qədər də ehtiyac olmadığı nəzərə alınmışdır; məsələn: *kombayn, konteyner, kolleksiya* və s. sözlər buna misal ola bilər. Aydın məsələdir ki, belə sözlərdəki *k* samitinin *[k],* yoxsa *[ka]* səsini bildirməsi bir-biri ilə qarışdırılmır.

d) lüğətdə bəzi sözlərin yazılış və ya tələffüz şəkli iki variantda göstərilmiş və onların arasında nöqtəli vergül işarəsi qoyulmuşdur. Bu o deməkdir ki, həmin variantların ikisi də ədəbi dil baxımından düzgün sayılır.

e) lüğətdəki sözlərin hansı nitq hissəsinə və ya başqa qrammatik qrupa mənsub olduğu göstərilərkən bir sıra qısaltmalardan istifadə olunmuşdur.

Lüğət orta və yuxarı sinif şagirdləri, tələbələr, nəşriyyat və radio-televiziya işçiləri, aktyorlar, özfəaliyyət dərnəkləri üzvləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

2003-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti Pedaqoji fakültəsinin 10 dekabr tarixli iclasının qərarına əsasən «Orfoqrafiya-orfoepiya lüğəti» nəşr olunub. Tərtibçilər Nadir Abdullayev, Zabit Məmmədov, redaktor isə Ə.V.Tanrıverdiyevdir.

Lüğətə yazılışında və ya tələffüzündə qüsura yol veriləcəyi ehtimal olunan sözlər daxil edilmişdir. Həmin sözlərin böyük hissəsini digər dillərdən alınan sözlər, coğrafi yer, şəhər, tarixi şəxsiyyətlərin adları və s.təşkil edir.

Lüğətdəki hər bir sözün qarşısında onun tələffüz şəkli verilmişdir. Sözlərin tələffüz çalarını göstərmək üçün müxtəlif işarələrdən istifadə olunmuşdur. Saiti adi kəmiyyətdən bir qədər uzun tələffüz edilən sözlərdə həmin səsi ifadə edən hərf mötərizəyə alınmış, qarşısında iki nöqtə qoyulmuşdur. Məsələn: *q[a: ]nun, n[i:]zə, m[ə:]lum, m[ö:]təbər* və s.

Eyni kəmiyyətdə tələffüz olunan qoşa samitli sözlərdə də həmin formadan istifadə olunmuşdur. Məsələn: *dollar-do[l:]ar, əvvəl-ə[v:]əl, mütəxəssis-mütəxə[s:]is, təyyarə-tə[y:]arə* və s.

İki səs çaları ilə tələffüz olunan sait və ya samitli sözlər də mötərizədə zəif tələffüz edilən kiçik, nisbətən aydın deyilən adi hərflə işarə edilmişdir. Məsələn: *müəllim-m[ə] [l:]im, qorxunc-qorxun[ç], ulduz-uldu[s], çəkic-çəki[ç], müalicə-m[üa]licə, pələng-pələn[k]* və s.

Bəzi sözlərdə söz daxilində və ya sonunda «k», «q» samitlərinin *komanda, oktyabr* sözlərində olan «k» kimi oxunduğunu, deyildiyini bildirmək üçün [k] işarəsindən istifadə edilmişdir. Məsələn*: iqtidar-i[k]tidar, haqqında-ha[k]qında, filoloq-filolo [k], fizik-fizi[k]* və s.

Sonu *«ğ», «x»* ilə deyilib *«q»* ilə yazılan ikihecalı sözlərin tələffüzündə *«x»* variantına üstünlük verilmişdir. Məsələn: *uşaqlar-uşa[x]lar, yarpaq-yarpa[x], oxumaq-oxuma[x], sandıq-sandı[x]* və s. (belə sözlərin «ğ» ilə tələffüz olunması da ədəbi dil baxımından düzgün sayılır).

Lüğətdə *«k»* hərfi ilə yazılıb, *«y»* samitinin kar qarşılığı kimi səslənən səs «$x^1$» işarəsi ilə göstərilir. Məsələn: *kəklik-kə[$x^1$] li [$x^1$], vətənpərvərlik-vətənpərvərli[$x^1$], körük-körü[$x^1$], külək-külə[$x^1$]* və s.

Lüğətdə qrammatik formaların da tələffüz şəkli göstərilmişdir. Məsələn: *qanundan-q[a:]nun[n]an, qaranlıq-qaran [n]ı:[x], qanlı-qa[n:]ı, atamla-atam[nan]* və s.

Lüğətin sonunda yanaşı istifadə olunmaq məqsədilə Azərbaycan ədəbi dilinin müxtəsər orfoqrafiya və orfoepiya qaydaları verilmişdir.

Lüğət hazırlanarkən Ə.Əfəndizadənin «Orfoqrafiya-orfoepiya-qrammatika», «Azərbaycan dilinin orfoepiya sözlüyü», «Vurğu lüğəti» adlı vəsaitlərdən istifadə olunmuşdur.

**Azərbaycan dilinin frazeoloji lüğətləri.** 1976-cı ildə Ə.Orucovun hazırladığı «Azərbaycanca-rusca frazeologiya lüğət»i nəşr olunmuşdur. Lüğətdə 5500 frazeoloji vahid əhatə olunmuşdur. Frazeologiyaya dair M. Tağıyevin hazırladığı «Rusca-Azərbaycanca frazeoloji lüğət» də müəyyən zəngin materiallardan ibarətdir. Bu lüğət 1964-cü ildə və sonradan təkmilləşdirilərək 1974-cü ildə çapdan çıxmışdır.

Frazeoloji vahidlərə aid leksikoqrafik iş frazeoloji lüğət adlanır. Frazeoloji lüğətlərdə bütöv ifadə və ibarələr izah olunur. Belə lüğətlərin obyekti frazeoloji birləşmələrdir. Frazeoloji lüğətin məqalələrində frazeoloji birləşmələrin mənasının izahı, əmələ gəlməsi, üslubi xüsusiyyətləri, bu birləşmələrə aid tarixi-etimoloji və biblioqrafik arayışlar, illüstrativ misallar verilməlidir. Lüğət məqaləsində ayrı-ayrı frazeoloji lüğətdə məqsəd bir dilə məxsus olan frazeoloji vahidləri imkan daxilində meydana çıxarmaq və onların mənasını açmaqdır.

Frazeoloji lüğətlərdə əsas məsələ frazeoloji vahidlərin mənasını açmaq və izah etmək, dildə onların işlədilməsini real göstərmək və üslubi xüsusiyyətlərini verməkdir. Bu lüğətlərdə frazeoloji birləşmələrə aid göstəricilər verilməlidir. Alınma frazeoloji birləşmələrin mənbəyi göstərilməlidir. Mənası aydın olmayan frazeoloji birləşmələrə aid izahat verilməlidir.

Frazeoloji lüğətlərdə adi danışıqda, elmi və bədii əsərlərdə işlənən kütləvi xarakterli frazeologizmlər verilir. Bu lüğətlərə loru, vulqar və professional frazeologizmlər, sərbəst söz birləşmələri, atalar sözü və zərbi-məsəllər daxil edilmir.

Frazeoloji lüğətlər bir və ikidilli olur. İkidilli frazeoloji lüğətlərdə müxtəlif dillərin vahidləri qarşılaşdırılır.

Frazeologizmlər lüğətlərdə, xüsusən tərcümə lüğətlərində müxtəlif üsullar əsasında yerləşdirilir:

1. Frazeoloji birləşmələr lüğətdə birinci komponentə görə yerləşdirilir.

2. Frazeoloji birləşmələr tərkibindəki komponentlərin sayı qədər lüğətdə təkrar edilir.

3. Frazeoloji birləşmələr əsas mənanı verən komponentlərə görə dəyişdirilir.

Lüğətlərin çoxunda frazeoloji birləşmələr üçüncü üsul əsasında izah olunmuşdur.

Frazeoloji birləşmələrin birinci komponentə görə yerləşdirilməsi üsulu frazeoloji lüğətlər üçün xarakterik ola bilməz. Çünki frazeoloji birləşmənin birinci komponenti və fakultativ və ya leksik variantı ola bilər. Frazeoloji lüğətlərdə frazeoloji birləşmə tərkibindəki komponentin sayı qədər lüğətdə təkraretmə üsulu əsas göstərilir.

Azərabycanda Azərbaycan dilinin frazeoloji lüğəti tərtib olunmamışdır. Çap olunmuş frazeoloji lüğətlər isə tərcümə xarakterlidir.

1962-ci ildə «Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca müxtəsər frazeoloji lüğət» «Azərtədrisnəşr» nəşriyyatında nəşr olunmuşdur. Tərtibçilər X.Əhmədova, İ.Rəhimov olmuşdur. Lüğət 136 səhifədən ibarətdir.

1964-cü ildə «Müxtəsər rusca-azərbaycanca frazeoloji lüğət» nəşr olunmuşdur.

M.T.Tağıyevin «Rusca-azərbaycanca frazeoloji lüğət»i 1974-cü ildə «Maarif» nəşriyyatında nəşr olunmuşdur. Bu onun 1964-cü ildə buraxılmış «Müxtəsər rusca-azərbaycanca frazeoloji lüğət»in yenidən işlənmiş və təkmilləşdirilmiş nəşridir. Burada rus və Azərbaycan dili frazeoloji vahidləri

məna, üslub və cümlədə işlənmə xüsusiyyətlərinə görə tutuşdurulur. Lüğət 248 səhifədən ibarətdir.

Lüğət rus dilini öyrənən şagird və tələbələrə, Azərbaycan məktəbində rus dili müəllimlərinə kömək məqsədi ilə hazırlanmışdır. Lakin lüğətdən rus dilində olan ədəbiyyatı oxumaq və tərcümə etmək məqsədi ilə də istifadə etmək olar. Lüğət M.T.Tağıyevin redaktorluğu ilə çap olunmuşdur.

Bu lüğətə aşağıdakı vahidlər daxil edilmişdir:

a) iki və ya daha çox müstəqil nitq hissələrinə aid olan sözlərdən ibarət olan frazeoloji vahidlər: *besstrunnaya balalayka, pravaya ruka, dat slova, nayti obşiy yazık* və s.

b) müstəqil və köməkçi nitq hissələrinə aid olan sözlərin birləşməsindən əmələ gələn frazeoloji vahidlər: *pod rukami, pod ruku, v qlaza, za qlaza, na qlazax, v lise, v litso, ot litsa, so dnya na den, s pyatoe na desyatoe, bez qodu nedelya* və s.

c) zahirən cümlə quruluşlu frazeoloji vahidlər: *babuşka nadvoe skazala, kot naplakal* və s.

Rus və Azərbaycan dillərində zahirən eyni, ancaq mənalarına görə bir-birinə qarşı duran omonim birləşmələr vardır ki, bunlar həm frazeoloji vahid, həm də adi sintaktik birləşmələr kimi işlənir. Lüğətdə ancaq frazeoloji vahidlər verilir. Lüğətə atalar sözü,  məsəllər daxil edilməmişdir.

Frazeoloji vahidlər lüğətdə əlifba sırası ilə verilir. Sifətlə isimdən ibarət olub nitqdə tərkib hissələri yerini dəyişdirə bilən frazeoloji vahidlər lüğətdə əlifba sırasına uyğun düz qayda ilə verilir; Məsələn: «kazanskaya sirota» vahidi nitqdə «sirota kazanskaya» kimi də işlədilə bilər. Lakin deyilən qaydaya uyğun olaraq, bu frazeoloji vahid «K» hərfinə aid bölmədə verilir.

Əgər bu tipli frazeoloji vahidlərin tərkib hissələri rus dilində əks istiqamətdə sabitləşmişdirsə, belə səciyyə daşıyanlar lüğətdə də bu şəkildə qeydə alınır; Məsələn: «çuçelo qoroxovoe» lüğətin «Ç» bölməsində verilir, çünki bunun tərkib hissələri ancaq göstərilən sırada sabitləşmişdir.

Feillə vasitəli hallardakı isimlərin birləşməsindən əmələ gələn frazeoloji vahidlər rus dilinə xas olan sırada, yəni feil əvvəldə olmaqla verilir. Məsələn: *«bit trevoqu», brat za qorlo», «brat slovo».*

Nitqdə bu tipli vahidlər «trevoqu bit», «za qorlo brat», «slovo brat» kimi də işlədilə bilər. Lakin bu frazeoloji vahidlər lüğətdə yuxarıda göstərilən qaydada verilir. Əgər feili frazeoloji vahidin tərkib hissələri əks sırada sabitləşibsə, bunlar lüğətdə olduğu kimi də verilir; Məsələn: «s duşi vorotit», «ot neçeqo delat» və s. vahidlərinin tərkib hissələri bu qaydada sabitləşdiyindən lüğətdə də bu şəkildə qeydə alınır.

Frazeoloji vahidlərin lüğətdə əlifba sırası ilə verilməsində tək birinci sözün birinci hərfi deyil, bütün sözlərin hərf tərkibi nəzərə alınır. Məsələn: «volnıy kazak», «volnaya ptitsa», «volosı dıbom stanovyatsya», «volk v oveçey şkure», «vokruq da okolo», «voyti v stroy», «voyti v rol», voobrajat o sebe» «V» hərfi bölməsində aşağıdakı ardıcıllıqla verilir:

*Voyti v rol;*

*Voyti v stroy;*

*Vokruq da okolo;*

*Volk v oveçey şkure;*

*Volosı dıbom stanovyatsya;*

*Volnaya ptitsa;*

*Volnıy kazak;*

*Voobrajat o sebe.*

Lüğətdə frazeoloji vahidlərin bəzi qrammatik əlamətləri nəzərə alınır. Frazeoloji vahidlər öz mənalarına, nitqdə işlənmə və forma xüsusiyyətlərinə görə bu və ya digər nitq hissəsinin ümumi modelinə uyğun gəlir.

1) Şəxsə, zamana görə dəyişən, tək və cəm formalarında işlənə bilən feili frazeoloji vahidlər məsdər formasında (infinitivdə) verilir; Məsələn: «vıyti və lyudi». «On vışel v lyudi». «On vıydet v lyudi». «Vı vışli v lyudi». «Vi vıydete v lyudi».

Əgər feili frazeoloji vahid dildə ancaq müəyyən bir formada sabitləşmişsə, o, lüğətdə öz formasında da təsbit edilir; Məsələn: «ne kaplet» (nad kem), «ne vışel» (çem).

2) Frazeoloji vahidlərin tərz cütlükləri (vidovıe parı) lüğətdə aşağıdakı şəkildə əks etdirilir:

a) əgər tərz cütlüklərindən biri tərkibində süffiksin olub-olmaması ilə o birindən fərqlənirsə, lüğətdə belə frazeoloji cütlük əlifba sırası nəzərə alınmaqla bir yerdə verilir: Məsələn: «brosat kamen» (v koqo) və «brosit kamen» (v koqo); «obivat klin» (mejdu kem) və «vbit klin» (mejdu kem); «vvodit v kurs» (koqo) və «vvesti v kurs» (koqo); «prinimat na sebya» (çto) və «prinyat na sebya» (çto); «podnimat na noqi» (koqo) və «podnyat na noqi» (koqo) qoşa misallarda tərz cütlükləri birləşdirilərək əlifba sırasına uyğun şəkildə lüğətdə aşağıdakı kimi yerləşdirilir:

*brosat (brosit) kamen (v koqo);*

*vbivat (vbit) klin (mejdu kem);*

*vvesti (vvodit) v kurs (koqo);*

*podnimat (podnyat) na noqi (koqo);*

*prinimat (prinyat) na sebya (çto).*

b) əgər tərz cütlüklərindən biri ön şəkilçilərinə (pristavkaya) görə o birindən fərqlənirsə, belə vahidlər lüğətdə bitmiş

(soverşennıy) və bitməmiş (nesoverşennıy) tərz əlamətlərinə görə (əlifba sırasını da nəzərə almaqla) iki dəfə qeyd edilir. Əlifba sırasına görə əvvəlcə verilən frazeoloji vahidin qarşısında müvafiq Azərbaycan dili vahidi yazılır. Tərz cütlüyünün əlifba sırasına görə sonra verilən tayı bax (smotri) sözü vasitəsilə oxucunu tərzin əvvəldə verilən tayına baxmağa istiqamət verir. Məsələn: «noyti və qoru» – bax: «idti və qoru»; «poyti po stopam» (çem) – bax: «idti po stopam» (çem); «sdelat poqodu» – bax: delat poqodu.

3) Adlar qrupundan olan nitq hissələrinə uyğun gələn və müxtəlif hal formalarında işlədilə bilən frazeoloji vahidlər lüğətdə ancaq adlıq halda verilir. Məsələn: *«staraya istoriya», «staraya pesnya», «temnıy les»* və s.

İsmin hər hansı bir vasitəli hal formasında işlənən frazeoloji vahidlər isə lüğətdə özlərinə xas olan hal formasında əlifba sırasına müvafiq verilmişdir. Məsələn: *«pod ruku», «pod rukami», «s ruki», «na ruku», «k şapoçnomu razboru», «s boru po sosenke», «ot a do zet», «ruka ob ruku»* və s.

4) Lüğətdə frazeoloji vahidlərin qrammatik əlaqələrinə geniş yer verilir. Məsələn: *«duşi ne çayat» vahidinin yanında «v kom»; «duşa ne lejit» vahidindən sonra «u koqo», «k komu», «k çemu»; «svet klinom ne soşelsya» vahidindən sonra «na kom», «na çem»* sual əvəzlikləri yazılır. Bu əvəzliklər frazeoloji vahidlərin nitqdə işlənmə qaydalarının əsas formalarını göstərir.

5) Lüğətdə frazeoloji vahidləri əhatə edən və onlarla bağlı olan sözlərə də müəyyən yer verilir: Məsələn: «blaqim matom» vahidi adətən «kriçat» feili ilə; «kak svoi pyat paltsev znat» feili ilə işlədilir. Buna görə belə əhatələr lüğətdə frazeoloji vahidlərlə birlikdə verilir.

Lüğətin əsas məqsədi rus frazeoloji vahidlərinə məna, üslub və işlənmə xüsusiyyətlərinə görə uyğun gələn Azərbaycan dili vahidlərinin verilməsindən ibarətdir.

İki dilin müqayisəsi frazeoloji vahidlərin üç qrupa bölünməsinə əsas verir.

1) Azərbaycan dilində leksik tərkibinə, məna, üslub və cümlədə işlənmə xüsusiyyətlərinə görə qarşılığı olan rus frazeoloji vahidləri:

*vzyat sebya v ruki – özünü ələ almaq;*

*vesti sebya – özünü aparmaq;*

*vzyat slovo – söz almaq;*

*dat slovo – söz vermək.*

2) Azərbaycan dilində ancaq məna və cümlədə işlənmə xüsusiyyətlərinə görə qarşılığı olan rus frazeoloji vahidləri:

*(vernutsya) nesolono xlebavşi – suyu süzülə-süzülə (qayıtmaq);*

*u çerta na kuliçkax – cəhənnəmin dibində;*

*xot prud prudi – itinə tök, həddindən çoxdur;*

*xot şarom pokati – yerinə süpürgə çəkilib.*

3) Azərbaycan dili vahidlərinə uyğun gəlməyən frazeoloji vahidlər. Bunlar adətən mənalarına görə leksik vahidlər və sintaktik vasitələrlə qarşılaşdırılır. Məsələn:

*v prodoljenie – müddətində, dövründə;*

*vsevidyaşee oko – hər şeyi görən;*

*vsem mirom – elliklə, hamılıqla;*

*v sile – qüvvədə.*

Lüğətin Azərbaycan dili hissəsində rus vahidlərinin ən ümumi və tipik mənaları əks etdirilmişdir.

1976-cı ildə Ə.Ə.Orucovun tərtib etdiyi «Azərbaycanca-rusca frazeoloji lüğət» çapdan çıxmışdır. Bu lüğət ön söz, giriş, lüğətin quruluşu haqqında oçerk və lüğət hissəsindən

ibarətdir. Girişdə frazeologiyanın mahiyyətindən danışılır, yeni maraqlı fikirlər irəli sürülür. «Lüğətin quruluşu haqqında» başlıqda isə 17 maddədə frazeoloji materialın seçilməsi meyarından, onların lüğətdə yerləşdirilməsi prinsiplərindən, qarşılaşdırılması qaydalarından bəhs olunur.

Azərbaycan dili olduqca zəngin frazeoloji vahidlərə malikdir. Bu lüğətə dilimizin frazeoloji tərkibinə aid olan bütün spesifik vahidlər daxil edilmişdir. Burada ancaq frazeoloji ifadələr lüğət üçün obyekt götürülmüşdür. Lüğətdə yazılır: «Bu və ya digər frazeoloji ifadələrin lüğətə daxil edilməsi üçün əsas meyar onda məcazi mənanın olması, obrazlılıq, ekspressivlik, üslubi çalarlıqdır. Buna görə də lüğətə frazeologiyanın yalnız leksik idiomlar mahiyyəti daşıyan hissəsi daxil edilmişdir. Lüğətdə 5500 frazeoloji vahid əhatə olunmuş, bunların rusca qarşılığı verilmişdir. Bu lüğət dilimizin frazeoloji materiallarının toplanmasına dair faydalı və qiymətli təşəbbüsdür.

**Terminoloji lüğətlər.** 1929-cu ildə terminologiya komitəsi yaradılmışdır. Bu komitə 1952-ci ildə yenidən təşkil olunmuşdur. Onu da qeyd edək ki, 1920-ci ildən indiyə qədər bir çox elm sahəsinə aid yüzlərlə terminoloji lüğət çap olunmuşdur. Terminoloji lüğətlər əsasən ictimai, təbiət, texnika elmlərinə aiddir. Ümumiyyətlə, terminoloji lüğətlər üç cür olur.

*1. İzahlı terminoloji lüğətlər;*

*2. İzahlı-tərcümə terminoloji lüğətlər;*

*3. Tərcümə terminoloji lüğətlər.*

*Tərcümə terminoloji lüğətləri* bəzən izahlı – tərcümə lüğətləri adlanır. «Ədəbiyyatşünaslıq terminləri lüğəti» izahlı

lüğətdir, yaxud hər hansı bir elmə aid lüğətlər izahlı lüğətdir. Tərcümə, yaxud izahlı – tərcümə lüğətinə isə «İzahlı dilçilik lüğəti»ni misal göstərmək olar. Bu cür lüğətdə bu və ya digər terminin qarşılığı başqa dillərdə göstərilir.

«Termin» sözü «terminus» sözündən əmələ gəlmişdir. «Terminus» latınca «hədd» deməkdir. Terminlər elm və texnika sahəsində işlədilən müxtəlif məfhum və anlayışları ifadə edən sözlər və söz birləşmələridir. Dildəki terminlərin izahına, qarşılaşdırılmasına və digər cəhətlərinə dair olan lüğətlər terminoloji lüğətlər adlanır. Bu növ lüğətlər müxtəlif elm sahələrinə məxsus olduğu üçün bunlara sahə lüğətləri də deyilir.

Terminoloji lüğətlər tərtib olunarkən semantik, morfoloji, kalka və sintaktik üsullardan istifadə edilir. Terminoloji lüğətlər sahələrinə, əhatə etdiyi terminlərə, məqsəd və növlərinə görə bir-birindən fərqlənir. Terminoloji lüğətlərin sözlükləri terminləri əhatə etməsinə görə müxtəlif olur. Terminoloji lüğətlər orfoqrafik, tərcümə və ya izahlı xarakterli olur.

*Terminoloji lüğətlərin tərtibində iki prinsipə riayət olunur:*

1. Müəyyən sahəyə aid terminlər verilir və onların həmin dildə qarşılığı göstərilir.

2. Bu və ya digər terminin qarşılığının verilməsi mümkün olmadıqda həmin termin eyni ilə saxlanılır.

Terminoloji lüğətlər tərtib edilərkən elə ifadə formaları seçilir ki, onlar məzmunca düzgün olsun və dildə çox yaşasın.

Terminoloji lüğətlər elmin bütün sahələri üzrə işlədilən terminləri izah edir. Terminoloji lüğətlər məqsəd və xarakterinə görə birdilli və ikidilli olur.

Birdilli terminoloji lüğətlərdə elmin müxtəlif sahələrinə aid terminlər əlifba sırası ilə göstərilir. Bu lüğətlər əlifba

xarakterli terminoloji lüğətdir. Məsələn: «Azərbaycan bədii dilinin epitetləri lüğəti», «Bazar iqtisadiyyatı terminləri lüğəti», «Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti» və s.

İkidilli terminoloji lüğətlər daha çox tərcümə xarakterli olur. Bu lüğətlər tərcümə lüğətlərinə oxşayır. Lakin terminoloji lüğətlər tərcümə lüğətlərindən fərqlənir. Terminoloji lüğətlərdə elmin müxtəlif sahələrinə aid termin xarakterli sözlər tərcümə olunursa, tərcümə lüğətlərində daha çox ümumxalq xarakteri daşıyan sözlər tərcümə olunur. Məsələn: «Rusca-azərbaycanca geologiya terminləri lüğəti», «Rusca-azərbaycanca kitabxana-biblioqrafiya terminləri lüğəti», «Azərbaycanca-rusca etnoqrafiya terminləri lüğəti», «Rusca-azərbaycanca əmək mühafizəsi və ətraf mühitin qorunması terminləri lüğəti» və s.

Müasir dövrdə bir çox elm sahələrində olduğu kimi lüğətçilik də inkişaf edir. Bununla əlaqədar çoxdilli terminlər lüğətləri də meydana gəlmişdir. Məsələn: «Rusca-azərbaycanca-ingiliscə astronomiya terminləri lüğəti», «Rusca-azərbaycanca-ingiliscə kənd təsərrüfatı və ekologiya terminləri lüğəti», «Azərabycanca-rusca-ingiliscə-almanca-fransızca-türkcə izahlı ensiklopedik coğrafiya terminləri lüğəti» və s.

Termin elmin əsasını təşkil edir. Buna görə də başqa xalqlarda olduğu kimi, Azərbaycanda da XX əsrin ilk günlərindən bu problem ön plana çəkilmiş və xüsusi işlər aparılmağa başlanılmışdır. 1920-ci ildə çap olunmuş «Ruscadan-azərbaycancaya hüquq terminləri lüğəti»ni Azərbaycanda ilk terminoloji lüğət hesab etmək olar. 1921-ci ildə «Ruscadan-azərbaycancaya yollar texniki istilahlar lüğəti», 1922-ci ildə isə «İctimai-iqtisadi islahat elmiyyə lüğəti» nəşr olunmuşdur.

1922-ci ildə Azərbaycan Xalq Komissarları Şurası nəzdindəki İdarələrin Milliləşdirmə Komitəsi tərəfindən xüsusi terminologiya komissiyası təşkil olunmuşdur. Bundan sonra müxtəlif elmlərə aid bir sıra terminoloji lüğətlər yaradılmışdır.

1922-1930-cu illərdə «İdarə istilahları lüğəti» (1924), «Ruscadan-azərbaycancaya yollar texniki istilahlar lüğəti» (1926), «Nəbatat istilahları lüğəti», «Hüquq istilahları lüğəti», Əliağa Şıxlınskinin «Rusca-azərbaycanca qısa döyüş lüğəti» və «Kimya istilahları lüğəti» (1927) nəşr olunmuşdur.

1929-cu ildə Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun nəzdində xüsusi olaraq terminologiya komitəsi yaradılmışdır. Bu komitə dilimizdəki müxtəlif sahələrə dair bir çox terminin meydana çıxarılmasında və dəqiqləşdirilməsində mühüm rol oynamışdır. Müəyyən vaxtdan sonra bəzi səbəblər üzündən komitənin işi zəifləmişdir. Lakin bu sahədə işi daha da qüvvətləndirmək üçün 1952-ci ildə yenidən terminologiya komitəsi yaradılmışdır. İndi bu komitə komissiya kimi Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyəti yanında fəaliyyət göstərir. Terminologiya komitəsi daha çox iş görmüş, bir sıra terminlərin yaradılmasına, dürüstləşdirilməsinə və digər cəhətlərə aid düzgün istiqamət verə bilən təkliflər irəli sürmüşdür.

1920-ci ildən indiyə kimi bir çox elm sahələrinə dair 200-dən çox lüğət çap edilmişdir.

1920-1940-cı illər arasında 30-dan çox terminoloji lüğət çap olunmuşdur. 1941-1942-ci illər arasında 4 terminoloji lüğət çap olunmuşdursa, 1942-1952-ci illərdə isə heç bir terminoloji lüğət nəşr edilməmişdir. 1952-1960-cı illərdə 26, 1961-1984-cü illərdə 71 lüğət dərc olunmuşdur. Deməli, terminoloji lüğətlərin nəşri tarixində 60-80-ci illər daha məhsuldardır.

Müasir dövrdə terminoloji lüğətlərin yaradılması Azərbaycan leksikoqrafiyasında ən inkişaf etmiş bir sahə sayılır. Terminoloji lüğətlərin əhəmiyyəti onların müxtəlif sahələrdə çalışan mütəxəssislərin terminologiyaya aid olan ehtiyaclarını ödəməklə məhdudlaşmır. Eyni zamanda lüğətçiliyin tarixindən aydın olur ki, bu lüğətlər filoloji lüğətlərin, xüsusən də izahlı lüğətlərin terminoloji sözlüyünün yaradılması üçün əsas bazadır. Terminoloji lüğətlərin əsas vəzifəsi dilin xüsusi leksikasını təsvir etməkdir.

Mövcud terminoloji lüğətlər elmin müxtəlif sahələrinə aiddir:

*a) İctimai elmlərə aid terminoloji lüğətlər:*

1. Dilçilik, məsələn:

a) «Rusca-azərbaycanca dil və qrammatika terminləri». Tərtibçi: D.Quliyev, redaktor: B.Abdullayev. Bakı, «Azərnəşr», 1939-cu il, 32 səhifə.

b) «Dilçilik terminləri lüğəti». Azərbaycan Elmlər Akademiyasının nəşri. Bakı, 1957-ci il, 63 səhifə və s.

2.Ədəbiyyatşünaslıq, məsələn:

a) «Ədəbiyyatşünaslıq terminləri». Bakı, 1954-cü il, 32 səhifə.

b) «Ədəbiyyatşünaslıq terminləri». Bakı, 1957-ci il, 32 səhifə.

c) «Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi». II nəşri. Tərtibçi: A.M.Babayev. Bakı, «Maarif», 1993-cü il, 291 səhifə.

ç) «Azərbaycan bədii dilinin epitetləri lüğəti». Tərtibçi: Ləman Fəridə. Redaktor: Müseyib Məmmədov. Bakı, «Elm», 1995-ci il, 220 səhifə.

Bədii dilin məcazlar sistemi onun zinət xəzinəsidir. Bu xəzinədə epitetlərin – bədii təyinlərin öz parlaqlığı var. Epitetlər dilimizin zənginliyini aşkara çıxarmaqda, sözyaradıcılığında, ifadələrin ekspressivliyini artırmaqda, təsir gücünü qüvvətləndirməkdə xüsusi rol oynayır. Epitetlər həm də müəllifin fərdi yaradıcılıq üslubunu üzə çıxaran ən təsirli ifadə vasitəsidir.

Lüğətdə sözlər əlifba sırası ilə verilib, nümunələr əsasən, müasir bədii əsərlərdən seçilmişdir.Lüğətdə fərdi epitetlər üstünlük təşkil edir. Bu lüğət Azərbaycan filologiyasında ilk təşəbbüsdür. Lüğətdə 200-dən artıq müəllifin kitabındakı 100-dən çox sözün epitetlə ifadəsindən istifadə olunmuşdur. Burada hələ şifahi xalq ədəbiyyatı nümunələrindən, klassiklərdən, müasir yazıçı və şairlərimizin yaradıcılığından tam mənada istifadə olunmamışdır. Müxtəlif mənbələrdən gətirilən misallar müasir imla qaydalarına uyğun formada verilmişdir. Məsələn:

*Ağac-qarı, qart, dalğın, dilsiz, dodağı nəğməli, əyribel, zümrüd papaqlı, mürgülü, nəğməli, pərişan,sərsəm, səsli, cığa telli,cılız, şən.*

*Yalın meşələrin yaşıl tacları,*
*Qarı ağacları, qart ağacları.*
*(E.Nəsibli)*

*Gedirəm, yenə də əl edir mənə,*
*Körpə budağını əyən ağaclar.*
*Şəfəqlə yuyunub, qarla örtülən.*
*Gah dalğın ağaclar, gah şən ağaclar.*
*(H.Hüseynzadə)*

d) «Ədəbiyyat və dilçilik sözlüyü». Bakı, 1967-ci il, 28 səhifə və s.

3. Fəlsəfə, məsələn:

«Fəlsəfə» sözlüyü. Bakı, 1967-ci il, 18 səhifə.

4. Hüquq, məsələn:

«Hüquq» sözlüyü. Bakı, 1967-ci il, 22 səhifə.

5. Estetika, məsələn:

«Qısa estetika lüğəti». Tərcümə edənlər: A.Aslanov, İ.Rüstəmov. Bakı, «Azərnəşr», 1970-ci il, 455 səhifə.

6. Pedaqogika, psixologiya, məsələn:

a) «Pedaqogika, xalq maarifi və psixologiya sözlüyü». Bakı, 1967-ci il, 25 səhifə.

b) «İngiliscə-azərbaycanca pedaqoji-psixoloji lüğət». Tərtibçilər: Akif Abbasov, Xumar Asimqızı. Bakı, «Mütərcim», 1999-cu il, 99 səhifə.

7.Etnoqrafiya, məsələn:

«Azərbaycanca-rusca etnoqrafiya terminləri lüğəti». Tərtibçiər: Məmməd Qasımov, Həsən Quliyev, İsmayıl Məmmədov, Svetlana Novruzova. Bakı, «Azərnəşr», 1987-ci il, 71 səhifə.

Bu lüğət respublikamızda etnoqrafiya terminləri lüğətinin və ümumiyyətlə, azərbaycanca-rusca terminoloji lüğətlərin tərtibi sahəsində ilk təcrübədir. Lüğətdə Azərbaycan etnoqrafiyası ilə bağlı terminlərin əsas qismi əhatə olunmuşdur. Burada maddi və mənəvi mədəniyyətlə, keçmiş məişət tərzi ilə, o cümlədən də ənənəvi əkinçiliklə, heyvandarlıqla, peşə və sənətlərlə, xalq musiqisi, xalq təbabəti ilə əlaqədar terminlər, milli geyimlərin, milli adət və ənənələrin, xörəklərin, ev əşyalarının, dini və ailə mərasimlərinin adlarını bildirən spesifik sözlər verilmişdir. Sosial münasibətlərə aid titullar, vəzifələr, vergi və mükəlləfiyyətlər, ailə və qohumluq münasibətlərini göstərən terminlər lüğətə daxil edilmişdir. Azərbaycan dili terminologiyasının bəzi sahələri, xüsusən də

peşə leksikası hələ kifayət qədər öyrənilmədiyi və sistemə salınmadığı üçün tərtibçilər iş prosesində müəyyən çətinliklərlə qarşılaşmışlar. Tez-tez əlaqədar mütəxəssislərə, peşə və sənət sahiblərinə müraciət etmək, bu və ya digər terminin yazılış formasını, mənasını dəqiqləşdirmək lazım gəlmişdir. Ən əsas çətinlik isə terminlərin rus dilindəki müvafiq qarşılığını müəyyənləşdirməkdən ibarət olmuşdur. Lakin tərtibçilər imkan daxilində həmin çətinliklərin öhdəsindən gəlməyə, mövcud etnoqrafiya terminlərini leksikoqrafik cəhətdən sistemə salmağa çalışmışlar. Belə ki, terminlərin bir qismi üçün rus dilində dəqiq qarşılıq müəyyənləşdirilmişdir. Məsələn:

*ağıçı-plakalşiça;*

*aşıq-aşıq – iqra v babki;*

*qızbəyənmə – smotrinı;*

*döyəc – s tupka;*

*nəvə – kolotuşka* və s.

Müəyyən qism terminlərin rus dilindəki konkret qarşılığı göstərilməklə bərabər, qısa izahı da verilmişdir. Məsələn:

*ayranaşı – poxlebka; sup iz ayrana i risa;*

*baharı – kaftan; arxaluk s korotkimi rukavami;*

*daqar – kotomka; snyataya dudkoy i oçişennaya oveçya i kozya şkura, upotreblyayemaya vmesto meşka (ustar);*

*tabaq – lotok; derevyannıy ovalnıy podnos* və s.

Rus dilində münasib qarşılığını müəyyənləşdirmək mümkün olmayan terminlərin sadəcə izahı verilmişdir. Məsələn:

*köşə – Şnurok dlya şitya sburi i çarıkov:*

*lavaşa – Kislaya pastila, vısuşennoe i tonko raskatannoe varevo iz sliv, alıçi i pr.;*

*tərəcə – Polko dlya suşki (kokonov, xlopka i pr.)* və s.

Terminlər rusca izah olunarkən onlardan bəzisinin müxtəlif mənaları ifadə etdiyi də nəzərə alınmışdır. Məsələn:

*muştuluq – 1. Dobraya, radostnaya vest; 2. naqrada da dobruyu, radostnuyu vest;*

*sinəbənd – 1. jenskoe naqrudnoe ukraşenie; 2.naqrudnik (u sedla)* və s.

Rus ədəbi dilinə də daxil olmuş, müxtəlif lüğətlərdə, sorğu kitablarında, rəsmi sənədlərdə öz əksini tapmış bəzi vəzifə, geyim, xörək, parça adları, ev əşyalarının, zinət şeylərinin, oyun havalarının adları lüğətin rusca sözlüyündə bu dilə məxsus transliterasiya əsasında verilmişdir. Məsələn:

*qazı – kadiy, kaziy; ağa-aqa; adət-adat; çoban-çaban; ağsaqqal-aksakal; tərəkəmə–terekeme (oyun havası); kəhriz-kyariz, şəkərbura-şekerbura, çarıq- çarıki* və s.

Deyilişi müxtəlif olmasına baxmayaraq, eyni məfhumu ifadə edən terminlər lüğətin azərbaycanca sözlüyündə yanaşı və xüsusi işarə ilə verilmişdir. Məsələn:

*adqoyma (adqoydu); qolbaq (qolbağı); yüyürük (yürük); lavaşa (lavaşana)* və s.

Beynəlmiləl səciyyəli etnoqrafik terminlər hər iki dildə qəbul olunduğu şəkildə verilmişdir. Məsələn:

*etnos – etnos; etnoqraf –etnoqraf; etnogenez-etnoqenez* və s.

Bu lüğət əslində yarımizahlı terminoloji lüğətlər qrupuna daxil edilə bilər. Lüğətin praktik əhəmiyyəti böyükdür. Belə bir lüğətə təkcə etnoqrafların deyil, həmçinin tarixçilərin, arxeoloqların, dilçilərin, ədəbiyyatçıların, sənətşünasların, tərcüməçilərin də ehtiyacı vardır.

8. Azərbaycan tarixi, məsələn:

«Azərbaycan tarixi sözlüyü». Bakı, 1967-ci il, 26 səhifə.

9. Ümumi tarix, məsələn:

«Ümumi tarix sözlüyü». Bakı, 1967-ci il, 64 səhifə.

10. Hərbi iş, məsələn:

«Hərbi iş» sözlüyü. Bakı, 1967-ci il, 20 səhifə.

11. Kitabxana-biblioqrafiya, məsələn:

«Kitabxana-biblioqrafiya terminləri lüğəti». Tərtib edənlər: Ə.H.Qəhrəmanov, F.Ə.Qəhrəmanov. Bakı, «Azərnəşr», 1964-cü il, 96 səhifə.

Kitabxana-biblioqrafiya terminləri bu ilə qədər Azərbaycan dilində işlənməmişdir. Lüğətin tərtibi bu sahədə ilk təşəbbüsdür. Lüğətdə 3000-ə qədər termin verilmişdir. Bunlar başlıca olaraq kitabxanaçılıq, biblioqrafiya terminləridir. Lakin kitabxanaçılıq, biblioqrafiya işi elmin bütün sahələri ilə, xüsusən ədəbiyyatşünaslıq, dilçilik, nəşriyyat, poliqrafiya sahələri ilə əlaqədar olduğundan buraya elə müştərək terminlər də daxil edilmişdir ki, onlardan həm kitabxana-biblioqrafiya sahəsində, həm də elmin başqa sahələrində istifadə olunur. Kitabxana-biblioqrafiya işində tez-tez rast gəlinən və kitabxanaçılıq, biblioqrafiya işi ilə yaxın münasibətdə, əlaqədə olan bəzi idarə, müəssisə adlarının, məsələn: *mətbəə, kitab palatası, dövlət nəşriyyatı, mərkəzi kitabxana, ümumi kitabxana, ölkəşünaslıq kitabxanası, kitab anbarı* və s. lüğətə salınması da lazım görülmüşdür. Kitabxana-biblioqrafiya terminlərinin tərtibində dünya xalqlarının əksəriyyətinin dillərində işlədilən beynəlmiləl terminlər olduğu kimi saxlanmış və bir sıra terminlərin Azərbaycan dilində qarşılığı yaradılmışdır. Kitabxanaçılıq-biblioqrafiya işinin təcrübəsində bəzən elə köhnəlmiş, istifadədən çıxmış terminlərə də təsadüf edilir ki, bunlar müasir dil lüğətlərinə daxil edilmədiyindən çətinliklər törədir. Lüğətdə bunlara az da olsa, müəyyən qədər yer

verilmişdir. Bu və ya başqa bu kimi sinonim terminlərin qarşılığı Azərbaycan dilində bir terminlə verilmişdir ki, bunlara çoxmənalı termin kimi baxılmamalıdır. Terminlər lüğətdə əlifba sırası ilə (əvvəl ruscası, sonra Azərbaycan dilindəki qarşılığı) verilmişdir. Lüğətin sözlüyünün tərtibində biblioqrafiya, kitabxanaçılıq sahəsindəki kitablardan, jurnallardan, mövcud olan müvafiq terminoloji lüğətlərdən istifadə olunmuşdur.

12.Siyasi, məsələn:

«Qısa siyasi lüğət». Bakı, «Azərnəşr», 1966-cı il, 266 səhifə. Lüğət yenidən işlənərək və təkmilləşdirilərək 1967-ci ildə nəşr olunmuşdur. Lüğətin bu nəşri isə 268 səhifədən ibarətdir.

13.İqtisadiyyat, məsələn:

a) «İqtisadiyyat sözlüyü». Bakı, 1967-ci il, 40 səhifə.

b) «Bazar iqtisadiyyatı terminləri lüğəti». Tərtibçi: P.Ə.Qurbanov, N.Ə.Rüstəmli, B.M.Babayev, İ.V.Lukyanova. Redaktorlar: Səidə Sultanova, Cövdət Məmmədzadə. Bakı, «Azərnəşr», 1993-cü il.

1992-ci ildən respublikamız bazar iqtisadiyyatına qədəm qoymuşdur. Real iqtisadi müstəqillik, tam təsərrüfat hesabı və fəaliyyət azadlığı, bazar münasibətlərinin formalaşması və bazarın iqtisadi metodlarla tənzimi ənənəvi, köhnəlmiş iş metodları və formalarından əl çəkməyi, yeni istehsal münasibətləri, böyük yaradıcılıq, təşəbbüskarlıq və işgüzarlıq tələb edir. Bunlar isə həyatımıza və məişətimizə yeni terminlər və anlayışlar gətirir. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq tərtib edilmiş bu lüğət respublika əhalisinə, işgüzar adamlara, təsərrüfat rəhbərlərinə, mütəxəssislərə, sahibkarlığın inkişafı

və yeni formalarının tətbiqi istiqamətində çalışanlara kömək məqsədi daşıyır.

c) «Bazar iqtisadiyyatı terminləri». Redaktorlar: S.M.Seyfullayev, S.İ.Abbasova. Tərtibçilər: İ.M.Abbasov, A.H.Tağıyev. Bakı, «Sabah», 1996-cı il.

Kitab dilimizdə yeni formalaşan bazar iqtisadiyyatı terminlərinin izahına həsr edilmişdir. Buraya marketinq, menecment, logistika, kommersiya, xarici iqtisadi əlaqələr, maliyyə-kredit sahələri ilə əlaqədar olan, eyni zamanda bazar münasibətləri mühitində geniş istifadə olunan terminlər daxil edilmişdir. Lüğət ilk növbədə təsərrüfat rəhbərləri, işgüzarlar, sahibkarlar, kommersiya və biznes fəaliyyəti ilə məşğul olanlar, eyni zamanda bazar münasibətləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Bazar münasibətlərinə keçidlə əlaqədar leksikonumuza bizə tanış olmayan yeni terminlər daxil olmuşdur. Hətta bizə tanış olan bir çox terminlər yeni məna kəsb etmişdir. Müəlliflər vacib hesab etdikləri terminlər haqqında nisbətən geniş məlumat vermişlər.

ç) «Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə edilən 700 termin». Tərtibçilər: Əfəndiyev Oktay Firudin oğlu, Əliyev Etibar Əli oğlu. Redaktorlar: Abbasbəyli Ağalar Nəriman oğlu, Zeynalov Sədiyar Rza oğlu. Bakı, «Hüquq ədəbiyyatı», 2004-cü il, 440 səhifə.

Lüğət müasir dövrdə beynəlxalq iqtisadi münasibətlərin aktual məsələlərinə həsr olunmuşdur. Bu lüğət bizim dövlətimizin geniş işgüzar və başqa dairələri, xarici iqtisadi əlaqələr sahəsində, ümumtəhsil və xüsusi məktəblərdə, litseylərdə, orta, ali, akademik təhsil ocaqlarında biliklərə yiyələnən şəxslər, həmçinin müasir beynəlxalq ticarət, nəqliyyat,

maliyyə, ekologiya və s. sahələrdə problemlərlə üzləşən mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Lüğət həm ölkə daxilində, həm də xarici ölkələrlə elmi, iqtisadi əlaqələr quran, işgüzar təmaslar yaradan, əməkdaşlıq və tərəfdaşlıq edən müxtəlif müəssisə və təşkilatların nümayəndələri üçün də səmərəli ola bilər.

Lüğətdə əmtəə və xidmət ticarəti, texnoloji mübadilə, nəqliyyat daşımaları, sərmayə qoyuluşu, əhalinin miqrasiyası, müasir beynəlxalq təcrübə və s. sahələrdə istifadə olunan terminlərin açıqlaması da təqdim edilmişdir. Həmçinin valyuta problemlərinə, xarici iqtisadi fəaliyyətdə marketinqə, qiymətləndirmə formalarına, beynəlxalq hesablaşmalara və s.-yə diqqət yetirilmiş, ən önəmli əmtəə və valyuta birjaları, beynəlxalq iqtisadi təşkilatlar və regional inteqrasiya qruplaşmaları ən önəmli əmtəə və valyuta birjaları, beynəlxalq iqtisadi təşkilatlar və regional inteqrasiya qruplaşmaları barədə də bəzi məlumatlar verilmişdir.

*b) Təbiət elmlərinə aid terminlər lüğəti;*

1. *Biologiya,* məsələn:

«Biologiya» sözlüyü. Bakı, 1967-ci il, 57 səhifə.

2. *Botanika,* məsələn:

a) «Botanika terminləri lüğəti». Tərtibçilər: Barxalov Ş., Əzizbəyova Z., İsayev Y., Bakı, 1963-cü il, 220 səhifə.

b) «Botanika terminləri və bitki adları». (Azərbaycanca-rusca-ingiliscə-latınca). Tərtibçi: Ş.Ə.Barxalov. Redaktor: Q.F.Axundov və b. Bakı, «Elm» 1981-ci il, 478 səhifə.

3. *Zoologiya,* məsələn:

«Zoologiya terminləri lüğəti». Tərtibçilər: S.M.Əsədov, Y.Ə.Əbdürrəhmanov. Bakı, 1961-ci il, 107 səhifə.

4. *Anatomiya,* məsələn:

«Anatomiya, histologiya və embriologiya terminləri». Tərtibçi: Balakişiyev Kamil. Bakı, 1961-ci il, 416 səhifə.

5. *Tibb,* məsələn:

a) «Tibb sözlüyü». Bakı, 1967-ci il, 43 səhifə.

b) «Qısa tibb terminləri lüğəti» (Azərbaycanca-rusca-latınca). Tərtibçi: M.Əhmədov. Bakı, «Azərbaycan», 1969-cu il.

6. *Kimya,* məsələn:

«Kimya sözlüyü». Bakı, 1967-ci il, 37 səhifə.

7. *Fizika,* məsələn:

a) «Fizika terminləri» (Rusca-azərbaycanca). Tərtibçilər: A.Q.Abbaszadə, Z.İ.Əlizadə. Bakı, «Azərnəşr», 1939-cu il, 100 səhifə.

b) «Fizika sözlüyü». Bakı, 1967-ci il, 25 səhifə.

c) «Azərbaycan dilində izahlı fizika-riyaziyyat terminləri lüğəti». Redaktorlar: B.Ə.Babayev, İ.O.Məmmədov, M.Ş.Qasımov. Tərtibçi: S.A.Sadıqova. Bakı, «Elm», 1998-ci il, 116 səhifə.

Lüğətdə fizika–riyaziyyata aid terminoloji lüğətlər haqqında nəzəri məlumat və əsas anlayışların izahı verilir. Fizika-riyaziyyat elminə aid bir sıra terminoloji lüğətlər nəşr edilmişdir. Bu elmlərin sürətli inkişafı, həmçinin dərsliklərin, dərs vəsaitlərinin, elmi-metodiki ədəbiyyatın Azərbaycan dilinə tərcüməsi ilə əlaqədar Azərbaycan dilində çoxlu yeni terminlərin yaranması ilə bağlıdır. Bu terminlərin əksəriyyəti lüğətlərdə öz əksini tapmışdır.

Fizika-riyaziyyat elmlərinə dair ilk lüğətlər 1922-1931-ci illərdə nəşr edilmişdir. Hazırda isə fizika-riyaziyyat elmlərinə dair bir çox müxtəlif lüğətlər nəşr edilmişdir. Lüğətlərin nəşrində bu elmlərin son nailiyyətləri nəzərə alınaraq müasir

dünya elmində geniş istifadə edilən xeyli termin verilmişdir. Bu lüğətlər tərtib olunarkən nəzərdə tutulmuş anlayışlar dəqiqləşdirilmiş, terminlər üçün qarşılıq müəyyənləşdirilərkən azərbaycan dilinin daxili imkanları, sözyaradıcılığı vasitələri əsas götürülmüşdür. Lakin, ümumiyyətlə götürdükdə, mövcud terminoloji lüğətlərdə həm məzmun cəhətdən, həm də leksikoqrafik cəhətdən müəyyən nöqsanlara yol verilmişdir. Birinci növbədə lüğətlər fizika-riyaziyyat elmlərinin müasir səviyyəsinə uyğun deyildir. Belə ki, eyni anlayış bəzən müxtəlif lüğətlərdə müxtəlif terminlərlə, bəzən də müxtəlif anlayışlar eyni terminlərlə verilmişdir. Məsələn: riyaziyyatda «kök» termini «ədədin kökü», «çoxhədlinin kökü», «tənliyin kökü» anlayışlarında müxtəlif mənalara malik olmasına baxmayaraq, hamısında eyni şəkildə işlədilir. Əslində onların hamısında «kök» terminindən istifadə etmək lazım deyil. Həmin anlayışları «ədədin radikalı», «çoxhədlinin kökü», «tənliyin həlli» kimi işlətmək məqsədəmüvafiqdir. Həmçinin «kəmiyyət» termini həm «veliçina», həm də «koliçestvo» terminlərinin ekvivalenti; «birləşmə» termini həm «soedinenie», həm də «obedinenie» terminlərinin ekvivalenti kimi işlənir.

Bundan başqa, lüğətlərdə dubletlərdən daha çox istifadə olunur. Yəni bir anlayış iki və daha çox terminlə ifadə olunmuşdur. Bu isə yaddaşı həddindən artıq yükləyir. Buna görə də hər hansı fənni öyrənərkən nəinki çoxlu sayda anlayışları öyrənmək, həmçinin onları ifadə edən çoxlu sayda terminləri yadda saxlamaq lazım gəlir. Məsələn: «ekvivalent» termini üç şəkildə – «ekvivalent», «eynigüclü», «bərabərgüclü» kimi işlədilir.

Riyazi terminləri əhatə edən ilk lüğət 1922-ci ildə Sami Kamal tərəfindən nəşr edilmişdir. Bu terminlərə aid digər lüğətlər 1930 və 1939-cu ildə nəşr olunmuşdur. Bu illərdə nəşr olunmuş «Nəzəri mexanikadan istilah lüğəti», «Elektronika istilahları», «Riyaziyyat terminləri» lüğətləri diqqəti cəlb edir. Bu lüğətlərdə ərəb terminləri əvvəlki kimi ərəbcəsi deyil, Azərbaycan dilində necə işlənirsə, o cür də verilmişdir. Məsələn: cəm əvəzinə *toplama*, təqsim yerinə *bölmə*, zaviyə yerinə *bucaq*, mühit yerinə *çevrə*, cərəyani-mütənasib yerinə *dəyişən cərəyan*, qüvveyi-məzdəvəcə yerinə *qoşa qüvvətlər* və s. Bu lüğətlərdə hərfi tərcümə üsulundan nisbətən az istifadə edilmiş, terminin ifadə etdiyi anlayışın özü nəzərə alınaraq verilmişdir. Məsələn: əvvəllər «zakon soxraneniya materii» termini «maddənin məhfuziyyyət qanunu» deyə tərcümə nəzərə alınaraq «maddənin itməməsi qanunu» şəklində tərcümə olunmuşdur.

Bu lüğətlərə fizika və riyaziyyatda geniş şəkildə işlənərək sabitləşmiş terminlər daxil edilmişdir. Belə lüğətlərə həm dilimizin öz imkanları əsasında yaranmış terminlər, həm də başqa dillərdən alınan terminlər daxildir.

8. *Riyaziyyat,* məsələn:

a) «Rusca-azərbaycanca riyaziyyat terminləri». Tərtibçi: B.Ağayev. Bakı, «Azərnəşr», 1939-cu il, 44 səhifə.

b) Riyaziyyat və astronomiya sözlüyü». Bakı, 1967-ci il, 29 səhifə.

c) «Riyaziyyat terminləri lüğəti» (İngiliscə-rusca-azərbaycanca). Tərtibçilər: H.İ.Ağayev, F.Q.Maqsudov, Q.Ə.Mustafayev. Redaktor: F.Q.Maqsudov. Bakı, «Elm», 1979-cu il, 344 səhifə.

Lüğəti tərtib edərkən mövcud sözlüklərdən, Azərbaycan dilinə tərcümə edilib yazılmış riyaziyyata aid kitablardan istifadə olunmuşdur. Lüğətdə klassik riyaziyyat terminləri ilə bərabər kibernetika, hesablama riyaziyyatı, riyazi statistika, riyazi məntiqi terminlər də əhatə olunmuşdur. Lüğəti tərtib edərkən aşağıdakı prinsiplərə riayət edilmişdir:

1. Riyazi terminlərinin ekvivalenti mümkün qədər həm Azərbaycan dilində, həm də beynəlxalq dildə verilmişdir. Məsələn: *qen-soygen, lenta-bafta-lent, paradoks-anlayış-paradoks, kompakt-yığcam-kompakt, polyus-qütb-polyus* və s.

2. Alınma terminlər mümkün qədər Azərbaycan dilinə də uyğunlaşdırılmışdır. Məsələn: *functionally-funksionalno-funksional, hodograph-qodoqraf-hodoqraf, structure-struktura-struktur* və s.

3. Lüğət əsasən tərcümə prinsipində tərtib edilmişdir.

Lüğətə daxil edilmiş ingiliscə terminlər əlifba sırası ilə yerləşdirilmişdir. İngiliscə söz hansı nitq hissəsinə aiddirsə, sözün sonunda həmin nitq hissəsinin baş hərfi yazılmışdır. Məsələn: *function n, differential a, solve v* və s.

Əlifbanın hər hərfi ilə başlayan ingiliscə söz ərəb rəqəmi ilə nömrələnərək həmin sözə ekvivalent olan, rus və Azərbaycanca terminlər isə nömrələnmiş bu sözün sağ tərəfindən eyni sətirdə yazılmışdır. Məsələn: *98 attributen svoystvo-xassə, 144 collcafion n – kollokasiya-kolloksion.*

Söz birləşmələri şəklində olan ingilis dilindəki terminin baş hərfi həmin söz birləşmələrində yazılır, rus və Azərbaycan dilində bu söz birləşmələrinin tərcüməsi onun sağ tərəfindən eyni sətirdə verilir. Məsələn: *abstract a alqebra-obstraknaya alqebra-mücərrəd cəbr.*

Bu lüğət riyaziyyata aid anlayışların müəyyənləşdirilməsi, həmin anlayışlarla bağlı terminlərin sistemdaxili əlaqələrinin aşkara çıxarılması, nəhayət, terminlərin Azərbaycan dili üçün münasib variantının yaradılması baxımından ilk təcrübədir. Ümumiyyətlə, fizika-riyaziyyat terminologiyasının yaradılması və təkmilləşdirilməsinin müəyyən tarixi var. İngiliscə-rusca-azərbaycanca «Riyaziyyat terminləri lüğəti» də əslində bu sözlüklər əsasında qurulmuşdur. Bu lüğətə qədər üç dildə belə irihəcmli lüğət nəşr olunmuşdur. Lüğətdə terminlərin müəyyən dəqiqliyinə, imkan daxilində hər bir anlayışın bir terminlə verilməsinə xüsusi diqqət yetirilmişdir. Bəzən isə tərtib olunan fizika-riyaziyyat lüğətlərində başqa dillərə məxsus terminlərə Azərbaycan dilində qarşılıq müəyyənləşdirilərkən onların bilavasitə mənsub olduqları dildəki forması deyil, rus dilində işlənmiş forması nəzərə alınmışdır.

9. *Fiziologiya,* məsələn:

«İnsan və heyvan fiziologiyası terminləri lüğəti». Tərtibçilər: A.İ.Qarayev, M.Q.Mustafayev. Bakı, 1960-cı il, 106 səhifə.

10. *Kənd təsərrüfatı və ekologiya,* məsələn:

a) «Kənd təsərrüfatı sözlüyü». Bakı, 1967-ci il, 46 səhifə.

b) «Kənd təsərrüfatı və ekologiya terminləri lüğəti» (Rusca-azərbaycanca-ingiliscə). Tərtibçilər: Rəfi Məmmədov, Oktay Məmmədov, Vüqar Əliyev. Redaktorlar: P.Zamanov, A.Gərayzadə, Bela Kovaçz (Macarıstan), R.Mustafayev, P.Səmədov. Bakı, «Elm», 2002-ci il.

Lüğətin əvvəlində hər üç dilin – rus, Azərbaycan, ingilis dilinin əlifbası verilmişdir.

c) «Əmək mühafizəsi və ətraf mühitin qorunması terminləri lüğəti». Bakı, «Azərnəşr», 1987-ci il, 192 səhifə.

Əmək mühafizəsi və ətraf mühitin qorunmasına dair rusca-azərbaycanca qısa lüğət 2800-dək əsas termini əhatə edir. Terminləri seçib sistemləşdirərkən müəlliflər onların nə dərəcədə çox işləndiyini nəzərə almışlar. Bununla belə, lüğətə son illərdə istifadə edilən və geniş oxucu kütləsinə az məlum olan bir çox terminlər də daxil edilmişdir.

Əmək mühafizəsinə dair standartlaşdırılmış terminlərin rus dilindəki ifadəsi əmək təhlükəsizliyinə dair standartlar sisteminin rəsmi nəşrlərindən götürülmüşdür. Lüğətdə həmçinin standartlaşdırılmış terminlərin icazə verilən qısa forması, elmi-kütləvi, tədris-metodiki ədəbiyyatlarda, dövri mətbuatda və rəsmi sənədlərdə istifadə edilən qeyri-standart terminlər də göstərilmişdir.

Məlumdur ki, əmək mühafizəsi bir çox elm sahələri ilə sıx əlaqədardır. Buna görə də lüğətdə erqonomika, mühəndis psixologiyası, əməyin elmi təşkili, əmək gigiyenası və fiziologiyası, texniki estetika, iqtisadiyyat və əmək mühafizəsi ilə əlaqədar olan başqa sahələrdən də az miqdarda terminlər lüğətdə özünə yer tapmışdır.

Ətraf mühitin qorunmasına dair terminlər son illərdə həmin mövzuda geniş nəşr edilən sorğu kitablarından, elmi-texniki ədəbiyyatdan və rəsmi dövlət sənədlərindən götürülmüşdür.

Ətraf mühitin qorunması, müasir şəraitdə bəşər cəmiyyətinin qarşısında duran ən vacib və çoxcəhətli problemlərdən biridir. Bu problemin bir çox fiziki və sosial-iqtisadi komponentləri vardır. Ətraf mühitin fiziki komponentləri dedikdə, baxılan ərazinin coğrafi mövqeyi, orada yer səthinin quruluşu, iqlimi, mineral və enerji ehtiyatları, torpağı, havası, bitki və heyvanlar aləmi, təbiət prosesləri və hadisələri nəzərdə

tutulur. Bunlar təbii fiziki komponentlərdir. İnsanın yaratdığı süni fiziki komponentlər isə sənaye müəssisələri, maşınlar, nəqliyyat və rabitə vasitələri, onların ətraf mühitə yaydığı müxtəlif zərərli maddələr, səs-küy, elektromaqnit dalğaları və başqa amillərdir.

Ətraf mühitin sosial-iqtisadi komponentləri isə dövlət quruluşu və istehsal münasibətləri ilə müəyyən edilir. Nəhayət, insanın özü də ətraf mühitin komponentlərindən biridir.

Ətraf mühitin yuxarıda sayılan bütün komponentləri elm və texnikanın, insan fəaliyyətinin, demək olar ki, bütün sahələrini əhatə edir. Bunları nəzərə alaraq ətraf mühitin qorunmasına dair ən əsas və əlaqələndirici terminlər lüğətə daxil edilmişdir.

Lüğətdə bəzi terminlərin Azərbaycan dilində qısa izahı verilmişdir. Müəlliflərin fikrincə, bu, lüğətin əhəmiyyətini xeyli artırır. Məlumdur ki, bir çox terminlər rus və Azərbaycan dillərində eynidir və onların izahı terminlərin Azərbaycan dilində yerində və düzgün istifadəsini təmin edir. Termin müxtəlif elm sahələrində ayrı-ayrı mənalar daşıyırsa, onun lüğətdə yalnız əmək mühafizəsinə və ya ətraf mühitin qorunmasına aid olan izahı göstərilmişdir. Bəzi terminlərin isə hər iki sahəyə aid mənası verilmişdir. Məsələn: *siklon-siklon (1.atmosferdə aşağı təzyiq sahəsi; 2.qazları və havanı tozdan təmizləmək üçün qurğu).*

Lüğətdən tərcüməçilər və nəşriyyat işçiləri, ali və orta ixtisas məktəblərinin tələbələri, mühəndis-texnik işçiləri, həmkarlar ittifaqının əmək mühafizəsi məsələləri ilə məşğul olan mütəxəssisləri istifadə edə bilərlər.

11. *Memarlıq,* məsələn:

«Təsviri incəsənət və memarlıq sözlüyü». Bakı, 1967-ci il, 30 səhifə.

12. *Coğrafiya,* məsələn:

a) «Coğrafiya sözlüyü». Bakı, 1967-ci il, 170 səhifə.

b) «Altıdilli izahlı ensiklopedik coğrafiya terminləri lüğəti» (Azərbaycan-rus-incilis-alman-fransız-türk dilləri). Tərtibçilər: Ş.G.Həsənov, Q.Ş.Məmmədov, S.B.Məmmədov, Y.Q.Əliyev. Redaktor: Ş.G.Həsənov. Bakı, «Təhsil», 2005-ci il, 235 səhifə.

Altıdilli izahlı ensiklopedik coğrafiya terminləri lüğəti kollektiv müəlliflərin çoxillik əməyinin bəhrəsidir. Lüğətdə təqdim edilmiş terminlər öz məzmunu etibarı ilə fiziki coğrafiyanın ümumi məsələlərini, landşaftşünaslıq, geomorfologiya, iqlimşünaslıq, meteorologiya, qurunun hidrologiyası, okeonologiya, torpaq coğrafiyası, biocoğrafiya, qlyasiologiyaya aid məqalələri özündə əks etdirir. İqtisadi coğrafiya üzrə olan məqalələr iqtisadi coğrafiyanın ümumi məsələləri, əhali coğrafiyası, sənaye və kənd təsərrüfatı coğrafiyası və başqa sahə üzrə olan məqalələri əhatə edir. Lüğətdə geodeziya və xəritəşünaslıq məsələlərinə aid elmi terminlər də müəyyən yer tutur.

Lüğət 1415 termindən ibarət olub Azərbaycanda ilk dəfə nəşr edilmişdir. Bu lüğətdə göstərilən hər bir terminin Azərbaycan dilində müxtəsər şəkildə izahı şərh olunur və onların beş dildə – rus, ingilis, alman, fransız və türk dillərində tərcüməsi verilir.

Lüğətdə bütün terminlər ensiklopedik xarakterdə şərh edilmiş, əlifba üzrə tipləşdirilərək etimoloji anlayışlarla sistemləşdirilməsi təmin edilmişdir.

Əksər terminlərin mətni yazılarkən fundamental tərzdə çap olunmuş müxtəlif sorğu kitab və lüğət nəşrlərindən geniş istifadə edilmişdir. Lüğət tərtib edilərkən və çapa hazırlanarkən coğrafiya və bununla əlaqəli elm sahələri üzrə çoxdilli terminlər lüğəti olmadığından və lüğətdə verilən əksər terminlər yeni olduğundan müəlliflər xeyli çətinliklərlə üzləşmiş və son nəticədə öz məqsədlərinə müvəffəqiyyətlə nail olmuşlar.

Lüğəti nəşrə hazırlayarkən digər çətinlik terminlərin redaktəsi, onların xarici analoqlarının seçilməsi, hansı xalqın dilindən mənşə tapması və mənalarının müəyyən edilməsi bəzi məxəzlərdə mənalarının uyğun gəlməməsi ilə əlaqədar olmuşdur.

Ayrı-ayrı dillər üzrə tərcüməsi olmayan və şübhə doğuran terminlər xarici dil mütəxəssisləri ilə məsləhətləşdirilmiş, onların həqiqi mənaları dəqiqləşdirilmişdir.

Lüğət geniş mənada türkdilli xalqların istifadəsi üçün yararlı bir mənbədir. İqtisadi və elmi əlaqələrin genişləndiyi və bazar iqtisadiyyatına keçid dövründə xarici ədəbiyyatlara marağın artması, turizm səfərləri zamanı coğrafi obyektlərlə tanışlıq, ümumtəhsil, litsey və özəl universitet tələbələrinin coğrafi təhsili üçün lüğət çox faydalı mənbə ola bilər.

İzahlı çoxdilli ensiklopedik coğrafiya terminləri lüğəti, hər şeydən əvvəl, coğrafiya müəllimləri, əlaqəli təbiət elm sahələri mütəxəssislərinin coğrafi bilikləri dərindən mənimsəmələri üçün qiymətli məxəzdir.

Terminlərin adları lüğətdə Azərbaycan əlifba sırası ilə iri hərflərlə yerləşdirilmişdir. Əgər termin bir neçə məna daşıyırsa, onların hamısı bir qayda olaraq, bir məqalədə birləşdirilmiş, onun daxilində isə hər məna aid olduğu fənn üzrə iri hərflərlə ayrılmışdır. Məsələn: *konvengensiya-meteorolo-*

*giyada, okeonologiyada, qlyasiologiyada; miqrasiya-coğrafiyada, biologiyada, geokimyada* və s.

Hər bir terminin qarşısında hərfi-rəqəm nömrəsi qoyulmuşdur. Hərf hər bir terminin Azərbaycan əlifbasında yerini, rəqəm isə hərf daxilində bu məqalənin sıra nömrəsini göstərir. Belə indeks nömrələri rus, ingilis, alman, fransız və türk terminlərinin lüğət göstəricilərindən istifadə etmək üçün zəruridir.

Məqalələrin adları əksər hallarda tək halda, lakin bəzən qəbul edilmiş termindən asılı olaraq cəm halında da verilir. Məsələn: abissal çöküntülər, aqroiqlim xəritələri, mərcan adaları və s. Etimoloji arayışda əcnəbi sözlər latın qrafikasından istifadə edən ölkələrdə latın əlifbası ilə yazılmışdır. Latın hərfləri ilə eyni zamanda yunan sözləri yazılmışdır. Məsələn: *avussos–dibsiz, vathos–dərinlik, erhemeros–bir günlük* və s.

Lüğətdə qəbul edilmiş ümumi ixtisarlarla yanaşı, mövcud nəşr üçün müəyyən edilmiş əsas ixtisarlardan da istifadə edilmişdir. Hərgah məqalənin adını ifadə edən termin mətndə təkrar olunarsa, bu zaman o, həmin terminin başlanğıc hərfləri ilə ifadə edilmişdir. Məsələn: *Avstraliya depressiyası – A.d., Eroziya bazisi – E.b.* və s.

Lüğətdə bəzi hallarda bax üsulundan istifadə edilmişdir. Bu, əsasən, eyni məna daşıyan terminlərdə işlədilmişdir. Məsələn: Ada–bax materik adaları, Alluvial düzənliklər–bax düzənlik, Potamologiya-bax çay hidrologiyası, qumlu səhra–bax səhra və s.

Altıdilli izahlı ensiklopedik coğrafiya terminləri lüğəti dərs vəsaiti kimi bütün coğrafiyaşünaslar, ali və orta məktəb müəllimləri, tələbələr, elmi işçilər, xarici dillə məşğul olan

müəllim və tələbələr, həm də bütün oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

13. *Geologiya,* məsələn:

«Geologiya terminləri lüğəti». Redaktorlar: A.A.Əlizadə, Ə.Ş.Şıxəlibəyli. Tərtibçilər: R.N.Abdullayev, A.A.Əlizadə, Q.Ə.Əlizadə, Q.A.İsmayılov, Ş.F.Mehdiyev, Ə.A.Musayev, Ə.Ş.Şıxəlibəyli. Bakı, «Elm», 1996-ci il, 360 səhifə.

Lüğət ilk dəfə olaraq böyük həcmdə 1958-ci ildə çap edilmişdir. 7000-dən artıq termini əhatə edən həmin lüğət az tirajla buraxılmış və hazırda nadir tapılan bir vəsaitə çevrilmişdir. Digər tərəfdən, həmin keçən 36 il ərzində geologiya elmində yeni sahələr meydana gəlmiş, onun təzə terminlərlə, sözlərlə, anlayışlarla zənginləşməsi prosesi getmişdir. Eyni zamanda, bir sıra terminlər köhnəlmiş, mənası dəyişmiş və istifadədən çıxmışdır.

Son 20-25 ildə elm və texnikanın sürətli inkişafı ilə əlaqədar olaraq bir sıra dillərin, o cümlədən rus dilinin texniki lüğət fondu xeyli artmışdır. Bu isə azərbaycanlı oxucunun rus dilində çap olunmuş sovet və xarici elmi-texniki ədəbiyyatdan istifadə etməsini, eləcə də ana dilimizdə müvafiq sahələr üzrə elmi əsərlərin, tədris vəsaitlərinin hazırlanmasını asanlaşdırır, ilk növbədə, müasir tələbata cavab verən müxtəlif elmlərə dair lüğətlərin buraxılmasını günün vacib məsələlərindən birinə çevirir.

Geologiya və ona yaxın elmlər sahəsində çalışan mütəxəssislərin günü-gündən artan ehtiyacını ödəmək məqsədilə «Geologiya terminləri lüğəti»nin yeni tam nəşri hazırlanmışdır.

17500-ə qədər termindən ibarət olan bu vəsait öz genişliyi, mükəmməlliyi və əhatəliliyi ilə əvvəlki nəşrdən kəskin

surətdə fərqlənir. Bu, lüğətə geologiyanın paleontologiya, tektonika, mineralogiya, kristalloqrafiya, petroqrafiya, neft-qaz geologiyası, vulkanologiya, filiz və qeyri-filiz yataqlarının geologiyası, stratiqrafiya, tektonika, geofizika və s. ənənəvi sahələrinə aid təzə terminlərin artırılması, eləcə də həmin elmin yeni sahələri üzrə – struktur vulkanologiyası, nüvə geologiyası, aerokosmik geologiya, dəniz geologiyası, plitalar tektonikası, planet geologiyası və s. terminlərin nəzərə alınması nəticəsində əldə edilmişdir.

Lüğətdə ümumi və regional hidrogeologiya, neft-mədən hidrogeologiyası, faydalı qazıntı yataqlarının hidrogeologiyası, mühəndis geologiyası, yeraltı suların axtarış və kəşfiyyatına dair terminlərə geniş yer verilmişdir.

Lüğətə həmçinin geofizikaya dair terminlər də daxil edilmişdir. Geologiyada geniş işlənən geomorfoloji,coğrafı terminlər verilərkən 1972-ci ildə nəşr olunmuş «Coğrafiya terminləri lüğəti» nəzərə alınmışdır.

Lüğətdə iki və daha artıq sözdən ibarət olan terminlər müasir tərtibat prinsipinə müvafiq olaraq «isim-sifət» şəklində verilmişdir ki, bu da hər bir törəmə terminin əsas termindən sonra axtarılmasını tələb edir. Belə prinsip yığcamlığa və lüzumsuz təkrarlara yol verməməyə kömək etmişdir. Müstəsna hallarda yiyəlik birləşməsi şəklində işlənən mühüm terminlər də lüğətə salınmışdır. Məsələn: *Azimut padeniya – yatma azimutu, geoloqiya nefti – neft geologiyası* və s.

«Geologiya terminləri lüğəti» tərtib edilərkən bir sıra başqa elmlərdə olduğu kimi, beynəlxalq terminoloji fondun Azərbaycan dilində saxlanılmasına riayət olunmuş və uydurma terminlər yaradılmasından əl çəkmişlər. Bununla bərabər, bütün mümkün olan hallarda rus və xarici mənşəli terminlərin

mənasını tam və dolğun əks edən azərbaycanca tərcüməsi verilmiş, bəzi hallarda isə dialekt xarakteri daşıyan sözlərdən də istifadə edilmişdir.

Rus dilində beynəlxalq və ya yerli ad altında məlum olan minerallar azərbaycanca beynəlxalq adda verilmişdir.

Lüğətə yalnız beynəlxalq əhəmiyyətə malik stratiqrafik vahidlərin, qarışıqlıq fazalarının adları salınmışdır. Bununla bərabər, respublikamızın ərazisində ayrılmış və geoloji ədəbiyyatda işlənən yerli stratiqrafik bölgülər, yəni çöküntü dəstələri və horizontalları da burada öz əksini tapmışdır.

Təkrara yol verməmək məqsədi ilə və tərtibat prinsipinə müvafiq surətdə külli miqdarda məlum olan beynəlxalq stratiqrafik mərhələlərə, yerli adla ayrılan çöküntü, dəstə və horizontlarına, eləcə də qarışıqlıq fazalarına, buzlaşma epoxalarına və s. dair terminlərin hər biri ayrılıqda isim şəklində yox, sifət şəklində mənsub olduğu əsas termindən sonra verilmişdir. Məsələn:

*Yarus valanjinskiy – Valanjin mərtəbəsi;*

*Svita babadaqskaya – Babadağ dəstəsi;*

*Qorizont tarxanskiy – Tarxan horizontu;*

*Faza baykalskaya – Baykal fazası;*

*Oledenenie vyurmskoe – Vürm buzlaşması.*

Bütün beynəlxalq mineral, suxur, stratiqrafik vahid və s. adları Azərbaycan dilində müvafiq dilin transkripsiyasına və ana dilimizin qrammatikasına uyğun surətdə verilmişdir.

Geoloji ədəbiyyatda tez-tez rast gəlinən, işlənmə dərəcəsinə görə eyni qüvvəyə malik sinonim terminlər də lüğətə salınmışdır.

Lüğətdə beynəlxalq və yerli stratiqrafik bölgü adlarının xüsusi isim kimi böyük hərflə yazılması məsləhət görül-

müşdür. Məsələn: *Mezozoy, Valanjin mərtəbəsi, Maykop dəstəsi, Məhsuldar qat, Türkan horizontu* və s.

Lüğət geoloqlar, geofiziklər, hidrogeoloqlar, geoqraflar, tələbələr, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

14. *Astronomiya,* məsələn:

«Astronomiya terminləri lüğəti». Tərtibçilər: R.Hüseynov, B.Babayev, Q.Əhmədov. Redaktor: Rəhim Hüseynov. Bakı, «Azərnəşr», 1989-cu il, 224 səhifə, 9000 termin.

Bu üçcildli – rusca-azərbaycanca-ingiliscə lüğət müasir astrofizika, kosmik fizika, kosmonavtika-astrodinamika kimi yeni və prespektivli istiqamətləri də əhatə etməklə astronomiyaya aid kamil terminlər lüğətidir.

Azərbaycan dilini bilən oxucular üçün lüğətə təqvimlər haqqında qısa məlumat ay təqvimi üzrə verilmiş tarixlərdən, günəş təqvimi üzrə tarixlərə və əksinə keçmə qaydaları, bununla əlaqədar olaraq müvafiq cədvəllər, o cümlədən 1988-2009-cu illəri əhatə edən yığcam sinxronik keçid cədvəli, hər gün üçün Bakıda günəşin çıxıb-batma vaxtları və başqa astronomik məlumatlar verilmişdir.

Azərbaycan Elmlər Akademiyasının təşkilinin respublikada bütün elmlərlə yanaşı, astronomiya elminin də inkişafına, bu sahədə terminologiyanın yaradılmasına güclü təsiri oldu. Azərbaycan Elmlər Akademiyası Terminologiya Komitəsinin və onun ayrı-ayrı ixtisaslar üzrə bölmələrinin təsis edilməsində Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti böyük fəallıq göstərdi.

Astronomiyaya dair rusca-azərbaycanca ilk terminlər lüğəti Azərbaycan Elmlər Akademiyası Redaksiya Nəşriyyat Şurasının qərarı ilə əlyazması hüququnda 1960-cı ildə H.C.Məm-

mədbəylinin redaktorluğu ilə buraxılmış və cəmi 600 terminindən ibarət olmuşdur. Keçən müddət ərzində başqa elm sahələri kimi astronomiya da çox böyük sürətlə inkişaf etmiş, kosmik texnikada böyük irəliləyişlər olmuş, elmi terminlərin arsenalı olduqca zənginləşmişdir. Elmin belə sürətli inkişafı minlərlə elmi işçidən, müəllim, aspirant və tələbədən bu gün astronomiyaya dair rusca və ingiliscə çıxmış saysız-hesabsız mənbələrdən istifadəni tələb edir. Kosmik tədqiqatların böyük addımlarla irəlilədiyi indiki dövrdə astronomiya elmi ilə geniş oxucu kütləsi getdikcə daha çox maraqlanır. Bu sahədə sanballı terminlər lüğətinin olmaması uzun zamandan bəri ciddi çətinlik yaradırdı. Bu lüğətin tərtibçiləri məhz həmin boşluğu aradan qaldırmaq vəzifəsini qarşıya qoymuşlar.

9000-ə qədər termindən ibarət olan bu lüğətin tərtibində mövcud çoxdilli və izahlı lüğətlərdən, ensiklopedik nəşrlərdən geniş istifadə olunmuş, dilimizin qaydalarına ciddi riayət edilmişdir.

Lüğətə astronomiya terminlərindən başqa, yaxın elm sahələrindən fizika, geofizika, riyaziyyat, mexanika, kosmonavtika, kimya, geologiya, coğrafiya və kibernetikaya dair astronomiya ilə əlaqəsi olan ifadələr də daxil edilmişdir.

Lüğətin tərtibi prosesində aşağıdakı prinsiplərə əhəmiyyət verilmişdir:

1. Terminlər bir qayda olaraq ciddi əlifba sırası ilə düzülmüşdür.

2. Yalnız göy cisimlərinə aid, yaxud şəxsiyyət adları ilə bağlı terminlər böyük hərflə yazılmışdır.

3. Lüğət tərtibetmə qaydalarına müvafiq surətdə hər termin, əsasən, tək halda göstərilmişdir.

4. İkimənalı terminlərin elmi ədəbiyyatda çoxişlənən mənası lüğətdə birinci, nisbətən azişlənən mənası ikinci verilmişdir.

Lüğətdə qalaktika termini iki dəfə işlədilmişdir. Birincisinə günəş daxildir və cəm halı yoxdur, ona bizim qalaktika da deyilir. İkincisi isə geniş anlayışlı qalaktikalar məfhumunun tək halda yazılışıdır.

Lüğətin tərtib olunduğu illər ərzində astronomiya və onun perspektivliyi istiqamətləri sayılan relyativist astrofizika və plazma astrofizikası, kosmik fizika, kosmonovtika-aerodinamika üzrə respublikamızda kamil terminlər toplusu yaratmaq qarşıda əsas məqsəd olmuşdur.

Lüğətdə dillər ardıcıllığı onunla əlaqədardır ki, astronomiyaya dair rus dilində zəngin ədəbiyyat və terminlər fondu mövcuddur. Bundan başqa, lüğətin təmsil etdiyi elm sahələrinə aid jurnal və kitabların əksəriyyəti ingilis dilində olduğundan onun üçdilli tərtibi zəruri hesab edilmişdir.

*c) Texnika elmlərinə aid terminlər lüğəti;*

1. *Texnika,* məsələn:

a) «Dağ texniki terminləri lüğəti». Bakı, 1957-ci il, 100 səhifə.

b) «Texnika sözlüyü». Bakı, 1967-ci il, 85 səhifə.

c) «Azərbaycan dilində texniki termin yaradıcılığı». Tərtibçi: A.Bəşirova. Bakı, 1993-cü il, 119 səhifə.

d) «Rusca-azərbaycanca informasiya-ölçmə texnikası terminləri lüğəti». Tərtibçilər: Əliyev Tofiq, Kərimzadə Sənan. Bakı, «Maarif», 1980-ci il, 114 səhifə.

2. *Neft və mədən işləri,* məsələn:

«Neft-mədən işlərinə dair ingiliscə-azərbaycanca-rusca lüğət». 12180 termin. Tərtibçilər: S.M.Quliyev, A.A.Mdivani.

Redaktor: S.M.Quliyev. Bakı, «Azərneftnəşr», 1958-ci il, 576 səhifə.

3. *Avtomobil nəqliyyatı,* məsələn:

«Avtomobil nəqliyyatı terminləri lüğəti». Tərtibçi: Ə.M.Əliyev. Bakı, «Elm», 1973-cü il, 98 səhifə.

4. *Histologiya,* məsələn:

«Histologiya terminləri lüğəti», Tərtibçi: Abdullayev Məmməd Sadıq. Bakı, «Elm», 1970-ci il, 269 səhifə.

5. *Avtomatik idarəetmə,* məsələn:

«Avtomatik idarəetmə üzrə terminoloji lüğət» (Rusca-azərbaycanca-qırğızca-türkməncə-özbəkcə). Bakı, «Elm», 1977-ci il, 644 səhifə.

6. *Dəmiryol,* məsələn:

«Müxtəsər dəmiryol transportu terminləri lüğəti». Tərtibçi: İ.Bağırlı. Bakı, 1940-cı il, 62 səhifə.

7. *Metalşünaslıq,* məsələn:

«Metallar texnologiyası və metalşünaslıq terminləri lüğəti». Tərtibçi: Qasımzadə Nadir. Bakı, «Elm», 1970-ci il, 183 səhifə.

8. *Tikinti işləri,* məsələn:

«Tikinti işlərinə dair rusca-azərbaycanca terminlər lüğəti». Tərtibçi: Ə.Ə.Əliyev. Bakı, «Azərneftnəşr», 1959-cu il, 148 səhifə.

9. *Radio-elektronika;*

10. *Hidravlika* və s.

Terminoloji lüğətlər xarakterinə görə əsasən üç cür olur:

***1. İzahlı terminoloji lüğətlər.*** Bu lüğətlərdə hər terminin hansı anlayışı ifadə etdiyi geniş şərh olunur, misallar göstərilir. Belə lüğətlərə Ə.Mirəhmədovun tərtib etdiyi

«Ədəbiyyatşünaslıq terminləri lüğəti»ni misal göstərmək olar. Həmin lüğətdə «inversiya» və «intonasiya» terminləri aşağıdakı kimi izah olunur.

*İnversiya* - bədii üslubda ifadə üsullarından biri, cümlədə sözlərin adi düzülüş qaydasından fərqli bir şəkildə düzülməsi ilə yaradılan bədii ifadə üsuludur. Məsələn: inversiya yolu ilə yaradılan cümlədə mübtəda xəbərdən sonra, epitet təyin edilən sözdən sonra gəlir və s. Səməd Vurğunun «Var olsun şeirimiz, şairlərimiz!» misrasında inversiya vardır. Qrammatik qaydaya görə bu misra belə olmalı idi: «Şeirimiz, şairlərimiz var olsun!»

*İntonasiya* – danışıq tərzi, tələffüz xüsusiyyəti, səs tonunun ucalıb alçalmasıdır. Danışan adamın bəhs etdiyi mövzuya, hadisəyə, məsələyə, yaxud müraciət etdiyi adama, əşyaya, hədəfə münasibəti, onların həmin şəxsdə oyatdığı hiss və həyəcan intonasiyada özünün aydın ifadəsini tapır. Bədii əsərdə cümlənin ahəngi, melodik quruluşu, ruhu müxtəlif olur; başqa sözlə, cümlənin intonasiyası sual, nida, kinayə, adi təhkiyə və s. səciyyəsi daşıyır. Danışan adamın bu və ya başqa sözə, ifadəyə vermək istədiyi konkret mənanı, canlı məna çalarını bildirməkdə intonasiya xüsusi rol oynayır. Məsələn: «vur» nidası müxtəlif məqamda müxtəlif intonasiyada işlədilə bilər. Sabirin məşhur «Balaca səhnə» tərcüməsində mülkədarın dilindən deyilən «Vur! Vur ki, gətirməyibdir arpa!» əmrində qəddarlıq, zalımlıq; S.Vurğunun «Raport» şeirində «Vur!» – dedim, - vur! Zərbələrini bərk vur!» xitabında isə adamları yeni həyat quruculuğuna, əmək rəşadətinə ruhlandırmaq cəhdi aydın hiss olunur.

Ə.Mirəhmədov. «Ədəbiyyatşünaslıq terminləri lüğəti. «Maarif» nəşriyyatı, Bakı, 1978, səh.78-79).

***2. İzahlı-tərcümə terminoloji lüğətlər.*** Bu lüğətlərdə bu və ya digər terminin qarşılığı başqa dildə göstərilir və sonra izahat verilir. Ə.Fərəcovun tərtib etdiyi «İzahlı dilçilik lüğəti» (1969) belə lüğətlərə aiddir. Burada dilçilik terminlərinin yunanca, rusca, ingiliscə, fransızca, almanca, ispanca qarşılığı göstərilir və sonra izahat verilir. Məsələn:

*Qrammatika* – (yunanca qrammatike, rusca qrammatika, ingiliscə qrammar, fransızca qrammaire, almanca qrammatik, ispanca qramatica) dilçilikdə sözdəyişmə formalarını, söz birləşmələrinin formullarını və cümlə tiplərini sözlərin, söz birləşmələrinin və cümlələrin konkret maddi mənasından təcrid edilmiş şəkildə öyrənən şöbədir. Qrammatika dilin lüğət tərkibi və səs sistemi ilə sıx əlaqədardır. Qrammatika iki hissədən ibarətdir: morfologiya və sintaksis. «Qrammatika» termini «dilin quruluşu» mənasında da işlənir. Müasir dilin qayda-qanunlarından bəhs edildikdə qrammatika – təsviri, bu və ya digər dilin qrammatik quruluşunun inkişafı tarixindən bəhs edildikdə – tarixi, bir qrup qohum dillərin qrammatik quruluşunun inkişafı müqayisəli – tarixi şəkildə öyrənildikdə – müqayisəli adlanır.

***3. Tərcümə terminoloji lüğətlər.*** Belə lüğətlərdə müxtəlif dillərdəki eyni terminlər qarşılaşdırılır. Nəşr olunmuş bu cür lüğətlərin əksəriyyətində rus və Azərbaycan dilinin materiallarının qarşılaşdırıldığını görmək olur. Məsələn: Terminoloji tərcümə lüğəti adi tərcümə lüğətinin eyni deyildir. Bu öz məqsədinə və materialın düzülüşü və izahına görə fərqlənir. Terminoloji lüğətdə yuxarıdakı misalda olduğu kimi ancaq terminin qarşılığı verilir. Lakin tərcümə lüğətlərində isə

bir sözün, yeri gəldikcə, sinonimi, variantı, qrammatik xüsusiyyətləri və s. göstərilir.

Tərcümə lüğətləri özgə dili mükəmməl öyrənmək və bir dildən başqa dilə tərcüməni asanlaşdırmaq üçün yaranan lüğətdir. Bu cür lüğətlərdə təkcə iki dil qarşılaşdırılmır, həm də bir dilin qarşılığı digər dildə tapılır və izah olunur.

İkidilli tərcümə lüğətləri praktik cəhətdən zəruri olan sözlər əsasında təşkil olunur. Burada müxtəlif üslublarda işlənən sözlər özünə yer tapır. Tərcümə lüğətlərində ən vacib məsələ tərcümə olunan sözün qarşılığını – ekvivalentini düzgün, dəqiq əks etdirməkdir. Bu lüğətlərin üstünlüyü ondadır ki, onların vasitəsilə dili öyrənmənin imkanları genişdir.

Tərcümə lüğətləri iki yerə bölünür:

*I. İkidilli tərcümə lüğətləri;*

*II. Çoxdilli tərcümə lüğətləri.*

I. **İkidilli tərcümə lüğətləri.** İkidilli tərcümə lüğətləri lüğətlərin ən çox yayılmış növüdür. Bu lüğətin əsas məqsədi sözün dəqiq tərcüməsini təmin etməkdən ibarətdir. İkidilli tərcümə lüğətlərində tərcümə olunan söz qara şriftlə verilir, sonra isə onun qarşısında tərcümə olunduğu dilin müvafiq sözü göstərilir. Bəzən isə tərcümə edilən sözün mənasını düzgün başa düşmək üçün həmin sözün cümlələr içərisində işlədilməsinə dair nümunələr verilir.

Leksikoqrafiyada ikidilli tərcümə lüğətlərinin üç tipi göstərilir: a) böyük ikidilli lüğətlər, b) orta ikidilli lüğətlər, c) kiçik ikidilli lüğətlər.

Böyük ikidilli lüğətlər materialı əhatə etməsinə, orta ikidilli lüğətlər isə materialı işləmə üsuluna, kiçik ikidilli lüğətlər isə materialı normalaşdırma prinsipinə görə fərqlənir.

Azərbaycan dilində tərcümə lüğətlərinin tarixi çox qədimdir. Belə ki, hələ XIII-XIV əsrlərdə Fəxrəddin Hinduşah Naxçıvani «Əs-sihah əl-əcəmiyyə» adlı farsca-azərbaycanca, İbn Mühənna isə «Kitabi – məcmueyi – tərcümani – türki – farsi – moğoli» adlı tərcümə lüğətləri yaratmışlar.

İkidilli tərcümə lüğətlərinin aid olduğu dilləri nəzərə almaqla onları azərbaycanca–rusca, azərbaycanca–ingiliscə, azərbaycanca–almanca və s. lüğətlərə bölmək olar. Tərcümə lüğətinə maraq XX əsrin əvvəllərində xeyli güclənmişdir. 1902-ci ildə Sultanməcid Qənizadənin «Lüğəti-rusi-türki» lüğəti, 1907-ci ildə Ü.Hacıbəyovun «Rusi-türki və türki-rusi lüğəti», 1912-ci ildə Q.Qarabəyovun «Qamusi – rusi» lüğətləri çap olunmuşdur.

Tərcümə lüğətlərinin inkişafında aşağıdakı mərhələlər diqqəti cəlb edir:

*1920-1930-cu illər mərhələsi.* Bu mərhələdə yuxarıda qeyd etdiyimiz lüğət, yəni tərcümə lüğəti yenidən çap olunmuşdur. Məsələn: S.Qənizadənin «Rusca-türkcə lüğəti» 1922-ci ildə yenidən çap olunmuşdur. Burada 12000 söz əhatə olunmuşdur. 1928-1929-cu illərdə Ruhulla Axundovun redaktəsi ilə «Rusca-türkcə lüğət» çap olunmuşdur. Lüğət iki cilddən ibarət olub, 60 min sözü əhatə etmişdir. I cild 320, II cild 625 səhifəni əhatə edir. Bu lüğət sözlərin sahələrə aid seçilməsinə, izahına və digər cəhətlərinə görə özündən Azərbaycan və rus dillərinə aid əvvəlki lüğətlərdən ciddi şəkildə fərqlənir. Ona görə də bu lüğət Azərbaycan leksikologiyasında ilk mükəmməl lüğət kimi qiymətləndirilir.

*1930-1940-cı illər mərhələsi.* 1938-ci ildən çapa başlanılmış «Azərbaycanca-rusca lüğət» 1939-cu ildə çap olunmuşdur. Həmin ildə «Azərbaycanca-rusca lüğət» adında bir neçə kitab nəşr olunmuşdur. H.Hüseynovun redaktorluğu ilə çap olunmuş bu lüğətlərin birində 8000 söz əhatə edilmişdir. Lüğətdə qeyd olunmuşdur ki, ilk təcrübə kimi burada çatışmazlıqlar və qüsurlar da vardır.

1939-cu ildə H.Hüseynovun redaktorluğu ilə nisbətən genişləndirilmiş 12000 sözü əhatə edən «Azərbaycanca-rusca lüğət» çap edilmişdir.

*1940-1950-ci illər mərhələsi.* 1940-1946-cı illərdə Heydər Hüseynovun rəhbərliyi ilə «Rusca-Azərbaycanca lüğət» hazırlanmış və çap olunmuşdur. Lüğət dörd cilddən ibarət olub, 100 minə yaxın sözü əhatə etmişdir. I cild 1940-cı, II cild 1941-ci, III cild 1943-cü, IV cild 1946-cı illərdə çap edilmişdir. 1956-1959-cu illərdə Ə.Orucovun, Ş.Məlikovun və A.Əfəndiyevin redaktorluğu ilə iki cildlik «Rusca-Azərbaycanca lüğət» çapdan çıxmışdır. Bu lüğət 1940-1946-cı illərdə H.Hüseynovun redaktorluğu ilə çap olunmuş lüğətin təkmilləşmiş nəşridir.

*1950-1960-cı illər mərhələsi.* 1951-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Ədəbiyyat və Dil İnstitutu tərəfindən «Azərbaycanca-rusca lüğət» çap olunmuşdur. «Azərbaycanca-rusca lüğət»in yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşri 1955-ci ildə Ə.Orucovun redaktəsi ilə çap edilmişdir. Burada 18000 söz əhatə olunmuşdur.

*1960-1970-ci illər mərhələsi.* 1964-cü ildə «Azərbaycanca-rusca məktəb danışıq kitabçası» çap olunmuşdur. 1965-ci ildə

Udaday bəy X.Əzizbəyov tərəfindən «Azərbaycanca-rusca lüğət» nəşr edilmişdir. Bu lüğətdə 23000-ə yaxın söz vardır.

*1970-1980-ci illər mərhələsi.* 1971-1978-ci illərdə Ə.Orucovun redaktəsi ilə üç cildlik «Rusca-Azərbaycanca lüğət» çap olunmuşdur. Bu lüğət 1956-1959-cu illərdə nəşr olunmuş iki cildlik «Rusca-Azərbaycanca lüğət» in təkmilləşmiş yeni nəşridir. 1982-1984-cü illərdə üç cildlik «Rusca-Azərbaycanca lüğət» in IV nəşri də çıxmışdır.

*1990-cı illər mərhələsi.* 1990-cı ildə Azərbaycan Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu tərəfindən «Rusca-azərbaycanca lüğət» üç cilddə Ə.Ə.Orucovun redaktorluğu ilə çap olunmuşdur. 1991-ci ildə L.Kərimovun, M.Mahmudovun tərtibi əsasında «Azərbaycanca–rusca, rusca-azərbaycanca lüğət» nəşr edilmişdir. Bu lüğətdə təxminən 11000 ümumişlək söz əhatə olunmuşdur. 1997-ci ildə M.T.Tağıyevin rəhbərliyi ilə «Rusca-azərbaycanca tədris lüğəti» çap edilmişdir.

*2000-ci illər mərhələsi.* 2005-ci ildə «Azərbaycanca-rusca, rusca-azərbaycanca universal lüğət», «Rusca-azərbaycanca lüğət» nəşr olunmuşdur. Bu lüğətlər rus dilini öyrənənlərə və rus dilindən Azərbaycan dilinə tərcümə edənlərə kömək etmək məqsədi ilə hazırlanmışdır.

Azərbaycan dilində «Azərbaycanca-rusca» tərcümə lüğəti də vardır. Bu cür lüğətlərin hazırlanmasına 1938-ci ildə başlanmışdır. İlk «Azərbaycanca-Rusca lüğət» 1939-cu ildə çap olunmuşdur. 1951-ci ildə yenidən «Azərbaycanca-rusca lüğət» nəşr olunmuşdur. Bu lüğət 10000 sözü əhatə etmişdir. Həmin bu lüğət yenidən 1962-ci ildə çapdan çıxmışdır.

**Qeyd:** Dilimizdə digər tərcümə lüğətləri də vardır. Məsələn: 1944-cü ildə çap olunmuş «Rusca-farsca-azərbaycanca lüğət», 1965-ci ildə çap olunmuş «Fransızca-azərbaycanca lüğət», 1971-ci ildə çap olunmuş «Almanca-azərbaycanca lüğət», 1974-cü ildə çap olunmuş «Udincə-azərbaycanca-rusca lüğət» və s.

1970—1980-ci illər mərhələsindən sonra Azərbaycan dilində dəyərliliyi və sanbalı ilə seçilən tərcümə lüğətləri də çap olunmuşdur.

İkidilli tərcümə lüğətləri sırasında azərbaycanca-ingiliscə olan lüğətlər də mühüm yer tutur. İlk belə lüğət 1956-cı ildə Z.S.İbrahimovun redaktorluğu ilə hazırlanmışdır. 1965-ci ildə «Azərbaycanca-ingiliscə, ingiliscə-azərbaycanca danışıq kitabı» çap olunmuşdur. 1990-cı ildə İsmixan Rəhimovun redaktorluğu ilə «Azərbaycanca-ingiliscə lüğət» nəşr edilmişdir. 1996-cı ildə O.İ.Musayevin redaktorluğu ilə «Azərbaycanca-ingiliscə lüğət» çapdan çıxmışdır. Burada təxminən 40000 söz verilmişdir.

1999-cu ildə İsmixan Rəhimovun redaktorluğu ilə «Azərbaycan-ingiliscə lüğət» çap edilmişdir. Bu lüğətdə 12000 söz və ifadə əhatə olunmuşdur. İkidilli tərcümə lüğətinin içərisində ən xarakterik olanlara aşağıdakıları misal göstərmək olar:

1) 1966-cı ildə çap olunmuş ilk «Almanca-azərbaycanca lüğət».

2) 1971-ci ildə çap olunmuş «Almanca-azərbaycanca lüğət». Bu lüğətdə 30000-ə yaxın söz və ifadə vardır.

3) 1993-cü ildə «Azərbaycanca-almanca lüğət» çap olunmuşdur. Lüğətə 15000-dən artıq söz və ifadə daxil edilmişdir.

4) 1965-ci ildə «Fransızca-azərbaycanca lüğət» çap olunmuşdur. Bu lüğətdə 25000 söz və ifadə verilmişdir.

5) 1967-ci ildə «Azərbaycanca-fransızca danışıq kitabçası» nəşr olunmuşdur.

6) 1992-ci ildə «Məktəblinin talışca-azərbaycanca lüğəti» çap olunmuşdur.

7) 1992-ci ildə «Türkcə-azərbaycanca lüğət» nəşr edilmişdir.

8) 1997-ci ildə «Azərbaycanca-gürcücə və gürcücə-azərbaycanca lüğət» çapdan çıxmışdır və s.

II. **Çoxdilli tərcümə lüğətləri.** Azərbaycan leksikoqrafiyasında çoxdilli lüğətləri əhatə etdikləri dillərə görə iki qrupa bölmək olar: 1) Azərbaycanca-rusca-ingiliscə lüğətlər, 2) Digər çoxdilli lüğətlər.

1) *Azərbaycanca-rusca-ingiliscə lüğətlər.* İlk belə lüğətlərdən biri 1958-ci ildə çap olunmuş və «Neft-mədən işlərinə dair ingiliscə-azərbaycanca-rusca lüğət»dir. Burada 12180 termin əhatə olunmuşdur. 1979-cu ildə «İngiliscə-rusca-azərbaycanca riyaziyyat terminləri lüğəti», 1981-ci ildə «İngilis atalar sözlərinin azərbaycanca-rusca qarşılıqları», 1991-ci ildə «Azərbaycan-ingilis-rus dillərində şəkilli sözlük», 1994-cü ildə «Azərbaycanca-rusca-ingiliscə danışıq kitabçası» adlı lüğətlər və digərləri çap olunmuşdur.

2) *Digər çoxdilli lüğətlər.* Çap olunmuş digər çoxdilli lüğətlər sırasında əsasən aşağıdakıları qeyd etmək olar.

1945-ci ildə nəşr olunmuş «Müxtəsər farsca-rusca-azərbaycanca lüğət», 1969-cu ildə «Azərbaycanca-rusca-latınca qısa tibb terminləri lüğəti», 1977-ci ildə çapdan çıxmış «Rusca-azərbaycanca-qırğızca-türkməncə-özbəkcə avtomatik idarəetmə üzrə terminoloji lüğət», 1992-ci ildə nəşr olunmuş «Azərbaycanca-rusca-türkcə danışıq kitabçası» və digərləri bu qəbildən olan lüğətlərdir.

# Sözyaradıcılığı

# SÖZYARADICILIĞI

Sözyaratmanın mənbəyi, imkanları, vasitə və formaları, xüsusiyyətləri və digər cəhətləri ilə məşğul olan dilçilik şöbəsi - sözyaradıcılığı, yaxud derivatologiya şöbəsi adlanır. Bu şöbə 1960-cı illərdən sonra müstəqil şöbə kimi formalaşmışdır.

Dilin lüğət tərkibinin zənginləşməsində iki mənbədən istifadə olunur:

*I. Dilin daxili imkanları;*

*II. Başqa dillərdən söz almaq.*

I. **Dilin daxili imkanları hesabına sözyaradıcılığı.** Dilin daxili imkanları əsasında lüğət tərkibi aşağıdakı yollarla zənginləşir:

1) Yeni söz və ifadələr yaratmaqla
2) Dialekt və şivələrdən söz götürməklə
3) Kalka üsulu ilə sözyaratmaqla
4) Fonetik dəyişmə hesabına sözyaratma.

*Yeni söz və ifadələrin yaradılması* bir sıra üsullarla baş verir:

*a) leksik üsul;*

*b) semantik üsul;*

*c) morfoloji üsul;*

*ç) sintaktik üsul.*

***Leksik yolla sözyaradıcılığı.*** Bu yolla sözlərin əmələ gəlməsinin mahiyyəti odur ki, yeni əmələ gələn leksik vahid-

lər hazır şəkildə dilə daxil olur. Dilimizdə leksik yolla sözlərin əmələ gəlməsinin qaydaları aşağıdakılardır:

***Şivələr və dialektlər hesabına sözyaratma.*** Burada daha çox yazıçı və şairlərin rolu vardır. Ona görə də yazıçı və şairlərin dilinin lüğət tərkibini tərtib etmək olduqca vacibdir. Bunun sayəsində yazıçı və şairlərin dilin lüğət tərkibinin zənginləşməsində oynadıqları rol aydınlaşır. Məsələn: *sayrışan, ləmədan, duvaq, cırtqoz, şütümək, kövrək, nisgil, sambal, ilqar, quzey, güney, ılıq, qəlbi, cığal* və s. sözlər dialekt sözləri kimi Azərbaycan dilinin lüğət tərkibini zənginləşdirmişdir.

Azərbaycan ədəbiyyatının görkəmli sənətkarlarından M.Hüseynin, S.Rəhimovun, M.İbrahimovun, İ.Əfəndiyevin, İ.Şıxlının, R.Rzanın və başqalarının yaradıcılığındakı dialekt və şivə sözləri dilimizin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynamışdır. Adları qeyd olunan şair və yazıçıların əsərlərində işlənmiş aşağıdakı sözləri dilimizin lüğət tərkibinin dialekt və şivə sözləri hesabına zənginləşməsinə aid misal göstərmək olar: *ilğım, boygörməsi, üzgörməsi, aranlıq, bişirim, bişirimlik, muştuluq, tamarzı, alabaydaq, kirimişcə, küsənmək, irişmək, güvənmək, sayrışan, hayqırmaq, umacaq, kürlük etmək, gənəşmək* və s. Bu sözlərin ədəbi dildəki qarşılığı da mövcuddur. Onların bəzilərinin ədəbi dildəki qarşılığını nəzərdən keçirək:

***perikmək*** – *yerindən-yurdundan uzaq düşmək*
***tıncıxmaq*** – *nəfəsi tutulmaq, az-az nəfəs almaq*
***şaxımaq*** – *bərk qızdırmaq, yandırmaq*
***təfərinclə*** – *diqqətlə, maraqla*
***havalanmaq*** – *dəli olmaq*
***öləzimək*** – *sakitləşmək*
***simsar*** – *tərəf (tərəf durmaq), arxa*

***təşər-təşər (baxmaq)*** *– lovğa-lovğa, nadinc*

***faqqılıq eləmək*** *– hiyləgərlik, çoxbilmişlik eləmək*

***sayrışmaq*** *– hərəkət etmək, bərq vurmaq*

***ları*** *– döyüşkən xoruz*

***xaral*** *– pambığı qoymaq üçün qab* və s.

Azərbaycan ədəbi dilinin zənginləşməsində bütün dialekt və şivələr eyni dərəcədə rol oynamır. Belə ki, dialekt və şivələrdən bəziləri ədəbi dilin zənginləşməsində əhəmiyyətli rol oynadığı halda, digərləri isə o qədər də rol oynamır, bu prosesdə iştirak etmir. Dialekt və şivə sözləri əbədi dilimizə aşağıdakı üslublar vasitəsilə gəlir:

*a) bədii üslub vasitəsilə*

*b) elmi üslub vasitəsilə*

*c) publisistik üslub vasitəsilə.*

***Kalka üsulu ilə sözyaratma*** Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynamışdır. Kalka üsulu ilə söz yaratmada dilin daxili imkanı əsasdır. Burada dilin daxili imkanı hesabına başqa dildən alınmış söz tərcümə olunur. Bu prosesdə hər hansı bir anlayış bir dildən başqa bir dilə mexaniki olaraq gəlir. Kalkalar dilimizdə, əsasən, aşağıdakı yollarla əmələ gəlir:

a) iki sadə sözün birləşməsindən əmələ gəlir: zarabotka – *əməkhaqqı,* mirovozrenie – *dünyagörüşü,* peredprazdniçnıy – *bayramqabağı* və s.

b) sadə sözlə düzəltmə sözün birləşməsindən əmələ gəlir: jeleznodorojnik – *dəmiryolçu,* sapojnik – *ayaqqabıçı* və s.

c) söz birləşməsi şəklində əmələ gəlir: otkrıtıy dver – *açıq qapı,* otkrıtıy urok – *açıq dərs,* uçastkovıy vraç – *sahə həkimi,* mestnoe vremya – *yerli vaxt* və s.

ç) düzəltmə söz şəklində əmələ gəlir: prizıvnik – *çağırışçı,* poqranişnik – *sərhədçi,* lyotçik – *təyyarəçi* və s.

d) sərbət tərcümə şəklində əmələ gəlir: metateza – *yerdəyişmə,* proteza – *səsartımı,* eliziya – *səsdüşümü,* radio – priyomnik – *radioqəbuledici* və s.

Kalka üsulu ilə söz yaratma barəsində dilçilikdə bir-birindən fərqli fikirlər olmuşdur. Fikir tərəfdarlarının bəzilərinə görə, kalka üsulu ilə yaranan sözlər alınmadır və ya alınma sözlərin bir növüdür. Onların fikrincə (R.Mullina, R.A.Budaqov, Q.Q.Musabaev, Ş.R.Abiyeva və s.), kalkalar əcnəbi sözlərin quruluşu əsasında formalaşdığı üçün alınmaların bir növü hesab edilməlidir.

İkinci fikir tərəfdarları (N.A.Baskakov, A.A.Reformatskiy və s.) kalkaları alınma hesab etməmiş, kalka üsulu ilə yaranan sözləri hər bir dilin daxili imkanları, qrammatik qayda-qanunları əsasında yarandığı fikrini söyləmişlər.

Kalkaları alınmaların bir növü hesab etmək düzgün deyildir. Bu yolla söz yaratma dilin daxili imkanları və qanunları əsasında baş verir. Ona görə də kalka üsulu ilə söz yaratma dilin daxili imkanları hesabına söz yaratmanın bir növü kimi qəbul olunmalıdır. Ona görə ki, başqa bir xalqdan gələn anlayışı ifadə etmək üçün milli dilin öz imkanlarından istifadə edilir. Burada yalnız anlayış, məfhum bir xalqdan digərinə keçir, ötürülür. Ancaq həmin anlayışı, məfhumu ifadə edən söz isə milli dilin bazası əsasında yaranır, formalaşır.

***Fonetik dəyişmə hesabına sözyaratma*** söz tərkibindəki hər hansı bir səsin dəyişməsi, düşməsi nəticəsində baş verir. Bu yolla söz yaratmanın tarixi çox qədimdir. Ona görə də müasir dilimizdə bunu müşahidə etmək çox çətinlik yaradır. Bu barədə S.Cəfərov yazır: «Müasir dildə bu gün biz ancaq

vaxtilə baş vermiş bu hadisənin izlərini tapa bilirik. Bunun üçün aşağıdakı sözləri nəzərdən keçirək:

Fikrimizcə, *dağ* və *tağ* sözlərinin istər mənaca fərqlənmə və istərsə formaca ayrılma mənbəyi bir olmuşdur. Məlumdur ki, yerin ümumi səthindən öz qabarıqlığı ilə seçilən hissəsi dağ adlanır. Yəqin ki, insanlar öz məişətlərilə əlaqədar olaraq (ev, körpü, darvaza və s. tikərkən) hər hansı qabarıq bir tikinti hissəsini də dağ adlandırmışlar. Sonralar bu sözdə olan *d* səsi *t* səsinə keçərək *tağ* sözünü əmələ gətirmişdir. Bir çox türk dillərində dağ sözünün *tağ* formasında ifadəsi də bu hökmü qüvvətləndirir»[1]. S.Cəfərovun nümunə gətirdiyi *göz-gör, inan-inam, tək-lək, qurut-qurud, dək-tək* və s. misallar da fonetik dəyişmə hesabına sözyaratmağa misal kimi göstərilir.

Azərbaycan dilinin zənginləşməsində rus dilindən və bu dil vasitəsilə xeyli sözlər keçmişdir ki, onlar fonetik tərkibcə dəyişmişdir, öz dilimizin qayda-qanunlarına uyğunlaşmışdır: *poçta – poçt, proqramma – proqram, qazeta – qəzet, teleqramma – teleqram, fabrika – fabrik, apteka – aptek* və s.

Tarixən dilimizə ərəb və fars dillərindən alınmalar daxil olmuşdur. Onların hər birinin fonetik tərkibində dilimizin qayda-qanunlarına uyğun dəyişmələr baş vermişdir: *adəm-adam, faidə – fayda, qaidə-qayda* və s.

II. **Başqa dillərdən söz almaqla sözyaradıcılığı.** Başqa dillərin leksikası hesabına söz artımı sözlərin dildən-dilə keçməsi, zorakılıq, ya da əlaqələr nəticəsində baş verir.

[1] S.A.Cəfərov. Azərbaycan dilində sözlərin leksik yolla əmələ gəlmə prosesi. – S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin elmi əsərləri. 1958, №-1, s.34-35.

Məsələn: *şair, məktub, şeir, abır, tərcümeyi-hal, kolxoz, kollektiv* və s. sözlər dilimizə bu cür keçmişdir.

Son dövrlərdə siyasət, iqtisadiyyat, ticarət, maliyyə, elm və texnika, maarif və mədəniyyət və s. sahələrlə bağlı yeni sözlər dilimizin lüğət tərkibində özünə yer tapa bilmişdir. Başqa dillərdən dilimizə keçən belə sözlər tələbat əsasında dilimizin lüğət tərkibində sabitləşmişdir. Məsələn: *ambisiya, parlament, referendum, piket, totalitar, model, plüralizm, infrastruktur, aksion, dotasiya, biznes, kommersiya, bankir, devalvasiya, valyuta, partnyor, inflyasiya, birja, barter, aksioner, telekommunikasiya, faks, menecer* və s.

**Yeni məna kəsb etmək hesabına sözyaratma.** Burada sözlərin çoxmənalılıqdan omonimliyə doğru inkişafı əsas rol oynayır. Bu prosesdə isimlər, sifətlər daha fəal iştirak edirlər. Məsələn: isimlərdən isimlərin törəməsi aşağıdakı yollarla baş verir:

1) Ümumi isimlər xüsusi isimlərə keçir. Məsələn: *ceyran–Ceyran, göyərçin–Göyərçin, çiçək–Çiçək, bənövşə–Bənövşə, aslan–Aslan, nərgiz–Nərgiz, dəmir–Dəmir, ağa–Ağa, baba–Baba, sultan–Sultan, xanım–Xanım* və s.

2) Eyni zamanda xüsusi isimlər ümumi isimlərə keçir. Məsələn: *Badamlı (yer adı) – badamlı (mineral su), Ağsu-ağsu, İstisu (yer adı) – istisu (mineral su)* və s.

3) Ümumi isimlərin ümumi isimlərə keçməsi də mövcuddur. Məsələn: *biz (ayaqqabı tikənin işlətdiyi alət) – biz (əvəzlik), kök (tərəvəz növü) – kök (yağlı, piyli, ətli-canlı), pul (ölçü) – pul (balığın üzərindəki pul), iynə (alət) – iynə (kirpinin iynəsi)* və s.

4) Adverbiallaşma (zərfləşmə) yolu ilə də sözyaradıcılığı baş verir. Müqayisə edək: *iti alət – iti yerimək, düz yol – düz*

*danışmaq, az adam – az danışmaq, elə uşaq – elə qaçmaq, yaxşı adam – yaxşı oxumaq* və s.

5) Sifətlərin substantivləşməsi (isimləşməsi) yolu ilə söz-yaradıcılığı baş verir. Məsələn: *qara (sifət) – Qara (isim), sarı (sifət) – Sarı (isim), gözəl (sifət) – Gözəl (isim)* və s.

6) İsimlərin atributivləşməsi (sifətləşməsi) yolu ilə söz-yaradıcılığı baş verir. Məsələn: *daş (isim) – daş ev (atributivləşmiş isim), gümüş (isim) – gümüş qaşıq (atributivləşmiş isim), taxta (isim) – taxta hasar (atributivləşmiş isim), dəmir (isim) – dəmir qaşıq (atributivləşmiş isim)* və s.

*Leksik yolla zənginləşmədə* bəzi düzəltmə sözlərin sadə sözlərə keçməsi də mövcuddur. Müqayisə edək: *qa-p→qap; qap-ı→ qapı; uz-un→ uzun;uz-aq→ uzaq; uz-an→ uzan* və s.

Bəzi düzəltmə sözlərin sadə sözlərə keçməsinin izahına diqqət yetirək:

*Arı* sözü. Bu sözün (Aydan arı, sudan duru) əvvəlki kökü *ar* – öz müstəqilliyini itirmiş və *-ı* şəkilçisi ilə birikmiş halda dilimizdə sabitləşmişdir.

*Tuman* sözü. Bu söz tum//dun//don hissəsi ilə *-an* şəkilçisinin birikməsindən əmələ gəlmişdir.

*Ərgən* sözü. Bu sözün *ərg* forması yazılı mənbələrdə «güc, qüvvə» mənasında işlənmişdir. *Ərgən* sözü *ərg* kökü ilə *ikən//kən//ən* hissələrinin birikməsindən formalaşmışdır.

*Ertə*, *erkən* sözləri. *Ertə* və *erkən* sözlərində *er-* kökü «sabah, səhər» mənasında olan kök olmuşdur. Bu kökə yerlik hal şəkilçiləri *-ta//-da* və *ikən* köməkçi sözü qoşulmuş, müasir dilimizdə *ertə*, *erkən* şəklində sabitləşmişdir.

*Kərənti* sözü. Ot çalmaq üçün istifadə edilən bu alət *kər//kəz//kəs* kökünə -*ən* feili sifət və -*ti* feildən isim düzəldən şəkilçilərinin birikməsi ilə sabitləşmişdir.

Bəzi mürəkkəb sözlərin sadələşməsi hesabına baş verən sözyaradıcılığına diqqət edək:

*Qarağat* sözü (giləmeyvəli bitkidir). Bu söz *qara* və *ğat* sözlərinin birikməsindən əmələ gəlibdir. *Qara* sözü Azərbaycan dilində mənasını qoruyub, *ğat* isə *ğat//xat//qat* variantlarında xakas dilində «giləmeyvə» mənasında işlənir.Deməli, qarağat «qara giləmeyvə» deməkdir.

Eyni zamanda *leksik yolla zənginləşmədə – mürəkkəb sözlərin sadələşməsi hesabına sözyaradıcılığı* da mühüm rol oynayır. Məsələn: *bilərzik (bilək və üzük), əşi (ay və kişi), ağla (ağı və elə), ünlə (ün və elə)* və s.

*Ovuc* sözü. Bu söz *ov* və *uc* köklərindən ibarət olmuşdur. *Uc* kökü us//ıs variantlarında başqırd, qazax, yakut dillərində «ovuc» mənasında işlənir.

*Bozqır* sözü. Çöl və meşə-çöl qurşağında əmələ gələn qara torpaqdır. Burada *boz* (çöl, sahə), *qır//xır* (əkin yeri, torpaq sahəsi) sözləri vardır. Hər iki söz ayrılıqda müasir dilimizdə arxaikləşmişdir.

*Paça* sözü. Bu söz iki ayağın arası mənasındadır. Bu söz *pa* (ayaq mənasında) və *haca* (ha hissəsi düşmüşdür) sözlərinin birləşməsindən yaranmışdır.

*Çayır* sözü. Bu söz sulu yerdə bitən ot mənasındadır. Sözün *ça//çu* hissəsi «su», *yer//yır* hissəsi «yer» mənasında olmuşdur.

Leksik yolla zənginləşmədə sinonim və ya eyni mənalı sözlərin yanaşı işlənməsi ilə olan sözyaradıcılığı da mühüm yer tutur. Bu zaman yanaşı işlənən eyni mənalı və ya sinonim

olmuş iki sözün biri müasir dilimizdə işlənsədə də, o biri müstəqil mənada işlənmir. Bunun dilimizdə iki forması özünü göstərir: a) sinonim sözlərdən birinin mənasının köhnəlməsi ilə formalaşanlar, b) Azərbaycan dili sözləri ilə alınmaların hibrid söz əmələ gətirməsi ilə formalaşanlar.

a) sinonim sözlərdən birinin mənasının köhnəlməsi ilə formalaşanlar. Burada sinonim sözlərdən birinin mənası müasir dilimizdə ayrılıqda başa düşülmür. Məs.: *al-qırmızı, tanış-biliş, toy-düyün, bəzək-düzək, yorğun-arğın, söz-sov, ünə-səsə (salmaq), yan-yörə* və s. Bu misallarda *al, biliş, düyün, düzək, arğın, sov, ün, yörə* sözləri və onların mənaları dilimizdə (xüsusilə ədəbi dilimizdə) işlənmir.

b) Azərbaycan dili sözləri ilə alınmaların hibrid söz əmələ gətirməsi ilə formalaşanlar. Bəzən Azərbaycan dili sözləri ilə alınmalar hibrid söz əmələ gətirir. Məs.: *yelmar* (ilan adı) sözü yıl-an//yel-an qədim forması ilə farsca *mar* (ilan mənasında) sözünün birləşməsindən yaranmışdır. *Çölbiyaban* (çöl, düz mənasında) sözü *çöl* və farsca *biyaban* (səhra, çöl mənasında) sözlərindən formalaşmışdır.

Aqrotorpaq (torpaq sahəsinin müxtəlif xüsusiyyətlərini göstərən xəritə) yunanca *aqro* (çöl mənasında) və *torpaq* söz-lərindən formalaşmışdır.

*Ot-əncər* (ot, otun xırda hissələri mənasında) *ot* sözü ilə ərəbcə olan *əncər* (ot mənasında) sözlərinin birləşməsindən əmələ gəlmişdir.

*Şahin-şunqar* ərəbcə *şahin* və qədim türkcədə «şahin» mənasında olan *şunqar* sözlərindən yaranmışdır.

Dilimizdə sadə sözlər kimi formalaşan rus və avropa mənşəli mürəkkəb sözlərə təsadüf olunur: *sovxoz, kolxoz,*

*paraxod, parovoz, aqrokimya, antifaşist, orfoepiya, orfoqrafiya, fonetika, morfologiya, frazeologiya, leksikologiya* və s.

*Bir sıra sözlərin başqa qarşılığı ilə əvəz edilməsi ilə sözyaratma*. Dilimizin lüğət tərkibinin zənginləşməsində bu istiqamət daha da güclənmişdir. Cəmiyyətin ictimai-siyasi, mədəni və digər sahələrindəki dəyişikliklər, xüsusilə, kütləvi informasiya vasitələrinin yeniləşmə prosesi imkan yaradır ki, bəzi sözlər qarşılığı ilə əvəz olunsun. Məsələn: dilimizdə qarşılığı ilə əvəz olunmuş sözlərə aid nümunələrə diqqət yetirək:

| *Dildə olan söz:* | *Qarşılığı ilə əvəz olunan söz:* |
|---|---|
| əlaqəli | ilgili |
| kursiv | seçdirmə |
| hörmət | sayğı |
| sərhəd | sınır |
| yazı | bitik |
| kompyuter | bilgisayar |
| televiziya | telegörüm |
| mərhələ | dönəm |
| nəzarət | baxım |
| proqnoz | öncəgörmə |
| nömrə | say |
| əvvəl, qabaq | öncə |
| inam | inanc |
| izah etmək, şərh etmək | açıqlamaq |
| əsaslı | söykəkli |
| quruluş | qurum |
| cəmiyyət | toplum |
| lider | öncül |
| əsas | önəmli |

| | |
|---|---|
| mütərəqqi | irəliçi |
| ənənə | gələnək |
| kvorum | yetərsay |
| rəhbər | öndər və s. |

***Semantik yolla sözyaratma.*** Bu cür söz yaradılması mənanın genişlənməsi, daralması, omonim, çoxmənalılıqla və s.-lə bağlı prosesdir. Eyni zamanda ümumi sözlərin xüsusiyə, xüsusi isimlərin ümumiyə keçməsi semantik yolla söz yaradır. Müqayisə edək: Azad (şəxs) – azad (sifət), Nərgiz (şəxs) – nərgiz (gül) və s. Bütün bunları nəzərə alaraq semantik yolla sözyaradıcılığında aşağıdakı qaydaları qeyd etmək olar.

a) *mənanın genişlənməsi hesabına semantik yolla sözyaratma.* Bu cür söz yaratmada bir sıra sözlər öz ilkin mənalarını saxlamaqla yanaşı, yeni mənalar da qazanır və mənaca genişlənir. Məsələn: *ailə* sözü ilkin mənasını saxlamış və həm də ziyalı ailəsi, qulluqçu ailəsi, fəhlə ailəsi, dil ailəsi və s. mənaları yaratmışdır. Yaxud, *söhbət* sözü ilkin mənası ilə yanaşı, *açıq söhbət, gizli söhbət, elmi* söhbət mənalarını əmələ gətirmişdir.

b) *mənanın konkretləşməsi hesabına semantik yolla sözyaratma.* Bir qrup sözlər ümumi məna bildirməkdən konkret məna bildirməyə doğru inkişaf edərək semantik yolla sözyaradıcılığına xidmət edir. Belə sözlər söz birləşmələrinin tərkibində işlənməklə konkret mənalar yaradır. Məsələn: *iş – elmi iş, şəxsi iş, siyasi iş və s., rəhbər – elmi rəhbər, müəssisə rəhbəri, qrup rəhbəri, rayon rəhbəri və s., həftə – iş həftəsi, əmək həftəsi, idman həftəsi, heykəltəraşlıq həftəsi* və s.

c) *omonimləşmə hesabına semantik yolla sözyaratma.* Eyni fonetik tərkibə malik olan sözlərin bir qismi omonimləşir.

Məsələn: *yaz (feil) – yaz (isim), yar (feil) – yar (isim), at (feil) – at (isim), it (feil) – it (isim)* və s.

ç) *çoxmənalı sözlər hesabına semantik yolla sözyaratma.* İnsanın bədən üzvlərinin adını bildirən sözlərin bir qismi çoxmənalılığa doğru inkişaf edir, məcazlaşır və çoxmənalılıq yaradır. Həmin sözlər çoxmənalılığı yaratmaqla dilin lüğət tərkibini zənginləşdirir. Məsələn: *göz* – insanın gözü, bulağın gözü, şkafın gözü, *baş* – insanın başı, quşun başı, dağın başı, *qol* – insanın qolu, çayın qolu, ağacın qolu və s.

Çoxmənalı sözlər hesabına semantik yolla sözyaratmaqda feillər də fəal iştirak edir. Bu mənada *gəl, get, çək, çıx, ver, sol, düş, ol, elə (et)* və s. feillərin böyük rolu vardır. Misallara diqqət edək:

*Gəl feili ilə düzələnlər:*
xoşuna gəlmək
xoş gəlmək
amana gəlmək
rast gəlmək
göz-gözə gəlmək
işinə gəlmək
ağlına gəlmək
iş başına gəlmək
gümana gəlmək
kələk gəlmək
gülünc gəlmək və s.

*Get feili ilə düzələnlər:*
yola getmək
ürəyi getmək
güzəştə getmək
fikrə getmək
gözünə yuxu getmək
yallı getmək
əl-ayaqdan getmək
qurban getmək və s.

*Çək feili ilə düzələnlər:*
qıtlıq çəkmək
korluq çəkmək
məsəl çəkmək

*Çıx feili ilə düzələnlər:*
yaddan çıxmaq
cıdıra çıxmaq
üzə çıxmaq

bəlasını çəkmək
həsrət çəkmək
ah çəkmək
xəcalət çəkmək
əziyyət çəkmək və s.

qahmar çıxmaq
ortalığa çıxmaq
xəcalətdən çıxmaq
qohum çıxmaq və s.

*Ver feili ilə düzələnlər:*
cavab vermək
xəbər vermək
əhəmiyyət vermək
icazə vermək
yol vermək
ağız-ağıza vermək
xitam vermək
yuxuya vermək
baş vermək
ağıl vermək
yola vermək və s.

*Sal feili ilə düzələnlər:*
yada salmaq
ələ salmaq
yola salmaq
sözünü yerə salmaq
nəzər salmaq
başa salmaq
minnətçi salmaq
təşvişə salmaq
ürəyinə salmaq və s.

*Düş feili iə düzələnlər:*
yada düşmək
lərzəyə düşmək
dalına düşmək
dən düşmək
başa düşmək
elçi düşmək
dilə düşmək
işi düşmək və s.

*Ol feili ilə düzələnlər:*
qeyb olmaq
səbəb olmaq
şərik olmaq
ikiqat olmaq
beyni qan olmaq
ağlı başında olmaq
avara olmaq
ağ olmaq və s.

*Elə* (et) *feili ilə düzələnlər:*
cəsarət etmək
abad etmək
alt-üst etmək
əldə etmək
təhqir etmək
nəm-nüm eləmək
ömrünə dua etmək və s.

d) *frazeoloji vahidlər hesabına semantik yolla sözyaratma.* İnsanın bədən üzvlərinin adını bildirən bir qisim sözlər məcazi mənada işlənməklə frazeoloji vahidin yaranmasına şərait yaradır. Frazeoloji vahidlərin yaranması semantik yolla sözyaratmağa xidmət edir. Misallara diqqət yetirək*: əl – əl tutmaq, əl üzmək, əl çəkmək, əldən düşmək, əl açmaq, əl götürmək* və s.

İnsanın bədən üzvlərinin adını bildirən *baş, göz, üz, əl, ayaq, ürək, qulaq, ağız, bel* və s. sözlərin məcazi mənada işlənməsi ilə yaranmış frazeoloji vahidlərin sayı çoxluq təşkil edir. Məsələn:

*Baş sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*
başını itirmək
baş qaldırmaq
başa çəkilmək
baş çəkmək
başına dönmək
başını sallamaq
başa çatmaq

*Göz sözünü iştirakı ilə yaranan frazeoloji vahidlər:*
gözündən düşmək
gözünə çarpmaq
gözünə dəymək
göz ağartmaq
gözünü ayırmaq
gözünü dikmək
göz-gözə gəlmək

başı ayazımaq
başını yerə qoymaq
baş-başa vermək
başı qarışıq olmaq
başına vurmaq
baş endirmək
baş əymək
başının çarəsini qılmaq
baş götürüb qaçmaq
başına çevirmək
başının üstünü kəsdirmək və s.

gözdən keçirmək
göz oxşamaq
göz gəzdirmək
gözü üstündə yeri olmaq
gözlərindən od yağmaq
gözünə işıq gəlmək
gözü açılmaq
gözləri hədəqədən çıxmaq
gözləri yerindən oynamaq
və s.

*Əl sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*

əl aparmaq
əl çəkmək
əl götürmək
əl atmaq
ələ keçirmək
ələ vermək
əllərini ölçmək
əlinə girəvə düşmək
əldən getmək
əli üzülmək
əldən salmaq
əlinə düşmək
ələ almaq

*Ürək sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*

ürəyinə vahimə salmaq
ürəyinə yatmaq
ürəyinə salmaq
ürəyi getmək
ürəyi sancmaq
ürəyinə dammaq
ürəyi açılmaq
ürəyi çatlamaq
ürəyi sıxılmaq
ürək-dirək vermək
ürəyi yüngülləşdirmək və s.

*əlindən yerə qoymaq*
*əlindən gəlmək*
*əli böyüklər ətəyinə yetişmək*
*əli sıxmaq* və s.

*Dil sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*
dilə tutmaq
dili dolaşmaq
dilə düşmək və s.

*Bel sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*
bel bağlamaq
beli sınmaq və s.

Ağız *sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*
ağzına almaq
ağızlarda dolaşmaq
ağzından süd iyi gəlmək və s.

Qulaq *sözünün iştirakı ilə yaranan frazeoloji vahidlər:*
qulaq tutulmaq
qulaqburması vermək
qulaq asmaq və s.

***Morfoloji yolla sözyaratma***. Morfoloji yolla sözyaradıcılığını aşağıdakı kimi qruplaşdırmaq olar.

1. *Morfoloji yolla (adlardan) ad düzəldən şəkilçilər iki yerə ayrılır:*
   a) adlardan ad düzəldənlər;
   b) feillərdən ad düzəldənlər.
2. *Feil düzəldənlər iki yerə ayrılır:*
   a) adlardan feil düzəldənlər;
   b) feillərdən feil düzəldənlər.
3. *Zərf düzəldənlər iki yerə ayrılır:*
   a) adlardan zərf düzəldənlər;
   b) feillərdən zərf düzəldənlər.

Morfoloji yolla sözyaradıcılığında şəkilçilər sözlərin kökünə qoşulmaqla bir sözdən başqa bir söz əmələ gətirir.

Ad düzəldən şəkilçilərə fikir verək: *yaz-yazı-yazıçı, qızar-qızartı* və s.

Feil düzəldən şəkilçilərə fikir verək: *sür – sürü (mək), yar-yarala* və s.

Sifət düzəldən şəkilçilərə fikir verək: *ağıl-ağıllı-ağılsız, yuxu-yuxulu-yuxusuz* və s.

1. Konkret olaraq, şəkilçiləri ad düzəltmələrinə görə belə qruplaşdırmaq olar:

-*baz:* sözbaz, hoqqabaz, oyunbaz və s.

-*dan:* şamdan, güldan, çaydan, qənddan və s.

-*dar,* - *dər:* xəzinədar, əməkdar, maldar və s.

-*zadə:* Əlizadə, Həsənzadə və s.

-*i,* -*vi:* tarixi, Şirvani,kimyəvi, dünyəvi və s.

-izm: materializm, idealizm və s.

-*iyyat,* -*iyyət,* -*at,* -*ət:* təbliğat, ədəbiyyat, bəşəriyyət və s.

-*ist:* maşinist, materialist, idealist və s.

-*kar:* sənətkar, fitnəkar, peşəkar və s.

-*keş:* zəhmətkeş, qayğıkeş, dəmkeş və s.

-*gər:* kimyagər, zərgər, hiyləgər və s.

-*laq,* -*lək:* qışlaq, çaylaq və s.

-*lar,* -*lər:* iyirmialtılar, qırmızılar, ağlar və s.

-*man:* qocaman, azman, qaraman və s.

-*pərəst:* atəşpərəst, şöhrətpərəst və s.

-*xana:* toyxana, kitabxana və s.

-*xor:* rüşvətxor, müftəxor və s.

-*çaq,* -*çək*: qolçaq, dibçək və s.

-*çılıq,* -*çilik,* -*çuluq,* -*çülük:* öhdəçilik, kasıbçılıq, dilxorçuluq və s.

-*iş:* geniş, nəmiş

-*lam:* sağlam

-*şünas:* şərqşünas, musiqişünas, dilşünas və s.

-*ant*: kursant, diplomant

-*er:* milyoner, milyarder

-*gir*: fəndgir

-*xah*: xeyirxah

-*gah*: ordugah

-*tuq*: qoltuq

-*mur*: yağmur

a) Adlardan ad düzəldənlər:

-*lıq*$^4$ – dağlıq, dülgərlik, dostluq, meşəlik, üzümlük, uşaqlıq, müəllimlik, tələbəlik və s.

-*çı*$^4$ – dəmirçi, neftçi, dilçi, ədəbiyyatçı və s.

-*lı*$^4$ – yağlı, duzlu, məzəli və s.

-*sız*$^4$ – duzsuz, yağsız, qolsuz, dizsiz, ağılsız və s.

- *daş* – vətəndaş, yoldaş, sirdaş, əməkdaş və s.

-*ı*$^4$ – buğdayı, xurmayı və s.

-*kı*$^4$ – axşamkı, səhərki, dünənki və s.

-*dakı*$^2$ – evdəki, səndəki, məndəki və s.

-*sal* – qumsal.

-*axay* – solaxay.

**Qeyd:** Adlardan ad düzəldən şəkilçilər içərisində ərəb-fars və s. dillərdən keçmiş şəkilçilər də var. Məsələn, fars dilindən keçənlər: -*gər (zərgər)*, -*şünas (musiqişünas)*, -*xor (rüşvətxor)*, -*keş (zəhmətkeş);* Ərəb dilindən keçənlər -*i (-vi) – tarixi əsər, Şirvani,* -*iyyat*$^2$*– ədəbiyyat,* -*at (təbliğat),* rus dilindən keçənlər - *ist (materialist)*, - *izm (idealizm)* və s.

Ad düzəldən şəkilçilər içərisində daha məhsuldar olanlar feillərdən ad düzəldən şəkilçilərdir. Aşağıdakı şəkilçiləri misal göstərmək olar:

*1. -ıq, -ik, -uq, -ük, -q*

Məsələn: *tapşırıq, bacarıq, qoruq, buruq, hörük* və s.

Kəsdiyiniz hörüklər cüt yola döndü, hərəmiz bu yolun birinə düşdük. (N.Kəsəmənli)

Bu dünyada sarmaşıqlar üçün dikələn ağaclardan biriyəm. (N.Kəsəmənli)

*2. -ış, -iş, -uş, -üş:*

Məsələn: *baxış, duruş, görüş, qavrayış, yalvarış, yağış* və s.

Səsin həmin səsdir, baxışın ögey, gedirsən, səsin də yad olsun barı. (N.Kəsəmənli)

Bu göz yaşlarıyla, bu yalvarışla, yolların tozunu yatırmaq olmaz. (N.Kəsəmənli)

Gözlərimə doldurmuşam yağışı, bir köynəkdə çıxarmışam mən qışı. (N.Kəsəmənli)

Bir əlim getsə də bir əlim durur, yarış meydanında hələ varam mən. (H.Arif)

*3. -ma,-mə:*

Məs.: *süzmə, qovurma, çəkmə, bağlama, çaxnaşma* və s.

Açdıq bağlamanı danışa, gülə fikirdən qaşlarım çatıldı birdən. (N.Kəsəmənli)

Saraya bir çaxnaşma, saraya haray düşdü. (N.Kəsəmənli)

*4. -aq, - ək, - q, -k:*

Məs.: *qaçaq, daraq, yataq, qoruq, döşək, budaq, sınaq, soraq* və s.

Sevgi hələ ömür deyil, əzizim qarşıda illərin sınağı durur. (N.Kəsəmənli)

Şöhrətin üstünə yüyürdükcə mən, istəklər, arzular köçür könlümdən. (N.Kəsəmənli)

Əllərdə yolunan saçı pərişan, niyə daraq çəkib, hörən tapılmır. (N.Kəsəmənli)

Vətən bir budaqdır, yaşıl budaq. Ümiddən asılı yarpağam mən də. (N.Kəsəmənli)

Oğul saçı daraq, külək istəməz, istər ana barmağıyla darana. (Z.Yaqub)

*5. -ım, - im, -um, -üm:*

Məsələn: *geyim, ölüm, biçim, uçurum, dözüm, aşırım* və s.

Axır, dayanmayır həyat sel kimi, Ölüm addım-addım izləyir bizi. (N.Kəsəmənli)

Elə bil düyündü, çözümü yoxdur, dadsız günlərimin düzümü yoxdur, daha bundan artıq dözümüm yoxdur. (N.Kəsəmənli)

*6. –qı, -ki, -qu, -kü, -ğı, -gi, - ğu, -gü:*

Məs.: *pusqu, sevgi, sərgi, bölgü, duyğu, yanğı, qayğı, çalğı* və s.

İlk sözün, ilk sevgin dünyamdı mənim, sənin son sözünü mən necə yozum. (N.Kəsəmənli)

Boylandıqca baxış yanır, göz yanır, bu yanğıya sellər, neyləsin? (H.Arif)

Yenə baxışların niyə yol çəkər, bir duyğu, bir istək qəlbimi döyər. (N.Kəsəmənli)

*7. - gə:*

Məs.: *süpürgə, döngə, düşərgə* və s.

O, qədər çəkişdik, həm firqələrə, həm də bölgələrə bölündü millət. (B.Vahabzadə)

Xüsusi döngələrdə çox ehtiyatlı olmaq lazım gəlirdi. (İ.Əfəndiyev)

*8. -qın, - ğın, - qun, - kün:*

Məs.: *basqın, satqın, qırğın, yanğın, üçqun, köçkün* və s.

Sərkərdə katqın olsa, igidi əsir düşər. (N.Kəsəmənli)

Neçə toy – düyün getdi, ömür getdi, gün getdi. Bu yerin sahibləri sahibsiz köçkün getdi. (N.Kəsəmənli)

Olmasaydı o basqınlar, o qırğınlar, o bəlalar, yaranmazdı bu qalalar. (H.Arif)

*9. -ın, - in, - un, - ün:*

Məs.: *əkin, səpin, biçin, gəlin, biçin, düyün, axın* və s.

Bir qadın saçına vurulub düyün, ona ana adı gətirmişəm mən. (N.Kəsəmənli)

Gözəl vətənimin gözəl bir qızı, istərdim mənim də gəlinim olsun. (H.Arif)

*10. - id, -üd:*

Məs.: *öyüd, keçid* və s.

Bir çəmənəm sağı, solu qaralmış, Bir zirvəyəm keçidimi qar almış. (H.Arif)

*11. -ı, -i, -u, -ü:*

Məs.: *yazı, qorxu, çəki, ölçü*

Əsəblər bir tarım sim olub indi, yenə yuxulara qorxu atılıb. (N.Kəməsənli)

Bu biz, bu məhəbbət, bu alın yazı, Yoxsa bu yazıya əgər bir pozu. (N.Kəsəmənli)

*12. -ıcı, - ici, - ucu, - üçü:*

Məs.: *atıcı, satıcı, sürücü, qurucu, qızdırıcı, qaldırıcı* və s.

Sərxoş sürücülər, nasaz maşınlar, fikirli adamlar ovuna çıxar. (N.Kəsəmənli)

*13. -ınc, - inc, - ünc:*

Məs.: *sevinc, qaxınc* və s.

Küçədə toy keçir bu axşam yenə, Dodaqda təbəssüm, üzdə sevinc var. (N.Kəsəmənli)

*14. - a, - ə:*

Məs.: *yara, çevrə*

Sinəmə yara vurdular, oda atıb qovurdular. (N.Kəsəmənli)

Yara ağırdı bitişməz, bu qada candan ötüşməz. Əsli Kərəmə yetişməz orada keşiş dayanıb. (Z.Yaqub)

*15. -c:*

Məs.: *qazanc, güvənc, tıxac, söykəc* və s.

Çox şey itirmişəm həyatda çox şey, qazancım bir odlu cavanlıq olub. (N.Kəsəmənli)

Kimə güvənim indi, güvənc yerim qalmayıb. (N.Kəsəmənli)

*16. - ıc, - ic:*

Məs.: *ayrıc*

Durmuşuq biz iki yol ayrıcında, Birində vüsaldır, birində həsrət. (N.Kəsəmənli)

İki yolun ayrıcında dayanıb, Gah o yandan, gah bu yandan qorxuram. (B.Vahabzadə)

*17. - ar, - ər:*

Məs.: *açar, kəsər, dəyər, çapaq, çıxar, sevər,sönər, yetər* və s.

Elə bu sözdədir ən böyük kəsər, İşıqlar birləşsə, nur deyər cahan. (N.Kəsəmənli)

Hər eyhamın bir tilsimə açardı, Dil bilsəydi, daş da könül açardı. (N.Kəsəmənli)

*18. - tı, - ti, - tu, - tü:*

Məs.: *böyürtü, qışqırtı, pıçıltı, uğultu, şırıltı, vıyıltı* və s.

Həqiqəti pıçıltıyla dedilər, haylı-küylü, yalanların içində. (N.Kəsəmənli)

Dəniz nəriltisi, su şırıltısı, yarpaq pıçıltısı, yel vıyıltısı onun qulağında ana axtaran körpə balasının hıçqırığıydı. (B.Vahabzadə)

Bir uğultu sədası qulağına ilişib, hər tərəf səsə düşüb. (N.Kəsəmənli)

*19. - maq, - mək:*

Məs.: *yemək, içmək, çaxmaq, cırmaq, qazmaq, çərtmək* və s.

Mən körpüsalanlarla birlikdə həm vəzifəmi yerinə yetirir, həm də özümüz üçün yemək-içmək hazırlayırdım. (İ.Əfəndiyev)

*20. -ıntı, - inti, -untu, - üntü:*

Məs.: *üzüntü, qırıntı, sarsıntı, döyüntü, gəzinti, ovuntu* və s.

Otaqda bir sıxıntı, gözlər kölgələnibdir. (N.Kəsəmənli)

Vurur ürəyinin döyüntüləri, onun hər sözündə hər kəlməsində. (B.Vahabzadə)

*21. -acaq, - əcək:*

Məs.: *qanacaq, yanacaq, gələcək, tutacaq, sığınacaq, umacaq* və s.

Gör nələr boylanır gələcəyindən, Qorx yadların sənə güləcəyindən. (N.Kəsəmənli)

Bu dünyadan umacağım nizandır, Qorxduğum kəs bu nizanı pozandır. (B.Vahabzadə)

*22. -maca, -məcə:*

Məs.: *tapmaca, bilməcə, atmaca* və s.

Həyat başdan-başa bir bilməcədir, İşıqlı gündüzüm zülmət gecədir. (H.Arif)

*23. -mış, - miş, - muş, - müş:*

Məs.: *bişmiş, yemiş, keçmiş* və s.

Biz qəlyanaltı etdikdən sonra mən çadıra qaçıb öz bişmişimizə baş çəkdim. (İ.Əfəndiyev)

Unutmadıq olanları, biz yenidən keçmişləri soraqladıq. (H.Arif)

*24. -cə:*

Məs.: *düşüncə, əyləncə* və s.

Əyləncələr qoymadı ki, göz açaq hər istəyi biz beləcə bitirdik. (N.Kəsəmənli)

Biri deyir ki, sənət insan düşüncəsini, fikrini, xəyalını uçurur qanadında. (B.Vahabzadə)

*25. - an, - ən:*

Məs.: *qalxan.*

Qalxan əydi belimizi, çox qısaltdı dilimizi, Qalxan altda qaldığımız yetər bizim. (B.Vahabzadə)

*26. - ır, - ir, - ur, - ür:*

Məs.: *gəlir, kəsir, yatır* və s.

Əmanət kassası deyil uşaqlar, xərcindən kəsərək qazanc görəsən, Artıq gəlirini orda saxlayıb, Sonra faiziylə ömür sürəsən. (B.Vahabzadə)

*27. - anaq, - ənək:*

Məs.: *boğanaq, biçənək, sızanaq, dəyənək* və s.

Əl edir uzaqdan yaşıl biçənək, Fikirli görünür dumanlı dağlar. (N.Kəsəmənli)

*28. –kəm:*

Məs.: *ötkəm, görkəm* və s.

Sonra özünə güvənən ötkəm bir ifadə ilə əlavə etdi. (İ.Əfəndiyev)

Belə məsum görkəminlə quzutək savaşına mən məhəbbət demirəm. (N.Kəsəmənli)

*29. - mur:*

Məs.: *yağmur.*

Nəmli olmayıbdır baxışlarımız, Yağmurlar düşübdür ürəyimizə. (N.Kəsəmənli)

*30. - cu:*

Məs.: *oxucu*

Könlümdə közərməmiş neçə qığılcım qalıb, Bir şeir marağında min-min oxucum qalıb. (H.Arif)

*Feillərdən sifət düzəldən şəkilçilər*

*1. - aq, - ək, - q, - k:*

Məsələn: *qorxaq, ürkək, soyuq, böyük* və s.

Əllərin nə yaman soyuqdur gülüm, Niyə bu soyuğu indi duymuşam? (N.Kəsəmənli)

Şəhla gözlərində giləl, nib yaş, Titrək dodaqları gömgöy kəsilib. (N.Kəsəmənli)

Sənin əlin böyüklər, şahlar ətəyindədir, Üzü dönük dünyanın hökmü, gücü səndədir. (B.Vahabzadə)

*2. - ğın, -gin, - ğün, - ğün, - qın, - kin, - qun, - kün:*

Məsələn: *gərgin, tutqun, kəskin, dalğın, yorğun, solğun, kəskin, küskün, ötgün* və s.

Batdım bircə damlasında, damlası da dərindir, Burada fərman qəzəb dolu coşqun ləpələrindir. (B.Vahabzadə)

Solğun gül qönçəsitək, açılmış əllərinə görürsənmi, hələ də isti yağışlar yağır. (N.Kəsəmənli)

Yıxıldı üzüquylu kədərinə Xanqızı, Qızıl libas içində o, ölgün bir sonadır. (N.Kəsəmənli)

O, bazarın çiçəkləri xəzəldi, Küskün qəlbin qəm yoluna düzəldi. (N.Kəsəmənli)

*3. -ıq, - ik, - uq, - ük:*

Məs.: *açıq, kəsik, yoluq, bükük, soyuq, buruq, əzik, dolaşıq* və s.

Gəncliyin illərdə axıb su kimi, Üzündə dolaşıq məcrası qalıb. (N.Kəsəmənli)

Kolların dibində tək bitdiyindən boynu bükük olur bənövşənin də. (B.Vahabzadə)

Qəlbimiz dost üçün açıq süfrədir. (N.Kəsəmənli)

*4. - caq, - cək:*

Məs.: *utancaq, sevincək* və s.

Yandır xatirəmi – o məktubları, orada ürəyimin harayı, ahı, qəlbimin utancaq sevdası yatır. (N.Kəsəmənli)

*5. - inc, - inc, - unc, - ünc:*

Məs.: *qorxunc, gülünc.*

Onun bizimlə tanış olmaq üçün elədiyi gülünc hərəkətlər birdən-birə mənə yazıq göründü. (İ.Əfəndiyev)

Sanki o il qış gəlməyəcəkdi, nəsə qara qorxunc bir şey gələcəkdi. (Ə.Əylisli)

*6. – c:*

Məs: *qısqanc.*

Qəribcana deyəcəyəm ki, siz yaman qısqancsınız. (İ.Əfəndiyev)

*7. - malı, - məli:*

Məs.: *içməli, gülməli, yeməli* və s.

Ay üzü baharlı əli qış sonam, gileyim gülməli gəlməsin mənim. (N.Kəsəmənli)

*8. - ülü:*

Məs.: *örtülü, küsülü,bükülü* və s.

İradəm sevginə əsir düşübdür, Neyləyim küsülü qala bilmirəm. (N.Kəsəmənli)

Yazda qalıb Göyçə gülü, nərgizləri yetim kimi, bənövşələri bükülü. (N.Kəsəmənli)

*9. - ıcı, - ici, - ucu, - ücü:*

Məs.: *darıxdırıcı, sarsıdıcı, yırtıcı*

Canavar isə yırtıcıların ən namərdidir. (İ.Əfəndiyev)

Mən ürəyimdə nə isə soyuq və darıxdırıcı bir şey hiss edib gözümü Adilin pencəyindən çəkdim. (İ.Əfəndiyev)

*10. – ri:*

Məs.: *əyri*

Evlər nə üçün belə əyri dayanmışdı, onların görünüşü necə soyuq və qorxuludur. (İ.Əfəndiyev)

*11. - ağan, - əyən:*

Məs.: *ağlağan, güləyən, qaçağan, yatağan* və s.

*12. - qan, - kən:*

Məs.: *çalışqan, döyüşkən, sürüşkən* və s.

Sən güvən öz ağlına, döyüşkən düz ağlına. (N.Kəsəmənli)

*13. - maz:*

Məs.: *dözülməz, çıxılmaz.*

Vüsala nə var ki, həsrət yamandır, Dözülməz olurmuş qısqanclıq odu. (N.Kəsəmənli)

Mən də atam kimi qorxmaz olmalı idim. (Ə.Əylisli)

*14. - ar, - ər, - r:*

Məs.: *ağlar*

Hər daş – qaşda bir göz yaşı, bir kədər, Ağlar könlüm aram olmur bir qədər. (N.Kəsəmənli)

*15. – gən:*

Məs.: *deyingən*

Yüz sözdən birinə dinməyən gəlin, Necə də deyingən qarıya dönüb. (N.Kəsəmənli)

*2. Feil düzəldən şəkilçilər*

*a) adlardan feil düzəldənlər:*

- *la,* - *lə* şəkilçisi adlardan feil düzəldən şəkilçilər içərisində demək olar ki, ən məhsuldarıdır. Bu şəkilçi isim, sifət, say, zərf və yamsılamalardan müxtəlif mənalı feillər düzəldir. Məs.: *işlə, bağla, arıqla, təmizlə, təklə, ütülə, irəlilə, gerilə, parla, gurla, mələ* və s.

Elə bağladım ki, könlünü o vaxt, indi pas tutubdur aça bilmirsən. (N.Kəsəmənli)

Dayan tufan, dayan külək, qoy dincəlsin yorğun ürək. Arif getdi Hüseyn tək dünya necə boşalıbdır. (H.Arif)

Nəyə lazım qulaq karsa, partlayacaq ürək darsa. (N.Kəsəmənli)

Maşınımız köç yolu ilə irəliləyərək dağlara qalxmağa başladı. (İ.Əfəndiyev)

- *laş,* - *ləş* şəkilçisi isim, sifət, say və zərflərdən feil düzəldir. Məs.: *fikirləş, ayaqlaş, vəhşiləş, asanlaş, yaxınlaş, uzaqlaş, birləş, ikiləş* və s.

Ürək ağrılarla dolub daşanda, insan başdan – başa gileylənərmiş, Yad qızı ocağa doğmalaşanda, Doğmalar get-gedə ögeyləşərmiş. (B.Vahabzadə)

İlk dəfə hardasa titrəyib səsim, Qızlar sözlərimdə qəribələşib. (N.Kəsəmənli)

Yuxu gördük gah qorxulu, gah da şən, Yuxularda əllər gördük birləşən. (N.Kəsəmənli)

Min kiçik birləşsə bir böyük edər, Küləklər sovurmaz onu kül kimi. (N.Kəsəmənli)

Qarşılaşdıq dil susdu, üz qızardı, mənim üzüm sənin üçün deyil ki…(N.Kəsəmənli)

Ağlım səndən uzaqlaşar qaçardı, ürəyimlə bacarmaram, neyləyim? (N.Kəsəmənli)

-*lan,* - *lən* şəkilçisi isim və sifətlərdən feil düzəldir. Məs.: *işıqlan, həyəcanlan, dillən, genişlən, lovğalan, avaralan* və s.

Hələ paslanmayıb xatirələr də, Hələ qəlbimizdə isti var bir az. (N.Kəsəmənli)

Balıq başdan iylənər, yaxşı deyib atalar. (N.Kəsəmənli)

Yollar genişlənər, yollar uzanar, obanı-obaya calayıb gələr. (N.Kəsəmənli)

Ağıl ucbatından təklənirik biz, Hərə bir tərəfdə yolur qaz kimi. (N.Kəsəmənli)

- *al,* - *əl,* - *l* şəkilçisi sifət və saylardan müəyyən hal və vəziyyəti əks etdirən təsirsiz feillər düzəldir. Məs.: *boşal, sağal, qaral, qısal, qocal, dincəl, çoxal, azal* və s.

Yazda yaşıl geyər yaşıl bulaqlar, Payızda boşalar bağçalar, bağlar. (H.Arif)

Bir yanıqlı ney səsi ucaldı Qarabağdan. (N.Kəsəmənli)

Elə bil azalıb durna qatarı, elə bil çoxalıb toy intizarı. (N.Kəsəmənli)

Ülvi məhəbbətin ömrü qısaldı, donunun ətəyi qısaldığı gün. (N.Kəsəmənli)

Ölümün min yerə yozulacaqdır, Dünyadan bir sevən azalacaqdır. (N.Kəsəmənli)

- *ar,* - *ər* şəkilçisi sifət və isimlərdən feil düzəldir. Məs.: *közər, ağar, göyər, bozar* və s.

Yerə düşdü odlu sözüm közərdi, Mənim sözüm sənin sözün deyil ki. (N.Kəsəmənli)

Köçüb gedəcəyəm günün birində hicran göyərəcək yerimdə mənim. (N.Kəsəmənli)

Bozarıb bağçalar, quruyub bağlar, Çiçəklər saralıb solandan bəri. (H.Arif)

- *a,* - *ə* şəkilçisi isim və sifətlərdən feil düzəldir. Məs.: *yaşa, ələ, dinlə, gözə, dişə* və s.

Qoymaram qəlbim tək vüqarım sına, alçalıb yaşamaq ömür-gün deyil. (N.Kəsəmənli)

Kədər mənə bənzəyir, Qəm kövrəlib sən kimi. (N.Kəsəmənli)

Dənizə bənzətmə yağış gölünü, Toz bilib tərpətmə ocaq külünü. (H.Arif)

Yox, mən istəmirəm bir çoxu kimi, yaşayaq bu sayaq, ölək bu sayaq. (N.Kəsəmənli)

Azmı peşimanam öz əməlimdən, Əbəs elənməyib saçlarıma dən. (H.Arif)

- *ı,* - *i,* - *u,* - *ü* şəkilçisi isim, sifət və zərflərdən feil düzəldir. Bu şəkilçi ilə düzələn feillər dilimizdə çox az miqdardadır. Məs.: *bərki, acı, turşu, yavaşı, ləngi* və s.

Kamalın töhvəsi, eşqin bəhrəsi, alovda bərkiyər, odla yaşayar. (H.Arif)

Bu millətin acı – doğru, toxu – oğru, Aclarına acıyıram, mən toxuna utanıram. (B.Vahabzadə)

- *sa,* - *sə* şəkilçisi isim və sifətlərdən feil düzəldir. Məs.: *susa, qəribsə.*

Dağlarsız nə yaman qəribsəmişəm, görən dağlar mənsiz qəribsəyibmi? (Ş.Arif)

Manükürü qurtarandan sonra məni çaya dəvət etdilər, bərk susadığımdan, məmnuniyyətlə razı oldum. (İ.Əfəndiyev)

Etiraf edim ki, bəzən axşamçağları onlar üçün darıxdım, qəribsədim. (İ.Əfəndiyev)

- *ıq,* - *ik,* - *uq,* - *ük,* - *ıx* şəkilçisi isim, sifət, say və zərflərdən feil düzəldir. Məs.: *darıx, karıx, pisik, birik* və s.

Qəriblik cücərdi yenə yolumda, Darıxdım, bir nisgil qəlbimi sıxdı. (N.Kəsəmənli)

- *sın,* - *sin,* - *sun,* - *sün* şəkilçisi isim və sifətlərdən feil düzəldir. Məs.: diksin, heyfsin, yaysın və s.

- *ılda*[4] şəkilçisi daha çox təqlidi sözlərdən feil düzəldir. Məs.: *zarılda, pıçılda, cırılda, gurulda, şaqqılda* və s.

Pıçılda adımı, səsin çatacaq ürəyimlə eşidirəm mən səni. (N.Kəsəmənli)

Göy də guruldamış deyirlər o gün, Çölləri, düzləri buludlar sarmış. (B.Vahabzadə)

- *imsə,* - *ümsə* şəkilçisi feil və əvəzlikdən düzültmə feil yaradır. Məs.: *mənimsə, gülümsə* və s.

Yəqin bərk qorxduğumu duyduğu üçündür ki, qəribə bir qayğısızlıqla gülümsədi. (İ.Əfəndiyev)

- *aş,* - *əş,* - *ş* şəkilçisi isim və yamsılamalardan feil düzəldir. Məs.: *yanaş, toqqaş, daraş* və s.

- *lat,* - *lət* şəkilçisi isim, sifət və zərflərdən feil düzəldir. Məs.: *aydınlat, kirlət, dərinlət, yoğunlat* və s.

- *an,* - *ən* şəkilçisi isim, sifət və yamsılamalardan feil düzəldir. Məs.: *şitən, daran, hoppan.*

- *si,* -*sı* şəkilçisi isim və sifətlərdən feil düzəldir. Məs.: *kifsimək, quraqsımaq, heyfsinmək, tamahsımaq* və s.

-*qır,* -*xır,* -*qur,* -*xur,* -*kir,* -*ür* şəkilçiləri əsasən təqlidi sözlərdən feil düzəldir. Məs.: *asqır, hıçqır, öskür, fınxır, üfür, fisqır* və s.

Məsmə xala uzun müddət öskürürdü və öskürə-öskürə qəzetdən papiros eşirdi. (Ə.Əylisli)

- *ırğa* şəkilçisi sifətdən feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məs.: *yadırğa.*

- *rə,* - *ri,* - *rən* şəkilçisi isim və sifətdən feil düzəldir. Məs.: *iyrən, çiyrən.*

Hələ də bibim küçələrdən Yaqubun səsini eşidir və bu səs müharibə vaxtı yetim Leyligilin qapısından ta çayxananın qabağındakı bütün yollara səpilən tif dərmanı kimi onu iyrəndirirdi. (Ə.Əylisli)

- *ız,* -*iz* şəkilçisi sifətdən feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məs.: *bərkiz.*

- *ğa,* -*ğala* şəkilçisi adlardan feil düzəldən qeyri-məhsuldar şəkilçidir. Məs.: *çulğa, çulğala* və s.

*b) feillərdən feil düzəldənlər:*

-*ala,* - *ələ:*

Məs.: *qovala, itələ, səpələ, sütələ, eşələ, silkələ* və s. *Göylər yağış tökər dolu səpələr, yeriyir dalğalar, qalxır təpələr.* (H.Arif)

Hansı bir qüvvə özü bilmədən qəfil itələdi içindən onu. (B.Vahabzadə)

Karvan yola düzüldü, kəcavə silkələndi. (N.Kəsəmənli)

- *xa,* - *xala:*

Məs.: *ovxala, çalxala*

Dərya olub, nəhr olub, çalxalanmaq istəyirəm, Göylərdə ulduz kimi mən yanmaq istəyirəm. (B.Vahabzadə)

Dünya çalxalandı, sular duruldu, Tərsinə dolandı əsrin məhvəri. (B.Vahabzadə); Sonra Yaqub köynəyimi qaldırıb, ehmal çiynimi ovxaladı. (Ə.Əylisli)

- *qan,* - *qun:*

Məs.: *qısqan, udqun*

Əgər onlar mənim tayım bərabərim olsaydılar, bəlkə də qısqanardım. (İ.Əfəndiyev)

Sürət bacının oxuyub əzbərlədiyi mahnılar, yeməklə oxumaq arasındakı fasilələrlə birgə, udqunub boğazını artlayarkən onun çıxardığı müxtəlif səslərlə birgə mənim yadımda qalırdı. (Ə.Əylisli)

- *lə:*

Məs.: *salla, qovla, əylə*

Dodaq yanır, yanaq yanır, üz yanır, Buludumu, dumanımı əyləsin? (H.Arif)

- *əclə:*

Məs.: *döyəclə*

Yağış eyni şiddətlə çadırı tarap-turup döyəcləyirdi. (İ.Əfəndiyev)

- *ı,* - *i,* - *u,* - *ü:*

Məs,: *sürümək, qazımaq, qarsımaq* və s.

Ömrü boyu öz balaca ayaqlarında nənəm atamın köhnə iri başmaqlarını sürümüşdü. (Ə.Əylisli)

- *na,* - *nə:*

Məs.: *qısna, əsnə*

Körpü sənsiz də salınar deyə mən qəsdən əsnəyərək cavab verdim. (İ.Əfəndiyev)

- *ıx,* - *ik,* - *ux,* - *ük:*

Məs.: *sınıx, acıx, solux, durux, bezik, donux, yapıx* və s.

Qarı bir an duruxdu, gözündə yaş göründü. (N.Kəsəmənli)

-*ümsə:*

Məs.: *gülümsə*

Və elə bu andaca buldozerçinin mənə baxıb istehza ilə gülümsəyən gözlərini xatırlayıb əsəbləşdim. (İ.Əfəndiyev)

-*əzi:*

Məs.: *öləzi*

Yanıq Kərəmidən qəm qanadlanır, ürəkdə məhəbbət öləziyəndə. (N.Kəsəmənli)

-*sa:*

Məs.: *qapsamaq, axsamaq*

Bir gümüş köhlən də axsayar, o gün köhnə faytonları yağışlar döyər.

-*irgə:*

Məs.: *əsirgəmək*

Mənə də çox doğmadır bu güşələr, nalələr, Dünya əsirgəməyib əzabından onu da. (B.Vahabzadə)

Dost yolunda əsirgəməz nə desən, Harayıma çatasıdı səsləsən. (H.Arif)

-*uz:*

Məs.: *uduzmaq*

Bəzən bircə anın yanıltısından bütöv bir ömrünü uduzur insan. (B.Vahabzadə)

Bir ömür qazanıb susmağımızdan, Amma insanlığı uduzan olduq. (B.Vahabzadə)

Göstərilən şəkilçilərdən əlavə, dilimizdə feildən feil düzəldən bir sıra qeyri - məhsuldar və demək olar ki, tamamilə az işlənən şəkilçilər də vardır. Məs.: -*aş*$^{2}$ *(tutaş, çataş)*, -*xul (burxul)*, -*nux (vurnux)*, -*qla*, -*klə (oynaqla, sürüklə)*, -*ca*, -*cala (sıxcala)*, -*mala*$^{2}$ *(cızmala, eşmələ, bükmələ)*, -*an (dadan)*, -*şə (dinşə)*.

*3. Zərf düzəldən şəkilçilər*

*a) adlardan zərf düzəldənlər:*

-*a*,-*ə: sağ*-*sağa, acığ*-*acığa, bir baş*-*bir başa* və s.

*-ana,-ənə,-yana: şair-şairanə, mərd-mərdanə, ağa-ağayana* və s.

*-da, -də: yaz-yazda, qış-qışda, uşaqlıq-uşaqlıqda, əvvəllər-əvvəllərdə* və s.

*-dan, -dən: çox-çoxdan, bir-birdən, səhər-səhərdən, tənbəllik-tənbəllikdən* və s.

*-ən: qəsd-qəsdən, xaric-xaricdən, qəflət-qəflətən, daxil-daxilən* və s.

*-ı,-i,-u,-ü: sabahlar–sabahları, əvvəllər–əvvəlləri, gecə-lər– gecələri* və s.

*-kən:* səhər–səhərkən, axşam–axşamkən, tez–tezkən və s.

*-la, -lə: zor-zorla, sürət-sürətlə* və s.

-sız,-siz,-suz,-süz: *könül–könülsüz, istək–istəksiz, həvəs–həvəssiz* və s.

*-ca,-cə: ayrı–ayrıca, əvvəl–əvvəlcə, qalaq–qalaqca* və s.

-cadan, - cədən: *əvvəl–əvvəlcədən, yavaş–yavaşcadan* və s.

*b) feillərdən zərf düzəldənlər:*

*-araq,-ərək,-rək: qaçmaq–qaçaraq, yüyürmək–yüyürərək* və s.

*- caq, - cək: sevincək, utancaq* və s.

***Sintaktik yolla sözyaratma.*** Adından göründüyü kimi, burada ən azı iki söz sözyaradıcılığında iştirak edir. Sintaktik yolla sözyaradıcılığı aşağıdakı qaydalar üzrə əmələ gəlir.

a) *funksiyaya görə.* Burada mürəkkəb sözün əmələ gəlmə-sində əşyanın daşıdığı funksiya mühüm yer tutur. Məsələn: *tozsoran, aşsüzən, yerqazan, pambıqyığan, taxılbiçən, boyun-bağı, qolbağı, cıdırdüzü, vintburan, əlüzyuyan, otbiçən* və s.

b) *əlamətə görə.* Bu cür mürəkkəb sözlərdə əşyanın daşıdığı əlamət mühüm rol oynayır. Məsələn: *gündoğan, gün-*

*batan, şüşəbənd, beşmərtəbə, şəkərçörək, qaragöz, istiot, günəbaxan, qızılgül, qırxayaq, ağacdələn* və s.

c) *bənzətməyə görə.* Bu cür mürəkkəb sözlərdə əşyanın, predmetin bənzədilməsi əsas götürülür. Məsələn: *itburnu, quşəppəyi, çobanyastığı, quzuqulağı, ördəkburun, daşarmud, şirindil, dəvəquşu* və s.

d) *mənsubiyyətə görə.* Bu cür mürəkkəb sözlər mənsubiyyət əsasında əmələ gəlir. Məsələn: *meşəbəyi, əmioğlu, ayaqqabı, gecə quşu, əmidostu, dayı dostu, yerkökü, əmək haqqı* və s.

e) *ənənəyə görə.* Bu cür mürəkkəb sözlər dini-etiqadla bağlı olaraq əmələ gəlir. Məs.: *Əliqulu, Tanrıverdi, Məhəmmədəli, Allahqulu, Məmmədkərim, Allahverdi* və s

ə) *hərfi tərcüməyə görə.* Bu üsulla yaranan mürəkkəb sözlər başqa dillərdən hərfi tərcümə yolu ilə əmələ gəlir. Məsələn: *samokritika – özünütənqid, samoupravleniya – özünüidarə, dalnovidney – uzaqgörən* və s.

Sintaktik yolla mürəkkəb isimlər, sifətlər, zərflər və feillər də yaranır. Misallara diqqət yetirək: *tozlu-torpaqlı, adlı-sanlı, gözəl-göyçək, uzunsaçlı, hündürboylu, beliəyri, dilişirin, yan-yana, üz-üzə, ağız-ağıza, səhər-axşam, gecəli-gündüzlü, məhv olmaq, valeh olmaq, təşkil etmək, müalicə etmək* və s.

| *Sintaktik yolla yaranan mürəkkəb isimlər:* | *Sintaktik yolla yaranan mürəkkəb sifətlər:* |
| --- | --- |
| qırxayaq | şirin-şirin |
| qaçaqaç | uca-uca |
| tutatut | adlı-sanlı |
| dava-dərman | ikiüzlü |

| | |
|---|---|
| yol-iz | gözütox |
| get-gəl | əliəyri |
| incəsənət | dilişirin |
| üçbucaq | uzaqgörən |
| itburnu | dilbilən |
| suiti | sözqanan |
| saçburan və s. | qəlbiqara və s. |

| | |
|---|---|
| *Sintaktik yolla yaranan mürəkkəb zərflər:* | *Sintaktik yolla yaranan feillər:* |
| cəld-cəld | susub qalmaq |
| yavaş-yavaş | uzanıb yatmaq |
| birbaşa | donub qalmaq |
| üz-üzə | qanı qurumaq |
| axşam-səhər | dili dolaşmaq |
| yay-qış | ad qazanmaq |
| irəli-geri | dil tökmək |
| yerüstü | gözdən düşmək |
| dodaqaltı | yadına salmaq |
| gözaltı və s. | gözündən düşmək və s. |

Sintaktik yolla yaranan mürəkkəb sözlərin komponentləri arasında tabesizlik və tabelilik əlaqələrindən biri özünü göstərir. Deməli, mürəkkəb sözlər sintaktik yolla həm tabesizlik, həm də tabelilik əlaqəsi əsasında əmələ gəlir.

Tabesizlik əlaqəsi əsasında mürəkkəb sözlərin dilimizdə əsasən aşağıdakı növlərinə təsadüf olunur:

a) bir-birindən fərqli iki leksik vahidin birləşməsindən əmələ gələnlər: *Məmmədqulu, Məmmədəli, Məmmədhüseyn* və s.

b) eyni sözün təkrarından əmələ gələnlər: *qol-qola, çiyin-çiyinə, dil-dilə* və s.

c) sinonim və yaxın mənalı sözlərdən əmələ gələnlər: *el-oba, qol-budaq, gözəl-göyçək, dost-aşna, dost-tanış, tanış-biliş, qohum-qardaş* və s.

ç) antonim sözlərdən əmələ gələnlər: *gecə-gündüz, dost-düşmən, səhər-axşam, tez-gec* və s.

Tabelilik əlaqəsi əsasında mürəkkəb sözlərin dilimizdə əsasən aşağıdakı növlərinə təsadüf olunur:

a) yanaşma əlaqəsi əsasında əmələ gələnlər: *uzunsaç, ucaboy, onillik, şirindil* və s.

b) idarə əlaqəsi əsasında əmələ gələnlər: *quzuqulağı, həftəarası, ucdantutma, ağızdan-ağıza, dildən-dilə, uzaqdan-uzağa, birdən-birə* və s.

# İstifadə olunmuş ədəbiyyat

*Azərbaycan dilində:*


Azərbaycan dilinin izahlı lüğəti. I hissə, Bakı, 1966.

Azərbaycan dilinin izahlı lüğəti. II hissə, Bakı, 1980.

Azərbaycan dilinin izahlı lüğəti. III hissə, Bakı, 1983.

Azərbaycan dilinin izahlı lüğəti. IV hissə, Bakı, 1987.

Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. «Elm», Bakı, 2005.

Adilov M.Qanadlı sözlər. «Yazıçı», Bakı, 1988.

Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 1975.

Azərbaycan dilinin orfoqrafiya lüğəti. «Lider nəşriyyat», Bakı, 2004.

Azərbaycan dilinin orfoqrafiya lüğəti. «Şərş-Qərb» Nəşriyyat Evi, Bakı, 2013.

Azərbaycan onomastikası problemləri. –Azərbaycan onomastik problemlərinə həsr olunmuş IV elmi-nəzəri konfransın materialları (26-27 mart 1992), N. Tusi adına ADPU-nun nəşri, Bakı, 1992.

Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978.

Bayramov İ. Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları. ADPU-nun nəşri, Bakı, 1999.

Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. «Elm», Bakı, 2002.

Bayramov A. Qədim Oğuz ellərinin-Ağbaba, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları. «Adiloğlu» nəşriyyatı, Bakı, 2003.

Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998.
Cəfərov S. Azərbaycan dilində sözyaradıcılığı. Bakı,1960.
Cəfərov S. Müasir Azərbaycan dili. «Maarif» nəşriyyatı, Bakı, 1970.
Cəfərov S. Azərbaycan dilində sözlərin leksik yolla əmələgəlmə proses.- S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin elmi əsərləri. 1958, №1.
Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı, 2004.
«Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları. – Pedaqoji Universitet Xəbərləri, Humanitar elmlər seriyası. №1, Bakı, 1999.
Ərəb və fars sözləri lüğəti. «Yazıçı», Bakı, 1985.
Əhmədov B. Azərbaycan dili sözyaradıcılığında sadələşmə meyli (şivə materialları əsasında). Bakı, 1990.
Əhmədov B. Azərbaycan dili şivələrində fono-semantik sözyaradıcılığı. Bakı, 1994.
Əlibəyzadə E. Azərbaycan dilinin tarixi. Birinci cild, Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2007.
Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. «Elm», Bakı, 2001.
Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995.
Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər. «Elm», Bakı, 1995.
Əsgərov N. Azərbaycan dilində hidronimlər. Bakı, 1995.
Əsgərov N. Azərbaycan hidronimləri. Bakı, 2002.
Əsgərov N. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. «Elm», Bakı, 2005.
Əliyev K. Frazeologiya bədii təsvir vasitəsi kimi. – Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1966, №1.
Əliyev Ayəddin Baldadaş oğlu. Fəxrəddin Hinduşah Naxçıvaninin «Əs-sihah əl-əcəmiyyə» əsərinin leksik və qrammatik xüsusiyyətləri. –Filologiya elmləri namizədi alimlik

dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın aftoreferatı, Bakı, 2007.
Əliyev V. Azərbaycanın toponimiyası, «Nurlan» nəşriyyatı, Bakı, 1999.
Əliyev V. Zəngəzurda qalan izimiz, «Nurlan» nəşriyyatı, Bakı, 2004.
Əhmədova R. Eyni titulun müxtəlif funksiyaları haqqında. – Azərbaycan onomastikası problemləri, IV elmi-nəzəri konfransın materialları. Bakı, 1992.
Ələkbərli Ə. Qədim türk-oğuz yurdu – Ermənistan. Bakı, 1994.
Ferdinand de Sössür. Ümumi dilçilik kursu. Bakı, 2003.
Hacıyev A. Azərbaycan dilinin onomastik sistemi. Bakı, 1990.
Həsənov H. Söz və ad. «Maarif» nəşriyyatı, Bakı, 1984.
Həsənov H. Azərbaycan dilinin antonimlər lüğəti. Azərnəşr, Bakı, 1986
Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. «Maarif» nəşriyyatı, Bakı, 1987.
Hüseynova S. Titulların funksiyaları.-Azərbaycan onomastikası problemləri, IV elmi-nəzəri konfransın materialları. Bakı, 1992.
Hüseynova S. Azərbaycan dilində titulların leksik xüsusiyyətləri. – Azərbaycan onomastikası problemləri, IV elmi-nəzəri konfransın materialları. Bakı, 1992.
Hüseynova S. Atalar sözlərində titulların üslubi xüsusiyyətləri.- Azərbaycan onomastikası problemləri, IV elmi-nəzəri konfransın materialları. Bakı, 1992.
Hüseynov S. Q.Zakirin əsərlərində işlənmiş omonimlər. Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1972, №2, s. 90-96.
Xəlilov B. Türkologiyaya giriş. Bakı, 2006.
Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2000, 2007.
Xudiyev N. Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı. Azərnəşr, Bakı, 2005.

İbrahimov M. Ana dili hikmət xəzinəsi. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1991.

İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik təhlili. «Ozan» nəşriyyatı, Bakı, 1997.

İsrafilov V. Azərbaycan oronim və hidronimlərinin Gürcüstan arealı. «Nurlan» nəşriyyatı, Bakı,1999.

Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. «Nurlan» nəşriyyatı, Bakı, 2004.

Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, 1973.

Qasımov İ. Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları. «Nurlan» nəşriyyatı, Bakı, 2000.

Qasımov İ. Azərbaycan dilində hərbi-terminoloji leksikanın təşəkkülü və inkişafı. Bakı, 2001.

Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı, 1985.

Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild, Bakı, 2003.

Quliyev Teyyub Arıx oğlu. İltisaqi dillər və dil qohumluğu məsələsi.-Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.Bakı, 2004.

Qıpçaq M. Söz aləminə səyahət. Bakı, 2002.

Müasir Azərbaycan dili. I cild, «Elm» nəşriyyatı, Bakı, 1978.

Müasir Azərbaycan dilinin leksikologiyasındın praktikum (tərtib edən: B. Əhmədov). I hissə, Bakı, 1980; II hissə, Bakı, 1981.

Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri. «Ağrıdağ» nəşriyyatı, Bakı, 2003.

Məmmədov M. Filoloji düşüncələr, «Nurlan» nəşriyyatı, Bakı, 2005.

Məşədiyev Q. Zaqafqaziyanın Azərbaycan toponimləri. «Elm», Bakı, 1990.

Məşədiyev Q., Seyidəliyev N. İzahlı onomastik terminlər lüğəti. «Nurlan» nəşriyyatı, Bakı, 2005.

Məmmədli N. Alınma terminlər. «Elm», Bakı, 1997.

Məmmədəli Y. Azərbaycan dilinin hərbi leksikası. Bakı, 1997.

Məmmədov Aqşin Minacəddin oğlu. Orxon-Yenisey abidələri və Azərbaycan dili. –Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2004.

Məmmədov Elçin Məhəmməd oğlu. Nəsiminin leksikası oğuz dilləri kontekstində (türk mənşəli ümumi isimlər və feillər əsasında). –Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2004.

Mir Cəlal. Klassiklər və müasirlər. Bakı, 1973.

Məmmədli F. Y.V. Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri. Bakı, 2005.

Məmmədov M. Dillərin qarşılıqlı əlaqəsi (Azərbaycan və erməni dillərinin materialları əsasında). Yerevan, 1986.

Mikayılova Ə. Azərbaycan dilində ləqəblər (nam. diss. Avtoreferatı). Bakı, 2001.

Niftəliyeva Fərəh Hüseyn qızı. Azərbaycan dilində dekorativ-tətbiqi sənət leksikası.-Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2007.

Orucov Ə. Azərbaycan dili filoloji izahlı lüğətinin nəzəri əsasları. Bakı, 1965.

Paşayev A. Azərbaycan dilində ləqəblər. Bakı, 1987.

Paşa Aydın. Azərbaycan antroponimiyasının leksik problemləri. Bakı, 1997.

Pənahi Makulu. Azərbaycan sözləri fars dilində. –Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. VI cild, Bakı, 1954.

Rəhimova D. Müasir fars dilində Azərbaycan –türk sözləri. Bakı, 1998.

Rəcəbli Əbülfəz. Qədim türk yazısı abidələrinin dili. I hissə, Bakı, 2006.

Rəcəbli Əbülfəz. Qədim türk yazısı abidələrinin dili. II hissə, Bakı, 2006.

Rusca-Azərbaycanca lüğət. I c., Bakı, 1990; II c., Bakı, 1990; III c., Bakı, 1990.

Sədiyev Ş. Ləzgi dilində Azərbaycan sözləri. - Dilçilik məcmuəsi, X cild, Bakı, 1957.

Sadıqova S. Azərbaycan dilində fizika-riyaziyyat terminologiyasının formalaşması və inkişafı. «Elm», Bakı, 1997.

Sadıqova S. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. «Elm», Bakı, 2005.

Səmədova K. Qərbi Azərbaycanın türk mənşəli areal etnotoponimləri. Namizədlik dissertasiyasının avtoreferatı, Bakı, 2004.

Sədiyev Ş.M. Ləzgi dilində Azərbaycan sözləri. -Dilçilik məcmuəsi, X cild, Bakı, 1957.

Şərifli Kamandar, Şərifli Aysel. Mehri və Vəfa (ədəbiyyatımızın və dilimizin nadir abidəsi). Bakı, 2001.

Şirinov Səfər Hökməli oğlu. Müasir Azərbaycan dilində fars mənşəli sözlər. – Filologiya elmləri namizədi, alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2007.

Süleymenov O. Az-ya. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1993.

Söz həmişə diridir. «Yazıçı», Bakı, 1993.

Talıbov Q. Azərbaycan dilində antonimlərin leksik və üslubi xüsusiyyətlərinə dair bəzi qeydlər. –Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1970, № 1, s. 104-109.

Talıbov Q. Antonimlərin bədii –üslubi xüsusiyyətlərinə dair. – Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1974, № 4, s. 59-63.

Talıbov Q. Semantik söz qrupları və onların üslubi cəhətdən qarşılıqlı əlaqəsinə dair. – Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri, ədəbiyyat, dil və incəsənət seriyası, 1970, № 2, s. 84-91.

Tanrıverdi Ə. «Kitabi-Dədə Qorqud»da şəxs adları. Bakı, 1999.

Verdiyeva Z., Ağayeva F., Adilov M. Azərbaycan dilinin semasiologiyası. Bakı, 1979.

Səlimov-Sağani Təvəkkül. İzahlı etnoqrafiya lüğəti. Bakı, 2004.

Təkləli M. Rus dilində türk sözləri. «Elm», Bakı, 2001.

Zahidi A. Müasir ərəb dilində türk mənşəli sözlər. Bakı, 1977.

Zərinəzadə H. Fars dilində Azərbaycan sözləri. Bakı, 1962.

## *Rus dilində:*

Баскаков И. Введение в изучение тюрских языков. М., 1969.

Баскаков И. Ногайский язык и его диалекты. М. -Л., 1940.

Баскаков Н.А. Русские фамилии тюркского происхождения. «Наука», М., 1979.

Брагина А. Синонимы в литературном языке. «Наука», М., 1986.

Ачарян Р.А. Взаимное влияние тюркского и армянского языков. –Первый Всесоюзный тюркологический сьездов, 26 февраля-5 марта, 1926 г. Стенографический отчет, Баку, 1926, стр. 152-153.

Гукасян Ворошил. Древние тюркизмы в удинском языке.- «Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri», Ədəbiyyat, dil və incəsənət seriyası, Bakı, 1978, №2, səh. 79.

Исследования по сравнительной грамматике тюрских языков. IV (лексика), М., 1962.

Историческое развитие лексики тюркских языков. М., 1961.

Мусаев К. Лексика тюркских языков в сравнительном освещении. М., 1975.

Чобанов М. Основы Азербайджанской антропонимики. Баку, 1995.

Фасмер Макс. Етимологический словарь русского языка (в четырех томах). «Прогресс», М., 1986-1987.

# MÜNDƏRİCAT


**LEKSİKOLOGİYAYA GİRİŞ ........................................................ 4**
Leksika haqqında məlumat ........................................................ 4
Leksikologiyanın növləri ........................................................ 7
Söz ........................................................ 8
Sözün zahiri və daxili cəhəti ........................................................ 10
Saf və hibrid sözlər ........................................................ 14

**AZƏRBAYCAN DİLİNİN LÜĞƏT TƏRKİBİ ........................................ 15**
Dilin lüğət tərkibi haqqında məlumat ........................................................ 15
Dilin lüğət tərkibinin əsas və əlavə hissəsi ........................................ 19
Azərbaycan dilinin leksik sistemi ........................................................ 21
Sözlərin leksik-semantik sistemi ........................................................ 23
İşləkliyinə görə sözlərin qrupları ........................................................ 23
İşlədilmə dairəsinə görə sözlərin qrupları ........................................ 26
Mənşəyinə görə sözlərin qrupları ........................................................ 26

**MƏNŞƏ CƏHƏTDƏN MÜASİR AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN LÜĞƏT TƏRKİBİ ........................................ 27**
1. Azərbaycan sözləri ........................................................ 27
*I. Türk dilləri ilə ortaqlı olan sözlər ........................................ 27*
*II. Həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözlər ............. 31*
*III. Şumer dili ilə ortaqlı olan sözlər ........................................ 32*
*IV. Xüsusi Azərbaycan sözləri ........................................ 36*
2. Alınma sözlər ........................................................ 38
Alınma sözlərin Azərbaycan dilinə daxil olma səbəbləri. ........................ 39
Alınma sözlərin təsnifi. ........................................................ 40
*Ərəb mənşəli sözlər ........................................................ 40*
*Fars mənşəli sözlər ........................................................ 42*
*Rus mənşəli sözlər ........................................................ 49*
*Avropa mənşəli sözlər ........................................................ 58*
*Qafqaz mənşəli sözlər ........................................................ 59*
*Adi və beynəlmiləl alınma sözlər ........................................ 65*

**İŞLƏNMƏ DAİRƏSİNƏ GÖRƏ FƏRQLƏNƏN SÖZ QRUPLARI ....... 73**
Ümumişlək sözlər ........................................................ 73
**Köhnəlmiş sözlər** ........................................................ 76
*I. Tarixizmlər ........................................................ 79*
*II. Arxaizmlər. ........................................................ 81*

*Tarixizmlərlə arxaizmlərin fərqi.* ........ *84*
*Tarixizmlərin və arxaizmlərin dildə üslubi imkanları.* ........ *85*
**Neologizmlər** ........ 87
**Dialektizmlər** ........ 97
*1.Fonetik dialektizmlər* ........ *97*
*2. Qrammatik dialektizmlər* ........ *98*
*3. Lüğəvi dialektizmlər* ........ *98*
**Terminlər** ........ 104
Peşə-sənət sözləri ........ 123
Ekzotik sözlər ........ 132
Varvarizmlər ........ 134
Arqo sözlər ........ 134
Jarqon sözlər ........ 135
Vulqar sözlər ........ 136
Loru sözlər ........ 136
Poetik sözlər ........ 137
İlkin və törəmə sözlər ........ 137
Qohum sözlər ........ 138
Ümumi və xüsusi sözlər ........ 138

**SEMASİOLOGİYA ........ 140**
Söz və məfhum ........ 140
Söz və məna ........ 142
Sözün leksik və qrammatik mənası ........ 143
Sözün mənasının daralması və genişlənməsi ........ 145
Sözün mənasının məcazi işlənməsi ........ *148*
*1.Metafora* ........ *150*
*2.Metonimiya* ........ *154*
*3.Sinekdoxa* ........ *156*
Sözün tam və natamam mənası ........ 158
Sözlərin təkmənalılığı və çoxmənalılığı ........ 158
Sözlərin məna qrupları ........ 163
Omonim sözlər ........ 163
Sinonim sözlər ........ 177
Antonim sözlər ........ 187
Tabu sözlər ........ 198
Paronim sözlər ........ 201

**ETİMOLOGİYA ........ 204**

**AZƏRBAYCAN ONOMASTİKASI ........ 210**
Müasir Azərbaycan ədəbi dilinin onomastik sistemi. ........ 211
Onomastik leksikanın təsnifi. ........ 212
Antroponimlər ........ 213

*Familiya* ... *223*
*Təxəllüs* ... *227*
*Ləqəblər* ... *230*
*Titullar və fəxri adlar* ... *233*
Etnonimlər ... 238
Toponimlər ... 238
*Toponimlərin mənşəyinə görə növləri* ... 243
Hidronimlər ... 250
Zoonimlər ... 252
Kosmonimlər ... 253
Ktematonimlər ... 253
Onomastik vahidlərin yaranması ... 254
Onomastik vahidlərin dildə üslubi rolu ... 255

**FRAZEOLOGİYA ... 260**
Frazeoloji vahidlərin xüsusiyyətləri ... 261
Frazeoloji vahidlərin sözlə oxşar xüsusiyyətləri ... 262
Frazeoloji vahidlərin sözdən fərqi ... 263
Frazeoloji vahidlərin tipləri ... 266
*Frazeoloji qovuşma* ... *269*
*Frazeoloji birlik* ... *270*
*Frazeoloji birləşmə (uyuşma)* ... *270*
Frazeoloji sabit ifadə və ibarələrin frazeoloji söz birləşmələrindən fərqi ... 271
Frazeoloji sabit ifadə və ibarələr ... 271
*Atalar sözləri* ... *272*
*Zərb məsəllər* ... *274*
*Rəvayətli ifadələr* ... *274*
*Hikmətli sözlər* ... *276*
Frazeoloji vahidlərin məna növləri **... 277**
*1. Omonim frazeoloji vahidlər* ... *277*
*2. Sinonim frazeoloji vahidlər* ... *278*
*3. Antonim frazeoloji vahidlər* ... *279*
*4. Çoxmənalı frazeoloji vahidlər* ... *280*
İsmi frazeologizm ... 281
Feili frazeologizm ... 282
Kommunikativ frazeologizmlər, yaxud cümlə tipli frazeologizmlər ... 285
Frazeoloji vahidlərin yaranma mənbələri ... 286
Frazeoloji vahidlərin bədii təsvir vasitələri kimi işlənməsi ... 290

**LEKSİKOQRAFİYA ... 294**
Lüğətlərin quruluşu və tərtibi prinsipləri ... 296
Lüğətlərin əsas tipləri ... 297
*1. Ensiklopedik lüğətlər* ... *297*
*2. Linqvistik lüğətlər* ... *298*

Azərbaycan dilinin izahlı lüğəti ........................................................ 299
Azərbaycan dilinin dialektoloji lüğətləri ................................................. 308
*Azərbaycan xalq şivələri lüğəti ................................................308*
*Azərbaycan dilinin dialektoloji lüğəti ...................................... 310*
Azərbaycan dilindəki əcnəbi sözlər lüğəti .............................................. 318
Azərbaycan dilinin omonimlər lüğəti ..................................................... 327
Azərbaycan dilinin sinonimlər lüğəti ..................................................... 329
Azərbaycan dilinin antonimlər lüğəti ..................................................... 330
Azərbaycan dilinə aid orfoepiya lüğəti .................................................. 330
Azərbaycan dilinə aid orfoqrafiya lüğəti ................................................ 332
Azərbaycan dilinin frazeoloji lüğətləri .................................................. 347
Terminoloji lüğətlər ................................................................................ 354
*1. İzahlı terminoloji lüğətlər. ..................................................383*
*2. İzahlı-tərcümə terminoloji lüğətlər. .......................................385*
*3. Tərcümə terminoloji lüğətlər. ...............................................385*
İkidilli tərcümə lüğətləri ......................................................................... 386
Çoxdilli tərcümə lüğətləri ....................................................................... 391

**SÖZYARADICILIĞI ..........................................................................394**
I. Dilin daxili imkanları hesabına sözyaradıcılığı .................................. 394
*Leksik yolla sözyaradıcılığı .....................................................394*
*Şivələr və dialektlər hesabına sözyaratma ................................ 395*
*Kalka üsulu ilə sözyaratma ...................................................... 396*
*Fonetik dəyişmə hesabına sözyaratma ......................................397*
II. Başqa dillərdən söz almaqla sözyaradıcılığı. .......................................398
Yeni məna kəsb etmək hesabına sözyaratma ...........................................399
*Semantik yolla sözyaratma ...................................................... 404*
*Morfoloji yolla sözyaratma...................................................... 409*
*Sintaktik yolla sözyaratma .......................................................428*
İstifadə olunmuş ədəbiyyat .................................................................... 432
*Azərbaycan dilində ..................................................................432*
*Rus dilində ............................................................................. 438*

Texniki redaktoru və dizayneri:
**İbrahim Nizamioğlu**

Operator:
**Mələk Əliyeva**

Korrektor:
**Gülarə Balayeva**

Yığılmağa verilmişdir: 15. V.2015
Çapa imzalanmışdır: 28.VIII.2015
Formatı 60x84 1/16. Həcmi: 27,75 ç.v.
Sayı: 1000, Sifariş: 77.
Qiyməti müqavilə yolu ilə.